Azərbaycan Milli Elmlər Akademiyası

GƏNCLƏR AKADEMİYASI

I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Azərbaycan Türkologiya Elmi: Sələflər və Xələflər” adlı gənc alimlərin

RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

21 may 2026-cı il
Bakı, Azərbaycan

TƏŞKİLAT KOMİTƏSİ

Sərxan Xavəri – Təşkilat Komitəsinin sədri, filologiya elmləri doktoru
Elmir Babayev – Təşkilat Komitəsinin həmsədri, dosent
Şəfa Əliyeva – Təşkilat Komitəsinin üzvü, fil.ü.f.d., dosent
Səbuhi Qəhrəmanov – Təşkilat Komitəsinin üzvü, fil.ü.f.d.
Orxan İsayev – Təşkilat Komitəsinin üzvü, fil.ü.f.d.
Arzu İsgəndərzadə – Təşkilat Komitəsinin üzvü, fil.ü.f.d.
Günel Əzimova – Təşkilat Komitəsinin üzvü, k.ü.f.d.

PROQRAM KOMİTƏSİ

Nadir Məmmədli – filologiya elmləri doktoru, professor
Hikmət Quliyev – filologiya elmləri doktoru, dosent
Əfzələddin Əsgərov – filologiya elmləri doktoru, professor
İsmayıl Kazımov – filologiya elmləri doktoru, professor
Sərxan Xavəri – filologiya elmləri doktoru, dosent
İlqar Niftəliyev – tarix elmləri doktoru, dosent
Səfa Qarayev – filologiya elmləri doktoru
Qətibə Quliyeva – filologiya elmləri doktoru
Mehman Həsənli – filologiya elmləri doktoru, dosent
Elnur Mustafayev – fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Sənan Həsənov – siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Şəfa Əliyeva – filologiya üzrə fəlsəfə doktoru, dosent
Orxan İsayev – filologiya üzrə fəlsəfə doktoru
Arzu İsgəndərzadə – filologiya üzrə fəlsəfə doktoru

I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Azərbaycan Türkologiya Elmi: Sələflər və Xələflər" adlı gənc alimlərin respublika elmi konfransının materialları. Bakı: “Elm”, 2026, – 316 s.

ISBN 978-9952-602-33-3

© "Elm" nəşriyyatı, 2026

Mündəricat

Plenar

Hikmət Quliyev, Səfa Qarayev. Elmlərarası diskursda türkoloji folklorşünaslıq: inkişaf istiqamətləri 8
Elnur Kəlbizadə. Rəqəmsal regionallaşma şəraitində türk birliyindən Texno-Turana keçid perspektivləri və Azərbaycan 15

Bölmə 1

DİLÇİLİK: TARİXİ KÖKLƏRDƏN RƏQƏMSAL GƏLƏCƏYƏ

Arzu İsgəndərzadə. Müasir türk dünyasında ortaq türk dilinin formalaşmasında medianın rolu 24
Aytən Əliskəndərova, Nərmin Alıyeva. Birinci Türkoloji qurultay və Gəncə şivəsi: tarixi və elmi baxış 28
Çinarə Şahbazlı. Türk dillərinin müqayisəli qrammatikasında mənsubiyyət kateqoriyasının morfosintaktik və terminoloji tədqiqi 31
Çinarə Yolçubəyli. I Türkoloji Qurultayın Azərbaycan dilçiliyinə təsiri və Ağamusa Axundovun elmi irsi 34
Rəna Mahmudova. Rəqəmsal mühitdə emosiyaların ifadəsi 38
Saffet Alp Yılmaz. Zoocoğrafiyanın təsiri altında türk dillərində heyvan adlarının inkişafı 41
Ayşən Zərbəliyeva. Birinci Türkoloji Qurultayın türk dilləri üçün perspektivləri 44
Sərvər Şirinov. İmadəddin Nəsiminin Türk (Azərbaycan) "Divanı"nda əmr, arzu, təsdiq və inkar ədatların funksional-üslubi xüsusiyyətləri 48
Xəyal Əsgərli. Karaim dilinin Krım dialektində mənsubiyyət kateqoriyasının ifadəsi (İbrani hərfli məcmuələr əsasında) 53
Böyükxanım Eminli. Dildə qeyri-ekvivalent leksika: milli dəyərlərin dil kodunda yaşaması 57
Cəmilə Məhərrəmova. Oğuz tayfa adının Külüs və Payız toponimlərində izi 62
Fatimə Fətullayeva. Sultan Məcid Əfəndiyevin latın əlifbası ilə bağlı fikirləri: tərəqqi və mədəni dönüş 65
Ülkər Çəndirli. Onomastik sistemdə ideonimlərin yeri 68
Aynur Saydova. "Kodeks kumanikus"da şəxs-xəbərlik kateqoriyası 71
Könül Axundova. Müasir dilçilik rəqəmsal transformasiya və süni intellekt dövrü kimi 74

Məleykə Mirzəli. VII-VIII əsr qədim türk yazılı abidələrinin dilində yas mərasimi leksikası 78
Şəlalə Seyidova. "Divanü Lüğət-it-Türk"də türk dilinin və mədəniyyətinin tarixi izləri 83
Nərmin Qasımova. Zəki Vəlidi Toğanın həyatı, elmi fəaliyyəti və türkologiya elminə təsiri 86
Nigar Nağıyeva. Müasir dilçilikdə süni intellekt texnologiyalarının tətbiqi və problemləri 90
Vəfa Allahverdiyeva. Süni intellektin linqvistik problemləri 94
Rüzgar Camal. Eye/Göz komponentli somatik frazeologizmlərin müqayisəli təhlili (İngilis və Azərbaycan dilllərinin materialları əsasında) 98

Bölmə 2

TÜRKOLOJİ FOLKLORŞÜNASLIQ VƏ TÜRK XALQLARININ ORTAQ ƏDƏBİ MƏDƏNİ DƏYƏRLƏRİ

Şəfa Əliyeva. Sovet dövrü Azərbaycan dramaturgiyasında milli yaddaş və türkoloji təfəkkürün poetikası 101
Aytac Nəsirzadə. Folklordan poeziyaya: Səməd Vurğun poemalarında əfsanə və rəvayət süjetləri 104
Cahidə Yaqubova. Söyləyici xatirəsində erməni təcavüzçülüyü 107
Şükufə Vəliyeva. "Dantenin yubileyi" əsəri əsasında "kiçik adam" obrazının sosial və ekzistensial təhlili 111
Dilarə Əliyeva. Post-müharibə dövrü Azərbaycan nəsrində milli kimlik məsələləri 115
Güntəkin Musayeva. Qaçaq dastanlarının XX əsr Azərbaycan dramaturgiyasına təsiri 119
Nurlanə Məmmədova. Azərbaycan folklorunda simvolika və oxşar motivlər (Yusif Vəzir Çəmənzəminlinin fikirləri əsasında 122
Lalə Şabanova. Azərbaycanın UNESCO ilə əməkdaşlığı kontekstində türk mədəni irsinin qorunması və təbliği 126
Maya Abdullayeva. Folklor mətnlərində dəlilik fenomeni və trikster arxetipi: semantik təhlil 137
Xəzangül Məmmədova. Azərbaycan və Qaqauz epik folkloru: bənzərliklər, ortaq cəhətlər 141
Samir Səttarov. Azərbaycan ədəbiyyatında "digər" obrazı və türk kimliyi: imaqoloji yanaşma (Rəfail Tağızadə yaradıcılığı əsasında) 145
Ruhəngiz Əliyeva. Məmməd Əmin Yurdaqulun yaradıcılığında milli düşüncə və türkçülük 150
Günel Musayeva. Türk Epos ənənəsində Manas: paralel motivlər və ortaq mənəvi dəyərlər 153
Gülnar Yunusova. Bəkir Nəbiyevin səyahətnaməsində Yaponiya modeli: Şərq sivilizasiyalarının qarşılıqlı qavranılması 159
Təranə Məmmədova. Türk xalqlarının ortaq mənəvi mənbəyində nəsihət motivləri: "Kitabi-Dədə Qorqud" dastanı kontekstində 162
Vəsilə Razimi. Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı: ədəbi əlaqələr kontekstində 167
İlahə Əsgərova. Türkoloji Folklorşünaslıq prizmasından görünən Qarabağ toponimləri 171
Əsmər Əliyeva. "Aşıq Qərib" dastanında Şaman arxetipi: arxetipik varislik 175
Asəf Ruşanov. Türk xalqlarının ənənəvi ekoloji bilikləri və biomüxtəlifliyin qorunmasında rolu 180
Aytəkin Zeynalova. Postmodern ədəbiyyatda folklor izləri: Kamal Abdulla hekayələri əsasında 184

Aytən Vəlizadə. Nasir Mənzurinin "Qaraçuxa" əsərində mifoloji elementlər və insan, zaman, tale konsepsiyası 187
Aysun Cəbrayılova. XX əsrin əvvəlləri Türküstan intibahında Təvallo yaradıcılığının yeri və rolu 190
Nərmin Rzayeva. Azadə Rüstəmovanın tədqiqatlarında Fələki Şirvani irsinin təhlili 195
Əminə Məmmədova. Azərbaycan və Kərkük musiqisində mahnı paralelləri 198
Maya Həsənli. Əziz Nesin yaradıcılığında həbsxana mövzusu 203
Natavan İbrahimova. Səməd Mənsurun şeirlərində tənqid hədəfləri və dövrü türkoloji ideya mühiti 206
Nərgiz Kərimova. Sara Bağırovanın "Əjdaha mağarası" romanında əjdaha arxetipinin mifopoetik semantikası 210
Nərmin Həsənova. "Şirin duz" romanında aşıq obrazı: bədii xüsusiyyətlər və problemli məqamlar 213
Şəbnəm Mirzəzadə. Səmədağa Ağamalıoğlunun maarifçilik missiyası I Türkoloji Qurultay və "Ələngə" jurnalı kontekstində 216
Orxan İsayev. Xoyrat yaradıcılığının çağdaş İraq-Türkman poeziyasına təsiri 220
Aygün Orucova. Əli bəy Hüseynzadənin dünya ədəbiyyatında türklüyə iki fərqli münasibətə dair mükəmməl araşdırması 224
Afaq Hacıyeva. Kitabi-Dədə Qorqud əsərində fəlsəfi baxışlar və rəqəmsallaşma 228
Eyvaz Eminalıyev, Türkan Hüseynova. İnsan və təbiət münasibətləri: taleyin bədii interpretasiyası 231
Şəfəq Maksudova. Süruri və Şah İsmayıl Xətayi qəzəllərində səsləşən məqamlar 238
Sima Şəfizadə. Detektiv janrında milli identiklik (Kemel Tokayevin "Sui-qəsd" əsəri əsasında 241
Seyidnisə Lətifli. Azərbaycan və Qazax detektiv nəsrində paralellər: Cəmşid Əmirov və Kemel Tokayev yaradıcılığı əsasında 244
Günay Oruczadə. Qaqauz türkü və maniləri, onların Azərbaycan bayatıları ilə müqayisəsi 247

Bölmə 3

TÜRKOLOGİYANIN SOSİAL-FƏLSƏFİ ASPEKTLƏRİ

Zeynəb Həcəmova. Türk xalqlarında milli özünüdərk və emosional zəka xüsusiyyətləri: fəlsəfi-psixoloji aspektlər və rəqəmsal transformasiyalar 251
Cahangir Həsənov. Türk Dünya Vizyonu 2040-ın reallaşdırılmasının Azərbaycan Respublikasının iqtisadi inkişafına təsiri 257
Aynur Cəfərova. Birinci Türkoloji Qurultayda Umar Əliyevin elmi mövqeyi: tarixi-filoloji aspektdə 261
Sərraf Talıbov. Birinci Türkoloji qurultayı: gerçəkləşən arzular 264
Gözəl Əlizadə. Azərbaycan Türkologiyasında Repressiya Paradigması: Milli Kimliyin Müdafiəsi və siyasi təzyiqlər 269
Fidan Şahmalıyeva. I Ümumittifaq türkoloji qurultayın türkologiya elminin inkişafında rolu 272
Lamiyə Orucova. 1926-cı il Bakı Türkoloji qurultayı: akademik görünüş və siyasi reallıq 275
Günay Amirli. Türklərdə Quran araşdırmaları: tarixi təkamül və tərcümə ənənəsi 279
Gülanə Əliyeva. Nərgiztəpədəki Türk-Avşar qəbiristanlığı: Qarabağın oğuz-türk mədəni irsinin arxeoloji və etnoqrafik göstəriciləri 285
Xəyalə Muğamat. I Türkoloji qurultay sosial yaddaşın və milli kimliyin təzahürü kimi 288
Həmidə Əhmədova. Türk dünyasında inteqrasiya prosesləri: tarixi əsaslar və müasir geosiyasi kontekst 292
İlahə Əsədzadə, Nərgiz Rəsulova, Nuranə Həsənova. Gəncənin dünya türkologiyasına töhfəsi: Əhməd Cəfəroğlu irsi kontekstində 295
Nəzrin Əlizadə. Orxan Kamalın yaradıcılığında sosial-ictimai məsələlər 299
Püstə Cəfərova. Qloballaşma proseslərinin türk dünyasına təsirlərinin elmi-təhlili 302
Sahibə Musayeva. Saxur folklorunda inanclar 306
Səadət Məmmədova. Türkoloji qurultay ideyaları fonunda Hüseyn Cavidin ədəbi-fəlsəfi baxışları 309
Şənay İsmayılova. Türk dünyasında multikulturalizm: tarixi köklər və müasir reallıqlar 312

PLENAR

ELMLƏRARASI DİSKURSDA TÜRKOLOJİ FOLKLORŞÜNASLIQ: İNKİŞAF İSTİQAMƏTLƏRİ

Hikmət QULİYEV
AMEA-nın Folklor İnstitutunun direktoru
Filologiya elmləri doktoru
hikmet.guliyev85@gmail.com
https://orcid.org/0000-0002-9166-5627

Səfa QARAYEV
AMEA-nın Folklor İnstitutu
Filologiya elmləri doktoru
Aparıcı elmi işçi
safaqara@mail.ru
https://orcid.org/0000-0002-2736-5873

Məqalədə türkoloji folklorşünaslığın nəzəri-metodoloji inkişaf perspektivləri və onun müasir elmi paradiqma kimi formalaşması məsələləri araşdırılır. Türkoloji düşüncənin tarixi inkişaf mərhələləri nəzərdən keçirilərək türkologiyanın uzun müddət ideoloji və filoloji çərçivələr daxilində qavranılmasının bu sahənin nəzəri imkanlarını məhdudlaşdırdığı göstərilir. Müəlliflər türkoloji folklorşünaslığın emosional-mədəni diskurs səviyyəsindən sosial-antropoloji və elmi təhlil müstəvisinə keçirilməsinin zəruriliyini əsaslandırırlar. Bu kontekstdə "logiya" anlayışı türkoloji folklorşünaslığın metodoloji əsasını təşkil edən konsept kimi qiymətləndirilir. Məqalədə folklorun yalnız mətn hadisəsi deyil, kollektiv yaddaşın, sosial münasibətlərin, davranış modellərinin və mədəni identiklik mexanizmlərinin ifadəsi kimi öyrənilməsinin əhəmiyyəti vurğulanır. Həmçinin türk xalqlarının ortaq folklor irsinin müqayisəli və sistemli tədqiqi, rəqəmsal humanitar texnologiyaların tətbiqi, ortaq elmi platformaların formalaşdırılması və institusional əməkdaşlığın genişləndirilməsi məsələlərinə diqqət yetirilir. Nəticədə türkoloji folklorşünaslıq türk dünyasının ortaq mədəni irsini müasir elmi metodologiyalar əsasında araşdıran inteqrativ tədqiqat istiqaməti kimi dəyərləndirilir.

Açar sözlər: *türkoloji folklorşünaslıq, türkologiya, türkçülük, sosial antropologiya, elmi paradiqma.*

Giriş

2025-ci il oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ortaq tarixi və etnik köklərin, eləcə də dillərin türk xalqlarını vahid mədəni ailə kimi birləşdirdiyini vurğulayaraq Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində qeyd olunması təşəbbüsü ilə çıxış etdi. Bu strateji təşəbbüs 22 oktyabr 2025-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ilə rəsmiləşdirildi.

2024-cü ilin 14 fevral tarixində andiçmə mərasimində cənab Prezident İlham Əliyev "Bizim ailəmiz Türk dünyasıdır" tezisini irəli sürdü. Bu yanaşma ortaq tarix, ortaq dil, ortaq mədəniyyət və ortaq dəyərlər konseptlərini özündə birləşdirən və onları yeni semantik çətir altında sistemləşdirən metakonseptual çərçivə kimi dəyərləndirilə bilər. Çünki "ailə" modeli münasibətlərin keyfiyyətcə yeni mərhələsini ifadə edir: ortaq tarix təkcə keçmişin xatirəsi deyil, ortaq gələcəyin legitim əsası kimi çıxış edir. Ortaq dil qohumluq və yaxud kommunikasiya vasitəsi olmaqdan çıxaraq strateji inteqrasiyanın və qarşılıqlı anlaşmanın institusional alətinə çevrilir. Həmçinin ortaq mədəniyyət folklor və ənənə səviyyəsindən yüksələrək sistemli əməkdaşlıq, mədəni diplomatiya və humanitar siyasətin dayaq nöqtəsinə

transformasiya olunur. Şübhəsiz ki, bu şəraitdə ortaq dəyərlər siyasi həmrəylik, qarşılıqlı məsuliyyət və beynəlxalq platformalarda koordinasiyalı mövqe kimi təzahür edir.

Beləliklə, "Bizim ailəmiz Türk dünyasıdır" tezisi əvvəlki mərhələdə mövcud olmuş mədəni-identik birlik konsepsiyasını növbəti mərhələyə – strateji səviyyəyə qaldırır. Deməli, "türk ailəsi" fikri bir tərəfdən ortaq tarix və kimlik konseptini möhkəmləndirir, digər tərəfdən isə bu kimliyin davamlılığını təmin edəcək yeni mexanizmlər tələb edir. Bu istiqamətdə müstəsna dəyərə malik sahələrdən biri də elmi əməkdaşlıqdır.

Bu baxımdan türk dünyası ilə bağlı elmi tədqiqatların genişləndirilməsi, elmi prioritetlərin müasir dünyanın çağırışlarına uyğun təşkili və ortaq elmi maraqlara söykənən ortaq elmi mühitin yaradılması hazırki mərhələdə mühüm əhəmiyyətə malikdir.

"Türk ailəsi" anlayışı yalnız ideoloji və mədəni müstəvidə deyil, eyni zamanda elmi təhlil və bilik istehsalı sistemləri daxilində də inkişaf etdirilməli, ortaq elmi istiqamətlər, tədqiqat mexanizmləri və metodoloji yanaşmalar formalaşdırılmalıdır. Çünki hər hansı ortaq identikliyin davamlı və dinamik inkişafı onun müxtəlif səviyyələrdə, xüsusilə elmi fəaliyyət müstəvisində möhkəmlənməsi ilə mümkündür. Ortaq dəyərlərə əsaslanan mədəni inteqrasiya elmi əməkdaşlıq və ortaq tədqiqatların inkişafı üçün strateji baza kimi çıxış edə bilər. Müasir dövrdə mədəni mövcudluğun dayanıqlığı və inkişaf perspektivlərini müəyyənləşdirən ən mühüm göstəricilərindən biri məhz elmi fəaliyyət sahəsidir. Bu baxımdan folklor, dil, tarix və mədəni yaddaş kimi sahələr türk xalqlarının ortaq elmi mühitinin formalaşması və dünya elminə təqdim olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Zəngin mədəni irsə malik olan türk xalqları bu irsi ortaq elmi hədəflər və metodoloji prinsiplər çərçivəsində sistemləşdirib inkişaf etdirməklə həm öz tarixi-mədəni identikliyini elmi əsaslarla möhkəmləndirmək, həm də "türk ailəsi" anlayışını qlobal elmi məkanda ortaq intellektual bilik istehsal mədəni birlik kimi daha dolğun, ardıcıl və davamlı şəkildə təsdiqləmək imkanına malikdirlər.

Tarixi-epistemoloji baxış: Birinci Türkoloji Qurultayın türkçülük ideallarından sovet ideoloji elmi paradiqmasına

100 illik zaman intervalından – qloballaşma və rəqəmsallaşma çağının milli identikliyə və mədəni təhlükəsizliyə yönəltdiyi təhdidlər fonunda Birinci Türkoloji Qurultayın keçirildiyi tarixi şəraitə nəzər saldıqda, onu yalnız elmi forum kimi deyil, türkoloji təfəkkürün özünütəşkili istiqamətində atılmış tarixi-intellektual hadisə kimi qiymətləndirmək olar. Eyni zamanda bu Qurultay XX əsrin birinci rübündə Türk dünyası aydınlarının böyük cəsarətinin təzahürü və türk dünyasını bir araya gətirmək ideyasının əməli addımı idi. Lakin bu cəsarətli intellektual təşəbbüsün qarşısını almaq üçün Sovet ideologiyası yalnız milli ziyalı təbəqəsinin fiziki repressiyalara məruz qoyulması ilə məhdudlaşmırdı. Eyni zamanda humanitar və ictimai elmlərin sistemli ideolojiləşdirilməsi vasitəsilə epistemoloji nəzarət mexanizmi qururdu. Xalqın milli kimliyi, mədəni bütövlüyü, tarixi genezisi, dil və kollektiv yaddaşını araşdıran sahələr sovet siyasi düşüncəsində akademik fəaliyyət kimi deyil, potensial ideoloji risk kimi qiymətləndirilirdi və bunun nəticəsində Birinci Türkoloji Qurultayın ideyaları yalnız nəzəri səviyyədə qaldı, praktiki reallaşması ciddi şəkildə məhdudlaşdırıldı. Qurultayın formalaşdırdığı elmi-intellektual mühit göstərirdi ki, dil, tarix, folklor, ədəbiyyat və mədəniyyət ayrı-ayrı disiplinar sahələr deyil, milli identikliyin semantik bütövlüyünü yaradan bir-birinin tərkib hissəsi olan komponentlərdir. Məhz bu inteqrativ yanaşma milli özünüdərk prosesini gücləndirdiyi üçün ideoloji aparat həmin sahələri xüsusi nəzarət obyektinə çevirdi, metodoloji istiqaməti dəyişdirməyə, məzmunu siyasi doktrinaya uyğunlaşdırmağa çalışdı. Burada söhbət yalnız siyasi hədəfdən yox, milli özünüdərkin intellektual əsaslarını zəiflətmək strategiyasından gedirdi. Bu kontekstdə türkoloji düşüncənin sıradan çıxarılması yalnız elmi məktəblərin dağıdılması deyil, eyni zamanda milli özünüdərkin intellektual əsaslarının zəiflədilməsi strategiyası idi.

Çox mürəkkəb siyasi şəraitdə Birinci Türkoloji Qurultayın keçirilməsi müəyyən mənada "eyforik" təsir bağışlayır (Qasımov, C. (2019). Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər. Bakı. s. 9). Lakin Qurultayda bir araya gələn ziyalıların intellektual miqyası, eləcə də müzakirəyə çıxarılan problemlərin strateji xarakteri və tarixi missiyası göstərir ki, burada formalaşan elmi diskurs türkçülük və

ya milli təəssübkeşlik çərçivəsi ilə məhdudlaşmayan, daha geniş və fundamental məqsədlərə yönəlmişdi. Əslində, Qurultayın əsas mahiyyəti türkologiyanı ideoloji identifikasiya vasitəsinə çevirmək deyil, onu dil, tarix, mədəniyyət və kollektiv yaddaşın qarşılıqlı əlaqələri əsasında sistemli şəkildə öyrənən müstəqil elmi-paradiqmatik istiqamət kimi formalaşdırmaqdan ibarət idi.

Məhz buna görə də sonrakı dövrdə fəaliyyət göstərən sovet ideoloji sistemi beşikdəcə neytrallaşdırmağa çalışdığı və geniş mənada buna nail olduğu türkoloji konseptin elmi-metodoloji paradiqma səviyyəsində təşəkkül tapmasına imkan vermədi. Nəticədə türkologiya vahid epistemoloji model kimi institusionallaşa bilmədi. Elmi "türkoloji" anlayış ideoloji müstəviyə keçirilərək "türkçülük", "millətçilik", təəssübkeşlik, patriotizm, bir sözlə, pantürkizm kimi siyasi-emosional kateqoriyalarla eyniləşdirildi. Bu isə fəlsəfi baxımdan elmi bilik istehsalının əsas prinsiplərinə – obyektivlik, metodoloji müstəqillik və analitik universallıq meyarlarına zidd bir transformasiya idi. Beləliklə, türkologiyanın potensial elmi-paradiqmatik inkişafı ideoloji interpretasiya ilə əvəzləndi, nəticədə elmi konsept siyasi məna qatlarının dominantlığı altında öz epistemoloji dərinliyini tam şəkildə reallaşdıra bilmədi.

Doğrudur, sovet dövründə müəyyən mənada "sovet türkologiyası" formalaşdı. Lakin bu tədqiqat istiqaməti fəlsəfi paradiqma səviyyəsində türk xalqlarını "türkdilli xalqlar" çərçivəsindən kənara çıxarmadı. Əslində, türkologiyanın əsasən dilçilik üzərində qurulması və müqayisəli-tarixi metodologiyanın dominant mövqeyə yüksəldilməsi bu sahədə əldə olunan mühüm elmi nəticələrə baxmayaraq, tədqiqatların daha geniş konseptual müstəviyə – genezis, kollektiv kimlik, identiklik, mədəni birlik və tarixi-mədəni inteqrasiya kimi fundamental problemlərə yönəlməsinin qarşısını aldı. Türkoloji araşdırmaların məhz dil faktoru ilə məhdudlaşdırılması humanitar bilik istehsalını dar disiplinar çərçivədə saxladı və nəticə etibarilə türkologiyanın vahid elmi-paradiqmatik sistem kimi formalaşmasına imkan vermədi.

Bu proses eyni zamanda sovet ideoloji diskursunun təşviq etdiyi psevdoelmi konstruksiyalar – "xalqlar dostluğu" doktrinası, sosialist realizmi modeli və etnik identiklikdən məhrum "sovet xalqı" yaratmağa yönəlmiş süni metamillət konsepti ilə müşayiət olunurdu. Belə ideoloji çərçivə daxilində türkologiya elmi tədricən öz inteqrativ potensialından uzaqlaşdırıldı: türk xalqlarının ortaq genezisi, mədəni yaddaşı və identiklik problemləri elmi analiz obyektindən çox siyasi interpretasiya predmetinə çevrildi. Nəticədə türkoloji dilçilik, türkoloji ədəbiyyatşünaslıq, türkoloji sənətşünaslıq və türkoloji folklorşünaslıq kimi vahid nəzəri-metodoloji baza üzərində qurulan kompleks elmi istiqamətlər sistemli şəkildə formalaşa bilmədi.

Əgər bütün XX əsr türkologiyasına ümumi nəzər salsaq, görərik ki, elmi nailiyyətlərə və mütərəqqi nəticələrə baxmayaraq, türkologiya humanitar və ictimai elmləri əhatə edən müstəqil elmi paradiqma statusu qazana bilməmişdir. Bu isə SSRİ tərkibində yaşayan türk xalqlarının humanitar və sosial elmlər sahəsində həm lokal (ölkədaxili), həm regional (türk xalqları və dövlətləri müstəvisində), həm də qlobal (beynəlxalq elmi mühitdə) səviyyədə nəzəri-metodoloji baxımdan arzuolunan inkişaf mərhələsinə yüksəlməsini ciddi şəkildə məhdudlaşdırmışdır.

Məhz bu tarixi təcrübə bizə bir həqiqəti xatırladır: yad ideoloji diskursların dominantlıq etdiyi şəraitdə "türkoloji" konsept elmi paradiqmaya çevrilə bilməz! Ona görə də hazırki məqamda Birinci Türkoloji Qurultayın 100 illiyi yalnız yubiley tədbirləri deyil, müstəqil türk dövlətlərinin birgə iştirakı ilə qloballaşma, virtuallaşma, rəqəmsallaşma və süni intellektlə xarakterizə olunan yeni sivilizasiya mərhələsində türkologiyanın epistemoloji gələcəyini düşünmək üçün çoxsaylı imkanlar platformasıdır.

Təbidir ki, bu platformada zamanın ortaya qoyduğu və özünəməxsus tarixi gerçəklikdən qaynaqlanan bir çox suallar müstəqilliyin yaratdığı yeni imkanlar kontekstində yenidən baxılmaq və cavablandırılmaq tələb edir:

- türkologiyanın əminliyini müəyyən edən metodoloji meyarlar hansılardır?
- türkologiya müstəqil elmi paradiqma kimi hansı sahələri əhatə edə bilər?
- türkologiya ilə "türkçülük" və "millətçilik" harada kəsişir və yaxud harada ayrılır?
- milli identiklik diskursu ilə elmi obyektivlik arasında tarazlıq hansı nəzəri əsaslar üzərində qurulmalıdır?

Bu sualların mərkəzində mühüm bir açar anlayış dayanır: "logiya". Çünki türkçülük milli-romantik konsept kimi müəyyən mənada ideoloji çalarlar da daşıya bilər. Odur ki, 100 illik təcrübə bizə onu diktə edir ki, türkoloji təyinatlı elmi istiqamətlər (dilçilik, ədəbiyyatşünaslıq, sənətşünaslıq, folklorşünaslıq və s.) formalaşdırılarkən nəzəri-metodoloji bazanın intellektual əsaslar üzərində qurulmasına xüsusi nəzər yetirək.

Akademik İsa Həbibbəyli türkologiyanı ümumi şəkildə xarakterizə edərək yazır ki: "Yeri gəlmişkən qeyd edim ki, türkologiya dedikdə çox vaxtı yalnız dilçilik məsələləri başa düşülür. Belə təsəvvür olunur ki, türkologiya ancaq dilçilik məsələlərini əhatə edir. Əlbəttə, dil faktoru burada əsasdır, birincidir, təməldir. Amma ədəbiyyat, folklor, etnoqrafiya, incəsənət və tarix də türkologiya məsələsidir və hesab edirəm ki, bugünkü müstəqillik şəraitində məhz türkologiyaya bu baxımdan yanaşmaq zəruridir. Müasir baxımdan yanaşdıqda azərbaycanşünaslıq özü də türkologiyanın aparıcı bir qolu, ana xəttidir. Azərbaycanı öyrənən elmin bütün istiqamətləri – tarix, etnoqrafiya, dilçilik, folklor, ədəbiyyat və başqa sahələr bir yerdə həm də türkoloji elmlər sistemi deməkdir" (Həbibbəyli, İ. (2016). Birinci Türkoloji Qurultayın idealları işığında. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəfləri. Elmi sessiyanın materialları (10 iyun 2016-cı il) (s. 3–9). Elm və təhsil nəşriyyatı. s. 8).

Bu baxımdan türkoloji folklorşünaslıq elmi istiqamət kimi rasional-elmi məntiq əsasında formalaşmalıdır. "Logiya" emosional çağırışlar yox, səbəb-nəticə əlaqələri üzərində qurulan, terminoloji dəqiqliyi olan, elmi metodla işləyən bilik istehsalı deməkdir. Başqa sözlə, türkoloji folklorşünaslıq "türkçülüyün emosional dili"ni "elmi məntiqin dili" ilə əvəz etməlidir. Burada müxtəlif elmi sahələrinin filologiya, antropologiya, mədəniyyətşünaslıq, psixoanaliz və s. kimi nəzəri metodların türk xalqlarının folkloruna tətbiqi təkcə ortaq folklor mirasının deyil, həm də ortaq tədqiqat maraqlarının formalaşmasına imkan yarada bilər.

Türkoloji folklorşünaslıq: yeni elmi paradiqma və metodoloji konsept

Türkoloji folklorşünaslıq konsepti postsovet məkanında türk xalqlarının filoloji mərkəzli, mətn əsaslı folklorşünaslıq metodologiyasından uzaqlaşıb sosial-antropoloji folklorşünaslıq diskursuna keçidinə çağırış etmək üçün real imkan yaradır. Burada məqsəd filologiyanı inkar etmək deyil, filologiyanın dominant və yeganə prizma olmasını problem kimi göstərməkdir. Çünki folklor təkcə sözlü mətn deyil. Folklor "kollektivlik, ənənəvilik və variantlıq" kimi ortaya çıxan bilik, sosial münasibət, davranış modeli, ritual kod, gündəlik həyatın semantik sxemi, performativ ifadəsi və funksional mexanizmidir. Folkloru yalnız mətn kimi oxuyanda, onun "niyə yaşadığını" yox, yalnız "necə qurulduğunu" görürük. Sosial-antropoloji yanaşma isə, folkloru canlı proses kimi izləməyə, onu yaradan kollektivin mental xəritəsini, dəyərlər sistemini, sosial ziddiyyətlərini və adaptasiya mexanizmlərini anlamağa imkan verir.

Bu baxımdan türkoloji folklorşünaslıq yalnız ortaq folklor materiallarına deyil, həm də türk xalqlarının folklorundakı fərqlərə söykənməlidir. Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və digər məkanlarda müxtəlif sosial qrupların folkloru həmin qrupların sosio-dinamik inkişafı kontekstində tədqiq edilməlidir. Məsələn, çoban folkloru, bazar folkloru, dərzi folkloru kimi qrup folklorları yalnız mətn klişeləri üzərində deyil, həmin qrupların həyat ritmi, status münasibətləri, əmək bölgüsü, gündəlik ünsiyyət formaları, konfliktləri və etik kodeksləri əsasında öyrənilməlidir. Bu, türkoloji folklorşünaslığın "logiya" tələbini təmin edən əsas metodoloji addımlardan biridir.

Eyni zamanda, folklor yalnız "məqbul" etik-estetik materiallar toplusu deyil. Folklorun içində stereotiplər, qeyri-məqbul davranış kodları, mental zədələr, sosial gərginliklər və tabular da var. Elmi folklorşünaslıq idealizə edərək yox, bütün qatları öyrənərək sağlam nəticə çıxarmalıdır. Bu, həm elmi dürüstlük, həm də müasir mədəni siyasət baxımından vacibdir. Folkloru yalnız "gözəl" olanın vitrini kimi təqdim etmək deyil, folkloru kollektiv həyatın güzgüsü kimi oxumaq əsas prinsipə çevrilməlidir.

Beləliklə, türkoloji folklorşünaslıq konseptini aşağıdakı əsas postulatlar üzrə xarakterizə edə bilərik:

Birincisi, türkoloji folklorşünaslıq məfhumunun mərkəzində "logiya" komponenti dayanmalıdır. Bu, ideoloji romantizmi elmi rasionalizmə tabe etmək deməkdir. "Türkoloji" məzmunun elmə çevril-

məsi "logiya"nın tətbiqi ilə mümkündür: terminoloji dəqiqlik, metodoloji şəffaflıq, nəzəri model, müqayisəli araşdırma, analitik universallıq.

İkincisi, türkçülüyün romantik diskursundan elmi-nəzəri diskursa keçid üçün müasir elmi metodologiyaların və nəzəri modellərin tətbiqi vacibdir. Folklor materiallarına filologiya ilə yanaşı antropologiya, kulturologiya, semiotika, psixoanaliz kimi nəzəri metodların tətbiqi təkcə ortaq folklor mirasının deyil, ortaq tədqiqat maraqlarının da formalaşmasına xidmət edəcəkdir. Burada xüsusi bir məqamı qeyd etmək lazımdır: "türk xalqlarını öyrənmək üçün ayrıca nəzəri metod hazırlamaq" cəhdləri çox vaxt romantik yanaşmaların davamına çevrilir. Bizim məqsədimiz "özümüz üçün xüsusi metod" uydurmaq deyil, mövcud dünya elminin nəzəri bazası əsasında türk materialını sistemli şəkildə işləmək, onu beynəlxalq elmi dillə danışdırmaqdır.

Üçüncüsü, türkoloji folklorşünaslığın inkişaf xəttinin filoloji, yoxsa sosial-antropoloji strategiya üzrə qurulması məsələsi digər türk xalqlarının alimləri ilə birgə geniş elmi müzakirələr mövzusu olmalıdır. Bu seçim gələcək metodoloji çərçivəni müəyyənləşdirir və türk xalqları arasında elmi əməkdaşlığın semantik platformasını yaradır.

Dördüncüsü, ortaq ekspedisiyaların təşkili sahə tədqiqatlarını yeni mərhələyə çıxara bilər. Müxtəlif türk xalqlarının alimlərinin iştirakı ilə Azərbaycan, Türkiyə, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və digər bölgələrdə həyata keçiriləcək ekspedisiyalar, birgə sistemli toplanma işi türk dünyasının folklor reallığı barədə vahid metodoloji bazanın formalaşmasına imkan verər. Türkoloji folklorşünaslığın "elmi pəncərəsi" məhz bu cür ortaq sahə tədqiqatları ilə genişlənə bilər.

Beşincisi, türkoloji folklorşünaslıq dedikdə yalnız folklor irsinin toplanması və təsviri nəzərdə tutulmamalıdır. Bu yanaşma türk dünyasının vahid elmi pəncərədən dərkini, folklorun həm mətn, həm kontekst səviyyəsində təhlilini, folklorşünaslıq elminin ümumi nəzəri və metodoloji aspektlərinin sistemləşdirilməsini özündə ehtiva etməlidir. Yəni "toplama" ilkin şərtdir, amma "logiya"nın özəyi təhlildir.

Altıncısı, institusional koordinasiya mexanizmləri qurulmalıdır. Müxtəlif türk xalqlarının folklorşünaslıq məktəblərini bir araya gətirən daimi komissiya, ortaq mövzu və problemlər üzrə konseptual platforma və müasir sosial antropologiya diskursu əsasında "Türkoloji folklorşünaslığın əsasları" adlı fundamental dərsliyin birgə hazırlanması qarşıya qoyulan hədəflərə daha əsaslı nail olmağa imkan yarada bilər. Konseptlərin mütəmadi yenilənməsi üçün fəaliyyət göstərən işçi qrupunun formalaşdırılması isə bu sahənin nəzəri dinamizmini təmin etməklə yanaşı, formalaşdırılan elmi baxışların gənc nəsil tədqiqatçılara transferinə zəmin yarada bilər .

Türkoloji folklorşünaslıqda perspektiv sistemləşdirmə, rəqəmsallaşma və elmi etika prinsipləri

Düşünürük ki, türkoloji folklorşünaslığın folklorun daha əsaslı öyrənilməsinə şərait yaradan aşağıdakı metodoloji istiqamətlər üzrə diqqət mərkəzində saxlanılması bu sahənin elmi mənzərəsinin daha əsaslı formalaşdırılmasına şərait yarada bilər.

Türkoloji folklorşünaslığın inkişafı üçün mühüm sahələrdən biri nağılların kataloqlaşdırılması üzrə görüləcək işlərdir. Dünya folklorşünaslığında Aarne–Thompson süjet kataloqu nağıl materialının elmi təsnifatı və tipoloji təhlili baxımından əsas metodoloji alət kimi çıxış edir. Bu sahədə Azərbaycanda və Türkiyədə müəyyən təşəbbüslər mövcud olsa da, həmin işin bütün türk xalqlarında sistemli şəkildə həyata keçirilməsi türkoloji folklorşünaslığın daha əsaslı bazaya söykənməsinə şərait yarada bilər. Türk xalqlarının yaşadığı bütün coğrafiyalardan toplanmış nağıl mətnlərinin süjet kataloqları əsasında işlənməsi ortaq elmi maraqların formalaşmasına və türkoloji folklorşünaslığın tipoloji mənzərəsinin müəyyənləşməsinə öz töhfəsini verə bilər.

Bu istiqamətin davamı kimi folklorun ayrı-ayrı janrları üzrə ortaq və müqayisəli variantlar kataloqlarının hazırlanması zəruridir. Atalar sözləri, lətifələr və oxşar janr nümunələri üzrə mövcud toplular vahid metodoloji sistemə inteqrasiya edilmədiyi üçün motiv və süjetlərin yayılma arealını, semantik transformasiyalarını və struktur paralellərini kompleks şəkildə izləmək məhdud çərçivədədir. Müxtəlif türk xalqlarında eyni folklor vahidinin variantlarını əhatə edən ortaq kataloqlar "oxşar folklor vahidi"

anlayışının nəzəri əsaslarla işlənməsinə və müqayisəli folklorşünaslığın konseptual səviyyədə inkişafına imkan verə bilər.

Digər fundamental istiqamət müasir texno-kulturoloji folklor mühitinin ortaq maraqlar əsasında tədqiqidir. Türkoloji folklorşünaslıq artıq şifahi və yazılı düşüncənin fərqlərinə əsaslanan modellərlə kifayətlənməyərək virtual kommunikasiya şəraitində formalaşan kollektiv ifadə formalarının elmi əsaslarla öyrənilməsinə xüsusi diqqət yetirməlidir. Yazılı, sözlü, audio-vizual və multimedia ifadə formalarının paralel mövcudluğu şəraitində ənənəvi folklor bəzən modelləşdirici metafora kimi çıxış edərək kollektiv düşüncənin yeni virtual formalarının yaranmasında iştirak edir. Bu səbəbdən sosial-antropoloji metodologiyanın virtual gerçəklikdə meydana çıxan folklorik təzahürləri də əhatə etməsi zəruridir.

Bu mərhələdə rəqəmsal arxivlər və inteqrativ platformaların yaradılması xüsusi əhəmiyyət daşıyır. Türk dünyasının folklor irsinin qorunması və sistemli tədqiqi yerli rəqəmsal arxivlərin yaradılmasını, rəqəmsal mədəni-irs fondlarının formalaşdırılmasını və bu materiallar arasında metodoloji inteqrasiyanın təmin edilməsini tələb edir. Hazırda folklorşünaslıq sahəsində vahid təşkilati koordinasiya mexanizmi mövcud olmasa da, perspektivdə ortaq rəqəmsal elmi platformaların formalaşdırılması materialların çoxdilli texnoloji mexanizmlərlə əlçatanlığını artırmaqla yanaşı, müqayisəli tədqiqatların koordinasiyasına və sahənin daha fundamental əsaslarla inkişafına şərait yarada bilər.

Bu konseptual çərçivə daxilində akademik araşdırmalarda elmi etikanın qorunması, xüsusilə də süni intellektin tətbiqi imkanlarının mövcudluğu şəraitində etik prinsiplərin gücləndirilməsi istiqamətində mütəmadi addımlar atılmalıdır. Bu prinsip türkoloji folklorşünaslığın özü ilə bərabər inkişaf etməli, dünyanın müvafiq istiqamətdəki paradiqmalarını nəzərə almaqla dərinləşməlidir. Müəllif hüquqları, istinad mədəniyyəti, sahə materiallarının toplanması və təqdimində məsuliyyət, müqayisəli təhlildə obyektivlik və terminoloji dəqiqlik və s. türkoloji folklorşünaslığın elmi legitimliyini müəyyən edən əsas göstəricilərdən olmalıdır. Nəticə etibarilə, texnoloji imkanlarla etik məsuliyyətin uzlaşdırılması folklorun həm nəzəri səviyyədə dərinləşdirilməsinə, həm də sahənin institusional və fundamental inkişafına dayanıqlı zəmin yaradan əsas prinsiplərdən biri kimi çıxış edə bilər.

Ortaq türk keçmişindən ortaq türk gələcəyinə: türkoloji folklorşünaslıq diskursu

Ortaq türk keçmişi və dəyərləri ortaq türk gələcəyinin inşasında yalnız emosional yaddaş funksiyası daşımamalıdır. Ortaq miras diskursu məqsəd, məram, hədəf diskursuna çevrilməlidir. Keçmişdə "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Manas" kimi ortaq dəyərlərimiz olduğu kimi, gələcəkdə də ortaq elmi hədəflərimiz olmalıdır. Məsələn, birgə əməkdaşlıq çərçivəsində dərsliklərin hazırlanması, türk xalqlarının ortaq süjet və motivləri ilə bağlı kataloqların tərtib edilməsi, birgə çöl-sahə ekspedisiyalarının aparılması, ortaq rəqəmsal platformaların formalaşdırılması, nəticə etibarı ilə, türkoloji folklorşünaslıq kontekstində konseptual tədqiqatların ortaya çıxarılması və s.

Şübhəsiz ki, türkoloji folklorşünaslıq yeni nəsil tədqiqatçılar tələb edir. Xüsusilə də dünya elminin müasir metodlarına bələd olan, sosial-antropoloji düşüncə ilə işləməyi bacaran, rəqəmsal humanitar alətlərdən istifadə edə bilən, türkoloji düşüncəni qlobal elmi diskursa yönəldən tədqiqatçılar nəslinin yetişdirilməsi qarşıda duran mühüm hədəflərdəndir. Düşünürük ki, böyük türk yazıçısı Çingiz Aytmatovun qırğız həyatına söykənən yaradıcılıq aktı türk dünyasını hansı miqyasda beynəlxalq miqyasda təmsil edirdisə, türkoloji folklorşünaslar da müvafiq elmi diskursda həmin miqyasın intellektual ekvivalentini yaratmalıdırlar.

Bu baxımdan zamanımızın ruhuna uyğun olaraq AMEA Folklor İnstitutunun təşkilatçısı olduğu, sonuncu dəfə 2010-cu ildə sayca 6-cısı keçirilən "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" mövzusundakı beynəlxalq konfranslar silsiləsinin türkoloji folklorşünaslıq diskursunun müzakirə platforması kimi müasir hədəflər əsasında konkret elmi problemləri əhatə etməklə yenidən bərpa edilməsi məqsədəuyğun ola bilər.

Eyni zamanda "Türkoloji folklorşünaslıq" adlı beynəlxalq elmi jurnalın təsis olunması bu sahədə gedən prosesləri beynəlxalq səviyyədə təqdim etməklə müzakirə platformasını genişləndirə, sahənin "logiya" statusunu möhkəmləndirə bilər.

Bir cümlə ilə desək, türkçülük emosional-mənəvi harmoniyanı özündə ehtiva edən diskurs, türkoloji folklorşünaslıq isə, bilik istehsal edən sistem olmalıdır. Hesab edirik ki, qarşıda duran ən mühüm vəzifələrdən biri türk dünyasının ortaq irsini emosional "yaddaş" səviyyəsindən sosial-antropoloji "logiya" səviyyəsinə qaldırmaq, yəni funksional elmi və institusional platformaya çevirməkdir.

Düşünürük ki, bu transformasiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bəyan olunan "Bizim ailəmiz Türk dünyasıdır" metakonseptini humanitar və ictimai elmlər müstəvisində yeni inteqrativ elmi paradiqma kimi əsaslandıraraq, ortaq tarixi-mədəni yaddaş, dil birliyi və identiklik üzərində qurulan sistemli tədqiqat modelinin formalaşmasına metodoloji zəmin yaradacaqdır.

Beləliklə, türkoloji folklorşünaslıq türk xalqlarının folklorunu kollektiv yaddaşın, sosial münasibətlərin və mədəni identikliyin ifadəsi kimi inteqrativ metodlarla öyrənən, müqayisəli təhlil, rəqəmsallaşma və elmi etika prinsiplərinə əsaslanan, müxtəlif nəzəri-metodoloji prinsiplərin tətbiqini nəzərdə tutan, emosional türkçülük diskursunu rasional elmi "logiya" səviyyəsinə yüksəldən kompleks humanitar tədqiqat istiqaməti kimi qavranıla bilər.

TURKOLOGICAL FOLKLORE STUDIES IN INTERDISCIPLINARY DISCOURSE: DIRECTIONS FOR DEVELOPMENT

Hikmet Guliyev
Safa Garayev

This article examines the theoretical and methodological prospects for the development of Turkological folklore studies and explores its formation as a contemporary scientific paradigm. By reviewing the historical stages of Turkological thought, the authors argue that the long-standing perception of Turkology within ideological and philological frameworks has constrained the field's theoretical potential. The study substantiates the necessity of shifting Turkological folklore studies from an emotional-cultural discourse toward a social-anthropological and analytically grounded scholarly perspective. In this context, the concept of logy is interpreted as a key methodological foundation of Turkological folklore studies. The article emphasizes that folklore should be studied not merely as a textual phenomenon, but also as an expression of collective memory, social relations, behavioral patterns, and mechanisms of cultural identity. Particular attention is given to the comparative and systematic study of the shared folklore heritage of Turkic peoples, the application of digital humanities technologies, the development of common scholarly platforms, and the expansion of institutional cooperation. As a result, Turkological folklore studies are conceptualized as an integrative field of research that investigates the common cultural heritage of the Turkic world through contemporary scientific methodologies.

Keywords: *Turkological folklore studies, Turkology, Turkism, social anthropology, scientific paradigm.*

RƏQƏMSAL REGİONALLAŞMA ŞƏRAİTİNDƏ TÜRK BİRLİYİNDƏN TEXNO-TURANA KEÇİD PERSPEKTİVLƏRİ VƏ AZƏRBAYCAN

Elnur KƏLBİZADƏ
Milli Aviasiya Akademiyasının
Dil və ictimai fənlər kafedrasının dosenti
elnur.kalbizadeh@naa.edu.az
https://orcid.org/0000-0001-5870-034X

Məqalədə rəqəmsal-iqtisadi əsaslı Turan Birliyi anlayışı təqdim olunur. Tədqiqat tarixən etnik, mədəni və ideoloji əsaslara söykənən ənənəvi türk birliyi modelinin rəqəmsal və iqtisadi inteqrasiyaya əsaslanan yeni çərçivəyə strateji transformasiyasının zəruriliyini əsaslandırmaq məqsədi daşıyır.

Vurğulanır ki, formalaşmaqda olan yeni qlobal nizamda gücün mahiyyəti ciddi şəkildə dəyişir. Hərbi potensial və enerji resursları ilə yanaşı, süni intellekt, böyük verilənlər (Big Data) və informasiya axınlarına nəzarət strateji üstünlüyün həlledici mənbələrinə çevrilmişdir. Bu kontekstdə türk dövlətlərinin inteqrasiyası simvolik və mədəni həmrəylik çərçivəsindən kənara çıxaraq texnologiya mərkəzli və innovasiya yönümlü modelə keçməlidir. Təklif olunan rəqəmsal-iqtisadi əsaslı Turan Birliyi konsepsiyası yalnız türk dövlətlərini deyil, həm də Macarıstan, Finlandiya, Estoniya, Monqolustan, Cənubi Koreya və Yaponiya kimi ural-altay mənşəli digər xalqları da əhatə edə biləcək rəqəmsal-iqtisadi inteqrasiya platformasını yaratmağı nəzərdə tutur.

Məqalədə belə nəticəyə gəlinir ki, türk dünyasının gələcək inteqrasiyası ideoloji əsaslar üzərində deyil, rəqəmsal əlaqəlilik, texnoloji əməkdaşlıq və iqtisadi qarşılıqlı asılılıq prinsipləri üzərində qurulmalıdır. Azərbaycan Respublikası həm coğrafi mövqe, həm iqtisadi imkanlar baxımından formalaşmaqda olan bur birlikdə də rəqəmsal birləşdirici mərkəz rolunu özü üzərinə götürmək iqtidarındadır.

Açar sözlər: *Süni intellekt əsaslı Soyuq Müharibə, Turan, Türk Dünyası, rəqəmsal inteqrasiya, geopolitika*

Giriş

Rəqəmsallaşma və süni intellektin sürətli inkişafı beynəlxalq münasibətlər sistemini inqilabi şəkildə dəyişdirməkdədir. Rəqəmsallaşma dövlətlərarası ünsiyyətin daha sürətli şəkildə reallaşmasına şərait yaradır. Süni intellekt beynəlxalq müzakirələrdə, o cümlədən BMT Baş Assambleyası kimi forumlarda dövlətlərin davranışlarını konkret data bazalar əsasında proqnozlaşdırır, diplomatik danışıqların məlumatların təhlilinə əsasən faktlarla aparılmasına imkan verir [2]. Süni intellekt əsaslı inqilabi dəyişikliklər eyni zamanda bəzi təhdidlər doğrurur. Məsələn, diplomatik dezinformasiyanın yayılma sürəti artır, alqoritmik qütbləşmə meylləri meydana çıxır, texnologiya şirkətlərindən asılılıq güclənir və bu da öz növbəsində əlavə risklər yaradır [3].

Süni intellektin və rəqəmsallaşmanın güclənməsi həmçinin dövlətlərin güc anlayışını köklü şəkildə dəyişdirmişdir. Ənənəvi hərbi və enerji resursları ilə yanaşı, rəqəmsal texnologiyalar, süni intellekt, böyük verilənlər (big data) və informasiya axınlarına nəzarət yeni strateji üstünlük mənbəyinə çevrilmişdir. Məsələn, bir çox tədqiqatçılar ABŞ və Çin arasında hazırda bu resurslara nəzarət uğrunda gedən mübarizəni "İkinci soyuq müharibə", "Süni intellekt əsaslı texnoloji müharibə" (AI Tech War), "Süni intellekt əsaslı soyuq müharibə" və s. adlandırırlar [6, s. 284].

Bu baxımmdan regional birliklər və inteqrasiya modelləri də ideoloji və mədəni çərçivədən çıxaraq, getdikcə texnoloji və iqtisadi əsaslar üzərində formalaşmağa başlamışdır. Məsələn, Avropa İttifaqı 2025-ci ilin aprelində "Qitə üçün süni intellektlə bağlı Fəaliyyət Planı" ("AI Continent Action Plan") adlı sənədi qəbul etmişdir. Bu plan Avropa İttifaqını süni intellekt sahəsində qlobal liderə çevirməyi hədəfləyir. Fəaliyyət Planı Avropanın süni intellekt texnologiyaları baxımından inkişafını, onun bu sahədə dünyanın digər gücləri ilə rəqabət qabiliyyətinin artırılmasını nəzərdə tutur. Plana əsasən 2026-cı ilin sonuna qədər Avropa İttifaqında ən azı 13 Süni İntellekt fabriklərinin yaradılması nəzərdə tutulmuşdur [1].

Hazırda dünyada ən sürətlə inteqrasiya edən dövlətlər sırasında türk dövlətləri də vardır. Məlumdur ki, türk dünyasında uzun müddət mövcud olmuş Türk birliyi və Turan ideyası əsasən mədəni-etnik və millətçi diskurs üzərində qurulmuşdur. Yeni mərhələdə türk dövlətləri arasında əməkdaşlığın davamlı və funksional olması üçün iqtisadi, texnoloji və informasiya əsaslı inteqrasiya modelinin formalaşması zərurəti vardır. Bu baxımdan yalnız ortaq milli-etnik və mədəni dəyərlərə əsaslanan türk birliyindən daha geniş coğrafiyanı əhatə edə biləcək rəqəmsal və iqtisadi məzmunlu Turan Birliyinə transformasiya dünyadakı yeni geosiyasi şərtlər baxımından zəruridir. Burada əsas məqam ondan ibarətdir ki, türk birliyi ideyası yalnız birbaşa olaraq türk xalqlarının birliyi kimi nəzərdən keçirilirsə, Turançılıq Ural-Altay köklü bütün xalqların, o cümlədən macarların, finlərin, estonların, fin-uqor qruplarının, monqolların, tunquzların, bəzi hallarda hətta yaponların və koreyalıların birliyini nəzərdə tutur [5, s. 121-135].

Tədqiqatın başlıca sualı bundan ibarətdir: siyasi və milli kimlik faktoruna əsaslanan ideoloji türk birliyindən daha geniş coğrafiyanı əhatə edə biləcək iqtisadi və texnoloji əsaslı Turan Birliyinə keçid niyə zəruridir, bu necə reallaşa bilər və Azərbaycanın bu prosesdə rolu necə olacaqdır?

Metodologiya

Aparılan nəzəri təhlillər "ideoloji-siyasi" və "rəqəmsal-iqtisadi" modellərin konseptual çərçivələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bu transformasiyanın zəruriliyinin əsaslandırılması üçün vacib əhəmiyyət daşıyır.

Tədqiqatın metodoloji əsasını müqayisəli geosiyasi, diskurs və SWOT təhlilləri təşkil edir. Nəzəri baxımdan konstruktivizmin prinsiplərinə istinad edilmişdir. Konstruktivist yanaşma Türk birliyi ideyasının kimlik, tarixi yaddaş və ideoloji diskurs vasitəsilə necə formalaşdığını, struktur dəyişikliklər fonunda isə zamanla necə transformasiyaya uğradığını izah etmək məqsədilə tətbiq edilmişdir. Təhlilin əsas məqsədi iki modelin (ideoloji-siyasi əsaslı Türk Birliyi və rəqəmsal-iqtisadi Texno-Turan inteqrasiya modelini) oxşar və fərqli cəhətlərini müəyyənləşdirməkdir.

Eyni zamanda, Türk dövlətləri əsasında regionalizmin yeni forması olan rəqəmsal regionalizmin izahına cəhd edilmişdir. Məlumdur ki, bir tərəfdən texnologiya dünyanı sərhədsiz və daha qlobal edir, digər tərəfdən isə millətlər üçün təhlükəsizlik problemləri və özünümüdafiə qorxuları yaradır. Beləliklə, rəqəmsal regionalizm və ya süni intellektə əsaslanan regionalizm ətrafında çağırışlar meydana çıxır.

Bunlardan əlavə Azərbaycanın rəqəmsal-iqtisadi əsaslı Turan konseptində rolunu, güclü və zəif tərəflərini, imkan və təhdidləri qiymətləndirmək üçün isə SWOT təhlillər aparılmışdır.

Problemin tarixi konteksti və Avrasiya hartləndinin xüsusiyyətləri

Avrasiyanın mərkəzinə sahiblənmək uğrunda mübarizə əsrlər boyunca bu regionda geosiyasi proseslərin əsas hərəkətverici qüvvəsi rolunda çıxış etmişdir. Anadolu, Qafqaz, Mərkəzi Asiya və İran coğrafiyasının həm tarixi, həm də müasir əhəmiyyətini müəyyənləşdirən amil məhz bu olmuşdur. İmperiyaların, böyük güclərin regiona olan marağı, işğallar və istilalar Avrasiya hartləndinə təkcə müharibə, qırğınlar deyil, həm də milli və mədəni müxtəlifliyi bəxş etmişdir. Bu isə bölgə millətlərinin təfəkküründə cəmiyyət dualizminə, həmin millətlərə mənsub olan fərdlərin təfəkküründə isə şəxsiyyət dualizminə gətirib çıxarmışdır. Məsələn, Qafqaz və Mərkəzi Asiya regionunun xalqları coğrafi baxımdan özlərini həm avropalı, həm də asiyalı kimi hiss edirlər. Dini dəyərlərin yaşadılması baxımından region xalqları həm İslamın, həm Xristianlığın (bəzi konkret regionlarda isə həm də yəhudiliyin və zərdüştiliyin) əlamətlərini daşıyır və yaşadırlar. Regionun əsas müsəlman millətləri olan azərbaycanlılar, qazaxlar, özbəklər, türklər, taciklər inanc baxımından özlərini müsəlman kimi identifikasiya etsələr də, geyim, həyat tərzi baxımından İslam onlar üçün əsas müəyyənedici amil deyildir.

Bu məsələləri Anadolu, Qafqaz, Mərkəzi Asiya və İran coğrafiyasında yaşayan xalqların əksəriyyətinin nümunəsində qeyd etmək olar. Bu baxımdan Avrasiyanın ürəyi sayılan Mərkəzi Asiya və Qafqaz regionunda ultra-millətçi, din təməlçiliyinə əsaslanan ideologiyalar özünü doğrultmur, birləşdirici faktora çevrilmir. Bununla belə bütün milli, mədəni, dini müxtəlifliklərinə rəğmən Anadolu, Qafqaz, İran və Mərkəzi Asiya regionlarının milli baxımdan müəyyənedici qüvvəsi türk xalqlarıdır.

Türk birliyi: skeptik yanaşmadan, neytral və ya dəstəkləyici yanaşmaya keçid necə baş verib?

Regionun türk dövlətləri arasında XXI əsrin əvvəllərindən başlayaraq inteqrasiya prosesləri – türk birliyi çağırışları güclənmişdir. Maraqlıdır ki, türk birliyi, Turan birliyi çağırışları əvvəlki əsrlərdə dünyanın böyük gücləri – xüsusən Çin, Böyük Britaniya və Avropanın əksər dövlətləri tərəfindən şübhə və hətta qorxu ilə qarşılansa da, XXI əsrin birinci rübünün sonlarına yaxın belə birliyin meydana çıxması tam real görünür, əvvəlki kimi skeptik yanaşma ilə qarşılanmır. Əksinə türk dövlətləri arasında inteqrasiya proseslərinin güclənməsində bu güc mərkəzləri də maraqlı tərəf kimi görünürlər. Bəs böyük güc mərkəzləri xüsusən, tarix boyunca türk adının "təhlükə" mənasında başa düşüldüyü Çində və Avropada türk birliyinə skeptik yanaşmadan neytrallığa keçid necə baş vermişdir? Təbii ki, burada bir çox amillər həlledici rol oynamışdır. Lakin təbii ki, başlıca amil iqtisadi amildir. Müasir dünyada Anadolu, Qafqaz və Mərkəzi Asiya regionlarının əhəmiyyəti əsasən onun Avropa və Asiya arasında yerləşməsi və bu səbəbdən dünyanın ürəyi kimi qiymətləndirilməsi ilə bağlıdır.

Məlumdur ki, Çin və Avropa ölkələri arasında ticarət üçün Avrasiya xəritəsi üzərində xəyali olaraq paralel üç marşrut xətti çəkmək mümkündür:

I. Şimal yolu – Çin-Rusiya-Şərqi Avropa marşrutu;

II. Cənub yolu – Çin-Hindistan- Ərəbistan-Şərqi Aralıq dənizi-Cənubi Avropa marşrutu;

III. Orta dəhliz – Çin-Mərkəzi Asiya-Qafqaz-Anadolu marşrutu.

Məsələ ondan ibarətdir ki, uzun illər ərzində Avrasiyanın iki ucu arasında əlaqə əsasən şimal yolu deyə biləcəyimiz Çin-Rusiya-Şərqi Avropa marşrutu üzrə gerçəkləşmişdir. Lakin Rusiyanın geosiyasi ambisiyaları, Çin və Avropa dövlətlərinə geosiyasi diktə cəhdləri, ərazisi vasitəsilə gerçəkləşdirilən ticarətin onu davamlı olaraq gücləndirməsi bu marşruta münasibətin dəyişməsinə gətirib çıxarmışdır. 2014 və 2022-ci illərdə Rusiya ilə Ukrayna, böyük mənada isə Rusiya ilə kollektiv Avropa arasında yaşanan proseslər faktiki olaraq bu ticarət yolunu iflic etmişdir. Bu baxımdan Avropa dövlətləri tərəfindən gerçəkləşdirilən proses təkcə Rusiyadan enerji resursları baxımından asılılığı azaltmaqla bağlı deyildir. Avropa dövlətləri alternativ enerji mənbələri və növləri axtarmaqla yanaşı, həm də alternativ ticarət yollarını formalaşdırmaq niyyətindədirlər. Bu niyyət şimal yoluna alternativlərdən biri kimi Cənub yolunun və ya marşrutunun formalaşdırılması cəhdlərini meydana çıxarmışdır. Lakin bu marşrutun önəmli bir hissəsinin Yaxın Şərqin qaynar nöqtələrindən keçməsi, bölgədə zorakı qeyri-dövlət aktorlarının mövcudluğu təhlükəsiz və sabit ticarət yolu üçün yeni təhlükələr meydana gətirir. Bu isə diqqəti türklərin müəyyənedici amil olduğu Orta dəhlizə yönəldir. Bu marşrutun üzərində Rusiya kimi qlobal geosiyasi iddialara və bunu reallaşdırmaq üçün imkanlara malik təhlükəli güclər yoxdur. Region Yaxın Şərqlə müqayisədə zorakı qeyri-dövlət aktorlarının sayı və fəaliyyətləri baxımından daha sakit və sabitdir. Orta dəhlizin keçəcəyi region üzərində yerləşən ən təhlükəli problem – Ermənistanın Azərbaycan ərazilərini işğalı nəticəsində vaxtilə yaranmış Qarabağ münaqişəsi artıq həll edilmişdir. İki qonşu dövlət – Azərbaycan və Ermənistan regionun ticarət və tranzit marşrutlarının hubuna çevrilməsində maraqlıdırlar və bu sahədə əməkdaşlıq imkanlarını müzakirə edirlər.

Belə bir məqamda Orta dəhlizin ərazisindən keçdiyi türk dövlətləri arasında birlik və inteqrasiya çağırışları güclənir, xüsusən Böyük Britaniya başda olmaqla Avropadakı güc mərkəzləri indi bu prosesə daha yumuşaq və isti baxırlar. Bəs səbəb nədir?

Məsələ ondan ibarətdir ki, ticarətin reallaşdırılması zamanı Çindən (o cümlədən digər Asiya ölkələrindən) Avropaya və ya əksinə hərəkət edən yüklər ayrı-ayrı dövlətlərin ərazisindən keçir və bu keçid hər dəfə ödənilən gömrük haqları və rüsumlar hesabına başa gəlir. Ayrı-ayrı dövlətlərə bu cür vergi və rüsumların ödənilməsi istehsal ölkəsindən istehlak ölkəsinə gedən malların bazar qiymətini yüksəldir, onların daşınması müddətini artırır. Bu cür vəziyyətin və çətinliklərin aradan qaldırılması üçün isə yollar axtarılır. Güc mərkəzləri başa düşürlər ki, XIX-XX əsrlərdə türk dövlət adamlarının və müətəfəkkirlərinin romantik ideyalarının məhsulu olarn Türk birliyinin, Turanın reallaşması hazırda qarşısıalınmaz bir prosesdir. Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstanın yürütdükləri birgə siyasət sayəsində türk dövlətləri dünya geosiyasətində artıq real faktora çeviri-

liblər. Bu dövlətlər arasında birliyin formalaşması ilə bağlı çağırışlar güclənir. Əsas çağırışlardan biri Avropa İttifaqı modelli birliyin yaradılması ilə bağlıdır. Belə birliklərin yaradılması üçün isə əsas amil gömrük sazişi və ortaq bazar hesab edilir. Başqa sözlə desək, Türk birliyi meydana çıxarsa Çindən Qazaxıstana və ya Qırğızıstan daxil olan yüklər üçün yalnız bir dəfə gömrük və rüsumlar ödənə bilər, daha sonra isə həmin mallar Türkiyənin Avropa dövlətləri ilə sərhədlərindən birbaşa Avropa İttifaqına daxil ola bilər. Bu, daşınmaların müddətini və onların istehlakçıya çatdırılana qədərki xərclərini azaltmağa imkan verər. Deməli, Türk birliyinin yaranması həm də Çin, Böyük Britaniya, Avropa İttifaqının digər böyük dövlətlərinə də fayda verər. Məhz bu səbəbdəndir ki, hazırda türk birliyinin yaranmasına qarşı mənfi reaksiyalar müşahidə edilmir. Deməli, belə birliyin yaranması həm də dünya ticarətinin dövlət və qeyri-dövlət aktorları (transmilli korporasiyalar, qlobal sərmayə sahibləri və s.) üçün maraqlıdır, onların mənafelərinə cavab verir.

Hansı daha əlverişlidir, hansı daha realdır?

Yuxarıda aparılan təhlillərdən də aydın olduğu kimi, hazırki şəraitdə Türk Birliyi və inteqrasiyası həm regional dövlətlərin, həm də müəyyən qlobal güclərin maraqlarına xidmət edir. Lakin bir sıra suallar açıq qalır: belə bir birliyin sərhədləri haradan başlayıb harada bitəcək? Regiondakı digər türk olmayan xalqlar və dövlətlər bu prosesə necə reaksiya verəcəklər? Və daha geniş mənada, türk xalqları üçün hansı model daha uyğundur: etnik-ideoloji və siyasi əsaslı Türk Birliyi, yoxsa rəqəmsal-iqtisadi əsaslı Turan Birliyi?

Məqalənin əvvəlki bölmələrində təqdim olunan təhlillərin göstərdiyi kimi, türk dövlətləri arasında formalaşan birlik yalnız etnik-mədəni və ya ideoloji (millətçi) platforma ilə məhdudlaşmamalı, rəqəmsal texnologiyalar, süni intellekt, informasiya iqtisadiyyatı və sosial məlumatlar üzərində qurulan yeni "iqtisadi-texnoloji əsaslı Turan modeli"nə çevrilməlidir.

Etnik yönümlü Türk Birliyindən Avrasiyanı birləşdirən Turan Birliyinə keçid bu ittifaqın davamlı şəkildə genişlənməsinə də şərait yaradardı. Gələcəkdə Macarıstan, Finlandiya, İran, Monqolustan, Cənubi Koreya, Yaponiya və Estoniya, hətta Ermənistan və Gürcüstan da potensial olaraq bu birliyə qoşula bilər. Belə bir transformasiya bir tərəfdən dövlətlər arasında rəqəmsal-iqtisadi inteqrasiyanı gücləndirər, digər tərəfdən isə onların həm milli, həm də kollektiv səviyyədə rəqəmsal suverenliyi qorumaq qabiliyyətini artırar.

Təhlillər göstərir ki, türk dövlətləri arasında rəqəmsal transformasiya hazırda qeyri-bərabər şəkildə inkişaf edir. Faktiki Türk Birliyinin mövcud üzvləri və gələcək Texno-Turan çərçivəsində potensial iştirakçıları əhatə edən Qlobal Rəqəmsallaşma İndeksində ölkələrin mövqeləri əhəmiyyətli dərəcədə fərqlənir. Huawei-nin 2024-cü il indeks məlumatlarına əsasən, belə bir birliyin real və potensial üzvləri arasında Finlandiya ən güclü mövqeyə malikdir. 73 balla Finlandiya dünyanın ən yüksək rəqəmsallaşmış dörd ölkəsindən biridir. Cənubi Koreya 60,5 balla 18-ci, Yaponiya 58,8 balla 20-ci, Estoniya isə 54,1 balla 26-cı yerdədir. Türk dövlətləri arasında bu reytinqdə ən yüksək mövqeyi Türkiyə tutur. 41,4 balla Türkiyə dünyada 47-ci, 33,2 balla Qazaxıstan 58-ci, 32,7 balla Özbəkistan 60-cı, 31,6 balla Azərbaycan isə 66-cı yerdə qərarlaşır. Qlobal Rəqəmsallaşma İndeksi ölkələrin İKT sektorunun yetkinlik səviyyəsini hesablama gücü, məlumatların saxlanması, bulud xidmətləri və yaşıl enerji kimi rəqəmsal infrastruktur göstəricilərini nəzərə almaqla qiymətləndirir.

PWS Network-un 2020-ci il Qlobal Rəqəmsal İqtisadiyyat reytinqində Türk Birliyinin bəzi mövcud üzvlərinin mövqeləri belə olmuşdur: Azərbaycan 109 ölkə arasında 66-cı, Türkiyə 54-cü, Qazaxıstan isə 53-cü yerdə qərarlaşmışdır. Təəssüf ki, digər türk dövlətləri bu reytinqə daxil edilməmişdir.

Beləliklə, rəqəmsal-iqtisadi əsaslı "Turan Birliyi" konsepsiyası yalnız türk dövlətlərinin inteqrasiyasını deyil, həm də Yaponiya, Cənubi Koreya, Monqolustan və bir sıra digər ölkələr də daxil olmaqla regional ölkələr arasında vahid rəqəmsal bazarın formalaşdırılmasını nəzərdə tutmalıdır. Bu çərçivə ortaq süni intellekt istehsalı müəssisələrinin yaradılmasını, birgə məlumat platformalarının qurulmasını, ümumi elektron ticarət və logistika şəbəkələrinin genişləndirilməsini, eləcə də kibertəhlükəsizlik və informasiya suverenliyinin qorunması üzrə əlaqələndirilmiş mexanizmlərin inkişafını əhatə edə bilər.

Bu modelin effektivliyi üçün texnoloji cəhətdən inkişaf etmiş tərəfdaşlarla əməkdaşlıq həyati əhəmiyyət daşıyır. Yaponiya və Cənubi Koreya süni intellekt, robototexnika və ağıllı şəhər texnologiyalarında mühüm üstünlüklərə malikdirlər; Finlandiya rəqəmsal dövlət idarəçiliyi və təhsil sahəsində seçilir; Macarıstan Avropa İttifaqı ilə əlaqələndirici halqa rolunu oynaya bilər; Monqolustan isə Avrasiya məkanında tranzit və geosiyasi körpü kimi strateji əhəmiyyət daşıyır.

Son illərdə Türkiyə elektron hökumət, müdafiə sənayesi texnologiyaları, süni intellekt və rəqəmsal xidmətlər sahələrində əhəmiyyətli irəliləyiş əldə etmişdir. Ölkə yalnız texnologiya istehlakçısı deyil, həm də qabaqcıl texnologiyalar istehsalçısı olmağı hədəfləyir və elektron hökumət tətbiqlərinin inkişafında lider mövqeyə çıxmağa çalışır. Bu məqsədlə Türkiyə Milli Süni İntellekt Strategiyası Yol Xəritəsini qəbul etmişdir. Dövlət qurumu kimi yaradılmış Rəqəmsal Transformasiya Ofisi bu prosesin konseptual layihələndirilməsi və koordinasiyalı icrasına cavabdehdir (Ölmez & Bayrak, 2025, s. 139–155). 2023-cü ildə aparılmış bir araşdırmanın nəticələrinə görə, Türkiyə generativ süni intellekti geniş şəkildə tətbiq edərsə, təxminən on il ərzində ÜDM-də illik 5 faiz artım əldə edə bilər. Bu göstərici hazırda Türkiyədə yerləşdirmə və iaşə xidmətlərinin ÜDM-ə verdiyi ümumi töhfədən daha yüksəkdir. TORTOISE Qlobal Süni İntellekt İndeksində Türkiyə dünyada 34-cü yerdədir. Ölkə Süni İntellekt Əməliyyat Mühiti göstəricisinə görə dünyada 11-ci yeri tutur. Qeyd etmək lazımdır ki, Tortoise Qlobal Süni İntellekt Reytinqində Türk Birliyindən yalnız iki ölkə təmsil olunmuşdur. İkinci ölkə Azərbaycan olmuşdur ki, o da 83 dövlət arasında 78-ci yeri tutmuşdur.

Türkiyə Şərqi və Cənub-Şərqi Avropada süni intellekt sahəsində lider mövqe formalaşdırır və regionda dəyəri 1 milyard ABŞ dollarından çox olan süni intellekt "unikorn" şirkətləri yaradan yeganə ölkədir. Yapay Zeka Fabrikası vençur kapital fondu tərəfindən Startups.watch və Endeavor Türkiyenin töhfələri ilə hazırlanmış hesabata əsasən, 2026-cı ildə ölkədə fəaliyyət göstərən 1188 süni intellekt startapı mövcuddur ki, bu da onun sürətlə böyüyən ekosisteminin miqyasını göstərir. 2026-cı ilin iyun ayının 4-də Azərbaycanda keçirilən IV Milli Kibertəhlükəsizlik Forumunda Türkiyə Cümhuriyyəti Müdafiə Sənayesi İdarəsinin müşaviri, Türkiyə Kibertəhlükəsizlik klasterinin baş koordinatoru Alpaslan Kesicinin verdiyi məlumatdan aydın olur ki, həmin dövrdə Türkiyənin təkcə kibertəhlükəsizlik ekosistemində 200-dən artıq şirkət fəaliyyət göstərmişdir. Türkiyənin universitetlərində 100-dən artıq kibertəhlükəsizlik proqramları vardır və hazırda 30 min nəfərdən artıq tələbə bu sahədə təhsil alır, ölkədə 10 mindən artıq sertifikatlı mütəxəssislər vardır.

Qazaxıstan və Özbəkistan rəqəmsal dövlət idarəçiliyinin, fintex və startap ekosistemlərinin inkişafına xüsusi önəm verirlər. Qazaxıstanda Kaspi, Halyk Bank-ın Homebank platforması və Freedom SuperApp kimi aparıcı fintex platformaları bankçılıq, ödəniş sistemləri, elektron ticarət xidmətləri və hətta elektron hökumət xidmətlərinə çıxışı birləşdirən çoxfunksiyalı "hamısı bir arada" super tətbiqlərə çevrilmişdir. Qazaxıstan süni intellekt sahəsində sürətlə inkişaf edən startap ekosistemi formalaşdırmışdır. Ölkədə 100-dən çox süni intellekt startapı fəaliyyət göstərir və 2023–2025-ci illər arasında süni intellekt layihələrinə yönələn vençur investisiyalarının həcmi təxminən 14 milyon dollardan 73 milyon dollara yüksələrək beş dəfədən çox artmışdır. Nəticədə, süni intellekt artıq Qazaxıstandakı bütün vençur investisiyalarının yarıdan çoxunu təşkil edir.

Qazaxıstan Mərkəzi Asiyanın ilk Beynəlxalq Süni İntellekt Mərkəzi olan ALEM AI-ni açmaqla bu sahədə yeni səviyyəyə yüksəlməkdədir. PitchBook-un məlumatına görə, süni intellekt startaplarına yönələn vençur kapitalı maliyyələşməsi 2025-ci ildə rekord həddə 192,7 milyard ABŞ dollarına çatmışdır və bu investisiyaların böyük bir qismi süni intellekt sahəsinə yönəlmişdir. Qazaxıstanda İT ixracı 2025-ci ildə 1 milyard ABŞ dollarına çatmışdır. Ölkədə Mərkəzi Asiyanın ən böyük texnoparkı olan Astana Hub fəaliyyət göstərir və burada İT, fintex, biotexnologiya və süni intellekt sahələrində startaplar üçün geniş ekosistem yaradılmışdır.

Özbəkistan rəqəmsal dövlət idarəçiliyi, fintech və startap ekosistemlərinin inkişafına xüsusi diqqət ayırır [4]. Özbəkistanda İT startap innovasiya ekosistemi son illərdə 10 dəfə böyümüş və ümumilikdə 300 milyon ABŞ dolları həcmində investisiya cəlb etmişdir. Özbəkistan həmçinin yerli süni intel-

lekt startaplarını dəstəkləmək və süni intellekti dövlət və biznes sektorlarına inteqrasiya etmək məqsədilə 100 milyon dollarlıq təşəbbüs elan etmişdir.

Qırğızıstan 2026-cı ildə bizneslərin 35 faizinin süni intellekt həllərini tətbiq etməsi ilə bu sahədə mühüm irəliləyiş əldə etmişdir. Bazarın dəyəri 150 milyon ABŞ dollarına çatmışdır ki, bu da investisiyaların və texnoloji yetkinliyin artdığını göstərir. Sayı 120-yə çatan süni intellekt startaplarının fəaliyyəti beynəlxalq maliyyələşmə ilə dəstəklənən dinamik innovasiya ekosisteminin mövcudluğunu göstərir.

Türkmənistanın süni intellekt startap ekosistemi də sabit inkişaf nümayiş etdirmişdir. 2026-cı ildə ümumi maliyyələşmə həcmi 45 milyon ABŞ dollarına çatmışdır. Hökumət innovasiya və rəqəmsal transformasiyanı təşviq etmək üçün 20 milyon ABŞ dolları sərmayə qoyaraq əsas rol oynamışdır. Hazırda sayı 12-yə çatan startaplar süni intellekt və maşın öyrənməsi sahələrinə marağın artdığını göstərir və Türkmənistanı Mərkəzi Asiyanın texnologiya məkanında yüksələn oyunçuya çevirir.

Azərbaycanın yanaşması və gələcəyə baxış

Azərbaycanın türk dünyası daxilində rəqəmsal mərkəzə çevrilmə potensialı bir neçə əsas amilə əsaslanır. İlk növbədə ölkənin geostrateji mövqeyi – Şərq ilə Qərb, Şimal ilə Cənub arasında yerləşməsi onun rəqəmsal və logistika mərkəzi funksiyasını yerinə yetirmə potensialını gücləndirir. Enerji resursları və nəqliyyat infrastrukturu rəqəmsal iqtisadiyyatın maddi əsaslarını təmin edir.

Azərbaycan süni intellekt, elektron hökumət, kibertəhlükəsizlik və regional data mərkəzlərinin yaradılması sahəsində mərkəz rolunu oynaya bilər. Türkiyə ilə müdafiə və təhlükəsizlik texnologiyaları, Cənubi Koreya ilə smart city və e-hökumət, Yaponiya ilə AI və robot texnologiyaları, Finlandiya ilə rəqəmsal təhsil sahəsində əməkdaşlıq Azərbaycanın texnoloji imkanlarını əhəmiyyətli dərəcədə artıra bilər. Lakin bu prosesin uğuru üçün insan kapitalının inkişafı, institusional islahatlar və uzunmüddətli strateji planlaşdırma əsas şərt olaraq qalır. Azərbaycanın rəqəmsal-iqtisadi əsaslı Turan Birliyi modelində mərkəzə çevrilmək potensialının swot analizi bir sıra nəticələrə gəlməyə imkan verir. Aydın olur ki, bu prosesdə coğrafi-strateji mövqe, iqtisadi sabitlik, sahib olduğu maliyyə imkanları, rəqəmsal infrastrukturun inkişaf etdirilməsi ilə bağlı mövcud olan siyasi iradə, ağıllı insan kapitalı Azərbaycanın güclü tərəflərini təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 fevral 2026-cı il tarixində "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə etdiyi çıxış ölkənin bu istiqamətdə gələcək hədəflərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Prezidentin çıxışının məzmun təhlili göstərir ki, Azərbaycan dövləti tam rəqəmsal idarəetməyə keçidi prioritet istiqamət hesab edir. Yaxın illərdə rəqəmsal inkişaf, süni intellekt və məlumat mərkəzlərinin yaradılması ölkənin əsas uzunmüddətli inkişaf məqsədlərindən biri olacaqdır. Bu baxımdan Azərbaycan öz enerji imkanlarına da güvənir. Böyük enerji potensialına malik olmaq məlumat mərkəzlərinin qurulması və süni intellekt tətbiqlərinin həyata keçirilməsi üçün əsas şərtlərdən biridir. Azərbaycanın rəqəmsallaşma və süni intellekt sahəsində aparıcı dövlətlərdən birinə çevrilməsini təmin edəcək əsas resurslardan biri də ixtisaslı insan kapitalıdır. Bu məsələnin həlli həm ölkədaxili təhsil imkanları, həm də xarici ölkələrlə əməkdaşlıq vasitəsilə nəzərdə tutulur.

Ölkədə rəqəmsallaşma prosesinin yüksək səviyyədə həyata keçirilməsi üçün kifayət qədər inkişaf edən rəqəmsal infrastruktur mövcuddur və dövlət bu istiqamətdə maliyyə vəsaitlərinin ayrılmasında böyük səxavət nümayiş etdirir. 2021-ci ildə qəbul edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində rəqəmsallaşma əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Bundan əlavə, 16 yanvar 2025-ci il tarixində "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" rəsmi olaraq təsdiq edilmiş, həmin ilin dekabr ayında isə "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" təsdiqlənmişdir. Bu sənədlər göstərir ki, rəqəmsal hökumətə, rəqəmsal iqtisadiyyata və rəqəmsal cəmiyyətə keçid ölkənin ali siyasi rəhbərliyi tərəfindən strateji məqsəd kimi müəyyən edilmişdir.

Azərbaycan Respublikasında 2019-cu ildən etibarən ayrıca Bulud Siyasəti mövcuddur. Həmin ildə "Hökumət buludu"nun (G-Cloud) yaradılması və bulud xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında Prezident Fərmanı imzalanmış, eyni zamanda "Hökumət buludu" (G-Cloud) Konsepsiyası təsdiq edilmişdir.

Hazırda Azərbaycandakı mövcud məlumat mərkəzləri əsasən daxili bulud xidmətləri təqdim etsə də, 2027-ci ilə qədər Abşeron və Hacıqabulda inşası planlaşdırılan iki yeni məlumat mərkəzinin təkcə Azərbaycanın deyil, bütövlükdə regionun ən böyük mərkəzləri olacağı gözlənilir. Azərbaycanın bu sahədə digər üstünlüklərindən biri də rəqəmsal dövlət xidmətlərinin effektiv modelini yaratmaqda əldə etdiyi uğurlardır. Həmçinin ölkə əhalisinin əhəmiyyətli hissəsinin gənclərdən ibarət olması və ümumilikdə texnologiyaya meyilli cəmiyyətin mövcudluğu da Azərbaycanın üstünlükləri sırasındadır.

Azərbaycan Respublikasının ərazisi faktiki olaraq Qərbi Asiya, Şərqi Avropa və Mərkəzi Asiyanı birləşdirən təbii körpüdür, Anadolu türklüyü ilə Mərkəzi Asiya türklüyünü fiziki olaraq birləşdirən məkan məhz Azərbaycandır. Türk və ya Turan dövlətləri arasında fiziki və rəqəmsal keçid Azərbaycan olmadan təbii ki, mümkün deyildir. Azərbaycanın uzun illər ərzində karbohidrogen resurslarının dünya bazarlarına çıxarılması nəticəsində əldə etdiyi gəlirlər ölkənin iqtisadi və maliyyə sabitliyinə qarant verir.

Bununla belə, SWOT təhlili bu sahədə müəyyən zəif tərəflərin də mövcud olduğunu göstərir. Rəqəmsal iqtisadiyyatı hələ inkişafın ilkin mərhələsində olan Azərbaycan türk dünyasındakı potensialını reallaşdırmaq üçün daha çevik addımlar atmalıdır. Ən mühüm çatışmazlıqlardan biri daxili texnoloji istehsalın məhdud miqyasıdır. Ölkədə çiplərin, serverlərin və digər mühüm texnoloji məhsulların istehsalına ehtiyac vardır.

Digər bir reallıq ondan ibarətdir ki, dünyanın aparıcı texnologiya şirkətləri yüksək əməkhaqqı və sosial təminat paketləri ilə Azərbaycanın ixtisaslı İT mütəxəssislərini cəlb edir və bu da beyin axınına səbəb olur. Bu vəziyyət əlavə çətinlik yaradır, çünki qarşıya qoyulan yeni hədəflər süni intellekt, Big Data və kibertəhlükəsizlik kimi qabaqcıl texnoloji sahələr üzrə yüksək ixtisaslı mütəxəssislər tələb edir. Bundan başqa, kapitala malik yerli sahibkarların əksəriyyəti vəsaitlərini iqtisadiyyatın digər sahələrinə yatırmağı daha az riskli hesab edir. Bu isə rəqəmsal texnologiyalar sektorunun inkişafında özəl təşəbbüslərin təşviqini tələb edir.

Azərbaycan Respublikasının türk dünyasının, daha geniş mənada isə texnoloji Turanın mərkəzinə çevrilməsi prosesində həm imkanları, həm də təhdidləri düzgün müəyyənləşdirmək vacibdir. Bu baxımdan ən böyük imkanlardan biri Orta Dəhlizin tərkib hissəsi olan Zəngəzur dəhlizi ilə bağlıdır. Azərbaycan fiziki Zəngəzur marşrutu boyunca paralel rəqəmsal dəhliz yaratmaq imkanına malikdir. Bu çərçivədə region üçün yüksək sürətli və aşağı gecikməli fiber-optik şəbəkənin qurulması tamamilə mümkündür. Bundan əlavə, Azərbaycanın geostrateji mövqeyi ona həm türk dünyasının şərq və qərb hissələri, həm də gələcəkdə Texno-Turan üçün məlumatların saxlanılması və emalı üzrə neytral platforma təklif etməyə imkan verir. Bu, həm təhlükəsizlik üstünlüyü, həm də iqtisadi gəlir mənbəyi deməkdir.

Azərbaycan həmçinin türk dünyasının, gələcəkdə isə Texno-Turan Birliyinin Fintex Kəmərinin yaradılması təşəbbüsünü irəli sürə və Bakını regional fintex mərkəzinə çevirə bilər. Transxəzər rəqəmsal maliyyə platformasının yaradılması və türk dövlətləri (perspektivdə isə Texno-Turan dövlətləri) arasında vahid ödəniş sisteminin inteqrasiyası kimi layihələr məhz Azərbaycanın fəal iştirakı ilə həyata keçirilə bilər.

Yuxarıda qeyd olunan imkanlarla yanaşı, mühüm təhdidlər də mövcuddur. Bu sahədə Azərbaycan özünü təkcə Türk Dövlətləri Təşkilatının mövcud üzvləri ilə deyil, həm də regionun digər ölkələri ilə rəqabət şəraitində görməlidir. Qeyd etmək lazımdır ki, Türkiyə İstanbulu regional rəqəmsal mərkəzə çevirmək istiqamətində ardıcıl səylər göstərir, Qazaxıstan isə oxşar ambisiyaları Nur-Sultan üçün həyata keçirməyə çalışır. Bundan əlavə, Cənubi Qafqazın digər iki respublikasının paytaxtları - Tbilisi

və İrəvan da potensial rəqəmsal mərkəzlər kimi təşviq edilir. Belə təşəbbüslər isə öz növbəsində əlavə təhlükəsizlik riskləri yarada bilər və Azərbaycan bu risklərə hazır olmalıdır. Şübhəsiz ki, həm Azərbaycan, həm də bütövlükdə "Rəqəmsal Turan" infrastrukturu düşmən dövlətlərin, texnoloji rəqiblərin və ya qeyri-dövlət aktorlarının hədəfinə çevrilə bilər.

Nəticə etibarilə, SWOT təhlilləri bir sıra nəticə və tövsiyələr irəli sürməyə imkan verir. İlk növbədə, mövcud şəraitdə Azərbaycanın əsas strategiyası öz fiziki və coğrafi üstünlüklərini rəqəmsal sahədə maksimum dərəcədə istifadə etmək olmalıdır. Zəif tərəflərin aradan qaldırılması üçün təhsilə investisiyaların artırılması, beyin axınının qarşısının alınması və daha güclü innovasiya ekosisteminin formalaşdırılması zəruridir. Təhdidlərin idarə olunması üçün isə diplomatik fəaliyyətin və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, ortaq kibertəhlükəsizlik standartlarının yaradılması və texnoloji tərəfdaşlıqların şaxələndirilməsi vacibdir.

Nəticə

Beləliklə, Turan birliyi anlayışının rəqəmsal–iqtisadi interpretasiyanı müəyyənləşdirməklə, və türk dünyası dövlətlərini informasiya və süni intellekt prizmasından təhlil etməklə bir sıra nəticələrə gəlmək mümkündür. Aparılan təhlil göstərir ki, türk dünyasında inteqrasiyanın gələcəyi ideoloji və millətçi çərçivələrdən daha çox rəqəmsal və iqtisadi əsaslar üzərində formalaşacaqdır. rəqəmsal-iqtisadi Turan Birliyi modeli həm regional sabitlik, həm də qlobal rəqabət qabiliyyəti baxımından daha funksional yanaşma təqdim edir. Azərbaycan bu modeldə regional rəqəmsal və süni intellekt mərkəzinə çevrilmək üçün real potensiala malikdir. Orta və uzunmüddətli perspektivdə bu hədəfin reallaşması mümkün və strateji baxımdan məqsədəuyğundur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. AI Continent Action Plan //Offical web site of the European Comission, -2025, May 7. URL: https://digital-strategy.ec.europa.eu/en/factpages/ai-continent-action-plan

2. Al Midfa, Najla. Artificial Intelligence in Diplomacy: Transforming Global Relations and Negotiations / TRENDS Research & Advisory, -2024, 25 October. URL: https://trendsresearch.org/insight/artificial-intelligence-in-diplomacy-transforming-global-relations-and-negotiations/?srsltid=AfmBOormkLH5B9xbd5jKtElF2uJaIatcwPFaQ27WaAU5WYe3yOFatdRt

3. Alexander Kristian. The Rise of Digital Diplomacy: Navigating Influence in a Hyper-Connected World / Rabadan Security and Defence Institute, -2025, 16 May. URL: https://rsdi.ae/en/publications/the-rise-of-digital-diplomacy-navigating-influence-in-a-hyper-connected-world#:~:text=The%20rise%20of% 20digital%20diplomacy%20has%20fundamentally%20altered%20the%20practice,security%20and%20defence%2Drelated%20topics.&text=%5B12%5D%20Samosir%2C%20Nora%20and,Power%20Norms%2C%20Routledge:%202024

4. Katrenov, Sayan. Building Trust in Kazakhstan's Fast-Growing Fintech Ecosystem. 26 January 2026. <https://astanatimes.com/2026/01/building-trust-in-kazakhstans-fast-growing-fintech-ecosystem/#:~:text=Kazakhstan's%20leading%20fintech%20platforms%20Kaspi,vast%20amounts%20of%20personal%20data.>.

5. Levent, S. Common Asianist intellectual history in Turkey and Japan: Turanism // Central Asian Survey, -2016. №35(1), -p. 121–135.

6. Nourhan Tosson Ibrahim. The Impact of AI on Global Power Shifts: A Case Study of U.S.-China Rivalry //China Quarterly of International Strategic Studies, -2025. №11:03, -p. 281-309.

PROSPECTS FOR THE TRANSITION FROM TURKIC UNITY TO TECHNO-TURAN IN THE CONTEXT OF DIGITAL REGIONALIZATION AND AZERBAIJAN

Elnur Kalbizadeh

The article introduces, for the first time in academic discourse, the concept of a digital-economic Turan Union. The study aims to justify the necessity of a strategic transformation of the traditional model of Turkic unity– historically based on ethnic, cultural, and ideological foundations – into a new framework grounded in digital and economic integration.

It is emphasized that in the emerging global order, the nature of power is undergoing profound change. Alongside military capacity and energy resources, artificial intelligence, Big Data, and control over information flows have become decisive sources of strategic advantage. Within this context, the integration of Turkic states must move beyond symbolic and cultural solidarity and shift toward a technology-centered and innovation-driven model. The proposed concept of a digital-economic Turan Union envisions the creation of a digital-economic integration platform that would include not only Turkic states but could also extend to other Ural-Altaic-origin nations such as Hungary, Finland, Estonia, Mongolia, South Korea, and Japan.

The article concludes that the future integration of the Turkic world should be built not on ideological foundations, but on principles of digital connectivity, technological cooperation, and economic interdependence. The Republic of Azerbaijan, both in terms of its geographical position and economic capabilities, has the potential to assume the role of a digital integrative center within this emerging union.

Keywords: AI-based Cold War, Turan, Turkic World, Digital integration, geopolitics

BÖLMƏ 1

DİLÇİLİK: TARİXİ KÖKLƏRDƏN RƏQƏMSAL GƏLƏCƏYƏ

MÜASİR TÜRK DÜNYASINDA ORTAQ TÜRK DİLİNİN FORMALAŞMASINDA MEDİANIN ROLU

Arzu İsgəndərzadə
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Aparıcı elmi işçi
arzu.isgandarzada@gmail.com
https://orcid.org/0000-0002-2068-736X

Məqalədə müasir türk dünyasında ortaq türk dilinin formalaşmasında medianın rolu kompleks şəkildə araşdırılır. Qloballaşma və rəqəmsal transformasiya şəraitində media artıq yalnız informasiya ötürən vasitə deyil, eyni zamanda dil proseslərinə, terminoloji yaxınlaşmaya və mədəni inteqrasiyaya təsir edən mühüm kommunikativ platforma rolunu oynayır. Bu kontekstdə türk xalqları arasında ortaq kommunikasiya məkanının formalaşdırılması istiqamətində həyata keçirilən media təşəbbüsləri sistemli şəkildə təhlil olunur. Tədqiqatda xüsusilə TRT Avaz və Turkic.World kimi platformaların fəaliyyəti üzərində dayanılır. Bu media qurumlarının müxtəlif türk dillərində paralel informasiya yayımı həyata keçirməsi, ortaq leksik və terminoloji mühitin formalaşmasına təsiri və informasiya mübadiləsinin intensivləşməsində oynadığı rol qiymətləndirilir. Eyni zamanda Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən ortaq əlifba təşəbbüsünün dil inteqrasiyası, qarşılıqlı oxunaqlıq və kommunikativ yaxınlaşma baxımından əhəmiyyəti elmi aspektdən nəzərdən keçirilir. Tədqiqatın nəticələri göstərir ki, media ortaq informasiya mühiti yaratmaqla dillərarası təmasları gücləndirir, qarşılıqlı anlaşmanı artırır və uzunmüddətli perspektivdə ortaq türk dilinin formalaşması istiqamətində gedən inteqrasiya proseslərinə əlverişli şərait yaradır.

Açar sözlər: *türk dünyası, media, ortaq türk dili, TRT Avaz, Turkic.World*

Giriş

Müasir dünyada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı media vasitələrinin ictimai həyatdakı rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Müasir dövrdə media ictimai rəyin formalaşmasına, mədəni dəyərlərin təbliğinə, milli kimliyin qorunmasına və dillərin inkişafına təsir göstərən mühüm amillərdən biri hesab olunur. Xüsusilə qloballaşma şəraitində media müxtəlif xalqlar və dövlətlər arasında kommunikasiya əlaqələrinin genişlənməsində, ortaq informasiya məkanının formalaşmasında mühüm rol oynayır. Türk dünyasında ortaq ünsiyyət və kommunikasiya mühitinin yaradılması ideyası yeni deyildir. Bu ideyanın nəzəri əsasları XIX əsrin sonu – XX əsrin əvvəllərində türk maarifçilik hərəkatının görkəmli nümayəndəsi İsmayıl Qaspıralı tərəfindən irəli sürülmüşdür. Onun 1883-cü ildən nəşr etdirdiyi "Tərcüman" qəzeti müxtəlif türk xalqları arasında dil və fikir birliyinin möhkəmləndirilməsinə xidmət etmiş, ortaq kommunikasiya məkanının formalaşdırılması istiqamətində mühüm addım olmuşdur (Devlet, 1988). Qaspıralının "dildə, fikirdə, işdə birlik" prinsipi sonrakı dövrlərdə türk xalqlarının mədəni və mənəvi inteqrasiyasının əsas ideoloji istiqamətlərindən birinə çevrilmişdir.

Müstəqillik dövründə türk dövlətləri arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı bu ideyanın yeni şəraitdə yenidən aktuallaşmasına səbəb olmuşdur. Xüsusilə XXI əsrdə Türk Dövlətləri Təşkilatının fəaliyyətinin genişlənməsi, ortaq layihələrin həyata keçirilməsi və informasiya texnologiyalarının inkişafı türk xalqları arasında qarşılıqlı əlaqələrin intensivləşməsinə şərait yaratdı və bu proses ortaq informasiya məkanının formalaşdırılması zərurətini ön plana çıxardı. Müasir şəraitdə ortaq kommunikasiya məkanının yaradılmasında medianın rolu xüsusilə diqqəti cəlb edir. Televiziya kanalları, xəbər agentlikləri, internet portalları və sosial media platformaları müxtəlif türk xalqlarının eyni

informasiya məzmununa çıxışını təmin edir, onların bir-birinin dili və mədəniyyəti ilə daha yaxından tanış olmasına imkan yaradır. Nəticədə ortaq terminoloji mühit formalaşır, dillərarası qarşılıqlı anlaşıqlıq genişlənir və inteqrasiya prosesləri dərinləşir.

Son illərdə TRT Avaz, Turkic.World kimi media layihələrinin meydana çıxması, Türk Dövlətləri Təşkilatı çərçivəsində media əməkdaşlığının genişlənməsi, eləcə də ortaq türk əlifbası istiqamətində həyata keçirilən təşəbbüslər bu prosesin praktik müstəvidə inkişaf etdiyini göstərir. Məqalənin məqsədi müasir türk dünyasında ortaq türk dilinin formalaşması prosesində medianın rolunu araşdırmaq, bu sahədə həyata keçirilən əsas layihələri təhlil etmək və media inteqrasiyasının dil yaxınlaşmasına təsirini qiymətləndirməkdir.

Türk dünyasında media inteqrasiyasının inkişafı

Türk dövlətləri arasında əməkdaşlıq uzun müddət əsasən siyasi, iqtisadi və mədəni sahələri əhatə etmişdir. Lakin XXI əsrin ikinci onilliyindən etibarən informasiya və media sahəsində əməkdaşlıq da inteqrasiya proseslərinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. İnformasiya təhlükəsizliyi məsələlərinin aktuallaşması, rəqəmsal medianın sürətli inkişafı və qlobal informasiya axınında milli maraqların qorunması zərurəti türk dövlətlərini bu sahədə daha sıx əməkdaşlığa sövq etmişdir. Bu istiqamətdə mühüm addımlardan biri 2020-ci il dekabrın 10-da "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əmakdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi oldu (Azərbaycan Respublikasının Qanunu, 2021). Memorandum media qurumları arasında əlaqələrin genişləndirilməsini, informasiya mübadiləsinin gücləndirilməsini, jurnalistlər arasında əməkdaşlığın inkişaf etdirilməsini və dezinformasiyaya qarşı birgə fəaliyyət mexanizmlərinin yaradılmasını nəzərdə tutur.

Media əməkdaşlığının institusional xarakter almasının göstəricilərindən biri də 2021-ci ildə İstanbulda keçirilən Türk Şurasının Media Forumu olmuşdur. Forum çərçivəsində informasiya təhlükəsizliyi, rəqəmsal kommunikasiya, media diplomatiyası və ortaq informasiya strategiyası məsələləri müzakirə edilmişdir (The Astana Times, 2023). Fikrimizcə, müasir dövrdə türk dövlətləri arasında inteqrasiya yalnız siyasi və iqtisadi münasibətlərlə məhdudlaşmamalıdır. Dövlətlər arasında ortaq informasiya məkanının formalaşması qarşılıqlı anlaşmanın dərinləşməsinə, ümumi dəyərlərin təşviqinə və ictimai rəyin yaxınlaşmasına şərait yaradacaqdır. Bu baxımdan media türk dövlətləri arasında inteqrasiya proseslərinin dərinləşməsinə töhfə verən mühüm kommunikasiya vasitələrindən biri kimi qiymətləndirilə bilər. Media əməkdaşlığının əhəmiyyəti yalnız informasiya təhlükəsizliyi və ya xəbər mübadiləsi ilə məhdudlaşmır. Müxtəlif türk dövlətlərinin media qurumları arasında əməkdaşlığın genişlənməsi ortaq terminoloji bazanın formalaşmasına da təsir göstərir. Eyni siyasi, iqtisadi və mədəni hadisələrin müxtəlif türk dillərində işıqlandırılması nəticəsində oxşar anlayış və terminlərin istifadəsi artır ki, bu da dillərarası yaxınlaşmanı sürətləndirən amillərdən biri hesab oluna bilər.

TRT Avaz və Turkic.World nümunəsində ortaq kommunikasiya məkanı

Türk dünyasında ortaq kommunikasiya məkanının formalaşdırılması istiqamətində həyata keçirilən mühüm layihələrdən biri TRT Avaz telekanalıdır. Kanal 21 mart 2009-cu ildə İsmayıl Qaspıralının "Dildə, fikirdə, işdə birlik" prinsipinə əsaslanan konsepsiya ilə fəaliyyətə başlamışdır. TRT Avaz Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistanı əhatə edən geniş coğrafiyada yayımlanır və türk dillərinin müxtəlif variantlarında hazırlanan proqramları tamaşaçılara təqdim edir. Təhsil, mədəniyyət, incəsənət, elm, tarix, coğrafiya, ailə və uşaq mövzularını əhatə edən verilişlər vasitəsilə kanal türk xalqları arasında mədəni və informasiya əlaqələrinin möhkəmləndirilməsinə xidmət edir. 2018-ci ildə Qırğızıstanda keçirilən Türk Şurası Zirvə toplantısında TRT Avazın türk dünyasının ortaq televiziya kanalı funksiyasını yerinə yetirdiyi vurğulanmış, üzv ölkələrin milli televiziya qurumları arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində siyasi iradə ifadə olunmuşdur. Sonrakı dövrdə TRT Avaz Türk Dövlətləri Təşkilatına üzv ölkələrin televiziya qurumları ilə əməkdaşlığını daha da genişləndirmiş, həmçinin TÜRKSOY ilə media sahəsində birgə fəaliyyət mexanizmləri formalaşdırmışdır (TRT Avaz, n.d.). TRT Avaz müxtəlif türk dillərinin və mədəniyyətlərinin vahid informasiya məkanında təmsil olunmasını təmin etməklə türk dünyasında kommunikativ inteqrasiyanın dərin-

ləşməsinə, qarşılıqlı anlaşıqlığın genişlənməsinə və ortaq kommunikasiya mühitinin formalaşmasına mühüm töhfə verir.

Media inteqrasiyasının rəqəmsal platformadakı mühüm təzahürlərindən biri isə 2021-ci ildə təqdimatı keçirilən və 2023-cü ildə Bakıda baş qərargahı fəaliyyətə başlayan "Turkic.World" layihəsidir (The Astana Times, 2023). Azərbaycanın "Trend" İnformasiya Agentliyi və Türkiyənin "Albayrak Media Group" holdinqinin müştərək təşəbbüsü olan bu platforma türk dövlətləri arasında kontent mübadiləsini optimallaşdırmaq məqsədi daşıyır (Trend Beynəlxalq İnformasiya Agentliyi, 2023). Hazırda onun beynəlxalq tərəfdaşlıq şəbəkəsinə Özbəkistan (UzA), Qazaxıstan (Kazinform), Qırğızıstan (Kabar) rəsmi dövlət agentliklərinin və Türkmənistanın rəqəmsal media resurslarının daxil olması platformanın rəsmi statusunu regional miqyasda gücləndirir (Turkic World, 2023). Multidilli resurs rolunu oynayan platformada ictimai-siyasi, iqtisadi və mədəni xəbərlərin fərqli türk dillərində paralel şəkildə tirajlanması unifikasiya olunmuş terminoloji bazanın bərqərar olmasına birbaşa töhfə verir. Bu isə rəqəmsal dövrdə dialektlərarsı fərqləri minimallaşdıraraq vahid türk informasiya arealının qurulmasında strateji amil kimi qiymətləndirilməlidir.

Ortaq əlifba və media

Türk dünyasında ortaq kommunikasiya sferasının formalaşması təkcə intensiv informasiya mübadiləsi ilə məhdudlaşmır, eyni zamanda yazı sistemlərinin konvergensiyası və standartlaşdırılması proseslərini də ehtiva edir. Müasir sosiolinqvistik və dil siyasəti tədqiqatlarında vurğulandığı kimi, qrafik sistemlər sadəcə texniki transmisiya vasitəsi olmayıb, sosial inteqrasiyanın reallaşmasında və mədəni kimliyin bərqərar olmasında mühüm rol oynayan institusional elementlərdir (Grenoble, 2003; Landau, 1995). Türk dilləri üçün unifikasiya olunmuş yazı sistemi ideyası XX əsrin əvvəllərindən etibarən türkoloji diskursun prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu prosesdə 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay mühüm dönüş nöqtəsi olmuşdur. Qurultayda latın qrafikasına keçid fəlsəfəsi və ortaq qrafik prinsiplərin müəyyənləşdirilməsi elmi-nəzəri mühitdə geniş müzakirə obyektinə çevrilmişdir. Sonrakı dövrdə sovet mühitindəki bir sıra türk dillərində latın qrafikalı əlifbaların tətbiqinə başlanılsa da, 1930-cu illərin sonlarından etibarən yeridilən unifikasiya siyasəti çərçivəsində məcburi kirilləşdirmə prosesi bu təbii inkişafı süni şəkildə dayandırmışdır.

Postsovet mərhələsində müstəqil türk respublikalarında latın əsaslı yazı sisteminə qayıdış tendensiyası ortaq əlifba paradiqmasını yenidən aktuallaşdırmışdır. Dil siyasəti kontekstində bu qrafik transformasiya milli identiklik, mədəni orientasiya və dövlət quruculuğu prosesləri ilə sıx əlaqələndirilir (Landau, 1995; Grenoble, 2003). Müasir dövrdə Türk Dövlətləri Təşkilatının institusional çətiri altında ortaq əlifba müzakirələri daha intensiv və hədəfəyönümlü xarakter almışdır. Beynəlxalq Türk Akademiyasının moderatorluğu ilə 2024-cü ildə Bakıda keçirilən Ortaq Türk Əlifbası Komissiyasının iclasında üzərində razılıq əldə olunan 34 hərfli latın əsaslı ortaq əlifba layihəsi bu istiqamətdə atılan ən strateji addımdır (Turkic Academy, 2024). Rəsmi konseptual sənədlərə istinadən, tövsiyə xarakteri daşıyan bu layihə türk xalqları arasında linqvistik adaptasiyanı və qarşılıqlı anlaşıqlığı maksimallaşdırmağı hədəfləyir. Bu baxımdan ortaq əlifba təşəbbüsü vahid dil yaratmaq məqsədi daşımır; əksinə, türk dillərinin özünəməxsus xüsusiyyətlərini qorumaqla qarşılıqlı anlaşıqlığın və kommunikativ əlaqələrin gücləndirilməsinə xidmət edir.

Nəticə

Türk xalqları arasında ortaq kommunikasiya məkanının formalaşması ideyası XIX əsrin sonlarından etibarən müxtəlif mərhələlərdən keçərək inkişaf etmişdir. İsmayıl Qaspıralının "Tərcüman" qəzeti vasitəsilə əsasını qoyduğu bu proses müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının və rəqəmsal medianın inkişafı nəticəsində yeni məzmun qazanmışdır. Türk dövlətləri arasında informasiya mübadiləsinin intensivləşməsi, ortaq media platformalarının yaranması və kommunikasiya imkanlarının genişlənməsi inteqrasiya proseslərini daha da sürətləndirmişdir. Tədqiqat göstərir ki, TRT Avaz və Turkic.World kimi media platformaları türk dövlətləri arasında informasiya mübadiləsinin genişlənməsinə, ortaq terminoloji mühitin formalaşmasına və qarşılıqlı anlaşmanın güclənməsinə mühüm töhfə verir. Müxtəlif türk dillərində hazırlanan media məzmununun vahid informasiya məkanında dövriyyəsi dillərarası təmasları artırır və ortaq dil üçün əlverişli şərait yaradır.

Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq türk əlifbası istiqamətində aparılan fəaliyyət də bu prosesin mühüm tərkib hissəsidir. Türk Akademiyasının koordinasiyası ilə hazırlanmış və 2024-cü ildə üzərində razılıq əldə olunmuş 34 hərfli ortaq türk əlifbası layihəsi türk dilləri arasında qarşılıqlı anlaşıqlığın artırılmasına və ortaq kommunikasiya imkanlarının genişləndirilməsinə yönəlmiş mühüm təşəbbüslərdən biridir.

Müasir dövrdə media türk dünyasında ortaq kommunikasiya məkanının və mədəni inteqrasiya proseslərinin formalaşmasına təsir göstərən mühüm strateji amillərdən biri hesab edilir. Ortaq media məkanının inkişafı, informasiya mübadiləsinin genişlənməsi və kommunikasiya əlaqələrinin intensivləşməsi türk xalqları arasında dil inteqrasiyasının dərinləşməsi və ortaq kommunikativ mühitin möhkəmlənməsi üçün əlverişli zəmin formalaşdırır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Anadolu Agency. (2024, September 11). Turkic states reach agreement on common 34-letter alphabet.
2. Azərbaycan Respublikasının Qanunu. (2021, 18 fevral). "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı. https://president.az/az/articles/view/50666
3. Devlet, N. (1988). İsmail Bey Gaspıralı. Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları.
4. Grenoble, L. A. (2003). Language policy in the Soviet Union. Springer.
5. Landau, J. M. (1995). Politics of language in the ex-Soviet Muslim states. University of Michigan Press.
6. The Astana Times. (2023, July 26). Turkic World Media Platform Opens Office in Baku.
7. Trend News Agency. (2023, July 24). Turkic World media platform head office officially opens in Baku.
8. TRT Avaz. (n.d.). Hakkımızda. Ankara: Türkiye Radyo ve Televizyon Kurumu https://www.trtavaz.com.tr/hakkimizda
9. Turkic Academy. (2024, September 11–16). Announcement and declaration on the common Turkic alphabet. International Turkic Academy, Astana. https://turkicacademy.org

THE ROLE OF MEDIA IN THE FORMATION OF A COMMON TURKIC LANGUAGE IN THE CONTEMPORARY TURKIC WORLD

Arzu Isgandarzade

This article examines the role of media in the formation of a common Turkic language in the contemporary Turkic world. In the context of globalization and digital transformation, media is no longer limited to being a mere tool for information dissemination; rather, it functions as a key communicative institution influencing linguistic processes, terminological convergence, and cultural integration. In this regard, media initiatives aimed at establishing a shared communicative space among Turkic peoples are systematically analyzed. The study particularly focuses on the activities of media platforms such as TRT Avaz and Turkic.World. Their role in broadcasting information in different Turkic languages, contributing to the formation of a shared lexical and terminological environment, and intensifying information exchange is evaluated. At the same time, the significance of the common Turkic alphabet initiative, promoted within the framework of the Organization of Turkic States, is examined from the perspective of linguistic integration, mutual readability, and communicative convergence. The results of the study demonstrate that media, through the creation of a shared information environment, reinforces interlingual interaction, promotes mutual understanding, and facilitates integration processes that may contribute to the formation of a common Turkic language in the long run.

Keywords: *Turkic world, media, common Turkic language, TRT Avaz, Turkic.World*

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ GƏNCƏ ŞİVƏSİ: TARİXİ VƏ ELMİ BAXIŞ

Aytən Əliskəndərova
AMEA-nın Gəncə bölməsi
Kiçik elmi işçi
aytenceferova2021@gmail.com
https://orcid.org/0009-0002-8184-1671

Nərmin Alıyeva
AMEA-nın Gəncə Bölməsi
Kiçik elmi işçi
narminaliyeva573@gmail.com
https://orcid.org/0009-0003-4508-7306

1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının dil, ədəbiyyat və mədəniyyət məsələlərinin elmi əsaslarla araşdırılmasında mühüm mərhələ olmuşdur. Toplantıda latın qrafikalı əlifbaya keçid prinsipləri müəyyənləşdirilmiş, elmi anlayışların milli dilin daxili qanunlarına uyğun şəkildə yaradılması və türk dillərinin quruluş xüsusiyyətlərinin sistemli öyrənilməsi əsas vəzifə kimi irəli sürülmüşdür. Bu elmi istiqamət Azərbaycan dialektlərinin tədqiqinə də təsir göstərmiş, xüsusilə qərb dialekt qrupuna daxil olan Gəncə şivəsinin səs, söz və şəkilçi xüsusiyyətlərinin araşdırılması ədəbi dilin tarixi inkişafını aydınlaşdırmağa imkan yaratmışdır.

Açar sözlər: *Türkoloji Qurultay, Türk xalqları, Azərbaycan, Gəncə, dialektologiya, şivə, mədəniyyət*

Giriş

Türk xalqları dünya tarixində qədim və zəngin mədəni ənənələrə malik xalqlar sırasında xüsusi yer tutur. Tarixi mənbələr və elmi araşdırmalar türklərin minilliklər boyu geniş coğrafiyada məskunlaşaraq siyasi, mədəni və intellektual həyatın formalaşmasında fəal rol oynadıqlarını göstərir. Türklərin dövlətçilik, yazı, ədəbiyyat və mədəni təşkilatlanma sahələrində əldə etdikləri nailiyyətlər onların dünya sivilizasiyasının inkişafına verdiyi töhfələrin bariz nümunəsidir (Məhərrəmova, Məmmədov, s. 42). Arxeoloji materiallar və yazılı mənbələr göstərir ki, türklər hələ qədim və erkən orta əsrlərdə dövlətçilik ənənəsinə, hüquqi düşüncəyə və hərbi-siyasi təşkilatlanmaya malik olmuşlar. Xüsusilə Orxon-Yenisey yazılı abidələri türk toplumunda yazılı mədəniyyətin və siyasi təfəkkürün yüksək inkişaf səviyyəsini nümayiş etdirir. Bir çox bölgələrdə yazı və dövlət anlayışları hələ təşəkkül mərhələsində olduğu dövrdə, türk toplumlarında ideoloji və tarixi yaddaşı əks etdirən mətnlərin mövcudluğu onların mədəni inkişaf meyillərinin göstəricisidir.

1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakıda baş tutmuş Qurultay XX əsrdə türk xalqlarının elmi və mədəni həyatında dönüş nöqtəsi olmuşdur. Belə ki, ilk dəfə olaraq geniş türk coğrafiyasını vahid elmi platformada bir araya gəlmiş, dil, tarix, ədəbiyyat və xüsusilə əlifba məsələlərini sistemli şəkildə müzakirə predmetinə çevirmişdir. Qurultay çərçivəsində latın qrafikalı yeni əlifbaya keçidin prinsipləri əsaslandırılmış, türk dillərinin öyrənilməsinin metodoloji istiqamətləri müəyyənləşdirilmişdir. Burada müxtəlif respublika və ölkələrdən 131 nümayəndə iştirak etmiş, 17 iclasda onlarca məruzə dinlənilmişdir. İclaslara Səməd Ağamalıoğlu sədrlik etmiş, müzakirələrdə Bəkir Çobanzadə, Fuad Köprülüzadə, Vasili Bartold və digər tanınmış alimlər fəal iştirak etmişlər. Tədbirin Vasili Radlov və İsmayıl bəy Qaspıralı kimi görkəmli simaların xatirəsinə həsr olunması onun elmi ənənəyə və maarifçilik ideyalarına bağlılığını göstərirdi (Məmmədov, 2006, s. 3).

Birinci Türkoloji Qurultayın əsas məsələlərindən biri latın əlifbasına keçmək məsələsi olmuşdur. Əslində Qurultayın əlifba islahatlarının aparılması ilə bağlı çağırılması düşünülmüş, lakin sonra bura terminologiya, orfoqrafiya, dilçiliyin digər məsələləri, eyni zamanda ədəbiyyat, folklor, tarix, etnoqra-

fiya kimi məsələlər də əlavə olunmuşdu. Yeri gəlmişkən onu da qeyd edək ki, türkologiya dedikdə çox vaxtı yalnız dilçilik məsələləri başa düşülür. Əlbəttə, dil faktoru burada əsasdır, birincidir, amma ədəbiyyat, folklor, etnoqrafiya, incəsənət və tarix də türkologiya məsələsidir və bugünkü müstəqillik şəraitində məhz türkologiyaya bu baxımdan yanaşmaq zəruridir (Birinci Türkoloji Qurultay, 2016, s. 7-8).

Bu gün də aktuallığını qoruyan həmin qərarlara görə, ilk növbədə geniş işlənən və mənası asan başa düşülən terminlərə üstünlük verilməlidir. Türk dillərinin qrammatik qaydalarına uyğunlaşmış ərəb və fars mənşəli terminlərin istifadəsi də məqsədəuyğun hesab edilmişdir. Bununla yanaşı, mənimsənilməsi çətin olan, anlaşıqlığı zəif terminlərdən mümkün qədər uzaq durmaq zəruri sayılmışdır.

I Türkoloji Qurultayda elmi terminologiya məsələsi xüsusi diqqət mərkəzində olmuşdur. Qurultay çərçivəsində B. Çobanzadə, H. Zeynallı, X.O. Odabaşı kimi alimlər türk dillərində elmi terminlərin yaradılması və sistemləşdirilməsi prinsipləri barədə məruzələrlə çıxış etmişlər. Onların çıxışlarında terminologiyanın milli dilin daxili qanunlarına uyğun şəkildə formalaşdırılmasının vacibliyi əsas ideya kimi irəli sürülmüşdür (Zeynalov, 2002 s. 58).

Elmin müxtəlif sahələrində olduğu kimi, folklorun mənşəyinin öyrənilməsi, folklor materiallarının toplanması, nəşri və tədqiqi, şifahi xalq ədəbiyyatı örnəklərinin variantlığı, oradakı şivə, ləhcə və dialektlərin nəzərə alınması, eləcə də elmi təhlili kimi aktual məsələlər bu cəmiyyətin qarşısında vətəndaşlıq vəzifəsi kimi dayanırdı (Qasımov, 2019, s. 384).

Azərbaycan türkcəsinin dialekt və şivələri də həmin elmi prosesin tərkib hissəsi idi. Qeyd edək ki, Qərb Dialekti cüzi fərqlərlə 3 subdialekt qrupa ayrılır: 1) Ayrım - Qarapapaq subdialekti - əsasən Qazax, Ağstafa, Tovuz, Gədəbəy və Gürcüstanda (Borçalı, Qaraçöp mahalı) işlədilir. 2) Gəncə şəhəri (və bir neçə yaxın rayon mərkəzləri) subdialekti. 3) Qarabağ (və yaxın rayonlar) subdialekti [7].

Xüsusilə Qərb qrupu dialektlərinə daxil olan Gəncə şivəsi həm arxaik xüsusiyyətləri qoruyub saxlaması, həm də ədəbi dilin tarixi inkişaf mərhələlərini əks etdirməsi baxımından diqqəti cəlb edir. Bu mənada Gəncə dialektinin öyrənilməsi Birinci Türkoloji Qurultayda irəli sürülən dilin elmi əsaslarla tədqiqi prinsipinin praktik təzahürü kimi qiymətləndirilə bilər.

Gəncə dialekti fonetik və leksik xüsusiyyətlərinə görə Azərbaycan dilinin digər dialektləri ilə müqayisədə özünəməxsus mövqeyə malikdir. O, şimal-şərq ləhcəsindən nəzərəçarpacaq dərəcədə fərqlənir, cənub dialekti ilə isə yalnız müəyyən oxşarlıqlar göstərir və əsasən qərb dialekt qrupuna daxil edilir. Bu uyğunluq tarixi-etnik hadisələrlə əlaqələndirilir və bölgənin müxtəlif tayfaların miqrasiya və məskunlaşma mərhələlərinə şahidlik etməsi dil qatlarında da böyük təkan vermişdir. Qərb qrupu dialektlərinə xas olan oğuz komponentlərinin üstünlüyü Gəncə şivəsində də açıq şəkildə müşahidə olunur ki, bu da oğuz tayfalarının həmin ərazidə intensiv şəkildə məskunlaşması ilə bağlıdır (Cəfərova,2022, s. 42). Gəncə şivəsində bəzi arxaik və yerli leksik vahidlər bu gün də işləkliyini qoruyur. Məsələn, ədəbi dildə işlənməyən və ya məhdud işlənən bir sıra sözlər danışıq mühitində aktivdir.

Nəticə etibarilə, Birinci Türkoloji Qurultay türk dillərinin hərtərəfli və ardıcıl şəkildə öyrənilməsinə yol açmış, dialekt və şivələrin araşdırılmasını əsas elmi istiqamətə çevirmişdir. Bu baxımdan Gəncə şivəsinin öyrənilməsi həm Azərbaycan dilinin keçdiyi tarixi yolunu üzə çıxarmağa, həm də ümumtürk dil birliyinin daha dolğun şəkildə dərk edilməsinə xidmət edir və qurultayın irəli sürdüyü düşüncələrin davamı kimi dəyərləndirilə bilər.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Birinci Türkoloji Qurultay: Görünən və Görünməyən tərəflər elmi sessiyanın materialları, Bakı, 2016, s.100
2. Cəfərova G. “Gəncə dialektində rema və tema zonası”, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, Dilçilik araşdırmaları jurnalı №1 , 2022, s.169
3. Qasımov C. “Birinci Türkoloji Qurultay: Şahidlər və Şəhidlər”, Bakı, 2019, s.748
4. Məhərrəmova S., Məmmədov Ə. “Türk xalqlarının mədəniyyəti (1946-1960-cı illər)” Sumqayıt dövlət universiteti elmi xəbərlər- Sosial və humanitar elmlər bölməsi, s.42

5. Məmmədov E., "Türk dünyasının şanlı və qanlı tarixi- I Bakı Türkoloji Qurultayı, Müasir türkologiya-dünən,bugün və sabah" Bakı, "Elm və təhsil" ,2006, s.452
6. Zeynalov F. "Türkologiyanın əsasları" , Bakı, 2002, s.176
7. https://www.ens.az/az/gence-lehcesi

THE FIRST TURKOLOGICAL CONGRESS AND THE GANJA DIALECT: A HISTORICAL AND SCHOLARLY PERSPECTIVE

Aytan Aliskandarova
Narmin Alıyeva

The First Turkological Congress, held in Baku from February 26 to March 6, 1926, marked a significant milestone in the scientific study of the languages, literature, and culture of Turkic peoples. The congress established the principles for the transition to the Latin alphabet, emphasized the creation of scientific terminology in accordance with the internal laws of the national language, and identified the systematic study of the structural features of Turkic languages as a primary objective. This scholarly direction also influenced the study of Azerbaijani dialects. In particular, the investigation of the phonetic, lexical, and morphological features of the Ganja dialect, which belongs to the western dialect group, contributed to clarifying the historical development of the literary language.

Keywords: *Turkological Congress, Turkic peoples, Azerbaijan, Ganja, dialectology, dialect, culture*

TÜRK DİLLƏRİNİN MÜQAYİSƏLİ QRAMMATİKASINDA MƏNSUBİYYƏT KATEQORİYASININ MORFOSİNTAKTİK VƏ TERMİNOLOJİ TƏDQİQİ

Çinarə Şahbazlı
Bakı Biznes Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
chinara.shahbazli@mail.ru
https://orcid.org/0009-0005-0137-608X

Təqdim olunan məqalə türk dillərinin müqayisəli qrammatikası kontekstində mənsubiyyət kateqoriyasının morfosintaktik və terminoloji xüsusiyyətlərinin hərtərəfli elmi təhlilinə həsr olunmuşdur. Tədqiqat çərçivəsində Azərbaycan, türk və digər türk dillərinə aid dil materialları əsasında sahiblik münasibətlərinin ifadə vasitələri, struktur modelləri və funksional-semantik yükü müqayisəli-tipoloji aspektdə sistemli şəkildə araşdırılmışdır. Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, aqqlütinativ tipli türk dillərində mənsubiyyət kateqoriyası əsasən şəkilçi morfologiyası vasitəsilə realizə olunur və bu kateqoriya şəxs, say və referensiallıq kimi qrammatik göstəricilərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bununla yanaşı, müxtəlif türk dillərinin elmi təsvirində mənsubiyyət kateqoriyasına dair terminoloji variasiyalar müşahidə olunur ki, bu da vahid terminoloji çərçivənin formalaşdırılması zərurətini meydana çıxarır. Tədqiqatın nəticələri göstərir ki, mənsubiyyət kateqoriyası yalnız morfoloji səviyyədə deyil, həm də semantik və koqnitiv müstəvilərdə təzahür edən çoxölçülü qrammatik hadisə kimi çıxış edir və türk dillərinin qrammatik sistemində fundamental əhəmiyyət kəsb edir.

Açar sözlər: *mənsubiyyət kateqoriyası, türk dilləri, müqayisəli qrammatika, aqqlütinasiya, morfosintaksis*

Giriş

Mənsubiyyət kateqoriyası türk dillərinin müqayisəli qrammatikası çərçivəsində yüksək sabitliyə malik, tipoloji baxımdan fundamental və sistem təşkil edən qrammatik kateqoriyalardan biri kimi nəzərdən keçirilir. Bu kateqoriya aqqlütinativ dil tipinin struktur xüsusiyyətlərini əks etdirərək əsasən şəkilçi morfologiyası vasitəsilə realizə olunur və dilin morfoloji, sintaktik və semantik səviyyələri arasında inteqrativ funksiyanı təmin edir (Comrie, 1989; Johanson, 1998).

Morfoloji səviyyədə mənsubiyyət kateqoriyası şəxs və say kateqoriyalarının sistemli işarələnməsi ilə xarakterizə olunur. Türk dillərində mənsubiyyət göstəriciləri affiksal strukturda sabit paradigma təşkil edir və bu sistem proto-türk dilindən irsən gələn morfoloji uyğunluğun davamı kimi qiymətləndirilir (Lewis, 2000; Kornfilt, 1997). Azərbaycan, türk və qazax dillərində müşahidə olunan paralel formalar (*kitab-ım, kitap-ım, kitap-ım*) bu kateqoriyanın struktur stabilliyini və diaxron davamlılığını təsdiq edir.

Eyni zamanda, mənsubiyyət kateqoriyası yalnız affiksal işarələnmə ilə məhdudlaşmır, həm də isim birləşmələrinin daxili strukturunun təşkilində mühüm rol oynayır. Türk dillərində izafət tipli konstruksiyalar vasitəsilə isimlərarası sintaktik münasibətlər formalaşır və bu münasibətlər referensial əlaqələrin müəyyənləşdirilməsində əsas mexanizmlərdən biri kimi çıxış edir (Heine, 1997; Croft, 2003). Bu kontekstdə mənsubiyyət göstəriciləri yalnız "sahiblik" ifadəsi deyil, həm də müəyyənlik, referensiallıq və diskursiv informasiya strukturunun tənzimlənməsi funksiyasını yerinə yetirir.

Sintaktik baxımdan mənsubiyyət kateqoriyası ismi birləşmələrdə baş və asılı komponentlər arasında iyerarxik əlaqəni təmin edir. Bu strukturda mənsubiyyət şəkilçiləri referentlərin identifikasiyasını asanlaşdırır və informasiya axınının koherent təşkilinə xidmət edir. Bu xüsusiyyət xüsusilə diskurs analizində mühüm əhəmiyyət daşıyır, çünki mənsubiyyət markerləri mətn daxilində referensial davamlılığı təmin edən əsas vasitələrdən biridir.

Semantik müstəvidə mənsubiyyət kateqoriyası yalnız konkret mülkiyyət münasibətləri ilə məhdudlaşmır, eyni zamanda abstrakt, sosial, institusional və metaforik əlaqələri də əhatə edir. Koqnitiv-linqvistik yanaşmaya görə, mənsubiyyət "aidlik", "əlaqəlilik" və "kontrol" kimi konseptlərin dil struk-

turlarında kodlaşdırılmasıdır (Langacker, 2008). Bu yanaşma göstərir ki, mənsubiyyət kateqoriyası statik qrammatik vahid deyil, əksinə, insan təfəkküründün konseptual modelləri ilə sıx bağlı olan dinamik sistemdir.

Türk dillərinin müqayisəli təhlili göstərir ki, mənsubiyyət kateqoriyası struktur baxımından yüksək paralellik nümayiş etdirməklə yanaşı, funksional baxımdan da yaxınlıq göstərir. Bununla belə, bəzi dillərdə sintaktik realizasiya fərqlilikləri müşahidə olunur. Məsələn, bəzi türk dillərində analitik ifadə vasitələrinin (yardımçı sözlər, prepozisiya tipli strukturlar) daha geniş istifadəsi sintaktik variasiyanın mövcudluğunu göstərir. Bu fərqliliklər tipoloji diversifikasiyanın təbii nəticəsi kimi qiymətləndirilir və ümumi sistemin pozulmasına səbəb olmur.

Terminoloji aspektdə isə türkoloji və beynəlxalq dilçilik ənənələri arasında müəyyən fərqliliklər mövcuddur. İngilis dilində "possessive constructions", "possessive markers" və "possessive morphology" terminləri geniş istifadə olunur (Crystal, 2008). Türk dilçiliyində "iyelik ekleri", Azərbaycan dilçiliyində isə "mənsubiyyət şəkilçiləri" termini daha çox işlədilir. Bu terminoloji müxtəliflik elmi təsvirin standartlaşdırılması baxımından müəyyən çətinliklər yaradır və beynəlxalq müqayisəli dilçilikdə vahid terminoloji sistemin formalaşdırılmasının zəruriliyini ortaya qoyur.

Funksional yanaşma çərçivəsində mənsubiyyət kateqoriyası kommunikativ ehtiyacların nəticəsi kimi formalaşan və diskursiv funksiyalara xidmət edən qrammatik sistem kimi şərh olunur (Croft, 2003). Bu baxımdan, mənsubiyyət yalnız morfoloji göstərici deyil, həm də mətn strukturu daxilində informasiya təşkilini tənzimləyən funksional vasitədir.

Türk dillərinin müqayisəli təhlili göstərir ki, mənsubiyyət kateqoriyası struktur və funksional baxımdan yüksək tipoloji uyğunluq nümayiş etdirir. Bununla belə, bəzi dillərdə sintaktik realizasiya formalarında və terminoloji ənənələrdə müşahidə olunan fərqliliklər tipoloji variasiyanın təbii nəticəsi kimi qəbul edilir və ümumi sistemin genetik və struktur bütövlüyünü zəiflətmir.

Beləliklə, mənsubiyyət kateqoriyası türk dillərində yalnız morfoloji işarələmə mexanizmi deyil, eyni zamanda sintaktik təşkilatlanma, semantik genişlənmə və koqnitiv konseptləşdirməni özündə birləşdirən inteqrativ qrammatik sistem kimi dəyərləndirilir. Onun müqayisəli-linqvistik təhlili türk dillərinin genetik yaxınlığını, tipoloji sabitliyini və qrammatik strukturun universal xüsusiyyətlərini elmi əsaslarla təsdiq etməyə imkan verir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Comrie, B. (1989). Language universals and linguistic typology: Syntax and morphology. University of Chicago Press.
2. Croft, W. (2003). Typology and universals (2nd ed.). Cambridge University Press.
3. Crystal, D. (2008). A dictionary of linguistics and phonetics (6th ed.). Blackwell.
4. Heine, B. (1997). Possession: Cognitive sources, forces, and grammaticalization. Cambridge University Press.
5. Hopper, P. J., & Traugott, E. C. (2003). Grammaticalization (2nd ed.). Cambridge University Press.
6. Johanson, L. (1998). The structure of Turkic. In L. Johanson & É. A. Csató (Eds.), The Turkic languages (pp. 30–66). Routledge.
7. Kornfilt, J. (1997). Turkish. Routledge.
8. Langacker, R. W. (2008). Cognitive grammar: A basic introduction. Oxford University Press.
9. Lewis, G. (2000). Turkish grammar. Oxford University Press.
10. Lyons, J. (1977). Semantics (Vols. 1–2). Cambridge University Press.

MORPHOSYNTACTIC AND TERMINOLOGICAL INVESTIGATION OF THE CATEGORY OF POSSESSION IN THE COMPARATIVE GRAMMAR OF TURKIC LANGUAGES

Chinara Shahbazli

This study aims to provide a comprehensive analysis of the morphosyntactic and terminological properties of the possessive category within the framework of the comparative grammar of Turkic languages. Drawing on data from Azerbaijani, Turkish, and other Turkic languages, the research systematically investigates the formal means of expressing possession, underlying structural patterns, and their functional load from a comparative perspective. The analysis demonstrates that, as agglutinative languages, Turkic languages predominantly encode possessive relations through suffixal morphology, which is intrinsically linked to grammatical categories such as person, number, and referentiality. Furthermore, the study identifies notable terminological divergences in the description of the possessive category across different Turkic linguistic traditions, thereby highlighting the necessity for terminological standardization. The findings suggest that the possessive category extends beyond purely morphological representation, encompassing semantic and cognitive dimensions, and thus constitutes a fundamental component of the grammatical architecture of Turkic languages.

Keywords: *possessive category, Turkic languages, comparative grammar, agglutination, morphosyntax*

I TÜRKOLOJİ QURULTAYIN AZƏRBAYCAN DİLÇİLİYİNƏ TƏSİRİ VƏ AĞAMUSA AXUNDOVUN ELMİ İRSİ

Çinarə Yolçubəyli
Mingəçevir Dövlət Universiteti
Müəllim, doktorant
chinara.yolchubayli@mdu.edu.az
https://orcid.org/0000-0002-6971-8710

Məqalədə 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın tarixi və elmi əhəmiyyəti müasir dilçilik baxımından və akademik Ağamusa Axundovun əsərlərində əks olunan elmi davamlılıqla əlaqəli şəkildə təhlil edilir. Birinci Türkoloji Qurultay təkcə türk xalqları arasında dil quruculuğu, əlifba islahatı və terminologiyanın sistemləşdirilməsi tarixində tarixi bir hadisə kimi deyil, həm də dilçilik düşüncəsində fundamental metodoloji dönüş nöqtəsi kimi qiymətləndirilir. Tədqiqatda Qurultayda qəbul edilən qərarların fonetik prinsip, yazı və orfoqrafiya məsələləri, eləcə də dil siyasəti baxımından nəzəri əhəmiyyəti araşdırılır.

Məqalənin əsas elmi məqsədi bu tarixi qərarların sonradan Azərbaycan dilçiliyində struktur və sistemli yanaşmaların formalaşması üçün necə əsas yaratdığını əsaslandırmaqdır. Müəllif akademik Ağamusa Axundovun fonologiya, qrammatika, stilistika və dil tarixi sahələrindəki elmi fəaliyyətini Qurultayda müəyyən edilmiş strateji elmi xəttin konseptual və müasir davamı kimi şərh edir. Xüsusilə, alimin eksperimental fonetika laboratoriyasından istifadə edərək riyazi və fiziki metodlarla türk dillərinin səs sistemi üzərində apardığı tədqiqat, Konqres nümayəndələri tərəfindən nəzərdə tutulan "elmi cəhətdən əsaslandırılmış dil planlaşdırması" ideyasının praktik və akademik kulminasiya nöqtəsi kimi təqdim olunur.

Tədqiqat həmçinin konkret dəlillərlə Axundovun "Azərbaycan dilinin fonetikası", "Dil və mədəniyyət" və "Dil estetikası" kimi əsərlərində irəli sürülən ideyaların Konqres tərəfindən müəyyən edilmiş türkoloji tədqiqatların əsas məsələləri, o cümlədən müqayisəli metod, ortaq terminologiya və dilin inkişafının daxili qanunları ilə uyğun gəldiyini nümayiş etdirir. Sonda vurğulanır ki, Ə.Axundovun elmi irsi Birinci Türkoloji Konqresdə müəyyən edilmiş elmi trayektoriyanın müasir metodologiyası ilə zənginləşdirilmiş bir modelini təmsil edir və türk dünyasında akademik əməkdaşlıq üçün mühüm istinad nöqtəsi kimi xidmət etməyə davam edir.

Açar sözlər: *Birinci Türkoloji Qurultay, Ağamusa Axundov, Azərbaycan dilçiliyi, fonetika, qrammatika, dil tarixi, ortaq türk dili.*

Giriş

XX əsrin birinci rübü türk xalqlarının ictimai-mədəni həyatında ideoloji və elmi yenidənqurma mərhələsi ilə səciyyələnir. Bu dövrdə dil məsələsi sadəcə kommunikativ vasitə kimi deyil, milli modernləşmə layihəsinin əsas dayaqlarından biri kimi dərk olunurdu. 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay bu mənada təkcə təşkilati tədbir deyil, dilçilik düşüncəsinin istiqamətini müəyyənləşdirən platforma olmuşdur (1926-cı il I Bakı türkoloji qurultayı, 2006). Qurultayın əhəmiyyəti yalnız qəbul etdiyi texniki qərarlarla məhdudlaşmır. Əsas məsələ dilə yanaşmanın daha normativ və sistemli xarakter alması idi. Bu mərhələdən etibarən dil faktları sadə müşahidə obyektindən çıxaraq daha çox struktur baxımından öyrənilən bir tədqiqat predmetinə çevrilməyə başladı. Bu möhtəşəm məclisdə qəbul edilən qərarlar, xüsusilə latın qrafikalı əlifbaya keçid və türk dillərinin elmi qrammatikasının yaradılması tələbi Azərbaycan dilçiliyinin gələcək simasını müəyyən etmişdir. Azərbaycan dilçilik elminin parlaq siması olan akademik Ağamusa Axundovun yaradıcılığı, mahiyyət etibarilə bu qurultayda müəyyən edilən elmi yanaşmanın məntiqi davamı və zirvəsidir.

I Türkoloji Qurultayda əsas məqsəd türk dillərinin tarixi inkişaf mərhələlərini müəyyənləşdirmək və müasir istiqamətləri elmi müstəvidə müzakirə etmək idi. Ağamusa Axundov öz fəaliyyətində məhz bu "tarixilik və müasirlik" balansını qorumuşdur. Alimin 1960-cı illərdən başlayan tədqiqatları,

qurultayın qarşıya qoyduğu "türk dillərinin müasir problemlərinin elmi əsaslarla dəyərləndirilməsi" hədəfi ilə tam üst-üstə düşür.

A.Axundov Azərbaycan dilçiliyində ilk dəfə olaraq dilin inkişafını həm daxili qanunauyğunluqlar, həm də xarici faktorlar nöqteyi-nəzərindən araşdırmışdır. Onun "Dil və mədəniyyət" əsəri, qurultayın hədəflədiyi "türk xalqlarının mədəni özünəməxsusluğunun araşdırılması" platformasının akademik nümunəsidir.

Qurultayın gündəliyində duran ən kəskin məsələlərdən biri türk xalqlarının yazı və orfoqrafiya məsələləri idi. Ağamusa Axundov Azərbaycan dilinin fonoloji sistemini struktur baxımdan təhlil etmişdir. O, "Azərbaycan dilinin fonetikası" əsəri bu sahədə inqilabi addım olmuşdur. Bu əsərində səslərin funksional xüsusiyyətləri və qarşılıqlı münasibətləri sistemli şəkildə araşdırılmışdır (Axundov, 1984, s. 24–32). O, eksperimental fonetika laboratoriyası quraraq, türk dillərinin səslərini riyazi və fiziki metodlarla tədqiq etmişdir.

A.Axundov ahəng qanununu yalnız fonetik hadisə kimi deyil, dilin struktur bütövlüyünü təmin edən mexanizm kimi qiymətləndirmişdir (Axundov, 1984, s. 57–65). Bu yanaşma Qurultayda qəbul edilmiş fonetik prinsipin nəzəri dərinləşdirilməsi kimi dəyərləndirilə bilər.

Ağamusa Axundovun orfoqrafiya məsələlərinə dair tədqiqatları da xüsusi əhəmiyyətə malikdir. O, yazı normalarının sistemləşdirilməsi və elmi əsaslandırılması sahəsində mühüm işlər görmüşdür (Axundov, 1990, s. 31–44).

I Türkoloji Qurultayın qəbul etdiyi qərarlar sırasında ortaq əlifba, ortaq ədəbi dil, ortaq terminologiya kimi məsələlər xüsusilə mühüm yer tuturdu. Məlum olduğu kimi həmin məsələlər və onlarla bağlı problemlər bu gün də öz aktuallığı ilə seçilir və böyük əhəmiyyət daşıyır (Nağısoylu, 2016, s. 14).

Türk xalqlarının mədəni və elmi həyatında mühüm hadisələrdən biri olan I Türkoloji Qurultay yalnız dilçilik sahəsində deyil, həm də yazı sistemi və əlifba siyasəti baxımından böyük əhəmiyyətə malik olmuşdur. Qurultayda müzakirə olunan əsas məsələlərdən biri türk xalqları üçün vahid latın qrafikalı əlifbanın tətbiqi idi. Qurultay materiallarında bu məsələ geniş şəkildə müzakirə edilmiş və latın qrafikasının türk dillərinin fonetik xüsusiyyətlərini daha dəqiq əks etdirməsi vurğulanmışdır (1926-cı il I Bakı türkoloji qurultayı, 2006). Bununla yanaşı, vahid əlifba ideyası yalnız texniki yazı sistemi məsələsi deyil, həm də türk xalqları arasında elmi, mədəni və informasiya əlaqələrinin gücləndirilməsi baxımından mühüm vasitə kimi qiymətləndirilmişdir.

Bununla belə, türk xalqları üçün vahid əlifba məsələsi bu gün də tam şəkildə həll olunmuş problem hesab edilmir. Qurultayın latın qrafikasına keçidlə bağlı qərarları müxtəlif türk respublikalarında fərqli şəkildə həyata keçirilmişdir. Bu qərarların ən ardıcıl və uğurlu tətbiqi Azərbaycan və Türkiyədə müşahidə olunmuşdur. Digər türk respublikalarında isə bu proses müxtəlif siyasi və tarixi səbəblərdən gecikmiş və ya fərqli formalarda həyata keçirilmişdir.

Azərbaycanın əlifba tarixini ümumtürk kontekstində araşdırmaq xüsusilə vacibdir. Tarixi mənbələr göstərir ki, türk xalqları müxtəlif dövrlərdə müxtəlif yazı sistemlərindən istifadə etmişlər. Arxeoloji qazıntılar nəticəsində eramızdan əvvəl V əsrə aid olduğu ehtimal edilən hun yazıları aşkar edilmişdir. Bu yazı nümunələri qrafik xüsusiyyətlərinə görə qədim göytürk yazısı ilə oxşarlıq göstərir. Qədim türk yazısının ən məşhur nümunələri isə VII–VIII əsrlərə aid edilən Orxon-Yenisey abidələrində qorunub saxlanılmışdır. Bu kitabələr türk xalqlarının yazılı mədəniyyətinin qədimliyini və inkişaf səviyyəsini göstərən mühüm tarixi mənbələrdir.

VII əsrdən etibarən ərəb fəthləri nəticəsində İslam dini ilə yanaşı ərəb qrafikalı əlifba da geniş yayılmışdır. Bu yazı sistemi uzun müddət Azərbaycan və digər müsəlman türk xalqları arasında istifadə edilmiş, onun vasitəsilə zəngin ədəbi, elmi və tarixi irs formalaşmışdır. Azərbaycanda ərəb qrafikası min ildən artıq müddətdə istifadə olunmuş və bu dövrdə çoxsaylı elmi əsərlər, xronikalar və ədəbi nümunələr yaradılmışdır. Bununla belə, ərəb əlifbasının türk dillərinin fonetik quruluşuna tam uyğun olmaması məsələsi XIX əsrdən etibarən geniş müzakirə olunmağa başlanmışdır.

Azərbaycan maarifçilik hərəkatının görkəmli nümayəndəsi Mirzə Fətəli Axundzadə ərəb qrafikasının dəyişdirilməsi məsələsini ilk dəfə sistemli şəkildə gündəmə gətirən ziyalılardan biri olmuşdur. O, hələ XIX əsrin ortalarında ərəb əlifbasının türk dillərinin fonetik xüsusiyyətlərini dəqiq əks etdirmədiyini qeyd etmiş və yeni əlifba layihəsi hazırlamışdır. 1863-cü ildə İstanbulda Osmanlı dövlətinin rəhbərliyi ilə görüşərək bu layihəni təqdim etmiş, lakin onun təşəbbüsləri həmin dövrdə qəbul edilməmişdir. Buna baxmayaraq, Axundzadənin ideyaları sonrakı dövrdə əlifba islahatları üçün mühüm nəzəri əsas yaratmışdır.

XX əsrin əvvəllərində türk xalqları arasında əlifba islahatı məsələsi yenidən aktuallaşdı. Bu dövrdə Azərbaycan ziyalıları, xüsusilə Bəkir Çobanzadə, ərəb əlifbasının islah edilməsinin çətinliyini vurğulayaraq latın qrafikasına keçidin daha məqsədəuyğun olduğunu qeyd edirdilər. Onların fikrincə, ərəb əlifbasının yalnız müəyyən dəyişikliklərlə uyğunlaşdırılması mümkün deyildi, çünki bu yazı sistemi türk dillərinin fonetik quruluşuna tam uyğun gəlmirdi.

1920-ci illərdə Azərbaycanda əlifba islahatları artıq praktiki mərhələyə keçdi. 1921-ci ildə Xalq Komissarları Sovetinin qərarı ilə Əlifba Komitəsi yaradıldı. 1922-ci ildə Nəriman Nərimanovun rəhbərliyi ilə hazırlanmış latın qrafikalı yeni Azərbaycan əlifbasının layihəsi mətbuatda dərc edildi və geniş müzakirələrə səbəb oldu. Nəticədə 1923-cü ildə yeni əlifba ərəb qrafikası ilə yanaşı rəsmi yazı sistemi kimi qəbul edildi. 1929-cu il yanvarın 1-dən isə Azərbaycanda tam şəkildə latın qrafikasına keçid həyata keçirildi.

Lakin 1939-cu ildə Sovet dil siyasətinin tərkib hissəsi kimi Azərbaycan da daxil olmaqla bir sıra türk respublikalarında kiril qrafikalı əlifbaya keçid həyata keçirildi. Bu qərar qısa müddət ərzində tətbiq olundu və 1940-cı ildən etibarən bütün təhsil və nəşriyyat sistemi kiril qrafikasına keçdi. Əlifbanın tez-tez dəyişdirilməsi isə mədəni və elmi irsin davamlılığı baxımından müəyyən çətinliklər yaratdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra əlifba məsələsi yenidən gündəmə gəldi. 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında qanun qəbul etdi. Bu əlifba əsas etibarilə türk əlifbasına uyğun şəkildə hazırlanmış və türk xalqları arasında ortaq yazı sistemi ideyasına yaxınlaşmaq baxımından mühüm addım hesab edilmişdir.

Latın qrafikasına keçid prosesi mərhələli şəkildə həyata keçirilmiş və təxminən on il davam etmişdir. Bu müddət ərzində təhsil sistemi, nəşriyyat fəaliyyəti və dövlət idarəçiliyində yeni əlifbaya uyğunlaşma prosesi baş vermişdir. 2001-ci il avqustun 1-dən etibarən Azərbaycanda latın qrafikalı əlifbaya tam keçid başa çatdırılmışdır. Həmin ilin 9 avqust tarixli Prezident fərmanı ilə 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edilmişdir.

Müasir dövrdə Azərbaycan əlifbası bir sıra türk respublikaları üçün nümunə kimi qiymətləndirilir. Xüsusilə Qazaxıstan və Krım tatarları arasında latın qrafikasına keçid prosesində Azərbaycan təcrübəsinə maraq göstərilir. Bu isə gələcəkdə ortaq türk əlifbasının formalaşdırılması istiqamətində mühüm addım kimi qiymətləndirilə bilər.

A.Axundovun "Azərbaycan dilinin tarixi fonetikası" və feilin zamanları ilə bağlı araşdırmaları türkologiya üçün fundamentaldır. Qurultay nümayəndələrinin arzu etdiyi "türk dillərinin müqayisəli qrammatikasının yaradılması" məsələsi, alimin feil kateqoriyasının tarixi təkamülü ilə bağlı gəldiyi nəticələrdə öz əksini tapır. O, sübut edirdi ki, Azərbaycan dili qədim türk köklərini qorumaqla yanaşı, özünəməxsus yaradıcı inkişaf yolu keçmişdir.

Ağamusa Axundovun yaradıcılığı təkcə quru qrammatik qaydalardan ibarət deyildir. Onun "Dilin estetikası" əsəri dilçiliyə yeni bir ruh gətirmişdir. Bu, qurultayın "türk xalqlarının ədəbiyyatı və folklorunun tədqiqi" hədəfinə dilçilik prizmasından yanaşmaq idi. Alim bədii dilin imkanlarını, poeziyanın dil strukturuna təsirini araşdıraraq, türkologiyanın hüdudlarını genişləndirmişdir.

Yekun olaraq, A. Axundov sübut etmişdir ki, Azərbaycan dili qədim türk köklərini mühafizə etməklə yanaşı, həm də estetik və funksional baxımdan zənginləşən dinamik bir sistemdir. Onun "Dilin estetikası" və feilin tarixi təkamülünə dair gəldiyi nəticələr Qurultayın arzuladığı müqayisəli türkologiya elminin ən dəyərli nümunələridir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. 1926-cı il I Bakı türkoloji qurultayı: Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər. (2006). Çinar-Çap.
2. Axundov, A. (1984). Azərbaycan dilinin fonetikası. Elm.
3. Axundov, A. (1990). Azərbaycan dilinin orfoqrafiya məsələləri. Maarif.
4. Nağısoylu, M. (2016, Mart 5). I Türkoloji Qurultay – tarixə düşmüş əlamətdar hadisə. 525-ci qəzet, 14.

THE IMPACT OF THE FIRST TURKOLOGICAL CONGRESS ON AZERBAIJANI LINGUISTICS AND THE SCIENTIFIC LEGACY OF AGAMUSA AKHUNDOV

Chinara Yolchubayli

The article analyzes the historical and scientific significance of the First Turkological Congress held in Baku in 1926 from the perspective of modern linguistics and in relation to the scientific continuity reflected in the works of Academician Aghamusa Akhundov. The First Turkological Congress is evaluated not only as a historical event in the history of language construction among Turkic peoples, alphabet reform, and the systematization of terminology, but also as a fundamental methodological turning point in linguistic thought. The study examines the theoretical significance of the decisions adopted at the Congress in terms of the phonetic principle, writing and orthography issues, as well as language policy.

The main scientific objective of the article is to substantiate how these historical decisions later created a basis for the formation of structural and systematic approaches in Azerbaijani linguistics. The author interprets the scholarly activities of Academician Aghamusa Akhundov in the fields of phonology, grammar, stylistics, and the history of language as a conceptual and modern continuation of the strategic scientific line established at the Congress. In particular, the scholar's research on the sound system of Turkic languages through mathematical and physical methods using the experimental phonetics laboratory is presented as a practical and academic culmination of the idea of "scientifically grounded language planning" envisioned by the Congress delegates.

The study also demonstrates, with concrete evidence, that the ideas put forward in Akhundov's works such as "Phonetics of the Azerbaijani Language," "Language and Culture," and "The Aesthetics of Language" correspond with the key issues of Turkological studies identified by the Congress, including the comparative method, common terminology, and the internal laws of language development. In conclusion, it is emphasized that A. Akhundov's scientific legacy represents a model enriched with modern methodology of the scientific trajectory outlined at the First Turkological Congress and continues to serve as an important reference for academic cooperation in the Turkic world.

Keywords: *First Turkological Congress, Aghamusa Akhundov, Azerbaijani linguistics, phonetics, grammar, history of the language, common Turkic language.*

RƏQƏMSAL MÜHİTDƏ EMOSİYALARIN İFADƏSİ

Rəna Mahmudova
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Aparıcı elmi işçi
rena.memmedova.1991@inbox.ru
https://orcid.org/0009-0009-0303-6555

Məqalədə rəqəmsal mühitdə emosiyaların formalaşma xüsusiyyətləri, onların ifadə vasitələri və bu emosiyaların avtomatik şəkildə tanınmasında Sentiment analiz metodlarının rolu təhlil edilir. Xüsusilə Təbii dil emalı texnologiyalarının mətn əsaslı emosiyaların müəyyənləşdirilməsində tətbiqi və bu sahədə istifadə olunan alqoritmlərin effektivliyi nəzərdən keçirilir.

Bundan əlavə, tədqiqat rəqəmsal emosiyaların psixoloji və sosial təsirlərini də araşdırır. Araşdırmalar göstərir ki, rəqəmsal emosiyalar bir tərəfdən insanlar arasında ünsiyyəti asanlaşdırır və sosial əlaqələri gücləndirir, digər tərəfdən isə empatiyanın azalması, emosional dərinliyin zəifləməsi və yanlış anlaşılmalar kimi problemlərə səbəb ola bilər.

Nəticə olaraq, rəqəmsal emosiyalar müasir informasiya cəmiyyətində mühüm rol oynayan kompleks bir fenomen kimi qiymətləndirilir. Bu sahədə aparılan tədqiqatlar həm texnoloji inkişaf, həm də insan davranışlarının daha dərindən anlaşılması baxımından böyük əhəmiyyət kəsb edir. Gələcək perspektivdə emosiyaların daha dəqiq və çoxşaxəli analizinə imkan verən süni intellekt sistemlərinin inkişafı bu sahənin əsas istiqamətlərindən biri olacaqdır.

Açar sözlər: *rəqəmsal emosiyalar, sosial media, sentiment analiz, Təbii dil emalı, ünsiyyət, süni intellekt*

Giriş

Süni intellektin insan zəkası ilə yarışdığı bir dövrə qədəm qoyuruq. Çağdaş dövrümüzdə süni intellektlə yaradılan proqramlar artıq insanların bir nömrəli köməkçisinə çevrilib. Müasir dövrümüzdə insanların əksəriyyəti internet və sosial şəbəkələrdən istifadə edərək öz hisslərini, fikirlərini ifadə edir, təcrübələrini bölüşürlər. Bu, adətən internetdən istifadə edərək böyük miqdarda məlumatların ötürülməsinə səbəb olur. Lakin bu məlumatların əksəriyyəti təhlil edildikdə faydalıdır. Məsələn, əksər sənaye şirkətləri və seçki kampaniyaları kommunikasiya saytları vasitəsilə insanların fikirlərini bilməyə əsaslanır və onların müsbət, mənfi və ya neytral olub-olmadığını öyrənir. Sentiment analiz internetdə nəhəng məlumat mübadiləsi nəticəsində yaranmışdır.

"Sentiment analiz böyük verilənlərdə subyektiv məlumatların sistemli təhlilinə imkan verən təbii dilin emalı üsuludur" (İskəndərova, G., 2023, s. 128). Sentiment analiz bir çox tədqiqatçılar üçün geniş sahədir və onu rəyin öyrənilməsi də adlandırmaq olar, çünki o, ideya və fikirləri müsbət, mənfi və ya neytral kimi təsnif etməyə kömək edir. Sentiment analizi internetdə və sosial mediada rəy və sorğularda geniş istifadə olunan mətn tədqiqatıdır. O, kommersiya saytlarında onların məhsulun qəbul və ya rədd edilməsini bilmək üçün cavabları və müştəri rəylərini idarə edir; bu, müştərinin seçimini izah etdiyi üçün şirkətin satışlarını yaxşılaşdırmağa kömək edir. Sosial şəbəkələr vasitəsilə müxtəlif fikirlərin partlaması ilə sistemlər, siyasətçilər, psixoloqlar, istehsalçılar və tədqiqatçılar tərəfindən ən yaxşı qərarları həyata keçirmək üçün təhlil etmək üçün yeni ideyalar yarandı. Sentiment analizi mətn vahidində hiss məzmununu çıxarmaq və müəyyən etmək üçün NLP, statistika və maşın öyrənmə yanaşmalarından istifadə edərək yüksək effektivliyə malikdir.

Rəqəmsal texnologiyaların sürətli inkişafı insan ünsiyyətinin xarakterini dəyişdirərək emosiyaların ifadə və qavranılma formalarına yeni istiqamətlər qazandırmışdır. Sosial media platformaları, mesajlaşma tətbiqləri və digər onlayn mühitlər fərdlərə emosiyalarını ənənəvi ünsiyyət vasitələrindən fərqli olaraq simvolik və qısaldılmış formalarla-emojilər, GIF-lər, stikerlər və reaksiyalar vasitəsilə ifa-

də etməyə imkan verir. Bu isə emosional ünsiyyətin daha sürətli və əlçatan olmasını təmin etsə də, eyni zamanda emosiyaların interpretasiyasında qeyri-müəyyənlik və subyektivlik riskini artırır.

Müasir dövrdə Süni intellekt və rəqəmsal texnologiyalar insan həyatının ayrılmaz hissəsinə çevrilmişdir. İnsanlar artıq emosiyalarını üzbəüz ünsiyyətdən daha çox rəqəmsal platformalar vasitəsilə ifadə edirlər. Bu dəyişiklik emosional ünsiyyətin strukturuna təsir göstərmiş və yeni anlayış – "rəqəmsal emosiyalar" terminini formalaşdırmışdır.

Rəqəmsal mühitdə emosiyalar ənənəvi mimika və səs tonunun əvəzinə simvolik vasitələrlə ötürülür. Bu isə emosiyaların həm ifadə olunmasını, həm də qavranılmasını fərqli istiqamətdə inkişaf etdirir.

Rəqəmsal mühitdə emosiyalar müxtəlif yollarla ifadə olunur. Bunlar aşağıdakılardır:

- Emojilər və ikonlar
- GIF və stikerlər
- Qısa mətn mesajları
- Reaksiya düymələri (bəyənmək, sevmək və s.)

Bu vasitələr emosional məlumatın sürətli ötürülməsinə imkan yaratsa da, onların interpretasiyası subyektiv ola bilər. Məsələn, eyni emoji fərqli insanlar tərəfindən müxtəlif cür başa düşülə bilər.

Araşdırmalar göstərir ki, istifadəçilər yazılı mesajlarda emosional tonu gücləndirmək üçün əlavə simvollardan istifadə etməyə meyillidirlər (Derks et al., 2008).

Rəqəmsal emosiyaların öyrənilməsində ən mühüm istiqamətlərdən biri onların avtomatik analizi məsələsidir. Bu sahədə Sentiment analizi xüsusi rol oynayır.

Sentiment analizi mətnlərdə emosional tonu müəyyən etməyə imkan verir: müsbət, mənfi, neytral.

Bu texnologiya xüsusilə sosial media analizində geniş istifadə olunur. Şirkətlər müştəri rəylərini analiz edərək məhsullarına münasibəti müəyyənləşdirirlər (Liu B., 2012).

Bundan əlavə, Təbii dil emalı alqoritmləri emosiyaların daha dərin səviyyədə — məsələn, qəzəb, sevinc, qorxu kimi təsnifatını da həyata keçirə bilir.

Rəqəmsal emosiyalar insan psixologiyasına və sosial münasibətlərə ciddi təsir göstərir.

Müsbət təsirlər:

- Ünsiyyəti sürətləndirir;
- Uzaq məsafədə emosional əlaqəni qoruyur;
- Sosial dəstəyi artırır.

Mənfi təsirlər:

- Emosiyaların yanlış anlaşılması;
- Empatiyanın azalması;
- Sosial təcrid riski

Turkle qeyd edir ki, rəqəmsal ünsiyyət insanların emosional yaxınlıq hissini zəiflədə bilər (Turkle, 2015).

Gələcəkdə Süni intellekt texnologiyalarının inkişafı ilə emosiyaların daha dəqiq tanınması mümkün olacaq. Məsələn:

- Səs tonunun analizi
- Üz ifadələrinin avtomatik tanınması
- Real vaxt emosional analiz sistemləri

Bu texnologiyalar təhsil, səhiyyə və marketinq sahələrində geniş tətbiq edilə bilər.

Rəqəmsal mühitdə emosiyalar müasir ünsiyyətin əsas komponentlərindən birinə çevrilmişdir. Onların ifadə və analiz üsulları texnologiyanın inkişafı ilə paralel olaraq təkmilləşir. Bununla yanaşı, bu sahə həm imkanlar, həm də müəyyən risklər yaradır. Gələcək tədqiqatlar rəqəmsal emosiyaların daha dərindən anlaşılmasına və effektiv istifadəsinə yönəlməlidir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. İskəndərli, G. (2023). Sentiment analiz texnologiyaları və Azərbaycan dili. "Azərbaycan dilinin İKT problemləri, İKT-nin Azərbaycan dili problemləri" respublika elmi-praktiki konfransı. s. 128-133.
2. Derks D., Bos A., Grumbkow, J. (2007). Emoticons and social interaction on the Internet. CyberPsychology and Behavior, vol.23, p. 842-849.
3. Liu B. (2012). Sentiment analysis and opinion mining. Morgan and Claypool publishers, 168 p.
4. Trukle Sh. (2015). Reclaiming conversation: The power of talk in a digital age. Penguin Press. 436 p.

THE EXPRESSION OF EMOTIONS IN THE DIGITAL ENVIRONMENT

Rana Mahmudova

The article examines the characteristics of emotion formation in digital environments, the means through which these emotions are expressed, and the role of sentiment analysis methods in their automatic detection. In particular, it explores the application of natural language processing technologies in identifying text-based emotions and evaluates the effectiveness of the algorithms employed in this field.

Furthermore, the study investigates the psychological and social impacts of digital emotions. Research indicates that, on the one hand, digital emotions facilitate communication and strengthen social connections among individuals; on the other hand, they may lead to issues such as reduced empathy, diminished emotional depth, and misunderstandings.

In conclusion, digital emotions are considered a complex phenomenon that plays a significant role in the modern information society. Research in this area is of great importance both for technological advancement and for achieving a deeper understanding of human behavior. From a future perspective, the development of artificial intelligence systems capable of more precise and multidimensional analysis of emotions is expected to be one of the key directions in this field.

Keywords: *Digital emotions, Social media, Sentiment analysis, Natural Language Processing (NLP), Communication, Artificial Intelligence (AI)*

ZOOCOĞRAFİYANIN TƏSİRİ ALTINDA TÜRK DİLLƏRİNDƏ HEYVAN ADLARININ İNKİŞAFI

Saffet Alp YILMAZ
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
Doktorant
saffetalp@gmail.com
https://orcid.org/0000-0002-7627-8522

Zoocoğrafiya heyvanların coğrafi yayılmasına və müxtəlif bölgələrdə yaşayan insanların dillərində heyvan adlarının formalaşmasına və inkişafına təsir edən mühüm amildir. Müxtəlif iqlim və təbii mühit şəraitində yaşayan insanlar gündəlik həyatlarında rastlaşdıqları heyvanlara xüsusi adlar vermişlər və zaman keçdikcə bu heyvan adları dilin lüğətində dərin kök salmışdır. Türk dillərində heyvan adlarının inkişafı əsasən təbii-coğrafi mühit, köçəri həyat tərzi və etno-mədəni dünyagörüşü ilə əlaqəli şəkildə inkişaf etmişdir. Bu kontekstdə zoocoğrafiya təkcə heyvanların yayılmasını deyil, həm də dildə və sivilizasiyada heyvan adlarının inkişaf mexanizmlərini izah edən vacib bir aspekt kimi ortaya çıxır. Türk dillərində heyvan adlarının əmələ gəlməsi və dəyişməsi coğrafi, sosial, psixoloji və sivilizasiya amillərinin təsiri altında baş vermişdir. Bu tədqiqat zoocoğrafiya və biocoğrafiyanın ümumiyyətlə türk dillərində, xüsusən də oğuz türk dillərində heyvan adlarının əmələ gəlməsinə və inkişafına təsirinə yönəldiləcək. Heyvanların coğrafi yayılmasını araşdıran zoocoğrafiya və canlı orqanizmlərin təbii mühitlə əlaqəsini araşdıran biocoğrafiya heyvan adlarının formalaşmasında mühüm rol oynamışdır. Türk xalqlarının tarixən müxtəlif coğrafiya və iqlimə malik bölgələrdə (çöl, dağlıq və yarımsəhra bölgələri) yaşaması və yaşamağa davam etməsi onların dillərində heyvan adlarının zəngin inkişafına səbəb olmuşdur. Bu tədqiqatda coğrafi mühitin və həyat tərzinin heyvan adlarının semantik xüsusiyyətlərinə təsiri təhlil ediləcəkdir.

Açar sözlər: *Zoocoğrafiya, Oğuz türk dilləri, heyvan adları*

Giriş

Dilin lüğət ehtiyatı vacibdir, çünki o, obyektləri adlandırmaq üçün istifadə olunan söz seçimlərini göstərir. Lüğət daxilində, həmin dildə danışanların həyat tərzləri, inancları, dolanışıqları və s. onun söz ehtiyatını formalaşdırır. Başqa sözlə, dil mədəniyyəti gələcək nəsillərə danışanların həyat tərzini əks etdirən sözlər vasitəsilə ötürür və həmin dildə danışan insanların lüğət ehtiyatını ortaya qoyur. İnsanlar müəyyən fitri qabiliyyətlərlə doğulsa da, bu qabiliyyətlər cəmiyyət daxilində reallaşır və inkişaf etdirilir. Dilin təsirini və inkişafını anlamağın bir yolu ona təsir edən amilləri təhlil etməkdir (Yılmaz, 2021, s. 2; Trudgil, 2000, s. 15-19) dili təsir edən amilləri aşağıdakı kimi təsnif etmişdir:

a. Fiziki mühit

Fərdlərin yaşadığı şərait, xüsusən də onların lüğət ehtiyatına əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn, ingilis dilində "maral" üçün yalnız bir söz istifadə olunsa da, Sami (Lap) dillərində bir çox söz istifadə olunur.

b. Sosial mühit

Sosial mühitin dilə, ümumiyyətlə onun quruluşuna da təsiri var. Cəmiyyətdə sosial dəyişiklik olarsa, dildə müvafiq dəyişikliklər yaranır.

c. Sosial Dəyərlər

Cəmiyyətin dəyərləri onun dilinə təsir edən elementlərdən biridir. Bunun ən maraqlı yolu tabu kimi tanınan fenomenlər vasitəsilə reallaşmasıdır. Tabu, cəmiyyətdə fövqəltəbii şəkildə qadağan edilmiş, əxlaqsız hesab edilən və ya uyğunsuz hesab edilən davranışlarla irrasional əlaqə kimi təsvir edilə bilər. Dildə tabular danışılmamış sözlərlə və xüsusən də istifadə olunmamış ifadələrlə əlaqələndirilir. Tabu sözləri çox vaxt dildə keçərlidir və onların istifadəsini tənzimləyən ciddi qaydalar mövcuddur. Bu cür sözlər və ifadələr cəmiyyətin sosial dəyərlərini anlamaqda vacib ipuculardır.

Dil insanlar tərəfindən inkişaf etdirilsə də, fövqəlbəşəri bir keyfiyyətə malikdir. Dilin əsas xüsusiyyəti olan və şüurun hərəkətlərini aşaraq muxtar bir varlıq aləminə çevrilən məna, dili fövqəlfərd bir təsisat səviyyəsinə qaldırır. İnsanlar dil adlanan bu strukturun içində doğulur (və böyüyür). Hər bir dil imkanlar aləmidir. Bu fakt dilə fövqəlfərd bir keyfiyyət verir. Danışmaq və anlamaq, çoxalma və qidalanma instinktləri kimi, fərddən üstündür. Buna görə də, dil özlüyündə bir varlıq aləmidir (Yılmaz, 2021, s. 3). Cəmiyyətlərin inkişafı Zoocoğrafiya və Biocoğrafiyanın təsiri ilə formalaşır və dil bu şəkildə inkişaf edir. Qədim dövrlərdən bəri insanlar məməlilərdən bir çox məqsədlər üçün istifadə ediblər. Bu məqsədlər arasında ən vacibləri onların yelinlərindən, ətindən, südündən, dərilərindən və gücündən faydalanmaqdır. Bundan əlavə, məməlilər bəzi xəstəliklərin mənbəyi olduqları və qida mənbələrinə zərər verdikləri üçün bəşəriyyətin diqqətini cəlb ediblər. İnsanlar məməliləri bir çox ehtiyacları üçün əhliləşdiriblər. Əhliləşdirmə əsrlər əvvəl Asiyada başlayıb. Atların və öküzlərin gücü, mal-qaranın, qoyunların və keçilərin əti və südü, eləcə də bir çox digər heyvanların dəriləri istifadə olunub (Kuru, 1999, s. 595).

Türk Bozkır Mədəniyyətinin İnkişafında Zoocoğrafiyanın Təsiri

Ən geniş mənada, bozkır mədəniyyətinin təsiri Mərkəzi Avropadan Ural dağlarına və Şimali Sibirin tayqasına qədər uzanaraq, Türklərin hərəkət etdiyi ərazini, cənubda Xayber aşırımından keçən Hindukuş dağlarından şimal-şərqdə Macarıstan düzənliklərinə və hətta İran yaylasına və Anadolu dağlıqlarına qədər əhatə etmişdir (İlgen, 2010, s. 821). Bu geniş bozkır ərazilərində iqlim və coğrafiya səbəbindən daim hərəkətdə olan köçərilər ərazi bağlılığından daha çox əcdad mənsubiyyətinə üstünlük verirdilər. Həqiqətən də, qədim türk dünyagörüşünə görə, şərqdən qərbə qədər hər yer "Türk vətəni" hesab olunurdu (İlgen, 2010, s. 823).

Türklərin həyatında otlaq heyvanları üçün əlverişli yüksək düzənlikləri və yaylaları ilə çöl coğrafiyasının iqlim şəraitinə görə inkişaf edən maldarlıq və heyvandarlıq mühüm yer tutur. Bu səbəbdən, heyvanlar türk mədəniyyətində müstəsna yer tutur (Karakuş, 1994, s. 1144). Türklər geyimləri heyvanların dərisindən və yununda əldə edirdilər; qidalarını ətlərindən, südlərindən və onlardan hazırlanan qidalardan istifadə etməklə əldə edirdilər; sümüklərdən və buynuzlardan isə yay, ox, nizə, kumıs qabları və trubaların hazırlanmasında istifadə edirdilər (Karakuş, 1994, s. 1144).

Xalq arasında kiçikbaş heyvanların yaşlarına görə aldıqları adlar vardır. Yeni doğanlara əmlik, altı aylıq olana qədər quzu, iki yaşını bitirməmiş olanlara toğlu, üç yaşını bitirməmiş olanlara şişək (dişilere), erkək (erkəyi), üç yaşından böyük olanlara qoç, dişilere ise anac qoyun denmektedir. Bununla birlikdə Azerbaycan Türkçesi ağızlarında Qaraxan (Nahçıvan ağızlarında Milax, Ləkətağ) "qara qoyun" (Quliyev & Əliyeva, 2017, s.166), Qəcirbaş (Azerbaycan Türkçesi Nahçıvan ağızlarında Nəsirvaz, Üstüpü) "başında üçbucaq ağ ələməti olan qoyun" (Quliyev & Əliyeva7) ələməti olan qoyun" (Qarabay0 Əliyeva, Türkçe2) Nahçıvan ağızlarında Güney Qışlaq, Qızıl Qışlaq) "sayca çoxlu qoyun-keçidən ibarət böyük sürü" (Quliyev & Əliyeva, 2017, s.167), Kürnəş (Azerbaycan Türkçesi Nahçıvan) ağızlarında Şahbuz) "istidə bir yerə yığılıb bir- yemək sığınaraq kölgələnən qoyun sürüsü" (Quliyev & Əliyeva, 2017, s.160) kimi olduqca kelime hazinesi artmaqdadır.

Nəticə

Bu tədqiqat zoocoğrafiyanın Türk dillərində heyvan adlarının formalaşmasına təsirini aşkar etmişdir. Tarix boyu türk xalqlarının bozkır, dağlar və yarımsəhralar kimi müxtəlif coğrafi mühitlərdə köçəri həyat tərzi bu dillərdə son dərəcə zəngin və çoxşaxəli zoon lüğətinin inkişafına yol açmışdır. Heyvanların gündəlik həyatda istər qida, istər geyim, istərsə də əmək baxımından mərkəzi rolu bu adların təkcə leksik deyil, həm də mədəni və simvolik dəyər daşımasına gətirib çıxarmışdır. Oğuz Türk dillərindən nümunələr göstərmişdir ki, hətta eyni heyvan növünü yaşa, cinsə, rəngə, davranışa və sürü xüsusiyyətlərinə görə onlarla fərqli sözlə ifadə etmək olar. Bu leksik zənginlik təsadüfi deyil; bu, coğrafi mühitin, sosial dəyərlərin və etno-mədəni dünyagörüşünün dilin lüğətinə əks olunmasının birbaşa nəticəsidir. Bu kontekstdə zoocoğrafiya təkcə heyvanların yayılmasını anlamaq üçün deyil, həm də insan linqvistik yaddaşının necə formalaşdığını anlamaq üçün əvəzolunmaz analitik çərçivə təklif edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Yılmaz, E. (2021). Toplum ve Dil, Ankara: Pegem Akademi.

Quliyev, Ə & Əliyeva, N. (2017). Naxçıvan Dialekt və Şivələrinin Lüğəti Naxçıvan: Əcəmi.

Karakuş, İ. (1997). Türkçe Ad Bilim (Onomastik)'de Hayvan Adları. Erdem/ Atatürk Kültür Merkezi Dergisi. 9/27.

İlgen, A. (2010). Bozkır Göçebelerinde Sosyo-Ekonomik Yapı, Sosyal Siyaset Konferansları Dergisi, 49.

Kuru, M. (1999). Omurgalu Hayvanlar (5. Baskı), Ankara: Palme Yayıncılık.

Trudgil, P. (2000). Sociolinguistics: an introduction to language and society (4th edition). England: Penguin Books.

THE DEVELOPMENT OF ANIMAL NAMES IN TURKIC LANGUAGES UNDER THE INFLUENCE OF ZOOGEOGRAPHY

Saffet Alp YILMAZ

Zoogeography is an important factor influencing the geographical distribution of animals and the formation and development of animal names in the languages of people living in various regions. People living in different climatic and natural environmental conditions have given specific names to the animals they encounter in their daily lives, and over time these animal names have become embedded in the vocabulary of the language. The development of animal names in Turkic languages has essentially developed in relation to the natural-geographical environment, the nomadic lifestyle, and the ethno-cultural worldview. In this context, zoogeography emerges as an important aspect that explains not only the distribution of animals but also the development mechanism of animal names in language and civilization. The formation and change of animal names in Turkic languages have occurred under the influence of geographical, social, psychological, and cultural factors. This study will focus on the influence of zoogeography and biogeography on the formation and development of animal names in Turkic languages in general, and in Oghuz Turkic languages in particular. Zoogeography, which studies the geographical distribution of animals, and biogeography, which studies the relationship of living organisms with their natural environment, have played a significant role in the formation of animal names. The fact that Turkic peoples have historically lived and continue to live in regions with a wide variety of geography and climates (steppe, mountainous, and semi-desert regions) has led to the rich development of animal names in their languages. This research will analyze the influence of geographical environment and lifestyle on the semantic characteristics of animal names.

Keywords: *Zoogeography, Oghuz Turkic Languages, Animal names*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN TÜRK DİLLƏRİ ÜÇÜN PERSPEKTİVLƏRİ

Ayşən Zərbəliyeva
Bakı Slavyan Universiteti
Müəllim
zarbaliyevayshan@gmail.com
https://orcid.org/0000-0001-8461-9107

Bu məqalədə dilçilik sahəsində türk dillərinin, xüsusən də Azərbaycan dilində az tədqiq olunmuş sahələri elmi və nəzəri baxımdan araşdırılır. Qrammatika, sintaksis, fonetika, sosiolinqvistika və koqnitiv dilçilikdə mövcud boşluqlar müəyyən edilir və müasir metodoloji yanaşmalara əsaslanan tədqiqat perspektivləri təqdim olunur. Məqalədə fənlərarası yanaşmanın və rəqəmsal humanitar metodların əhəmiyyəti əsaslandırılır. Türk xalqları arasında ortaq ünsiyyət vasitəsinin formalaşdırılması bu gün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, türk icmaları arasında ortaq ünsiyyət dilinin yaradılması vacib hesab olunur. Buna nail olmaq üçün ortaq əlifba, ortaq lüğət (leksikon), vahid terminologiyanın yaradılması və ortaq dərsliklərin hazırlanması və nəşri qarşıda duran əsas vəzifələr arasındadır. Birinci Türkoloji Qurultay türk xalqları arasında mədəni yaxınlaşmanı əhəmiyyətli dərəcədə gücləndirdi. Qurultay iştirakçıları ortaq ədəbi dilin inkişafı, dərsliklərin hazırlanması və müəllim hazırlığı kimi məsələləri də müzakirə etdilər. Bu qərarların nəticəsi olaraq: • Yeni dərsliklər hazırlanmağa başlandı; • Dil tədrisi metodologiyası təkmilləşdirildi; • Milli özünüdərk və mədəni kimlik gücləndirildi. Xüsusilə Azərbaycan üçün bu Konqres milli dil siyasətinin formalaşmasında mühüm bir mərhələni qeyd etdi. Konqres Türk dünyasına inteqrasiya və ortaq dəyərlərin formalaşması baxımından əhəmiyyətli bir hadisə idi. O dövrdə bir çox türk xalqı ərəb əlifbasından istifadə edirdi. Lakin ərəb əlifbası türk dillərinin fonetik xüsusiyyətlərini tam əks etdirmirdi və savadlılıq prosesini daha da çətinləşdirirdi.

Açar sözlər: *Türk dili, əlifba, tarixi sintaksis, eksperimental fonetika, sosiolinqvistika, koqnitiv dilçilik, korpus dilçiliyi*

Giriş

XX əsrin əvvəlləri türk xalqlarının ictimai-siyasi və mədəni həyatında mühüm dönüş mərhələsi olmuşdur. Bütün türk dünyası olaraq milli özünüdərk, maarifçilik hərəkatı, əlifba və dil islahatları geniş vüsət almışdı. Bu proseslərin məntiqi nəticəsi kimi 1926-cı ildə Bakı şəhərində baş tutmuş Birinci Türkoloji Qurultayın türk dillərinin inkişafında müsbət rolu olmuşdur . Qurultay türk xalqlarının dil, əlifba, terminologiyaya dair məsələlərini müzakirə edən ilk beynəlxalq miqyaslı elmi toplantı idi. Qurultayda Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tatarıstan, Başqırdıstan və digər türk xalqlarının nümayəndələri iştirak etmişlər. Toplantıda dilçi alimlər, pedaqoqlar, yazıçılar və ictimai xadimlər yer almışdır.

Qurultayın əsas məqsədi Türk dillərinin elmi əsaslarla öyrənilməsi, Əlifba islahatı məsələsinin müzakirəsi,Terminologiyanın vahid prinsiplər əsasında formalaşdırılması,türk xalqları arasında elmi və mədəni əlaqələrin möhkəmləndirilməsi olmuşdur. Qurultay türk dünyasında inteqrasiya və ortaq dəyərlərin formalaşması baxımından mühüm hadisə idi (2, s. 28). O dövrdə bir çox türk xalqları ərəb qrafikasından istifadə edirdi. Lakin ərəb əlifbası türk dillərinin fonetik xüsusiyyətlərini tam əks etdirmirdi və savadlanma prosesini çətinləşdirirdi. Qurultayda latın qrafikasına keçid məsələsi geniş müzakirə olunmuş və müsbət qərarlar qəbul edilmişdir. Bu qərar sonradan bir çox türk respublikalarında latın əlifbasının tətbiqinə zəmin yaratdı. Qurultay türkologiya elminin sistemli şəkildə inkişafına təkan verdi. Dilin fonetikası, leksikologiyası, qrammatikası və dialektologiyası ilə bağlı elmi məruzələr təqdim olundu. Azərbaycan dilçiliyinin inkişafında böyük rol oynamış alimlərdən biri Bəkir Çobanzadə türk dillərinin fonetik sistemi, qrammatik quruluşu və müqayisəli tədqiqi barədə məruzələr etmişdir. Alim türk dillərinin ortaq kökə malik olduğunu və onların elmi metodlarla öyrənilməsinin vacibliyini vurğulamışdır. Qurultay iştirakçıları türk dillərinin təsnifatı, dialekt və şivələrin araşdırılması, ədəbi dilin formalaşma prinsipləri kimi məsələləri geniş müzakirə etmişlər (3, s. 350).

Türk dillərinin aqqlütinativ quruluşa malik olması, zəngin leksik fonda sahib olması və fonetik uyğunluqların mövcudluğu elmi faktlarla əsaslandırılmışdır. Qurultayda Azərbaycan dili ayrıca müzakirə mövzusu olmuşdur.

Dilçilər Azərbaycan dilinin Oğuz qrupuna aid olduğunu, qədim yazılı ədəbi ənənəyə malik olduğunu qeyd etmişlər. Ədəbi dilin xalq danışıq dili əsasında inkişaf etdirilməsi, ağır və anlaşılmaz ərəb-fars tərkiblərindən təmizlənməsi təklif edilmişdir. Azərbaycan dilində elmi terminologiyanın yaradılması məsələsi də xüsusi diqqət mərkəzində idi.

Qurultayda milli terminlərin formalaşdırılması və vahid orfoqrafiya qaydalarının hazırlanması tövsiyə edilmişdir. Qurultayın ən mühüm qərarlarından biri latın qrafikasına keçidlə bağlı idi. Burada ərəb əlifbasının türk dillərinin fonetik xüsusiyyətlərini tam ifadə etmədiyi bildirilmişdir.

Latın qrafikası səslərin daha dəqiq göstərilməsinə, savadlılıq səviyyəsinin yüksəlməsinə və təhsil prosesinin asanlaşmasına şərait yaratmışdır. Bu islahat Azərbaycan dilinin də inkişafına müsbət təsir göstərmiş, yazı sisteminin təkmilləşməsinə və elmi ədəbiyyatın artmasına səbəb olmuşdur.

Birinci Türkoloji Qurultay türk dillərinin sistemli və elmi şəkildə öyrənilməsinə böyük təkan vermişdir. Qurultayda qəbul edilən qərarlar əlifba islahatı, terminologiyanın formalaşdırılması və ədəbi dil normalarının müəyyənləşdirilməsi baxımından mühüm rol oynamışdır. Azərbaycan dili isə qurultayda xüsusi diqqət mərkəzində olmuş, onun inkişaf perspektivləri müəyyən edilmişdir.Bu baxımdan Birinci Türkoloji Qurultay türk dünyasının elmi və mədəni tarixində əhəmiyyətli mərhələ kimi qiymətləndirilir.

Bu məqalədə türk dillərinin, xüsusilə Azərbaycan dilinin dilçilik baxımından az tədqiq edilmiş sahələri elmi-nəzəri aspektdə araşdırılır. Qrammatika, sintaksis, fonetika, sosiolinqvistika və koqnitiv dilçilik istiqamətlərində mövcud boşluqlar müəyyənləşdirilir və onların müasir metodoloji yanaşmalar əsasında tədqiq perspektivləri təqdim olunur. Türk xalqları tarixi geniş coğrafiyanı əhatə edən, çoxşaxəli və mürəkkəb bir tarixi prosesdir. Orta Asiyadan Anadoluya, Qafqazdan Sibirə qədər yayılan türk xalqları müxtəlif siyasi qurumlar yaratmış, zəngin mədəniyyət və dil irsi formalaşdırmışdır (4, s. 33). Bununla belə, bu tarixdə hələ də mübahisəli və az tədqiq edilmiş məsələlər mövcuddur. Xüsusilə etnogenez, miqrasiya istiqamətləri, qədim dövlətçilik ənənələri və dillərin formalaşma prosesi elm aləmində fərqli yanaşmalarla izah edilir. Türk xalqlarının mənşəyi ilə bağlı müxtəlif nəzəriyyələr mövcuddur. Bəzi tədqiqatçılar Altay nəzəriyyəsini əsas götürərək türk dillərini monqol və tunqus dilləri ilə qohum hesab edir, digərləri isə bu yanaşmanı elmi baxımdan yetərli saymır. Etnogenez məsələsində yazılı mənbələrin azlığı, arxeoloji materialların isə bəzən fərqli şərh olunması mübahisələrin əsas səbəblərindəndir. Digər mühüm məsələ qədim türk dövlətlərinin – Hun, Göytürk və digər siyasi birliklərin tarixi varislik əlaqələridir. Bu dövlətlərin etnik tərkibi və siyasi quruluşu haqqında məlumatlar əsasən Çin salnamələrinə söykəndiyi üçün bəzən birtərəfli xarakter daşıyır. Bu isə obyektiv tarix yazımında çətinliklər yaradır. Türk xalqlarının Qafqaza və Anadoluya köçü də geniş müzakirə olunan məsələlərdəndir. Xüsusilə Azərbaycan ərazisində türk etnosunun formalaşması prosesi müxtəlif dövrlərə aid edilir. Bəzi alimlər erkən orta əsrləri, digərləri isə daha qədim dövrləri əsas götürürlər.

Türkoloji baxımdan yeni metodoloji və konseptual yanaşmalar. Müasir tarixşünaslıqda interdisiplinar yanaşma xüsusi əhəmiyyət kəsb edir. Arxeologiya, antropologiya, genetika və dilçilik elmlərinin birgə araşdırmaları daha obyektiv nəticələr əldə etməyə imkan verir. Tarixi mənbələrin müqayisəli təhlili və rəqəmsal humanitar metodlar da yeni imkanlar açır. Elektron korpuslar, xəritələşdirmə proqramları və statistik modellər vasitəsilə tarixi faktların sistemləşdirilməsi daha elmi əsaslı nəticələrə gətirib çıxarır. Azərbaycan dili türk dilləri ailəsinin oğuz qrupuna daxildir. Oğuz dilləri sırasında türk, türkmən və qaqauz dilləri ilə yaxın qohumluq münasibətinə malikdir. Azərbaycan dili tarixi inkişaf prosesində qədim türk dili, orta əsr oğuz ədəbi dili və klassik Azərbaycan ədəbi dili mərhələlərindən keçmişdir (1, s. 18). Fonetik xüsusiyyətlərinə görə Azərbaycan dili saitlərin ahəng qanunu, samitlərin uyğunlaşması kimi ümumtürk xüsusiyyətlərini qoruyub saxlamışdır. Eyni zamanda, tarixi-coğrafi şəraitlə bağlı olaraq fars və ərəb dillərindən müəyyən leksik təsirlər qəbul etmişdir. Bununla belə, dilin

əsas qrammatik strukturu türk mənşəlidir və aqqlütinativ quruluşunu saxlayır. Morfoloji baxımdan Azərbaycan dili şəkilçi sistemi ilə seçilir. Hal kateqoriyası, fel zamanları və şəkilçilərin ardıcıl qoşulması türk dillərinin tipik xüsusiyyətlərini əks etdirir. Sintaktik baxımdan isə söz sırasının əsasən SOV (mübtəda-tamamlıq-xəbər) modelinə uyğun olması ümumtürk xüsusiyyətidir. Azərbaycan dili həm tarixi, həm də müasir mərhələdə türk dilləri arasında körpü rolu oynayır. Coğrafi mövqeyi və zəngin ədəbi irsi bu dili həm Qafqaz, həm də Yaxın Şərq mədəni mühitində mühüm ünsiyyət vasitəsinə çevirmişdir. Türk xalqları tarixinin mübahisəli və az tədqiq edilmiş məsələlərinin araşdırılması yeni metodoloji yanaşmalar tələb edir. İnterdisiplinar tədqiqatlar və müasir texnologiyalar bu sahədə daha obyektiv nəticələr əldə etməyə imkan yaradır. Azərbaycan dili isə türk dilləri sistemində həm tarixi kökləri, həm də müasir inkişaf səviyyəsi ilə mühüm yer tutur və ümumtürk mədəni irsinin formalaşmasında əhəmiyyətli rol oynayır. Ümumilikdə,türk dilləri ailəsi tipoloji və struktur baxımdan aqqlütinativ quruluşu ilə seçilən, geniş arealda yayılmış dillər sistemidir. Azərbaycan dili oğuz qrupuna daxil olmaqla həm tarixi inkişaf yolu, həm də müasir ədəbi norması ilə türk dilləri arasında mühüm mövqeyə malikdir. Bununla belə, müasir dilçilik paradiqmalarının tətbiqi baxımından bir sıra sahələr hələ də yetərincə sistemli şəkildə araşdırılmamışdır.Tarixi sintaksisin problemləri uzun müddətli tədqiqatlara baxmayaraq, hələ də mübahisəli, tam tədqiq olunmamış sahələr hələ yeni metodoloji əsaslarla araşdırılmağı gözləyir. Azərbaycan dilində tarixi fonetika və leksikologiya müəyyən səviyyədə işlənmiş olsa da, tarixi sintaksis sahəsi fragmentar xarakter daşıyır. Orta əsr yazılı abidələrində cümlə modellərinin transformasiyası, tabelilik münasibətlərinin inkişafı, mürəkkəb cümlə strukturlarının formalaşma mərhələləri sistemli şəkildə müqayisəli-tarixi metod əsasında tədqiq edilməlidir. Xüsusilə klassik mətnlərlə müasir ədəbi dil arasında sintaktik differensasiyanın dinamikası ayrıca araşdırma mövzusu olmalıdır (6, s. 41). Eksperimental fonetika və prosodiya sahəsində tədqiqlərə gəldikdə,Azərbaycan dilinin fonetik sistemi təsviri şəkildə öyrənilmişdir. Lakin akustik analiz, formant ölçmələri, intonasiya konturlarının kompüter proqramları vasitəsilə təhlili kimi eksperimental fonetika istiqamətləri məhdud inkişaf etmişdir. Müasir fonetik laboratoriyaların qurulması və nitq korpuslarının yaradılması prosodik xüsusiyyətlərin daha dəqiq öyrənilməsinə imkan verə bilər. Rəqəmsal humanitar elmlərin inkişafı fonunda Azərbaycan dilində böyük həcmli balanslaşdırılmış milli korpusun formalaşdırılması zəruri elmi ehtiyacdır. Korpus əsaslı statistik təhlillər morfoloji kateqoriyaların tezlik göstəricilərini, sintaktik konstruksiyaların istifadə intensivliyini və semantik sahələrin paylanmasını müəyyən etməyə imkan verər. Türk dilləri arasında paralel korpusların yaradılması müqayisəli araşdırmaları yeni mərhələyə yüksəldə bilər. Sosiolinqvistik və praqmatik istiqamətlər**.** Qloballaşma və urbanizasiya şəraitində dilin sosial funksiyaları dəyişir. Azərbaycan dilində şəhər danışıq modelləri, gənclər jarqonu, media diskursu və sosial şəbəkə dili ayrıca empirik tədqiqat tələb edir. Eyni zamanda, nitq aktları nəzəriyyəsi, diskurs analizi və praqmatik strategiyalar kontekstində Azərbaycan dilində ünsiyyət modelləri sistemləşdirilməlidir.Koqnitiv dilçilik istiqamətində konseptual metaforalar, kateqoriyalaşma mexanizmləri və diltəfəkkür münasibətləri Azərbaycan dili materialı əsasında geniş empirik baza ilə tədqiq edilməlidir. Funksional qrammatika çərçivəsində isə qrammatik kateqoriyaların mətn və diskurs daxilində kommunikativ yükü araşdırılmalıdır. Metodoloji yanaşmalar**.**Tədqiqatlarda müqayisəli-tarixi metod, struktur-semantik analiz, korpus əsaslı statistik metodlar, eksperimental fonetik ölçmələr və sosiolinqvistik sorğular kompleks şəkildə tətbiq olunmalıdır. İnterdisiplinar yanaşma – dilçilik, tarix, antropologiya və informasiya texnologiyalarının inteqrasiyası – elmi nəticələrin obyektivliyini artıracaqdır. Azərbaycan dili türk dilləri sistemində mühüm mövqeyə malik olmaqla yanaşı, bir sıra sahələrdə müasir dilçilik nəzəriyyələrinin tətbiqi baxımından geniş perspektivlərə malikdir. Tarixi sintaksis, eksperimental fonetika, korpus dilçiliyi və koqnitiv yanaşmalar gələcək elmi tədqiqatların prioritet istiqamətləri kimi müəyyənləşdirilməlidir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Babayev, A. Bəkir Çobanzadənin yeni Azərbaycan əlifbası və orfoqrafiyası uğrunda mübarizəsi, Bakı, 1998.
2. Birinci Türkoloji Qurultayının Stenoqram hesabatı. 26 fevral-5 mart 1926.
3. Eyvazova R. Birinci Türkoloji Qurultayda qoyulan məsələlərə akademik Tofiq Hacıyevin münasibəti. "Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" beynəlxalq konfransın materialları, I hissə, Bakı, 2016, s. 67-70.
4. Hacıyev, T. Azərbaycan ədəbi dili tarixi II hissə, Bakı, Elm, 2012, 389 s.
5. Hacıyev, T. Birinci Türkoloji Qurultayda dil məsələləri / BDU-nun "Bakı Universiteti Xəbərləri" elmi jurnalı. Bakı, 2006, № 2, s. 18-26.
6. Tahirov, İ. I Türkoloji Qurultay və müqayisəli dilçilik məsələləri. "Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans: Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" beynəlxalq konfransın materialları. I hissə, Bakı, 2016, s. 72-75.

THE FIRST CONGRESS OF TURKOLOGY AND ITS IMPLICATIONS FOR THE DEVELOPMENT OF THE TURKIC LANGUAGES

Ayshan Zarbaliyeva

This article explores, from a scholarly and theoretical perspective, the under-researched areas of Turkish languages, particularly in Azerbaijan language, within the field of linguistics. Existing gaps in grammar, syntax, phonetics, sociolinguistics, and cognitive linguistics are identified and research perspectives based on modern methodological approaches are presented. The article substantiates the importance of an interdisciplinary approach and digital humanities methods. The formation of a common means of communication among Turkish peoples is of great importance today. From this perspective, establishing a shared communication language among Turkish communities is considered essential. To achieve this, the creation of a common alphabet, shared vocabulary (lexicon), unified terminology and the preparation and publication of common textbooks are among the primary tasks ahead. The First Turkological Congress significantly strengthened cultural rapprochement among Turkish peoples. The participants of the Congress also discussed issues such as the development of a common literary language, the preparation of textbooks, and teacher training. As a result of these decisions: • New textbooks began to be prepared; • Language teaching methodology was improved; • National self-awareness and cultural identity were strengthened. For Azerbaijan in particular, this Congress marked an important stage in the formation of national language policy. The Congress was a significant event in terms of integration within the Turkish world and the formation of shared values. At that time, many Turkish peoples used the Arabic script. However, the Arabic alphabet did not fully reflect the phonetic characteristics of Turkish languages and made the process of literacy more difficult.

Keywords: *Turkish language, alphabet, historical syntax, experimental phonetics, sociolinguistics, cognitive linguistics, corpus linguistics*

İMADƏDDİN NƏSİMİNİN TÜRK (AZƏRBAYCAN) "DİVANI"NDA ƏMR, ARZU, TƏSDİQ VƏ İNKAR ƏDATLARIN FUNKSİONAL-ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Sərvər Şirinov
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
Dissertant
server.shirinov@gmail.com
https://orcid.org/0009-0009-8945-5186

Məqalədə İ.Nəsiminin türk (Azərbaycan) "Divanı"nda əmr, arzu, təsdiq və inkar ədatlarının funksional-üslubi xüsusiyyətləri araşdırılmışdır. Burada gəl, gör, qoy əmr ədatları, barı, gərək arzu ədatları, bəli, yox, heç (hiç) təsdiq və inkar ədatları tədqiq edilmişdir.

Elmi işdə ədatlarla bağlı bir çox tezislər irəli sürülmüşdür ki, bu da türk dilləri ailəsinə mənsub olan dilimizin hələ qədim dövrdə də zənginliyindən xəbər verir. Tədqiqata əsasən demək olar ki, divanda bəzi ədatların müxtəlif funksional-üslubi xüsusiyyətlərdə işlənmə tezliyi yüksəkdir. Bəzilərinin işlənməsini isə müəyyən məqamlarda görürük. Məsələn: Yox ədatı bəli ədatına nisbətən daha aktivdir. Və yaxud da heç (hiç) ədatından dahi şair müəyyən məqamlarda istifadə etmişdir. Həmçinin divanda gəl, gör ədatları xüsusilə intensiv işlənsə də, qoy ədatından çox az istifadə edilmişdir.

Açar sözlər: *İmadəddin, Nəsimi, türk, Azərbaycan, "Divan", türkcə, ədat, arzu, təsdiq, inkar, əmr, müasir, dil, funksiya, üslub, xüsusiyyət.*

Giriş

Ədatlar köməkçi nitq hissəsi kimi dilin müxtəlif qrammatik-poetik funksiyalarının yerinə yetirilməsində mühüm rola malikdirlər. Ədatların da özünəməxsus funksional-üslubi xüsusiyyətləri vardır. Dilçi alim İsmayıl Kazımov türk dillərində ədatların işlənmə vəziyyətindən bəhs edərkən yazır ki, türk dillərində ədatlar həm ayrı-ayrı sözlərə, həm söz birləşmələrinə, həm də bütovlükdə cümləyə aid olub müxtəlif məna çaları yaradır [4, s. 273].

Türk dilləri ailəsinə mənsub olan Azərbaycan dilində də ədatlar tarixən müxtəlif məna çaları əmələ gətirərək şifahi və yazılı nitqdə emosionallıq yaratmağa, təsiri artırmağa xidmət etmişdir. Ədatların bu başlıca funksiyası Nəsiminin türk (Azərbaycan) "Divanı"ndakı şeirlərdə də dolğun şəkildə özünü göstərir. *Prof.* Ə.Dəmirçizadə Nəsiminin dilindən danışarkən qeyd edir ki, köməkçi nitq hissələri də "məna incəliklərini ifadə etmək üçün müxtəlif qrammatik vasitələrlə formalaşdırılmış vahidlər halında rəngarəng üslubi məqamlarda işlənilmişdir [1, s.149]. Burdan bir daha aydın olur ki, Nəsiminin əsərlərinin dil baxımından mükəmməl və zəngin, bədii cəhətdən gözəl və təsirli olmasında köməkçi nitq hissəsi kimi ədatların müəyyən rolu vardır. Bu istiqamətdə apardığımız araşdırmaların bir qismini aşağıda təqdim edirik:

Əmr ədatları. Bu ədatlardan *gəl* və *gör* Nəsiminin divanında xüsusilə aktiv işlənmişdir. Bunun əsas səbəbi odur ki, Nəsiminin şeirlərində *təkid ruhu, sövqetmə, məsləhətvermə* mənaları güclü olmuşdur. Şair həmin mənaların daha qüvvətli ifadəsi üçün *gəl* və *gör* ədatlarından, bəzən də *qoy* ədatından istifadə etmişdir.

***Gəl, gəl ki* ədatı.** Bu ədat şairin şeirlərində daha çox *təkid, sövqetmə, xahiş* bildirir. Məsələn:

Gəl niqabın tərfini gülgün yanağından götür,
Ta gülüstan gülməsin ayruq güli-xəndanına [2, 19].

Bu beytdə *sövqetmə, xahiş* nisbətən aşağı tondadır. Lakin müşahidələr göstərir ki, şeirin məzmunundan asılı olaraq *təkid, sövqetmə* intonasiyası güclənir və əmr mənası kəsb edir. Məsələn:

Ey xirqə geyən yol urucu zahidi-salus,
Şirkindən arın, xirqəni gəl vəhdətə bandır [2, 258].

Göründüyü kimi, bu beytdə müraciət obyektinə qarşı, *qəzəb, istehza* və *tənə* var və buna görə də *gəl* ədatı yüksək, kəskin ahənglə deyilərək əmr mənasını ifadə edir. Aşağıdakı beytlərdə isə *gəl* və *gəl ki,* ədatları *məsləhət*, *nəsihət* mənasını bildirir.

Bu il böylə qılam dersən, gələn il daxi həm böylə,
Gəl eylə-böyləni tərk et, qənimət tut bu fürsətni [3, 45].
Vədeyi qoy, ey könül, gəl bu dəmi xoş görəlim,
Dün ki keçdi, danla qaib, bəs bu dəm xoş dəmdürür [2, 232].
Qoy cahanı, gəl ki fanidir cahan,
Gör necə hər gün keçər bu karivan [3, 295].

Məlumdur ki, *gəl* ədatı daha çox xitablarla işlənir, xitablardan ya əvvəl, ya da sonra gəlir. Yuxarıdakı beytlərin birində *(ey könül, gəl)* buna misal var, əlavə bir nümunə də təqdim edirik:

Nəsimi, gəl sücud eylə bə-vəchüllahə ki, həqdir,
Anın şənində gəlmişdir bu munca vəscüdat andan [2, 188].

Nəsiminin divanında *gəl* rədifli bir neçə qəzəl var. Bu qəzəllərdə *gəl* sözü, əsasən, həqiqi mənada işlənmişdir və əsas nitq hissəsi kimi feildir. Lakin bəzi beytlərdə *gəl* sözü rədif yerində də ədat kimi işlənmişdir. Məsələn:

Düşdügüm ayru səndən uş yanar od oldu canıma,
Ey gözümün çırağı, sən yaxma məni bu narə gəl [2, 124].

Nar – od-alov deməkdir və ifadənin mənası belədir: gəl sən məni bu oda (narə) yaxma.

Gəl ədatı bəzən II şəxsin cəmində, yəni gəlin fonetik formasında da işlənmişdir. Məsələn:

Xaki-dərgahından oldu hər bəsirətlü bəsir,
Ey nəzər əhli, gəlin şol xaki-dərgahın görün! [2, 179].

***Gör* ədatı.** Bu ədat *gör, gör ki, gör kim, gör nə* şəkilində işlənərək beyt və misralarda hissin, duyğunun daha emosional, qüvvətli ifadəsinə xidmət etmişdir.

Çıxdı içimdən tütün, çərxi bürüdü bütün
Gör ki nə atəşdəyəm, gör nə qədər yanaram [2, 127].

Bu beytdə *gör* ədatı *inandırma, diqqəti cəlb etmə, təsəvvür etmə* mənalarına malikdir. Belə ki, şair burada mübaliğəni həqiqət kimi təqdim etməyə çalışır və bu zaman *gör* ədatının inandırma mənasından istifadə edir.

Gör, gör ki ədatı şairin divanında çox vaxt, yuxarıdakı nümunədə olduğu kimi, *nə* qüvvətləndirici ədatla birlikdə işlənir. Bu formaya digər nümunələr veririk:

Məni yaqutun istə, ey qəvvas,
Qətrə bəhrində gör nə ümmanam [3, 245].
Can demişlər dodağına, hey-hey,
Bu sözü gör nə müxtəsər dedilər [2, 265].
Zahidü sufidir adın, gör nə acı oldu dadın,
Ey ulu ad istəməyən, qeyrətü arın yox imiş [3, 333].

Bu beytlərdə *gör* əmr ədatı *nə* qüvvətləndirici ədatla birlikdə işlənərək *inandırma, diqqəti cəlb etmə* mənasının daha güclü ifadəsinə kömək edir.

***Qoy* ədatı.** Bu ədat şairin divanında çox az işlənmişdir. Müasir ədəbi dilimizdə olduğu kimi, *əmr, istək, təkid, nəsihət, xəbərdarlıq* mənaları bildirir. Məsələn:

Nəsimi xəstədil hicrindən öldü
Qoy ol biçarəni ta məhrəm olsun [2, 172].

Bu beytdə *qoy* ədatı arzu, istək, xahiş mənalarında işlənmişdir və beytin ümumi məzmununa emosionallıq gətirir.

Qoy məni qurban olum şol çeşmi-kafirkuşə kim,
Mən təki hər guşədə yüz aşiqi-şeydasıdır [2, 282].

Göründüyü kimi, bu beytdə də *qoy* ədatı eynilə yuxarıdakı məna xüsusiyyətlərinə malikdir.

Digər ədatlar kimi, *qoy* ədatı da şeirlərin məzmunundan asılı olaraq başqa məna çalarlarında da işlənir. Məsələn:

Çün Nəsimi cavidani yar ilə buldu vüsal,
Qoy necə dönərsə, dönsün bu yaşıl dolablar [3, 312].

Bu beytdə isə *qoy* ədatı daha çox *xəbərdarlıq, işarətmə* mənasını ifadə edir.

Təsdiq və inkar ədatları. Bu ədatlara Nəsiminin divanında müxtəlif səviyyələrdə rast gəlmək mümkündür. Belə ki, bəzisi az, bəzisi çox işlənmişdir.

***Bəli* ədatı.** Bu ədat divanda çox passivdir. Öz qrammatik üslubi funksiyasına uyğun olaraq fikrin təsdiqinin daha qüvvətli ifadəsinə kömək edir. Məsələn:

Yandırdı, bəli, eşqin odu, qıldı məni kül,
Eşqində kül irişər külli-kəmalə [2, 46].

***Yox* ədatı.** *Bəli* ədatına nisbətən bu ədat divanda daha aktivdir. Ona tez-tez rast gəlinir. Müasir dilimizdə olduğu kimi, inkarlıq məzunu bildirir. Məsələn:

Qurandır anın sürəti, aydır Nəsimi, şək degil,
Münkir əgər yox derisə, uş müshəf, uş təfsirimiz [2, 79].

Məlumdur ki, *yox* sözü dilimizdə yalnız ədat kimi işlənmir. Onun digər mühüm qrammatik üslubi xüsusiyyəti vardır. Belə ki, inkarlıq bildirən leksik-semantik vahid kimi işlənərək cümlənin ismi xəbəri olur. Bu variant "Dədə-Qorqud" dastanından üzü bəri indiyədək ədəbi dilimizdə həmişə işlək olmuşdur. Nəsiminin divanında da *yox* sözünün bu funksiyasına tez-tez təsadüf edilir. Həm də "Dədə-Qorqud"da olduğu kimi divanda da həmin söz daha çox xəbər vəzifəsində, şəxs şəkilçisiz işlənmişdir. *Yox* sözünün şəxs şəkilçisi ilə işlənməsinin formalaşması sonrakı dövrə aiddir. Nəsimidən bir-iki nümunə təqdim edirik:

Vəslin dilərəm, canü cahan olmasa, qəm yox! [2, 258]
Gerçək xəbər imiş bu ki, xubun vəfası yox,
Kim sevdi xubu kim, dedi xubun cəfası yox? [2, 301].

Bəzi hallarda *yox* sözü *yoxdur* şəklində də işlənmişdir:

Lam – La yoxdur könüldə doğdu eşqimdən əzəl [3, 221].

***Heç (hiç)* ədatı.** Bu *inkarlıq* ədatından da Nəsimi müəyyən məqamlarda istifadə etmişdir. Məsələn:

Kim ki, bazar etmədi zülfündə yüz min can ilə,
Ta əbəd vəslinlə anın hiç bazar olmasın! [2, 170].

Göründüyü kimi, bu beytdə *qarğış* məzmunu var və *hiç* ədatı bu kontekstə inkarlıq mənasının yaranmasına xidmət edir.

Digər nümunələr:

Bu dili-biçarədən sordum nədir dərdinə əm,
Dilbərin ləlindən ayrı hiç timar istəməz [2, 64].
Qaradır geydigi ya gög həmişə zahidin, yarəb,
Nə matəm düşmüş ana kim, tükənməz heç anın yası? [3, 52].

Maraqlıdır ki, şairin "Yandırıcı firqətin yaxdı məni narinə" misrası ilə başlayan qəzəlində *yox* və *hiç* inkarlıq ədatları bir yerdə, həm də isimləşmiş şəkildə verilmişdir. *Heç* sözü burada yönlük hal şəkilçisini qəbul etmişdir:

Mülk ilə mal, ey məlik, kimsəyə çün qalmadı,
Yox tut anı, heçə say, qalma onun varinə [2, 47].

Tuyuqlarının birində də şair *heç* ədatını isimləşmiş say kimi işlətmişdir:

Ləşkəri-yəğmaçı tatar kirpiyin.
Aləmi bir heçə satar kirpiyin [3, 284].

Arzu ədatları. Ədatın mənaca sonuncu – yeddinci növü olan bu ədatlardan da Nəsimi öz şeirlərində yeri gəldikcə istifadə etmişdir. Qeyd edək ki, ədatın mənaca bütün növləri şairin divanında əhatə olunmuşdur. Bu isə özlüyündə ədəbi dilimizin həmin dövrdə də zəngin olduğunu sübut edir. Vurğula-

yaq ki, biz bu yazıda əmr və arzu ədatlarından danışdıq. Digər məna növləri isə ayrıca məqalələr şəklində təqdim olunacaq.

***Barı* ədatı.** Hərəkətin arzu olunduğunu bildirən bu ədat Nəsiminin şeirlərində də eyni qrammatik xüsusiyyətə malikdir. Onun işləndiyi kontekstdə feil *arzu* və *əmr* şəklində olur. Məsələn:

Xəstə Nəsimi, yarın əhvalını heç sormaz,
Sormağına çün gəlməz, barı gələ yasına [2, 18].
Barı haqqa, bir dəxi göstər mənə didarını,
Yoxsa kafir oluban bel bağlaram zünnar ilən [2, 169].

Bu beytlərin hər ikisində *barı* ədatı *arzu-istək* bildirir. Birinci beytdə *təəssüf* hissinin, ikinci beytdə isə *qeyd-şərt* məzmununun daha da emosional ifadəsinə xidmət edir. Bu üslubi xüsusiyyətə uyğun olaraq birinci beytdə feil arzu şəklində, ikinci beytdə isə əmr şəklindədir.

***Gərək* ədatı**. Müasir dilimizdə *gərək* sözü arzu ədatı kimi aktivdir. *Məsələn: Gərək sən də gələsən. Gərək ora getməyəydin. Adamın gərək abır-həyası olsun.*

Gərək sözü Nəsiminin divanında isə *zərurilik, vaciblik* bildirən söz kimi cümlənin xəbəri vəzifəsində işlənmişdir. "Dədə Qorqud" dastanında və klassik şeir nümunələrində də *gərək* sözü bu funksiyada olmuşdur. *Yox* sözü kimi *gərək* sözü də mətndə müxtəlif nitq hissələrinə aid olub daha çox şəkilçisiz, bəzən də şəxs şəkilçisi ilə birlikdə işlənmişdir. Məsələn:

Zahidi-zərraqı hər dəm oda yandırmaq gərək [2, 96].
Lütfü-ehsan vaxtıdır, şaha, mənə ehsan gərək,
Çün əzəldən qismət olmuş lütfü ehsan sizlərə [2, 20].
Cövhəri olmaq gərəkdir, cövhəri bulmaq gərək,
Hər kimin könlündə vardır, vara ol kan istəyə [2, 49].

Şairin bəzi qəzəllərində *gərək* sözü rədif kimi də işlənmişdir [2, 114; 115].

Nəticə

Tədqiqatda İmadəddin Nəsiminin türk (Azərbaycan) "Divanı"nda işlənmiş əmr, arzu, təsdiq və inkar ədatları araşdırılmışdır. Nəticə olaraq deyək ki, ədatların forma və məna zənginliyinə dərindən bələd olan dahi şairimiz əmr, arzu, təsdiq və inkar ədatlarından müvafiq məqamlarda uğurla istifadə etmişdir.

Bir daha qeyd edirik ki, divanda ədatın mənaca bütün növləri əhatə olunmuşdur. Biz burda yalnız əmr, arzu, təsdiq və inkar ədatlarından danışdıq. Digər məna növləri haqqında isə ayrıca məqalədə danışılacaq. Beləliklə, nəticə olaraq bildiririk ki, divanda *gəl, gör, qoy* əmr ədatları, *barı, gərək* arzu ədatları, *bəli, yox, heç (hiç)* təsdiq və inkar ədatları işlənmişdir ki, bu da özlüyündə ədəbi dilimizin həmin dövrdə də zəngin olduğunu sübut edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Dəmirçizadə, Ə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. / Ə.Dəmirçizadə. Bakı: – Maarif nəşriyyatı, – 1979, – 268 s.
2. İmadəddin, N. Seçilmiş əsərləri, II cilddə. I cild. / N.İmadəddin, tərt. ed. H.Araslı, red., lüğət. müəl. T.Kərimli, izah. müəl. M.A.Məhəmmədi. – Bakı: – Lider nəşriyyatı, – 2004. – 334 s.
3. İmadəddin, N. Seçilmiş əsərləri, II cilddə. II cild. / N.İmadəddin, tərt. ed. H.Araslı, red., lüğət. müəl. T.Kərimli, izah. müəl. M.A.Məhəmmədi. – Bakı: – Lider nəşriyyatı, – 2004. – 373 s.

Kazımov, İ. Türk dillərinin müqayisəli morfologiyası, III cild. / İ.Kazımov. – Bakı: – Elm nəşriyyatı, – 2019, – 304 s.

FUNCTIONAL-STYLISTIC FEATURES OF IMPERATIVE, OPTATIVE, AFFIRMATIVE AND NEGATIVE PARTICLES IN IMADEDDIN NASIMI'S TURKISH (AZERBAIJANI) «DIVAN»

Sarvar Shirinov

The article investigates the functional and stylistic features of imperative, optative, affirmative, and negative particles in Imadeddin Nasimi's Turkish (Azerbaijani) «Divan». Here, the imperative particles "gəl", "gör", "qoy", the optative particles "barı", "gərək", and the affirmative and negative particles "bəli", "yox", "heç (hiç)" have been studied.

The scientific work puts forward numerous theses related to particles, which demonstrates that our language, belonging to the Turkic language family, possessed great richness even in ancient times. Based on the research, it can be said that in the divan the frequency of use of some particles in different functional and stylistic features is high. The use of some others, however, is observed only in certain contexts. For example, the particle "yox" is more active than the particle "bəli". Likewise, the great poet used the particle "heç (hiç)" only in certain contexts. Furthermore, although the particles "gəl", "gör" are used particularly intensively in the Divan, the particle "qoy" is used very rarely.

Keywords: *Imadeddin, Nasimi, Turkish, Azerbaijani, "Divan", Turkic language, particle, optative, affirmative, negative, imperative, modern, language, function, style, feature.*

KARAİM DİLİNİN KRIM DİALEKTİNDƏ MƏNSUBİYYƏT KATEQORİYASININ İFADƏSİ (İBRANİ HƏRFLİ MƏCMUƏLƏR ƏSASINDA)

Xəyal Əsgərli
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
Elmi işçi
esgerli-x@mail.ru
https://orcid.org/0000-0002-5113-1583

Türk dillərinin qıpçaq qrupuna daxil edilən karaim dili tarixən müxtəlif dil və mədəni mühitlərin təsiri altında formalaşmışdır. Bu dilin üçü dialekti (Trakay, Qaliç, Krım) arasında Krım dialekti arxaik dil xüsusiyyətlərini qoruyub saxlaması və özünəməxsus qrammatik sistemi ilə seçilir. Bu araşdırmada ibrani qrafikası ilə yazıya alınmış məcmuələr əsasında karaim dilinin Krım dialektində mənsubiyyət kateqoriyası tədqiq edilir. Tədqiqatın məqsədi ibrani əlifbası ilə yazıya alınan mənbələr əsasında Krım dialektində mənsubiyyət formalarının struktur və funksional xüsusiyyətlərini təhlil etməkdir.

Tədqiqat nəticəsində məlum olur ki, Krım dialektində mənsubiyyət kateqoriyası əsasən isimlərə artırılan və türk dillərinin əksəriyyətində eynilik təşkil edən şəkilçilər vasitəsilə ifadə olunur. Karaim dilinin dialektlərində müşahidə edilən formal variantlaşmaların mövcudluğu dialektin tarixi inkişafı və kənar dil təması nəticəsində yaranan təsirlərin əlaməti ilə əlaqələndirilə bilər.

Açar sözlər: *karaim dili, mənsubiyyət kateqoriyası, qrammatik kateqoriyalar, Krım dialekti, ibrani əlifbası*

Giriş

Dilin təməl qatlarından biri də onun qrammatik quruluşudur. Qrammatika dilçiliyin digər bölmələrinə nisbətən daha az yad təsirə məruz qalan istiqamətidir. Dilin öz daxili imkanları hesabına baş verən inkişaf hər bir dil üçün spesifik xarakter daşıyan qrammatik quruluşda özünü göstərir. Hər bir dilin qrammatik strukturu onun funksionallığını təmin edir və kommunikativ imkanlarının formalaşmasında mühüm rol oynayır. Qrammatik struktur iki əsas səviyyədən- morfoloji və sintaktik qatlardan ibarətdir. Morfoloji qat sözlərin daxili formalaşmasını və şəkilçilər hesabına dəyişmə imkanlarını təmin edir, sintakik qat isə bu sözlərin cümlə daxilində ardıcıllığını və məna əlaqələrini tənzimləyir. Qrammatik quruluşun hər iki səviyyəsi dilin ifadə imkanlarını genişləndirilməsini mümkün edir. Morfoloji və sintaktik qatların harmonik balansı dilin qrammatik sisteminin həm struktural xüsusiyyətlərini, həm də praktik aspektlərini birləşdirərək akademik və analitik tədqiqat üçün zəngin material təqdim edir.

Dilin strukturu ilə birbaşa əlaqədə olan qrammatik kateqoriyaların tədqiqi morfologiyanın ən vacib məsələlərindəndir. *"İsmin bir sıra morfoloji və morfonoloji kateqoriyaları vardır. Bütün dillərdə olduğu kimi, türk dillərində də ayrı-ayrı fəlsəfi-məntiqi kateqoriyaların qrammatik ifadə forması isim, sifət və feildir"* (Kazımov, 2019, s. 81).

Tarixin müxtəlif dövrlərində yad dillərin təsirinə məruz qalan türk dilləri öz qrammatik sisteminin sabitliyini və strukturunu qoruyub saxlaya bilmişdir. "*Dilin qrammatik quruluşunun özü insan idrakının uzunmüddətli fəaliyyətinin nəticəsidir. İdraki-təfəkkür kateqoriyalarının dildə təzahürü olan qrammatik kateqoriyalar da dil vahidlərinin uzunmüddətli birgə fəaliyyət sırasında bənzər əlamətlər üzrə birləşməsi nəticəsində meydana çıxır. Qrammatik kateqoriyaların formalaşması və sabitləşməsi eyni zamanda dilin davamlı inkişafını özündə əks etdirir. Bu baxımdan türk dilləri qrammatik strukturun sabitliyi ilə, eyni zamanda qrammatik kateqoriyaların dəyişməzliyi ilə seçilir*" (Həsənli Qəribova, 2022, s. 105-106).

Türk dillərində ümumi qrammatik kateqoriyalardan biri olan mənsubiyyət kateqoriyası tarixi inkişaf prosesində sabitliyini qorumuş, ifadə formaları demək olar ki, dəyişikliyə məruz qalmamışdır. *"Türk dilləri ailəsinə daxil olan dillərin genezisinə nəzər saldıqda onların semantik-qrammatik funksionallığı aspektində müxtəlif növ dəyişikliklər baş verdiyini görmək mümkündür. Bu nöqteyi-nəzərdən*

sahiblik, mənsubluq formalarının funksiyalarının əhəmiyyətli dərəcədə zənginləşdiyini müşahidə edirik" (Quliyeva, 2023, s. 398).

Mənsubiyyət kateqoriyasının morfoloji göstəricilərinin mənşəyi məsələsi ilə əlaqədar fikirlər müxtəlifdir. Tədqiqatçıların əksəriyyəti türk dillərində mövcud olan bu şəkiçilərin mənşəyini şəxs əvəzlikləri ilə əlaqələndirirlər *"Mənsubiyyət kateqoriyası göstəricilərinin əmələ gəlməsi haqqında fikir müxtəlifliyinə baxmayaraq, belə bir hipoteza geniş yayılmışdır ki, mənsubiyyət şəkilçiləri şəxs və işarə əvəzliklərindən törəmədir"* (Bəşirov, 2014, s. 22).

Tədqiqatın əsas obyekti ibrani qrafikalı mətnlərin yer aldığı, təxminən XIX-XX əsrlərdə Krım dialektinin dil xüsusiyyətlərini özündə ehtiva edən "Katık", "Qılcı" və V. Radlov tərəfindən toplanan "Şimal türk xalqlarının xalq ədəbiyyatından nümunələr: Krım dialektləri" (Proben der Volklitteratur der nördlichen türkischen Stämme: Die Mundarten der Krym) adlı məcmuələrdir (Çulha, 2015; Aqtay, 2021; Radloff, 2010). Müqayisəli tədqiqat üçün karaim dilinin Trakay və Qaliç dialektlərindən nümunələr verilmişdir.

I şəxsin təkində bu kateqoriyanın göstəriciləri –ım, -im, -um, -üm, -m şəkilçiləridir. Bu dildə şəkilçi həm dodaq, həm də damaq ahənginə uyğun olaraq işlənmişdir: *gönlüm , yarım, sultanım, adım, oğlum, qardaşım, yolum, aslanım, qanım, işim, dişim, dilegim, gönlüm, öñüm, yaşım, atam, babam* və s. Bəzi məqamlarda dodaq ahənginin pozulduğu sözlərə də rast gəlinir: gözim (גוזים) [Qıl. s.109 ; Kat. s.75; Pro. s.732], gönlim (גונלים) [Qıl. s.172; Kat. s.47; Pro. s.732] , sözim (סוזים) [Qıl. s.143; Kat. s. 99, Pro. s.711], oğlım (אוגלים) [Qıl. s.281, Pro. s.741], suçım (סוצום) [Qıl. s.169] və s. Nümunə kimi verilən sözlər həmçinin dodaq ahənginə uyğun şəkildə də mənsubiyyətə görə dəyişmişdir. Dodaqlanmanın müşahidə edildiyi yerlərdə şəkilçi ibrani qrafikasına uyğun olaraq ום (vav+mim) şəklində yazılmışdır, pozulduğu hallarda isə ים (yod+mim) qrafik işarələrindən istifadə edilmişdir.

Məcmuələrin dilində mənsubiyyət kateqoriyası bəzən sözlərin sonuna şəkilçi əlavə olunması ilə, bəzən də şəxs əvəzliyi ilə birlikdə birləşərək ifadə olunmuşdur: *"Benim adım Ömer hoca, mezarım var ucdan uca"* [Kat. s. 190]; *"Ol benim efendim hem eki gözim, yalvarsam, yakarsam geçmez dilegim"* [Qıl. s. 122]; *"Gene yar artırdı benim ateşim, durmaz aqar gözümden qan ile yaşım"* [Pro. s. 283].Karaim dilinin digər iki dialektlərində də bu şəkilçilərdən istifadə olunur: adım, anam, tenrim, kuyaşım "günəşim", ölümüm, küçüm "gücüm" və s. (Trakay d.). Qaliç dialektində isə -üm variantına rast gəlinmir: atım, yerim, uvlum "oğlum" və s.

Məcmuələrdə ikinci şəxsin təki həm n (נ), həm də sağırnunla (ñ-ג) ifadə edilmişdir. Sağırnunla yazılan variant kəmiyyət baxımından üstün mövqedədir: babañ, anañ, burnıñ, qardaşıñ, beñiziñ və s. Eyni sözün hər iki formada işlənməsi mətnlərin dili üçün ənənəvi xarakter daşıyır: elin (אלינ) [Kat. s.71; Qıl. s.242; Pro. s.658], eliñ (אליג) [Kat. s.184; Qıl. s.233; Pro.s.743] başın (בשינ) [Kat. s.68; Qıl. s.295], başıñ (אליג) [Kat. s.98; Qıl.s.343; Pro. s.703] yüzün (יוזונ) [Kat. s.83; Qıl. s.171; Pro. s.660], yüzüñ (יוזוג) [Kat. s.133; Qıl.s.329; Pro.s. 707], adın (אדינ) [Qıl. s.244; Pro. s.595] adıñ (אדיג) [Kat. s.200; Qıl. s.250; Pro. s.693] və s. İbrani qrafikasına uyğun olaraq mətnlərdə söz sonunda n hərfi fərqli qrafik işarə (ן) ilə göstərilir. Lakin II şəxsin təkini göstərən mənsubiyyət şəkilçisinin işləndiyi məqamlarda isə söz əvvəli və ortasında yazılan n (נ) hərfi müşahidə olunur. Mətnlərdə ikinci şəxsin təkində də dodaq ahənginin pozulduğu hallar müşahidə edilir: sözin (סוזינ) [Kat. s.52; Qıl. s.144], yüzin (יוזינ) [Kat. s.90; Qıl.s.171; Pro.s.686], gözin (גוזינ) [Kat. s.108, Qıl.s. 180, Pro.s.749] və s. Trakay və Qaliç dialektlərində II şəxsin mənsubiyyət forması -y, -ıy şəkilçilərinin iştirakı ilə yaranır: adıy "adın", aşıy "aşın", tenriy "tanrın" (Trakay); atıy "adın", yeriy "yerin", uvluy "oğlun" (Qaliç) (Musaev, 1964, s. 131).

III şəxsin təkində sonu samitlə bitən sözlərə -ı, -i, -u, -ü, sonu saitlə bitən sözlərə isə -sı[4] şəkilçisi artırılmışdır: acısı, anası, dumanı, dibi, eli, içi, gözü, oğlu, öñü, yaşı, göñlü, töbesi, saçı, oğlu, içi və s. Mətnlərdə dodaq və damaq ahənginin pozulması müşahidə olunur: qapusı, gözi, oğlı, öñi, yapusı. Trakay və Qaliç dialektlərində də III şəxsin təki eyni şəkilçilərlə formalaşır.

Bu mətnlərdə mənsubiyyət şəkilçilərinin cəm formaları I şəxsdə -mız,-miz,-muz, -müz, II şəxsdə -nız,-ñız,-niz,- ñiz -nuz, -ñuz, -nüz, -ñüz, III şəxsdə -ları, -leri şəkilçilərinin iştirakı ilə düzəlir. I şəxsin cəmində samitlə bitən sözlərə -ı/-i saitləri əlavə olunur: başımız, evimiz, gözümüz, oğlumuz, üçümüz, yükümüz, işimiz, yanımız və s. Bəzən dodaq ahənginin pozulması qeydə alınır. Məsələn, boyumız, gönlümiz, sözümiz, üçümiz, üstümiz. Krım dialektində I şəxsin cəmində müşahidə olunan bu şəkilçilər Trakay və Qaliç dialektləri ilə eynilik təşkil edir.

II şəxsin cəmində də I şəxsin cəmində olduğu kimi samitlə bitən sözlərə -ı/-i saitlərinin əlavə edildiyi müşahidə olunur: qanınız, qılıçıñız, yolıñız, qulağıñız, quluñuz və s. Bəzi hallarda dodaq ahənginin pozulması müşahidə edilir: önüñiz, üçüñiz, yolıñız, yüzüniz. Trakay və Qaliç dialektlərində -nız⁴ (-ñız⁴) əvəzinə -yız⁴ variantına rast gəlinir: ateyız "atanız", tenriyiz "tanrınız", közüyüz "gözünüz", yeriniz "yeriyiz" (Trakay d.); atıyız "adınız", yeriyiz "yeriniz", uvluyuz "oğlunuz" (Qaliç d.). Qaliç dialektində ü saiti bütün mövqelərdə i saitinə uyğun gəldiyi üçün, şəkilçinin -yüz variantına təsadüf olunmur.

Hər üç dialektdə III şəxsin cəmi -ları,-leri şəkilçisinin iştirakı ilə yaranır: babaları, dişleri, qaşları, qızları, sözleri, yaşları, yürekleri, evleri, başları (Krım d.); karındaşları, işläri "işləri", kuyruxları "quyruqları", süväkläri "sümükləri" (Trakay d.); kezleri "gözləri", uvulları "oğulları" (Qaliç d.) (Musaev, 2002, s. 204).

Aparılmış təhlillər nəticəsində müəyyən edilir ki, ibrani əlifbası ilə qələmə alınmış mətnlərin dilində, eləcə də karaim dilinin digər iki dialektində müşahidə olunan mənsubiyyət kateqoriyası şəkilçilərinin fonetik variasiyaları əsasən regional dil fərqlilikləri ilə şərtlənir. Bu dialektdə mənsubiyyət kateqoriyası zəngin morfoloji sistemə malikdir və türk dilləri üçün xarakterik olan mənsubluq anlayışını qoruyub saxlayır. Məcmuələr əsasında aparılan təhlil bu kateqoriyanın həm formal, həm də funksional baxımdan sabit struktura malik olduğunu ortaya qoyur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Aqtay, G. (2021). Eliyahu ben Yosef Qılcı'nın mecuması (Kırım Karay ve Türk edebiyatı mecuması). Ankara: TDK yayınları.

2. Bəşirov, K. (2014) Oğuz qrupu türk dillərində qrammatik şəkilçilərin tarixi-linqvistik təhlili: / filologiya üzrə elmlər doktoru dis. avtoreferatı.

3. Çulha T. (2015). Kırım Karaycasının Katık Mecuması.Ankara: Türk Dil Kurumu.

4. Həsənli Qəribova, Ş. (2022). Orta əsrlər türkdilli elmi üslubun leksik-qrammatik xüsusiyyətləri / Ş. Həsənli Qəribova. Bakı: Savad.

5. Kazımov, İ. (2019). Türk dillərinin müqayisəli morfologiyası: [3 cilddə]. Bakı: Elm, c. 3.

6. Quliyeva, Q. (2023). Qədim türkcə rəsmi-işgüzar sənədlərin dilində mənsubiyyət kateqoriyasının ifadəsi // "Görkəmli dövlət xadimi Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" adlı Respublika elmi konfransı. Bakı. s. 398- 402.

7. Musaev, K. M. (2002). Karaim Türkçesi// çev. M. Gültekin. – Ankara: Türklük Bilimi Araştırmaları, sayı:11, s.197-230.

8. Radloff, W. (2010). Proben der Volkslitteratur der Nördlichen Türkischen Stamme, Kuzey Türk Boylarının Halk Edebiyyatından Örnekler. VII Theil. W. Radloff. Haz.: T. Çulha. – İstanbul: Kitap Matbaası.

9. Мусаев, К. (1964). Грамматика караимского языка. Фонетика и морфология/ К.М. Мусаев. – Москва: Наука.

THE EXPRESSION OF THE CATEGORY OF POSSESSION IN THE CRIMEAN DIALECT OF THE KARAIM LANGUAGE (BASED ON HEBREW-SCRIPT MANUSCRIPT COLLECTIONS)

Khayal Asgarli

The Karaite language, which belongs to the Kipchak group of Turkic languages, has historically developed under the influence of various linguistics and cultural environments. Among its three dialects (Trakai, Halych and Crimean), the Crimean dialect is distinguished by its preservation of archaic linguistic features and its unique grammatical system. In this study, the category of possession in the Crimean dialect of the Karaim language is examined based on manuscripts written in Hebrew script. The aim of the research is to analyze the structural and functional features of possessive forms in the Crimean dialect using sources recorded in the Hebrew alphabet.

The results of the study show that in the Crimean dialect, the category of the possession is mainly expressed through suffixes added to nouns, which are largely consistent with those found in most Turkic languages. The presence of formal variation observed in the dialects of the Karaite language may be associated with the historical development of the dialect and the influence of contact with other languages.

Keywords*:* *Karaite language, possessive category , grammatical categories, Crimean dialect, Hebrew alphabet*

DİLDƏ QEYRİ-EKVİVALENT LEKSİKA: MİLLİ DƏYƏRLƏRİN DİL KODUNDA YAŞAMASI

Böyükxanım Eminli
Sumqayıt Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Dil və ədəbiyyat kafedrasının müdiri
boyukxanim.eminli@sdu.edu.az
https://orcid.org/0000-0001-9338-483X

Bu məqalədə dildə qeyri-ekvivalent lüğətin təbiəti, onun yaranma səbəbləri və milli kimliyin formalaşmasındakı rolu ətraflı təhlil edilir. Qeyri-ekvivalent leksik vahidlər yalnız semantik sistemin elementləri kimi deyil, həm də mədəni yaddaşın, etnik özünüdərk və kollektiv təcrübənin daşıyıcıları kimi təqdim olunur. Müqayisəli və təsviri metodlara əsaslanan tədqiqat göstərir ki, lüğətin bu təbəqəsi türk xalqlarının dünyagörüşünü, sosial münasibətlərini və dəyər sistemlərini dil kodunda qoruyub saxlayır və onları nəsildən-nəslə ötürür.

Dil sadəcə ünsiyyət vasitəsi deyil, həm də bir xalqın tarixini, mədəniyyətini və dünyagörüşünü əks etdirən mürəkkəb bir sistemdir. Bu, xüsusilə geniş coğrafi ərazidə yayılmış və leksik müxtəlifliyi və zənginliyi ilə xarakterizə olunan türk dilləri qrupunda özünü göstərir. Bu zənginlik daxilində qeyri-ekvivalent lüğət xüsusi yer tutur. Qloballaşma və dillərarası inteqrasiyanın artdığı müasir dövrdə bu cür leksik vahidlərin öyrənilməsi milli kimliyin qorunması baxımından daha da aktuallaşmışdır.

Açar sözlər: *qeyri-ekvivalent lüğət, dilçilik, milli kimlik, mədəni yaddaş, dil və mədəniyyət, semantika*

Giriş

Qeyri-ekvivalent leksika dedikdə, bir dildə mövcud olan, lakin başqa dillərdə tam və ya adekvat qarşılığı olmayan söz və ifadələr başa düşülür. Bu cür leksik vahidlər adətən müəyyən bir xalqın spesifik həyat tərzi, coğrafi şəraiti, sosial strukturu və mədəni ənənələri ilə bağlı olur.

Dilçilikdə qeyri-ekvivalentlik məsələsi əsasən semantik uyğunluq və tərcümə problemləri kontekstində araşdırılır. Bu leksika növü çox vaxt aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

- yüksək mədəni yüklülük;
- konnotativ zənginlik;
- tərcümə zamanı izahlılığa ehtiyac;
- milli spesifikanın ifadəsi.

Qeyri-ekvivalent leksika iki mədəniyyətin müqayisəsi zamanı üzə çıxır. Adətən qeyri-ekvivalent leksika dedikdə, müqayisə olunan dillərdən birində lüğəvi qarşılığı olmayan leksik vahidlər başa düşülür. Bu isə aşağıdakı səbəblərlə bağlıdır:

1. Həmin dil daşıyıcılarının ictimai təcrübəsində uyğun reallıqların olmaması;
2. Müvafiq anlayışları ifadə edən leksik vahidlərin mövcud olmaması.

Alınma hallarında qeyri-ekvivalent sözlər ekzotizmlər adlandırılır; onlar yad mədəniyyəti izah etməkdən daha çox onu simvolizə edir.

Qeyri-ekvivalent leksikanın ən mühüm xüsusiyyətlərindən biri onun tərcümə zamanı çətinlik yaratmasıdır. Bu problemlər əsasən aşağıdakı formalarda özünü göstərir:

- izahlı tərcümənin zəruriliyi;
- semantik itkilər;
- mədəni kontekstin tam ötürülməməsi;
- funksional ekvivalent axtarışı.

Tərcümə nəzəriyyəsində bu cür hallarda müxtəlif strategiyalar tətbiq olunur: transliterasiya, izah, adaptasiya və ya şərhli tərcümə. Lakin bu üsulların heç biri ilkin mədəni yükü tam şəkildə əvəz edə bilmir. Realiləri tərcümə prosesində xalqlararası etnomədəni xüsusiyyətlərə malik olması N.Xudiye-

vin tərcümə ədəbiyyatına həsr edilmiş tədqiqt işində də xatırlanır. N.Xudiyevin fikrincə, realilər tərcümə olunduğu dilin zənginləşməsində əhəmiyyətli rol oynayır [Xudiyev, 2013, s.62-64].

Qeyri-ekvivalent leksika reallıqlar və anlayış məzmunu səviyyəsində, yəni eyni gerçəklik sahəsini əks etdirən anlayış mərkəzlərinin (sözlərin) üst-üstə düşməməsi səviyyəsində müəyyən edilir. "Əgər linqvodidaktik məqsədlər üçün bu realilər tematik-mənəvi prinsip əsasında qruplaşdırılarsa, onlara izah verilsə və mümkün tərcümə üsulları göstərilsə, nəticədə istiqamətləndirici mətnləri, realilər lüğətini, ölkəşünaslıq şərhini və təlim məqsədlərinə uyğun tapşırıqlar sistemini əhatə edən ölkəşünaslıq kursu yaradıla bilər.

Türk dillərində qeyri-ekvivalent leksikanın yaranması bir sıra amillərlə bağlıdır:

1. Tarixi və köçəri həyat tərzi. Türk xalqlarının tarixi köçəri və yarımköçəri həyat tərzi ilə sıx bağlı olmuşdur. Bu həyat tərzi ilə bağlı yaranan "yurt", "oba", "yaylaq", "qışlaq" kimi sözlər yalnız məkan anlayışı deyil, sosial və mədəni sistemin elementlərini əks etdirir.

2. Qohumluq və sosial münasibətlər sistemi. Türk dillərində qohumluq terminləri olduqca zəngindir. Məsələn, "dayı", "xala", "baldız", "qayın" kimi anlayışlar bir çox dillərdə ümumiləşdirilmiş şəkildə ifadə olunur. Bu isə ailə institutunun və sosial strukturun milli xüsusiyyətlərini göstərir.

3. Etik və mənəvi dəyərlər. "namus", "qeyrət", "abır", "halallıq" kimi sözlər yalnız etik kateqoriyalar deyil, həm də sosial davranış normalarını müəyyən edən dəyərlər sistemidir. Bu sözlərin semantik yükü digər dillərdə tam qarşılıq tapmır.

4. Folklor və şifahi xalq yaradıcılığı. Atalar sözləri, deyimlər və frazeoloji birləşmələr qeyri-ekvivalent leksikanın əsas mənbələrindəndir. Bu vahidlər xalqın kollektiv təcrübəsini və həyat fəlsəfəsini əks etdirir.

Milli identiklik fərdin özünü müəyyən bir etnik və mədəni qrupa aid etməsi ilə bağlıdır. Bu prosesdə dil əsas faktor kimi çıxış edir. Qeyri-ekvivalent leksika isə bu identikliyin ən həssas və spesifik qatını təşkil edir.

Bu leksik vahidlər vasitəsilə:

- milli dəyərlər qorunur;
- tarixi yaddaş ötürülür;
- kollektiv şüur formalaşır;
- mədəni sərhədlər müəyyən edilir.

Məsələn, "ocaq" anlayışı yalnız fiziki məkan deyil, ailə birliyi, müqəddəslik və davamlılıq ideyasını ifadə edir. Bu cür sözlər milli kimliyin simvolik göstəricilərinə çevrilir.

"Dilçilikdə reali ilə bərabər ekvivalentsiz leksika, ekzotik sözlər, lakunalar terminləri də işlənir. Müəyyən tədqiqatlarda onlar bir qrupda öyrənilir və ya arasında fərqli nüanslar olunur. Lakin bizim fikrimizcə, onların hamısını reali adı altında öyrənmək daha məqsədəuyğundur" [Mehrəliyeva, 2021, s.70]. Mədəni çalar daşıyan leksikanı tərcümə nəzəriyyəsi çərçivəsində nəzərdən keçirərkən, sözlərin mədəni yüklülük dərəcəsinə və semantik struktur səviyyəsinə görə dörd tipini ayırmaq olar:

1. **Realilər** – obyektiv gerçəklik səviyyəsi. Tərcümə edilən dilin daşıyıcılarının mədəniyyətində həmin reallığın, denotatın olmaması nəticəsində sözün bütün semantik strukturu, o cümlədən əsas mənası və leksik fonu milli-mədəni xarakter daşıyır.
2. **Anlayış məzmunu səviyyəsi** eyni gerçəklik sahəsini əks etdirən anlayış mərkəzlərinin (sözlərin) uyğun gəlməməsi. Buraya həmin xalqın dünyanı dil vasitəsilə qavrayışının spesifikliyini əks etdirən söz-anlayışlar daxildir. Məsələn, Amerika eskimoslarında qarın müxtəlif növləri üçün çoxsaylı adların olması və ya şimal xalqlarında maral növlərinin müxtəlif adlarla ifadə olunması.
3. **Fon leksikası** – predmet-məntiqi məzmun baxımından uyğun gələn, lakin xüsusi mədəni informasiyaya görə tərcümədə ekvivalent kimi çıxış edə bilməyən sözlərdir. Bu mədəni informasiya sözün nitqdə işlənməsini və tematik əlaqələrini (yəni leksik fonunu) müəyyən edir.
4. **Mədəni-konnotativ leksika** – bu qrupa aid sözlərin milli çaları onların predmet-məntiqi mənasında deyil, kommunikasiya prosesində aktuallaşan və ünsiyyət iştirakçılarının, o cümlədən onla-

rın milli-mədəni xüsusiyyətlərinin, bir-birinə və danışıq predmetinə münasibətinin təsiri ilə formalaşan elementlərdə özünü göstərir. Bu əlavə informasiya konnotasiya adlanır.

Bu dörd leksik qrup "mədəni çalarlı leksika" termini altında birləşdirilir. Milli-mədəni özünəməxsusluğun əsas daşıyıcısı isə, ilk növbədə, milli mədəniyyətə xas spesifik reallıqları ifadə edən qeyri-ekvivalent leksikadır.

"Reali" sözü latın mənşəli, orta cinsdə, cəm formada olan sifətdir (realis – "maddi", "gerçək").

Reali anlayışının iki cür izahı mövcuddur:

1. Reali – müəyyən bir xalqın, ölkənin tarixinə, mədəniyyətinə, məişətinə və həyat tərzinə xas olub, digər xalqlarda rast gəlinməyən predmet, anlayış və ya hadisədir;
2. Reali – belə predmet, anlayış və ya hadisəni ifadə edən söz, həmçinin bu sözləri özündə birləşdirən söz birləşməsi (adətən frazeologizm, atalar sözü, məsəllər və s.)dir.

Realilər – bir xalqın həyatına (məişətinə, mədəniyyətinə, sosial və tarixi inkişafına) xas olan və başqa xalqlara yad olan obyektləri adlandıran sözlər və söz birləşmələridir. Məsələn: "xurcun", "piti", "çarıq", "dolma", "quymaq", "buta", "tirmə" türk dillərinə xas olan realilərdirsə, "хоровод", "частушка", "balalayka", "qarmon"; həmçinin "kuliç", "kvas", "piroq", "kaşa" rus (slavyan) dilinə xasdır və s. Bu sözlər qrupunu 100% milli-spesifik hesab etmək olar, çünki realilər və onların adları yalnız müəyyən bir mədəniyyətə məxsusdur.

G.D.Tomaxinin qeyd etdiyi kimi, "dilin digər sözləri ilə müqayisədə realinin fərqləndirici xüsusiyyəti onun predmet məzmununun xarakteridir, yəni reali ifadə etdiyi predmet, anlayış və ya hadisənin bir tərəfdən xalq (ölkə), digər tərəfdən isə müəyyən tarixi dövr ilə sıx bağlılığıdır. Buradan belə nəticə çıxır ki, realilərə uyğun milli (yerli və/və ya tarixi) kolorit xasdır" (Томахин, 1988).

"Kolorit" anlayışı ədəbiyyatşünaslığa incəsənət terminologiyasından keçmişdir (lat. *color* - "rəng"; ing. *local colour*). Bu termin yalnız "rənglərin ümumi uyğunluğu" deyil, həm də "nəyinsə özünəməxsus xüsusiyyətləri, fərqliliyi" mənasını ifadə edir. Məhz kolorit neytral leksik vahidi milli çalarlı vahidə, yəni realiyə çevirir.

Tərcümə nəzəriyyəsində realilərin tərifi iki əsas amilə söykənir:

- onların referentlərinin milli kolorit daşıması;
- onları ifadə edən sözlərin qeyri-ekvivalentliyi (tərcümə prosesində üzə çıxır).

Realiləri ifadə edən sözlər tərcümə prosesində üzə çıxan qeyri-ekvivalent leksikaya daxildir. Onlar başqa dillərə birbaşa tərcümə olunmur və tərcüməçilər çox vaxt geniş izahlara müraciət edir və ya yeni sözlər (neologizmlər) yaradırlar.

Əgər tərcümə olunan dildə müəyyən anlayışın izaholunmaz şəkildə olmaması müşahidə edilirsə, bu halda "lakuna" termini işlədilir. Bu termin "boşluq", "çatışmazlıq" mənasını verir. A. O. İvanov yazır ki, "semantik lakunalar dedikdə, mənbə dilində konkret leksik vahidlə ifadə olunan müəyyən anlayışın tərcümə dilində olmaması nəzərdə tutulur ki, bu da hər bir dilin obyektiv gerçəkliyi fərqli şəkildə bölməsi ilə bağlıdır." (Иванов, 2006).

Lakin bu anlayışı bütün qeyri-ekvivalent leksikaya şamil etmək düzgün deyil. Birincisi, qeyri-ekvivalent leksikanın bütün növləri lakuna hesab edilə bilməz; ikincisi isə, xarakterinə görə fərqli olan bu leksik qrupları eyni kateqoriyada birləşdirmək və hamısına eyni tərcümə yanaşmasını tətbiq etmək elmi baxımdan əsaslandırılmış deyil.

Realilərin tərcümədə mənasının ötürülməsi üçün bir neçə üsul mövcuddur:

1. Kalka üsulu orijinal sözün və ya söz birləşməsinin daxili formasının sözbəsöz tərcümə olunmasıdır. Bu üsul qeyri-ekvivalent leksikanın birbaşa çevrilməsi kimi çıxış edir, lakin hər zaman düzgün nəticə vermir. Bəzi hallarda uğurlu olsa da, bəzən məna tam açılmır. Məsələn, Azərbaycan dilindəki ***"yurd", "ocaq", "el-oba"*** kimi sözlərin rus və ya alman dillərinə hərfi tərcüməsi onların milli-mədəni yükünü tam əks etdirmir. Eyni şəkildə, Azərbaycan mədəniyyətinə aid ***"Novruz süfrəsi", "axır çərşənbə tonqalı", "Kosa və Keçəl"*** kimi anlayışların sadə sözbəsöz tərcüməsi milli ənənələrin mahiyyətini izah etmir. Belə hallarda əlavə şərh olmadan məna təhrif oluna bilər.

2. Mövcud analoqun istifadəsi tərcümə dilində funksional baxımdan yaxın olan söz və ya ifadənin seçilməsidir. Məsələn, Azərbaycan dilindəki **"ürəyinə salmaq"** ifadəsi rus dilində "принимать близко к сердцу" kimi qarşılıq tapır. Həmçinin ***"dilə düşmək"*** ifadəsi "быть на устах" kimi verilir. Bu zaman məna qorunur, lakin ifadə forması dəyişir.

3. Transliterasiya (və ya transkripsiya Transliterasiya orijinal sözün yazılış formasının tərcümə dilinin hərfləri ilə verilməsidir, transkripsiya isə səs tərkibinin ötürülməsidir. Məsələn, Azərbaycan mədəniyyətinə aid ***"şirni", "çayxana", "düşbərə"*** kimi sözlər başqa dillərə *"shirin", "chaykhana", "dushbara"* kimi ötürülə bilər. Lakin bu üsul da sözün mənasını izah etmir və əlavə şərh olmadan anlaşılmaz qalır. Buna görə bu üsul daha çox xüsusi adların, coğrafi adların və ya mədəni terminlərin verilməsində istifadə olunur.

4. Təsviri (izahlı) tərcümə sözün mənasının geniş şəkildə açıqlanmasıdır. Məsələn, Azərbaycan mətbəxinə aid ***"plov"*** düyü əsasında hazırlanan, müxtəlif ət və ədviyyatlarla zənginləşdirilən milli yeməkdir. ***"Düşbərə"*** isə xırda xəmir içlikli, bulyonda bişirilən ənənəvi Azərbaycan şorbasıdır. ***"Novruz bayramı"*** isə yazın gəlişini, təbiətin oyanmasını simvolizə edən qədim türk mənşəli milli bayramdır. Bu cür izahlar sözün həm məna, həm də mədəni yükünü daha aydın şəkildə çatdırır.

Hər bir üsulun öz üstünlükləri və çatışmazlıqları vardır. Kalka üsulu milli koloritin saxlanmasına kömək etsə də, çox vaxt məna tam açılmır. Digər üsullar isə ya funksional uyğunluğa, ya da izahlılığa əsaslanaraq fərqli məqsədlərə xidmət edir.

Leksik uyğunluq problemi. Bir dildən digərinə tərcümənin əsas çətinliklərindən biri sözlərin leksik mənalarının həcminin və uyğunluğunun üst-üstə düşməməsidir. Dillərdə leksik uyğunluğun üç tipi fərqləndirilir:

1. **Tam uyğunluq (AB = AB)**. Məsələn: "başını itirmək" — "потерять голову" "ağzına su almaq" — "набрать в рот воды"
2. **Qismən uyğunluq (AB = AC)**. Məsələn: "ürəyinə salmaq" — "принимать близко к сердцу", "dilə düşmək" — "быть на устах"
3. **Tam uyğunsuzluq (AB = CD)**. Məsələn: "qulağına sırğa olmaq" — "зарубить себе на носу"

Bu fərqlər obyektiv gerçəkliyin, anlayışın və sözün qarşılıqlı münasibəti ilə izah olunur. Gerçəklik insan şüurunda anlayışlar vasitəsilə əks olunur; anlayışların məzmunu çox vaxt oxşar olsa da, onların dil ifadə forması müxtəlif olur.

Müasir dövrdə qloballaşma dillər arasında qarşılıqlı təsiri artırır və bu, müəyyən hallarda milli leksikanın zəifləməsinə səbəb olur. Xüsusilə gənc nəsil arasında xarici sözlərin üstünlük təşkil etməsi bəzi milli leksik vahidlərin passivləşməsinə gətirib çıxarır.

Bu baxımdan aşağıdakı tədbirlər vacib hesab olunur:

- milli dil siyasətinin gücləndirilməsi;
- təhsil proqramlarında milli leksikanın təbliği;
- folklor və ədəbiyyatın aktiv istifadəsi;
- akademik tədqiqatların genişləndirilməsi.

Dildə qeyri-ekvivalent leksika yalnız dil vahidi deyil, həm də milli mədəniyyətin və identikliyin daşıyıcısıdır. Bu leksik qat xalqın tarixini, dünyagörüşünü və dəyərlər sistemini özündə əks etdirərək dil kodunda qoruyur. Onun öyrənilməsi və qorunması həm dilçilik, həm də mədəniyyətşünaslıq baxımından strateji əhəmiyyət daşıyır. Qloballaşma şəraitində bu leksikanın sistemli şəkildə araşdırılması və tədrisi milli identikliyin davamlılığını təmin edən əsas amillərdən biri kimi çıxış edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Mehrəliyeva S. Dildə kulturoloji realilər. www.anl.az/down/meqale/ameanx axtarışlar /2021/ 02/777853 (meqale). Pdf.s.67-71.
2. Hacihəsənova L. Realilər və onlarla həmhüdud olan söz qrupları // https://filologiyameseleleri.com/pdf/2024/n7/138-148%20Leman%20Hacihesenova.pdf Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257 Filologiya məsələləri № 7, 2024 səh. 138-148
3. Xudiyev N. Zamanın axarı ilə. Tərcümə ədəbiyyatı və ədəbi dilimiz. Bakı, Elm və təhsil, 4 cilddə, I h., 2013, 788 s.
4. Влахов С., Флорин С. Непереводимое в переводе: учебное пособие. - М.: Международные отношения, 2012. - 416 с.
5. Иванов А.О. Безэквивалентная лексика / А.О. Иванов. – СПб.: Типография издательства СПбГУ, 2006. – 200 с.
6. Томахин Г. Д. Реалии - американизмы: Пособие по страноведению: [Для ин-тов и фак. иностр. яз.]. М.: Высш. шк., 1988.

NON-EQUIVALENT VOCABULARY IN LANGUAGE: THE PRESERVATION OF NATIONAL VALUES WITHIN THE LINGUISTIC CODE

Boyukkhanim Eminli

This article provides a comprehensive analysis of the nature of non-equivalent vocabulary in language, the reasons for its emergence, and its role in the formation of national identity. Non-equivalent lexical units are presented not only as elements of the semantic system, but also as carriers of cultural memory, ethnic self-awareness, and collective experience. Based on comparative and descriptive methods, the study demonstrates that this layer of vocabulary preserves the worldview, social relations, and value systems of Turkic peoples within the linguistic code and transmits them from generation to generation.

Language is not merely a means of communication, but also a complex system that reflects the history, culture, and worldview of a people. This is particularly evident in the group of Turkic languages, which are spread across a vast geographical area and are characterized by lexical diversity and richness. Within this richness, non-equivalent vocabulary occupies a special place. In the modern era, marked by globalization and increasing interlingual integration, the study of such lexical units has become even more relevant in terms of preserving national identity.

Keywords: *non-equivalent vocabulary, linguistics, national identity, cultural memory, language and culture, semantics*

OĞUZ TAYFA ADININ KÜLÜS VƏ PAYIZ TOPONİMLƏRİNDƏ İZİ

Cəmilə Məhərrəmova
AMEA-nın Naxçıvan Bölməsi
Dissertant
Cemilenihatmeherremova@gmail.com
https://orcid.org/0009-0007-4494-1143

Bu tədqiqatda Naxçıvan bölgəsinin (Babək və Şahbuz rayonları) onomastik mənzərəsində mühüm yer tutan Külüs və Payız toponimləri etno-linqvistik və sosial-iyerarxik kontekstdə təhlil edilmişdir. Hər iki yaşayış məntəqəsinin adı qədim türk tayfa ittifaqları, xüsusilə Oğuz (Uz) etnosu ilə birbaşa bağlıdır. Külüs toponimindəki "üs" və Payız toponimindəki "ız" komponentləri "Oğuz" adının fonetik transformasiyaya uğramış formaları (Uzlar) kimi qiymətləndirilir.

Açar sözlər: *Külüs, Payız, etnotoponim, Oğuz (Uz) tayfaları, türk etnotarixi, struktur-semantik təhlil, "Bəy-uz", "Kul-uz"*

Giriş

"Naxçıvan sancağının Müfəssəl dəftər"ində də qeydə alınmış müasir Şahbuz rayonu və ona bitişik ərazilərdəki toponimlərin tədqiqata cəlb olunması regionun tarixi onomastik mənzərəsinin müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Bu kontekstdə xüsusi diqqət yetirilməsi vacib olan mühüm vahidlərdən biri Külüs toponimidir (Naxçıvan sancağının müfəssəl dəftəri, 2001, s. 112-113).

Külüs toponiminin etnotoponim statusu ilə bağlı elmi ədəbiyyatda genişmiqyaslı araşdırmalar mövcuddur. Tarixi mənbələrin və elmi mülahizələrin bir qismi kənd adının genezisini Sak tayfa ittifaqına daxil olan Kol qəbiləsi ilə Uzların (Oğuzların) həmin ərazidə müştərək məskunlaşması faktı ilə əlaqələndirilir ki, toponimin struktur-semantik təhlili onun iki əsas komponentdən ibarət olduğunu üzə çıxarmağa imkan verir:

Kül / Kol komponenti: Bu hissə birbaşa etnonimik xarakter daşıyaraq qədim türk tayfalarının adı ilə bağlıdır.

Us / Uz komponenti: Bu elementin interpretasiyası ilə bağlı iki əsas elmi yanaşma mövcuddur. Birincisi, bu komponentin birbaşa "Uzlar" – oğuzlarla bağlılığı; ikincisi isə onun məkan və aidlik bildirən morfoloji göstərici (şəkilçi) kimi çıxış etməsi ehtimalıdır. Məsələnin dəqiqləşdirilməsi üçün Kol və Uz tayfalarının tarixi qarşılıqlı əlaqələri, onların etnik yaxınlığı və ya eyni tayfa ittifaqında təmsil olunma dərəcələri fundamentallıqla araşdırılmalıdır. Hər iki komponenti etnik ad kimi qəbul etdiyimiz təqdirdə, Külüs toponimi semantik baxımdan "Kol türklərinin məskunlaşdığı yer" və ya "Kol və Oğuz tayfalarının müştərək yurdu" mənalarında izah oluna bilər. Lakin apardığımız son tədqiqatlar və etimoloji təhlillər toponimin ikinci komponenti olan "üs" hissəsinin məhz Uz/Oğuz etnosu ilə bağlılığı ehtimalını daha çox əsaslandırır. Tədqiqatın gedişatında Külüs toponiminin strukturundakı birinci komponent – "kül" hissəsinin "kol" tayfa adı ilə bağlılığından ziyadə, daha çox "Kul" və ya "Qul" leksemi ilə əlaqədar olduğu müəyyənləşdirilmişdir. Qeyd etmək zəruridir ki, sözügedən leksik vahid müasir dilimizdəki "qul", "qulluqçu" və ya "xidmətçi" semantikasına uyğun gəlmir. Erkən orta əsrlər türk hərbi-ictimai terminologiyasında "qul" sözü xüsusi statuslu "döyüşçü" mənasında işlədilmişdir.

Bu etimoloji yanaşma işığında Payız kəndinin adının genezisi ilə apardığımız müqayisəli təhlillər Külüs toponimi ilə maraqlı paralellər qurmağa imkan verir. Belə bir qənaət hasil olur ki, regionda məskunlaşma prosesində sosial-iyerarxik bölgü əsas rol oynamışdır:

"Bəy oğuzlar" (idarəedici elita): Müasir Payız kəndi və Naxçıvan ətrafı, nisbətən əlverişli düzənlik ərazilərdə məskən salmışdılar.

"Kul / Döyüşçü oğuzlar": Daha yüksək relyefə malik dağlıq zonada, strateji əhəmiyyətli Külüs kəndi istiqamətində yerləşdirilmişdilər.

Beləliklə, aparılan etno-linqvistik və tarixi-strateji təhlillərin nəticəsi olaraq qeyd edə bilərik ki, Külüs toponimi semantik baxımdan "oğuz döyüşçülərinin kəndi" və ya "hərbçi oğuzların yurdu" mənasını ifadə edir. Bu fakt bölgənin qədim türk tayfalarının hərbi-inzibati bölgü prinsipi ilə məskunlaşdığını bir daha sübut edir.

"Naxçıvan sancağının Müfəssəl dəftər"ində qeydə alınmış və hazırda Babək rayonu inzibati ərazisinə daxil olan mühüm onomastik vahidlərdən biri də Payız toponimidir (Naxçıvan sancağının müfəssəl dəftəri, 2001, s. 125-126). Sözügedən yaşayış məntəqəsinin adının mənşəyi ilə bağlı elmi ədəbiyyatda müxtəlif, bəzən isə bir-birini təkzib edən mülahizələr irəli sürülmüşdür. Uzun müddət xalq etimologiyasına və səthi yanaşmaya əsaslanaraq, bu ad "payızlıq əkin sahəsi" kimi interpretasiya edilmişdir.

Lakin məsələyə dair ən mübahisəli məqamlardan biri "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə öz əksini tapmışdır. Sözügedən mənbədə toponimin etimologiyası tamamilə fərqli və elmi cəhətdən qüsurlu bir istiqamətə yönəldilərək, fars dili materialları əsasında izah olunmağa çalışılmışdır. Lüğətdə Payız kəndinin coğrafi mövqeyinə istinad edilərək qeyd olunur: *"Kənd dağətəyi ərazidədir. ...Əslində kəndin adı İran dillərinə məxsus 'payiz' sözündən olub, 'uc, son nöqtə, ətək, ayaq, dib' mənalarını bildirir. Kənd həqiqətən də dağ ətəyində yerləşir"* (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2007, s. 150).

Bu yanaşma bir neçə səbəbdən elmi fundamentallıqdan uzaq hesab edilə bilər ki, ilk olaraq linqvistik uyğunsuzluq–toponimin semantik və fonetik tərkibi yerli türk mühiti ilə üzvi şəkildə bağlı olduğu halda, onun süni şəkildə İran dilləri ilə əlaqələndirilməsi regionun tarixi-etnik mənzərəsinə ziddir.

Coğrafi determinizm xətası–Bir kəndin dağ ətəyində yerləşməsi faktı, onun adının mütləq şəkildə "ətək" və ya "ayaq" mənalı yad sözlərdən törəməsinə əsas vermir.

Alternativ etimologiyanın zərurəti–Külüs toponimi ilə apardığımız müqayisəli təhlillər göstərir ki, Payız adı daha çox sosial-iyerarxik strukturla (məsələn, "Pay" – hissə, mülk və ya tayfa bölgüsü ilə bağlı terminlər) əlaqəli ola bilər.

Beləliklə, Payız toponiminin "son nöqtə" və ya "ayaq" kimi fars mənşəli sözlərlə izahı elmi baxımdan kifayət qədər əsaslandırılmamış bir iddiadır və məsələyə türk onomastik sisteminin daxili qanunauyğunluqları çərçivəsində yenidən baxılmalıdır.

Sözügedən toponimin fars dili materialları əsasında izahı elmi baxımdan qəbulolunmazdır. Babək rayonunun etnotarixi mənzərəsi təhlil edildikdə aydın olur ki, Payız və qonşu Cəhri kəndləri uzun əsrlər boyu bölgədə türk tayfa müxtəlifliyini qoruyub saxlayan mühüm areallar olmuşdur. Etnogenez prosesində Cəhri kəndində qıpçaq, Payız kəndində isə oğuz komponentinin həlledici rol oynaması, bu iki yaşayış məntəqəsinin əhalisi arasındakı tarixi-sosial münasibətlərdə də özünü büruzə vermişdir. Bu səbəbdən, Payız adının etimoloji izahında məhz oğuz faktoru dominant istiqamət kimi götürülməlidir.

Toponimin struktur-semantik təhlili onun bikomponentli (iki tərkibli) quruluşa malik olduğunu təsdiqləyir. Adın tərkib hissələri fonetik transformasiya və assimilyasiya proseslərinə məruz qalmışdır. Birinci komponent (Pay / Bay / Bəy): Bu hissəni tarixi-linqvistik baxımdan "bəy" və ya "bay" formalarında rekonstruksiya etmək mümkündür. T. Gülensoy qeyd edir ki, türk dilinin ən qədim leksik qatlarına məxsus olan "bəy/bay" sözü "zəngin, güclü, ulu, hökmdar, əfəndi" semantikasını daşıyır (Gülensoy, 2024, s. 208). D. Karakutun tədqiqatlarında isə "beg/bəy" vahidinin "ulu, idarəedici, ağa" mənalarında işləndiyi, xaqan və ya xandan bir dərəcə aşağı statuslu idarəçini bildirdiyi vurğulanır (Karakurt, 2011, s. 103). Beləliklə, toponimdəki birinci komponent məskunlaşmış əhalinin və ya tayfa rəhbərinin yüksək sosial statusuna (bəylik, ağalıq) işarə edir.

İkinci komponent (Iz / Uz): Bu hissənin ilkin forması "uz" leksik vahididir ki, bu da "Oğuz" etnoniminin fonetik dəyişikliyə uğramış formasıdır. Qeyd edilməlidir ki, orta əsr Bizans mənbələrində də oğuz tayfaları məhz "uzlar" (ουζοι) adı ilə sənədləşdirilmişdir (Shukurov, 2016, s. 35).

Nəticə etibarilə, Payız toponimi semantik strukturuna görə "Bəy Oğuzlar" və ya "İdarəedici Uzlar" mənasını ifadə edərək, yaşayış məntəqəsinin həm etnik mənsubiyyətini, həm də sosial iyerarxiyadakı mövqeyini dəqiq şəkildə əks etdirir. Ehtimal etmək olar ki, Payız bu kəndə qonşu Cəhri kəndində

yaşayan qıpçaq türkləri tərəfindən verilən ad olmuşdur. Çünki, oğuzlarda g, ğ, q, k samitlərinin qorunması, qıpçaq dillərində isə düşməsi müşahidə olunur. Oğuz → Uz transformasiyası sait itməsi və konsonant reduksiyası (saitlərin və samitlərin sadələşməsi) nəticəsində baş vermişdir. Beləliklə, yerli kənd sakinlərinin "Bəy oğuz" adlandırdığı kəndi, Cəhri qıpçaqları "Pay-uz" adlandırmışlar. Oğuz sözünün bu cür şəkildəyişmələrinə Sır-Dərya yaxınlığında "Quz iligəsi" (Oğuz yurdu), "Quz çay" (Oğuz çayı), "Quzkənd", "Uzkənd" kimi coğrafi adlarda rast gəlinir. Bu qısaltmaların hər biri Oğuz mənasını daşıyır. Payız və ya Bəy-uz toponimi bu ərazidə məskunlaşmış oğuz tayfalarının sosial statusunu və etnik mənsubiyyətini ifadə edir. Toponim "Oğuz (Uz) icmasının bəyləri" və ya "Uzların bəyliyi" mənasını daşıyır. Bu, etnotoponim (etnik toponim) kateqoriyasına daxildir və titul+etnonim strukturuna malikdir. Toponimdə müşahidə olunan fonetik dəyişmələr türk dillərinin dialektoloji qanunauyğunluqlarına uyğundur. Payız (Bəy-uz) toponimi Oğuz türk tayfalarının Naxçıvan diyarı, Babək rayonu ərazisində tarixi məskunlaşmasının onomastik şahidi olaraq qəbul edilə bilər.

Nəticə

1. Regionda məskunlaşma prosesinin hərbi-inzibati bölgü prinsipi əsasında aparıldığı müəyyən edilmişdir. Aparılan müqayisəli təhlillər göstərir ki, Payız (Bəy-uz)–"İdarəedici elita" və ya "Bəy oğuzlar"ın məskunlaşdığı düzənlik və əlverişli əraziləri, Külüs (Kul-uz) isə –"Döyüşçü oğuzlar"ın (qədim türk dilində *kul* – döyüşçü statusu) yerləşdiyi strateji əhəmiyyətli dağlıq zonaları ifadə edir.

2. "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə Payız toponiminin İran dilləri vasitəsilə ("ətək", "son nöqtə") izah olunması cəhdləri regionun etnotarixi və türk onomastik sisteminin daxili qanunauyğunluqları baxımından əsassız hesab edilmişdir.

3. Dialektoloji Təsir: Payız adının formalaşmasında qonşu Cəhri kəndindəki qıpçaq elementinin təsiri (sait düşməsi və konsonant reduksiyası) ehtimalı irəli sürülmüşdür. Bu, bölgədəki oğuz-qıpçaq dil təmaslarının onomastik nümunəsidir.

Külüs və Payız toponimləri sadəcə coğrafi adlar deyil, Naxçıvan ərazisində qədim türk tayfalarının məskunlaşma tarixini, onların sosial strukturunu və hərbi təşkilatlanma formasını sənədləşdirən mühüm etnotoponimlərdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: [İki cilddə], (2007), Şərq-Qərb, c. 2, 303 s.

Gülensoy, T., (2024). Bir Etimolojik Sözlük Üzerine Notlar (Sevan Nişanyan, Sözlerin Soyağacı, Çağdaş Türkçenin Etimolojik Sözlüğü), Türk dili, № 627, s. 204-222

Karakurt, D., (2011).Türk söylence sözlüğü. Ankara, Bsk. 1, 249 s.

Məmmədov, H.&Bünyadov, Z.,(2001), Naxçıvan sancağının müfəssəl dəftəri (9 məhərrəm 1140 / 27 avqust 1727), Elm ,376 s.

Shukurov, R., (2016), The Byzantine Turks, 1204–1461 Leiden&Boston, Brill, 514 s.

TRACES OF THE OGHUZ TRIBAL NAME IN THE TOPONYMS KÜLÜS AND PAYIZ

Jamila Maharramova

In this study, the toponyms Kulus and Payiz, which occupy a significant place in the onomastic landscape of the Nakhchivan region (Babek and Shahbuz districts), have been analyzed within ethnolinguistic and socio-hierarchical contexts. The names of both settlements are directly linked to ancient Turkic tribal unions, specifically the Oghuz (Uz) ethnos. The components "-us" in the toponym Kulus and "-iz" in the toponym Payiz are evaluated as phonetically transformed versions of the name "Oghuz" (Uzlar).

Keywords: *Kulus, Payiz , ethnotoponym, Oghuz (Uz) tribes, Turkic ethno-history, structural-semantic analysis, "Bey-uz", "Kul-uz"*

SULTAN MƏCİD ƏFƏNDİYEVİN LATIN ƏLİFBASI İLƏ BAĞLI FİKİRLƏRİ: TƏRƏQQİ VƏ MƏDƏNİ DÖNÜŞ

Fatimə Fətullayeva
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
Kiçik elmi işçi, doktorant
fatimafatullayeva2002@gmail.com
https://orcid.org/0009-0007-6270-4600

Sultan Məcid Əfəndiyev latın əlifbasının tətbiqini yalnız yazı sisteminin dəyişməsi kimi deyil, cəmiyyətin ümumi inkişafına yönəlmiş mühüm islahat kimi qiymətləndirir. O, latın əlifbasına qarşı irəli sürülən arqumentləri təhlil edərək göstərir ki, əlifbanın mürəkkəbliyi tərəqqiyə mane olmur və Avropa ölkələrinin təcrübəsi bunu sübut edir. Eyni zamanda, köhnə ədəbi irsin itirilməsi ilə bağlı narahatlıqların əsassız olduğunu bildirir və yeni əlifba ilə yanaşı köhnə əlifbanın da istifadə oluna biləcəyini vurğulayır. Əfəndiyev latın əlifbasına qarşı müqavimətin əsas səbəbini texniki çətinliklərdə deyil, daha çox sinfi maraqlarda görür. Onun fikrincə, müəyyən qruplar mövcud vəziyyətdən faydalandıqları üçün yeniliyə qarşı çıxırlar. Bundan əlavə, o qeyd edir ki, latın əlifbasının tətbiqi cəmiyyətin daha inkişaf etmiş istiqamətə yönəlməsinə, Şərqdən fərqlənərək irəliləməsinə imkan yaradır və digər xalqlar üçün də nümunə ola bilər. Mətnə görə, əlifba islahatının mühüm nəticələrindən biri də dini təsirlərin zəifləməsidir. Ərəb əlifbasının dini mətnlərlə sıx bağlı olması cəmiyyətin düşüncəsinə təsir edirdi, latın əlifbasına keçid isə daha dünyəvi və müasir düşüncə tərzinin formalaşmasına şərait yaradır. Bununla yanaşı, bu dəyişiklik Avropa ilə mədəni və intellektual yaxınlaşmanı gücləndirərək ölkənin beynəlxalq imicinə də müsbət təsir göstərə bilər. Nəticə olaraq, latın əlifbasının tətbiqi həm mədəni, həm də ictimai baxımdan böyük əhəmiyyət daşıyan bir islahat kimi təqdim olunur. Bu proses keçmiş irsin qorunmasını mümkün edir və eyni zamanda gələcək inkişaf üçün yeni imkanlar açır.

Açar sözlər: *ictimai inkişaf, sinfi maraqlar, klerikalizm, dünyəvilik, Avropa ilə inteqrasiya, ədəbi irs, yazı sistemi*

Giriş

XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamış ziyalılardan biri olan Sultan Məcid Əfəndiyev (1887–1938) həm siyasi xadim, həm də maarifçi kimi tanınmışdır. O, gənc yaşlarından ictimai fəaliyyətə qoşulmuş, dövrün ideoloji proseslərində fəal iştirak etmişdir. Əfəndiyevin yaradıcılığı, əsasən, maarifçilik, dil və yazı məsələləri, eləcə də cəmiyyətin modernləşməsi ideyaları ilə bağlı olmuşdur. Onun çıxış və məqalələrində xalqın savadlanması, dünyəvi düşüncənin formalaşması və milli inkişaf məsələləri xüsusi yer tutur.

Bu dövrdə əlifba islahatı ilə bağlı məsələlər geniş müzakirə olunurdu və bu müzakirələrin zirvəsi kimi keçirilən Bakı Türkoloji Qurultayı xüsusi əhəmiyyət kəsb edirdi. Qurultay türk xalqları arasında ortaq yazı sisteminin formalaşdırılması və latın əlifbasına keçid məsələlərini gündəmə gətirmişdi. Burada müxtəlif ölkələrdən olan alim və ziyalılar iştirak edir, əlifba islahatının elmi, mədəni və ictimai tərəflərini müzakirə edirdilər. Qurultay bu baxımdan yalnız dil məsələsi deyil, həm də ümumi inkişaf strategiyasının müəyyənləşdirilməsi üçün mühüm platforma rolunu oynayırdı. Qurultay və həmin dövrün müzakirələri çərçivəsində Sultan Məcid Əfəndiyev latın əlifbasının tətbiqi ilə bağlı fəal mövqe nümayiş etdirmişdir. Onun çıxışları və yazıları əlifba islahatının elmi əsaslandırılmasına, cəmiyyətin maariflənməsinə və yeni yazı sisteminin üstünlüklərinin izahına yönəlmişdir. Əfəndiyev bu prosesi yalnız texniki dəyişiklik kimi deyil, həm də milli inkişaf və mədəni yenilənmənin vacib mərhələsi kimi qiymətləndirmişdir.

Əlifbanın mürəkkəbliyi məsələsinə toxunan Sultan Məcid Əfəndiyev qeyd edir ki, yazı sisteminin çətinliyi heç də bir xalqın inkişaf səviyyəsini müəyyən edən əsas amil deyil. O, Avropanın bir çox qabaqcıl ölkələrini nümunə gətirərək bildirir ki, həmin ölkələrdə də mürəkkəb və müxtəlif yazı sistemləri mövcuddur, lakin bu, onların elm, texnika və mədəniyyət sahəsində sürətli inkişafına mane olmayıb. Bu fakt göstərir ki, tərəqqini dayandıran əsas səbəb əlifbanın mürəkkəbliyi deyil, daha çox onun müasir dövrün tələblərinə uyğun olub-olmamasıdır. Əfəndiyevin fikrincə, ərəb əlifbasının çətinliyi də inkişafın qarşısını alan əsas

faktor kimi qəbul edilməməlidir. O hesab edir ki, hər hansı bir yazı sisteminə yalnız onun çətinliyi prizmasından yanaşmaq düzgün deyil, əsas meyar onun praktiki istifadədə nə qədər səmərəli olmasıdır. Yəni yazı sistemi həm oxumağı, həm də yazmağı asanlaşdırmalı, eyni zamanda elmi və mədəni informasiyanın daha sürətli yayılmasına xidmət etməlidir. Bundan əlavə, Əfəndiyev vurğulayır ki, müasir dövrdə cəmiyyətlərin inkişafı texnologiya, elm və maarifçiliklə sıx bağlıdır. Buna görə də əlifba yalnız tarixi ənənə kimi deyil, həm də müasir kommunikasiya vasitəsi kimi dəyərləndirilməlidir. Əgər yazı sistemi bu funksiyanı tam yerinə yetirmirsə, onun islahı qaçılmaz olur. Bu baxımdan latın əlifbasına keçid ideyası daha çevik, sadə və beynəlxalq elmi mühitə uyğun bir sistem yaratmaq məqsədi daşıyır.

Latın əlifbasına qarşı irəli sürülən digər mühüm arqument isə mövcud ədəbi irsin taleyi ilə bağlıdır. Əleyhdarlar hesab edirdilər ki, əlifba dəyişikliyi bütün kitabların yenidən çap olunmasını tələb edəcək və bu, böyük maddi itkilərə səbəb olacaq. Bu mövqe digər türk xalqları arasında da səslənirdi. "Tatarlar deyirdilər ki, bizim azı 600 illik yazı tariximiz var, ədəbiyyatımız ərəb əlifbasıyla yaradılıb, biz bu sərvətdən imtina edə bilmərik. Azərbaycanlılar cavab verirdilər ki, bizim ədəbiyyatımız da beləcə qədimdir, amma Sultan Məcid Əfəndiyev göstərdiyi kimi Yaxın Şərqdə – İranda, Əfqanıstanda və başqa ölkələrdə indiyəcən yazılmış kitabların hamısını yeni əlifba ilə nəşr etmək üçün bir zirehli gəminin düzəldilməsinə çəkilən xərc qədər vəsait tələb olunur. S.M. Əfəndiyev onu da vurğulayırdı ki, latın əlifbasının işlədilməsi ərəb əlifbasını qadağan etmək deyil. Ərəb əlifbasından da gərəkli məqsədlər üçün istifadə etmək olar." (Rzayev, 2016, s.4-6). Əfəndiyev isə bu fikirlə razılaşmır. O bildirir ki, yeni əlifbanın tətbiqi köhnə əlifbanın istifadəsini tam aradan qaldırmır. Almaniya nümunəsini göstərərək qeyd edir ki, orada latın və qotik yazı paralel şəkildə istifadə olunur. Bu isə göstərir ki, keçmiş irsi qorumaqla yanaşı, yeni sistemə keçid mümkündür.

Latın əlifbasının tətbiqi ilə bağlı müzakirələr təkcə texniki və mədəni məsələlərlə məhdudlaşmır, eyni zamanda bu prosesin arxasında duran ideoloji mövqelər və siyasi baxışlar da ciddi mübahisə mövzusu idi. Həmin dövrdə müxtəlif ictimai qüvvələr bu islahatın mahiyyətini fərqli şəkildə şərh edir, onu öz siyasi və ideoloji mövqelərinə uyğun qiymətləndirirdilər. Bu kontekstdə Sultan Məcid Əfəndiyev də əlifba məsələsinə münasibət bildirərək onun əleyhdarları və tərəfdarları ilə bağlı öz baxışlarını ortaya qoyurdu. Milli qüvvələrin əlifba məsələsində fikir dəyişdirməsinin əsil mahiyyətinə varmayan bolşeviklər, bunu tamamilə başqa yerə yozurdular. Məsələn, Sovet Azərbaycanının rəhbərlərindən Sultan Məcid Əfəndiyev hesab edirdi ki, yeni türk əlifbasının əleyhdarları millətçilər və islamçılardır. Millətçilər qısqanclıqdan bu məsələyə müsbət yanaşmırlar. Belə ki, əvvəllər ərəb əlifbasından latın əlifbasına keçmək istəyən millətçilər indi bunu həyata keçirənin bolşeviklər olduğu üçün yeni əlifba məsələsini tənqid edirlər. Əfəndiyevin fikrincə, millətçilərdən fərqli olaraq, islamçılar-ruhanilər isə ərəb əlifbasından daha çox onun təsiri məqsədilə möhkəm yapışırlar: "Latın əlifbasının qəbul edilməsi bizi ruhanilərin ağalığından xilas edir və beləliklə, mədəni dirçəlişimizə səbəb olan amilləri gücləndirir"

Şərqdən uzaqlaşma məsələsinə münasibətdə isə Sultan Məcid Əfəndiyev daha kəskin və prinsipial mövqe ortaya qoyur. O, hesab edir ki, Şərq ölkələrinin bir hissəsinin elm, texnika və mədəniyyət baxımından geri qalması faktı nəzərə alınmalıdır və bu vəziyyətə uyğunlaşmaq deyil, ondan irəli keçmək əsas məqsəd olmalıdır. Onun fikrincə, inkişaf üçün əsas meyar geri qalmış modellərlə eyni səviyyədə qalmaq yox, daha qabaqcıl və müasir sistemlərə inteqrasiya olunmaqdır. Əfəndiyev bu kontekstdə latın əlifbasının qəbulunu yalnız texniki islahat kimi deyil, həm də strateji mədəni seçim kimi dəyərləndirir. Onun fikrincə, bu addım cəmiyyəti daha geniş mədəni və elmi mühitə yaxınlaşdırır, informasiya mübadiləsini asanlaşdırır və beynəlxalq əlaqələrdə daha çevik iştirak imkanı yaradır. Beləliklə, latın əlifbası yalnız daxili modernləşmə vasitəsi deyil, həm də qlobal inkişaf prosesinə qoşulmanın bir forması kimi çıxış edir. Əfəndiyev həmçinin vurğulayır ki, bu dəyişiklik digər xalqlar üçün də nümunə rolunu oynaya bilər. Yəni bir cəmiyyətin uğurlu islahatı təkcə onun öz inkişafına deyil, regiondakı digər xalqların da modernləşmə prosesinə təsir göstərə bilər. Bu baxımdan latın əlifbasına keçid ideyası yalnız lokal bir qərar deyil, daha geniş miqyasda mədəni yenilənməyə təkan verən bir addım kimi qiymətləndirilir.

Əlifba islahatının mühüm tərəflərindən biri də klerikalizmdən azadlıq məsələsidir. Ərəb əlifbası ilə bağlı olan dini təsirlər cəmiyyətin düşüncə tərzinə ciddi təsir göstərirdi. Əfəndiyev qeyd edir ki, latın əlifbasına keçid bu təsiri zəiflədərək daha dünyəvi və müasir düşüncə sisteminin formalaşmasına şərait yaradır. "Latın əlifbasının tətbiqi eyni zamanda bizi klerikalizmdən azad edir. Ərəb əlifbasına əsaslanan oxu kitabları dinlə bağlıdır və ruhaniyyətin hakimiyyətini gücləndirir, bu isə kütlənin şüuruna mənfi təsir göstərir. Latın əlifbasının qəbul olunması isə dini hakimiyyətdən azad edir və mədəni tərəqqi üçün mühüm amildir. Ən vacib məqam budur ki, latın əlifbasının tətbiqi Avropa düşüncəsində müəyyən çevrilişə səbəb olacaq və onların bizə münasibətini dəyişdirəcək." (Məmmədli, 2026, s. 209).

Latın əlifbasının qəbulunun Avropa ilə münasibətlərə təsiri də xüsusi olaraq ön plana çəkilir. Sultan Məcid Əfəndiyev bu dəyişiklikdə yalnız texniki və yazı sisteminə aid bir islahat görmür, onu daha geniş mənada mədəni və ideoloji dönüş kimi qiymətləndirir. Onun fikrincə, əlifba dəyişimi cəmiyyətin düşüncə tərzində yenilənməni ifadə edən simvolik addımdır və bu baxımdan mühüm əhəmiyyət daşıyır. Latın əlifbasına keçid Avropa ilə mədəni və elmi əlaqələrin daha da güclənməsinə şərait yaradır. Yeni yazı sistemi vasitəsilə məlumat mübadiləsi asanlaşır, beynəlxalq elmi mühitə inteqrasiya sürətlənir və Azərbaycan mədəniyyəti daha geniş coğrafiyada tanınmaq imkanı qazanır. Bu isə ölkənin intellektual və mədəni inkişafına əlavə təkan verir. Əfəndiyevin yanaşmasına görə, bu dəyişiklik Azərbaycanın beynəlxalq imicinə də müsbət təsir göstərir. Latın əlifbasına keçid ölkənin daha müasir, açıq və inkişaf yönümlü bir cəmiyyət kimi qəbul edilməsinə xidmət edir.

Beləliklə, Əfəndiyevin fikirlərindən aydın olur ki, latın əlifbasına keçid sadəcə yazı sisteminin dəyişməsi deyil, geniş mənada mədəni və ictimai transformasiyanın tərkib hissəsidir. Bu islahat həm keçmişi qorumağa imkan verir, həm də gələcəyə doğru daha inamlı addım atmağa şərait yaradır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Məmmədli N. 1926-cı il I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda. Bakı. "Elm və təhsil. 2026. 828 səh.
2. Rzayev A. Fərəh, Ümid, Faciə. Birinci Türkoloji Qurultay haqqında düşüncələr. Bakı. 525-ci qəzet. 2016. s.4-6.

SULTAN MAJID AFANDIYEV'S VIEWS ON THE LATIN ALPHABET: PROGRESS AND CULTURAL TRANSFORMATION

Fatima Fatullayeva

Sultan Məcid Əfəndiyev considered the adoption of the Latin alphabet not simply as a change in writing system, but as a significant reform aimed at the overall development of society. He analyzed the arguments of those opposing the reform and demonstrated that the complexity of an alphabet does not hinder progress, as evidenced by advanced European countries. He also rejected concerns about the loss of literary heritage, emphasizing that both old and new alphabets could coexist. Efendiyev argued that resistance to the Latin alphabet was not primarily based on technical or cultural reasons, but rather on class interests. According to him, certain groups opposed the reform because they benefited from the existing system. He further highlighted that adopting the Latin alphabet would help society move toward more advanced models, distinguish itself from less developed regions, and even serve as an example for other nations. Another key point is that the reform would reduce the influence of religion on public consciousness, since the Arabic script was closely tied to religious texts. The transition to the Latin alphabet would encourage a more secular and modern mindset. Additionally, it would strengthen cultural and intellectual connections with Europe and positively influence the country's international image. In conclusion, the adoption of the Latin alphabet is presented as a crucial reform with broad cultural and social implications, enabling both the preservation of the past and the advancement toward a more progressive future.

Keywords: *social development, class interests, clericalism, secularism, European integration, literary heritage, writing system*

ONOMASTİK SİSTEMDƏ İDEONİMLƏRİN YERİ

Ülkər Çəndirli
Sumqayıt Dövlət Universiteti
Doktorant
ulkervaleh@gmail.com

20-ci əsrin sonlarında onomastik tədqiqatlarda onomastik tədqiqatların bütün kateqoriyalarının öyrənilməsinə sistemli yanaşma prioritet məsələyə çevrildi. Bir sıra dilçilər antroponimləri onomastik məkanın mərkəzi hesab edirlər, periferik sferanı isə toponimlər, kosmonimlər, teonimlər, mifononimlər və zoonimlər tutur. Xüsusi adların periferik zonaları uzun müddət tədqiqatçıların diqqətindən kənarda qaldı. Sənət əsərlərinin, rəsm əsərlərinin, heykəllərin, filmlərin, musiqi və ədəbi əsərlərin adları özünəməxsus xüsusiyyətləri ilə ayrıca bir qrup təşkil edir. Alimlər ideonim terminindən insan yaradıcılığı ilə əlaqəli obyektləri adlandıran vahidləri ifadə etmək üçün istifadə edirlər. Onomastik məkanın periferik hissəsinə aid olan ideonimlərə artionimlər (təsviri sənət əsərlərinin adları), biblionimlər (kitab adları), hemeronimlər (dövriyyə nəşrlərinin adları) və s. daxildir.

Bu məqalədə ideonimlərin onomastik sistemin bir komponenti kimi təbiəti, onların funksional-semantik xüsusiyyətləri və müasir dilçilikdəki yeri araşdırılır. İdeonimlər mədəni, ədəbi və ideoloji məhsulların adlandırılması ilə əlaqəli xüsusi onomastik vahidlər hesab olunur. Tədqiqat göstərir ki, ideonimlər yalnız nominativ funksiya yerinə yetirmir, həm də milli-mədəni yaddaşın formalaşmasında, kollektiv kimliyin ifadəsində və mədəni-informasiya kodlarının ötürülməsində mühüm rol oynayır.

Açar sözlər: *dilçilik, onomastika, ideonimlər, mədəni yaddaş, semantika, milli kimlik*

Giriş

Onomastika ilə məşğul olan alimlərin diqqəti xüsusi adla ümumi ad arasındakı fərqə, onomastik məkanın və sahələrin hüdudları kimi problemlərə yönəlib. Onomastik məkan obyektlərin adlandırılması üçün müəyyən tarixi dövrdə verilmiş xalqın dilində işlənmiş xüsusi adların məcmusu kimi qəbul edilir. Onomastik sahə dedikdə bir subyekt və sistemləşdirmə ilə birləşən bir sıra onimlər başa düşülür. Dil sistemində adlandırma (nominasiya) prosesi insan təfəkküründün ən mühüm fəaliyyətlərindən biridir. Bu prosesin nəticəsində onomastik sistem formalaşır ki, bu sistemə antroponimlər, toponimlər, zoonimlər, kosmonimlər və digər ad qrupları ilə yanaşı, ideonimlər də daxildir. Müasir dilçilikdə ideonimlər xüsusi maraq doğuran vahidlər kimi çıxış edir, çünki onlar maddi deyil, daha çox mədəni və intellektual məhsulların adlandırılmasını əhatə edir.

İdeonimlər – zehni, ideoloji və bədii sahələrə aid obyektlərin xüsusi adlarıdır; ideyaları, konseptləri və ya əsərləri ifadə edir. Onlar onomastik vahidlərin (xüsusi adların) bir növüdür və kitabların, rəsmlərin, filmlərin, elmi nəzəriyyələrin və ya KİV-lərin adlarını bildirir. İdeonimlər dərin linqvokulturoloji yük daşıyır, simvolik və abstraktdır. İdeonimlər onomastik sistemdə xüsusi adların semantik və funksional şaxələnməsini əks etdirən mühüm altkateqoriya kimi çıxış edir. Onlar maddi obyektlərdən çox, intellektual və mədəni məhsulları adlandırdıqları üçün onomastikanın konseptual səviyyəsini genişləndirir. İdeonimlər vasitəsilə cəmiyyətin ideoloji, estetik və elmi dəyərləri nominativ formada kodlaşdırılır. Bu baxımdan, ideonimlər dilin yalnız nominativ deyil, həm də interpretativ funksiyasını gücləndirir. Onomastik vahidlər arasında ideonimlərin yeri onların yüksək abstraksiya dərəcəsi ilə müəyyən olunur. Onlar digər xüsusi adlardan fərqli olaraq referensiallıqla yanaşı simvoliklik də daşıyır. İdeonimlərin tədqiqi linqvokulturoloji və semiotik yanaşmaların inteqrasiyasını tələb edir. Bu vahidlər mədəni yaddaşın qorunması və ötürülməsi prosesində mühüm rol oynayır. İdeonimlər insan düşüncəsinin məhsulu olan ideya, mədəni və yaradıcı obyektlərin adlarını ifadə edən onomastik vahidlərdir. Bu anlayışa kitab adları, filmlər, musiqi əsərləri, qəzet və jurnal adları, televiziya proqramları, incəsənət əsərləri və digər mədəni məhsulların adları daxildir. "...ideonimlər yazıçının niyyətinin açılmasna kömək edib, əsərin mövzu, məzmun və ideyasına xidmət edir." (Mikayılova, 2008 s. 254).

Məsələn, Azərbaycan mədəniyyətində *"Koroğlu", "Dədə Qorqud", "Arşın mal alan", "Ölülər"* kimi ideonimlər təkcə ad deyil, həm də milli düşüncə tərzini və mədəni yaddaşı ifadə edən simvollardır. Bu adlar həm estetik, həm də semantik baxımdan xüsusi yük daşıyır.

İdeonimlər həmçinin diskurs daxilində intertekstual əlaqələrin qurulmasına xidmət edir. Beləliklə, ideonimlər onomastik sahədə yalnız adlandırma vasitəsi deyil, həm də mədəni və idraki strukturların ifadə forması kimi çıxış edir.

Onomastik sistem çoxsəviyyəli və çoxfunksiyalı struktur kimi çıxış edir. "Onomalogiya elə bir sahədir ki, onun daxilində dilimizin, xalqımızın mədəniyyəti, adət-ənənələri ilə sıx bağlı olan faktların yer aldığı vahidlər vardır." (Babayeva, 2024, s. 33-37). Bu sistemdə ideonimlər xüsusi mövqe tutur, çünki onlar digər onomastik vahidlərdən fərqli olaraq maddi obyektləri deyil, abstrakt və mədəni-intellektual məhsulları adlandırır.

İdeonimlərin əsas xüsusiyyətləri aşağıdakılardır:

- mədəni və estetik funksiyanın üstünlüyü;
- yüksək informasiya və konnotativ yük;
- milli-mədəni kodun daşıyıcısı olması;
- zaman və ideoloji dəyişikliklərə həssaslıq.

Məsələn, Azərbaycan ədəbiyyatında *"İsgəndərnamə", "Leyli və Məcnun", "Sevil"* kimi ideonimlər yalnız əsər adı deyil, həm də müəyyən tarixi-mədəni dövrün düşüncə sistemini əks etdirir.

İdeonimlər semantik baxımdan çoxqatlı struktura malikdir. Onların mənası iki səviyyədə təzahür edir:

1. nominativ (birbaşa adlandırma) səviyyə;
2. konnotativ (mədəni və emosional çalar) səviyyə.

Məsələn*, "Dədə Qorqud"* ideonimi təkcə bir dastanın adı deyil, həm də türk xalqlarının qədim epik düşüncəsini, mənəvi dəyərlər sistemini və qəhrəmanlıq modelini ifadə edir. Bu baxımdan ideonimlər mədəni semantikanın mühüm daşıyıcısı kimi çıxış edir.

İdeonimlər cəmiyyətin mədəni həyatında mühüm rol oynayır. Onlar aşağıdakı funksiyaları yerinə yetirir:

- İdentifikasiya funksiyası: mədəni obyektləri fərqləndirir və tanıdır.
- Mədəni yaddaş funksiyası: tarixi və ədəbi irsi qoruyur.
- İdeoloji funksiya: müəyyən ideya və baxışları ifadə edir.
- Kommunikativ funksiya: informasiya mübadiləsini asanlaşdırır.

Məsələn, "Yeddi gözəl" ideonimi Nizami Gəncəvinin fəlsəfi-estetik düşüncəsini əks etdirərək həm ədəbi, həm də mədəni kommunikasiya vasitəsinə çevrilmişdir.

Qloballaşma və media mühitinin inkişafı ideonimlərin struktur və funksiyasına da təsir göstərmişdir. Müasir dövrdə yeni ideonimlər – xüsusilə film, serial, sosial media layihələri və rəqəmsal məhsulların adları sürətlə artmaqdadır.

Məsələn, *"Səni axtarıram", "Gecə qonağı", "Mənim Azərbaycanım"* kimi müasir ideonimlər həm milli kimliyi, həm də aktual sosial mövzuları əks etdirir. Bu tendensiya ideonimlərin dinamik və dəyişkən onomastik vahid olduğunu göstərir.

İdeonimlər onomastik sistemin mühüm və dinamik hissəsidir. Onlar yalnız adlandırma vasitəsi deyil, həm də mədəni yaddaşın, milli identikliyin və kollektiv şüurun daşıyıcısıdır. Müasir dilçilikdə ideonimlərin öyrənilməsi həm semantik, həm də mədəni baxımdan böyük əhəmiyyət kəsb edir. Qloballaşma şəraitində bu vahidlərin tədqiqi milli-mədəni özünəməxsusluğun qorunmasına və dilin inkişaf tendensiyalarının müəyyənləşdirilməsinə mühüm töhfə verir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Mikayılova Ə.N. Onomastik vahidlərin üslubi imkanları. (XIX əsrin ikinci yarısında yaranmış nəsr əsərlərinin materialları əsasında linqvistik tədqiqat). «Memar Nəşriyyat–Poliqrafiya» MMC, Bakı, 2008, 302 s.
2. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I cild (2 cilddə). Bakı, 2019. 280 s.
3. Babayeva P. Bədii ədəbiyyatda işlənən onomastik vahidlərin təsnifatı // Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, Filologiya məsələləri, № 7, 2024, s. 33-37// https://filologiyameseleleri.com/pdf/2024/n7/33-37%20%20Pustexanim%20babayeva.pdf

THE POSITION OF IDEONYMS WITHIN THE ONOMASTIC SYSTEM

Ulkar Chandirli

In the late 20th century, a systematic approach to the study of all categories of onomastics became a priority issue in onomastic research. A number of linguists consider anthroponyms to be the center of onomastic space, while the peripheral sphere is occupied by toponyms, cosmonyms, theonyms, mythononyms, and zoonyms. The peripheral zones of proper names remained outside researchers' attention for a long time. The names of works of art paintings, sculptures, films, musical and literary works form a separate group with their own specific features. Scholars use the term ideonym to denote units naming objects related to human creative activity. Ideonyms, belonging to the peripheral part of onomastic space, include artionyms (names of works of fine art), biblionyms (book titles), hemeronyms (names of periodicals), etc.

This article examines the nature of ideonyms as a component of the onomastic system, their functional-semantic features, and their place in modern linguistics. Ideonyms are considered special onomastic units related to the naming of cultural, literary, and ideological products. The study shows that ideonyms perform not only a nominative function but also play an important role in the formation of national-cultural memory, the expression of collective identity, and the transmission of cultural-informational codes.

Keywords: *linguistics, onomastics, ideonyms, cultural memory, semantics, national identity*

"KODEKS KUMANİKUS"DA ŞƏXS-XƏBƏRLİK KATEQORİYASI

Aynur Saydova
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
Böyük elmi işçi
aynurimanli@mail.ru
https://orcid.org/0000-0003-4118-0290

Məqalədə "Kodeks Kumanikus" əsərinin dilindəki şəxs-xəbərlik kateqoriyası təsviri və müqayisəli metodlarla araşdırılır. Kateqoriyanın iki əsas ifadə üsulu (şəxs əvəzlikləri və şəxs şəkilçiləri vasitəsilə) müəyyənləşdirilir, hər birinin zaman formaları üzrə nümunələri göstərilir. Əsərdəki faktlar qədim türk abidələrinin dili, müasir Azərbaycan dili, Azərbaycan dialektləri və digər türk dilləri ilə müqayisəli şəkildə təhlil edilir. Tədqiqat göstərir ki, "Kodeks Kumanikus"un şəxs-xəbərlik kateqoriyası sistemi bir sıra arxaik pratürk formaları qoruyub saxlamışdır.

Açar sözlər: *Türk dilləri, qrammatika, şəxs əvəzlikləri, şəkilçi, dialekt*

Giriş

XIII əsrin sonu – XIV əsrin əvvəllərinə aid olan "Kodeks Kumanikus" (bundan sonra KK) qıpçaq-kuman dilinin ən qədim yazılı abidəsidir. Venesiya Milli Kitabxanasında saxlanan bu əlyazma, latın əlifbasının qotik hərfləri ilə yazılmışdır. Abidə iki müstəqil hissədən (italyan və alman) ibarətdir. Hər iki hissənin müəllifləri qıpçaq-kuman dilini tam mənimsəmədiklərinə görə, mətnin dilində müəyyən qeyri-vahidlik müşahidə olunur. *"Kodeks Kumanikusun tərtibində çoxsaylı müəlliflər iştirak etmiş, amma dilin normallaşdırılması istiqamətində ciddi cəhdlər göstərilməmişdir."* (Golden, 2008, s. 6). A.Qarkavets də abidənin *"mənşəyi, məzmunu, qrafik və dil xüsusiyyətlərinə görə"* iki hissəyə ayrıldığını vurğulayır (Qarkavets, 2017, s. 867).

Şəxs-xəbərlik kateqoriyası türk dillərinin feli üçün ən mühüm qrammatik kateqoriyalardan biridir. F. Zeynalov qeyd edir ki, *"şəxs kateqoriyası bilavasitə fellərə xasdır; adlarda şəxs anlayışı ancaq predikativ birləşmə vaxtı özünü göstərir"* (Zeynalov, 2008, s. 184). Ə.Rəcəbli isə türk dillərindəki xəbərlik kateqoriyasının qədim kateqoriyalardan olduğunu xüsusi vurğulayır: *"Bu kateqoriyaya hələ qədim türk yazısı abidələrinin dilindən rast gəlmək olur"* (Rəcəbli, 2006, s. 469). Q.Kazımov bu kateqoriyanı *"fikir bitkinliyi və predikativlik yaratmaq baxımından çox mühüm rola malik"* morfoloji vasitə kimi xarakterizə edir (Kazımov, 2010, s. 270).

Türkoloji ədəbiyyatda şəxs kateqoriyası ilə xəbərlik kateqoriyasının eyni bir kateqoriyanın iki adı olması məsələsi mübahisəli olmuşdur. M.Mirzəliyeva bu mübahisəni belə həll edir: *"şəxs və xəbərlik, əslində eyni qrammatik kateqoriyanın adlarıdır"* (Mirzəliyeva, 2020, s. 23). Q.Kazımov da eyni fikri dəstəkləyir: *"mahiyyət etibarilə xəbərlik və şəxs şəkilçilərinin heç bir fərqi yoxdur"* (Q.Kazımov, 2010, s. 93). Bu məqalədə hər iki kateqoriya vahid "şəxs-xəbərlik kateqoriyası" çərçivəsində araşdırılır.

KK-da şəxs-xəbərlik kateqoriyasının ifadə üsulları

Şəxs sonluqları şəxs əvəzliklərinin şəkilçiləşmiş formalarıdır. *"Türkologiyada şəxs şəkilçilərinin şəxs əvəzliklərindən törəməsi artıq qeyri-şərtsiz qəbul olunmuşdur"* (B.Serebrennikov, N.Hacıyeva, 2002, s. 194). Kateqoriyanın mənşəyi baxımından M.Məmmədli də şəxs kateqoriyasının tarixən sintaktik zəmindən inkişaf etdiyini qeyd edir: *"bu kateqoriya tarixən sintaktik zəmində meydana çıxmış, şəxs anlayışı şəxs əvəzlikləri vasitəsilə bildirilmişdir"* (Məmmədli, 2019, s. 179).

Bəzən tədqiqatçılar bu kateqoriyanı ayrılıqda deyil, digər kateqoriyaların tərkibində araşdırırlar (Argunşah, Güner, 2015). Digər tərəfdən şəxs-xəbərlik kateqoriyasından bəhs edərkən iki tipli şəxs göstəricisinin mövcudluğu müəyyənləşdirilir: feillər üçün *"birinci kateqoriyanın şəxs affiksləri, ikinci kateqoriyanın şəxs affiksləri"* sistemi (Serebrennikov və Hacıyeva, 2002, s. 193, 198). KK əsərinin qrammatika hissəsində isə şəxs-xəbərlik kateqoriyası haqqında belə bəhs olunur: *"Diqqət edin, daha yüksək vurğu ilə ifadə etmək üçün bu şəkilçilər bəzən əvvəl və bəzən sonra istifadə oluna bilər. Məsə-*

lən, men tilermen – mən istəyərəm, sen tilersen – sən istəyərsən, ol tiler – o istəyər, o bilir formasında. Çoxluq şəklində isə, biz tilerbiz – biz istəyərik, siz tilersiz – siz istəyərsiz. III şəxsin cəmində feilin əvvəlinə əvəzlik qoymaq geniş yayılmayıb. Onlar əvəzliyi önünə qoymaq istərlərsə, anglar tilerler – onlar istərlər deyə bilərlər. çünki anglar onlardır" (64). Bu qeyddə şəxs-xəbərlik kateqoriyasının yalnız şəxs əvəzlikləri vasitəsilə, yəni tam formalı şəxs kateqoriyasının ifadəsi görünür. Lakin əsərin dilində şəxs kateqoriyasının həm də qısaldılmış formalı ifadəsi də vardır. Bu cəhətinə görə əsərin dilində şəxs kateqoriyasının ifadə üsullarını iki yerə bölə bilərik: şəxs əvəzlikləri formalı şəkilçilər vasitəsilə, qısaldılmış şəxs şəkilçiləri vasitəsilə.

1. Şəxs əvəzlikləri formalı şəkilçilər vasitəsilə ifadə

Bu forma feilin şəkil şəkilçilərindən sonra uyğun şəxs əvəzlikləri artırılaraq düzəldilir. "Kodeks Kumanikus" əsərində nəqli keçmiş zaman (*–Ip*), indiki zaman (*–Ir*), gələcək zamanın (*–GAy, –Ar*) sadə formaları və ismi xəbərlər, əsasən, I və II şəxslərdə şəxs sonluqları şəxs əvəzlikləri vasitəsilə ifadə olunmuşdur:

nəqli keçmiş: *eŋiptirmen (56b/34)* "boyun əymişəm"*; küyüp turuptırmen (74b/18)* "gözləmişəm"*; içiptirsen (71b/18)* "içmisən"

indiki zaman: *aytırmen (61a/7)* "deyirəm"*; inanırmen (74b/16)* "inanıram"*; aldarbiz (62b/30)* "aldadırıq"*; eşitürsiz (1a/12)* "eşidirsiniz"

gələcək zaman: *esitkaymen (1b/10)* "eşidəcəyəm"*; esitkaybis (1b/14)* "eşidəcəyik"*; anŋlagaysis (65b/29)* "anlayacaqsınız"

qeyri-qəti gələcək zaman: *söverbiz (62a/18)* "sevərik"*; taparbiz (61b/27)* "taparıq"*; sövmessis (62a/20)* "sevməzsiniz"

"Qədim türkcədə keçmiş zaman, əmr və arzu şəklindən başqa bütün təsriflənən feillərdə işlənən şəxs şəkilçiləri əvəzlikdən əmələ gələn şəkilçilərdir" (Quliyeva, 2022, s. 265). Ə.Rəcəbli qədim türk yazısı abidələrində bu paradiqmanı belə müəyyənləşdirir: "*kağan mən, kağan sən, kağan, kağan biz, kağan siz"* (Rəcəbli, 2006, s. 470–471). Qədim türk yazılı abidələrinin dilində ismin xəbərlik kateqoriyasında III şəxs tək şəkilçisiz ifadə edilir, *"III şəxs cəmdə, ümumiyyətlə, xəbərlik anlayışı yoxdur"* (Rəcəbli, 2006, s. 470–471). Məhz bu xüsusiyyət KK-un öz qrammatik qeydindəki xəbərdarlıqla (*anglar* əvəzliyinin feilə artırılmasının geniş yayılmaması ilə) tam üst-üstə düşür.

Bu forma müasir türk dillərindən qazax, qırğız, noqay, qaraqalpaq, qumuq, özbək, yəni, xüsusilə qıpçaq qrupu türk dillərində qorunub saxlanmışdır (Serebrennikov, Hacıyeva, 2002, s. 193–198).

2. Qısaldılmış şəxs şəkilçiləri vasitəsilə ifadə

İkinci üsulda sırf morfem kimi şəxs-xəbərlik şəkilçiləri əsərin dilində şühudi keçmiş (*–dI*), şərt şəkli (*–sA*), əmr şəkli (II ş. cəm) və şəkillərin hekayəsini ifadə etmişdir:

şühudi keçmiş (I tək): ayttum (10a/5) "dedim"; *balukladum (22a/10)* "balıq ovladım"; *tuvurdım (66b/20b)* "doğurdum"

şühudi keçmiş (II tək): kutkardıng (72b/15) "qurtardın"; *töktüng (75b/2-3)* "tökdün"; *bardıng (62b/18)* "çatdın"

şühudi keçmiş (I cəm): kördük (61b/40) "gördük"; *bolduh (73a/13) / bolduk (79a/2)* "olduq"; *eşittik (1a/27)* "eşitdik"

şühudi keçmiş (II–III cəm): angladıngız (65a/17) "anladınız"; *eşittiler (1a/29)* "eşitdilər"

şərt şəkli: agırlasak (61b/28) "qarşılasaq"; *barsak (62a/29)* "getsək"; *aŋlasaŋız (65a/39)* "anlasanız"

əmr (II cəm): ayrıŋlar (59a/9) "ayırın"; *eşitiŋler (1b/19)* "eşidin"; *keliŋiz (61b/35)* "gəlin"; *aŋlaŋız (65a/32)* "anlayın"

hekayə: barırlar edi (62a/7) "gedərdilər"; *aŋlamış ediler (65a/24)* "anlamışdılar"; *eşitkey edik (1b/26)* "eşidəcəkdik"

Q.Kazımov bildirir ki, *"birinci şəxsin tək şəkilçisinin əsasında mən şəxs əvəzliyinin ilk elementi olan -m samiti durur"* (Kazımov, 2010, s. 271). Ə.Rəcəbli də bu müddəanı qədim türk abidələri materialı ilə dəstəkləyir: *" Qədim türk yazısı abidələrinin dilində işlənən -m, -mən, -men, -ben şəxs şəkilçi-*

lərindən -m şəkilçisi daha qədimdir. Bunu onun yalnız keçmiş zaman bildirən feillərlə işlənməsindən başqa (məlum olduğu kimi, üç qrammatik zamandan ən qədimi keçmiş zamandır) bir də onun əvəzlik dövrünü keçirib artıq şəkilçilənməsidir" (Rəcəbli, 2006, s. 546).

Bu kateqoriyada iki fakt xüsusilə maraqlıdır: biri əmr şəklinin II şəxs cəmindəki *ayrıŋlar, eşitiŋler* formaları (II şəxs cəm şəkilçisi üzərinə -lar kəmiyyət şəkilçisinin artırılması) müasir türk dillərinin normasından fərqli xüsusiyyətdir. Digəri *bolduh (73a/13) – bolduk (79a/2)* variantlığıdır: "olduq" mənasında həm *-h*, həm *-k* variantlarının işlənməsi Azərbaycan dialektlərindəki tarixi q>x>h dəyişməsinin izlərini birbaşa əks etdirir. *"Söz sonunda x ünsürünün işlənməsi Azərbaycan dili şivələrinin qədim xüsusiyyətidir"* (Məmmədli, 2019, s. 186). Azərbaycan dilinin "*Naxçıvan, Şəki, Qazax şivələrindəki arıçıyıx, kəççiyix", doxdurux"* (Məmmədli, 2019, s. 183) formalarının varlığı şifahi nitq əsasında yazılmış əsərdə *-h/-k* variantlığının imla səhvi deyil, həmin dövr dialekt xüsusiyyəti olduğunu göstərir.

Nəticə

"Kodeks Kumanikus" əsərinin dilində şəxs-xəbərlik kateqroriyasının həm tam, həm də qısaldılmış şəkilçilər vasitəsi ilə ifadəsini müşahidə edirik. Bu kateqoriyada sistem qədim türk dili ənənələri ilə uyğunluq təşkil edir və bir sıra arxaik xüsusiyyətləri saxlayır. Eyni zamanda, bəzi formalar qıpçaq qrupu türk dilləri ilə yanaşı Azərbaycan dialektlərinə də yaxınlıq göstərir ki, bu da onun həm tarixi, həm də dialektoloji cəhətdən əhəmiyyətini üzə çıxarır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Argunşah, M., Güner, G. (2015). Codex Cumanicus. Kesit Yayınları, 1079 s.

Golden, P. B. (2008). Codex Cumanicus. H. B. Paksoy (Red.), Central Asian monuments (ss. 1–18). CARRIE Books.

Kazımov, Q. Ş. (2010). Müasir Azərbaycan dili: Morfologiya. Bakı: Təhsil, 496 s.

Quliyeva, Q. (2022). Qədim türk abidəsi "Xuastuanift"in dili. Bakı: Elm və Təhsil, 356 s.

Məmmədli, M. (2019). Azərbaycan dialektologiyası. Bakı: Zərdabi, 352 s.

Mirzəliyeva, M. (2020). Seçilmiş əsərləri: I cild. Türk dillərində feilin məna növ kateqoriyası. Bak: Zəngəzurda, 204 s.

Rəcəbli, Ə. (2006). Qədim türk yazısı abidələrinin dili: I hissə. Bakı: Nurlan, 648 s.

Serebrennikov, B. A., Hacıyeva, N. Z. (2002). Türk dillərinin müqayisəli tarixi qrammatikası (T. Hacıyev, Tərc.). Bakı: Səda, 380 s.

Zeynalov, F. R. (2008). Türk dillərinin müqayisəli qrammatikası: I hissə (Fonetika, leksika, morfologiya). Bakı: MBM, 354 s.

Гаркавец, А. Н. (2017). Кыпчакское письменное наследие. Том III: Армянописьменные памятники, хранящиеся в Польше (часть 2), России, Румынии, Украине и Франции; Караимский молитвенник; «Codex Cumanicus». Баур, 950 с.

THE CATEGORY OF PERSON–PREDICATION IN THE *CODEX CUMANICUS*

Aynur Saydova

The article investigates the category of person–predication in the language of the Codex Cumanicus using descriptive and comparative methods. Two principal means of expressing this category – through personal pronouns and personal suffixes – are identified, and examples of each are provided across different tense forms. The data from the text are analyzed comparatively with the language of ancient Turkic monuments, Modern Azerbaijani, Azerbaijani dialects, and other Turkic languages. The study shows that the person–predication category system of the Codex Cumanicus has preserved a number of archaic Proto-Turkic forms.

Keywords: *Turkic languages, grammar, personal pronouns, suffix, dialect*

MÜASİR DİLÇİLİK RƏQƏMSAL TRANSFORMASİYA VƏ SÜNİ İNTELLEKT DÖVRÜ KİMİ

Könül Axundova
Bakı Slavyan Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
dosent əvəzi
konulakhundova23@gmail.com
https://orcid.org/0009-0004-8498-1906

Müasir dilçilik ənənəvi dil tədqiqatlarını süni intellekt, maşın öyrənməsi və böyük verilənlər kimi qabaqcıl texnologiyalarla birləşdirən fənlərarası bir sahəyə çevrilmişdir. Korpus dilçiliyi genişmiqyaslı dil məlumatlarının təhlilinə imkan verir, Təbii Dil Emalı isə kompüterlərin insan dilini anlamasına və yaratmasına imkan verir. Dil həmçinin kimliyi, dəyərləri və kollektiv yaddaşı əks etdirən sosial və mədəni sistem olaraq qalır. Rəqəmsal rabitə dil dəyişikliyini sürətləndirir və yeni ifadə formaları yaradır. Tarixi mətnlərin rəqəmsallaşdırılması mədəni irsin qorunmasını və əlçatanlığını təmin edir. Ümumilikdə, müasir dilçilik ənənə və innovasiyanı birləşdirir, qlobal tədqiqatlara, əməkdaşlığa və dil texnologiyalarının gələcək inkişafına töhfə verir.

Açar sözlər: *müasir dilçilik, süni intellekt, korpus dilçiliyi, rəqəmsal humanitar elmlər, türkologiya.*

Giriş

Müasir dilçilik artıq sadəcə sözlərin mənşəyini araşdıran bir sahə deyil, texnologiya ilə dilin kəsişməsində dayanan bir elmdir. Dilçilik ənənəvi olaraq sözlərin etimologiyası, qrammatik strukturlar və tarixi dəyişmələr üzərində qurulmuşdu. Müasir mərhələdə isə bu sahə kompüter elmləri ilə birləşərək daha geniş funksiyalar qazanıb. Dil artıq yalnız analiz edilən bir obyekt deyil, həm də rəqəmsal sistemlərdə işlənən və modelləşdirilən məlumat mənbəyinə çevrilib.

Dil bəşəriyyətin ən qədim kəşfi olsa da, bu gün o, ən müasir texnologiyaların – süni intellektin, maşın öyrənməsinin və böyük verilənlərin (Big Data) mərkəzində dayanır. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda "verilənlər – informasiya texnologiyaları vasitələri ilə emal edilməyə yararlı informasiya" kimi şərh olunur (Qasımov, 2015, s. 19). İnsan dil vasitəsilə düşüncələrini formalaşdırıb nəsildən-nəslə ötürüb və bu proses minilliklər boyu davam edib. Hazırda dil süni intellekt sistemlərinin əsas resursuna çevrilib və kompüterlər bu məlumatlar üzərində öyrənmə apararaq insan dilinə bənzər nəticələr yaradır. Böyük verilənlər bazaları milyonlarla mətn nümunəsini birləşdirərək dilin statistik modelini formalaşdırır.

Müasir dilçilik artıq kitab rəflərindən çıxaraq rəqəmsal laboratoriyalara köçür. Elmi tədqiqatlar fiziki kitabxanalardan rəqəmsal mühitə keçib. Dil materialları kompüter sistemlərində saxlanılır və proqramlar vasitəsilə analiz edilir. Bu dəyişiklik tədqiqat prosesini daha sürətli və daha dəqiq edir.

Bu proses xüsusilə türkologiya və Azərbaycan dilçiliyi üçün yeni üfüqlər açır. Türk dillərinin strukturunu müqayisə etmək və ortaq dil xüsusiyyətlərini müəyyənləşdirmək daha sistemli şəkildə aparılır. Azərbaycan dili də bu rəqəmsal mühitdə daha geniş elmi təhlillərə cəlb olunur və beynəlxalq dilçiliklə inteqrasiya imkanları artır.

Müasir dilçiliyin ən güclü qolu korpus dilçiliyidir. Dil tədqiqatları artıq real istifadə nümunələrinə əsaslanır və bu nümunələr böyük mətn bazalarında toplanır. Bu yanaşma dilin qaydalarını nəzəri yox, empirik məlumatlar üzərində qurmağa imkan verir.

Korpus dilçiliyində "korpus" elektron formatda toplanmış mətnlər toplusu, elektron fond mənasında işlənir (Mahmudov, 2024, s. 336). Korpus – dilin bütün qatlarını (danışıq, yazı, elmi və bədii üslub) özündə cəmləşdirən nəhəng elektron kitabxanadır. Belə sistemlərdə müxtəlif mətn növləri bir araya gətirilir və dilin bütün istifadə sahələri eyni platformada öyrənilir. Danışıq dili ilə yazı dili, elmi üslubla bədii üslub birlikdə analiz edilir və müqayisə olunur.

Əgər əvvəllər bir dilçi bir sözün işlənmə tezliyini tapmaq üçün minlərlə səhifə vərəqləməli idisə, indi korpuslar sayəsində saniyələr ərzində statistik nəticələr əldə edir. Əvvəlki dövrlərdə belə analizlər uzun zaman və böyük əmək tələb edirdi. İndi isə rəqəmsal sistemlər milyonlarla sözlük məlumatı avtomatik emal edir və nəticələri dərhal təqdim edir.

Türkiyə və Azərbaycan dilçiləri hazırda ortaq türk dili korpusları üzərində işləyirlər. Bu layihə türk dillərinin müqayisəli öyrənilməsi üçün vahid məlumat bazası yaradır. Müxtəlif türk dillərindəki leksik və qrammatik oxşarlıqlar və fərqlər sistemli şəkildə toplanır.

Bu, türk dillərinin müqayisəli qrammatikasını riyazi dəqiqliklə öyrənməyə imkan verir. Statistik modellər və kompüter analizləri qrammatik strukturların daha obyektiv şəkildə araşdırılmasına şərait yaradır. Dil hadisələri artıq fərziyyələrə deyil, rəqəmsal sübutlara əsaslanır.

Süni intellektin (məsələn, ChatGPT, Google Translate) dili "başa düşməsi" üçün istifadə olunan texnologiya Təbii Dil Emalı (NLP) adlanır. Kompüterlər insan dilini birbaşa anlamır, lakin NLP texnologiyaları vasitəsilə sözlər, cümlələr və məna strukturları riyazi modellərə çevrilir. Bu sistemlər tərcümə, mətn analizi və nitqin tanınması kimi funksiyaları yerinə yetirir.

Müasir dilçilik bu sahədə mühəndisliklə birləşir. Dilçilik artıq yalnız humanitar biliklərə əsaslanmır, proqramlaşdırma dilləri və alqoritmlərlə birlikdə işləyir. Dilçi həm də texnoloji sistemlərin işləmə prinsiplərini anlamalı olur.

PDF formatlı materialların rəqəmsallaşdırılması və onların süni intellekt tərəfindən emalı, Azərbaycan dilindəki elmi irsin dünyaya çıxarılmasını sürətləndirir. Köhnə elmi mənbələr rəqəmsal formaya salındıqdan sonra beynəlxalq sistemlərdə əlçatan olur. Bu proses Azərbaycan dilində yazılmış elmi əsərlərin qlobal elmi dövriyyəyə daxil olmasına şərait yaradır.

Siri və ya Alexa kimi sistemlərin türk dillərində daha mükəmməl işləməsi üçün linqvistik bazaların (annotasiya olunmuş mətnlərin) hazırlanması müasir dilçiliyin əsas vəzifələrindəndir. Səsli köməkçilərin düzgün işləməsi üçün sözlərin qrammatik və semantik xüsusiyyətləri xüsusi etiketlərlə işarələnir. Bu məlumatlar sistemə dili daha dəqiq anlamaq imkanı verir.

1926-cı ildə Bakıda toplanan Türkoloji Qurultay təkcə dil və yazı məsələlərinin müzakirə olunduğu bir elmi toplantı deyildi, həm də müxtəlif türk xalqları arasında ortaq elmi düşüncə mühitinin formalaşdığı mühüm intellektual platforma idi. O dövr üçün ən önəmli yeniliklərdən biri dilin yalnız milli çərçivədə deyil, daha geniş türklük kontekstində sistemli şəkildə öyrənilməsi cəhdləri idi. Bu yanaşma dillərin təsadüfi oxşarlıqlarını deyil, tarixi inkişaf xəttini və struktur əlaqələrini üzə çıxarmağa yönəlmişdi. Eyni zamanda, dilin standartlaşdırılması və elmi terminlərin vahid prinsiplərlə formalaşdırılması ideyası gələcək filoloji tədqiqatların istiqamətinə ciddi təsir göstərdi.

Bu elmi miras sonrakı dövrlərdə klassik filologiyanın sərhədlərini aşaraq yeni metodoloji çərçivəyə daxil oldu. Humanitar araşdırmalar artıq yalnız mətnlərin izahı və müqayisəsi ilə məhdudlaşmır, həm də rəqəmsal sistemlər vasitəsilə kütləvi məlumat emalı səviyyəsinə keçib. Kompüter texnologiyalarının inkişafı ilə dil materialları strukturlaşdırılmış verilənlər kimi qəbul edilməyə başlanıb və bu yanaşma tədqiqatların obyektivliyini artırıb. Beləliklə, humanitar biliklər riyazi modellər və proqramlaşdırma metodları ilə paralel işləyən bir sahəyə çevrilib.

Arxiv materiallarının rəqəmsallaşdırılması bu prosesin əsas mərhələlərindən birini təşkil edir. Kağız daşıyıcılarında saxlanılan və zamanla istifadə üçün çətinləşən sənədlər rəqəmsal formaya keçirilərək uzunmüddətli qorunma və əlçatanlıq qazanır. Bu transformasiya yalnız texniki çevirmə deyil, eyni zamanda elmi yenidən işləmə mərhələsidir, çünki materiallar strukturlaşdırılaraq analiz üçün uyğun formata salınır. Nəticədə böyük həcmli tarixi mətnlər vahid sistem daxilində araşdırıla bilir.

Rəqəmsallaşdırılmış mətnlər üzərində aparılan işlərdə optik simvol tanıma texnologiyaları əsas rol oynayır. Bu sistemlər çap olunmuş və ya əlyazma mətnləri rəqəmsal simvollara çevirərək kompüter tərəfindən oxuna bilən formaya salır. Daha sonra həmin materiallar müxtəlif linqvistik alqoritmlər vasitəsilə təhlil edilir. Söz formalarının dəyişməsi, cümlə quruluşlarının xüsusiyyətləri və məna strukturlarının statistik paylanması kimi göstəricilər sistemli şəkildə öyrənilir. Bu yanaşma tarixi mətnlərin

yalnız oxunmasını deyil, həm də dərin struktur analizini mümkün edir (Vəliyeva, Məmmədova, 2003, s. 77).

Müasir texnoloji dövrdə yeni terminlərin (məsələn, "bulud texnologiyası", "blokçeyn") dilə uyğunlaşdırılması müasir terminologiyanın predmetidir. Yeni texnologiyalarla birlikdə yaranan anlayışlar milli dillərə uyğunlaşdırılır və standartlaşdırılır. Bu proses dilin inkişafını və müasir elmlə uyğunlaşmasını təmin edir.

Müasir dilçilik həm də sosial bir elmdir. Dil insan cəmiyyətinin davranış forması kimi fəaliyyət göstərir və sosial münasibətlərin ifadə vasitəsinə çevrilir. İnsanların danışıq tərzi onların sosial mühitini də əks etdirir. Lingvokulturologiya sahəsi dilin daxilində gizlənmiş milli kodları araşdırır. Sözlərin arxasında duran mədəni mənalar, simvollar və tarixi yaddaş bu sahənin əsas tədqiqat obyektidir. Dil təkcə informasiya ötürmür, həm də bir xalqın dünyagörüşünü qoruyur. Hər bir dil özündə həmin xalqın düşüncə tərzini, həyat fəlsəfəsini və mədəni yaddaşını saxlayır.

"Dədə Qorqud" dastanındakı arxaik elementlərin müasir dil daşıyıcıları tərəfindən necə qavranılması sosial-dilçiliyin maraq dairəsindədir. Qədim dil elementləri müasir dövrdə fərqli interpretasiya olunur və bu proses dilin zamanla necə dəyişdiyini göstərir.

Müasir dövrdə sosial media dili, "internet folkloru" və rəqəmsal mühitdə yaranan yeni üslublar dilin canlı orqanizm kimi necə dəyişdiyini göstərir. Sosial şəbəkələrdə yaranan yeni ifadələr, qısaltmalar və simvollar dilin sürətlə transformasiya olunduğunu nümayiş etdirir.

İnternet mühitində formalaşan kollektiv yaradıcılıq dili sabit qaydalar sistemindən daha çox dəyişkən və adaptiv bir sahəyə çevirir. İstifadəçilər tərəfindən yaradılan ifadələr, memlər və vizual-söz birləşmələri dilin sərhədlərini genişləndirərək məna yaratma prosesini daha çox kontekstə bağlı edir. Bu kontekst bəzən mədəni hadisələr, bəzən isə aktual sosial situasiyalar üzərindən formalaşır və tez bir zamanda geniş auditoriyaya yayılır.

Rəqəmsal kommunikasiya mühitində simvolik sistemlərin rolu da xeyli artır. Emojilər, işarələr və qrafik qısaltmalar sözlərin yerini qismən tutaraq emosional və situativ mənaları daha birbaşa şəkildə ifadə etməyə imkan yaradır. Bu, yazılı dil ilə emosional ifadə arasında mövcud olan məsafəni azaldır və ünsiyyəti daha çox çoxqatlı məna strukturlarına yönəldir.

Bu günün dilçisi yalnız lüğətləri bilən mütəxəssis deyil, həm də rəqəmsal alətlərdən istifadə edə bilən, korpuslarla işləməyi bacaran və süni intellektin dil modellərini quran bir tədqiqatçıdır. Müasir dilçi həm humanitar biliklərə, həm də texnoloji bacarıqlara sahib olmalıdır. O, məlumat analizi və proqramlaşdırma vasitələrindən istifadə edərək dilin rəqəmsal modellərini yaradır.

Tarixi yazı abidələrinin rəqəmsal mühitə köçürülməsi yalnız onların qorunması ilə məhdudlaşmır, eyni zamanda həmin mənbələrin yeni elmi metodlarla yenidən oxunmasına və şərh edilməsinə şərait yaradır. Qədim mətnlər artıq fiziki daşıyıcıların məhdudiyyətindən azad edilərək yüksək keyfiyyətli rəqəmsal arxivlərdə saxlanılır və bu, onların zamanla zədələnməsi və itməsi riskini minimuma endirir. Rəqəmsal formatda təqdim olunan abidələr üzərində mətnlərin müqayisəsi, variantların izlənməsi və dil xüsusiyyətlərinin sistemli təhlili daha səmərəli şəkildə aparılır.

Orxon-Yenisey kimi yazılı abidələrin rəqəmsal mühitə daxil edilməsi onların yalnız bir xalqın deyil, bütün türk dillərinin tarixi inkişaf xəttini izləmək üçün əsas mənbəyə çevrilməsinə imkan verir. Bu mətnlər üzərində aparılan rəqəmsal işlər fonetik dəyişmələrin, leksik qatların və qrammatik strukturların zaman içində necə dəyişdiyini daha dəqiq şəkildə üzə çıxarır. Eyni zamanda, fərqli dövrlərə aid yazı nümunələrinin müqayisəsi ortaq dil elementlərinin köklərini daha aydın şəkildə müəyyənləşdirməyə şərait yaradır.

Rəqəmsallaşdırma prosesi mədəni irsin yalnız saxlanılması deyil, onun aktiv elmi dövriyyəyə daxil edilməsi funksiyasını da yerinə yetirir. Bu yanaşma nəticəsində qədim mətnlər passiv arxiv materialı olmaqdan çıxaraq tədqiqat üçün açıq, işlənə bilən və yenidən interpretasiya oluna bilən resursa çevrilir. Beləliklə, klassik mətnlər müasir texnologiyalar vasitəsilə yeni elmi sualların cavablandırılmasında istifadə olunur.

Eyni zamanda, bu proses türk xalqları arasında ortaq elmi platformanın formalaşmasına xidmət edir. Fərqli ölkələrdə yerləşən tədqiqatçılar eyni rəqəmsal bazalar üzərindən işləyərək vahid metodoloji yanaşma yaradırlar. Bu da elmi nəticələrin daha müqayisəli və sistemli şəkildə inkişafına imkan verir. Nəticədə, rəqəmsal humanitar mühit həm tarixi mirası qoruyur, həm də onun üzərində yeni elmi əməkdaşlıq modelləri formalaşdırır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Qasımov V. Ə. (2015). İnformasiya axtarış üsulları və sistemləri. Dərslik. Bakı: MTN-in Maddi-texniki Təminat Baş İdarəsinin Nəşriyyat-Poliqrafiya Mərkəzi, 288 s.
2. Mahmudov M. Ə. (2024). Süni intellektin linqvistik problemləri. Bakı, Elm və təhsil, 376
3. Vəliyeva K. A., Məmmədova M. (2003). Mətnlərin avtomatik redaktəsi. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 89 s.

MODERN LINGUISTICS IN THE ERA OF DIGITAL TRANSFORMATION AND ARTIFICIAL INTELLIGENCE

Konul Akhundova

Modern linguistics has become an interdisciplinary field that integrates traditional language studies with advanced technologies such as artificial intelligence, machine learning, and big data. Corpus linguistics enables the analysis of large-scale language data, while Natural Language Processing allows computers to understand and generate human language. Language also remains a social and cultural system reflecting identity, values, and collective memory. Digital communication accelerates language change and creates new forms of expression. The digitization of historical texts ensures preservation and accessibility of cultural heritage. Overall, modern linguistics combines tradition and innovation, contributing to global research, collaboration, and the future development of language technologies.

Keywords: *modern linguistics, artificial intelligence, corpus linguistics, digital humanities, Turkology.*

VII-VIII ƏSR QƏDİM TÜRK YAZILI ABİDƏLƏRİNİN DİLİNDƏ YAS MƏRASİMİ LEKSİKASI

Məleykə Mirzəli
Bakı Dövlət Universiteti
Doktorant
maleyka.mirzali@icloud.com
https://orcid.org/0000-0001-5379-9256

Məqalədə VII-VIII əsrlərə aid Qədim Türk yazılarının dilində dəfn mərasimləri ilə bağlı leksik vahidlər araşdırılır. Tədqiqatın məqsədi ölüm və dəfn mərasimləri ilə bağlı türk dünyagörüşünü müəyyən etmək və bu semantik sahə ilə əlaqəli lüğəti müəyyən etməkdir. Tədqiqatda yazılardakı "ölmək" mənasını verən sözlər və ifadələr, eləcə də dəfn və dəfn mərasimləri ilə bağlı leksik vahidlər semantik və funksional baxımdan təhlil edilir. Nəticələr göstərir ki, Qədim Türk dilində ölüm yalnız fiziki sonluq kimi başa düşülmür, həm də metaforik olaraq ruhun yüksəlişi və transformasiyası kimi ifadə olunur. Dəfn mərasimlərinin lüğəti türk cəmiyyətinin dini-mifoloji və sosial-mədəni dünyagörüşünü təcəssüm etdirən zəngin semantik təbəqəni əks etdirir.

Açar sözlər: *qədim türk dili, əski türk yazılı abidələri, yas mərasimləri, ölüm, dəfn, ritual*

Giriş

İnsan oğlunun yarandığı vaxtdan bəri düşündüyü mövzulardan biri ölümdür. İnsanı nəyin yaşatdığı, ölümdən sonra ikinci bir həyatın olub-olmaması və bu ikinci həyatın xüsusiyyətləri daim insanın zehnini məşğul etmişdir. Bu məsələlər dinin əsaslı bir hissəsini təşkil edir. Türklər İslam dinini qəbul etməzdən əvvəl kifayət qədər mürəkkəb bir dini quruluşa malik idilər. Mövzu ilə bağlı tədqiqatçılar qeyd edirlər ki, türklər tarixin erkən dövrlərində, ən gec Hun dövründə təkallahlı bir dini sistemə sahib olmuşlar. Əsasını Göy Tanrı inancı təşkil edən bu dinin daxilində müəyyən şamanist rituallar da yer alır.

Bəzi tədqiqatçılar türklərin ölümdən sonra həyatın mövcud olduğuna inandıqlarını, lakin axirət gününü bilmədiklərini söylədikləri halda, digərləri insanların dünyada etdikləri yaxşı və pis əməllərə görə hesab verəcəkləri bir hesab gününə inandıqlarını qeyd edirlər. Orxon abidələrində keçən "uçtu" ifadəsi, M.Kaşğarinin "Lüğət"ində "uçmaq" (cənnət) mənasında işlədilmişdir. İslamdan əvvəl türklər "uçmaq" dedikləri cənnəti göy üzündə, "tamuğ" adlandırdıqları cəhənnəmi isə yer altında təsəvvür edirdilər. Bu təsəvvürə əsasən, türklərin axirət gününə inandıqları fikri ortaya çıxır (Doğanay, 2004).

Bu gün sayı etibarilə beş yüzü keçsə də, qədim türk abidələrinin şübhəsiz ən dəyərlilərindən biri Köl Tegin abidəsidir. Çünki böyük qardaşı Bilgə xaqan Köl Teginin ölümünün necə baş verdiyi haqqında məlumat verməsə də, onun ölümündən duyduğu kədəri və dəfn mərasiminə qatılanların gətirdiyi hədiyyələrin təsvir edilməsi son dərəcə əhəmiyyətlidir. Lakin Köl Teginin xaqanın qardaşı və eyni zamanda mühüm bir sərkərdə olması səbəbilə, dəfn mərasiminin daha təmtəraqlı və geniş iştiraklı olduğu öz-özünə aydın olur. Tonyukuk abidəsinə əsaslanaraq belə bir nəticəyə gələ bilərik ki, Tonyukuka görə ölüm o qədər də mühüm deyil. Buna görə də o, abidəsində ölüm haqqında danışmır. Lakin xalqın bütövlükdə məhvi mövzu olduqda ölümə toxunur. Əksinə, Bilgə xaqanın qardaşı Köl Teginin xatirəsinə yazdırdığı abidədə ölüm və onun doğurduğu kədər geniş yer tutur (Aydın, 2022)

VII-VIII əsrdən etibarən izlənilə bilən qədim türk mətnlərinə əsaslanaraq, türklərin ölüm sonrası həyata keçirdiyi dəfn mərasimləri haqqında çoxsaylı tədqiqatlar aparılmışdır. Onu da qeyd edək ki, qədim türk yazılı abidələrində dəfn mərasimlərinin necə keçirildiyinə dair birbaşa məlumat yoxdur. Biz abidələrin dil materiallarından yola çıxaraq konkret leksik vahidləri araşdırmaya cəlb edib türklərin dəfn mərasimlərinin necə həyata keçirildiyinə dair ipucları əldə edilməyə çalışacağıq.

Qədim türk abidələrində ölümü ifadə edən müxtəlif sözlər işlədilmişdir; lakin "ölmək" felinin sərt, təsirli və qəbul edilməsi çətin olduğuna görə, birbaşa "öl-" feli ilə yanaşı, daha yumşaldılmış söz və ifadələrə də rast gəlinir. "Ölüm" anlayışını ifadə edən feillər:

Adrıl- "ayrılmaq" mənasında "adır-" feilindən yaranmışdır. Gerçək mənası ilə yanaşı "ölmək" məcazi mənası ilə də abidələrdə çox işlənən feillərdən biridir, məs.: *Üze teŋri koñ yılka yètinç ay küçlüg alp er kaganımda adrılu bardıŋız.* (Ongi Şm 4)

Adrın- *"adır-"* feilinin qayıdış şəkli şəkilçisi ilə düzəlmiş formasıdır. *Adır-* ("ayırmaq") feilinin mənası nəzərə alındıqda, bu sözün "ayrılmaq; ölmək" mənasında işləndiyi aydın olur. Bu forma yalnız Yenisey abidələrində üç dəfə Uybat III (E 32) mətnində rast gəlinir və yazını qələmə alan şəxsin dialekti haqqında da müəyyən fikir yürütməyə imkan verir. Çünki feilin -n- qayıdış qəbul etmiş formasının tək bir abidədə üç dəfə işlənməsi adi hal sayılmır. *Èçiçim e adrındım a* (Uybat III, E 32, 13) (Aydın, 2022)

Az- feilinin əsas mənası "ayrılmaq"dır, amma məcazi olaraq "ölmək" mənasını da ifadə edir. Altay abidələrində keçən bir nümunə istisna olmaqla, bütün nümunələr Yenisey abidələrində təsbit edilmişdir; *Èlim e kanım a bökmedim e yaşım yèti yètmiş azdım a.* (Begre, E 11, 6)

Kapırçakka kir- yalnız **Alun-Köl II (E 29)** abidəsinin 8-ci sətrində rast gəlinən və *"kapurçak"* (tabut) ismi ilə ***kir-*** feilinin birləşməsindən yaranmış ifadə də "ölmək" mənasında işlənilir; *Men altun kapır[çakka kir]tim.*

Kara bol- "qara" sözü ilə bol- köməkçi feilinin birləşməsindən yaranmış bu ifadə bütövlükdə "qara rəng"in semantik çaları ilə bağlıdır. Bu ifadə yalnız bir dəfə qeydə alınmışdır: *Yèti yègirmi yaşımta men teŋri èlimke kara boldum.* (Yeerbek I, E 147, 1)

Kergek bol- qədim türk runik abidələrində "ölmək" mənasında işlənən sözlər arasında ən çətin anlaşılanı şübhəsiz kergek bol- ifadəsidir. Bu deyim yalnız Köl Tegin və Bilgə xaqan abidələrində dörd dəfə təsbit edilmişdir, məs.: *Özi ança kergek bolmış*. (KT, BK ş 4). Kergek bol- birləşməsi isim + bol- köməkçi feil modeli ilə qurulmuşdur. Buna görə də burada əsas diqqət çəkən söz "kergek"dir. Müasir türk dillərində yaşayan "gərək" sözünün qədim forması olan kergek, qədim türk abidələrində müstəqil şəkildə təsbit edilməmişdir. Lakin isimdən sifət düzəldən -siz şəkilçisi ilə iki dəfə (KT, BK) işlənmişdir (Aydın, 2022).

Öl- "ölmək" mənasını bildirən bu feil, xüsusilə böyük xaqan abidələrində xaqan və yüksək vəzifəli idarəçilərin ölümünü ifadə etmək üçün istifadə olunmamışdır. Məlum olur ki, bu feil Kül Tegin, Bilgə xaqan, Tonyukuk və Küli Çor kimi xaqanlıq və bəylik abidələrində daha çox xalqın kütləvi şəkildə ölümü, yəni məhv olması, başqa boy və ya xalqların rəhbərləri ilə, xüsusilə də atların ölümü üçün işlənmişdir. Məs.: *Türük bodun ölteçi erti* (BK ş 33). Feilin xaqanlıq və bəylik yazılarında xaqan, yabğu, şad, xatun, tigin kimi sülalə üzvləri və idarəçi təbəqəyə aid şəxslər üçün işlədilmədiyini bir daha vurğuladıqdan sonra, Ongi və Suci abidələrində keçən iki nümunədə "öl-" feilinin abidənin aid olduğu şəxsin ölümü üçün istifadə olunduğu anlaşılır. Suci abidəsinin aid olduğu şəxs sülalə üzvü olmadığı üçün bu hal normal qarşılanıla bilər, lakin Ongi abidəsi üçün eyni fikri söyləmək çətindir (Aydın, 2022).

Seçlin- əsas mənası "ayrılmaq", məcazi mənada isə "ölmək" kimi işlənən bu feilə abidələrdə üç dəfə rast gəlinir, məs.: *Adrıltım seçlintim yıta buŋ a* (Kızıl-Çıraa I, E 43, 2).

Uç- feilinin əsas mənası şübhəsiz "uçmaq"dır. Lakin Göytürk dövrü türkcəsində bu feil əsas mənası ilə təsbit olunmamışdır. VII–VIII əsrlərdə quşlardan başqa uça biləcək hər hansı canlı və ya cansız varlıq olmadığı üçün "uç-" feilinin işlənməsi əsasən yalnız quşlardan bəhs edilərkən mümkün olmuşdur. Bundan çıxış edərək, ölümündən sonra insan ruhunun sonsuzluğa "uçub getdiyi" düşünüləndə "uç-" feilinin bu mənada istifadə olunmasına təəccüb doğurmur. Üstəlik, ölüm sonrası bədənin yerində qalması, ruhun isə bədəni tərk etməsi də məhz "uç-" feili ilə ifadə oluna biləcək bir vəziyyətdir. Yuxarıda "kergek bol-" ifadəsi və "öl-" feili ilə bağlı qeyd edildiyi kimi, "öl-" feili xaqan və bəylərlə, eləcə də xanədan üzvlərinin ölümünü ifadə etmək üçün istifadə edilməmişdir. Buna görə də xaqan və bəylərin ölümü "uç-" feili ilə ifadə edilmişdir. Məs.: *Kaŋım kagan uçdokda inim köl tègin yèt[i yaşda kaltı]* (KT ş 3). Altay, Yenisey və Qırğız abidələrində rast gəlinmir (Aydın, 2022).

Yalnız mühüm şəxslər üçün istifadə olunsa belə, zamanla bu ifadənin daha geniş semantik sahəyə yayıldığı söylənilə bilər. Məlum olduğu kimi, Qərb türklərində, hətta İslamın qəbulundan sonra be-

lə, "öldü" əvəzinə "şunkar boldu", yəni "şahin oldu" ifadəsi işlədilirdi. Bu şəkildə türklər ölümü nəfəsin kəsilməsi və ruhun bədəni tərk edərək getməsi kimi təsəvvür edirdilər; buna görə də bəzən "öldü" əvəzinə "uçtu" deyirdilər. Bundan əlavə, "uçmaq" sözü tarixi dünyagörüş və inanca uyğun olaraq "cənnət" anlayışının qarşılığı kimi də işlədilməyə başlanmışdır. Bu səbəbdən Dədə Qorqud alqışlarında "Ağ saqallu babañ yeri uçmağ olsun" ifadəsini işlətmişdir. Ruhun quş şəklində uçması təsəvvürü müxtəlif türk topluluqlarında bu gün də qorunub saxlanmaqdadır. Altay türkləri də ölüm zamanı ruhun quş formasında uçub getdiyini düşünürlər (Onay, 2013)

Yaşı teg- ifadəsi "teg-" feili ilə qurulmuş olub "yaşı tamam olmaq, ömrü dolmaq" mənasını bildirir. Bu struktur "tamamlamaq, çatmaq" semantikasını daşıyan teg- feili ilə bağlıdır və abidələrdə məhz "yaşını başa vurmaq, həyat müddətini tamamlayıb ölmək" mənasında təsbit edilmişdir.Bu feil cəmi iki dəfə Tes abidəsində qeydə alınmışdır; *... èl ėtmiş kanım yaşı tegip uçdı* (Tes q 3).

Yok bol- "ölmək, yox olmaq" mənasında işlənir. Burada "yok" sözü "yoxluq, mövcud olmama" mənası daşıyır, "bol-" feili isə "olmaq" mənasını bildirərək birlikdə "yox olmaq, aradan çıxmaq" semantikasını yaradır; *Türük bodun yok bolmazun tėyin* (KT ş 11). Altay və Yenisey abidələrində gəlinməməsi isə ya təsadüfi amillərlə, ya da daha çox idarəedici təbəqənin dili ilə məhdudlaşması ilə izah edilə bilər.

Yokla- qədim türk abidələrində "ölmək" mənasında məcazi işlənən bir ifadədir. Əslində "yuxarı qalxmaq, göyə yüksəlmək" mənasını daşıyır və "yok-/yuk-" kökündən əmələ gəldiyi düşünülür. "Yukarı" mənasındakı bu kökün ayrıca təsdiqlənmiş forması yoxdur. Türk runik yazı sistemində "o" və "u" saitlərini ayırmaq mümkün olmadığı üçün sözün kökünün "yok" və ya "yuk" olması dəqiq müəyyən edilə bilmir. Bu feil "göyə yüksəlmək, ölmək" mənasında yalnız Yenisey abidələrində dörd dəfə keçmişdir. Məs.: *Er erdem üçün e yıta yokladı* (Uybat III, E 32, 1)

VII-VIII əsrlərdə türklərin həyatında ölüm anlayışının, şübhəsiz ki, böyük yeri və əhəmiyyəti var idi. Bu anlayışla bağlı olaraq ortaya çıxmış söz və ifadələr dilə yansımış, bir çoxu günümüzə qədər gəlmişdir. Əski yazılı abidələrdə əslində cənazə mərasimlərinin necə keçirildiyinə dair konkret məlumatlar azdır. Sadəcə orada bu mənada işlənmiş leksik vahidləri seçərək ümumi mənzərəni göstərmək olar (Aydın, 2022).

Balbal "döyüşlərdə öldürülən düşmənləri təmsil edən və onların adına dikilən daş" mənasında abidələrdə on bir dəfə "balbal", bir dəfə isə Yeniseydə Tuva D (E 51) abidəsində "balbar" şəklində qeydə alınmışdır. Bunu səhv yazılış və ya dialekt fərqi kimi izah etmək olar. Üm.: *Kaŋım kaganka başlayu baz kaganıg balbal tikmiş* (KT ş 16). "Balbal" sözünün türk mənşəli olmadığı ümumi qəbul olunmuş fikirdir. Tədqiqatçı T.Tekin bu sözü monqolca "barimal" (heykəl) sözü ilə əlaqələndirir və inkişafını belə izah edir: balbal <barmal < barimal. (Tekin, 2000)

Bark sözünün xüsusilə Türkiyə türkcəsində "ev-bark" şəklində işlənməsindən aydın olur ki, bark "ev", yəni çadır və onun ətrafında həyat üçün zəruri olan bütün ünsürlərin toplandığı məkan mənasını ifadə edir. Bununla belə, sözü tam şəkildə "ev" ilə sinonim hesab etmək düzgün olmaz. Birbaşa olaraq nəşin (meyitin) onun içərisinə qoyulduğunu göstərən açıq sübutlar olmasa da, bark daha çox simvolik məzar kompleksi kimi başa düşülür. Bu kompleksə aşağıdakılar daxil idi: adına tikilən şəxsin həyatı və qəhrəmanlıqlarını əks etdirən yazılı daş, ev tipli kiçik tikili, ehtiram yolu, heykəllər, qurban təqdim etmək üçün hazırlanmış qurbangah daşları və bütün bu elementləri əhatə edən divarlar. Bark sözü bir çox abidədə, xüsusilə Köl Tegin və Bilgə xaqan abidələrində qeydə alınmışdır. Üm.: *Tawğaç kaganıŋ içreki bedizçig ı<d>tı aŋar adınçıg bark yaraturtum* (KT c 12)

Kapırçak sözü yalnızca Altın-Köl II (E 29) abidəsinin 8-ci sətrində qeydə alınmışdır. Sözün yer aldığı cümlə belədir: *Men altun kapır[çakka kir]tim.* "Tabut" mənasında işlənən bu sözün oxunuşu və buna bağlı olaraq mənalandırılması ilə bağlı müəyyən çətinliklər mövcuddur.

Miŋtisi mühüm şəxslər öldükdən sonra onların qısa həyat hekayəsinin yazıldığı bir növ bayraq mənasında Karı Çor Tegin (Xi'an) abidəsinin 1-ci və 2-ci sətirlərində qeydə alınmışdır. Bu termin Çin dəfn mədəniyyəti ilə bağlı olub, abidə üzərində çalışan tədqiqatçılar tərəfindən müxtəlif formalarda oxunmuşdur. Türk dilinin nə tarixi, nə də müasir mərhələlərində rast gəlinməyən bu söz, ehtimal ki, iki

Çin heroqlifinin birləşməsindən yaranmışdır (mingjing 铭旌) (Aydın, 2022). Mingjing ölünü dəfn etmək üçün qəbiristanlığa apararkən tabutun önündə daşınan bayraq və ya tuğ deməkdir. Bu bayraq üzərinə ölən şəxsin adı, titulu, mənşəyi, soyu kimi kimlik məlumatları yazılır və sonra ölünün özü ilə birlikdə dəfn edilir. Adətən məzar daşı üzərindəki mətn də bu məlumatlara əsasən hazırlanır. Bu söz təbii olaraq digər qədim türk mətnlərində qeydə alınmamışdır. Uyğur şahzadəsi Karı Çor Tegin vəfat etdikdə onun üçün belə bir "mingtisi" hazırlanmış, üzərində kimlik və soy məlumatları əks olunmuş mətn əvvəlcə yazıya alınmış, sonra isə məzar daşına həkk edilərək onunla birlikdə dəfn edilmişdir. Karı Çor Teginin ölümündən sonra, ehtimal ki, Uyğur ənənələrinə uyğun dəfn mərasimi keçirilmişdir. Lakin o, Tan imperiyasında yüksək vəzifəli sərkərdə olduğu üçün imperator Tang Dezong (779–805) tərəfindən dövlət səviyyəsində dəfn mərasimi təşkil edildiyi aydındır (Aydın, 2022).

Sıgıt "ağı, fəryad" mənasını verən sözdür. "Sıgıtçı" və "sıgta-" kimi formaları ilə abidələrdə ümumilikdə yeddi dəfə qeydə alınmışdır. Kül Tegin abidəsində isə iki dəfə "sıgıt" şəklində işlənmişdir: *Ança sakıntım közde yaş kelser tıda köŋülte sıgıt kelser yanturu* sakıntım (KT, şm 11) "Sıgıt" sözündən isimdən isim düzəldən -çı şəkilçisi ilə yaranmış "sıgıtçı" forması da bir növ peşə adı kimi üç dəfə qeydə alınmışdır. "Sıgıt" sözündən isimdən feil düzəldən -a şəkilçisi ilə yaranmış sıgta- feili isə iki dəfə işlənmişdir. "Sıgıtçı" peşə adının "yoğçı" ilə birlikdə ikili şəkildə işlədilməsi, sözün mənasının "yas mərasimini icra edən" anlayışına yaxın olduğunu göstərən mühüm sübutdur.

Sın "məzar" mənası ilə təkcə Karı Çor Tegin abidəsinin 12-ci sətirində təsbit edilmişdir: *Karı çor tėgin sını.* Bu sözün Uyğur xaqanlığı dövrü abidələrindən Terxində "sinleg" (məzarlıq) formasında qeydə alındığı irəli sürülür. M.Kaşğari "sın" sözünü belə izah edir: "sın – boy-buxun deməkdir. Bu sözdən yaranaraq bodlug sinlig kişi – boylu-buxunlu insan deməkdir. Buradan məzara da "sın" deyilir, çünki məzar insan boyu ölçüsündə olur." O, ayrıca bir "sın" sözünü də "qəbir" mənasında verir. M.Kaşğari bu iki "sın" sözünün eyni kökdən olmadığını bildiyi üçün onları eyni maddədə verməmişdir. Clauson da bu iki fərqli mənalı sözü eyni maddədə birləşdirmir. T.Tekin isə əski Anadolu türkcəsində və Anadolu dialektlərində təsbit edilən "sin" ("məzar, qəbir; ölüm; kədər, acı") sözünü "sın"la əlaqələndirir və "sinleg" formasını əski Anadolu türkcəsindəki "sinle – məzarlıq" sözünün əsli hesab edir. O, sözün Çin mənşəli olduğunu və Uyğur mətnlərində "sin" ("məzar") formasında da təsbit edildiyini qeyd edərək, sözün qalın saitli deyil, incə saitli olduğunu müdafiə edir. Əski Anadolu türkcəsində və Anadolu dialektlərindəki "sin" forması, əgər başqa dildən alınma deyilsə, sözüm sait dəyişməsi ilə yarandığı aydın olur. Karı Çor Tegin abidəsindəki tək nümunədə də sözün qalın saitli olduğu açıq şəkildə görünür (Tekin, 1997)

Toltun sözü isim kimi "qəbir" mənasında, feil olaraq isə toltunla- "basdırmaq, dəfn etmək" biçimində yalnız Bömbögör abidəsində iki dəfə qeydə alınıb: *ėl bilg<e> kunçuyuŋ toltunı alu karlok. Kuwrap toltunladı.* Əski Uygur türkcəsi mətnlərində və "Kutadgu-biliq" əsərində rast gəlinən bu söz, tədqiqatçılar tərəfindən "tul tonu" (dul geyimi) kimi də izah edilmişdir. Bömbögör abidəsində bu formaya diqqət çəkən Sirin User olmuşdur. Beləliklə, böyük ehtimal qarluq şahzadəsinin dəfni və dəfn mərasimi haqqında kiçik də olsa məlumat əldə etmək mümkündür. Sözün VII-VIII əsr abidələrində heç rast gəlinməməsi təsadüf ola biləcəyi kimi, Bömbögör abidəsindən qarluq dialekti izi də ola bilər (Aydın, 2022).

Yoğ sözü və onun törəmələri (yogçı, yogla-, yoglat-) qədim türk yazılı abidələrində cənazə mərasimləri ilə bağlı ən çox işlənən sözlərdən biridir. Üm.: tokuzunç ay yėti otuzka yog ertürtümüz. (KT, şm 7) "Yog" sözündən isim düzəldən -çı şəkilçisi ilə yaranan yogçı (ağıçı mənasında) sözü Köl Tegin və Bilgə Kağan abidələrində ümumilikdə üç dəfə keçmişdir. Türk düşüncə sistemində "yog" termini yalnız "yox olmaq" və ya "ağlamaq" anlamı ilə məhdudlaşmır, daha dərin semantik qat olaraq ölümün "yüksəlmə" kimi qavranılması ilə sıx bağlıdır. Mahmud Kaşğari "yog" sözünü "ölü dəfn edildikdən sonra verilən yemək" kimi izah etsə də, abidələrin dilində ölümün uç-, yok bol-, yokla- kimi ifadələrlə verilməsi onun "göyə qalxma" ideyası ilə əlaqələndirildiyini göstərir. Bu baxımdan "yog" sözünün "yok olmaq" və ya "ağlamaq" deyil, yo- kökü əsasında "yuxarı çıxmaq, yüksəlmək" mənası ilə izahı

daha əsaslı görünür. Yoğ mərasimində verilən yeməklər və qurbanlar isə ölünün, xüsusilə də insani ruhunun göyə çatmasına xidmət edən rituallar kimi çıxış edir (Tokyürek, 2019).

Nəticə olaraq qeyd etmək olar ki, VII–VIII əsr qədim türk yazılı abidələrinin dili yas mərasimi leksikası baxımından zəngin və çoxqatlı semantik sistemə malikdir. Abidələrdə "ölüm" anlayışı birbaşa "öl-" feili ilə yanaşı, "adrıl-", "az-", "kergek bol-", "uç-", "yok bol-" kimi müxtəlif metaforik və yumşaldılmış ifadələrlə verilir ki, bu da türklərin ölümə münasibətində həm ehtiram, həm də kosmoqonik baxışın mövcudluğunu göstərir. Eyni zamanda "yoğ", "sıgıt", "balbal", "bark", "kapırçak", "toltun" kimi leksik vahidlər yas mərasimlərinin yalnız mərasim xarakterli deyil, həm də sosial, dini və ideoloji məzmun daşıdığını sübut edir. Xüsusilə "uç-" və "yokla-" kimi ifadələr ölümün son deyil, ruhun yüksəlişi kimi qavranıldığını ortaya qoyur. Beləliklə, qədim türk abidələrinin leksik materialı göstərir ki, yas mərasimi anlayışı türk dünyagörüşündə ölümün təkcə fiziki yoxluğu deyil, həm də mənəvi-mifoloji transformasiya prosesi kimi dərk edilməsinə əsaslanmışdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Aydın E. (2022). Eski Türklerde gündelik hayat. İstanbul: Kronik.
2. Aydemir, A. (2013). Manevi kültürümüze ait iki kelime 'ağıt' ve 'sıgıt' üzerine: Semantik bir yaklaşım. Turkish Studies – International Periodical for the Languages, Literature and History of Turkish or Turkic, 8(1), 781–802.
3. Doğanay, A. (2004). Türklerde ahiret inancının mezar yapı ve bezemelerine tesiri. Sanat ve İnanç/2, İstanbul: Mimar Sinan Güzel Sanatlar Üniversitesi Türk Sanatı Tarihi Uygulama ve Araştırma Merkezi.
4. Onay, İ. (2013, Ocak). İslamiyetten önce Türklerde ölüm anlayışı ve defin yöntemleri. Gümüşhane Üniversitesi Sosyal Bilimler Elektronik Dergisi, (7), 232-244
5. Tekin, T. (2000). İkinci Bay-Bulun (= E 49) yazıtı. Türk Dilleri Araştırmaları, 10.
6. Tekin, T. (1997). Notes on some Chinese Loanwords in Old Turkic. Türk Dilleri Araştırmaları.
7. Tokyürek, H. (2019). Runik Türk yazıtlarında yükselme riti: yog kelimesi üzerine. International Journal of Old Uyghur Studies, 1(2), 197–210.

THE LEXICON OF MOURNING RITUALS IN THE LANGUAGE OF 7th–8th CENTURY ANCIENT TURKIC WRITTEN MONUMENTS

Maleyka Mirzali

The article examines lexical units related to funeral rituals in the language of 7th–8th century Old Turkic inscriptions. The aim of the study is to identify the Turkic worldview regarding death and burial practices and to determine the vocabulary associated with this semantic field. The study analyzes words and expressions meaning "to die" in the inscriptions, as well as lexical items related to burial and funeral ceremonies from a semantic and functional perspective. The results show that in Old Turkic, death is not understood only as a physical end, but is metaphorically expressed as the elevation and transformation of the soul. The vocabulary of funeral rituals reflects a rich semantic layer that embodies the religious-mythological and socio-cultural worldview of Turkic society.

Keywords: *Old Turkic language, Old Turkic inscriptions, funeral rituals, death, burial, ritual*

"DİVANÜ LÜĞƏT-İT-TÜRK"DƏ TÜRK DİLİNİN VƏ MƏDƏNİYYƏTİNİN TARİXİ İZLƏRİ

Şəlalə Seyidova
ADPU-nun Şamaxı filialı
Psixologiya üzrə fəlsəfə doktoru
Sosial və humanitar məsələlər üzrə direktor müavini
seyidova.s.h.h.4@mail.ru
https://orcid.org/0000-0002-8191-8352

Dünya xalqlarının mədəni irsi əsrlər boyu qarşılıqlı təsir və ünsiyyət nəticəsində formalaşaraq zəngin mənəvi dəyərlərlə zənginləşmişdir. Hər bir xalqın mədəniyyəti onun coğrafi mühiti, tarixi inkişaf mərhələləri və sosial şəraiti ilə sıx bağlı olsa da, bu mədəniyyətlərin ümumbəşəri inkişaf prosesinə qoşulması danılmaz bir gerçəklikdir. Bu kontekstdə türk xalqlarının mədəniyyəti və ədəbiyyatı həm müstəqil və özünəməxsus bir istiqamət kimi diqqət çəkir, həm də dünya mədəniyyətinin ayrılmaz hissəsi kimi çıxış edir. Türk xalqları bəşər tarixinin ən qədim və qüdrətli etnoslarından biri sayılır. XX əsr türk ədəbiyyatının tanınmış nümayəndəsi Əziz Nesin bu fikri belə ifadə etmişdir: "Bir millətin böyüklüyü onun sayına və ya ərazisinin genişliyinə görə deyil, tarixinin və mədəniyyətinin qədimliyi və zənginliyi ilə müəyyən olunur." Bu baxımdan türklər çoxəsrlik tarixi irsi və zəngin mədəniyyətləri ilə dünya xalqları arasında mühüm mövqeyə sahib olduqlarını nümayiş etdirmişlər.

Açar sözlər: *Divanü Lüğət-it-Türk, türk poetikası, qədim türk dili, mədəni irs, türk dünyası*

Giriş

Azərbaycanda türk xalqları ədəbiyyatının sistemli şəkildə araşdırılması və tədrisi sahəsində mühüm xidmətləri olan filologiya elmləri doktoru, professor Elman Quliyev bu istiqamətdə apardığı geniş tədqiqatlarında Mahmud Kaşğarlı və onun məşhur Divanü Lüğat-it-Türk əsəri haqqında ətraflı məlumat təqdim etmişdir. Qeyd olunur ki, Kaşğar bölgəsinin Azıx kəndində anadan olan Mahmud Kaşğarlı ilk təhsilini Kaşğarda yerləşən Saciyə və Hamidiyyə mədrəsələrində almış, burada dövrünün elmləri ilə yanaşı ərəb və fars dillərinə də dərindən yiyələnmişdir.Təxminən 1058-ci ildə Bağdada gedən alim bir müddət burada yaşamışdır. Həmin dövrdə Bağdad Səlcuq imperiyasının hakimiyyəti altında idi. Ərəblərin türkləri tanımaqda, onların dilini, adət-ənənələrini öyrənməkdə çətinlik çəkməsi, xüsusilə dil baryerləri Mahmud Kaşğarlını belə bir fundamental əsər yazmağa sövq etmişdir. O, təxminən 20 il ərzində türk yurdlarını dolaşaraq uyğur, oğuz, qırğız, yağma, çigil, qıpçaq, türkmən və digər tayfaların dil, ədəbiyyat və mədəniyyət nümunələrini toplayıb sistemləşdirmiş, əldə etdiyi materiallar əsasında öz məşhur əsərini qələmə almışdır (Quliyev, 2017). Türk xalqlarının dil xüsusiyyətlərini əks etdirən bu əsər yalnız lüğət deyil, həm də türk dünyasının dili, ədəbiyyatı, mədəniyyəti, ictimai-siyasi tarixi, coğrafiyası və düşüncə tərzi haqqında geniş təsəvvür yaradır. İlk türk lüğəti kimi qəbul edilən bu kitab türk xalqının həm özünü tanıması, həm də Şərq dünyasında tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu barədə Mahmud Kaşğarlı özü belə yazırdı: "Mən türklərin, türkmənlərin, oğuzların, çigillərin, yağmaların və qırğızların yaşadıqları şəhər və yurdları illərlə dolaşdım, onların sözlərini topladım və xüsusiyyətlərini araşdırdım."Alim bu dəyərli əsəri 1072-ci ildə yazmağa başlamış və 1074-cü ildə tamamlamışdır. "Türk ləhcələri sözlüyü" mənasını ifadə edən Divanü Lüğat-it-Türk əsəri türk dünyasının yaratdığı ən qiymətli mənəvi irs nümunələrindən biri kimi qəbul olunur. Təxminən min il əvvəl yazılmasına baxmayaraq, bu möhtəşəm abidə elmi ictimaiyyətə nisbətən gec təqdim olunmuşdur.

"Divani lüğət-it-türk" əsəri bu günə qədər Türkiyə türkcəsi, qazax, özbək, uyğur, Azərbaycan, ingilis, fars və Çin dillərinə tərcümə olunaraq həmin dillərdə nəşr edilmişdir. Azərbaycan dilində bu qiymətli abidə 2006-cı ildə Bakıda dörd cild şəklində çapdan çıxmışdır.(Kaşğarlı, 2006).Əsərin əsas məqsədlərindən biri türk xalqının yaratdığı mədəni və dil irsini qorumaq və onu dünya ictimaiyyətinə təqdim etməkdir. Bununla yanaşı, əsər ərəblərə türk dilini öyrətmək məqsədi ilə yazılmış, eyni zaman-

da türk dilinin zənginliyi və ifadə imkanlarının genişliyi baxımından ərəb dili ilə müqayisə edilə biləcək səviyyədə olduğunu göstərmək niyyəti daşımışdır (Kaşğarlı, 2006).“Divani lüğət-it-türk” əsərində dil məsələləri səkkiz müxtəlif bölmə çərçivəsində izah olunmuş və bu hissələrdə müqayisəli təhlillərə geniş yer verilmişdir. Həmzə, Salim, Muzaaf, Kitabül-misal, Kitabi zevatis-səlasə, Kitabü zəvatil-ərbaa, Kitabül-gunnə və Kitabül-cəm beyn-əs-sakıneyn adlanan bölmələrdə əsas diqqət türk dilinin leksik və qrammatik xüsusiyyətlərinə, söz kökləri, şəkilçilər və hərf sistemi kimi dilin incəliklərinə yönəldilmişdir.Mahmud Kaşğarlı öz əsərində türk tarixini həm real tarixi faktlar, həm də əfsanəvi təsəvvürlər əsasında təqdim etmişdir. O, türk adının ilahi mənşəyə malik olduğunu, türklərin Nuh peyğəmbərin oğlu ilə bağlı olduğunu qeyd etmiş, həmçinin Məhəmməd peyğəmbərin türklərə sevgi və ümidlə yanaşmasından bəhs etmişdir (Kaşğarlı,2006). Müəllif bu fikirləri əsərinə daxil etməklə həm xalqının mənəvi müqəddəsliyini vurğulamış, həm də türkü tarixi qəhrəmanlıq ruhunda təqdim etmişdir. Bundan əlavə, əsərdə ədəbiyyat nümunələrinə geniş yer verilməsi türk bədii təfəkküründün və söz yaradıcılığının yüksək səviyyəsini nümayiş etdirir. Müəllifin qeyd etdiyi kimi, bu kitab hikmətli sözlər, səc nümunələri, atalar sözləri, şeirlər, rəcəz və nəsr parçaları ilə zənginləşdirilmişdir. Bu nümunələr türk xalqının bədii zövqünü və estetik dünyagörüşünü əks etdirən mühüm material kimi qiymətləndirilir (Cəfərov, 2006).

Divani lüğət-it türk əsərində yer alan şeir nümunələri mövzu baxımından olduqca rəngarəngdir. Bu parçalar Allahın tərifi, təbiətin təsviri, qəhrəmanlıq ruhunun ifadəsi, eləcə də məhəbbət motivləri kimi müxtəlif mövzuları əhatə edir. Belə poetik nümunələr türk dilinin bədii və ifadə imkanlarının zənginliyini göstərməklə yanaşı, dilimizin poetik gücü haqqında təsəvvürləri də genişləndirir.Əslində bu cür şeirlər türk dilinin poetik təzahür formalarının çoxşaxəli olduğunu nümayiş etdirir və onu yalnız məişət, yəni ev, küçə və bazar dili kimi dəyərləndirənlərin fikirlərini təkzib edir. Bununla da türk dilinin yalnız gündəlik ünsiyyət vasitəsi deyil, həm də elm və ədəbiyyat dili kimi yüksək nüfuza malik olduğu təsdiq olunur. Müxtəlif məzmunlu şeir parçalarına diqqət yetirdikdə bu həqiqət açıq şəkildə görünür. Məsələn:

İdimni öger men
Biligni yüger men
Könülni tüger men
Erdem üze türlünür
Tanrını tərifləyərəm,
Biliyi toplayaram,
Nəfsimi cilovlayaram,
Hər şey fəzilət üzərində düzülər (Kaşğarlı, 2006 s. 43).

Qeyd etmək lazımdır ki, türkün təbiətə olan bağlılığı həmişə yüksək səviyyədə olmuşdur. Göyü yuxarıda, yeri aşağıda müqəddəs hesab edən və yerlə göy arasındakı bütün varlıqları Tanrının əmanəti kimi qəbul edən türkün bədii düşüncəsində təbiətə sevgi mövzusu xüsusi yer tutmuşdur.Əski türk poetik nümunələrində Günəş, Torpaq, Çiçək, Dəniz, Dağ və digər təbiət elementləri ayrı-ayrı təsvir olunsa da, bunların ümumi fonunda təbiətin vahid obrazı aydın şəkildə ön plana çıxır.Məsələn:

Yağmur yağıp saçıldı
Türlüg çəçək su çaldı
Yinçü kabı açıldı
Çından yıpar yoğruşur
Yağış yağdı və saçıldı,
Min bir çiçək açıldı,
İnci qabı açıldı,
Səndəl və müşk yoğruldu (Kaşğarlı, 2006, s.135).

“Divani lüğət-it türk” əsərinə daxil edilmiş bu nümunələr qədim türk şeirinin forma və məzmun xüsusiyyətləri, ideya-estetik zənginliyi haqqında təsəvvürlərin genişlənməsində mühüm rol oynamıdır. Əsər türk dilinin zəngin leksik və qrammatik xüsusiyyətlərini, bədii-estetik potensialını və türk xalqı-

nın mədəni tarixini dərindən əks etdirən unikal bir abidədir. Əsər həm dilçi, həm tarixçi, həm də ədəbiyyatşünas tədqiqatçıların diqqətini cəlb edən qiymətli mənbə kimi, türk dünyasının elmi və mədəni irsini anlamaqda mühüm rol oynamışdır. Mahmud Kaşqarlının tədqiqatları, onun şair, dilçi və tarixçi kimi fəaliyyətləri, türk dilinin və mədəniyyətinin zənginliyini bütün dünyaya tanıtmaq məqsədini daşımışdır. Bu baxımdan "Divani lüğət-it türk" yalnız bir lüğət deyil, həm də türk xalqının milli şüurunu, poetik və bədii düşüncəsini qoruyub yaşadan və gələcək nəsillərə ötürən qiymətli elmi-mədəni irsdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan ədəbiyyatı tarixi (2-ci cild). (2007). Bakı.Elm
2. Quliyev, E. (2017). Türk xalqları tarixi. Bakı. Elm və təhsil
3. Kaşqarlı, M. (2006). Divani lüğət-it-türk. Bakı.Şərq-Qərb
4. Cəfərov, N. (2006). Türk xalqları ədəbiyyatı (1-ci cild). Bakı.Çaşıoğlu

HISTORICAL TRACES OF THE TURKISH LANGUAGE AND CULTURE IN "DIWAN LUGHAT AL-TURK"

Shelale Seyidova

The cultural heritage of the world's peoples has been shaped through centuries of interaction and communication, becoming enriched with profound spiritual values. Although each nation's culture is closely connected to its geographical environment, historical development, and social conditions, the integration of these cultures into the universal process of development is an undeniable reality. In this context, the culture and literature of the Turkic peoples stand out both as an independent and distinctive field and as an integral part of world culture. The Turkic peoples are regarded as one of the most ancient and powerful ethnic groups in human history. The prominent twentieth-century Turkish writer Aziz Nesin expressed this idea as follows: "The greatness of a nation is measured not by its population or the size of its territory, but by the antiquity and richness of its history and culture." From this perspective, the Turks, with their centuries-old historical heritage and rich cultural legacy, have clearly demonstrated their significant and leading position among the nations of the world.

Keywords: *Divan Lughat al-Turk, ancient Turkic language, Turkic poetics, cultural heritage, Turkic world*

ZƏKİ VƏLİDİ TOĞANIN HƏYATI, ELMİ FƏALİYYƏTİ VƏ TÜRKOLOGİYA ELMİNƏ TƏSİRİ

Nərmin Qasımova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Türkoloji mərkəzin mütəxəssisi
narminrahimova7@gmail.com
https://orcid.org/0009-0008-6350-6144

Məqalədə görkəmli türkoloq və tarixçi Zəki Vəlidi Toğanın həyatı, elmi fəaliyyəti və türkologiya elminə verdiyi töhfələrdən bəhs edilir. Onun türk xalqlarının tarixinin öyrənilməsində mənbəşünaslıq və metodologiya baxımından gətirdiyi yeniliklər xüsusi vurğulanır. Alim türk tarixini rəvayətlərə deyil, əsasən ərəb, fars və türk dillərində yazılmış orijinal mənbələrə əsaslanaraq tədqiq etmiş, Orta Asiya türklərinin siyasi və mədəni tarixini sistemli şəkildə təqdim etmişdir. Toğan Orta Asiyaya etdiyi elmi səfərlər zamanı çoxsaylı əlyazmalar aşkar etmiş, xüsusilə Ahmad ibn Fadlanın məşhur səyahətnaməsinin əlyazmasını taparaq türk tarixşünaslığı üçün mühüm mənbəni elm aləminə qazandırmışdır.Məqalədə həmçinin Toğanın siyasi fəaliyyəti, Başqırd milli hərəkatındakı rolu və Türküstan Milli Birliyinin yaradılmasındakı təşəbbüsü haqqında məlumat verilir. Onun sovet hakimiyyətinə qarşı mübarizə aparması, sonradan Türkiyəyə mühacirət etməsi və burada elmi fəaliyyətini davam etdirməsi də geniş şəkildə izah olunur. Alimin türkologiyanın inkişafında pedaqoji və təşkilati fəaliyyəti, universitetlərdə dərs deməsi və elmi məktəb formalaşdırması da qeyd edilir. Burada eyni zamanda Zəki Vəlidi Toğanın da iştirak etdiyi Birinci Türkoloji Qurultayın əhəmiyyəti, qurultayda iştirak edən digər tanınmış alimlər və qəbul edilən qərarlar haqqında məlumat verilir. Bu qurultay türk dillərinin tədqiqi, əlifba məsələləri və türk xalqları arasında elmi əməkdaşlığın inkişafı baxımından mühüm hadisə kimi qiymətləndirilir. Nəticə etibarilə, Zəki Vəlidi Toğan türk tarixşünaslığının və türkologiya elminin formalaşmasında mühüm rol oynamış görkəmli alimlərdən biri kimi təqdim olunur.

Açar sözlər: *Zəki Vəlidi Toğan, Birinci Türkoloji Qurultay, türkologiya,Türk xalqlarının tarixi, latın əlifbası, Türküstan.*

Giriş

Zəki Vəlidi Toğan türkologiya elminin ən görkəmli nümayəndələrindən biri olmuş, xüsusilə türk xalqlarının tarixi, mənbəşünaslıq və metodologiya sahələrində mühüm yeniliklər etmişdir. O, türkologiya elminə bir çox töhfələr vermiş, Türk xalqlarının tarixinin elmi əsaslarla tədqiqini aparmışdır. Bundan əlavə, o, ərəb, fars və türk dillərində olan qədim mənbələri araşdıraraq türk tarixinin obyektiv şəkildə öyrənilməsinə töhfə vermişdir. Xüsusilə Orta Asiya türklərinin siyasi və mədəni tarixini sistemli şəkildə təqdim etmişdir. Toğan Orta Asiyada apardığı tədqiqatlar zamanı çox qiymətli əlyazmalar tapmış və onun ən böyük kəşflərindən biri məşhur ərəb səyyahı Ahmad ibn Fadlanın səyahətnaməsinin əlyazmasını tapmasıdır. Bu mənbə Volqa bulqarları və erkən türk xalqları haqqında ən mühüm məlumatlardan biridir. Zəki Vəlidi Toğan Türk xalqlarının Orta Asiyadan müxtəlif bölgələrə yayılması prosesini elmi şəkildə izah etmişdir. O, tarixi tədqiqatlarda müqayisəli və kompleks metoddan istifadə etmişdir.

Zəki Vəlidi Toğan 10 dekabr 1890-cı ildə indiki Rusiya Federasiyasının Başqırdıstan Muxtar Respublikasının ərazisində, Sterlitamak (İşimbay) qəzasının Küzen kəndində anadan olmuşdur. Atası Əhmədşah, anası Ümmülhəyat xanımdır. Həm ata, həm də ana tərəfi savadlı və mədəni bir ailədən idi. Öz ifadəsinə görə, ərəb dilini atasından, fars dilini isə anasından öyrənmişdir. Daha sonra dayısı Həbib Nəccarın qonşu kənddəki mədrəsəsinə gedərək ərəb ədəbiyyatı dərsləri almış, eyni zamanda rus dilini

öyrənməyə başlamışdır. Atasının onu evləndirib kənddə imam etmək istədiyini öyrəndikdə Kazana qaçmış və Qasımiya mədrəsəsində təhsilini tamamlamışdır. Kazanda rus şərqşünasları ilə tanış olmuşdur. Sonralar Qasımiya və Ufadakı Osmaniyə mədrəsələrində müəllim kimi çalışmışdır. 1917-ci il Oktyabr İnqilabından sonra başqırd xalqının oyanan ümidlərini gerçəkləşdirmək məqsədilə siyasi fəaliyyətə başlamışdır. Başqırdların gələcəyini qərbdəki Kazan tatarları ilə deyil, şərqdəki Türküstan qazax-qırğız, türkmən və özbək türkləri ilə birlikdə görürdü. Buna görə Kazanlı siyasətçilərlə fikir ayrılığına düşmüşdür. Başqırd Muxtar hökumətinin yaradılmasına rəhbərlik etmiş, əvvəlcə hərbi nazir, sonra isə hökumət başçısı olmuşdur. Əslində elm adamı olan Toğanın siyasi fəaliyyəti dövrün şərtlərindən doğmuşdur. Lakin Türkiyəyə gəldikdən sonra əsas diqqətini elmi fəaliyyətə yönəltmişdir. Onun əsərləri arasında "Türk və Tatar tarixi" (1912), "Bugünkü Türküstan və yaxın keçmişi", "Monqollar, Çingiz və Türklər", "Ümumtürk tarixinə giriş", "Tarixdə üsul" və başqa mühüm tədqiqatlar vardır. Ölümündən sonra da bir çox əsərləri nəşr edilmişdir. Zəki Vəlidi Toğanın "Əyalət" qəzetindəki ilk əsəri 22 oktyabr 1913-cü ildə "Kazanın hazırkı mövqeyi" adı ilə dərc olunmuşdur. Toğanın "Əyalət" qəzetində dərc olunmuş digər bir əsəri "Türküstandan məktublar" adlanır və qəzetin 1913-1914-cü illər saylarında ardıcıl olaraq dərc olunub. 1910-1911-ci illər Toğanın layiq olduğu şöhrətə doğru ilk addımlarını atdığı bir dövr idi. "Türk-Tatar tarixi" əsərinin geniş yayılması nəticəsində türkoloqlar Nikolay Federoviç Katanov və Nikolay İvanoviç Aşmarinin Kazan Universiteti Arxeologiya və Tarix Cəmiyyətinə verdiyi təklif ilə Toğanın Türk tarixi və etnoqrafiyası üzrə elmi tədqiqatlar aparmaq üçün Fərqanəyə göndərilməsi nəzərdə tutulurdu. Zəki Vəlidi Toğan 1913-1914-cü illər arasında Türküstana iki elmi səyahətə çıxmışdır. 1913-cü ilin payızında başlayan və 1914-cü ilin martında başa çatan ilk səyahətinin məzmunu ilə bağlı xatirələrinə aşağıdakı izahı daxil etmişdir: "1914-cü ilin mart ayına qədər davam edən bu səyahət zamanı əlyazmalar, şəxsi sənədlər, ölkənin iqtisadi, tarixi və coğrafi aspektləri ilə bağlı mühüm sənədləri, bəzi dini qurumların gəlir siyahılarındakı dalğalanmaları göstərən qeydlər və Fərqanə, Səmərqənd və Buxara əyalətlərindəki Fərqanə özbək tayfaları haqqında etnoqrafik materiallar topladım" (Toğan Z.V. 2019, s. 99).

Zəki Vəlidi Toğan universitetlərdə türk tarixi və türkologiya üzrə dərslər keçmişdir. Türkologiya elminin inkişafına həm alim, həm də pedaqoq kimi böyük töhfə vermişdir. 1926-cı ildə Birinci Türkoloji Qurultayda iştirak edərək türk dili və tarixi məsələlərinin müzakirəsində fəal rol oynamışdır. O, türkologiya elminin banilərindən və ən nüfuzlu nümayəndələrindən biri hesab olunur.Birinci Türkoloji Qurultay 26 fevral - 6 mart 1926-cı ildə Bakı şəhərində keçirilmiş və türk xalqlarının dili, əlifbası, ədəbiyyatı, mədəniyyəti və tarixinin öyrənilməsi baxımından ən mühüm elmi tədbirlərdən biri olmuşdur. Qurultayda SSRİ-dən və digər ölkələrdən çoxlu görkəmli türkoloqlar iştirak etmişdir. Qurultay iştirakçıları cəmi 131 nümayəndədən ibarət olmuşdur. Bunlara elm adamları, siyasətçilər, təhsil işçiləri və yazıçılar aid idi. Türk dilləri üçün latın qrafikalı əlifbaya keçid məsələsinin müzakirəsi, Türk dillərinin elmi təsnifatı və öyrənilməsi istiqamətində mühüm qərarlar qəbul edilməsi, Türk xalqları arasında elmi və mədəni əməkdaşlığın əsasının qoyulması kimi məsələlər Birinci Türkoloji Qurultayın keçirilməsinin əhəmiyyətini sübut edir. Birinci Bakı Türkoloji Qurultayı türkologiya tarixində, Türkiyə-Rusiya münasibətlərində və Türküstan xalqlarının gələcəyində dönüş nöqtəsi oldu. İmperialist Qərb ölkələrinə qarşı mübarizənin simvolu olan Türkiyə İstiqlal Müharibəsinin Qərbə alternativ olaraq Rusiyaya doğru strategiyada dəyişiklik yaratdığını və bu strateji dəyişikliyin digər sahələrə də təsir etdiyini, nəticədə Türkiyə ilə Rusiya arasında, xüsusən də türkologiya sahəsində əməkdaşlıq mühitinin formalaşdığına səbəb olduğunu görürük. Qərbə qarşı çıxan hər iki ölkə Şərq xalqları arasında geniş əməkdaşlıq qurmağı düşünürdü və bunun "Şərq Məktəbi" adlı bir akademiyanın yaradılması ilə başlaması nəzərdə tutulurdu. Amma bu planın həyata keçirilməsinə nail olunmadı.

Zəki Vəlidi Toğan türk tarixşünaslığının müasirləşdirilməsində mühüm rol oynamışdır. Onun təşəbbüsü və təsiri ilə türk tarixinin məzmununa yeni nəfəs verən alimlər yetişmişdir. Bu baxımdan Zəki Vəlidi Toğan türk tarixçiliyinin əsas simalarından biri hesab edilir. Əgər belə olmasaydı, 1951-ci ildə İstanbulda Türkiyənin Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə keçirilən və dünyanın 524 tanınmış aliminin qatıldığı XXII Beynəlxalq Şərqşünaslar Konqresinə rəhbərlik vəzifəsi ona həvalə edilməzdi. Zəki Vəlidi Toğanın Azərbaycan və ümumən türk tarixi ilə bağlı apardığı axtarışlar, əldə etdiyi nəticələr və elmi qənaətlər olduqca əhəmiyyətlidir. Onun "Ümumtürk tarixinə giriş" əsəri yalnız bütün türk dünyası üçün deyil, Azərbaycan üçün də əsas konseptual tarix kitablarından biri hesab olunur.

Zəki Vəlidi Toğan milli mübarizə dövründə türk-osmanlı siyasətçilərinin də iştirak etdiyi bir toplantını xatırlayaraq maraqlı bir hadisəni qeyd edir. Həmin məclisdə Camal Paşa onun danışdığı türkcəyə xüsusi diqqət yetirmişdi. Camal Paşa bunun ayrıca bir şivə olub-olmadığını soruşduqda, Toğan bu dillərin xüsusiyyətlərini bildiyi üçün hamının anlaya biləcəyi bir şəkildə danışdığını bildirmişdi. 1925-ci ildə Zəki Vəlidi Toğan İstanbul Darülfünunun Türkiyyat İnstitutunda ilk mühazirəsini oxumuşdur. O xatırlayır ki, həmin dövrdə Türkiyə türkcəsini kifayət qədər yaxşı bilməsə də, dinləyicilər onu diqqətlə dinləmiş və çoxsaylı suallar vermişdilər. Zəki Vəlidinin ümumtürkçü mövqeyi bəzən türk dilləri arasındakı təbii fərqlənmə prosesini tam qəbul etməsinə mane olurdu. Lakin zaman göstərdi ki, türk xalqları və onların dilləri artıq müstəqil inkişaf yoluna qədəm qoymuşdular. Buna görə də o, səyahət etdiyi yerlərdə ümumi "türk" anlayışı ilə deyil, ayrı-ayrı xalqlar – başqırdlar, tatarlar, qazaxlar, özbəklər, türkmənlər, Azərbaycan türkləri və Türkiyə türkləri ilə qarşılaşırdı. Bu xalqların hər birinin dili, ədəbiyyatı və tarixi artıq özünəməxsus şəkildə formalaşmışdı.

1944-cü ildə Turançılıq hərəkatında iştirak ittihamı ilə həbs edilmiş, təxminən on beş ay həbsdə qalmışdır. 1947-ci ildə bəraət almış, 1948-ci ildə universitetdəki vəzifəsinə qayıtmışdır. 1951-ci ildə İstanbulda keçirilən XXII Şərqşünaslar Konqresinə sədrlik etmişdir. 1953-cü ildə İslam Tədqiqatları İnstitutunun yenidən açılmasına nail olmuş və ilk direktoru olmuşdur. 1970-ci ilə qədər İstanbul Universitetində fəaliyyət göstərmiş, 26 iyul 1970-ci ildə vəfat etmiş və Qaracaəhməd qəbiristanlığında dəfn edilmişdir.

Beləliklə, Zəki Vəlidi Toğanın elmi irsi türk tarixinin, mədəniyyətinin və dilinin öyrənilməsində mühüm rol oynamışdır. Onun apardığı tədqiqatlar və irəli sürdüyü elmi fikirlər bu gün də türkologiya sahəsində aparılan araşdırmalar üçün əhəmiyyətli mənbə və metodoloji əsas kimi qiymətləndirilir. Bu baxımdan, Zəki Vəlidi Toğan türk dünyasının elmi və mədəni irsində xüsusi yer tutan görkəmli alimlərdən biri hesab olunur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Toğan Z.V. (1981). Bugünkü Türküstan və Yaxın Keçmişi. İstanbul: Enderun Kitabevi.

Toğan Z.V. (2019). Xatirələr. Ankara: Diyanet vakfı yayınları.

Toğan Z.V. (1981). Ümumi Türk Tarixinə Giriş. İstanbul: Enderun Kitabevi.

Turan A. Zəki Vəlidi Toğan mifi.
https://edebiyyatqazeti.az/news/muzakire/4959-zeki-velidi-togan-mifi [istinad tarixi: 17.12.2019]

Quliyev V. Zəki Vəlidi Toğan, Əlimərdan bəy Topçubaşi və Məhəmməd Əmin Rəsulzadə "üçbucağı" - Məhəmməd Əmin Rəsulzadə-140.
https://525.az/news/249992-zeki-velidi-togan-elimerdan-bey-topcubasi-ve-mehemmed-emin-resulzade-ucbucagi-mehemmed-emin-resulzade-140 [istinad tarixi: 22.01.24]

THE LIFE, SCIENTIFIC ACTIVITIES AND INFLUENCE OF ZAKI VALIDI TOGAN ON THE SCIENCE OF TURKOLOGY

Narmin Gasimova

The article discusses the life, scientific activities, and contributions of the prominent Turkologist and historian Zaki Validi Togan to the science of Turkology. The innovations he brought to the study of the history of the Turkic peoples in terms of source studies and methodology are particularly emphasized. The scientist studied Turkic history not based on legends, but mainly on original sources written in Arabic, Persian and Turkic languages, and systematically presented the political and cultural history of the Central Asian Turks. During his scientific travels to Central Asia, Togan discovered numerous manuscripts, especially the manuscript of the famous travelogue of Ahmad ibn Fadlan, which provided the scientific world with an important source for Turkish historiography. The article also provides information about Togan's political activities, his role in the Bashkir national movement and his initiative in the creation of the Turkestan National Union. His struggle against the Soviet regime, his subsequent emigration to Turkey and his continued scientific activities there are also extensively explained. The scholar's pedagogical and organizational activities in the development of Turkology, his teaching at universities and the formation of a scientific school are also mentioned. At the same time, information is provided about the importance of the First Turkological Congress, in which Zaki Validi Togan also participated, other well-known scholars who participated in the congress and the decisions made. This congress is evaluated as an important event in terms of the study of Turkic languages, alphabet issues and the development of scientific cooperation between Turkic peoples. As a result, Zaki Validi Togan is presented as one of the prominent scholars who played an important role in the formation of Turkish historiography and the science of Turkology.

Keywords: *Zaki Validi Togan, First Turkological Congress, Turkology, history of Turkic peoples, Latin alphabet, Turkestan*

MÜASİR DİLÇİLİKDƏ SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ TƏTBİQİ VƏ PROBLEMLƏRİ

Nigar Nağıyeva
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
Elmi işçi
nagiyevanigar8@gmail.com
https://orcid.org/0009-0002-8457-0272

Süni intellektin dünya dilçiliyində istifadəsi son illərdə sürətlə yayılmış və bu sahədə yeni imkanlar yaratmışdır. Xüsusilə mətn emalı, avtomatik tərcümə, nitqin tanınması və semantik analiz kimi istiqamətlərdə süni intellekt alqoritmləri mühüm rol oynayır. Bu texnologiyalar böyük həcmli dil məlumatlarının daha sürətli və dəqiq işlənməsinə şərait yaradır. Bununla belə, süni intellektin dilçilikdə tətbiqi bir sıra problemlərlə də müşayiət olunur. Əsas çətinliklərdən biri kontekstin düzgün anlaşılması, mədəni və praqmatik xüsusiyyətlərin nəzərə alınmaması, həmçinin dilin çoxmənalılığıdır. Bundan əlavə, alqoritmlərin qərəzli məlumatlar üzərində öyrədilməsi nəticələrin obyektivliyinə təsir göstərə bilər. Bu səbəbdən süni intellektin dilçilikdə effektiv istifadəsi üçün həm texniki, həm də etik məsələlərin kompleks şəkildə həlli vacib məsələdir.

Açar sözlər: süni intellekt, dilçilik, neyron şəbəkə, təbii dilin emalı, təhlil.

Giriş

Süni intellekt texnologiyalarının inkişafı XXI əsrin ən mühüm nailiyyətlərindən biri sayılır. Təbii dilin emalı sahəsində mövcud neyron şəbəkə modelləri müxtəlif çətinlik səviyyəsində olan mətnləri təhlil edə bilir. Bu sistemlər həm gündəlik ünsiyyətdə, həm də elmi fəaliyyətdə istifadə olunur.

Bəs süni intellekt tərəfindən yaradılmış mətnləri dilçilik elminin uğuru, yoxsa dil qanunlarının riyazi modelləşməsinin nəticəsi kimi qəbul etmək olar. Ənənəvi olaraq dilçilik dil savadlılığı məhz insana məxsus funksiya hesab edir. Bu uzun onun illərin nəticəsində əldə etdiyi və mükəmməlləşdirdiyi dil redaktorudur. Neyron şəbəkələrə məxsus dil intuisiyası dilin, təfəkkürün və ünsiyyətin təbiətini əhatə etdiyi üçün həm dilçilər, həm də süni intellekt mütəxəssisləri üçün böyük maraq kəsb edir.

İnsanın koqnitiv funksiyalarının imitasiyası üçün yaradılmış geniş spektr metodları əhatə edən bir sahə olan süni intellekt linqvistik araşdırmalarında bir sıra yeniliklərin həyata keçirilməsində aparıcı qüvvəyə çevrilmişdir. Bu cür vasitələrdən təbii dilin emalı və maşın öyrənməsini xüsusilə qeyd etmək olar. Onların köməyi ilə alimlər dili daha dəqiq və effektiv şəkildə təhlil edə bilirlər.

Süni intellekt termini ilk dəfə olaraq 1956-cı ildə Con Makkarti tərəfindən istifadə olunmuşdur (https://az.wikipedia.org/wiki/Con_Makkarti).

Günümüzdə süni intellektin dilçiliyin kompüter dilçiliyi və koqnitiv dilçilik kimi sahələrinə təsiri böyük əhəmiyyət daşıyır. Kompüter dilçiliyinə aid ilk araşdırmalar müəyyən qaydalar çərçivəsində dilin emalı sistemlərinin yaradılmasına yönəlmişdir. Lakin neyron şəbəkəsinin inkişafı ilə maşın öyrənməsinin yeni mərhələsi başlamışdır. Müasir araşdırmalar onu göstərir ki, tərcümə və mətnyaratma zamanı süni intellekt modelləri qəliz linqvistik strukturların imitasiyasında güclü potensial nümayiş etdirir (Mahmudov, 2013). Dillərin öyrənilməsi sahəsində süni intellekt bazalı Duolingo və Rosetta Stone adlı tədbiqlər dilöyrətmə və tədrisində aparıcı yer tutaraq bir növ inqilabçı şəklində çıxış edir, tələbələrin fərdi xüsusiyyətlərinə uyğunlaşır, bununla da dil öyrənmədə mükəmməl nəticələrin əldə edilməsində köməkçi vasitə rolunu oynayır.

Bundan başqa süni intellekt vasitələri çoxdilli mühitdə də yardımcı kimi çıxış edir. Bu zaman onlar müəyyən bir dilin daşıyıcısı olmayanlara mətni ana dilinə çevirməkdə köməkçi olur (Huang, 2021: s. 46). Beləliklə, süni intellekt və dilçilik arasında qarşılıqlı əlaqə həyata keçirilir. Süni intellekt modelləri irihəcmli linqvistik məlumat əsasında qurulursa, linqvistik nəzəriyyə də süni intellekt alqoritmlərinin mükəmməlləşməsi üçün münbit zəmin yaradır. Bu cür qarşılıqlı əlaqə dilçiliyin sintaksis, semantika, fonetika, sosiolinqvistika kimi sahələrində müəyyən yeniliklərə gətirib çıxarmışlar. Süni intellektin

istifadə olunduğu konkret sahələrə ekspert sistemləri, təbii dil, dil tanınması və maşın görməsi aiddir. Süni intellekt özündə elm, nəzəriyyə və metodlar toplusunu ehtiva edən insanın koqnitiv bacarıqlarının imitasiyasını yerinə yetirməyə yönəlmiş bir sahədir. Ümidverici nailiyyətlərə baxmayaraq, süni intellektin dilçilikdə istifadə olunması müəyyən problemlərlə də müşaiyət olunur. Bu cür problemlər sırasında süni intellektin qərar qəbuletmə proseslərinin qeyri-şəffalığını və linqvistik nüansların qeyri-düzgün interpretasiyasını qeyd etmək olar.

Süni intellekt təbii dilin emalı, kompüter dilçiliyi və dil tədrisi kimi dilçilik sahələrində mühüm yeniliklər əldə etmişdir. Təbii dilin emalı sahəsi hələ 1950-ci illərdə yaranmış, kompüter və insan dilinin qarşılıqlı əlaqəsinə yönəlmişdir. Bu prosesdə maşın insan dilini başa düşərək onu təhlil edir və kontekstə uyğun cavab reaksiyalar verir (Mahmudov, 2002). Təbii dilin emalı linqvistik verilənlərdən məlumatın alınması və təhlili üçün dilin strukturu və mənasını öyrənən kompüter dilçiliyini maşın öyrənməsi metodları ilə birləşdirir. Təbii dilin emalının dilçilik elmi ilə kəsişməsi onun sintaksis, semantika və praqmatika kimi dilçilik sahələrinin nəzəriyyə və prinsiplərindən istifadəsinə əsaslanır (Chowdhary 2020, s. 605). Təbii dilin emalının dilçilik üçün əhəmiyyəti ondadır ki, onun məqsədi insan dilinin maşın təhlili üçün modelləşdirilməsidir. Bunun nəticəsində insan və kompüter ünsiyyətinin keyfiyyət dərəcəsi yüksəlir.

Beləliklə, təbii dilin emalı insan dili və maşının anlaması arasındakı məsafəni dəf edərək ünsiyyət keyfiyyətini artırır, proseslərin avtomatlaşdırılmasını təmin edir və linqvistik verilənlərlə dəyərli məlumatların toplanmasını mümkün edir. Texnologiyaların inkişafı ilə onun həm dilçiliyə, həm də digər sahələrə təsiri get-gedə artırmağa başlayır. Süni intellekt əsaslı tərcümə texnologiyaları ünsiyyətdə inqilab həyata keçirmişdir (Hidalgo-Ternero, 2020, s. 158). Bu sistemlər mətnin tərcüməsi üçün neyron şəbəkə və qabaqcıl alqoritmlərdən istifadə edir. Neyron maşın tərcüməsi sözləri ayrı-ayrılıqda deyil, tam bir cümləni təhlil edir, bu da kontekstə uyğun daha dəqiq və ardıcıl tərcüməni həyata keçirir. Google Translate и DeepL kimi iri platformalar bu texnologiyalardan istifadə edərək bir çox dillərə sinxron tərcümə təmin edir (Pym, Hao, 2024, p. 85).

Süni intellekt əsaslı tərcümə texnologiyaları sahəsində əldə olunan nailiyyətlər dillərarası ünsiyyət üçün mühüm əhəmiyyət daşıyır. Onların köməyi ilə dil baryerləri aradan qalxaraq müxtəlif dillərə sahib insanların ümumi dil tapmasına yardımçı olur (Mahmudov, 2024). Bunun nəticəsi kimi mədəniyyət mübadiləsi, biznes, tədris və turizm kimi bir sıra sahələrdə əməkdaşlığın həyata keçirilməsini qeyd etmək olar. Bundan əlavə, bu instrumentlər müxtəlif dillərlə tanışlığı təmin edərək ani tərcümə sayəsində dil öyrənmədə də kömək edir. Lakin onların inkişafı bir sıra problemlər də üzə çıxarır. Belə problemlərə tərcüməçi peşəsinin gələcək aqibətini aid etmək olar.

Süni intellekt əsaslı dil modellərində qərəzlilik məsələsi onların dil müxtəlifliyinə təsirini anlamaq üçün çox vacibdir. Süni intellekt sistemləri cəmiyyətdəki bərabərsizlikləri əks etdirən qərəzlilikləri ehtiva edə biləcək böyük məlumat bazaları üzərində təlim keçir. Nəticədə bu modellər stereotipləri saxlayaraq az təmsil olunan dilləri və ləhcələri kənarlaşdıra bilər (Binns, 2020, p.150). Süni intellektdə qərəzliliyin aradan qaldırılması, dil emalı texnologiyalarının ədalətliliyini və inklüzivliyini təmin etmək üçün olduqca vacib məsələdir. Süni intellekt texnologiyaları yox olmaq təhlükəsi altında olan dillərin sənədləşdirilməsi və qorunub saxlanılması üçün mühüm rol oynayır. Maşın öyrənməsi və təbii dilin emalından istifadə edərək alimlər yox olma təhlükəsində olan dillər üçün müəyyən resurslar yaradır və bu qəbildən olan dillərin dirçəlişi üçün səy göstərirlər.

Xüsusilə təbii dilin emalı sahəsində süni intellekt tədqiqatları dil və idrak nəzəriyyələri üçün yeni perspektivlər açır. Məsələn, böyük həcmdə olan mətnləri təhlil edən modellər dilin istifadə qanunauyğunluqlarını və onun qavranılması və yaranması ilə əlaqəli idrak proseslərini anlamağa imkan verir. Bu amil insan idrakı ilə dil quruluşu arasındakı əlaqəni anlamaq üçün mühümdür və idrak modellərinin süni intellekt sistemlərinin işinə təsir göstərə bilmənin bir nümunəsidir (Pulman 2019: 203).

Dil intuisiyası müasir dilçiliyin mühüm anlayışları sırasındadır. Bu anlayış altında dil daşıyıcısının dil konstruksiyalarının düzgünlüyünü və təbiiliyini qiymətləndirməsi üçün istifadə olunur. Hətta dilçilik təhsili olmayan hər hansı bir insan cümlənin qrammatik olaraq düzgünlüyünü, işləndiyi situasi-

yada yerini və normalara uyğunluğunu müəyyən edə bilir, çünki insan uşaqlıqdan danışdığı dilin söz tərkibini, ona xas olan müəyyən qrammatik qaydaları və müxtəlif kommunikativ situasiyalarında ondan istifadənin xüsusiyyətlərini öyrənir (Добров, s. 165). Dil intuisiyası mədəni kontekstlə də sıx əlaqəlidir. Sözün və ifadənin mənası ünsiyyət situasiyasından, danışanın emosional vəziyyəti və sosial faktorlardan asılı olaraq dəyişə bilər. Məhz buna görə də insan nitqi variativlik, elastiklik və qəliz məna çalarlarının ötürülməsi kimi xüsusiyyətlərə malikdir (Нейросетевые технологии, s. 70). Müasir təbii dil emalı neyron şəbəkə modelləri milyon sayda cümlələri ehtiva edən irihəcmli mətn korpusları əsasında öyrənilir. Öyrənmə prosesində sistem sözləri, ifadələr və cümlələr arasında statistik qanunauyğunluqları müəyyən edir. Neyron şəbəkə mənti təhlil edərkən onu insan kimi anlamır. Bunun əvəzinə alqoritm hər hansı sözün müəyyən kontekstdə işlənmə mümkünlüyünü aydınlaşdırır və daha uyğun variantı seçir. Onlar məqalə, esse, hətta bədii mətn yarada bilir, müxtəlif yazı üslubunu imitasiya edir, mətnin axıcılığını və normalara uyğunluğunu təmin edir.

Problemin daha yaxşı üzə çıxması üçün insan və süni intellekt tərəfindən yaradılan mətnləri müqayisə etmək olar.

Bu məsələdə birinci kriteri kimi sintaktik müxtəlifliyi qeyd etmək olar. Neyron şəbəkə də qəliz strukturlar yarada bilir, lakin bu mətnlərdə müəyyən modellərin təkrarlaması müşayiət olunur.

İkinci kriteri leksik variativlikdir. İnsan metaforalardan, idiomlardan, və mədəni şəraitdən asılı məcazi ifadələrdən asanlıqla istifadə edə bilir. Süni intellektin bu cür elementlərdən istifadəsində qeyri-dəqiqlik və konkret kontekstdə işlənməmə müşahidə edilə bilir.

Üçüncü mühüm kriteri nitqin praqmatik aspektidir. İnsan ünsiyyəti müəyyən kommunikativ məqsədə sahibdir və emosional rənglərə bürünmüşdür (Шенгелбай, s. 142). Süni intellekt isə əksinə şəxsi məqsədlərə sahib deyil və konkret öyrədilmiş dil modelləri əsasında cavablar hazırlayır.

Araşdırılan problemin maraqlı aspekti neyron şəbəkə texnologiyalarının insanın yazı üslubuna təsir etməsidir. İnsanlar qəliz metaforik ifadələrdən yan keçərək standart ifadələr vasitəsilə nitqin daha anlaşıqlı olmasına çalışırlar.

Əsas məsələ neyron şəbəkələrin düzgün dil konstruksiyalarının seçməsini dil intuisiyasının əvəzi kimi hesab edilməsindədir. Bir çox araşdırmaçılar hesab edirlər ki, neyron şəbəkələr insana malik intuisiyaya sahib ola bilməz. Bu şəbəkələrin işi dilin təfəkkülü qavranılması ilə deyil, verilənlərin statistik təhlili əsasında baş verir. Neyron şəbəkə insanın dil intuisiyasının formalaşmasında mühüm rol oynayan şəxsi təcrübə, emosiya və ya mədəni kontekstdə malik deyil. Bu dil intuisiyasının imitasiyası haqqında danışmağa imkan verir. Müasir neyron şəbəkələr parametrlərə görə insanın yazdığı mətnə çox yaxın mətn yarada bilir. Lakin nəticələr göstərir ki, onların işi məhz statistik qanunauyğunluqlara əsaslanmışdır (Шенгелбай, s. 140). Yazılı nitqdə insan və süni intellekt əlaqəsi inkişaf etməyə davam edərək dilçilik, koqnitiv elmlər və rəqəmsal texnologiyalar sahəsində olan araşdırmalar üçün yeni perspektivlər yaradır. Ümumi süni intellektin və mükəmməlləşdirilmiş dil modellərinin işlənməsi ilə süni intellekt sahəsində əldə edilən gələcək nailiyyətlər linqvistik nəzəriyyəyə təsir edə bilər (Bengio, Eric, Alain, 2013, p.230). Bu cür işləmlər sintaksis, semantika və praqmatikanın yeni cür qavranılmasına gətirə bilər. Süni intellektin inkişafı nəticəsində daha geniş və kontekstual izahların təqdimatı onların mövcud linqvistik nəzəriyyələrə qarşı çıxa bilməsi və insan-maşın kontekstində dil təhlili üçün yeni bazaların yaranmasına yatırım edir. Müəlliflər ünsiyyət dinamikasının dəyişikliyində süni intellektin rolu və yerini nəzərə alaraq qəliz tərcümə landşaftını araşdırırlar. Sonrakı işləmlərdə süni intellekt və tərcümə arasında qəliz əlaqə qurularaq müəyyən aspektlər ortaya qoyulur (Mahmudov, 2024, s.114).

Beləliklə, süni intellekt dilin emalı, avtomatik tərcümə, nitqin tanınması tərzlərini dəyişdirərək dilçiliyə əsaslı müsbət təsir göstərir. Onun vasitəsilə irihəcmli məlumatı təhlil etmək, təhsili personallaşdırmaq və dilləri əlçatan etmək mümkündür. Süni intellekt ənənəvi dilçilik nəzəriyyələrinə qarşı çıxaraq yeni araşdırmalar üçün bir sıra imkanlar yaradır. Dilçilikdə süni intellektin gələcək istifadəsi etik standartların inkişafı və dil və təfəkkür arasında əlaqələrin dərinləşməsi ilə üzvi bir şəkildə əlaqə sayəsində mümkündür.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Mahmudov M. Mətnin formal təhlili sistemi. Bakı: Elm. – 2002. – 244 s.
2. Mahmudov M. Kompüter dilçiliyi. Bakı: Elm və təhsil. – 2013. – 356 s
3. Mahmudov M. Süni intellektin linqvistik problemləri. Bakı: Elm və təhsil. – 2024. – 376 s.
4. Bengio Y., Eric T., Alain G. Deep Generative Stochastic Networks Trainable by Backprop // Computer Science. 2013. No 2. p. 226–234.
5. Binns R. Fairness in Machine Learning: Lessons from Political Philosophy // Proceedings of the 1st Conference on Fairness, Accountability and Transparency. 2020. No 81. Pp. 149–159.
6. Chowdhary K. R. Natural Language Processing // Chowdhary K. R. Fundamentals of Artificial Intelligence. Springer India, 2020. p. 603–649.
7. Hidalgo-Ternero C. M. Google Translate vs. DeepL: Analysing Neural Machine Translation Performance under the Challenge of Phraseological Variation // Monografías de Traducción e Interpretación, 2020. Pp. 154–177.
8. Huang Y. Linguistic Accessibility and AI: Bridging Gaps in Multilingual Communication // Journal of Language and Technology. 2021. No 12 (2). p. 45–58.
9. Pulman S. Cognitive Models and Language Processing // Journal of Cognitive Science. 2019. No 20 (2). p. 199–214.
10. Pym A., Hao Y. How to Augment Language Skills: Generative AI and Machine Translation in Language Learning and Translator Training. L., 2024.
11. Добров Б. В., Лукашевич Н. В. Компьютерная лингвистика и анализ текста. - М.: Изд-во МГУ, 2016. - 296 с.
12. Нейросетевые технологии в гуманитарных исследованиях: монография. - М.: URSS, 2023. - 176 с.
13. Шенгелбай М., Алкебаева Д., Таласпаева Ж. Язык искусственного интеллекта: новые горизонты лингвистики // Вестник Кокшетауского университета им. Ш. Уалиханова. - 2025. - № 3. - с. 138-149.
14. https://az.wikipedia.org/wiki/Con_Makkarti

APPLICATION AND PROBLEMS OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES IN MODERN LINGUISTICS

Nigar Naghiyeva

The use of artificial intelligence in linguistics has expanded rapidly in recent years and has created new opportunities in this field. Artificial intelligence algorithms play an important role, especially in areas such as text processing, automatic translation, speech recognition and semantic analysis. These technologies enable faster and more accurate processing of large volumes of language data. However, the application of artificial intelligence in linguistics is also accompanied by a number of problems. One of the main difficulties is the correct understanding of the context, the lack of consideration of cultural and pragmatic features, as well as the ambiguity of the language. In addition, training algorithms on biased data can affect the objectivity of the results. Therefore, for the effective use of artificial intelligence in linguistics, it is important to comprehensively solve both technical and ethical issues.

Keywords: *artificial intelligence, linguistics, neural network, natural language processing, analysis.*

SÜNİ İNTELLEKTİN LİNQVİSTİK PROBLEMLƏRİ

Vəfa Allahverdiyeva
Bakı Slavyan Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
Dosent əvəzi
vefabsu@mail.ru
https://orcid.org/0000-0002-3429-7311

Bu məqalədə süni intellektin linqvistik problemləri araşdırılır və təbii dil emalının mürəkkəbliyinə diqqət yetirilir. Burada semantik qeyri-müəyyənlik, kontekstdən asılılıq və formal və statistik modellərin məhdudiyyətləri kimi əsas məsələlər vurğulanır. Tədqiqatda dilin sosial və idrak amillərinin təsiri altında olan dinamik, çoxqatlı bir sistem olduğu və bunun hesablama modelləşdirməsini çətinləşdirdiyi vurğulanır. Statistik metodlar və maşın öyrənmə yanaşmaları faydalı vasitələr təmin etsə də, onlar çox vaxt daha dərin mənaları və praqmatik nüansları əhatə edə bilmirlər. Buna görə də, formal, statistik və semantik təhlilləri birləşdirən inteqrasiya olunmuş yanaşmalar zəruridir. Gələcək tədqiqatların süni intellektin dili daha dəqiq və kontekstual şəkildə anlamaq qabiliyyətini artıracağı gözlənilir.

Açar sözlər: *süni intellekt, dilçilik, təbii dil emalı, korpus dilçiliyi, maşın tərcüməsi, kontekst təhlili, statistik modellər*

Giriş

Müasir dövrdə süni intellekt texnologiyalarının sürətli inkişafı elm və texnikanın demək olar ki, bütün sahələrinə təsir göstərmişdir və bu təsir xüsusilə dilçilik sahəsində daha aydın müşahidə olunur. Ənənəvi dilçilik uzun müddət əsasən nəzəri və təsviri xarakter daşısa da, kompüter texnologiyalarının inkişafı bu sahəyə yeni metodoloji yanaşmalar gətirmişdir. Nəticədə dilin öyrənilməsi prosesi daha çox empirik məlumatlara və hesablama üsullarına əsaslanmağa başlamışdır.

Süni intellektin əsas məqsədi insan təfəkküründə xas olan mürəkkəb idrak proseslərini modelləşdirmək və bu prosesləri texniki sistemlər vasitəsilə həyata keçirməkdir. Bu proseslərə düşünmə, qərarvermə, öyrənmə və ünsiyyət kimi fundamental fəaliyyətlər daxildir. Bu baxımdan dil xüsusi əhəmiyyət kəsb edir, çünki insan düşüncəsi və sosial qarşılıqlı əlaqə əsasən dil vasitəsilə reallaşır.

Lakin təbii dilin struktur və funksional mürəkkəbliyi süni intellekt sistemləri üçün ciddi problemlər yaradır. Bu problemlər yalnız texniki deyil, həm də nəzəri xarakter daşıyır və onların həlli dilçilik ilə informatika arasında sıx əməkdaşlıq tələb edir.

Süni intellekt müxtəlif elm sahələrinin – riyaziyyat, məntiq, psixologiya, neyrofiziologiya və dilçiliyin – kəsişməsində formalaşmış multidissiplinar bir sahədir. Bu sahələrin hər biri süni intellektin inkişafına özünəməxsus töhfə verir və nəticədə kompleks, çoxfunksiyalı sistemlər yaradılır. Məsələn, riyaziyyat və məntiq süni intellektin nəzəri əsaslarını formalaşdıraraq alqoritmlərin qurulmasına və qərarvermə mexanizmlərinin modelləşdirilməsinə imkan yaradır. Psixologiya insan idrak proseslərini – yaddaş, öyrənmə və qavrama kimi funksiyaları – öyrənərək bu proseslərin süni sistemlərdə təqlid edilməsinə şərait yaradır. Neyrofiziologiya isə insan beyninin işləmə prinsiplərini araşdıraraq neyron şəbəkələri kimi modellərin yaradılmasına ilham verir. Dilçilik isə dilin strukturunu, funksiyalarını və istifadəsini təhlil etməklə süni intellektin təbii dili anlama və emal etmə qabiliyyətinin inkişafına xidmət edir.

Bu sahələrin inteqrasiyası nəticəsində süni intellekt yalnız texniki problemlərin həlli ilə məhdudlaşmır, həm də insan davranışını və ünsiyyətini daha dərindən anlamağa yönəlir. Beləliklə, süni intellekt sistemləri tədricən daha adaptiv, öyrənə bilən və kontekstə həssas hala gəlir. Bununla yanaşı, müxtəlif sahələr arasında bilik mübadiləsi yeni metodların və yanaşmaların yaranmasına səbəb olur ki, bu da süni intellektin inkişafını daha da sürətləndirir.

Kompüterdə informasiya ayrı-ayrı simvolların toplusu şəklində emal edilir. İnformasiyanın verilməsi üçün tələb olunan bütün simvollar müəyyən olunmuş kodlarla – ədədlərlə işarə olunur. Hər hansı

söz kompüterə daxil edilərkən və ya rabitə xətti ilə ötürülərkən o, ayrı-ayrı hərflərinin (simvollarının) kodlarına, yəni ədədlərə çevrilir və ədədlər şəklində saxlanılır və ya ötürülür. Kompüterlərdə, eləcə də digər rəqəmsal texnologiyalarda audio, video, qrafika, şəkil və s. növ məlumatlar da analoji qaydada kodlaşdırılır, emal olunur və saxlanılır. Bu kodlar da (ədədlər) iki rəqəmin – 0 və 1 rəqəmlərinin vasitəsilə ifadə olunur (Qasımov, 2015, s. 24).

Dil bu sistemlər üçün yalnız kommunikasiya vasitəsi deyil, həm də biliklərin strukturlaşdırılması və ötürülməsi üçün əsas platformadır. İnsanlar öz təcrübələrini, biliklərini və emosiyalarını dil vasitəsilə ifadə edir və bu məlumatlar süni intellekt sistemləri tərəfindən emal olunmalıdır.

Əsas problem isə ondan ibarətdir ki, insan dili təbii, qeyri-formal və çox vaxt qeyri-dəqiq qaydalar əsasında formalaşır. Əksinə, kompüter sistemləri dəqiq və formal qaydalara əsaslanır. Bu ziddiyyət dilin avtomatik emalı prosesində ciddi çətinliklər yaradır və dilin formal modellərə çevrilməsini mürəkkəbləşdirir.

Dil çoxsəviyyəli və iyerarxik quruluşa malik mürəkkəb sistemdir. Bu sistem əsasən fonetik (səslərin öyrənilməsi), morfoloji (söz quruluşu), sintaktik (cümlə quruluşu), semantik (məna) səviyyələri əhatə edir (Vəliyeva, 1996, s. 107).

Bu səviyyələr bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir və birində baş verən dəyişiklik digər səviyyələrə də təsir göstərir. Məsələn, bir sözün sintaktik mövqeyi onun semantik interpretasiyasına birbaşa təsir edə bilər.

Süni intellekt sistemləri üçün bu səviyyələrin hamısını eyni anda və kompleks şəkildə nəzərə almaq olduqca çətindir. Əksər modellər müəyyən bir səviyyəyə fokuslanır, məsələn yalnız sintaksis və ya yalnız semantika üzərində işləyir. Bu isə dilin bütöv şəkildə anlaşılmasına mane olur.

Bundan əlavə, dil sabit deyil, daim dəyişən bir sistemdir. Yeni sözlərin yaranması, mövcud sözlərin mənalarının dəyişməsi və müxtəlif sosial faktorların təsiri dilin modelləşdirilməsini daha da çətinləşdirir.

Təbii dilin ən mühüm xüsusiyyətlərindən biri onun çoxmənalılığıdır. Eyni söz müxtəlif kontekstlərdə fərqli mənalar ifadə edə bilər və bu, semantik qeyri-müəyyənlik problemini yaradır.

Məsələn, “baş” sözü müxtəlif hallarda: insan bədəninin bir hissəsi, təşkilat rəhbəri, bir prosesin başlanğıcı kimi fərqli mənalarda işlənə bilər. Bu mənaların düzgün müəyyənləşdirilməsi yalnız sözün özünə deyil, onun daxil olduğu kontekstə əsaslanır.

Kontekst isə çoxşaxəli anlayışdır: o, yalnız cümlədaxili əlaqələri deyil, həm də mətnin ümumi məzmununu, danışanın niyyətini və hətta mədəni faktorları əhatə edir. Bundan əlavə, dil emosional və praqmatik çalarlar da daşıyır. İroniya, metafora və kinayə kimi ifadə vasitələri süni intellekt sistemləri üçün xüsusi çətinlik yaradır, çünki bu hallarda sözlərin literal mənası ilə real məna arasında fərq olur.

Müasir süni intellekt sistemlərində dilin emalı əsasən statistik və ehtimal əsaslı metodlara söykənir. Bu metodlar böyük həcmli mətn korpusları üzərində aparılan analizlərə əsaslanır və dil vahidlərinin tezlik xüsusiyyətlərini öyrənir.

Bu yanaşmaya görə, dil vahidlərinin istifadəsi təsadüfi deyil, müəyyən ehtimal paylanmasına tabedir. Tez-tez işlənən sözlər daha az informasiya daşıyır, nadir sözlər isə daha yüksək informasiya dəyərinə malik olur.

Statistik metodlar süni intellekt sistemlərinə mətnləri avtomatik analiz etməyə, növbəti sözləri proqnozlaşdırmağa, maşın tərcüməsi həyata keçirməyə imkan verir.

Lakin bu modellər çox vaxt yalnız səthi nümunələri öyrənir və dilin dərin semantik strukturlarını tam əks etdirə bilmir. Bu səbəbdən bəzi hallarda məntiqi və ya kontekstual səhvlər meydana çıxır.

Maşın tərcüməsi süni intellektin ən mühüm tətbiq sahələrindən biri hesab olunur. Bu texnologiya müxtəlif dillər arasında avtomatik tərcüməni mümkün edir və qlobal kommunikasiya üçün böyük əhəmiyyət daşıyır.

Lakin bu sahədə çoxmənalı sözlərin düzgün tərcüməsi, dillərarası sintaktik fərqlərin nəzərə alınması, mədəni və üslubi xüsusiyyətlərin qorunması kimi bir sıra problemlər mövcuddur.

Məsələn, bir dildə adi hesab olunan ifadə digər dildə qeyri-təbii və ya anlaşılmaz görünə bilər. Bu isə tərcümənin keyfiyyətinə mənfi təsir göstərir.

Bundan əlavə, təbii dil emalı sahəsində mətnin avtomatik xülasələndirilməsi, sual-cavab sistemlərinin qurulması və nitqin tanınması kimi məsələlər də aktual problemlər sırasındadır.

Maşın tərcüməsi sistemlərində süni intellekt mətnin hərtərəfli semantik təhlili tələbi ilə üzləşir. Bu isə formal təhlil qanunlarına əsaslanan sistemlərdə çətin maneə olaraq qalır. Problemin həllinə müxtəlif yanaşmalar var. Bəziləri, ümumiyyətlə, insan intellektinə yaxın bioloji assosiativ yaddaşa malik kompüterlərin yaranmasına qədər semantik təhlilin mümkünlüyünü inkar edirlər (Mahmudov, 2013, s. 105).

Süni intellekt sistemlərinin effektiv işləməsi üçün böyük həcmli və keyfiyyətli məlumat bazalarına ehtiyac vardır. Bu məqsədlə dil korpusları yaradılır və geniş şəkildə istifadə olunur.

Dil korpusları real həyatdakı mətn nümunələrindən ibarət olur və müxtəlif janrları, üslubları və mövzuları əhatə edir. Bu korpuslar statistik analiz üçün əsas baza rolunu oynayır, modellərin öyrədilməsində istifadə olunur, dilin real istifadəsini əks etdirir.

Lakin korpusların yaradılması prosesi də çətin və məsuliyyətlidir. Məlumatların balanslı seçilməsi, müxtəlifliyin təmin olunması və qərəzsizliyin qorunması mühüm şərtlərdir.

Müasir dilçilikdə geniş yayılmış fikrə görə, qrammatika dilin yaranma səbəbi deyil, onun təsvir vasitəsidir. Yəni dil təbii şəkildə formalaşır, qrammatik qaydalar isə bu sistemi izah etmək üçün sonradan yaradılır.

Bu yanaşma süni intellekt üçün mühüm nəticə doğurur: dili anlamaq üçün yalnız formal qaydalar kifayət etmir. Semantik, praqmatik və kontekstual faktorlar da nəzərə alınmalıdır.

Süni intellekt sahəsində aparılan tədqiqatlar göstərir ki, gələcəkdə bu texnologiyalar daha da inkişaf edəcək və insan dilini daha dərindən anlama qabiliyyətinə malik olacaqdır.

Xüsusilə dərin öyrənmə modellərinin təkmilləşdirilməsi, kontekst əsaslı dil modellərinin inkişafı, çoxdilli və universal sistemlərin yaradılması kimi istiqamətlər perspektivlidir.

Bununla yanaşı, etik məsələlər – məsələn, məlumatların məxfiliyi və alqoritmik qərəz – də diqqət mərkəzində saxlanmalıdır.

Aparılan təhlil göstərir ki, süni intellektin linqvistik problemləri əsasən dilin mürəkkəb, çoxqatlı və dinamik təbiəti ilə bağlıdır. Dil yalnız formal qaydalar sistemi deyil, həm də sosial, mədəni və psixoloji faktorlarla formalaşan canlı bir ünsiyyət vasitəsidir. Bu xüsusiyyətlər onun tam şəkildə modelləşdirilməsini çətinləşdirir. Dilin formal modelləşdirilməsi müəyyən hallarda effektiv nəticələr versə də, bu yanaşma çox vaxt dilin dərin semantik və praqmatik qatlarını əhatə edə bilmir. Xüsusilə semantik qeyri-müəyyənlik, yəni söz və ifadələrin kontekstdən asılı olaraq müxtəlif mənalar kəsb etməsi süni intellekt sistemləri üçün əsas çətinliklərdən biri olaraq qalır.

Statistik metodlar və ehtimal əsaslı modellər bu problemlərin qismən həllinə imkan verir və müasir təbii dil emalı sistemlərinin əsasını təşkil edir. Bu metodlar böyük həcmli mətnlər üzərində öyrənərək dilin istifadəsindəki qanunauyğunluqları müəyyən edir və müxtəlif tətbiqlərdə – məsələn, maşın tərcüməsi, mətn generasiyası və nitqin tanınması sahələrində – uğurla istifadə olunur. Lakin bu yanaşmalar çox vaxt yalnız səthi dil nümunələrini əks etdirir və mətnin dərin məzmununu, niyyətini və kontekstual incəliklərini tam şəkildə başa düşməkdə çətinlik çəkir.

Buna görə də bu sahədə kompleks və inteqrativ yanaşmaların tətbiqi zəruridir. Belə yanaşmalar formal modelləri, statistik metodları və semantik-pragmatik analiz üsullarını birləşdirərək daha dolğun və dəqiq nəticələr əldə etməyə imkan verir. Eyni zamanda, insan idrakına yaxın modellərin yaradılması, kontekstin daha geniş səviyyədə nəzərə alınması və müxtəlif dillər arasında ümumi prinsiplərin müəyyən edilməsi bu istiqamətdə mühüm əhəmiyyət kəsb edir.

Gələcək tədqiqatlar süni intellekt və dilçilik sahələrinin daha sıx inteqrasiyasına gətirib çıxaracaqdır. Bu inteqrasiya nəticəsində daha çevik, adaptiv və kontekstə həssas sistemlərin yaradılması gözlənilir. Belə sistemlər yalnız dilin strukturunu deyil, həm də onun funksional və sosial aspektlərini daha dərindən anlama qabiliyyətinə malik olacaqdır. Bu isə həm elmi tədqiqatların inkişafına, həm də

tərcümə, təhsil, kommunikasiya və informasiya texnologiyaları kimi sahələrdə yeni imkanların yaranmasına səbəb olacaqdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Qasımov V. Ə. (2015). İnformasiya axtarış üsulları və sistemləri. Dərslik. Bakı: MTN-in Maddi-texniki Təminat Baş İdarəsinin Nəşriyyat-Poliqrafiya Mərkəzi, 288 s.
2. Mahmudov M. Ə. (2013). Kompüter dilçiliyi. Bakı, Elm və təhsil, 356 s.
3. Vəliyeva K. A. (1996). Mətnin avtomatik təhlili və sintezi. Bakı, Örnək, 158 s.

LINGUISTIC PROBLEMS IN ARTIFICIAL INTELLIGENCE

Vafa Allahverdiyeva

This article examines the linguistic challenges of artificial intelligence, focusing on the complexity of natural language processing. It highlights key issues such as semantic ambiguity, context dependency, and the limitations of formal and statistical models. The study emphasizes that language is a dynamic, multi-layered system influenced by social and cognitive factors, which complicates its computational modeling. While statistical methods and machine learning approaches provide useful tools, they often fail to capture deeper meanings and pragmatic nuances. Therefore, integrated approaches combining formal, statistical, and semantic analyses are necessary. Future research is expected to enhance AI's ability to understand language more accurately and contextually.

Keywords: *artificial intelligence, linguistics, natural language processing, corpus linguistics, machine translation, context analysis, statistical models*

EYE/GÖZ KOMPONENTLİ SOMATİK FRAZEOLOGİZMLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ (İNGİLİS VƏ AZƏRBAYCAN DİLLLƏRİNİN MATERİALLARI ƏSASINDA)

Rüzgar Camal
AMEA-nın Naxçıvan Bölməsi
Kiçik elmi işçi
camalruzgar@gmail.com
https://orcid.org/0009-0004-3264-342X

Bu məqalədə göz komponentli somatik frazeologizmlərin semantik xüsusiyyətləri müxtəlif mədəniyyətlərdə müqayisəli baxımdan təhlil olunur. Tədqiqatda gözün insan orqanizmi üçün əhəmiyyəti və onun frazeoloji vahidlərdə simvolik funksiyası araşdırılır. Göz komponentli somatik frazeologizmlər əsasən müsbət semantik çalarlarla xarakterizə olunur və müxtəlif emosional, psixoloji və fiziki vəziyyətləri ifadə edir. Məqalədə bu tip frazeologizmlər tematik qruplar üzrə təsnif edilir və hər bir qrupa uyğun nümunələr ingilis və Azərbaycan dillərinin materialları əsasında müqayisəli şəkildə təhlil olunur. Eyni zamanda göstərilir ki, bu frazeologizmlər insanın görmə funksiyası ilə bağlı olaraq formalaşır və metaforikləşmə yolu ilə dilə daxil olur. Həm Qərb mədəniyyəti, həm də Türk dillərində göz komponentli somatik frazeologizmlərin semantik zənginliyi və onların dilin leksik-frazeoloji sistemində mühüm yer tutduğu faktı təsdiqini tapır.

Açar sözlər: *Somatik frazeologiya, göz, frazeoloji vahidlər, semantik təhlil, metaforikləşmə*

Giriş

Orqan kimi gözün funksiyası, insanın həyatındakı rolu və önəmi yəqin ki, hamımıza məlumdur. Somatik frazeologiyanın komponenti kimi göz funksiyasına uyğun olaraq görmə rəmzidir. Bu səbəbdən də eye\göz komponentli somatik frazeologizmlərdə mənfi semantikaya nəzərən müsbət semantika ağırlıqlı mövqedə dayanır. Merve Demirbaş özünün "Türkmen türkçesinde somatik deyimler" adlı məqaləsində gözün orqan kimi önəmini vurğulayaraq qeyd edir ki, Göz bədənin əsas və ən vacib orqanlarından biridir. Buna görə də istər Türkiyə türkcəsində, istərsə də Türkmən türkcəsində "göz" somatizmi ilə əmələ gələn frazeologizmlərin sayı kifayət qədər çoxdur. Hətta somatic frazeologizmlər içərisində ən çoxu göz komponentli somatik frazeologizmlərdir. Bu günə qədər aparılan araşdırmalarda "göz" somatizminin bəyənmə, sevgi, dəyər vermək, xoşbəxtlik, imrənmək, qibtə etmək, hörmət, cəsarət, qoruma, həssaslıq kimi duyğu və vəziyyətləri ifadə etdiyi müəyyən edilmişdir (Demirbaş, 2022, s. 11). Onu da qeyd edək ki, eye\göz komponentli somatik frazeologizmlərdə məna baxımından jest semantikasına əsaslanan frazeologizmlər azsaylıdır. Bu isə olduqca təbii haldır. Çünki göz hərəki orqan deyil, müəyyən mənada passiv orqandır, görmək və baxmaq isə gözün funksiyalarıdır, şübhəsiz eye\göz somasının komponentliyi ilə yaranmış frazeologizmlər də gözün funksiyası olan görmək və baxmağın metaforikləşməsi hesabına reallaşacaqdır.

Eye/ Göz komponentli somatik frazeoloji birləşmələr.

Close (shut) one's eyes to smth. Bir şeyə göz yummaq/ barmaqarası baxmaq [Hacıyeva, 2005 ,s.26]. Verilmiş somatik frazeologizm görmə qabiliyyətini bildirən somatik frazeologizmlərdəndir. Hər hansısa hadisəni görməzdən gəlmək, psixoloji olaraq ağır reyaksiya verməkdənsə, heç nə olmamış kimi davranmaq mənasındadır. *"Ya bütün ömrüm boyu Murtuz Balayeviçin atmacalarına **göz yummaq**, Dadaşa yaranmaq, Mürşüdün şitliyinə gülmək? Hə?"* (Anar, 2004, s. 136). Deyilənlər öz əksini nümunədə də tapmışdır. **With open eye- şüurlu surətdə, açıq gözlə** (Hacıyeva, 2005, s. 33). Yuxarıda verilmiş ifadələr isə görmə qabiliyyətini qiymətləndirmə xüsusiyyətini bildirən somatik frazeologizmlərdir. İngilis və Azərbaycan dillərində hərfi tərcümələrinin də üst-üstə düşdüyü bu somatik cütlük oxşar semantikanı bölüşür. Bunu hər iki dilin materialları əsasında görmək mümkündür: "*Kişinin yaxasını heç zaman öz əlindən buraxma!.. Beynini ye, qoy **gözü açılmasın**! Özü də öz üst-başını daş-qaşını düzəlt!..*" (Rəhimov, 2005, s. 146). Azərbaycan dilindən verilmiş nümunədə bəhs etdiyimiz somatik frazeologizmin inkar variantını görürük. Həm təsdiq, həm də inkar forması dilimizdə işləkdir.

Hər iki dildə ifadə məcazi mənalıdır, həqiqəti görmək, yaxud da əksini ehtiva edir. Görmə fəaliyyətinin məkan mənası bildirməsi ilə bağlı somatik frazeologizmlərə isə **look with another eye upon smth. - bir şeyə başqa gözlə baxmaq** (Hacıyeva, 2005, s.29) misal ola bilər. Yenə hər iki dildəki qarşılığın oxşarlığını müşahidə edirik. Verilmiş frazeologizmlərdə eyni varlığa müxtəlif cür yanaşmaq ehtiva olunur. Başqa göz dedikdə, fərqli baxış bucağı nəzərdə tutulur. Konkret mətnlərə müraciət etsək bunu daha aydın görə bilərik: "*Tükəzban xalanın Zeynəbdən də xoşu gəlirdi. Amma nədənsə uşaqlıqdan yanında böyümüş bu qıza başqa gözlə baxa bilmirdi...*" (Şıxlı, 2005, s. 123). Deyilənlər nümunələrdə təsdiqini tapır. **Cast an evil eye (on) gözə gətirmək; bəd nəzərlərlə baxmaq** (Hacıyeva, 2005, s. 26) frazeologizmləri isə onuncu - Adət-ənənə,dini ayinlər, inancları bildirmək üçün işlədilən somatik frazeologizmlər qrupuna daxildir. Dilimizdə **gözü dəymək** alternativ variantina daha çox rast gəlinir. N.Seyidəliyevin "Frazeologiya lüğəti"ndə də göstərildiyi kimi, *"göz dəymək baxışından ziyan, zərər çəkmək"* anlamındadır. İngilis dilində də eyni mənanı ifadə edir. Bu isə bədnəzər anlayışının universallığı ilə izah olunur. Belə ki, C.Abdullayeva bununla bağlı yazır ki, bu ifadənin mənbəyi insanların qədim batil inanclarına dayanır. İnsanlar düşünürdülər ki, kimsə onlara sadəcə baxaraq ziyan verə bilər. Bu isə onunla bağlıdır ki, kimsə öz mənfi enerjisi ilə insanın aurasına neqativ enerji yükləyə bilər. Müasir dövrdə isə bu ifadə obrazlılıq yaratmaq və ya eyham vurmaq üçün istifadə olunur. [Abdullayeva, 2018, s.61-62]. Nümunələrə nəzər yetirsək: *"Helen gave his cat the **evil eye**, hoping it would stay out of her garden."* (Abdullayeva, 2018, s. 62), Azərbaycan dilində isə, *"Deməli, xalam qorxur ki, mənə **göz dəysin**. Onun üçün Seyid Həsən ağaya dua yazdırıb gətirib. Duanı xalam istədi şapkama tiksin."* (Çəmənzəminli, 2005, s. 40). Nümunələrdən də göründüyü kimi göz dəymək ifadəsi İngilis və Azərbaycan dillərində eyni semantik səciyyəni daşıyaraq mövcuddur. Bu isə yuxarıda bəhs olunan (bəd nəzər) inancın bir çox mədəniyyətlərdə, o cümlədən, Azərbaycan və İngilis mədəniyyətlərindəki univerlallığı ilə bağlıdır.

Nəticə

Somatik frazeologizmlər komponentlərindən biri insanın bədən üzvünü bildirən söz olub, ayrılıqda lüğəvi mənalarını itirmiş, birlikdə yeni məcazi məna ifadə edən, sözə ekvivalent olan birləşmələrdir. Hər iki dildə rast gəlinən somatik frazeologizmlərin tarixi olduqca qədimdir. Bu qədimilik isə onun göstəricisidir ki, insanlar öz metoforikləşmə potensialını reallaşdırarkən bədən üzvlərindən və onların anlamlarının metoforikləşməsindən geniş şəkildə istifadə etmişlər. Eyni zamanda somatik frazeologizmlər insanın keçirdiyi hissləri, emosional durumunu, bu və ya digər psixolojik gərginliyini dilə gətirmək, detallı izah etmək baxımından ən yararlı vasitədir. İnsanların öz hiss və emosiyalarını ifadə etmək üçün bədən üzvlərini bildirən sözlərə, dolayı yolla, bədən üzvələrinə müraciət etməsi onunla bağlıdır ki, insanlar milli, dini, sosial göstəricilərindən asılı olmayaraq eyni psixoloji durumlarda oxşar reaksiyalar verirlər. Eyni zamanda, nəyisə ifadə etmək üçün özlərinə ən yaxın vasitəni seçmələri də təbii haldır. Eye\ göz komponentli somatik frazeologizmlərin ingilis və Azərbaycan dillərinin materialları əsasında müqayisəli təhlili göstərir ki, gözün görmə orqanı olmağı ilə bağlı olaraq, belə ifadələrdə sevgi, dəyər, görmək prosesi ilə bağlı mənalar müşahidə olunur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullayeva, C. (2018). Müasir ingilis dilində emosiyalı frazeologizmlərin semantik-sintaktik təhlili. Bakı.
2. Anar. (2004). Seçilmiş əsərləri. Lider nəşriyyatı.
3. Çəmənzəminli, Y. V. (2005). Əsərləri (Cild 1). Avrasiya Press.
4. Demirbaş, M. (2022). Türkmen Türkçesinde somatik deyimler. Uluslararası Türk lehçe araştırmaları dergisi, 6 (1), 167–192.
5. Dickens, C. (1868). Martin Chuzzlewit.
6. Galsworthy, J. (2004). The man of property.

7. Hacıyeva, Ə. (2004). İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin struktur-semantik xüsusiyyətləri. Nurlan.
8. Hacıyeva, Ə. (2005). İngiliscə-Azərbaycanca və Azərbaycanca-İngiliscə somatik frazeoloji birləşmələr lüğəti. Nurlan.
9. Rəhimov, S. (2005). Seçilmiş əsərləri (Cild 1). Şərq-Qərb.
10. Şıxlı, İ. (2005). Seçilmiş əsərləri (Cild 1). Şərq-Qərb.

COMPARATIVE ANALYSIS OF SOMATIC PHRASEOLOGISMS WITH THE EYE COMPONENT (BASED ON MATERIALS FROM ENGLISH AND AZERBAIJAN LANGUAGES)

Ruzgar Jamal

This article provides a comparative analysis of the semantic features of somatic phraseological units containing the component "eye" across different cultures. The study examines the significance of the eye in the human organism and its symbolic function within phraseological units. Somatic phraseological units with the "eye" component are predominantly characterized by positive semantic connotations and express various emotional, psychological, and physical states. In this article, these phraseological units are classified into thematic groups, and representative examples from both English and Azerbaijani languages are analyzed comparatively. It is also demonstrated that these units are formed based on the human visual function and enter the language through the process of metaphorization. The study confirms the semantic richness of eye-component somatic phraseological units in both Eastern and Western cultures and highlights their important role within the lexical-phraseological system of language.

Keywords: *Somatic phraseology, eye, phraseological units, semantic analysis, metaphorization*

BÖLMƏ 2

TÜRKOLOJİ FOLKLORŞÜNASLIQ VƏ TÜRK XALQLARININ ORTAQ ƏDƏBİ MƏDƏNİ DƏYƏRLƏRİ

SOVET DÖVRÜ AZƏRBAYCAN DRAMATURGİYASINDA MİLLİ YADDAŞ VƏ TÜRKOLOJİ TƏFƏKKÜRÜN POETİKASI

Şəfa Əliyeva
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Aparıcı elmi işçi
shafa.aliyeva89@gmail.com
https://orcid.org/0009-0004-7483-9033

Sovet dövrü (1920-1991) Azərbaycan dramaturgiyası güclü ideoloji təzyiq və sosialist realizminin sərt çərçivəsi daxilində inkişaf etsə də, milli yaddaşın və türkoloji təfəkkürün poetikasını simvolik, tarixi və folklor vasitələri ilə qoruyub saxlaya bilmişdir. Milli yaddaş xalqın tarixi keçmişi, folklor-mifoloji irsi və kollektiv mənəvi dəyərlərini əks etdirən mədəni şüur kimi, türkoloji təfəkkür isə Azərbaycanın türk dünyasının ayrılmaz hissəsi olması, dil-mədəni bağlılıq və ortaq türk yaddaşı ideyası kimi başa düşülür.

Tədqiqat Hüseyn Cavid, Cəfər Cabbarlı və Bəxtiyar Vahabzadə kimi dramaturqların yaradıcılığını təhlil edir. Cavidin romantik faciələri (Topal Teymur, Peyğəmbər), Cabbarlının sosial dramları və Vahabzadənin lirik-psixoloji pyesləri sovet ideologiyası ilə milli ruhun mürəkkəb sintezini göstərir. Metafora, tarixi reminissensiya, folklor motivləri və fəlsəfi monoloq kimi poetik vasitələr vasitəsilə dramaturgiya sadəcə bədii janr deyil, həm də mədəni müqavimət və milli yaddaşın qorunması vasitəsinə çevrilmişdir.

Açar sözlər: *Sovet Azərbaycan dramaturgiyası, milli yaddaş, türkoloji təfəkkür, poetika, mədəni müqavimət, sosialist realizmi.*

Giriş

Sovet dövrü Azərbaycan dramaturgiyası ideoloji təzyiq və senzura şəraitində inkişaf etsə də, milli yaddaşın və türkoloji təfəkkürün poetikasını simvolik, tarixi və psixoloji səviyyələrdə qoruyub saxlaya bilmişdir. Burada milli yaddaş xalqın tarixi keçmişi, folklor-mifoloji irsi, kollektiv şüuru və mənəvi dəyərlərini əks etdirən mədəni mexanizm kimi başa düşülür. Türkoloji təfəkkür isə Azərbaycanı türk dünyasının ayrılmaz parçası kimi dərk etmə, dil-mədəni bağlılıq, ortaq türk mənsubiyyəti və vahid tarixi yaddaş ideyasını ifadə edir. Bu iki element dramaturgiyada sosialist realizminin qəlibləri içərisində gizli və ya yarı-açıq şəkildə poetik vasitələrlə (simvol, metafora, mənzum forma, folklor motivləri, tarixi süjetlər və daxili monoloqlar) birləşərək mürəkkəb bədii sintez yaratmışdır.

Sovet hakimiyyətinin ilk illərindən etibarən dramaturgiya maarifçilik və tənqidi realizm ənənələrindən qidalanaraq romantizmə və sosialist realizminə doğru mürəkkəb keçid dövrünü yaşamışdır. Bu keçid prosesi heç də hamar və ağrısız olmamışdır. Bir tərəfdən Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov və Əbdürəhim bəy Haqverdiyev kimi sənətkarların yaratdığı maarifçi və tənqidi realist ənənə davam etdirilirdi, digər tərəfdən isə Hüseyn Cavidin romantik faciələri ilə yeni bədii-estetik axtarışlar ön plana çıxırdı. Sovet ideologiyasının təsiri ilə dramaturgiya sosial-siyasi mövzulara, sinfi mübarizəyə və yeni quruluşun təbliğinə də xidmət etməyə məcbur edilirdi.

1920-ci illərdə milli teatr və dramaturgiya ənənələri sürətlə sovetləşdirilməyə məruz qalsa da bu proses tamamilə mexaniki olmamışdır. Hüseyn Cavid və Cəfər Cabbarlı kimi güclü fərdi sənətkarların

yaradıcılığında milli ruh, tarixi yaddaş və türkoloji təfəkkür müxtəlif formalarda qorunub saxlanmışdır. Həmin dövrdə ədəbiyyatın ümumi mənzərəsini qiymətləndirən akademik İsa Həbibbəylinin də vurğuladığı kimi,*"sovet dövründə Azərbaycan dilində yaranan böyük ədəbiyyat azərbaycançılıq adlandırılmasa da, vətənpərvərlik ruhunu qoruyub saxlamaq və inkişaf etdirməklə bu ümummilli təlimi zamandan zamana çatdırmaq vəzifəsini yerinə yetirmişdir*" (2018). Bu qiymətləndirmə dramaturgiya sahəsində də tamamilə özünü doğruldur.

Lakin 1930-cu illər nisbətən azad axtarışlar dövrünə son qoydu. Kütləvi repressiyalar, xüsusilə Hüseyn Cavidin 1937-ci ildə həbsi və sonradan güllələnməsi milli təfəkkürün və türkoloji ruhun açıq ifadəsini demək olar ki, qeyri-mümkün etdi. Belə ağır şəraitdə dramaturgiya açıq tənqid və romantik qəhrəmanlıqdan uzaqlaşaraq simvolizmə, alleqoriyaya və digər ifadə vasitələrinə daha çox müraciət etməyə başladı. Milli yaddaş və türkoloji ideyalar bu dövrdə tarixi obrazlar və mifoloji motivlər vasitəsilə yaşamağa davam etdi.

1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultay da xüsusi əhəmiyyət kəsb edirdi. Qurultay türk dillərinin və türk mədəniyyətinin öyrənilməsi baxımından mühüm hadisə olsa da, sonralar "pantürkizm" ittihamı ilə güclü təqiblərə səbəb oldu. Qeyd edildiyi kimi, *"131 nümayəndəsi - görkəmli ədəbiyyatşünaslar, dilçilər, tarixçilər, şairlər, yazıçılar, müttəfəkkirlərdən yüzdən çoxu sonralar ən ağır cəzaya məhkum edildilər*" (Məmmədov, 2024). Bu ziddiyyətli vəziyyət dramaturgiyanı da təsir etdi. Sənətkarlar senzura təhlükəsi qarşısında tarixi süjetlərə, "Dədə Qorqud" motivlərinə və folklor elementlərinə daha çox üz tutdular. Dramaturgiya senzura qarşısında poetik müqavimət strategiyası formalaşdırdı. Dövrün bir çox dramaturqu açıq şəkildə sovet ideologiyasına tabe görünərək, daxili mətn qatında milli yaddaşı və türkoloji təfəkkürü qoruyub saxlamağa çalışırdılar.

Bu dövrdə milli yaddaşın ən güclü ifadəsi Hüseyn Cavidin yaradıcılığında müşahidə olunur. Cavid "Topal Teymur", "Peyğəmbər", "Şeyx Sənan", "İblis" kimi romantik faciələrində ümumbəşəri problemləri milli və türkoloji kontekstdə işləmişdir. "*Topal Teymur faciəsində Əmir Teymur obrazı vasitəsilə türk hökmdarlarının qüdrəti, faciəsi və mənəvi axtarışları təsvir olunur. Bu əsər türkoloji təfəkkürün klassik nümunəsidir - türk dünyasının vahid tarixi yaddaşı və qəhrəmanlıq ənənəsinin poetik ifadəsi"* (Vəliyeva, 2019). Cavidin mənzum forması klassik türk ədəbiyyat ənənəsinə söykənir, fəlsəfi monoloqlar və simvolik landşaftlar isə milli identiteti və mənəvi azadlığı simvollaşdırır. Onun repressiyası məhz bu güclü türkoloji və milli ruh elementlərinə görə baş vermişdir. Cavidin poetikası sovet ideologiyasının "beynəlmiləlçilik" qəlibi içərisində milli yaddaşı qorumağın ən yüksək səviyyəsini nümayiş etdirir.

Cəfər Cabbarlının dramaturgiyası isə sosial-milli sintezin parlaq nümunəsidir. Cabbarlı "Sevil", "Almaz", "Oqtay Eloğlu", "Ədirnə fəthi", "Ulduz" kimi əsərlərində qadın azadlığı və maarifçilik kimi sovet mövzularını milli kontekstdə işləyərək, tarixi dramlarında türk xalqlarının azadlıq mübarizəsini əks etdirmişdir. "*Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatına dramaturgiyanın banisi kimi daxil olsa da, əslində, Azərbaycanın ən milli sənətkarlarından biridir*" (Qarayev, 2006). Onun əsərlərində folklor motivləri, tarixi yaddaş (XIX-XX əsrlərin milli oyanışı) və türkçülük ideyaları realist formada sovet ideologiyası ilə qarışaraq "gizli müqavimət" poetikası yaradır. Bu sintez senzurasından yayınmağa imkan verərək milli şüuru qoruyurdu.

Sovet dövrünün sonrakı mərhələsində, xüsusilə 1960-1980-ci illərdə "Xruşşov əriməsi" və milli özünüdərk prosesi ilə milli yaddaş daha açıq ifadə olunmağa başlamışdır. Bu zaman kəsimində Bəxtiyar Vahabzadənin "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Fəryad", "Dar ağacı" pyesləri vətən, vicdan, tarixi yaddaş və milli kimlik problemlərini lirik-psixoloji dərinliklə ön plana çıxarır. "*Onun tarixi dramları ilk növbədə türkün tarixi və bu müstəvidə bir ibrət dərsliyidir. Bu əsərlər türkün türkə qarşı açdığı savaşların acı nəticələrini yenidən göz önünə gətirir*" (Quliyeva, 2021). Onun əsərlərində tarixi reminissensiyalar və mənəvi axtarışlar milli yaddaşı canlandırır, sovet qəliblərindən kənara çıxmaq üçün vacib poetik vasitəyə çevrilir. Vahabzadənin yaradıcılığı Cavidin romantizmini və Cabbarlının realizmini yeni mərhələdə sintez edərək, dramaturgiyanı mədəni müqavimət vasitəsinə çevirmişdir.

Sovet dövrü Azərbaycan dramaturgiyasında milli yaddaşın və türkoloji təfəkkürün qorunub saxlanılması Azərbaycan ədəbiyyatının tarixi inkişaf qanunauyğunluqları ilə sıx bağlıdır. Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, *"azərbaycançılıq - milli düşüncənin və Vətən anlayışının bir yerdə qavranılması təlimi olaraq, xalqın və ölkənin milli maraqlarının ... ədəbiyyatın canında və qanında olmasını qaçılmaz həyati tələbat səviyyəsinə qaldıran ümummilli məfkurədir"* (Həbibbəyli, 2018). Bu cəhətdən sovet ideoloji məhdudiyyətlərinə baxmayaraq, dramaturgiya milli-mənəvi dəyərlərin, tarixi yaddaşın və türk dünyasına mənsubiyyət şüurunun bədii ifadə vasitəsinə çevrilmişdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Həbibbəyli, İ. (2018) Ədəbiyyatda azərbaycançılıq konsepsiyası və dövrləşmə təsnifatı.. 525-ci qəzet

Məmmədov, Q. (2024). Birinci Türkoloji Qurultay - türk əsrinin təhsil daşı. Azərbaycan. Bakı. № 158

Quliyeva, G. (2021). Bəxtiyar Vahabzadənin dramaturgiyasında türkçülük. Akademik Tarih ve Düşünce Dergisi, 8(3-Ek), 28-43. https://izlik.org/JA24XH33NE. Türkologiya.

Vəliyeva, S. (2019). Hüseyn Cavid ədəbi irsinin poetikası. Bakı.

THE POETICS OF NATIONAL MEMORY AND TURKOLOGICAL THOUGHT IN SOVIET-ERA AZERBAIJANI DRAMA

Shafa Aliyeva

The Soviet period (1920–1991) Azerbaijani dramaturgy developed under severe ideological pressure and the strict framework of socialist realism. Nevertheless, it managed to preserve the poetics of national memory and Turkological thought through symbolic, historical, and folkloric means. National memory is understood here as the collective cultural consciousness encompassing historical experience, folklore, myths, and spiritual values of the Azerbaijani people. Turkological thought refers to the awareness of Azerbaijan as an inseparable part of the Turkic world, emphasizing linguistic, cultural, and historical unity.

This study examines how playwrights such as Huseyn Javid, Jafar Jabbarlı, and Bahtiyar Vahabzadeh expressed these elements within their dramatic works. Javid's romantic tragedies, Jabbarli's social dramas, and Vahabzadeh's lyrical-psychological plays demonstrate a complex synthesis of Soviet ideological demands with hidden national resistance. Through poetic devices like metaphor, historical allusion, folk motifs, and philosophical monologue, Azerbaijani dramaturgy served not only as an artistic genre but also as a means of cultural resistance and preservation of national identity.

Keywords: *Soviet Azerbaijani dramaturgy, national memory, Turkological thought, poetics, cultural resistance, socialist realism.*

FOLKLORDAN POEZİYAYA: SƏMƏD VURĞUN POEMALARINDA ƏFSANƏ VƏ RƏVAYƏT SÜJETLƏRİ

Aytac Nəsirzadə
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Kiçik elmi işçi
ismayilliaytac94@gmail.com,
https://orcid.org/0000-0001-6959-3420

Səməd Vurğun şeirlərində şifahi xalq ədəbiyyatının əfsanə və nağıl motivlərinə geniş və məqsədyönlü şəkildə müraciət etmişdir. Məqalədə şairin "Qız Qayası", "Aslan Qayası", "Bulaq Əfsanəsi" və "Ay Əfsanəsi (Aybəniz)" şeirləri əsasında əfsanəvi və rəvayət süjetlərindən istifadəsi təhlil olunur. Tədqiqat göstərir ki, şairin folklor motivlərindən istifadəsi bir neçə məqsədə xidmət edir. Bu vasitə ilə xalq yaddaşının məhsulu yaşadılır, müasir dövrün ideyaları ifadə olunur. Folklor süjetləri insan və təbiət obrazları arasında harmoniya yaratmağa imkan verir. Ay, qaya, bulaq kimi obrazlar dərin simvolik mənalar daşıyır və insanın daxili hisslərini, azadlıq arzusunu, mənəvi dəyərlərini əks etdirir. Beləliklə, əfsanəvi və rəvayət süjetlərindən istifadə etməklə şair yalnız xalq ədəbiyyatı nümunələrini qorumaqla qalmamış, daha mürəkkəb fəlsəfi və sosial məsələləri ifadə etməyə nail olmuşdur.

Açar sözlər: *Səməd Vurğun, poema, əfsanə, rəvayət, süjet.*

Giriş

Folklordan gələn əfsanə və rəvayət süjetləri şairlər tərəfindən əsərlərə daxil edilmişdir. Xalq yaradıcılığından məharətlə istifadə edən Səməd Vurğun poemalarında da folklor süjetlərindən geniş şəkildə istifadə olunmuşdur. Şairin "Qız qayası", "Aslan qayası", "Bulaq əfsanəsi", "Ayın əfsanəsi (Aybəniz)" poemaları əfsanə və rəvayət süjetləri əsasında yazılmışdır. O, poemalarına daxil etdiyi əfsanə və rəvayət süjetlərini yaşadığı dövrün hadisələri, tarixin müəyyən səhifələri ilə əlaqələndirmişdir.

Şair "Qız qayası" haqqında xalq arasında söylənilən əfsanəni böyük ustalıqla, "Qız qayası" poemasına daxil etmişdir. Şairin poemaya daxil etdiyi əfsanə süjeti xalqın tarixi keçmişinin poetik elementi kimi çıxış edir. Əfsanə qəhrəmanı qızın öz azadlığı naminə apardığı mübarizə şairin əsas ideyasının, daha böyük qayənin – xalqın mənəvi-əxlaqi dəyərlər uğrunda mübarizəsinin ifadəçisi kimi təqdim olunur. Hadisəyə şahidlik edən qaya isə əbədilik rəmzi kimi xarakterizə edilir. Cəlal Abdullayev poema ilə bağlı yazır: *"Səməd Vurğunun əsərlərində Azərbaycan, onun təbiəti, daşı və torpağı dil açıb danışır, əşya və predmet canlı kimi təsvir edilir, təbiət də insan kimi sevinir, kədərlənir, yaralanır və ölür. Sadə, aydın, səmimiliyi ilə hamının qəlbinə yol tapan, folklor mənşəli, ritmik, ahəngdar səciyyəyə malik olan bu lirika, həm də gözəl musiqidir. Səməd Vurğun qələmində təbiət insan ruhunun tərcümanı kimi verilir. O, bütöv poetik tablo yaradanda təbiətə sətirlərarası münasibətində də bu məqsədə nail olur"* (Abdullayev, 1976, s. 85). Təbiət gözəlliklərini həssaslıqla duyan Səməd Vurğun "Qız qayası" poemasında sirli diyar haqqında düşünür, əxlaqi-estetik məna çalarları ilə əhəmiyyət kəsb edən təbiət obrazları insana xas əxlaqi keyfiyyətlərin daşıyıcısı kimi mənalandırılır. Doğma təbiətin gözəlliklərinə heyran qalan şair başını göylərə vuran Şahdağı, Kəpəzi, ormanlar içində suyu almaz kimi parlaq İsa bulağını, Qarabağ xatirələrini, gəncliyinin keçdiyi yerləri həssas duyğularla xatırlayır. Poemada şair təbiət təsviri ilə qocadan eşitdiyi əfsanə süjetini əlaqələndirmişdir:

Doyunca baxmışam Qız qayasına;
Orda saqqalına yaş dama-dama
Əfsanə söyləmiş bir qoca mana
Oğlum, bu dünyanın qocadır yaşı...
Qızcığaz qayadan atır özünü
Lakin deyirlər ki, altdan yuxarı
Qabartmış donunu dağlar ruzgarı.

Qızcığaz ölməyib, sağ düşmüş yerə
Yayılmış bu xəbər bütün ellərə...
Budur "Qız qayası" adlanmış qaya,
Sirrini verməmiş ulduza, Aya... (Vurğun, 2005, s. 107).

O yaşadığı dövrə qayıdaraq keçmiş həyatla yeni – quruculuq işlərindən sonrakı həyat arasında təzad yaradır. Təbiətin şəxsləndirilməsi metodundan istifadə edən şair həyatda baş verən hadisələri təbiətdəki hadisələrlə ayrılmaz şəkildə bağlayır, hisslərini, duyğularını təbiət şəkillərində təcəssüm etdirir.

Şairin əfsanə və rəvayət süjeti əsasında yazılan poemalar arasında "Aslan qayası" poeması xüsusi yerə malikdir. Poemanı Səməd Vurğun Aslan və Mahniyarla bağlı əfasənə süjeti əsasında yazmışdır. Bu fonda bir tərəfdən iki gəncin sevgisini qələmə almış, digər tərəfdən isə tarixi hadisəni – rus qoşunlarının Bakını işğal etməsini, keçmiş cəmiyyəti canlandırmışdır. Səməd Vurğun əfsanə süjetini nəql etməklə qalmayıb daha böyük qayənin ifadəsinə xidmət edir. Aslanın timsalında gələcək nəsillərə vətənpərvərlik duyğuları aşılayır:

Odur bax! Yazdığım "Aslan qayası",
Silinmiş alnından ellərin yası...
Onun sinəsində oxuyur bir quş,
Quş deyil, bir qızdır adı "qurtuluş"...
Bu gəncdə baş qoymuş onun çiyninə;
Burda sevgililər zövq alır yenə
Vətən torpağının azadlığından .
İnsan – azadlıqdır, azadlıq insan! (Vurğun, 2005, s. 128).

İnsanları azadlıq uğrunda, istismara, haqsızlığa qarşı mübarizəyə çağırır. Onlar üçün azadlığı yüksək dəyər olaraq qiymətləndirir.

Dirilik suyu, Xıdır peyğəmbər ilə bağlı şifahi xalq ədəbiyyatında çoxsaylı əfsanələr vardır. Səməd Vurğun da "Bulaq əfsanəsi" poemasında əfsanə süjetini əsərə daxil etmişdir. Poemanın girişində şair ölüm haqqında fəlsəfi fikirlərini irəli sürür, ölümü yeni həyatın başlanğıcı kimi izah edir:

Ölümlə çarpışır, axır kainat;
Ölüm də başqa bir sevdalı həyat!
Onda qərinələr, onda nələr var!
O məchul aləmi çox aramışlar,
Fəqət, sorağını alan olmamış (Vurğun, 2005, s.130).

O göstərir ki, ölüm və həyat bir-birinə zidd olmayıb, biri digərini tamamlayır. Xalq dünyagörüşündə su əbədi həyat rəmzi kimi qiymətləndirilir. Şairin poemaya daxil etdiyi əfsanəyə görə Şirvanda bir bulaq varimiş, Xıdır peyğəmbər bu sudan içib ölümsüzlük qazanmışdır. Bulağın sorağını alan İsgəndər Kəbir də Şirvana gəlmişdir. *"Əfsanəni poema şəklində işləyərkən S.Vurğunun əsas qayəsi bir tərəfdən yurdumuzun təbii sərvətlərinin bolluğuna görə onun düşmən hədəfinə çevrilməsini, digər tərəfdən isə bütün dünya fatehlərinin yeganə məqsədinin işğalçılıq olduğunu açıb göstərmək olmuşdur"* (Vəliyev, Əfəndiyev, 2006, s. 101). Səməd Vurğun da dirilik su ilə bağlı əfsanənini əsərə daxil etməklə əsərin əsas ideyasını əks etdirməyə nail olur.

Səməd Vurğunun "Ayın əfsanəsi" poema şair və Ayın dialoqu əsasında qurulmuşdur. Bu dialoqda Ay öz küskünlüyünün səbəbini deyərək şairlərdən gileylənir. O istəyir ki, şairlər təkcə onun gözəlliyinə vurulub onu vəsf etməsinlər, batinindən, kamalından da yazsınlar:
Dedim: düz deyirsən, ay nazlı sənəm!
Haman şairlərdən biri də mənəm
Mən də təbiətdən yazıram bəzən...
Bəzən ağ buluda yazıram qara,
Baxıb gülüşürlər mən sənətkar (Vurğun, 2005, s. 158-159)

Ay yenə hirslənib "yox" - dedi birdən,
Qəzəblə oynadı durduğu yerdən.
Dedi ki, insafsız olma bu qədər,
Yenə az olsa da, səndədir hünər...
Yenə sən sevirsən bu təbiəti
Ucuz tutmayırsan şeiri, sənəti (Vurğun, 2005, s. 159).

Ayla bağlı şifahi xalq ədəbiyyatında bir sıra əfsanələr yayılmışdır. Şair də Ayın üzünə anası Günəşin ləkə salması ilə bağlı əfsanə süjetindən istifadə etmişdir. Əfsanə süjetini şair yaradıcı şəkildə yenidən işləyərək Ayın yerə enməsini poemaya əlavə etmişdir. Paşa Əfəndiyev yazır: *"Ricətlər poema boyu davam edir. Şair yer üzü, insanlar, yaşayış, yaranış, təbiət və s. haqqında fikirlərini söyləyir. Böyük hərflə yazılan İNSAN – yer kürəsini, bütün aləmi bəzəyən bu ecazkar məxluq tərif olunur. Bu dəfə şair mülahizələrini yer üzünə düşən və böyük möcüzələrin şahidi olan Ayın dili ilə vermişdir"* (Əfəndiyev, 1992, s. 97).

Poemada Səməd Vurğun ibrətamiz, nəsihətamiz, fəlsəfi fikirlərini ifadə etmişdir. Ayın danışdıqlarından şair xəyalı keçən günləri, anasını xatırlayır, ona olan məhəbbətini ifadə edir. Cütçünün dili ilə insanı zəhmətə, əməyə çağırır.

Nəticə olaraq deyə bilərik ki, Səməd Vurğun poemalarında istifadə etdiyi əfsanə və rəvayət süjetləri şairin əsas qayəsinin ifadə olunmasında mühüm rola malikdir. Bu süjetlər vasitəsi ilə şair bir tərəfdən xalq ədəbiyyatı nümunələrini, tarixi yaddaşı yaşadır, digər tərəfdən isə öz fəlsəfi, ictimai ideyalarını ifadə edir. Şairin poemalarında şifahi xalq ədəbiyyatından gələn süjetlər müasir kontekstdə yenidən şərh edilir, yaşadığı dövrü, ictimai hadisələri, problemləri əks etdirən bədii vasitəyə çevrilir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullayev Cəlal. Səməd Vurğun poetikası. Bakı, Gənclik, 1976, 158 s.
2. Əfəndiyev Paşa. Səməd Vurğun və xalq yaradıcılığı. Bakı, Yazıçı, 1992, 123 s.
3. Vəliyev Fəzail, Əfəndiyev Rəşad. Səməd Vurğun və Azərbaycan etnoqrafiyası. Bakı, Çinar-Çap nəşriyyatı, 2006, 203 s.
4. Vurğun Səməd. Seçilmiş əsərləri. 5 cilddə. III cild. Bakı, Şərq-Qərb, 2005, 424 s.

FROM FOLKLORE TO POETRY: LEGENDARY AND FOLK NARRATIVE PLOTS IN SAMAD VURGUN'S POEMS

Aytaj Nasirzadeh

Samad Vurgun extensively and purposefully addressed the plots of legends and tales from oral folk literature in his poems. The article examines the poet's use of legendary and narrative plots based on the poems "Maiden Rock", "Lion Rock", "Legend of the Spring", "Legend of the Moon (Aybeniz)". During the research, it was determined that the poet's use of plots from folklore serves a number of purposes. The poet keeps alive the product of folk memory through legendary and narrative plots. Also, these plots create an opportunity for the poet to express the ideas of the modern era. With folklore plots, the poet shows the harmony of images of man and nature. Images such as the moon, rock, spring carry deeper symbolic meanings, express people's inner feelings, desire for freedom, and spiritual values. As a result, we can say that by using legendary and narrative plots, the poet has not only kept alive examples of folk literature, but has also succeeded in expressing deeper philosophical and social issues.

Keywords: *Samad Vurgun, poem, legend, narrative, plot.*

SÖYLƏYİCİ XATİRƏSİNDƏ ERMƏNİ TƏCAVÜZÇÜLÜYÜ

Cahidə Yaqubova
AMEA-nın Folklor İnstitutu
Doktorant
cahidey1996@gmail.com
https://orcid.org/0000-0001-7757-1723

Səfəvilər hakimiyyətinin zəifləməsindən istifadə edilərək 1724-cü ildə I Pyotr tərəfindən ermənilərin köçüylə bağlı rəsmi fərman imzalanmışdır. Burada əsas məqsəd yerli əhalinin doğma yerlərindən didərgin salmaq idi. Məhz bununla da ermənilərin Azərbaycana düşmənçilik münasibətinin təməli qoyulmuşdur. Çar Rusiyası erməni əlaltılarından istifadə edərək onlara vədlər verib daha böyük ərazi işğalı etmək niyyətində idi və buna görə də rus generallar planlı şəkildə köç əməliyyatını təşkil edirdi. Rusiya-İran müharibəsində Rusiyanın qalib olmasıyla "Gülüstan müqaviləsi" imzalanır və Azərbaycanı parçalayan erməni köçü qərarı bir daha qəti şəkildə irəli sürülür. 1905-ci ildən erməni münaqişələrinin ilk qığılcımları özünü göstərirdi. Çar Rusiyası gizli olaraq ermənilər silahlandırıb erməni-müsəlman davasının qızışmasına yol açırdı. "Böyük Ermənistan" xülyasıyla "Daşnaqsütyun" və "Hınçak" partiyaları "Türksüz Ermənistan" qurmaq şüarıyla mübarizə edirdi. Erməni vəhşiliklərinin ardıarası kəsilməmiş saysız-hesabsız faciələr yaşanaraq "Mart Soyqırımı", "Xocalı faciəsi" "I-II Qarabağ müharibəsi" olmuşdur. Hər bir faciəmizdə yüzlərlə-minlərlə günahsız insanlar qoca-uşaq-qadın demədən amansızca öldürülmüş, işgəncəyə məruz qalmış və yerlərindən didərgin salınmışdır. Qədim tarixi abidələrimiz, yaşayış yerlərimiz dağıdılmış, mənimsənilərək saxtalaşdırılmışdır. Nəinki torpaqlarımız, tariximiz hətta folklorumuzu da özününküləşdirməyə çalışaraq bir çox milli musiqi, rəqs, yeməklərimizin, folklor örnəklərimizdəki obrazların, yerlərin adlarını dəyişdirmişlər. Tarixi sübutlar erməni qırğınının insanlıq üçün nə qədər təhlükəli olduğunu sübuta yetirmişdir.

Açar sözlər: *söyləyici, folklor, erməni, qırğın, saxtakarlıq, xatirə*

Giriş

Ermənilər köklü xalq olduğunu sübut etmək üçün tarixi abidələrimizi özününküləşdirməklə yanaşı, milli mədəni dəyərlərimizə də sahib olaraq dünya gözündə qədim xalq obrazı yaratmağa çalışmışlar. Ancaq bunu demək lazımdır ki, xalq özünəməxsusluqdur və özgə hesaba xalq yarana bilməz. Onlar bağlama, duduk, davul, mey, oud, zurna, tar kimi musiqi alətlərini özününkü hesab edir. Zaman-zaman ermənlər bizdən götürərək adlarını dəyişdiklərini, özlərinə aid etdiklərini də etiraf edirlər. Ermənişünas müsahibəsində *"Muğam da ermənidir, ermənilərin onu azərbaycanlılara vermək fikri yoxdur"*- deyir (Arevşatyan, 2013). Başqa bir erməni mənbəsi iddia edir ki, Rusiya Yelizavetpool, Qandzak və Ordubadı Ermənistanın hesab edir. Naxçıvan isə İrəvan kimi erməni tarixində mühüm rol oynayır. Azərbaycan millətinin, dövlətinin olmadığına dair yanlış məlumatlar yazır və hətta Həzi Aslanovu, Qurban Səidi, Müslüm Maqamayevi, 1988-ci ildə Vəcihə xanımın oğlundan başqa oğlan uşağı dünyaya gətirən olmayıb, hamısı qız imiş. Xəstəxana işçisi Abbasova Raya xanım da ermənіyə ərə getmiş olsa da, öz xalqını çox sevirmiş, buna görə də Vəcihə xanıma geceylə Martuni xəstəxanasını tərk etməsini məsləhət görür, çünki xəstəxana heyəti onun yeni doğulan övladını oğlan olduğu üçün öldürəcəkləri barədə iclas keçiriblərmiş. Buna səbəb isə, guya o vaxtlar - 1988-ci ildə bizimkilər bir çaxnaşma əsnasında bilmədən vurub bir balaca erməni oğlan uşağını öldürüblər. Bu hadisələr Sumqayıt hadisələri zamanı baş verən çaxnaşmadan qaynaqlanırdı. Başqa azərbaycanlı tibb işçisi əmisi qızı Paşayeva Bəsurə də Raya xanımın sözlərini təsdiq edərək söyləyicinin xəstəxanadan getmək lazım olduğunu deyir: *"88-ci ilin martında Vüsal anadan olanda, Günay da anadan orda olub, bir də gördüm ki, Abbasova ermənіyə ərə getmişdi, o gecə bir də gördüm gəlmişdi, Vüsal anadan olmağından 1-2 gün keçmişdi. Xəstəxanada da azərbaycanlılardan birdənə oğlu olan mən idim, hamısı qız idi tərslikdən. Gəldi dedi ki, sən bu axşam burdan çıxmalısan. Dedim niyə? Dedi bəs deyirlər ki, guya bizimkilər 88-ci ildə bir erməni oğlan uşağını öldürüblər, Sumqayıt hadisəsindəmi nə baş verib. Gecə ilə məni çıxartdı o. Dedi sən*

*əgər sabaha qalsan burda, sən o uşağı burdan sağ aparmayacaqsan, çünki onlar iclas elədi. Ermənіyə ərə getsə də, o azərbaycanlıları çox istiyirdi, ermənіləri sevmirdi həmin həkim. Həmən vaxtı mənim əmimqızının da uşağı olmuşdu, amma onunku qızıydı, mənim əmimqızının özü də orda akuşerka idi, o da gəldi dedi ki, düz deyir, iclasda ermənilər belə bir şey deyir"(*Paşayeva, 2024).

Qeyd etmək lazımdır ki, 1988-ci ildə Sumqayıt hadisələri düşmənçilik əməllərinin göstərgəsi idi və alnımıza çəkilmək istənilən qara ləkə idi. S,öyləyicinin sözlərinə əsasən, oğluna edilmək istənilən qəddarlıq da onların məqsədlərinə çatmadığı üçün pis niyyətli intiqam hisslərinin nəticəsidir. Dəhşətli çaxnaşmanın səbəbkarları təxribatlar edərək insanları inandırmağa çalışırdılar ki, azərbaycanlıları Dağlıq Qarabağda döyür, qız uşaqlarına təcavüz edir, söyürlər və Sumqayıtda da ermənilər döyülür, söyülür və öldürülür. Sumqayıt hadisələrindən bir gün öncə İsveçrədə fiım nümayişi zamanı bir erməni onun dostu və arvadının sumqayıtlılar tərəfindən necə vəhşicəsinə öldürülüb tikə-tikə edilməsindən danışırdı. Təbii ki, bunların hamısı erməni uydurmasından başqa bir şey deyildi. Araşdırmalar zamanı məlum olur ki, *təxribatçılar təmiz azərbaycan dilində danışan erməni dəstələridir* (Süleymanoğlu, 2009).

Erməni vəhşiliklәriylə əlaqəli mənbələr bilərəkdən saxtalaşdırılıb ya da arxiv sənədlərin çox qismi məhv edilirdi. Azərbaycanın bir çox bölgələrində erməni soyqırımıları baş vermişdir. Hələ Qubada 2007-ci ildə şəhər stadionunun təmiri üçün qazma işləri aparılan zaman kütləvi insan qalıqlarına rast gəlinib. Buradakı qurbanların 1918-ci ildə ermənilərin törətdiyi soyqırıma aid olduğu sübut edilmişdir. Dəhşətli fakt isə qurbanların başlarının bədənlərindən ayrılmasıdır. Əsgər Əliyevin sözlərinə görə, bu qədər insan sümükləri arasından çox az-cəmi 35 nəfərin sümükləri bütöv halda imiş. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişiylə 2009-cu ildə "Soyqırım Memorial Kompleksi" yaradılmışdır.

Ermənilər böyük Ermənistan xəyalları qurduğu üçün nəinki Azərbaycana hətta qonşu dövlətlərə də ərazi iddiaları edirlər. Onlar təkcə Azərbaycana qarşı Qarabağ iddiası etmirlər, həmçinin, Türkiyədə yerləşən Ağrı dağına, Gürcüstanda Abxaziyaya da sahib olmaq üçün məkrli niyyətlər qururlar. Abxaziyada ermənilər Çar Rusiyası tərəfindən yerləşdirilərək süni şəkildə çoxaldılmışlar. Samtsxe-Cavaxeti-Abxaziya xətti Rusiyada yaşayan ermənіləri birləşdirən körpüdür. Tsandripşili erməni sakin Zorik Keşişyan ermənilərin ilk dəfə 1978-ci ildə Abxaziyaya köç etdiyini söyləyir. Bir Abxaz erməni deputatı Qalust Trapizonyan deyir ki, "*bizim Ermənistandakı ermənilərdən fərqimiz budur ki, bizim iki vətənimiz var, birini qanla, digərini də miras olaraq almışıq"* (İshkhanyan, 2004) Biz onların rusların köməyi ilə gəlib yerləşdiyini nəzərə alsaq, sonradan gələrək yerləşdirildiyi məkanlar babalarından qalır, digər halda isə hansısa ölkənin ərazisində məskunlaşaraq xəyanət edib ərazi iddia edir, qan töküb torpaq aldıqlarını açıq şəkildə deyirlər. Dağlıq Qarabağdan çox Abxaziyada ermənilər yaşayır və onların sayı təxminən 500 mindən çox ola bilər və oradan əl çəkməməkdə qərarlıdırlar. Onların Gürcüstanda çoxalması, Qafqazda ikinci erməni dövləti yaranmasına səbəb ola bilər. "*Onlar hətta Soçidə ermənilərə muxtariyyət verilməsinə cəhd edirlər"*(Kerimkhanov, 2019). Bir sözlə, ermənilər hər zaman bölgələrdə müxtəlif çaxnaşmalar yaradır, yerli insanları öz ərazilərindən sıxışdıraraq ermənilərin sayını çoxaltmağa, ermənіləşdirməyə çalışmışlar. Söyləyici Vəcihə Paşayeva atası evinə düşən alazanı, ermənilərin hücum təşkil etməsini xatırlayır. Az yaşlı qızı Günay səs-küydən qorxur, ailə üzvləri erməni hücumuna məruz qalır və qəlpə yaraları alır. Düşmən mülki əhalini sıxışdıraraq dinc yaşamağa qoymur. Ermənilər haradansa silah əldə edərək camaat zərər verir. Onların belə asanlıqla silah almasına kömək edənlər də ruslar və orada yaşayan ermənilər olmuşdur. Ümumiyyətlə, ruslar məqsədlərinə çatmaq üçün ermənilərə silah verməklə çaxnaşmalar yaratmaqlarına dəstək olublar. NA-nın Müdafiə və Təhlükəsizlik Daimi Komitəsinin üzvü Qaqik Melkonyan müsahibəsində bildirib ki, "*əvvəllər imzanlanmış müqavilәyə əsasən, Rusiyadan sifariş edilən silahlar verilib"*(Qaqik, 2024) Maraqlı faktlardan biri də, Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun hesabatına görə, Rusiya Ermənistanı 94% silahla təmin edib. (Paşayeva, 2024) Ermənilərin müəyyən dəstək almaları yerli Azərbaycan xalqı üçün həmişə narahatlıq yaratmışdır. Söyləyicinin söylədiklərindən də görünür ki, tez-tez çaxnaşmalar yaradaraq insanları dinc yaşamağa qoymamışlar. Erməni hücumu zamanı evlər silahlar vurulur, qəlpə yarası alır, ya

da həlak olurlar: *"Vüsal hələ olmamışdı. Hələ onda bir də gördük ki, başdadılar. Biz də ermənilərin ortasında idik. Dörd bir tərəfimiz ermənidi. Nəbilim Ağkənd, Çartaz. Çartazla aramızda bir Xonaşın çayı var idi. Allah, bir qaçaqaç düşdü. Deməli, dik var, dikdə də yaşayanlar var, aşağıda da, aşağıda dağlıqdı. Götürdüm uşağı qaçdım. Diki çıxanda baxdıq ki, qızım Günayın ağzı gəlib durdu bir anlıq qulağının dibində. Sən demə, həyəcandan, onda da 86-dandı, 2 yaşı olardı. Arvatdar tökülüşdülər. Demişdilər ki, ermənilər Çartazdan maşınla silah zad gətirirlər. Hücum edəcəylər. Bir az oyana-buyana, sakitdəşənnən sora çıxdıx gəldiy evimizə. Təzdən yenə başdadılar, qaçdıx. Martuni rayonunun Muğannı kəndi var, qaynımın qızı Səbinənin baldızıgilə getdiy. Çünkü hamımız rayonun özündəyik Xocavəntdəyiy, gedəsi yerimiz yoxdu, ancax qırax kəntdərə çıxa biliriy. Atamgilin evinə də alazan düşmüşdü. Onun qırmaları atama da çox dəymişdi. Anamda bədən hissəyə düşmüşdü. O da bədəndə yeriyir. Anamda neçəsini çıxartmışdılar, biri də qalmışdı qolunda damarın içinə girmişdi, dedilər onu çıxartmaq mümkün deyil. Mamam veteran kimi gedir. O qırğılar rəhmətə gedəndə anam Məlahətlə getdi. Atamın da başına düşmüşdü, o da veteran idi. Adı Valehdi. Qardaşıma da güllə vurmuşdular"* (Paşayeva, 2024).

Ermənilərin köklərinin haradan gəlməsi haqqında müxtəlif fikirlər mövcuddur, ancaq özləri isə Nuh peyğəmbərin nəvəsi Haykdan gəldiklərini iddia edirlər. Nuhun gəmisi də Ağrı Dağının cənubunda Telçeker və Üzengili kəndləri arasında yerləşdiyi ermənilər buranı özlərinin ana vətəni hesab edirlər. *Bu səbəbdən, onlar ölkələrinə Haystan deyirlər*. (Akbulut, 2011) Bundan başqa söyləyici Xocavəndə gedə bilməmə səbəblərinə aydınlıq gətirir. O bildirir ki, ermənilər qəsdən yoldan keçən insanlara süni əngəllər yaradır, maşınları daşlayırlar. Ermənilər gecəylə hücum edirdilər, deyilənə görə Amonlar idi, küçədə görəndə vururdular. Qaynatası rəhmətə gedərkən onu çox çətinliklə ermənilərin kəndi içərisindən aparıb dəfn eləyirlər. Söyləyicinin qızı xəstələndiyi üçün həkimə apara bilmirlər, Bakıdan xəstələr üçün göndərilən həkim onlara kömək edir və vertolyotla Bakıya qayıdırlar. Kəndin kişiləri ermənilərin onları vurduqlarını, daşladıqlarını şikayət etmək üçün yığışıb gedirlər, ancaq geri dönüşdə yenə erməni hücumuna məruz qalırlar. Söyləyicinin yoldaşını daşladıqları üçün qolundan zədə alır, digər maşında olanlardan isə ölənlər olur. Yoldan keçənlərə hücum etmək üçün ermənilər yol qırağına daşlar yığırlar:

"Biz Bakıda olurdux, hələ bizimkilər kəntdən çıxmamışdı. Qaynatam Sabunçuda yatırdı, burda rəhmətə getdi, sora apardığ Ağcabədiyə. Qaynanamın da bütün qohum-qardaşı ordadı. Orda Zəkəraylı qəbiristanlığında qəbir qazdılar, sora qaynatamın bacıjısı qoymadı, dedi yox, getməlidi öz evinnən çıxmalıdı, yası öz evində verilməlidi. Bunu təzdən götürdük, yudular kəfənlədilər. Səmərqa adında bajsı vardı, dedi bunun meyidi gərək öz kəndinə. Biz uje gedirik, kəndə girməy mümkün deyil. İcazə aldığ, 3-4 dənə tanknan gedən Amonlar gəldi, dedilər biz sizi onlarnan keçiririy. Keçirdilər bizi kəndə. Günay qızdırdı, 39 dərəcə qızdırma, nə qədər elədilər qızdırma sala bilmədilər. Kəntdən keçə bilmiriy. Getmişiy uje qalmışığ kəntdə. Kəntdən çıxa bilmirəm ki, uşağımı gətirim həkimə. Onnan sora vertolyot gəldi, bizi onnan götürdülər gətirdilər birbaşa Bakıya. Bakıdan həkim getmişdi ora, axı ordan çıxa bilmir xəsdələr. Daşdarı yığırdılar yolun qırağına, ermənilər. Bizimkilər Martuninin içindən gedib gəlirdilər, ermənilərin içinnən gedib gəlməliydiy. Gediş-gəliş olanda daşı götürürdülər cumurdular. Nömrələri bilirdilər, maşınları vururdular. Kimi yaralanırdı, kimi ölürdü. Deməli, kəntdə kişilər, müəllimlər yığışıb getdilər şikayətə ki ermənilər bizə belə sataşırlar, tədbirlər görürlər. Onlar avariyaya düşmüşdü. Amma Baloğlangil gələndə vurmuşdular. Elə Baloğlanı da vurublar daşnan, belə əlinən qoluna vursan barmağın girir. Həmən o baldız qaçqın düşdü, rəhmətə gedəndə qaynatama qazılan qəbir bacısı Səmərqaya qismət oldu. Boş qəbir saxlamağ olmaz axı, içini doldurublar, qazıblar ki, hazır qəbir çıxır, sonra biliblər ki, filan şeyə görə qazılıb" (Paşayeva, 2024).

Nəticə

Ermənilər hər zaman məkrli niyyətlərinə çatmaq üçün yaşadıqları, sığındıqları ərazini mənimsəyib yerli camaatı oradan çıxartmağa, uzaqlaşdırmağa çalışıblar. Onlar bu cür niyyətlərinə çatmaq üçün xarici qüvvələrdən yetərincə istifadə edirlər. Onların əməlləri haqqında bir tarixçi, yazıçılar fikirlər söyləyiblər. Hətta ermənilərin öz jurnalist və tarixçiləri də özlərinin nə qədər riayakar və cinayətlər et-

diyindən söhbət açırlar. Onlar bəzən özlərinə də xəyanət edib, müharibələrdən qaçaraq fərarilik ediblər. Hətta tarixi saxtalaşdıraraq Qarabağın onlara aid olduğunu, guya qanunsuz şəkildə Azərbaycana aid edildiyini yanlış faktlarrla sübuta çatdırmağa çalışırlar. Ölkələrinə xəyanət edib türklərə kömək etməkdə ittihamlandırdıqları Kasyan, Nuricanyan, Atarbekyan və başqalarının adlarını çəkirlər.

Araşdırmalar göstərir ki, ermənilər təkcə Azərbaycana deyil, yaşadıqları ərazidəki başqa xalqlara, özlərinə də xəyanət ediblər. Yuxarıda adı çəkilən şəxslər, Sumqayıt hadisələri də ermənilərin özlərinə, günahsız insanlara etdiyi xəyanətin sübutudur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Akbulut, 2011 (https://dergipark.org.tr/tr/download/article-file/36439)
2. Arevşatyan, 2013 (https://www.aravot.am/2013/09/30/391378/)
3. Gagik, 2024 (https://news.am/eng/news/802378.html)
4. Ishkhanyan, 2004 (https://agbu.org/armenians-georgia/abkhazia-armenians-holding-home-unstable-territory)
5. Kerimkhanov, 2019 (https://www.azernews.az/region/158647.html)
6. Pamuk, 2020 (https://www.aa.com.tr/en/europe/russia-provides-94-of-armenia-s-weapons-in-5-years/2023969)
7. Paşayeva, 2024 (Söyləyici, şifahi məlumat).
8. Süleymanoğlu, 2009 (https://anl.az/down/meqale/adalet/adalet_fevral2009/70529.htm)

ARMENIAN AGGRESSION IN THE NARRATOR'S MEMORY

Jahida Yagubova

Armenians were systematically relocated under the patronage of Tsarist Russia. Taking advantage of the weakening Safavid dynasty, Tsar Peter I issued an official decree in 1724 regarding the resettlement of Armenians. The primary goal was to displace the local population from their native lands. This act laid the foundation for Armenian hostility towards Azerbaijan. Tsarist Russia, using Armenian proxies, made promises to them with the intention of conquering more territory. As a result, Russian generals meticulously organized the relocation operation. After Russia's victory in the Russo-Persian War, the "Treaty of Gulistan" was signed, further solidifying the decision to relocate Armenians and fragment Azerbaijan.

The first sparks of Armenian conflict emerged in 1905. Tsarist Russia secretly armed Armenians, fueling the Armenian-Muslim conflict. Driven by the dream of "Greater Armenia," the "Dashnaktsutyun" and "Hnchak" parties fought under the slogan of creating a "Turk-free Armenia." Countless tragedies have occurred as a result of continuous Armenian atrocities, including the "March Massacre," the "Khojaly Massacre," and the "First and Second Karabakh Wars." In each of these tragedies, hundreds of thousands of innocent people, regardless of age, gender, or status, were ruthlessly murdered, tortured, and displaced from their homes. Our ancient historical monuments and settlements were destroyed, appropriated, and falsified. They have attempted to appropriate not only our lands, but also our history and folklore, changing the names of many national musical works, dances, dishes, folk characters, and places. Historical evidence undeniably proves the danger of Armenian atrocities against humanity.

Keywords: *Narrator, Folklore, Armenian, Atrocity, Forgery, Memory*

"DANTENİN YUBİLEYİ" ƏSƏRİ ƏSASINDA "KİÇİK ADAM" OBRAZININ SOSİAL VƏ EKZİSTENSİAL TƏHLİLİ

Şükufə Vəliyeva
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Aparıcı elmi işçi
valiyevashukufa@gmail.com
https://orcid.org/0009-0004-5425-5364

Anarın "Dantenin yubileyi" əsərində "kiçik adam" motivi realist ənənədən fərqli olaraq yalnız sosial təzyiq altında əzilən fərd kimi deyil, həm də özünü dərk etməkdə çətinlik çəkən, mənəvi-psixoloji böhran yaşayan bir obraz kimi təqdim olunur. Əsərdə bu motiv sosial tənqiddən daha çox insanın daxili dünyasının parçalanması və kimlik axtarışı kontekstində işlənir. Nəticədə, "kiçik adam" obrazı Azərbaycan nəsrində daha geniş – ekzistensial və modernist məna qazanır. Hekayədə Feyzulla Kəbirlinski zahirən adi, cəmiyyətdə xüsusi sosial çəkisi olmayan bir fərd kimi təqdim olunur. O, böyük ideallardan uzaq, gündəlik həyatın monoton axını ilə yaşayan, diqqətdən kənarda qalan bir insandır. Onun davranışları və mövqeyi cəmiyyətin ona göstərdiyi münasibətə uyğunlaşma meyli ilə seçilir və bu, onun daxili aləminin passivliyini daha da gücləndirir. Eyni zamanda Feyzulla Kəbirlinski obrazı vasitəsilə cəmiyyətin "kiçik" hesab etdiyi insanlara münasibəti, onların görünməzliyi və dəyərsizləşdirilməsi problemi ön plana çıxarılır. Bu obraz həm fərdin özünü ifadə edə bilməməsini, həm də sosial sistemin insanı ikinci plana atmasını simvolizə edir. Beləliklə, əsərdə "kiçik adam" motivi təkcə fərdi taleyin deyil, ümumi sosial-mənəvi mühitin də göstəricisinə çevrilir.

Açar sözlər: *"kiçik adam", Anar, Dantenin yubileyi, modernizm, ekzistensializm, sosial təzyiq*

Giriş

"Kiçik adam" obrazı ədəbiyyat tarixində fərdin cəmiyyət daxilindəki zəif mövqeyini, sosial görünməzliyini və mənəvi tənhalığını ifadə edən əsas bədii kateqoriyalardan biridir. Bu motivin ideya kökləri realizm çərçivəsində sistemli şəkildə inkişaf etmiş, xüsusilə fərd–cəmiyyət münasibətlərinin tənqidi təhlili ilə bağlı olmuşdur. Realist ənənədə "kiçik adam" sosial strukturların təzyiqi altında əzilən və öz varlığını təsdiq edə bilməyən fərd kimi təqdim olunur (Həbibbəyli, 2018). Azərbaycan nəsrində bu motivin müasir interpretasiyası Anarın "Dantenin yubileyi" əsərində özünəməxsus bədii həllini tapır (Anar, 2004). Burada "kiçik adam" surəti çoxşaxəli şəkildə açılır və müxtəlif situasiyalar vasitəsilə dərin sosial-psixoloji məna qazanır. Burada həm sosial strukturun absurdluğu, həm də insanın aldadılması və yanlış yönləndirilməsi əsas xətt kimi çıxış edir.

Hekayədəki Feyzulla Kəbirlinski obrazı zahirən adi, cəmiyyətdə xüsusi sosial çəkisi olmayan bir fərd kimi təqdim olunaraq həm fərdi, həm də ictimai problemi təcəssüm etdirir. O, böyük məqsədləri olmayan bir insandır (Anar, 2004). Ona qarşı sərt münasibət göstərildikdə belə "quzu kimi boynunu bükməsi" obrazın itaətkar və müqavimətsiz olduğunu göstərməklə bərabər, cəmiyyətin təzyiqi qarşısında fərdin öz mövqeyini müdafiə edə bilməməsini üzə çıxarır. Bu passivlik nəticəsində cəmiyyətdə alçaldılma normallaşır, "kiçik adam" sosial təzyiqə uyğunlaşan, lakin daxildə yorulan bir tip kimi təqdim olunur: "ən ağır sözlər belə artıq incitmir" (Anar, 2004, s. 112). Lakin yazıçı obrazı yalnız bu xüsusiyyətlərlə məhdudlaşdırmır. Onun daxili dünyasında müəyyən düşüncələrin mövcudluğu, məsələn, "ürəyində gülməsi" göstərir ki, Feyzulla zahirən sadə və passiv görünsə də, müəyyən mənəvi reaksiyalara malikdir. Zahiri "kiçiklik" onun daxili dünyası ilə kəskin ziddiyyət təşkil edir; qəhrəmanın mənəvi aləmi yüksək mədəni-estetik ideallarla zəngindir. Bu xüsusiyyətlər "kiçik adam"ın əsas əlamətləri kimi çıxış edir. Eyni zamanda, əsərdə bu vəziyyətin ailəyə təsiri də göstərilir. Oğlu Eldarın atasından utanması və onu "fərsiz" adlandırması "kiçik adam"ın yalnız fərdi yox, nəsillərarası problem olduğunu sübut edir (Anar, 2004).

Xüsusilə, əsərdə Eldarın Feyzulla Kəbirlinskinin bioloji oğlu olmaması faktı yalnız ailədaxili sirr səviyyəsində qalmır, eyni zamanda obrazların xarakteroloji qarşılaşdırılmasına xidmət edən mühüm struktur elementə çevrilir. Eldarın atasının cəmiyyətdə "Kəbirlinski" təxəllüsü ilə tanınması, lakin onun özünün "Ələsgərov" familiyasını daşıması gəncin sosial mühitdə daim sual və istehza obyektinə çevrilməsinə gətirib çıxarır (Anar, 2004). Xüsusilə Məcid obrazı vasitəsilə bu məsələ açıq şəkildə problematizasiya olunur. Məcidin "atan Kəbirlinskidir, sən niyə Ələsgərovsan?" sualı sadəcə maraq ifadəsi deyil, gizli istehza və sosial təzyiq formasıdır. Bu cür münasibət Eldarın daxili gərginliyini artırır və onun aqressiv reaksiyasına səbəb olur. Eldarın obrazı Alfred Adlerin "hiper-kompensasiya" nəzəriyyəsi kontekstində daxili natamamlıq hissini qürurla örtməyə çalışan fərdin bədii təcəssümüdür (Adler, 2011). Digər tərəfdən, Feyzulla Kəbirlinski obrazının Məcidə verdiyi sakit və təmkinli izah diqqətəlayiqdir. O, "Kəbirlinski mənim təxəllüsümdür" deyərək məsələni sadə şəkildə izah edir (Anar, 2004, s. 115). Onun üçün "Kəbirlinski" adı sadəcə peşəkar bir etiket, Sartrın təbirincə desək, bir "rol"dur; o, bu rolu daxili aləminə buraxmır, buna görə də Məcidin suallarına rasional cavab verə bilir (Sartr, 2019).

Əsərdə Feyzulla Kəbirlinski obrazı dünya ədəbiyyatında formalaşmış "kiçik adam" ənənəsinin davamı kimi çıxış etsə də, onun spesifikliyi modern dövrün sosial və psixoloji reallıqları ilə müəyyən olunur. Bu baxımdan obrazı Nikolay Qoqolun yaratdığı Akaki Akakiyeviç ("Şinel" əsəri) ilə müqayisə etmək mümkündür (Qoqol, 1985). Hər iki obraz sosial iyerarxiyanın ən aşağı pilləsində dayanır və cəmiyyət tərəfindən görünməzləşdirilir. Lakin əsas fərq ondadır ki, Qoqolun qəhrəmanı öz vəziyyətini tam şüurlu şəkildə problematizasiya etmir, halbuki Feyzulla artıq refleksiya mərhələsinə keçmişdir. Feyzulla Kəbirlinskinin daxili monoloqu öz mövcudluğunu sorğulayan, özünü dəyərləndirən və nəticədə mənasızlıq hissinə qapılan bir şüurun göstəricisidir (Sartr, 2019). "Altmış il ömür sürmüşəm… sabah ölsəm, kimin vecinə olacaq?" fikri "kiçik adam"ın əsas ekzistensial böhranını ifadə edir: insan ömrü boyu çalışır, amma nəticədə özünü cəmiyyət üçün görünməz və əhəmiyyətsiz hesab edir (Anar, 2004, s. 120). Məcid obrazının bu vəziyyətə sərt və bəzən istehzalı ironik münasibəti göstərir ki, Feyzullanın şikayəti ciddiyə alınmır, əksinə, gündəlik zarafat predmetinə çevrilir. Bu isə sosial empatiyanın zəifliyini üzə çıxarır. Kafka qəhrəmanları kimi Feyzulla da sistem daxilində sıxışdırılmış və identikliyini itirmiş fərddir (Kafka, 2015). Feyzullanın "qarderobşik qədər hörmətim yoxdur" deməsi teatr mühitində sosial iyerarxiyanın nə qədər ədalətsiz olduğunu açır (Anar, 2004, s. 122). Burada o, sənət sisteminin içində olsa da, onun aşağı təbəqəsində qalan, diqqətdən kənarda saxlanılan bir fiqurdur. Bu, "kiçik adam"ın institusional laqeydlik nəticəsində necə formalaşdığını göstərir. Feyzulla obrazı vasitəsilə müəllif sübut edir ki, "kiçik adam" sadəcə zəif insan deyil, eyni zamanda, o, cəmiyyətin yaratdıb formalaşdırdığı sosial tipdir.

Digər tərəfdən, gənc tənqidçinin "kötüklər" metaforası Nitsşenin "köhnə dəyərlərin yenidən qiymətləndirilməsi" ideyasına uyğun olaraq, mövcud estetik sistemə qarşı radikal tənqidi mövqe ifadə edir (Nitsşe, 2014). Bu yanaşma göstərir ki, problem təkcə fərdi səviyyədə deyil, bütövlükdə sistem xarakteri daşıyır. Bu metafora hərəkətsizliyi, intellektual durğunluğu və sənətə yadlığı simvolizə edir. Nitsşenin perspektivindən yanaşdıqda, bu, mədəni sistemin "dekadent" strukturlarına qarşı bir intellektual üsyan cəhdi kimi qiymətləndirilə bilər (Nitsşe, 2014).

Hekayənin əsas dönüş nöqtəsi Feyzullaya verilən dəvətnamədir. O, gözlənilmədən Dante Alikyerinin 700 illik yubileyinə həsr olunmuş tədbirə "ikiadamlıq" dəvət alır. Bu detal çoxqatlı ironiyadır: bir tərəfdən, illərlə dəyər görməyən bir insan birdən "rəsmi tədbir iştirakçısı" olur, digər tərəfdən, onun "ikiadamlıq" dəvət alması belə onun sosial statusunun qeyri-sabitliyini göstərir. Dantenin yubileyi isə simvolik olaraq yüksək sənət və dünya ədəbiyyatının zirvəsini təmsil edir. Feyzullanın bu tədbirə daxil edilməsi böyük sənət ilə kiçik insan arasındakı paradoksu ortaya çıxarır. Bu ziddiyyət göstərir ki, sis-

tem bəzən insanı illərlə görməzlikdən gəlir, sonra isə onu formal şəkildə "vacib fiqur" kimi təqdim edir. Feyzullanın davranışında baş verən dəyişiklik- özünü inamlı və "əhəmiyyətli" aparması sosial rolun situativ mənimsənilməsi kimi izah edilə bilər (Qofman, 2016). Onun geyim və hazırlıq səhnələri isə sosial maskalanma prosesini əks etdirir. Lakin Kəbirlinskinin yubiley məkanında qarşılaşdığı reallıq bu illüziyanı dağıdır. Qarovulçunun tədbiri ciddiyə almaması və "hər gün kiminsə yubileyi olur" kimi reaksiyası mədəni dəyərlərin devalvasiyasını göstərir (Anar, 2004, s. 135). Beləliklə, yüksək sənət gündəlik məişət səviyyəsinə endirilir və öz simvolik çəkisini itirir. Daha sonra tədbirin ya baş tutmaması, ya da başqa vaxta keçirilməsi "yazılı həqiqət" ilə "real həqiqət" arasındakı ziddiyyəti üzə çıxarır. Feyzullanın rəsmi sənədə inanması, lakin reallıqda bunun təsdiqini tapmaması onun dünyagörüşündə ciddi sarsıntı yaradır. Feyzulla Kəbirlinski obrazı vasitəsilə Anar "kiçik adam" fenomenini yalnız sosial problem kimi deyil, həm də mədəni və ekzistensial böhran kimi təqdim edir. Əsərdə yüksək mədəniyyət ilə gündəlik həyat arasındakı ziddiyyət ironik şəkildə açılır və bu, müasir cəmiyyətdə dəyər anlayışının nisbi və qeyri-sabit xarakter daşıdığını göstərir. Qarovulçunun "Siz də gedin evinizə" ifadəsi sosial laqeydliyin ən açıq və sərt forması kimi çıxış edir (Anar, 2004, s. 138). Bu reaksiya göstərir ki, Feyzulla və Həcər artıq sistem üçün funksional və ya simvolik dəyər daşımayan subyektlərə çevrilmişdir. Burada fərdin dəyəri onun real keyfiyyətləri ilə deyil, sistem daxilindəki mövqeyi ilə müəyyənləşir. Hekayənin son hissəsində diqqət ailədaxili münasibətlər müstəvisinə keçir və burada "kiçik adam" fenomeni artıq sosial deyil, mikro–psixoloji kontekstdə açılır. Məhz metro səhnəsi bu sosial deqradasiyanın fonunda incə psixoloji kompensasiya mexanizmini üzə çıxarır (Adler, 2011). Belə ki, Feyzulla özünü "bələdçi" kimi təqdim edərək situativ üstünlük əldə edir (Anar, 2004). Bu hal sosial psixologiya baxımından kompensator davranış kimi izah oluna bilər: fərd bir sahədəki aşağı statusunu başqa bir sahədə simvolik üstünlüklə əvəz etməyə çalışır (Adler, 2011). Burada "kiçik adam" sabit kateqoriya deyil, situasiyaya görə dəyişən rol kimi təqdim olunur. Bu dəyişkənlik Ervinq Qofmanın dramaturji nəzəriyyəsi ilə də səsləşir. Qofmana görə fərd müxtəlif sosial mühitlərdə fərqli rollar oynayır və həmin rollar onun "özünü təqdimetmə" strategiyasını müəyyən edir (Qofman, 2016). Deməli, Feyzulla üçün teatr mühiti onun marginal mövqeyini təsdiqləyirsə, metro məkanı ona qısa müddətli "simvolik üstünlük səhnəsi" yaradır.

Beləliklə, fərdin "kiçikliyi" yalnız sosial sistemin deyil, həm də yaxın münasibətlər şəbəkəsinin məhsuludur. Anar ''Dantenin yubileyi'' hekayəsində Kəbirlinskinin timsalında "kiçik adam" obrazını təkcə sosial ədalətsizliyin qurbanı kimi deyil, həm də psixoloji kompensasiya, rol dəyişkənliyi və gündəlik həyatın ironiyası içində mövcud olan kompleks bir fenomen kimi təqdim edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Adler, A. (2011). İnsanın təbiətini anlamaq: Psixoloji nəzəriyyələr üzrə əsərlər. Bakı: Qanun.
2. Anar. (2004). Dantenin yubileyi. Bakı: Şərq-Qərb.
3. Azərbaycan ədəbiyyatı tarixi. (II cild). (2007). Bakı: Elm.
4. Ədəbiyyat nəzəriyyəsi. (2012). Bakı: Maarif.
5. Goffman, E. (2016). Gündəlik həyatda mənliyin təqdimatı: Sosial rollar nəzəriyyəsi. Bakı: Qanun.
6. Kafka, F. (2015). Metamorfoz və digər hekayələr: Modernist ədəbiyyat nümunələri. Bakı: Qanun.
7. Gogol, N. (1985). Şinel: Klassik rus ədəbiyyatı nümunələri. Bakı: Yazıçı.
8. Nietzsche, F. (2014). Belə danışdı Zərdüşt: Fəlsəfi-poetik mətnlər. Bakı: Qanun.
9. Sartre, J.-P. (2019). Varlıq və heçlik: Ekzistensializm fəlsəfəsi. Bakı: Qanun.
10. Həbibbəyli, İ. (2018). Azərbaycan ədəbiyyatında realizm ənənələri. Bakı: Elm.

SOCIAL AND EXISTENTIAL ANALYSIS OF THE IMAGE OF THE "LITTLE MAN" BASED ON THE WORK "DANTE'S JUBILEE"

Shukufa Valiyeva

In Anar's Dante's Jubilee, the "little man" motif, unlike in the classical realist tradition, is presented not only as an individual oppressed by social pressure but also as a figure struggling with self-awareness and experiencing a moral-psychological crisis. In the work, this motif is developed less as a form of social critique and more as an exploration of the fragmentation of the human inner world and the search for identity. As a result, the "little man" acquires a broader existential and modernist meaning in Azerbaijani prose.

In the story, Feyzulla Kabirlinski is depicted as an ordinary individual with no significant social status. He is detached from grand ideals, living within the monotonous flow of everyday life and remaining largely unnoticed by society. His behavior reflects a tendency to adapt to how society treats him, which further reinforces his inner passivity. At the same time, through the character of Feyzulla Kabirlinski, the narrative highlights society's attitude toward those considered "small," emphasizing their invisibility and marginalization. This character symbolizes both the individual's inability to express himself and the social system's tendency to push the person into the background.

Thus, in the work, the "little man" motif becomes not only a marker of individual fate but also a reflection of the broader socio-moral environment.

Keywords: *"little man" motif, Anar, Dante's Jubilee, modernism, existentialism, social pressure*

POST-MÜHARİBƏ DÖVRÜ AZƏRBAYCAN NƏSRİNDƏ MİLLİ KİMLİK MƏSƏLƏLƏRİ

Dilarə Əliyeva
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Böyük elmi işçi
aliyeva.dilara724@yandex.ru
https://orcid.org/0000-0001-6443-1262

Azərbaycan ədəbiyyatında post-müharibə dövrü həm Birinci Qarabağ müharibəsindən, həm də 2020-ci ildə qazanılmış tarixi Zəfərdən sonra yaranan əsərləri əhatə edir. Bu mərhələ yeni ədəbi axtarışlar, mövzu və ideya yenilikləri ilə seçilir. Qarabağın azadlığı, vətən sevgisi, milli qürur, şəhidlik və qəhrəmanlıq kimi mövzular müasir Azərbaycan ədəbiyyatının əsas istiqamətlərindən birinə çevrilmişdir. Yazıçılar müharibənin insan talelərində, ictimai şüurda və milli düşüncədə yaratdığı dəyişiklikləri bədii şəkildə əks etdirməyə çalışırlar. Vətən müharibəsindən sonra formalaşan yeni ictimai-siyasi reallıqlar Azərbaycan nəsrində milli kimlik məsələlərinin yenidən dəyərləndirilməsinə şərait yaratmışdır. Bu dövrün əsərlərində fərdi yaddaşla kollektiv yaddaşın qarşılıqlı əlaqəsi, tarixi keçmişə münasibət, milli-mədəni dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi kimi məsələlər xüsusi diqqət mərkəzindədir. Ədəbiyyat yalnız yaşanan hadisələrin bədii salnaməsi kimi deyil, həm də milli özünüdərkin formalaşmasında mühüm vasitə kimi çıxış edir. Məqalədə post-müharibə dövrü Azərbaycan nəsrində milli kimlik anlayışının bədii təcəssümü araşdırılır, bu anlayışın əsərlərin ideya-məzmun sistemində tutduğu yer və daşıdığı mənəvi-ideoloji yük təhlil edilir.

Açar sözlər: *milli kimlik, Azərbaycan nəsri, post-müharibə ədəbiyyatı, Vətən müharibəsi, bədii obraz, yaddaş*

Giriş

Milli kimlik – fərdlərin özlərini müəyyən bir xalq, mədəniyyət və tarixi irslə əlaqələndirmə forması kimi ədəbiyyatda daim aktuallığını qoruyan mövzulardan biridir. "Milli kimlik hər hansı bir millətin özünə xas dilini, adət-ənənələrini, mədəniyyətini, dinini, özünüifadə gerçəkliyini, davranış və ünsiyyət dəyərlərini komponentləşdirdiyindən, sadalanan cəhətlərin hamısının və ya bir neçəsinin yaradıcılıqda inikası bədii sənətdə milli kimliyin ifadəsi kimi dəyərləndirilə bilər" (Məmməd, 2020, s.4).

Azərbaycan ədəbiyyatında bu mövzu xüsusilə müharibə və milli mübarizə kontekstlərində ön plana çıxmışdır. 2020-ci il Vətən müharibəsindən sonra yaranan yeni dövrdə milli kimliyin bədii ifadəsi daha da fərqli çalarlarda təqdim olunmağa başlamış, nəsr əsərlərində bu anlayış həm tarixi yaddaş, həm də çağdaş reallıqla vəhdətdə işlənmişdir. Bu məqalə, son beş ildə yazılmış Azərbaycan nəsr nümunələri əsasında milli kimlik anlayışının necə yenidən formalaşdığını və ədəbi şəkildə təqdim olunduğunu araşdırmağı hədəfləyir.

44 günlük Vətən müharibəsində əldə olunan qələbə, ədəbiyyatda qəhrəmanlıq motivlərinin güclənməsinə səbəb oldu. Müharibə iştirakçıları, şəhidlər, qazilər və onların ailələri haqqında poetik və nəsr əsərləri meydana gəldi. İşğaldan azad olunan torpaqların bədii obrazı, Qarabağın tarixi və mədəni yaddaşı postmüharibə dövründə yazılan əsərlərin əsas mövzusuna çevrilib. Müəlliflər bu torpaqlara olan bağlılığı, uzun illər davam edən həsrəti və nəhayət qovuşmanı poetik dillə ifadə edirlər. Ədəbiyyatda əvvəlki dövrlərdəki romantik qəhrəman tipindən fərqli olaraq, bu dövrdə real döyüş iştirakçıları qismində əsgərlər, zabitlər, könüllülər milli qəhrəman kimi təqdim olunur. Onların bəzən adi insan həyatından müharibəyə keçidi, şəhidliyi, fiziki və psixoloji travmaları ədəbiyyatda öz əksini tapır.

Müəlliflər Qarabağ uğrunda döyüşləri yalnız müasir qəhrəmanlıq aktı kimi deyil, həm də tarixi davamlılıq kontekstində təqdim edirlər. Müharibəni görən, onun iştirakçısı olan və ya bu mühitdə bö-

yüyən gənc yazarlar öz bədii baxışları ilə bu dövrə fərqli prizmadan yanaşırlar. Onların əsərlərində daha çox daxili konflikt, reallıq və sosial məsələlər önə çıxır.

Müharibə sonrası dövrdə Azərbaycan cəmiyyətində milli həmrəylik və tarixi ədalətin bərpası ideyaları geniş vüsət aldı. Bu ideyalar ədəbiyyatda milli kimlik diskursunun əsasını təşkil etdi. Müəlliflər milli kimliyi təkcə etnik və coğrafi məfhum kimi deyil, həm də tarixi haqq, mədəni yaddaş və mənəvi qürur aspektlərindən təqdim etməyə çalışdılar. Qələbə sonrası ədəbiyyat bu kimliyi həm fərdi, həm də kollektiv identifikasiya səviyyəsində bədii obrazlaşdırmağa yönəldi.

Post-müharibə nəsrində milli kimlik aşağıdakı əsas bədii motivlərlə təqdim olunur:

Qəhrəman obrazı: Müasir əsgər və şəhid obrazları milli kimliyin təcəssümünə çevrilmişdir. Onların keçdiyi yol və göstərdiyi fədakarlıq, xalqın bütövlüyünü və tarix qarşısındakı mövqeyini simvolizə edir.

Torpaq və vətən motivi: Qarabağın azadlığı, torpağın təmizlənməsi, kəndlərin dirçəldilməsi prosesi – milli kimliyin "məkan" üzərindən ifadəsi kimi çıxış edir.

Tarixi yaddaşın dirçəldilməsi: Əsərlərdə tez-tez ulu babalara, itirilmiş yurd yerlərinə, tarixi şəxsiyyətlərə istinad olunur. Bu, kimliyin zamansal dərinliyini artırır.

Post-müharibə dövrü nəsrində müxtəlif nəsillərə mənsub yazıçıların fərqli yanaşmaları müşahidə olunur. Rövşən Abdullaoğlu kimi müəlliflər milli kimliyi fəlsəfi və tarixi aspektlərdə dəyərləndirərək, keçmiş və bu gün arasında paralellər qururlar. Bu yazarların əsərlərində şəxsiyyətin daxili transformasiyası, psixoloji dərinlik və milli mənsubiyyətin fərdi qəbulunu ön plana çıxarırlar. Konkret hadisələr, müharibə epizodları, qəhrəman hekayələri və s. vasitəsilə milli kimliyin canlı təbliğinə rast gəlinir. Əsərlərdə milli kimlik təkcə keçmişin nostalji elementi kimi deyil, həm də gələcək yönümlü bir layihə kimi təqdim olunur. Müəlliflər yeni nəsli milli ruhda yetişdirməyin vacibliyini vurğulayır, bunun üçün isə mədəniyyət, dil və mənəviyyatın qorunub saxlanmasının əhəmiyyətini qeyd edirlər.

Rövşən Abdullaoğlunun "Koramal" romanı, 2022-ci ildə nəşr olunmuş və müəllifin dördüncü romanı olaraq oxuculara təqdim edilmişdir. Əsər, Azərbaycanın müasir tarixi və milli kimlik məsələlərini dərindən araşdıran bir ədəbi nümunədir. Rövşən Abdullaoğlunun bu romanı, Azərbaycanın müasir ədəbiyyatında milli kimlik və tarixi yaddaş mövzularını dərindən işləyən əhəmiyyətli bir əsərdir. Əsər, oxuculara milli kimliyin qorunmasının və tarixi yaddaşın əhəmiyyətini anlamaqda kömək edir.

"Koramal", Sovet imperiyasının təsiri altında olan sadə insanların talelərini, Əfqanıstan və Qarabağ müharibələrinin pərdəarxası məqamlarını və bu müharibələrin insan psixologiyasına təsirini əks etdirir. Əsərdə, müharibələrin gətirdiyi faciələr, insanlarla manipulyasiya edən imperialist qüvvələr, xəyanət və siyasi oyunlar kimi mövzular ön plana çıxır. Roman, milli kimliyin formalaşmasında tarixi yaddaşın və kollektiv şüurun əhəmiyyətini vurğulayır. Əsərdə, "Qırmızı imperiya"nın təsiri altında olan insanların yaşadıqları çətinliklər və bu çətinliklərə qarşı göstərdikləri müqavimət, milli kimliyin qorunmasında mühüm rol oynayır. "Koramal", realist və psixoloji dərinliyi ilə seçilən bir romandır. Əsər, oxucular tərəfindən böyük maraqla qarşılanmış və qısa müddət ərzində bestseller siyahılarına daxil olmuşdur. Bu romanı sovet dönəminin imperialist ideologiyasının fərdi şüur və talelərə necə sirayət etdiyini, insanları zorla ideologiyanın "qırmızı cəbhəsinə" cəlb etməklə onların mənəviyyatını və mənsubiyyət hissini necə məhv etdiyini göstərir. Romanın əsas ideyası - əsl qəhrəmanlığın silahda deyil, vicdanda və yaddaşda yaşadığı fikridir. Əfqanıstan və Qarabağ savaşlarının qarşılaşdırılması isə bu faciənin transmilliliyini ortaya qoyur. Roman paralel xəttlərlə işlənmişdir: bir tərəfdə Əfqanıstanda sovet qoşunları tərkibində döyüşən gənclər, digər tərəfdə isə Qarabağ savaşında eyni dostların bir-birinə qarşı çevrilməsi. Kompozisiyanın spiralvari inkişafı – keçmişdən gələcəyə, şəxsi təəssüratlardan ümummilli ağrıya keçid – oxucunu həm tarixi, həm də emosional baxımdan formalaşdırır.

Əsərdəki əsas qəhrəmanlarının psixoloji dərinliyi, qərarsızlıqları, yad torpaqlarda məcburi qəhrəmanlıqları və vətən torpağında içəridən qopan sarsıntıları realistik və empatik obrazlar yaradır. Bu ob-

razlar vasitəsilə müəllif "dost və düşmən anlayışının kontekstual dəyişkənliyinə" toxunur. Roman yalnız hadisələrin deyil, hisslərin və mənəvi ziddiyyətlərin müharibəsidir. Müəllif suallar qoyur: "Vətən nədir?" "Dost kimdir?", "Qəhrəmanlıq ölümə getməkdir, yoxsa yaşamaq uğrunda yaşatmaq?" İnsan instinktləri ilə ali dəyərlərin toqquşduğu nöqtələrdə qəhrəmanlar təkcə düşmənlə yox, öz içləri ilə də vuruşurlar. Bu, əsəri sadəcə tarixi roman deyil, psixoloji-fəlsəfi dram səviyyəsinə yüksəldir.

"Beşguşəli qızıl ulduz" simvolu, yalnız sovet imperiyasının rəmzi deyil, həm də aldadılmış idealların, kimlik itkisinin simvoludur. Eyni zamanda "Koramal" adı özü də metaforik mənadadır – istiqamət verən, yol göstərən, amma bəzən yanlış istiqamətlərə aparan qüvvə.

Rövşən Abdullaoğlunun "Koramal" romanı ilə Erix Maria Remarkın "Üç yoldaş" əsərini xatırladır. Bu müqayisəli şəkildə təhlil etmək, hər iki əsərin müharibənin insan psixologiyasına, insanlıq dəyərlərinə və kollektiv yaddaşa necə təsir etdiyini dərinləşdirmək imkanı yaradır. Həm "Koramal", həm də "Üç Yoldaş" müharibənin dəhşətləri, insan ruhu və sosial ədalətsizliklər üzərində çoxlu təhlil və sorğular ortaya qoyur. "Koramal"da müharibənin təsiri şəxslərin daxili mübarizələrinə və döyüşlərdə yaşanan travmalara yönəldilmişdir. Bu, Vətən müharibəsi (Qarabağ müharibəsi) fonunda xüsusi olaraq vurğulanır. "Üç Yoldaş"da isə müharibənin dəhşətləri və fərdi psixoloji travmalar, müharibədən sonra həyatla bağlı qorxuların və təsirlərinin insan psixologiyasına təsirini dərindən göstərir. Personajlar, cəmiyyətin yeni müharibə sonrası qurulmasında yaşadıqları boşluqları doldurmağa çalışır. "Koramal"ın qəhrəmanları müharibənin dözülməz sosial və psixoloji təsirləri ilə mübarizə aparan və milli kimliklərini qorumağa çalışan insanlardır. "Üç Yoldaş"da isə əsas personajlar müharibədən sonra daxili və xarici dünyalarında qapalı bir dövr yaşayır, bu dövr onların gələcəklərini müəyyənləşdirir. "Koramal"da ölümün mənası, şəhidlik və xalqın qorunması anlayışları üzərində düşünülür. Həyat, vətən uğrunda mübarizənin davamlılığı kimi təqdim olunur. "Üç Yoldaş"da isə ölüm çox daha şəxsi və kədərli bir mənaya sahibdir, hər bir personajın həyatına qarşı fərqli bir münasibət var. "Koramal"da da milli kimlik, torpaq və şəhidlik üzərində qurulur. Kollektiv yaddaş, müharibə nəticəsində formalaşan və qorunması vacib olan bir dəyər olaraq təqdim edilir. "Üç Yoldaş"da isə kollektiv yaddaş daha çox müharibənin və cəmiyyətin yaranan dəhşətləri üzərində qurulub. Həm "Koramal", həm də "Üç Yoldaş" müharibə sonrası dövrün sosial və psixoloji təsirlərini müxtəlif baxış bucaqlarından təhlil edən əsərlərdir. Abdullaoğlunun əsəri milli kimlik və şəhidlik aspektinə daha çox fokuslanarkən, Remarkın əsəri müharibənin fərdi həyatlara və sosial əlaqələrə vurduğu travmalar üzərində qurulmuşdur. Hər iki əsər, müharibənin həyatın mənasına, insan psixologiyasına və kollektiv yaddaşa təsirini dərindən təsvir edir, ancaq fərqli yanaşma və baxış açılarından.

"Koramal" romanı Rövşən Abdullaoğlunun bədii-fəlsəfi düşüncə tərzinin yetkin bir nümunəsidir. Əsər yalnız müharibə və dostluq haqqında deyil, yaddaşın, kimliyin və vicdanın da döyüş meydanında sınadığı bir mətn kimi oxunur. Roman çağdaş Azərbaycan ədəbiyyatında postimperial yaddaşın və milli özünüdərkin bədii ifadəsi kimi qiymətləndirilə bilər.

Nəticə olaraq, Rövşən Abdullaoğlunun yaradıcılığında milli kimlik anlayışı fərqli estetik və fəlsəfi platformalarda qurulmuşdur: biri kimliyi tarix və ideologiya ilə, digəri isə psixologiya və insan taleyi ilə əlaqələndirir. Bu fərqli yanaşmalar birlikdə Azərbaycan post-müharibə ədəbiyyatında milli kimliyin çoxqatlı təzahürünü formalaşdırır – həm keçmişin təməlində, həm də bu günün həyatında.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullaoğlu, R. (2022). Koramal. Bakı: Qədim Qala.
2. Məmməd, T. (2020). Milli kimlik və bədii mətn. Bakı: Elm və Təhsil.
3. Remark, E. M. (2013). Üç Yoldaş. Bakı: Qanun.

POST-WAR AZERBAIJANI PROSE AND ISSUES OF NATIONAL IDENTITY

Dilara Aliyeva

The post-war period in Azerbaijani literature - encompassing works created in the aftermath of both the First Nagorno-Karabakh War and the Second Karabakh War in 2020 - is characterized by emerging literary trends and thematic renewals that draw considerable attention in the contemporary era. In this literary landscape, themes of national pride, patriotism, martyrdom, and emotionally and aesthetically charged portrayals of the liberation of Karabakh come to the forefront. Following the Patriotic War, a new artistic reflection on issues of national identity has emerged in Azerbaijani prose, situated within a transformed socio-political context. The new realities formed in the wake of victory have directed the focus of writers and publicists toward the relationship between individual and collective memory, as well as a renewed understanding of historical and cultural identity. This article analyzes how the concept of national identity is represented in Azerbaijani prose of the post-war period, examining its literary structure and ideological content.

Keywords: *national identity, Azerbaijani prose, post-war literature, Patriotic War, literary image, memory*

QAÇAQ DASTANLARININ XX ƏSR AZƏRBAYCAN DRAMATURGİYASINA TƏSİRİ

Güntəkin Musayeva
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Aparıcı elmi işçi
guntekinmusayeva@gmail.com
https://orcid.org/0009-0008-6872-0537

XX əsrin əvvəllərində Azərbaycan dramaturqları milli kimliyin və mədəni davamlılığın qorunması məqsədilə folklor ənənələrindən və şifahi xalq ədəbiyyatından geniş şəkildə bəhrələnmişlər. Qəhrəmanlıq dastanları xalq dramlarının formalaşmasına müəyyən təsir göstərsə də, qaçaq dastanlarının dramaturgiyaya təsiri daha birbaşa və qabarıq olmuşdur. Bu təsir özünü ilk növbədə süjet quruluşunda, obrazlar sistemində və poetik ifadə vasitələrində göstərir.

Qaçaq dastanları real tarixi şəxsiyyətlər əsasında formalaşsa da, həm realist xarakter daşıdıqları, həm də sovet ideologiyasının milli şüura yönəlmiş təzyiqləri səbəbindən klassik dastan səviyyəsində tam inkişaf edə bilməmişdir. Bununla belə, həmin dastanların bədii xüsusiyyətləri Azərbaycan dramaturgiyasında öz əksini tapmış və yeni məzmun qazanmışdır.

Nəcəf bəy Vəzirovun "Keçmişdə qaçaqlar" və Süleyman Rüstəmin "Qaçaq Nəbi" pyesləri qaçaq dastanları ilə sıx bağlı olan əsərlərdir. Lakin bunlardan yalnız "Qaçaq Nəbi" xalq yaddaşında yaşayan real qəhrəman obrazına əsaslanır. Araşdırma göstərir ki, dramaturgiyada dastan poetikasından istifadə üçün tarixi qəhrəmanın mövcudluğu mütləq şərt deyildir; dastana məxsus poetik strukturlar və bədii modellər müstəqil sənət vasitələri kimi də uğurla fəaliyyət göstərə bilir.

Açar sözlər: *folklor, yazılı ədəbiyyat, janr, qaçaqçılıq dastanları, dram*

Giriş

XX əsr Azərbaycan dramaturqları xalq yaddaşını, folklor ənənələrini yazılı ədəbiyyatda yaratmağa xüsusi əhəmiyyət vermişlər. Qəhrəmanlıq dastanları bütövlikdə xalq dramlarının yaranmasına böyük təsir göstərsə də, onların qaçaqçılıqla bağlı variantı yazılı dramaturgiyaya daha çox təsir göstərmiş və yeni formalarının yaranıb formalaşmasında daha böyük rol oynamışdır. Bu təsirlənmə daha çox janrın poetik strukturundan faydalanmadan və qaçaq dastanının məlum süjet, obraz və situasiyalarından, zaman-məkan kompleksindən istifadə özünü göstərir.

Qaçaqçılıq dastanları real hadisələrə əsaslansa da eposlaşmadı. Dastanların epos janrının tələblərinə tam cavab verməməsi onların real tarixi şəxsiyyətlərə əsaslanması, xalq arasında tanınması və zəngin rəvayət ənənəsi ilə yanaşı, sovet rejiminin milli ruhu zəiflətməsi ilə bağlıdır. Bu səbəbdən poetik mətnə etnosun tələblərinə uyğun motiv və elementlər geniş şəkildə daxil edilməmişdir. Lakin bu dastanlar xalq arasında geniş nüfuz qazandı və yazılı ədəbiyyata təsiri artdı.

Xalqın ruhunu oyatmaq məqsədilə dramaturqlar qəhrəmanlıq və qaçaqçılıq dastanlarının poetik quruluşunu əlverişli bir vasitə kimi seçirlər. Xalqı ruhlandırmaq və onunla daha asan ünsiyyət qurmaq məqsədilə onun gen yaddaşında mövcud olan formalarla müraciət etmək psixoloji baxımdan təsirli nəticələrə yol açа bilərdi. Mifin, folklorun milli mədəniyyət qaynağı kimi yenidən canlanması XX əsrdə təkcə Azərbaycan yox, bütün dünya üçün xarakterik hadisə idi. *"XX əsr mədəniyyətinin mif işarəsi altında inkişaf edəcəyini görkəmli alim A.F.Losev uzaqgörənliklə bildirirdi. Həqiqətən, ayrı-ayrı tarixi mərhələlərdə dövrün ideya-estetik tələbləri səbəbiylə mifdən istifadə üçün heç də həmişə münbit şərait və əlverişli zəmin olmamışdır. XX əsrin düşüncəsində isə mif mərkəzi anlayışlardan biri kimi qərarlaşdı"* (Bəkirqızı, 2015, s. 45). Müraciət olunan mənbədə mifdən bəhs edilsə də, həmin nəticəni ümumilikdə xalq yaradıcılığına və qədim dünyagörüşü sistemindən qaynaqlanan ənənəyə də aid etmək mümkündür. Qeyd etdiyimiz kimi, XX əsrin əvvəlləri milli oyanışın gücləndiyi bir mərhələ kimi səciyyələnir. Bu dövrdə xalqlar öz mədəni irslərinə yenidən nəzər salır, mövcud dəyərləri təhlil edir və milli kimliklərini daha dəqiq şəkildə müəyyənləşdirməyə çalışırdılar. Belə bir ümumbəşəri özünüdərk və

qoruma prosesində ədəbi ənənələrin rolu xüsusi əhəmiyyət kəsb edirdi. Xüsusilə xalqın yaddaşını yaşadan əsas mənbələrdən biri olan şifahi ədəbiyyatın yazılı ədəbiyyatda qorunub saxlanılması və davam etdirilməsi məsələsi ön plana çıxırdı. Həmin nöqteyi-nəzərdən yanaşdıqda, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatına folklorun bütün struktur komponentləri, o cümlədən də forma və janr əlvanlığı ilə nüfuzunun güclənməsini müşahidə edirik.

Qaçaq dastanları və yazılı ədəbiyyatın yaxın mövqedən çıxış etməsi, mübarizlik, haqsızlığa etiraz ruhu aşılaması XX əsr Azərbaycan ədəbiyyatında Nəcəf bəy Vəzirovun "Keçmişdə qaçaqlar", Cəfər Cabbarlının "Nəsrəddin şah", "Trablis müharibəsi" və "Od gəlini", Süleyman Rüstəmin "Qaçaq Nəbi" əsərlərində də rast gəlirik. Eyni zamanda Səməd Vurğunun xalq qəhrəmanlıq dramlarında da qaçaqçılıqla bağlı motivlərlə rastlaşırıq. Adı çəkilən əsərlərdən yalnız "Keçmişdə qaçaqlar" və "Qaçaq Nəbi" dramlarında hadisələrin baş verdiyi məkanlar, ədəbi qəhrəman, onun ailəsi, dostları, köməkçi qüvvə (at), düşmənlə qarşılaşma formaları, hadisələrin yekunlaşma forması dastan poetikasından gəlmə elementlərin kompleks şəklində iştirakını müşahidə edirik. Digərlərində daha çox folklor süjetinin ayrı-ayrı elementləri, motivləri və ya janrın bəzi komponentləri özünü göstərir.

Nəcəf bəy Vəzirovun "Keçmişdə qaçaqlar" əsəri Azərbaycan dramaturgiyasında çar Rusiyasının işğalçılıq siyasətinə qarşı mübarizə motivləri ruhunda yazılmış ilk dramdır. *"Keçmişdə qaçaqlar" əsərində qarşı-qarşıya duran, üz-üzə gələn qüvvələr köhnəliyin cahil tərəfdarları ilə yenilikçi gənclər deyil. Burada İvanov özündən əvvəlki İvanovun iş üsulunu davam etdirərək yerli satqınlardan öz ətrafına toplayır və xalq arasında var-dövləti, nüfuzu ilə seçilən insanları sıradan çıxarmağa çalışır. Qarşı tərəfi, yəni İvanov qrupu ilə üz-üzə gələnləri xalqın bütün təbəqəsindən olanların birliyi təmsil edir – onların içərisində bəy, tacir, nökər, qadın, qız və hətta dövlətdən üz çevirmiş məmur da var. Yazıçı hadisələri qaçaq dastanlarından gəlmə motivlərlə təqdim edərək dramaturgiyanı milli poetika elementləri ilə zənginləşdirir, eyni zamanda, dramatik epos ənənəsini də inkişaf etdirir" (Məmməd, 2017, s. 22).* Tahirə Məmmədin fikirlərindən də aydın olur ki, müəllif mübarizə ideyasını yalnız məzmun səviyyəsində deyil, eyni zamanda poetik forma vasitəsilə də ifadə etmişdir.

Keçmişdə qaçaqlar kimi, Süleyman Rüstəmin Qaçaq Nəbi dramının poetik quruluşunda da qaçaqçılıq dastanları ilə diqqətəlayiq uyğunluqlar müşahidə olunur. Əsərdə hadisələrin cərəyan etdiyi məkanlar, baş qəhrəman obrazı, onun ailə və dost çevrəsi, yardımçı qüvvə kimi təqdim olunan at motivi, düşmənlə qarşıdurma üsulları və süjetin tamamlanma forması dastan poetikasından qaynaqlanan elementlərin sistemli şəkildə birləşdiyini göstərir.

Nəcəf bəy Vəzirovdan fərqli olaraq, Süleyman Rüstəmin bu əsəri real tarixi şəxsiyyətə – Qaçaq Nəbiyə həsr edilmişdir. Bu isə onu fərqləndirən əsas cəhətlərdəndir, çünki həmin qəhrəman haqqında xalq arasında dastanlar və rəvayətlər formalaşmış, onun adına müxtəlif mahnılar yaranmışdır.

Pyesdə adı çəkilən bir çox qəhrəmanlara Qaçaq Nəbi haqda olan rəvayət və dastanlarda da rast gəlirik, bir qismi isə müəllif təxəyyülünün məhsuludur. Pyesdə əsas qəhrəman və onun silahdaşlarının real şəxslər olması, tarixdə, dastanda və pyesdə baş verən hadisələrin çox uyğunluğu, Süleyman Rüstəmin dastana aid bəzi şeir parçalarından olduğu kimi əsərində istifadə etməsi "Qaçaq Nəbi"dən tarixi əsər kimi bəhs etməyə əsas verir. Həmin hökmü "Keçmişdə qaçaqlar" haqda səsləndirmək mümkün deyil. Hər iki əsər – istər "Keçmişdə qaçaqlar", istərsə də "Qaçaq Nəbi" qaçaqçılıq mövzusunda və qaçaq dastanlarının janr poetikasından bəhrələnməklə yazılmışdır. Buna baxmayaraq, "Qaçaq Nəbi" tarixi-qəhrəmanlıq dramı olsa da, "Keçmişdə qaçaqlar" tarixi-qəhrəmanlıq dramı deyil. Bu isə bizə belə qənaətə gəlməyə əsas verir ki, qaçaqçılıq dastanlarının poetikasından bəhrələnmək üçün əsərdə tarixi qəhrəmana, onun mübarizəsinə yer ayırmaq mütləq şərt deyil.

Nəticə olaraq, qaçaqçılıq dastanları XX əsr Azərbaycan dramaturgiyasında əsasən poetik struktur və janr xüsusiyyətləri səviyyəsində təsir göstərmişdir. Bu təsir süjet quruluşu, obrazlar sistemi və zaman-məkan təşkilinin dramatik əsərlərdə istifadəsi ilə özünü büruzə verir. Bəzi əsərlərdə bu elementlər kompleks şəkildə qorunduğu halda, digərlərində qismən və ya seçmə şəkildə tətbiq olunmuşdur. Qaçaq dastanlarının real tarixi hadisələrlə bağlılığı və ictimai-siyasi amillər onların klassik epos kimi forma-

laşmasını məhdudlaşdırmışdır. Bununla belə, həmin dastanların dramaturgiyada istifadəsi milli poetik ənənənin davamlılığını təmin etmişdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Bəkirqızı, P. (2015). Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. Bakı: Elm və Təhsil.

2. Məmməd, T. Q. (2017). Realizmin tipoloji xüsusiyyətləri və Azərbaycan ədəbiyyatında inkişaf mərhələləri. Poetika.izm, (3), 20–29.

THE IMPACT OF OUTLAW EPIC TRADITIONS ON TWENTIETH-CENTURY AZERBAIJANI DRAMATURGY

Guntakin Musayeva

In the early 20th century, Azerbaijani dramatists actively incorporated folklore traditions and oral literature into written works to strengthen national identity and cultural continuity. Although heroic epics influenced the formation of folk dramas, outlaw (qaçaq) epics had a more direct impact on dramaturgy, particularly in terms of plot, characters and poetic structure. These epics, while based on real historical figures, did not fully develop into classical epics due to both their realistic nature and the suppressive influence of the Soviet regime on national consciousness. Plays such as "Keçmişdə qaçaqlar" by Najaf bay Vazirov and "Gachag Nabi" by Suleyman Rustam demonstrate strong connections with outlaw epics, though only the latter is based on a real folk hero. Overall, the use of epic poetic elements in drama does not necessarily require a historical protagonist, as these structures can function independently as artistic devices.

Keywords: *folklore, written literature, genre, outlaw epics, drama*

AZƏRBAYCAN FOLKLORUNDA SİMVOLİKA VƏ OXŞAR MOTİVLƏR (YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN FİKİRLƏRİ ƏSASINDA)

Nurlanə Məmmədova
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
memmedovanurlane89@gmail.com
https://orcid.org/0000-0002-1734-8949

Azərbaycan ədəbiyyatının tarixinin qədimliyini göstərən amil şifahi xalq ədəbiyyatı ilə bağlıdır. Buna görə də folkloru araşdırmaq və mətnləri gələcəyə qoruyub saxlamaq vacib məsələdir. Tədqiqatda yazıçı Yusif Vəzir Çəmənzəminlinin folklora münasibəti diqqətə çatdırılmışdır. Yusif Vəzir Çəmənzəminli ortaq dəyərlərə malik olan xalqlar arasında süjet oxşarlığının səbəblərini araşdırmağa çalışmışdır. O, əsatirçilər nəzəriyyəsi, iqtibas nəzəriyyəsi, Fin məktəbi, antropoloji nəzəriyyə, tarixi məktəb və poligenizm nəzəriyyələrinin süjetlər arasında olan ortaq xüsusiyyətlərə hansı prizmadan yanaşması məsələsini diqqətdə saxlamışdır. Yazıçı iqtibas və antropoloji nəzəriyyənin nümayəndələrinin problemə yanaşma tərzini üstün tutmuşdur. Ədib Azərbaycan nağıllarında olan rəqəmlərin simvolik mahiyyətini aşkar etməyə cəhd edən ilk yazıçı tənqididir. Yazıçı xalqlar arasında ortaq düşüncənin məhsulu kimi atalar sözü və məsəllərin rolunu xüsusi qeyd etmişdir. Yusif Vəzir Çəmənzəminlinin folklorda rəqəm simvolikasının əsasında tapdığı sakramental mahiyyəti, müxtəlif xalqlar arasında ortaq dəyərlərin mövcudluğu barədə nəzəriyyələri qiymətləndirməsi meyarı nəzərdən keçirilərkən problemlərə yazıçı tənqidi prizmasından baxılmışdır. Onun fikirlərində elmilikdən çox tarixi keçmişə sadiqlik nümayiş olunur. Yusif Vəzir Çəmənzəminlinin məqalələrində folklor milli yaddaş və milli kimliyin əsas amili kimi xarakterizə olunur.

Açar sözlər: *folklor, oxşar motivlər, rəqəm simvolikası, nəzəriyyələr, milli yaddaş*

Giriş

Bir ədəbiyyatın zənginliyini göstərən amil şifahi xalq ədəbiyyatının mövcudluğu ilə bağlıdır. Çünki tarixi qədim olan xalqın ədəbiyyatının da eyni səviyyədə olması mənəvi dəyərlərin və müasir inkişafın öz milli kökünə bağlılığını təmin edir. Ədəbiyyatda özünü göstərən yeni təmayüllərin xarici mənbədən çox milli ənənədən qidalanması vacibdir. Novatorluğun tarixi yaddaş üzərində qurulması xalqın təfəkkür gücünün və dünyagörüşünün qorunmasına şərait yaradır. Bu məsələnin dəyərləndirilməsini Yusif Vəzir Çəmənzəminlinin tədqiqatlarında müşahidə edə bilərik. O, folkloru dar çərçivədən deyil, bəşəri aspektdən qiymətləndirmişdir. Folklor materiallarının çox variantlılığı onun fikirlərini təsdiq edir. Bu zaman o, milli çalarların bəşəri mövzuya əlavə edilməsinin mahiyyətini izah etmişdir. Yəni xalq ədəbiyyatından gələn mövzuların bir millətə mənsubluğu onun kollektiv yanaşma məhsulu olmasının dar çərçivəsidir. Problemə geniş aspektdən diqqət yetirdikdə folklor millətlərin mədəni əlaqələrini yaxınlaşdıran, oxşar motivlərə əsaslanan sənət nümunəsidir. Bu cəhətdən Yusif Vəzir Çəmənzəminlinin atalar sözləri və məsəlləri müqayisə etməsi düzgün yanaşmadır. Belə ki, insan təfəkkürü ortaq düşüncəni fərdiləşdirmək gücünə malikdir. Xalq ədəbiyyatının müxtəlif xalqların ortaq dəyərlərinə sahib olması və hər bir xalqın özünəməxsusluğuna tabe olması onu invariantlıqdan çıxarır. Bu barədə Y.V.Çəmənzəminli yazırdı: *"Hər xalqın yalnız özünə məxsus və başqasınınkına heç də bənzəməyən folkloru olsaydı, meydana əsatiri, iqtibas, poligenizm, antropoloji kimi bir sıra nəzəriyyələr çıxmazdı"* (Çəmənzəminli, 2005, s. 306-307).

Oxşar xüsusiyyətlərin səbəbini üzə çıxarmağa xidmət edən bu nəzəriyyələrə tədqiqatçının münasibəti açıqdır. O, süjetlər arasında oxşarlığı qohumluq əlaqələri ilə izah edən əsatirçilər nəzəriyyəsi, ta-

rixi-mədəni əlaqələrlə izah edən iqtibas nəzəriyyəsi, tarixi-coğrafi amili üstün tutan Fin məktəbi, eyni mənəvi və psixoloji amillərlə əlaqələndirən antropoloji nəzəriyyə, xalqın tarixi ilə bağlayan tarixi məktəb, müxtəlif irqlərlə bağlayan poligenizm nəzəriyyəsi içərisində iqtibas nəzəriyyəsinin tərəfdarı kimi çıxış edirdi. Oxşar süjetlərin Şərqdən iqtibas edilməsi ilə razılaşır, Avropada olan dastanlarda Zərdüşt inancının təsirini aydınlaşdırırdı.

Onun ari nəzəriyyəsi (əsatircilər nəzəriyyəsi) ilə razılaşmamasının səbəbləri vardır. Birinci səbəb bir-biri ilə qohum olmayan irqlərin də arasında süjet oxşarlığının olmasıdır. Onların irəli sürdüyü müddəa belədir ki, nağıl, əfsanənin əsatirdən yaranması ari irqinin başqa ərazilərə getməsi ilə bağlıdır. Tədqiqatçının fikrincə, bu müddəa özünü doğrultmur. Çünki bu ibtidai əsatirlər məkan və zaman məfhumuna tabe olub, öz ilkin versiyasını dəyişib təkamülə uğramalıdır. *"Başqa-başqa xalqların müəyyən adətlərinin bir-birinə bənzəməsi ibtidai insanların eyni psixologiyaya malik olmaqlarından irəli gəlir. Odur ki, ibtidai etiqaddan ibarət olan əsatir bütün xalqlara aiddir, bir-birinin eynidir"* (Çəmənzəminli, 2005, s. 295). Bu da göstərir ki, yazıçı öz düşüncələri etibarilə antropoloji məktəbin mülahizələrini də üstün tutmuşdur.

"Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri" mövzulu tədqiqat işində folklorşünaslıq elminin nəzəri əsaslarını yaradan bir şəxsiyyət kimi təqdimi diqqəti cəlb edir. *"Elə təkcə, nağıllarla bağlı məqalələrini araşdırsaq, bu zəhmətkeş alimin gərgin axtarışlarının və analitik düşüncə tərzinin məhsulu olan həmin məqalələrdə olduqca dəyərli faktlar və elmi-nəzəri mübahisələr olduğunun fərqinə vararıq"* (Hümbətova, 2014, s. 121) fikrini irəli sürən Şəlalə Hümbətovanın doğru nəticəsidir ki, şifahi xalq ədəbiyyatında Yusif Vəzir Çəmənzəminli toplanma, qruplaşdırma və xüsusiyyətlərin açılması istiqamətində ilkin mərhələdə böyük işlər görmüşdür. Lakin elmi-nəzəri səviyyə etibarilə onun verdiyi məlumatlar bəzən natamamdır. Yəni, problemi bəzən üst qatda həll etmiş, mahiyyətin dərinliyinə çatmamışdır. Bununla belə, üslubu və çatdırmaq istədiyi məzmun aydındır. Şəlalə Hümbətova onun Avropa folklorşünaslığında olan nəzəriyyələrə münasibətinə diqqəti yönəltməmişdir. Bizim fikrimizcə, Yusif Vəzir Çəmənzəminlinin tənqidçi kimliyi bu məktəblər barədə olan fikirlərində daha aydın üzə çıxmışdır.

Vəzir Çəmənzəminli elmi fikirdə hökm sürən nəzəriyyələrə janrın xüsusiyyətlərinə əsasən yanaşmışdır. Atalar sözü, bayatı, tapmaca, vəsfi-hallarda tarixi nəzəriyyənin, nağıl, əfsanələrdə Fin məktəbinin, dastanlarda iqtibas nəzəriyyəsinin müddəalarını görmüşdür. Vəsfi-halın, ağıların, atalar sozlərinin izahında başqa xalqlarla paralelliklərin aparılması ilə janrın qədimliyi və milli çalarlara əsaslanması qeyd edilmişdir.

Yusif Vəzir Çəmənzəminli nağıl, atalar sözləri, bayatı, ağı, vəsfi-hal, sayaçı sözlər, tapmaca janrının xüsusiyyətlərini izah edərkən xalqın təcrübəsinə əsaslanan fəlsəfi məzmuna toxunmuşdur. "Məlik Məmməd" nağılının məzmununa və aşıladığı ideyaya görə "Avesta" ilə uyğunlaşdırılmasında qədim ənənədən bəhrələnməni diqqətə çatdırmışdır. O, folklorun mahiyyətini Zərdüştlə bağlayan tədqiqatçıdır. Nağılların bölgüsü əsasında özününküləşmə məfhumu əsas götürülür. O, Zərdüşt fəlsəfəsindən doğan nağıllar, tarixi nağıllar və uşaq nağılları bölgüsündə millilik zəminində əsaslanır. "Avesta"dan gələn fəlsəfənin təsirinin Novruzun gəlişi ilə təbiətin soyuqdan çıxıb istiyə qovuşmasında axtarılması, fəsillərin növbələşməsinin Xeyirlə Şərin mübarizəsi kimi mənalandırması ilə yekunlaşır. Duvaqqapma, ölüyə qüsl verilən yerdə şam yandırılması adətində 3 rəqəmi, çillə, şər vaxtı, vəsfi-hal, dörd ünsür haqqında məlumatlarda Zərdüşt təsirinin nəticəsi izlənilmişdir. Y.V.Çəmənzəminlinin məqsədi folklorun mənşəyini tapmaqdır. Novruz adətləri ilə bağlı gəldiyi yekun qənaətdə bunu görmək mümkündür. "Xalq ədəbiyyatımız əsrlərin məhsulu olan kimi və minbir mədəni nüfuzlardan ilham alan kimi, adət və ayinləri-

miz də eyni yolları keçmişdir, burada da zərdüştilik təməl daşı vəziyyəti alır, "Avesta" fəlsəfəsi hər yerdə hökmrandır" (Çəmənzəminli, 2005, s. 308).

Yusif Vəzir Çəmənzəminli "Məlik Məmməd" nağılında rəqəm simvolikasının mahiyyətinə varmağa çalışmış, 2, 3, 7, 40 rəqəminin mistik əhəmiyyətini qeyd etmişdir. Onun tədqiqatında 2 rəqəmi "Avesta"dan gələn Xeyir və Şər mübarizəsinin xarakteristikasını verir. Deməli, bu rəqəm təbiətdəki ikiliyin simvoludur. Digər rəqəmlərin nağıllarda hansı şəkildə təsviri qeyd edilsə də, sakral mənası tam izah olunmur. İnsan təfəkkürünun ilkin başlanğıcını göstərən, inanc sistemini ehtiva edən bu rəqəmlərin varlığı nağılda daşıdığı funksiya ilə uzlaşdırılmır. Yusif Vəzir Çəmənzəminli rəqəmlərin simvolikasını tam açmasa da, bu tipli tədqiqatların yazılmasının ilkin başlanğıcını qoymuşdur. Oruc Əliyev "Azərbaycan nağıllarında üç, yeddi, qırx rəqəmlərinin simvolikası" məqaləsində bu rəqəmlərin semantikasını dünya və zaman birləşməsi şəklində izah etmişdir: *"Müqəddəs rəqəmlərin yaranmasında dünyanın quruluşu ilə bağlı mifoloji konsepsiya mövcuddur və bu bir sıra folklor nümunələrində, o cümlədən nağıllarda öz ifadəsini tapmışdır. Azərbaycan nağıllarında üç, yeddi və qırx rəqəmlərinin uğur, müqəddəslik və sehr funksiyaları bu anlayışlarla sıx bağlıdır. Üç rəqəmi əsasən uğur mənasında istifadə olunur; yeddi rəqəmi qismən ay tsikli hadisələrinə görə zamanla əlaqələndirilir. Qırx "çox" anlayışını təmsil edir" (Aliyev, 2021, s. 125).* Belə nəticəyə gəlmək olar ki, "3 - 7 - 40" rəqəm ardıcıllığı uğuru təmsil edib, tamamlanma, çoxluğa gedən yola işarədir. Sadədən mürəkkəbə prinsipinə əməl edilir. Folklor materiallarının əvvəli 3 rəqəmi ilə başlayır, ortasında 7 rəqəmi peyda olur, sonda 40 rəqəmi ilə mahiyyət genişləndirilir. Yekun nəticə sınaqlardan çıxmış uğurun sonsuzluğu və bütövlüyü mənasına gəlir. "Məlik Məmməd" nağılının əvvəlindəki 3 oğul, 3 div və 3 qız nağılın süjet xəttində yerüzü - yeraltı - göyüzü modelini tamamlayır. Nağılın inkişaf xətti 3 cəhddən sonra hadisələrin reallaşması ilə uğuru göstərir. Quyuda 7-ci otaqda divlə 40 gün, 40 gecə döyüşmə uğura gedən yolda sınaqdan keçməyə işarədir. 40 rəqəmi isə uğurun əldə edilməsini göstərən tamamlanma rəmzidir. Şəlalə Hümbətova bu məsələni sufiliklə bağlayan fikirlərin tərəfdarı kimi çıxış etmişdir. *"Azərbaycan xalqının təfəkküründə müqəddəs (uğurlu) rəqəm sayılan üç, yeddi, qırx saylarının rəmzi mənası, fəlsəfəsi haqqında düşünəndə, ilk növbədə, sufizm fəlsəfəsi, sufilik təriqəti - "üçlər", "yeddilər", "qırxlar" yada düşür"* (Hümbətova, 2014, s. 126). Bu rəqəmlərin ezoterik vəziyyətinin tam mənası isə açılmamış qalır. Tədqiqatda fikir var, fikrin araşdırılan obyektdə təcrübi mahiyyəti, isbatı yoxdur.

Yazıçının tənqidində xalq ədəbiyyatı milli yaddaşı və psixologiyanı qoruyub saxlayan, yazılı ədəbiyyata istiqamət verən sahə kimi dəyərləndirilmişdir. Bir yazıçının milli kökə qayıdışı və ədəbiyyatı bu keçmişin izi ilə araşdırması ədəbiyyata məsuliyyət borcunu göstərir. Onun tədqiqatları Azərbaycan ədəbiyyatının ilkin qaynaqlarına həssaslıq və qayğı ilə yanaşmağı gələcək tədqiqatlar üçün aşılayırdı. Şifahi xalq ədəbiyyatı xalqın daxili dünyasını göstərən mətnlər kimi səciyyələndirilir. Nəticədə xalq ədəbiyyatı həyati təcrübənin fəlsəfi və əməli izahı kimi xarakterizə olunur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Aliyev O. (2021). On the symbolism of numbers three, seven and forty in Azerbaijani folk stories. Revista Conrado. 17(78), p. 121-126.

2. Çəmənzəminli Y.V. (2005). Əsərləri. 3 cilddə, III cild. Bakı: "AVRASİYA PRESS".

3. Hümbətova Ş. (2014). Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri: filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı: Bakı Dövlət Universiteti.

SYMBOLISM AND SIMILAR MOTIFS IN AZERBAIJANI FOLKLORE (BASED ON THE VIEWS OF YUSIF VAZIR CHAMANZAMINLI)

Nurlana Mammadova

The antiquity of Azerbaijani literary history is closely linked to its rich tradition of oral folk literature. For this reason, the study of folklore and the preservation of its texts for future generations constitute an important scholarly task. This research highlights the attitude of the writer Yusif Vazir Chamanzaminli toward folklore. Yusif Vazir Chamanzaminli sought to investigate the causes of plot similarities among peoples sharing common cultural values. He examined how various theoretical frameworks namely mythological theory, borrowing (diffusionist) theory, the Finnish school, anthropological theory, the historical school, and the theory of polygenesis approach the shared features of narrative plots. The writer showed a preference for the perspectives advanced by representatives of the borrowing and anthropological theories. Furthermore, he is regarded as one of the first writer-critics to attempt to uncover the symbolic significance of numbers in Azerbaijani folktales. He also emphasized the role of proverbs and sayings as expressions of a shared intellectual heritage among different peoples. In assessing his interpretations of the sacramental essence underlying numerical symbolism in folklore, as well as his evaluation of theories concerning the existence of common values across cultures, this study adopts the perspective of writerly criticism. His views tend to reflect a stronger commitment to historical tradition than to strict scientific methodology. Within his framework, folklore is characterized as a fundamental component of national memory and identity.

Keywords: *folklore, similar motifs, numerical symbolism, theories, national memory*

AZƏRBAYCANIN UNESCO İLƏ ƏMƏKDAŞLIĞI KONTEKSTİNDƏ TÜRK MƏDƏNİ İRSİNİN QORUNMASI VƏ TƏBLİĞİ

Lalə Şabanova
AMEA-nın Folklor İnstitutu
Böyük elmi işçi
lale.shabanova@gmail.com
https://orcid.org/0000-0003-3266-2917

Bu məqalədə Azərbaycanın UNESCO ilə əməkdaşlığı kontekstində türk mədəni irsinin qorunması və təbliği məsələləri kompleks şəkildə elmi baxımdan təhlil olunur. Müasir qloballaşma şəraitində milli-mədəni dəyərlərin qorunması, onların transformasiya olunmadan gələcək nəsillərə ötürülməsi və beynəlxalq səviyyədə tanıdılması mühüm elmi və praktiki problemlərdən biri kimi çıxış edir. Bu baxımdan, UNESCO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair qəbul etdiyi beynəlxalq hüquqi sənədlər, xüsusilə 2003-cü il Konvensiyası, mədəni irsin mühafizəsi və təşviqi istiqamətində əsas institusional mexanizm kimi dəyərləndirilir.

Məqalədə Azərbaycanın bu çərçivədə həyata keçirdiyi dövlət siyasəti, mədəni diplomatiya strategiyası və beynəlxalq əməkdaşlıq təcrübəsi geniş şəkildə araşdırılır. Azərbaycanın UNESCO ilə səmərəli əməkdaşlığı nəticəsində bir sıra milli və ümumtürk mədəni irs nümunələrinin beynəlxalq siyahılara daxil edilməsi bu sahədə əldə olunan mühüm nailiyyətlər kimi qiymətləndirilir. Xüsusilə, aşıq sənəti, muğam və Novruz kimi zəngin ənənələr yalnız Azərbaycan mədəniyyətinin deyil, bütövlükdə türk dünyasının ortaq mənəvi sərvəti kimi təqdim olunur və onların qorunması istiqamətində həyata keçirilən tədbirlər elmi müstəvidə təhlil edilir.

Eyni zamanda, məqalədə mədəni irsin qorunması və təbliği sahəsində qarşıya çıxan çağırışlar, o cümlədən qloballaşmanın yaratdığı unifikasiya meyilləri, ənənəvi dəyərlərin kommersiyalaşması və nəsillərarası ötürülmə problemləri də nəzərdən keçirilir. Tədqiqat nəticəsində belə qənaətə gəlinir ki, Azərbaycan UNESCO ilə məqsədyönlü və davamlı əməkdaşlıq qurmaqla həm milli mədəni irsin qorunmasına, həm də türk mədəniyyətinin beynəlxalq miqyasda tanıdılmasına mühüm töhfə verir və bu istiqamətdə həyata keçirilən siyasət gələcək perspektivlər baxımından da böyük əhəmiyyət kəsb edir.

Açar sözlər: *UNESCO, maddi mədəni irs, Azərbaycan, türk mədəniyyəti, mədəni irsin qorunması*

Giriş

Milli-mənəvi dəyərlər hər bir xalqın tarix boyu formalaşdırdığı maddi və mənəvi mədəniyyət nümunələrində əks olunan, onun kimliyini və özünəməxsusluğunu müəyyənləşdirən əsas amillərdən biridir. Bu dəyərlər cəmiyyət üçün xüsusi əhəmiyyət daşıyır və xalqın dünyagörüşünü, ənənələrini və həyat tərzini ifadə edir. Müasir dövrdə isə mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması məsələsi həm elmi, həm də ictimai müstəvidə geniş müzakirə olunan aktual problemlər sırasında yer alır.

Cəmiyyətin davamlı inkişafı böyük ölçüdə tarix boyu formalaşmış mədəni irsin qorunması və onun gələcək nəsillərə ötürülməsi ilə bağlıdır. Bu baxımdan, mədəni irsin mühafizəsi müasir dövrdə xüsusi aktuallıq kəsb edir və sülhün təmin olunması, ekoloji təhlükəsizliyin qorunması, insan hüquqlarının müdafiəsi kimi qlobal məsələlərlə eyni səviyyədə əhəmiyyət daşıyır. Hər bir xalqın və ya cəmiyyətin keçmişinə aid maddi və mənəvi dəyərləri özündə birləşdirən milli mədəni irs, həmin cəmiyyətin kimliyini və özünəməxsusluğunu əks etdirərək onu gələcək nəsillərə çatdıran əsas vasitə kimi çıxış edir.

Müasir mərhələdə artıq aydın şəkildə dərk olunur ki, cəmiyyətin gələcək inkişafı bir tərəfdən formalaşmış mədəni dəyərlərin qorunub saxlanılması və nəsillərarası ötürülməsi, digər tərəfdən isə beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə sıx bağlıdır. Belə ki, dünya mədəni irsinin ayrılmaz tərkib hissəsi olan milli mədəni irsin qorunması məsələsi bu gün yalnız ayrı-ayrı dövlətlərin daxili işi olmaqdan çıxaraq qlobal miqyasda əhəmiyyət kəsb edir. Bu isə öz növbəsində, həmin sahədə beynəlxalq hüquqi mexanizmlərin və tənzimləyici çərçivələrin formalaşdırılmasını zəruri edir.

Müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi milli-mədəni identikliyin qorunması məsələsini daha da aktuallaşdırmışdır. Xalqların əsrlər boyu formalaşdırdıqları maddi və qeyri-maddi mədəni irs nümunələri yalnız tarixi yaddaşın daşıyıcısı deyil, eyni zamanda milli kimliyin əsas göstəricilərindən biridir. Bu baxımdan, mədəni irsin qorunması və təbliği həm milli, həm də beynəlxalq səviyyədə prioritet istiqamətlərdən biri kimi çıxış edir.

UNESCO tərəfindən 2003-cü ildə qəbul edilmiş "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya bu sahədə beynəlxalq əməkdaşlığın hüquqi əsasını təşkil edir və üzv dövlətlər üçün mühüm fəaliyyət çərçivəsi müəyyənləşdirir. Azərbaycan da bu Konvensiyaya qoşularaq mədəni irsin qorunması və təbliği istiqamətində sistemli və məqsədyönlü siyasət həyata keçirməkdədir (UNESCO, 1972; UNESCO, 2003).

Azərbaycanın UNESCO ilə əməkdaşlığı çərçivəsində bir sıra mühüm mədəni irs nümunələri beynəlxalq siyahılara daxil edilmiş, onların qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində müxtəlif layihələr reallaşdırılmışdır. Bu proses yalnız milli irsin deyil, bütövlükdə türk mədəniyyətinin qlobal miqyasda tanıdılmasına xidmət edir. Bu baxımdan, Azərbaycanın fəaliyyəti həm regional, həm də beynəlxalq səviyyədə xüsusi əhəmiyyətə malikdir.

Bu mədəni irs nümunələrinin UNESCO-nun reprezentativ siyahılarına daxil edilməsi onların beynəlxalq səviyyədə tanıdılmasına, qlobal mədəni dövriyyəyə inteqrasiyasına və müxtəlif xalqlar arasında mədəni dialoqun genişlənməsinə mühüm töhfə vermişdir (UNESCO, 2003; 2009; 2010).

1. UNESCO çərçivəsində qeyri-maddi mədəni irsin qorunması və Azərbaycanın əməkdaşlıq modeli

1945-ci il 16 noyabr tarixində Londonda keçirilən beynəlxalq konfransda Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO-nun Nizamnaməsi qəbul edilmişdir. Bu sənəd 37 dövlət tərəfindən imzalanmış və təşkilatın fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir. UNESCO-nun yaradılmasında əsas məqsəd xalqlar arasında intellektual və mənəvi həmrəyliyi gücləndirmək, bu yolla sülhün möhkəmləndirilməsinə töhfə vermək və gələcək münaqişələrin, xüsusilə dünya müharibələrinin qarşısını almaq olmuşdur (UNESCO, 1972; UNESCO, 2003).

Qloballaşma şəraitində mədəni müxtəlifliyin qorunması və davamlı inkişafın təmin olunması beynəlxalq təşkilatların prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu kontekstdə Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO tərəfindən qəbul edilən normativ sənədlər xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə, 2003-cü ildə qəbul edilmiş "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya bu sahədə beynəlxalq əməkdaşlığın əsas hüquqi çərçivəsini formalaşdırmışdır (UNESCO, 2003).

UNESCO-nun yanaşmasına əsasən, mədəni irs hər hansı bir xalqın və ya ictimai qrupun formalaşdırdığı yaradıcı fəaliyyətlərin və mənəvi dəyərlərin bütöv bir sistemini əhatə edir. Bu sistemə sənətkarların, memarların, musiqiçilərin, yazıçıların və digər yaradıcı şəxslərin əsərləri ilə yanaşı, cəmiyyətin kollektiv təcrübəsindən doğan anonim yaradıcılıq nümunələri də daxildir. Belə mədəni məhsullar insanların həyatına məna qazandıran, onların dünyagörüşünü və həyat tərzini əks etdirən maddi və qeyri-maddi elementlərin vəhdətini təşkil edir.

Mədəni irs anlayışı çərçivəsində dil, dini və mərasim ənənələri, inanclar, tarixi abidələr və məkanlar, ədəbiyyat nümunələri, incəsənət əsərləri, eləcə də arxiv və kitabxana fondları mühüm yer tutur. Bütün bu komponentlər cəmiyyətin tarixi inkişafı prosesində formalaşaraq onun mədəni yaddaşını və identikliyini müəyyənləşdirir. Bu baxımdan, mədəni irs müəyyən bir toplumun mövcudluğu boyunca topladığı və nəsildən-nəslə ötürdüyü mühüm dəyərlərin məcmusu kimi səciyyələndirilə bilər.

Mədəni irs hər hansı bir cəmiyyətin və ya ərazinin mədəni kimliyini ifadə edən, qorunması və gələcək nəsillərə ötürülməsi zəruri olan maddi və qeyri-maddi dəyərlər toplusudur. Bu dəyərlər həmin cəmiyyətin tarixi inkişafını, dünyagörüşünü və yaradıcılıq potensialını əks etdirərək onun özünəməxsusluğunu formalaşdırır. UNESCO tərəfindən müəyyən edilmiş meyarlara əsasən, mədəni və təbii obyektlərin Dünya İrs Siyahısına daxil edilməsi onların ümumbəşəri əhəmiyyət daşıdığını təsdiq edir. Bu siyahıya daxil edilən abidələr və ərazilər yalnız yerləşdikləri ölkə üçün deyil, bütün bəşəriyyət üçün

dəyərli hesab olunur və onların qorunması müvafiq dövlətlərin üzərinə götürdüyü öhdəliklər çərçivəsində təmin edilir. Dünya İrs Siyahısının formalaşdırılmasında əsas məqsəd, bəşəriyyətin ortaq sərvəti hesab olunan bu dəyərlərin mühafizəsi istiqamətində beynəlxalq əməkdaşlığı gücləndirməkdir. Bu yanaşma mədəni irsin qorunmasını yalnız milli səviyyədə deyil, qlobal məsuliyyət kimi təqdim edir.

Müntəzəm olaraq yenilənən Dünya İrs Siyahısına 2004-cü ildən etibarən 134 ölkəni əhatə edən ümumilikdə 788 obyekt daxil edilmişdir. Bu obyektlərin 617-si mədəni, 154-ü təbii, 23-ü isə qarışıq – həm mədəni, həm də təbii irs nümunələri kimi təsnif olunur. 1972-ci ildə UNESCO tərəfindən qəbul edilmiş və 38 maddədən ibarət olan Konvensiya ümumdünya irsinin qorunması sahəsində mühüm hüquqi əsas yaratmışdır. Sənəddə qeyd olunur ki, bəşəriyyət üçün xüsusi əhəmiyyət daşıyan bu irs nümunələrinin mühafizəsi bütün dövlətlərin və cəmiyyətlərin ortaq məsuliyyəti kimi qəbul edilməlidir (https://whc.unesco.org/en/about/).

1948-ci ildə qəbul olunmuş Ümumdünya Bəyannaməsində mədəni dəyərlərin bəşəri sivilizasiyanın, xalqların mədəni həyatının, adət-ənənələrinin və tarixi yaddaşının əsas daşıyıcısı olduğu vurğulanır. Sonrakı dövrdə, xüsusilə 1966-cı ildən etibarən, mədəni irs nümunələri beynəlxalq müstəvidə yalnız mədəni deyil, həm də sosial və iqtisadi baxımdan əhəmiyyətli faktor kimi qiymətləndirilməyə başlanmış və dövlətlərin diqqət mərkəzinə çevrilmişdir. Bu proses nəticəsində insanlar incəsənət və mədəniyyət nümunələrinə daha çox maraq göstərmiş, həmin obyektlər elmi tədqiqatların aparılması üçün mühüm mənbə rolunu oynamışdır. Mədəni irsin aşkar edilməsi, onun dəyərləndirilməsi və sistemli şəkildə təsnifləşdirilməsi ilə bağlı ilkin beynəlxalq yanaşmalar isə 1954-cü il 14 may tarixində qəbul edilmiş Haaqa Konvensiyasında öz əksini tapmışdır (UNESCO, 1954).

Beynəlxalq səviyyədə mədəni irsin qorunması və bərpası məsələləri 16 noyabr 1972-ci ildə qəbul edilmiş UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasında öz əksini tapmışdır. Bu sənəd mədəni və təbii irs nümunələrinin qorunmasını beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirməyi əsas məqsəd kimi müəyyənləşdirir (UNESCO, World Heritage Centre https://whc.unesco.org/en/about/).

Mədəni irsin qorunması, bərpası və təbliği Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab olunur və bu sahədə beynəlxalq əməkdaşlığa xüsusi önəm verilir. Müstəqillik əldə edildikdən sonra milli mədəni dəyərlərin qorunması, onların gələcək nəsillərə çatdırılması və dünya miqyasında tanıdılması dövlətin prioritet vəzifələri sırasında yer almışdır.

Azərbaycanın mədəniyyət siyasətində milli irsin beynəlxalq mədəni mühitə inteqrasiyası mühüm yer tutur. "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nda da mədəni irsin qorunmasının vacibliyi xüsusi olaraq qeyd olunur və bu istiqamətdə ardıcıl tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bu sahədə aparılan dövlət siyasəti elmi tədqiqatların genişlənməsini və yeni elmi əsərlərin hazırlanmasını zəruri edir. Son illərdə həyata keçirilən müxtəlif layihələr və mədəni təşəbbüslər isə bu siyasətin real nəticələrini göstərir və Azərbaycanın mədəni irsinin həm qorunmasına, həm də beynəlxalq səviyyədə tanıdılmasına xidmət edir.

Mədəni irsin qorunması və təbliği məsələləri beynəlxalq mədəniyyət təşkilatlarının daimi diqqət mərkəzində olan əsas istiqamətlərdəndir. Azərbaycanın bir sıra maddi və qeyri-maddi mədəni irs nümunələrinin UNESCO-nun müvafiq siyahılarına daxil edilməsi bu dəyərlərin beynəlxalq səviyyədə tanınmasına və mühafizəsinə əlverişli şərait yaratmışdır. Bu fakt bir daha göstərir ki, Azərbaycanda milli mədəni irsin qorunması və təbliği yalnız milli əhəmiyyət daşımır, eyni zamanda ümumbəşəri dəyər kimi aktual xarakter daşıyır.

Müasir mərhələdə Azərbaycan beynəlxalq mədəni əməkdaşlıq sahəsində fəal mövqe nümayiş etdirir və bu istiqamətdə mühüm təşəbbüslərlə çıxış edir. 2008-ci ilin dekabr ayında Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin iştirakı ilə "Mədəniyyətlərarası dialoq: Avropa və qonşu regionlarda davamlı inkişaf və sülhün əsası" mövzusunda konfransın keçirilməsi bu baxımdan əhəmiyyətli hadisələrdən biri olmuşdur (Council of Europe, 2008).

2009-cu ildə Bakının "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi ölkənin mədəni nüfuzunun artmasının göstəricisi kimi qiymətləndirilir. Eyni zamanda, Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə təşkil olunan Milli Kulturoloqlar Forumu, 2011-ci ildən etibarən Bakıda mütəmadi keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, Bakı Beynəlxalq Humanitar Forumları və digər beynəlxalq tədbirlər Azərbaycanın mədəniyyət sahəsində qlobal əməkdaşlığa verdiyi önəmi əks etdirir. Bu tədbirlər çərçivəsində mədəni irsin qorunması və təbliği ilə bağlı aktual məsələlərin müzakirə olunması ölkənin bu sahəni daim diqqət mərkəzində saxladığını və beynəlxalq səviyyədə fəal iştirak etdiyini bir daha nümayiş etdirir.

Müasir dövrdə Azərbaycanın milli mədəniyyəti və zəngin irsi ölkənin beynəlxalq müstəvidə layiqli mövqe tutmasında mühüm amillərdən biri kimi çıxış edir. Milli kimliyin qorunub saxlanılması ilə yanaşı, Azərbaycanın qlobal mədəni mühitə inteqrasiyası prosesində milli mədəniyyətin strateji imkanları xüsusi əhəmiyyət kəsb edir.

Mədəni irsin qorunması və onun effektiv şəkildə təbliği məsələləri aktuallıq qazanır və həmin istiqamətdə beynəlxalq əməkdaşlığın genişləndirilməsini zəruri edir. Azərbaycan ərazilərinin uzun müddət işğal altında qalması nəticəsində ölkənin təxminən 20 faiz ərazisində genişmiqyaslı dağıntılar baş vermiş, bir çox yaşayış məntəqələri ilə yanaşı, zəngin tarixi və mədəni abidələr də ciddi zərər görmüş, bəziləri isə məhv edilmiş və ya mənimsənilmə halları ilə üzləşmişdir. Bu şəraitdə milli mədəni irsin qorunması, bərpası və beynəlxalq səviyyədə təbliği Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri kimi çıxış edir. Bu baxımdan, mədəni irsin mühafizəsi istiqamətində beynəlxalq əməkdaşlığın genişləndirilməsi xüsusi aktuallıq kəsb edir və bu sahədə məqsədyönlü fəaliyyətin həyata keçirilməsini zəruri edir.

Son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi dövlət iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Bu çərçivədə xüsusi diqqət yetirilən sahələrdən biri də turizm sənayesinin davamlı və sistemli şəkildə inkişafıdır. Turizmin iqtisadi diversifikasiya baxımından əhəmiyyəti nəzərə alınaraq, bu sahədə infrastrukturun gücləndirilməsi, xidmət keyfiyyətinin artırılması və beynəlxalq turizm bazarına inteqrasiya istiqamətində mühüm addımlar atılmışdır.

Mədəni irs nümunələri turizm sektorunun əsas resurslarından biri kimi çıxış edir və ölkənin turizm potensialının formalaşmasında mühüm rol oynayır. Tarixi abidələr, memarlıq nümunələri, ənənəvi sənətkarlıq və qeyri-maddi mədəni irs elementləri həm yerli, həm də xarici turistlər üçün xüsusi maraq doğurur. Bu baxımdan, mədəni irsin qorunması, bərpası və effektiv şəkildə təbliği yalnız mədəni deyil, həm də iqtisadi əhəmiyyət kəsb edir.

Bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi xüsusi aktuallıq qazanır. Beynəlxalq təşkilatlarla, o cümlədən UNESCO ilə əməkdaşlıq mədəni irs nümunələrinin qorunması və tanıdılması üçün əlavə imkanlar yaradır, həmçinin Azərbaycanın turizm imicinin gücləndirilməsinə xidmət edir. Buna görə də, ölkənin mədəni irs sahəsində həyata keçirdiyi siyasətin və beynəlxalq əməkdaşlıq təcrübəsinin təhlili elmi və praktik baxımdan mühüm əhəmiyyət daşıyır.

2. Azərbaycanın mədəni irs nümunələri və onların beynəlxalq təbliği

Dünya miqyasında mədəni irsin qorunması məsələsinə həm nəzəri, həm də praktiki baxımdan hələ antik dövrlərdən maraq göstərilmişdir. Lakin bu sahəyə diqqət xüsusilə XIX əsrdə daha da güclənmişdir. Bununla yanaşı, mövzuya elmi və peşəkar yanaşmanın formalaşması, müxtəlif tədqiqat işlərinin aparılması və cəmiyyətin diqqətinin artması baxımından XX əsrin ikinci yarısı xüsusi əhəmiyyət kəsb edir (Ashworth, 2011).

Mədəni irs, onun mühafizəsi, bərpası və təbliği, həmçinin bu sahədə mövcud problemlər və yeniliklər bir sıra tanınmış alimlərin əsərlərində geniş şəkildə araşdırılmışdır. Bu istiqamətdə alman alimi J. Assmannın (Assman, 1995) "Kollektiv yaddaş və mədəni kimlik", amerikalı tədqiqatçı V. Lipe-in (Lipe, 2006: 130) "Mədəni sərvətlərdə dəyər və məna", isveçli alimlər T. Nilson (Nilson, 2018) və K. Sorelin (Sorel, 2005) "Mədəni irsin qorunması: dünən, bu gün və sabah", L.A. Viktoroviçin

(Викторович, 2004) "Mədəni irs davamlı inkişafın resursu kimi", eləcə də türkiyəli alim M. Tunçerin (Tunçer, 2017: 43) "Mədəni irs və onun əhəmiyyəti" adlı əsərləri mühüm yer tutur.

Mədəni irsin qorunması və bərpası sahəsində beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi, beynəlxalq təşkilatların rolu və hüquqi tənzimləmələr də bir çox tədqiqatlarda təhlil olunmuşdur. Bu mövzular rus alimləri A.S. Sokolovanın (Соколова, 2010), P.A. Kostyukovanın (Костюкова, 2006: 200), həmçinin M. Boriani və P. Sheeran kimi tədqiqatçıların əsərlərində ətraflı şəkildə işıqlandırılmışdır

Qeyd edilməli mühüm tədqiqatlardan biri də litvalı alim R. Çepaitienənin (2010) "Qloballaşan dünyada mədəni irs" adlı monoqrafiyasıdır. Mövzuya dair diqqətəlayiq mənbələrdən biri də türkiyəli professor M. Çakırın (Çakır, 2011) redaktorluğu ilə nəşr edilmiş "Mədəni irsin idarə edilməsi" adlı elmi məqalələr toplusudur.

Mədəni irsin mahiyyətini daha aydın anlamaq üçün onun təsnifatı məsələsinə nəzər salmaq zəruridir. UNESCO-nun yanaşmasına əsasən, mədəni irs bir neçə əsas kateqoriyaya ayrılır. Maddi mədəni irsə abidələr, tikililər, arxeoloji ərazilər və təbii obyektlər daxildir. Bu irs daşına bilən, daşınmz və sualtı irs kimi qruplaşdırılır. Qeyri-maddi mədəni irs isə şifahi ənənələr, façılıq sənətləri və mərasimləri əhatə edir (UNESCO, 2003). Bununla yanaşı, silahlı münaqişələr mədəni irsin qorunmasına ciddi təhlükə yaradan əsas amillərdən biri kimi çıxış edir. Bu problem 1954-cü il Haaqa Konvensiyasında da öz əksini tapmışdır (UNESCO, 1954).

Türk xalqlarının zəngin mədəni irsi minilliklər boyu formalaşaraq bu günümüzə qədər gəlib çatmış və ümumbəşəri dəyər kimi qəbul edilmişdir. Bu irs yalnız ayrı-ayrı xalqların deyil, bütövlükdə türk dünyasının ortaq mənəvi sərvəti kimi çıxış edir. Azərbaycan isə bu mədəni sistemin mühüm mərkəzlərindən biri olmuşdur.

Müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi milli-mənəvi dəyərlərin qorunması məsələsini daha aktual etmişdir. Bu şəraitdə UNESCO kimi beynəlxalq təşkilatların fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Azərbaycan 1992-ci ildən bu təşkilata üzv olaraq mədəni irsin qorunması istiqamətində fəal siyasət həyata keçirir .

Azərbaycanın UNESCO ilə əməkdaşlığı çərçivəsində xüsusilə qeyri-maddi mədəni irs nümunələrinin qorunması və təbliği diqqət mərkəzində olmuşdur. Bu baxımdan aşıq sənəti, muğam, xalçaçılıq və Novruz bayramı xüsusi əhəmiyyət kəsb edir. Bu mədəni irs nümunələrinin UNESCO siyahılarına daxil edilməsi onların beynəlxalq səviyyədə tanıdılmasına və qlobal mədəni dövriyyəyə daxil olmasına mühüm təsir göstərmişdir.

Azərbaycan **aşıq sənəti** türk xalqlarının ortaq mədəni yaddaşının ən qədim təzahürlərindən biridir. Bu sənət növü musiqi və şifahi ədəbiyyatın sintezini təşkil edir. UNESCO tərəfindən qeyri-maddi mədəni irs kimi tanınması onun beynəlxalq əhəmiyyətini artırmışdır (Sarıyeva, 2015: 10). 28 sentyabr-2 oktyabr 2009-cu il tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin IV sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan aşıq sənəti UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir. Bu mühüm hadisə aşıq sənətinin yalnız Azərbaycanın milli-mədəni irsinin ayrılmaz tərkib hissəsi olduğunu deyil, eyni zamanda bəşəriyyətin ümumi mədəni sərvətləri sırasında xüsusi yer tutduğunu təsdiq etmişdir. UNESCO tərəfindən beynəlxalq səviyyədə tanınması aşıq sənətinin qorunması, yaşadılması və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən fəaliyyətlərin əhəmiyyətini daha da artırmış, onun dünya mədəniyyət məkanında tanıdılmasına geniş imkanlar yaratmışdır. Azərbaycan xalqının zəngin musiqi-mədəni ənənələrinin daşıyıcıları olan aşıqlar tarix boyu milli bayramların, el şənliklərinin və xüsusilə toy mərasimlərinin ayrılmaz iştirakçıları kimi çıxış etmişlər. Onlar müxtəlif musiqi alətlərinin, o cümlədən balaban və digər nəfəs alətlərinin müşayiəti ilə çıxış etsələr də, aşıq sənətinin əsas və səciyyəvi musiqi aləti hər zaman saz olmuşdur. Saz yalnız musiqi aləti deyil, həm də aşıq yaradıcılığının, xalq yaddaşının və milli-mənəvi dəyərlərin simvolu kimi mühüm əhəmiyyət daşıyır. Tarixi mənbələrdə və folklor nümunələrində aşıqların qədim dövrlərdə ozan, varsaq və dədə kimi adlarla tanındığı qeyd edilir. Bu sənət nümayəndələri xalqın mənəvi həyatında mühüm rol oynayaraq onun dünyagörüşünü, tarixi yaddaşını və estetik düşüncəsini nəsildən-nəs-

lə ötürmüşlər. Aşıqların keçmişi və fəaliyyəti haqqında məlumatlar dastanlarda, rəvayətlərdə, hekayətlərdə və xalq mahnılarında qorunub saxlanılmış, beləliklə də bu zəngin ənənə müasir dövrə qədər yaşadılmışdır. Bu baxımdan aşıq sənəti Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin ən mühüm və qədim sahələrindən biri hesab olunur.

Azərbaycan aşıq sənəti zəngin musiqi ənənələri və çoxşaxəli ifaçılıq xüsusiyyətləri ilə seçilir. Bu sənətin repertuarında "Kərəmi", "Əfşarı", "Kürdü", "Dilqəmi", "Yanıq Kərəmi" və digər nümunələr daxil olmaqla 80-dən artıq aşıq havasının mövcud olduğu məlumdur. Həmin havalar müxtəlif bölgələrdə formalaşmış yerli ifaçılıq xüsusiyyətlərini əks etdirərək zəngin coğrafi variantlar yaratmışdır. Aşıq havalarının musiqi quruluşu ilə poetik mətn arasında sıx əlaqə mövcuddur və bu əlaqə melodik, ritmik və forma xüsusiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Aşıq yaradıcılığında əsas poetik ölçü heca vəzni olduğundan, havaların quruluşu da şeirin forma xüsusiyyətləri, heca sayı və bölgü sistemi ilə bilavasitə bağlı şəkildə inkişaf etmişdir.

Aşıq sənətinin əsrlər boyu yaşadılması və inkişaf etdirilməsində bir sıra görkəmli sənətkarların müstəsna xidmətləri olmuşdur. XVI əsrdə yaşamış Qurbani, XVII əsrin tanınmış nümayəndələri Abbas Tufarqanlı və Sarı Aşıq, XVIII əsrin ustad sənətkarları Xəstə Qasım, Aşıq Valeh və Aşıq Dilqəm, eləcə də XIX əsrdə fəaliyyət göstərmiş Aşıq Alı, Aşıq Ələsgər və Aşıq Hüseyn Şəmkirli aşıq sənətinin klassikləri kimi böyük nüfuz qazanmışlar. Onların yaradıcılığı aşıq poeziyasının və musiqisinin inkişafında mühüm mərhələ təşkil etmiş, sonrakı nəsil sənətkarlar üçün örnək olmuşdur. XX əsr və müasir dövrdə isə Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq İslam, Aşıq Şəmşir, Hüseyn Saraclı, Əmrah Gülməmmədov, Hüseyn Cavan, Aşıq Kamandar, İmran Həsənov, Mikayıl Azaflı, Əkbər Cəfərov və digər sənətkarlar bu ənənənin davam etdirilməsində mühüm rol oynamışlar. Onların fəaliyyəti nəticəsində aşıq sənəti yeni məzmun və ifadə vasitələri qazanaraq müasir dövrdə də öz aktuallığını qoruyub saxlamışdır. Azərbaycanın müxtəlif bölgələrində geniş yayılmış aşıq sənəti xüsusilə Qazax, Tovuz və Şamaxı aşıq mühitlərində, eləcə də tarixi Göyçə və Borçalı mahalında daha güclü inkişaf etmişdir. Bu bölgələrdə formalaşmış aşıq məktəbləri özünəməxsus repertuarı, ifa üslubu və sənət ənənələri ilə Azərbaycan aşıq mədəniyyətinin zənginləşməsinə mühüm töhfələr vermişdir. Buna görə də aşıq sənəti Azərbaycan xalqının milli-mədəni kimliyini əks etdirən ən mühüm qeyri-maddi irs nümunələrindən biri hesab olunur.

Muğam sənəti Azərbaycan musiqi mədəniyyətinin zirvəsi hesab olunur və dərin fəlsəfi məzmun daşıyır. Azərbaycanın zəngin musiqi mədəniyyətinin ən dəyərli nümunələrindən biri olan muğam sənəti beynəlxalq səviyyədə yüksək qiymətləndirilmişdir. Belə ki, 7 noyabr 2003-cü il tarixində UNESCO tərəfindən Azərbaycan muğamı bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsərlərindən biri elan edilmişdir. Bu qərar muğam sənətinin yüksək bədii-estetik dəyərinin, qədim tarixi köklərinin və ümumbəşəri mədəniyyətə verdiyi töhfələrin beynəlxalq səviyyədə tanınmasının göstəricisi olmuşdur. Sonrakı mərhələdə, 2008-ci ildə Azərbaycan muğamı UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Bu mühüm hadisə muğamın dünya mədəni irsinin ayrılmaz tərkib hissəsi kimi qəbul olunduğunu təsdiqləmiş, onun qorunması, öyrənilməsi və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən fəaliyyətlərə əlavə stimul vermişdir. Muğam sənəti Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, estetik zövqünü və musiqi təfəkküründü özündə əks etdirən unikal irs nümunəsi kimi həm ölkə daxilində, həm də beynəlxalq mədəniyyət məkanında xüsusi əhəmiyyətə malikdir. (UNESCO, 2003; https://ich.unesco.org/en/RL/mugham-of-azerbaijan-00064). Bu baxımdan Azərbaycanda təşkil olunan Beynəlxalq Muğam Festivalı və Bakıdakı Beynəlxalq Muğam Mərkəzinin fəaliyyəti muğam sənətinin dünya miqyasında təbliğində mühüm rol oynayır.

Muğam Azərbaycan xalqının musiqi mədəniyyətində xüsusi yer tutan çoxşaxəli sənət fenomenidir. O, yalnız musiqi janrı deyil, eyni zamanda xalqın fəlsəfi dünyagörüşünü, mənəvi dəyərlərini və estetik düşüncə tərzini özündə əks etdirən mühüm mədəni irs nümunəsidir. Muğamın insan ruhuna təsir edən dərin emosional və mənəvi məzmunu onu bir növ daxili harmoniyaya və mənəvi kamilliyə aparan sənət forması kimi səciyyələndirməyə imkan verir. Azərbaycanın müxtəlif bölgələrində tarixən bir sıra muğam ifaçılığı məktəbləri formalaşmışdır. Muğam sənəti ölkənin bütün ərazilərində yayılsa da, Bakı,

Şamaxı, Gəncə, Naxçıvan və Şuşa onun əsas inkişaf mərkəzləri hesab olunur. Bu məktəblərin hər biri özünəməxsus ifa üslubu, repertuar xüsusiyyətləri və sənət ənənələri ilə seçilir. Xüsusilə Şuşada formalaşmış Qarabağ muğam məktəbi Azərbaycan musiqi mədəniyyətinin ən zəngin və nüfuzlu məktəblərindən biri kimi tanınır. Təsadüfi deyil ki, Şuşa şəhəri musiqi mədəniyyətinin yüksək inkişaf səviyyəsinə görə "Şərqin konservatoriyası" adlandırılmışdır.

Şuşanın zəngin mədəni mühiti, musiqiyə olan xüsusi münasibət və burada istedadların dəyərləndirilməsi ənənəsi muğam sənətinin inkişafı üçün əlverişli şərait yaratmışdır. Bu mühitdə yetişən sənətkarlar Azərbaycan muğamının peşəkar səviyyədə inkişafına mühüm töhfələr vermişlər. Xan Şuşinski, Zülfi Adıgözəlov, Seyid Şuşinski, Əbülfət Əliyev, Mütəllim Mütəllimov, İslam Rzayev və Arif Babayev kimi görkəmli xanəndələr Qarabağ muğam məktəbinin ən parlaq nümayəndələri hesab olunurlar. Onların yaradıcılığı muğam sənətinin qorunub saxlanılması, zənginləşdirilməsi və geniş auditoriyalara çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Qarabağ muğam məktəbinin səciyyəvi xüsusiyyətlərindən biri də "Qarabağ şikəstəsi"nin xüsusi yer tutmasıdır. Bu muğam nümunəsi bölgənin musiqi ənənələrini, emosional ifadə zənginliyini və ifaçılıq xüsusiyyətlərini özündə əks etdirərək Qarabağ muğam mühitinin əsas simvollarından birinə çevrilmişdir. Bu baxımdan muğam sənəti Azərbaycan xalqının milli-mədəni kimliyinin formalaşmasında və mənəvi irsinin yaşadılmasında mühüm rol oynayan dəyərli sənət sahəsi kimi çıxış edir.

Azərbaycan xalçaçılığı xalqın tarixini və estetik dünyagörüşünü əks etdirən mühüm mədəni irs nümunəsidir. 15-19 noyabr 2010-cu il tarixlərində Keniyanın Nayrobi şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin V sessiyasında qəbul edilmiş qərara əsasən, bu mədəni irs nümunəsi UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir. Həmin qərar sözügedən irs nümunəsinin yüksək mədəni və tarixi dəyərinin beynəlxalq səviyyədə tanınmasının göstəricisi olmuşdur. Onun Reprezentativ Siyahıya daxil edilməsi bu irsin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini artırmış, eyni zamanda dünya mədəni irsi xəzinəsindəki yerini daha da möhkəmləndirmişdir. (UNESCO, 2010; https://ich.unesco.org/en/RL/azerbaijani-carpet-weaving-00430).

Azərbaycan xalçaçılıq sənəti zəngin ənənələrə malik olmaqla hazırlanma texnologiyasına görə əsasən xovlu və xovsuz xalçalar olmaqla iki qrupa ayrılır. Bu xalça növləri həm texniki xüsusiyyətləri, həm də bədii-estetik keyfiyyətləri baxımından bir-birindən fərqlənir. Xovsuz xalçalar tarix etibarilə daha qədim hesab olunur və onların yaranması xalçaçılıq sənətinin ilkin inkişaf mərhələləri ilə əlaqələndirilir. Bu xalçalar özünəməxsus naxış sistemi, ornamental zənginliyi və rəng çalarlarının əlvanlığı ilə seçilərək xalqın estetik zövqünü və bədii təfəkkürünü əks etdirir. Xovsuz xalçalar xalqın gündəlik məişətində geniş istifadə olunduğuna görə elmi ədəbiyyatda və xalq arasında tez-tez "məişət xalçaları" adı ilə də tanınır. Onlar yalnız dekorativ funksiyanı yerinə yetirməmiş, eyni zamanda məişət ehtiyaclarının ödənilməsində mühüm rol oynamışdır. Bu baxımdan xovsuz xalçalar Azərbaycan xalqının həyat tərzini, təsərrüfat fəaliyyətini və etnoqrafik xüsusiyyətlərini öyrənmək üçün qiymətli mənbə hesab olunur. Palas, cecim, kilim, şəddə, vərni, zili və sumax kimi xalça növləri Azərbaycan xalçaçılıq sənətinin ən qədim nümunələri sırasında yer alır və bu sənətin ilkin inkişaf mərhələsini təmsil edir. Həmin xalçalar öz texniki toxunuş xüsusiyyətləri, naxış kompozisiyaları və funksional təyinatları ilə seçilərək Azərbaycan xalça mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır. Bu gün də onlar xalqın zəngin mədəni irsinin ayrılmaz hissəsi kimi yüksək dəyərləndirilir və milli-mədəni kimliyin mühüm göstəricilərindən biri hesab olunur.

Azərbaycan xalçaçılıq sənətinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində müxtəlif ölkələrdə keçirilən sərgilər və Azərbaycan Xalça Muzeyinin fəaliyyəti xüsusi rol oynayır.

Novruz bayramı isə türk xalqlarının ortaq mədəni dəyərlərindən biridir. UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 2009-cu il 28 sentyabr–2 oktyabr tarixlərində keçirilmiş IV sessiyasında Novruz bayramı çoxmillətli nominasiya əsasında UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Bu nominasiya Azərbaycanla yanaşı Hindistan, Qırğızıstan, Pakistan, Türkiyə və Özbəkistan tərəfindən birgə təqdim

olunmuşdur. Qəbul edilən qərar Novruzun geniş coğrafiyada yaşayan xalqların ortaq mədəni irsini əks etdirən, dərin tarixi köklərə və zəngin ənənələrə malik bayram olduğunu beynəlxalq səviyyədə təsdiqləmişdir. Novruz əsrlər boyu müxtəlif xalqlar arasında baharın gəlişini, təbiətin oyanışını, yenilənmə və dirçəliş ideyalarını simvolizə edən mühüm mədəni hadisə kimi yaşadılmışdır. Bayram çərçivəsində icra olunan mərasimlər, adət-ənənələr, xalq oyunları, musiqi və folklor nümunələri insanların sosial həmrəyliyinin möhkəmləndirilməsinə, milli-mənəvi dəyərlərin qorunmasına və nəsillərarası mədəni əlaqələrin davam etdirilməsinə xidmət edir. Novruzun UNESCO-nun Reprezentativ Siyahısına daxil edilməsi bu bayramın bəşəriyyətin ortaq mədəni sərvətlərindən biri kimi tanınmasına şərait yaratmış, onun beynəlxalq səviyyədə təbliği və qorunması istiqamətində aparılan fəaliyyətlərə mühüm töhfə vermişdir. Bu baxımdan Novruz təkcə bir bayram deyil, həm də xalqlar arasında mədəni dialoqu, qarşılıqlı anlaşmanı və dostluq münasibətlərini təşviq edən mühüm qeyri-maddi mədəni irs nümunəsi hesab olunur.

Novruz bayramı Azərbaycanda geniş xalq kütlələrinin iştirakı ilə qeyd olunan ən möhtəşəm və rəngarəng milli-mədəni tədbirlərdən biridir. Bayram günlərində ölkənin müxtəlif bölgələrində aşıqların, xanəndələrin və xalq musiqisi ifaçılarının iştirakı ilə konsert proqramları təşkil olunur, xalq yaradıcılığının müxtəlif nümunələri nümayiş etdirilir. Bu tədbirlər Novruzun yalnız təqvim bayramı deyil, həm də xalqın zəngin mədəni irsinin yaşadıldığı mühüm ənənə olduğunu göstərir. Bayram mərasimlərində kəndirbazların, pəhləvanların və digər xalq sənəti nümayəndələrinin çıxışları xüsusi yer tutur. Onlar öz məharətlərini nümayiş etdirərək xalq şənliklərinə rəngarənglik qatırlar. Novruz tamaşalarının əsas personajlarından olan Kosa və Keçəl də bayramın ayrılmaz atributları hesab olunur. Folklor ənənələrində Kosa qışı, Keçəl isə yazı və təbiətin yenilənməsini təmsil edir. Onların iştirakı ilə nümayiş etdirilən məzhəkə xarakterli tamaşalar xalq arasında geniş maraq doğurur. Adətən söz və məntiq yarışında Keçəlin qalib gəlməsi qışın başa çatmasını və baharın qələbəsini simvolik şəkildə ifadə edir. Novruz şənlikləri çərçivəsində kənd yerlərində müxtəlif idman və xalq oyunları da keçirilir. Bunların sırasında qədim köklərə malik olan çovqan oyunu xüsusi əhəmiyyət daşıyır. At üstündə oynanılan bu oyun xalqın hərbi-idman ənənələrini və qədim həyat tərzini əks etdirən mühüm mədəni elementlərdən biridir. Paytaxt Bakı şəhərində Novruz tədbirlərinin əsas mərkəzlərindən biri tarixi Qız qalasının ətrafı hesab olunur. Bayram günlərində bu məkan xüsusi şəkildə bəzədilir, Novruzun əsas rəmzlərindən olan səməni tədbirlərin əsas atributlarından biri kimi nümayiş etdirilir. Mərasim zamanı Bahar qızı tərəfindən məşəlin alovlandırılması təbiətin oyanmasını, yeni həyatın başlanmasını, işığın və ümidin qələbəsini simvolizə edir. Beləliklə, Novruz bayramı Azərbaycan xalqının mədəni yaddaşını, mənəvi dəyərlərini və zəngin folklor ənənələrini yaşadan mühüm qeyri-maddi mədəni irs nümunəsi kimi öz əhəmiyyətini qoruyub saxlayır.

Azərbaycan xalqının zəngin mədəni irsi içərisində milli mətbəx xüsusi yer tutur. Tarixən formalaşmış kulinariya ənənələri yalnız qidalanma vasitəsi kimi deyil, həm də sosial münasibətlərin, mərasimlərin və milli kimliyin ifadə forması kimi çıxış edir. Bu baxımdan Azərbaycan mətbəxi həm maddi, həm də qeyri-maddi mədəni irs elementlərini özündə birləşdirən kompleks bir sistem kimi qiymətləndirilə bilər.

Azərbaycan mətbəxinin zənginliyi onun coğrafi mövqeyi və tarixi inkişafı ilə sıx bağlıdır. İpək yolu üzərində yerləşən Azərbaycan müxtəlif mədəniyyətlərin təsirinə məruz qalmış, bu isə kulinariya ənənələrinin rəngarəngliyinə səbəb olmuşdur. Milli mətbəxdə istifadə olunan məhsullar- düyü, ət, tərəvəzlər, ədviyyatlar regionun təbii-iqlim şəraiti ilə uyğunlaşaraq özünəməxsus yemək mədəniyyətinin formalaşmasına gətirib çıxarmışdır.

Azərbaycan mətbəxinin mədəni irs kimi tanınmasının mühüm göstəricilərindən biri bəzi yemək ənənələrinin UNESCO tərəfindən qeydiyyata alınmasıdır. 2017-ci ilin 6 dekabr tarixində Koreya Respublikasının Jeju adasında keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında Azərbaycan tərəfinin təqdim etdiyi "Mədəni kimliyin göstəricisi dolmanın bişirilməsi və paylaşılması ənənəsi" adlı nominasiya UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir. (UNESCO, 2017). Bu fakt

Azərbaycan kulinariya mədəniyyətinin beynəlxalq səviyyədə tanınmasının bariz nümunəsidir. Dolmanın kulinariya xüsusiyyətləri ilk növbədə onun hazırlanmasında istifadə olunan içliklərin tərkibi ilə müəyyən edilir. Müxtəlif növ ət, tərəvəz, paxlalı bitkilər, göyərti və ədviyyatların kombinasiyası əsasında hazırlanan bu yemək Azərbaycan xalqının zəngin kulinariya ənənələrini əks etdirən mühüm mədəni irs nümunələrindən biri hesab olunur. Dolma yalnız qida məhsulu deyil, həm də sosial və mədəni praktikadır. Onun hazırlanması ailə üzvlərinin birgə fəaliyyətini tələb edir və bu proses kollektiv yaddaşın və sosial bağların güclənməsinə xidmət edir. Eyni zamanda, dolmanın müxtəlif regionlarda fərqli hazırlanma formaları ölkədaxili mədəni müxtəlifliyi əks etdirir. Bu xüsusiyyətlər qeyri-maddi mədəni irsin əsas prinsiplərindən biri olan "icma tərəfindən yaşadılma" anlayışına uyğun gəlir.

Azərbaycan mətbəxində plov xüsusi yer tutur və bir çox hallarda milli mətbəxin simvolu kimi qəbul edilir. Plovun hazırlanma texnologiyası və təqdimat forması yüksək kulinariya mədəniyyətindən xəbər verir. Onun müxtəlif növləri – şirin plov, səbzi plov, fisincan plov və s. – regionlara görə fərqlənir və bu da mədəni müxtəlifliyin göstəricisidir. Plovun toy, bayram və digər mərasimlərdə əsas yemək kimi təqdim olunması onun sosial funksiyasını daha da gücləndirir.

Digər tərəfdən, piti, qutab, dovğa kimi yeməklər də gündəlik həyatla yanaşı, müəyyən mərasim və ənənələrlə bağlıdır. Məsələn, dovğa bəzi bölgələrdə bayram süfrələrinin ayrılmaz hissəsidir. Bu yeməklərin hazırlanması zamanı istifadə olunan üsullar və reseptlər ailə daxilində ötürülərək mədəni davamlılığı təmin edir.

Azərbaycan mətbəxinin mədəni irs kimi qorunması məsələsi müasir dövrdə xüsusi aktuallıq kəsb edir. Qloballaşma prosesi və fast-food mədəniyyətinin yayılması ənənəvi kulinariya dəyərlərinə müəyyən təhdidlər yaradır. Bu baxımdan milli mətbəxin qorunması və təbliği üçün dövlət proqramları, festivallar və elmi tədqiqatlar mühüm rol oynayır. Azərbaycan Respublikasında keçirilən kulinariya festivalları və beynəlxalq tədbirlər milli yeməklərin tanıdılmasına xidmət edir.

Milli mətbəxin elmi şəkildə öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Etnoqrafik və folklorşünaslıq tədqiqatları kulinariya ənənələrinin sistemli şəkildə sənədləşdirilməsinə və qorunmasına imkan yaradır. Bu istiqamətdə aparılan tədqiqatlar göstərir ki, mətbəx yalnız məişət sahəsi deyil, həm də mədəni identikliyin mühüm komponentidir.

Azərbaycan mətbəxi zəngin tarixi və mədəni məzmunu ilə milli irsin ayrılmaz hissəsidir. Onun həm maddi, həm də qeyri-maddi elementləri bir-biri ilə sıx bağlıdır və bu vəhdət mədəni dəyərlərin davamlılığını təmin edir. Azərbaycan yeməklərinin beynəlxalq səviyyədə tanınması və qorunması istiqamətində görülən işlər bu irsin gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır.

Azərbaycan xalqının ənənəvi mədəni dəyərləri içərisində kəlağayı sənəti xüsusi yer tutur. İpəkdən hazırlanan və əsasən qadın baş örtüyü kimi istifadə edilən kəlağayı yalnız geyim elementi deyil, həm də dərin simvolik məna daşıyan, sosial və estetik funksiyaları özündə birləşdirən mədəni fenomendir. Tarixən formalaşmış bu sənət növü Azərbaycan xalqının həyat tərzini, estetik zövqünü və dünyagörüşünü əks etdirən mühüm göstəricilərdən biri kimi çıxış edir.

Kəlağayı istehsalı mürəkkəb və çoxmərhələli texnoloji prosesi əhatə edir. Bu proses ipəyin hazırlanması, parçanın toxunması, təbii boyalarla rənglənməsi və ənənəvi üsullarla naxışlanması mərhələlərindən ibarətdir. Xüsusilə "basma" texnikası ilə tətbiq olunan ornamentlər kəlağayının bədii dəyərini artırır. Bu texnika əsrlər boyu ustad-şagird ənənəsi ilə ötürülərək günümüzədək qorunub saxlanılmışdır (Əfəndiyev, 2007).

Kəlağayının üzərindəki naxış və rənglər yalnız dekorativ xarakter daşımır, həm də müəyyən simvolik məna ifadə edir. Müxtəlif rənglər və ornamentlər qadının yaşı, sosial statusu, ailə vəziyyəti və hətta emosional durumunu ifadə edə bilir. Məsələn, parlaq rəngli kəlağayılar daha çox toy və bayram mərasimlərində istifadə olunduğu halda, tünd rənglər gündəlik həyat və ya müəyyən sosial kontekstlərlə əlaqələndirilir. Bu xüsusiyyətlər kəlağayını vizual kommunikasiya vasitəsinə çevirir (Hüseynova, 2012).

Kəlağayı sənətinin beynəlxalq səviyyədə tanınması 2014-cü ildə onun UNESCO tərəfindən qorunan dəyərlər siyahısına daxil edilməsi ilə daha da möhkəmlənmişdir. "Kəlağayı sənəti və onun sim-

volizmi"nin bu siyahıya daxil edilməsi, onun yalnız milli deyil, ümumbəşəri əhəmiyyətə malik olduğunu göstərir (UNESCO, 2014). Bu fakt həm də ənənəvi sənətkarlıq nümunələrinin qorunmasının vacibliyini bir daha təsdiqləyir.

Kəlağayı istehsalının əsas mərkəzləri olan Şəki və Basqal bölgələri bu sənətin yaşadılması və inkişaf etdirilməsində mühüm rol oynayır. Bu bölgələrdə fəaliyyət göstərən ustalar ənənəvi texnologiyaları qoruyaraq yeni nəsillərə ötürür və beləliklə, sənətin davamlılığını təmin edirlər. Bu proses icma əsaslı qorunma mexanizmlərinin effektiv nümunəsi kimi qiymətləndirilə bilər.

Müasir dövrdə qloballaşma və sənayeləşmə ənənəvi sənətkarlıq sahələrinə müəyyən təsirlər göstərsə də, kəlağayı sənəti həm milli səviyyədə, həm də beynəlxalq platformalarda aktiv şəkildə təbliğ olunur. Müxtəlif sərgilər, festivallar və elmi tədqiqatlar bu sənətin tanıdılmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Kəlağayı sənəti Azərbaycan xalqının mədəni kimliyinin mühüm tərkib hissəsi olmaqla yanaşı, zəngin tarixi və estetik dəyərləri ilə seçilən unikal sənət nümunəsidir. Onun qorunması və inkişaf etdirilməsi milli dəyərlərin yaşadılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ümumilikdə, Azərbaycan mədəni irsi türk dünyasının ortaq dəyərlərinin qorunması və təbliği baxımından mühüm rol oynayır. Dövlət siyasəti və beynəlxalq əməkdaşlıq bu prosesdə əsas amillərdir. Xüsusilə Heydər Əliyev Fondunun fəaliyyəti bu sahədə mühüm töhfələr vermişdir. Beləliklə, Azərbaycan nümunəsində mədəni irsin qorunması və təbliği həm milli, həm də ümumtürk mədəniyyətinin inkişafı baxımından strateji əhəmiyyət kəsb edir.

Nəticə

Azərbaycan UNESCO ilə əməkdaşlıq çərçivəsində mədəni irsin qorunması və təbliği sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Aşıq sənəti, muğam, xalçaçılıq, kulinariya, kəlağayı və Novruz kimi irs nümunələrinin beynəlxalq səviyyədə tanıdılması türk mədəniyyətinin qlobal miqyasda təqdiminə əhəmiyyətli töhfə verir. Bu istiqamətdə həyata keçirilən siyasət və təşəbbüslər mədəni irsin gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyət daşıyır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Assmann, J. (1995). Collective memory and cultural identity. New German Critique, Cultural history, Cultural studies (Spring-Summer), № 65.
2. Boriani, M. (2018). Urban restoration, cultural heritage and international cooperation. Sustainable Conservation and Urban Regeneration.
3. Çakır, M. (2011). Kültürel miras yönetimi. Eskişehir.
4. Əfəndiyev, R. (2007). Azərbaycan xalq sənəti. Bakı.
5. Hüseynova, S. (2012). Azərbaycanın ənənəvi geyimləri. Bakı.
6. Lipe, W. D. (2006). Value and meaning in cultural resources. Cultural heritage. Critical concepts in media and cultural studies, London.
7. Nilson, T. (2018). Cultural heritage preservation: The past, the present and the future. K. Thorell, Sweden.
8. Sarıyeva, İ. (2015). Azərbaycanın böyük mədəni irsi və UNESCO. Bakı Xəbər, 22 yanvar, N 12.
9. Sheeran, P. (2001). Cultural politics in international relations. London.
10. Tunçer, M. K. (2017). Külturel miras ve önemi. Türk yurdu, Qazi Kitabevi, № 106.
11. Викторович, Л. А. (2004). Культурное наследие как ресурс устойчивого развития: канд. дис. культурологических наук. Москва.
12. Костюкова, П. А. (2016). Международные межправительственные организации в области защиты культурных ценностей. Научные известия.
13. Костюкова, П. А. (2016). Международное сотрудничество в области защиты культурных ценностей. Ученые записки Новгородского государственного университета имени Ярослава Мудрого, № 3 (7).

14. Соколова, А. С. (2009). История правовой защиты культурных ценностей. Труды Санкт Петербургского государственного института культуры, Санкт Петербург.

15. Соколова, А. С. (2010). Культурное наследие как объект охраны ЮНЕСКО. Труд Санкт Петербургского государственного института культуры, Санкт Петербург.

16. Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict (The Hague, 14 May 1954). https://en.unesco.org/protecting-heritage/convention-and-protocols/1954-convention

17. Council of Europe. (2008). Baku process. https://www.coe.int/en/web/culture-and-heritage/baku-process

18. UNESCO World Heritage Centre. About. https://whc.unesco.org/en/about/

19. UNESCO. (2003). Mugham of Azerbaijan. https://ich.unesco.org/en/RL/mugham-of-azerbaijan-00064

20. UNESCO. (2009). Azerbaijani Ashiq Art. https://ich.unesco.org/en/RL/azerbaijani-ashiq-art-00253

21. UNESCO. (2009). Nowruz, Novruz, Nowrouz, Nooruz, Navruz, Nauroz. https://ich.unesco.org/en/RL/nowruz-00374

22. UNESCO. (2010). Traditional art of Azerbaijani carpet weaving. https://ich.unesco.org/en/RL/azerbaijani-carpet-weaving-00430

PROTECTION AND PROMOTION OF TURKIC CULTURAL HERITAGE IN THE CONTEXT OF AZERBAIJAN'S COOPERATION WITH UNESCO

Lala Shabanova

This article provides a comprehensive scientific analysis of the protection and promotion of Turkic cultural heritage in the context of Azerbaijan's cooperation with UNESCO. In the conditions of modern globalization, the preservation of national cultural values, their transmission to future generations without distortion, and their international recognition emerge as important scientific and practical issues. In this regard, the international legal instruments adopted by UNESCO for the safeguarding of intangible cultural heritage, particularly the 2003 Convention, are considered key institutional mechanisms for the protection and promotion of cultural heritage.

The article extensively examines Azerbaijan's state policy, cultural diplomacy strategy, and experience in international cooperation within this framework. As a result of Azerbaijan's effective collaboration with UNESCO, the inclusion of several national and Turkic cultural heritage elements in international lists is evaluated as a significant achievement in this field. In particular, rich traditions such as ashig art, mugham, and Novruz are presented not only as components of Azerbaijani culture but also as shared spiritual values of the entire Turkic world, and the measures taken for their preservation are analyzed from a scientific perspective.

At the same time, the article addresses the challenges encountered in the protection and promotion of cultural heritage, including the homogenizing effects of globalization, the commercialization of traditional values, and issues related to intergenerational transmission. The study concludes that Azerbaijan, by establishing purposeful and sustainable cooperation with UNESCO, makes a significant contribution both to the preservation of its national cultural heritage and to the international promotion of Turkic culture. The policies implemented in this direction are also of great importance in terms of future prospects.

Keywords: *UNESCO, intangible cultural heritage, Azerbaijan, Turkic culture, cultural heritage protection*

FOLKLOR MƏTNLƏRİNDƏ DƏLİLİK FENOMENİ VƏ TRİKSTER ARXETİPİ: SEMANTİK TƏHLİL

Maya Abdullayeva
AMEA-nın Folklor İnstitutu
Dissertant
ADPU-nun Ağcabədi filialı
Müəllim
magamireqizi@gmail.com
https://orcid.org/0009-0002-6414-0064

Bu məqalə dəlilik anlayışını trikster arxetipi prizmasından təhlil edir. Antropologiya, psixoanaliz, mifologiya, semiotika və mədəniyyət nəzəriyyəsi baxımından dəlilik sadəcə bir xəstəlik kimi deyil, sosial normaları ifşa edən və onlara meydan oxuyan bir fenomen kimi başa düşülə bilər. Tədqiqatda xüsusilə Azərbaycan xalq folklorunda "dəlilər" obrazının trikster xüsusiyyətləri ilə kəsişdiyi aspektlər araşdırılır. Bizim araşdırmamızda dəlilik fenomeni kollektiv təxəyyül və mədəni struktur daxilində trikster arxetipi ilə əlaqələndirilir. Xaosdan yaranan bir xüsusiyyət kimi dəlilik kainatın özünü tənqid etməsi formasını daşıyır. Trikster kimi, dəlilər həm fiziki, həm də mənəvi sərhədləri aşır. Oxşar şəkildə, dəlilik şüur və şüursuzluq, həyat və ölüm, insan və heyvan, müqəddəs və adi, rasional və irrasional, həmçinin mədəniyyət və təbiət kimi ikilik arasında hərəkət edən bir vəziyyəti təmsil edir.

Açar sözlər: *Dəlilik, trikster, arxetip, folklor, ağıllı, hiyləgər.*

Giriş

Trikster arxetipi aldatma, çeviklik, qayda pozma, sərhəd aşma funksiyaları ilə dəliliyin bir çox mifoloji və sosial təsvirləri ilə paralellik təşkil edir. Bu oxşarlıq dəlilik trikster kompleksi anlayışının işlənməsi üçün nəzəri əsas yaradır. Trikster həm yaradıcıdır, həm dağıdıcı; həm axmaqdır, həm müdrik; həm dəli,həm ağıllı,həm müqəddəs qanunlara tabe olur, həm də onları pozur. H. Quliyevin fikrinə görə *"Folklorda və klassik ədəbiyyatda, ümumiyyətlə, mədəniyyətdə dəli adlandırılan obrazlar,əslində normalara qarşı gələn obrazlardır. Folklorda dəli semantemi igid,ər mənalarını bildirməklə qəhrəman anlayışını ehtiva edir.Həm də dəli semantemi qaydalara qarşı çıxan - Dəli Domrul, Dəli Qarcar, dəli ozan (Beyrəyin müvəqqəti ritual statusu kimi)obrazların ifadə etdiyi mənanı da daşıyır. Dəli Domrulun Əzrayılla bağlı əhvalatı təbii olaraq anormal hal təsiri bağışlayır. Eləcə də Dəli Qarcarın davranışları, qarşıya qoyduğu tələblər, Beyrəyin, dəli ozan cildində sərgilədiyi hərəkətlər xaotikliyi, başqa sözlə desək triksterliyi ifadə edir. Bu mənada dəlilik xaosla kosmos arasında "var-gəl"edə bilən obrazlara aid edilir ki,trikster də təhtəlşüur və şüur,xaos və kosmos,norma və antinorma arasında keçidlər edir. Dəli obrazının ritual keyfiyyətləri və mediativ xarakteri triksterin də iki ölçü -fiziki-mənəvi, rasional-irrasional arasında "gərdiş"etmək imkanı ilə izah oluna bilər"*(2013).

Bu məqalənin məqsədi dəliliyi trikster kompleksi kimi anlamaqla onun arxetipik, struktur və sosial funksiyalarını daha geniş aspektdə təhlil etməkdir. Dəlilik xaosdan ilhamlanan xüsusiyyət kimi kosmosun özünü tənqid formasıdır. Trikster kimi dəli də sərhədləri aşır. Dəlilik şüur-şüursuzluq, canlı-ölü, insan-heyvan, müqəddəs-qeyri-müqəddəs, rasionallıq və irrasionallıq, mədəni və təbii kimi dualizmlər arasında gəzən situasiyadır.

Michel Foucault "Dəlilik və mədəniyyət" əsərində Qərb cəmiyyətində "dəlilik" anlayışının tarixini araşdırır və göstərir ki, dəlilik sadəcə tibbi bir xəstəlik deyil, sosial və mədəni konstruksiyadır. Yəni cəmiyyətdə "normal" sayılan şeylər dəyişdikcə "dəlilik" anlayışı da dəyişir. Foucault göstərir ki, *"dəlilik anlayışı hər dövrdə fərqli olub*" (1973).

Foucault-un ifadəsilə dəlilik "başqalığı" təmsil edir. Cəmiyyət öz sərhədlərini müəyyən etmək üçün həmişə özündən fərqlini - dəlini tanımlamalı olub.Yəni dəlilik haqqında təsəvvürlər, əslində, normal insanın kim olduğunu müəyyən etmək üçün yaradılmışdır.

Azərbaycan epik folklorunda dəli-trikster obrazlara nümunə veriləcək bir sıra arxetiplər mövcuddur. Bunlardan Molla Nəsrəddin, Bəhlul Danəndə, "KDQ"-da Dədə Qorqud, Salur Qazan, Beyrək, Qaraca Çoban, Dəli Domrul, Dəli Qarcar, "Koroğlu" dastanında Koroğlu, Həmzə kimi obrazlar ən yaxşı nümunələr ola bilər.

1. Molla Nəsrəddin.

Molla Nəsrəddin başdan-başa trikster fiqurudur,o cəmiyyətin maskalarını açır, paradokslarla düşüncə sərhədlərini pozur, ağılla ironik şəkildə oynayır.Ona "dəli" deyilməsə də, davranışı normativ ağıllılıq çərçivəsində yerləşmir və dəliliklə triksterliyin kəsişməsinə uyğundur. Molla Nəsrəddin Lətifələrinin birində onun özünü dəliliyə qoyub öz varlı lovğa qonşusuna dərs verdiyinin belə şahidi oluruq: *" Bir gün qonşu mollanın qapısını döyür ,molla qapının dalından cavab verir: "-mən evdə yoxam.....Valla ay qonşu bu dünya ki var,gör-götür dünyasıdır.Bir neçə vaxt bundan əvvəl mən sizə gəldim.Sən nökərini öyrətdin ki,desin ağam evdə yoxdur.Mən də sənin kimi etdim.Ancaq nökərim olmadığına görə məcbur oldum ki,evdə olmadığımı özüm deyim.Neyləyim, sənin kimi dövlətli deyiləm ki,nökər saxlayım.Mən özüm özümə həm nökərəm həm ağa".* (Abdulla, 1996).

2. **Bəhlul Danəndə**. Bu xalq qəhrəmanı da trikster obraz kimi bəzən cəmiyyətin nöqsanlarını qabartmaq və qarşısındakı cahillərə dərs vermək üçün özünü onların yerinə qoyur, dəli kimi davranır,axmaqcasına davranır, ağıllı məsləhətlər verir. "*Bir gün bir kişi Bəhlula "Danəndə"deyə müraciət edib soruşur,nə alıb satsa varlanar ?Bəhlul deyir: "Get dəmir al,kömür al vur anbara,üstünə də su səp,bir il qalsın,sonra çıxart sat"kişi onun dediyini edəndən sonra yaxşıca varlanır.Var dövləti artdıqca quduran xalqa pislik edən kişi bir müddət sonra yenə Bəhlulun yanına gəlir,bu dəfə isə ona "Divanə"deyə müraciət edir,qazancını artırmağın yolunu soruşur.Bəhlul deyir: "get sarmısaq,soğan al vur anbara,üstünə də su səp,bir ildən sonra apar sat"* (Abdulla, 1996). Bu məsləhətdən sonra kişi xeyli geri düşür. Beləliklə Bəhlul Danəndə axmaq birinə dərs vermək üçün onun mühitinə uyğunlaşır,ətrafındakı insanların əsl simasını açmaq üçün onların görkəminə düşür, əsl dəlinin kim olduğunu açıqlayır.

3. **Qaraca çoban.** Dastanda Qaraca çoban obrazı da öz gücünə güvənən ,sərhəd tanımayan obraz kimi yadda qalır. Qılıncsız-qalxansız əli yalın,tək sapandla düşmən qarşısına çıxır. Folklor dili ilə desək "dəliyəm güclüyəm"prinsipi ilə yaşayır.Özünün sapandını düşmənin yüz silahından üstün tutub sayı bilinməyən kafirin üstünə getmək də bir dəlilik əlamətidir.

Bəzən də düşdüyü situasiyadan alnıaçıq, üzüağ çıxmaq üçün dəli Çoban həddindən artıq ağıllı və təmkinli olmağı bacarır. Beləliklə Qaraca çoban triksterdir və onun hər iki kompleksinin "ağıllılıq və dəlilik" daşıyıcısıdır. Qazan xandan "kafirə varmaq" icazəsəni ala bilməyib əvəzində Qazan xan tərəfindən köklü bir ağaca sarınan və özünün dəli gücü ilə ağacı yerindən qoparan Qaraca Çoban nəhayətdə ağıllı tərpənir. B mənzərə ensiklopediyada öz əksini belə tapır: *"Qazan baxdı gördi çoban ağacı arxasına almış gəlir. Qazan aydır: -Mərə Çoban bu ağac nə ağacdır?*

Çoban aydır:-Ağam Qazan,bu ağac o ağacdır kim,sən kafiri basarsan qarnın acığır,mən sana bu ağacla yemək bişürərim-dedi.Bu söz Qazana xoş gəldi.Atdan endi Çobanın əllərini çözdü,alnından bir öpdü" (2000).

M. Kazımoğlu haqlı olaraq qeyd edir ki:"*Aydın məsələdir ki,"Dədə Qorqud"eposunda heç də bütün igidlərə "dəli" deyilmir. Bütün igidlərə "dəli" deyilsəydi,yəni "igid" və "dəli" sözləri tam eyni mənanı bildirsəydi,onda "dəli igid"ifadəsini işlətmək məntiqsiz görünərdi. Halbuki eposda bəzi qəhrəmanların adlarının önünə "dəli"təyini artırmaqla bərabər (Dəli Domrul, Dəli Dondar, Dəli Budaq, Dəli Uran) igidi başqa igidlərdən fərqləndirmək məqsədilə xüsusi "dəli igid" ifadəsi də işlənir"* (2006).

4. **Dəli Qarcar**. Xalqın illərlə alışmış olduğu adət ənənələrə qarşı çıxması,toy,elçilik ənənəsini qəbul etməməsi,hətta Oğuz elinin müqəddəsi olan Dədə Qorquda qarşı hörmətsizlik etməsi Dəli Qarcarın dəlilik trikster əlamətininin daşıyıcısı olduğunu deməyə əsas verir. M.Kazımoğlunun təbirincə desək: *"Dəli Qarcar da elin qız alıb,qız vermə adətlərini eyninə almır və bacısı Banıçiçəyə elçi düşənləri kimliyinə baxmayıb öldürür.Banıçiçəyə elçi göndərmək məsəsləsi ortaya çıxanda Baybörə xan əməlli-başlı çətinlik qarşısında qalıb, Qalın Oğuz bəylərini məsləhətə çağırır, Banıçiçəyi Dəli Qarcar-*

dan istəməyə kim getsin? Bəylər bu qədər təhlükəli elçiliyə yalnız Dədə Qorqudun gedə biləcəyini söyləyirlər. Axı Dədə Qorqudu hamı müqəddəs adam kimi tanıyır,onun bir sözünü Oğuz elində heç kim iki eləmir" (2006). Lakin hadisələrin sonrakı inkişafından məlum olur ki Dəli Qarcar yenə natarazlıq edib nizamı pozur hamının müqəddəs bildiyini o "əməli azmış"adlandırır və onun dalınca düşüb qovmağa başlayır. *"Dədə Qorqud baş endirib bağır basıb, "görklü"salam verdi. Dəli Qarcar ağzı köpüklənəköpüklənə: "Əleykəsalam !Ay əməli azmış,feili dönmüş.qadir Allah ağ alnına qada yazmış"* deyir ("Kitabi Dədə Qorqud ensiklopediyası", 2000)

5. **Salur Qazan.** KDQ-da Salur Qazan bütün boylarda iştirak etməklə diqqət çəkən əsas obrazlardan biridir. Salur Oğuz elinin düzlük, igidlik, qoçaqlıq timsalı olsa da bəzən ikili xüsusiyyət daşıyıcısı kimi də yadda qalır. O başqalarında qüsur kimi gördüyü keyfiyyətlərin bəzən özü daşıyıcısına çevrilir. Beləliklə, "dəlilik" bu obrazda həm igidlik xüsusiyyəti, həmçinin də trikster əlaməti kimi özünü göstərir. Dastanda özünü öyən, igidliyini car çəkən Salur Qazan başqa igidlər özünü öyəndə bəyənmir, tərif edəndə onlara qəzəbi tutur.

"Anda dəxi "ərəm,bəgəm"deyü ögünmədim.
Ögünən ərənləri xoş görmədim" (Zeynalov, Əlizadə, 1988).

6. **Koroğlu eposunda dəlilik.** Türk xalqlarının qəhrəmanlıq eposları içərisində "Koroğlu" dastanı həm ideya-məzmun, həm də obrazlar sisteminə görə xüsusi yer tutur. Bu dastanın mərkəzində dayanan Koroğlu yalnız güclü qəhrəman və zalıma qarşı üsyankar lider deyil, eyni zamanda xalq təfəkküründə mühüm yer tutan dəllilik–trikster arxetipinin daşıyıcısıdır. Onun davranışları, danışıq tərzi, bəzən qeyri-adi və gözlənilməz hərəkətləri klassik qəhrəman modelindən kənara çıxaraq trikster tipinə yaxınlaşır. Koroğlunun dəlliliyi onun qorxaqlığı və ya ağılsızlığı ilə bağlı deyil. Əksinə, bu dəllilik məqsədyönlüdür. Beləliklə, dəlilik Koroğlunun işinə yarayır,həmçinin xanlar paşalar bu dəlilikdən baş çıxrara bilmir, Koroğlunun ağlı sayəsində aldanır və gülünc vəziyyətə düşürlər: *"Otaq paşa, bəy, xan, tacirlə doludur. Eşitdilər ki,aşıq gəlib hamı sevindi...Koroğlunu çəkib məclisə apardılar.Baxdılar ki bu aşıq heç onlar görən aşıqlardan deyil,boyu uca,kürəkləri enli,süksünü kal süksünü kimi,boynunun əti kirdin-kirdin,bığları burulub keçirilib qulaqlarının dalına,sürüdən sifətindən zəhm tökülür.Qorxudan üzünə baxmaq olmur. Məclisdəki paşalardan biri dedi:*

-Aşıq hara aşığısan?
Koroğlu dedi:
-Çənlibel aşığıyam.
Paşa dedi:
-Qoç Koroğlunu tanıyırsanmı?
Koroğlu dedi:
-Yaxşı tanıyıram.Bir neçə il onun yanında aşıq olmuşam.
Toqatın Paşası Mahmud Paşa dedi:
-Bu gün dəli Koroğlunun Qıratını gətirən Həmzə bəyin toyudur.Qıratı gətirdiyinə görə bəylik alıb.Dona xatunu da ona vermişəm.İndi sən də bu toyda bir az dəli Koroğludan oxu,qulaq asaq" (2004). Həmzənin Qıratı qaçırması"qolundan verdiyimiz bu nümunədə Koroğlu məclisdəkiləri aşıq olduğuna inandırmaqla, "igidlik-dəlilik" həmçinin "trikster-dəlilik" arasında transformasiya edir. Bu xüsusiyyətlər onu klassik epik qəhrəmandan ayıraraq trikster qəhrəmana çevirir. Koroğlunun dəllilik maskası altında gizlənən əsas məqam sosial üsyandır. Koroğlu obrazında dəllilik və triksterlik bir-birini tamamlayan semantik qatlar kimi çıxış edir.

Nəticə

Trikster kompleksi dəliliyin yalnız xəstəlik kimi deyil, həm də mədəni məna əmələ gətirən, normativ sərhədləri pozan və daima dəyişən bir fenomen kimi anlaşılmasına imkan verir. Bu yanaşma dəliliyin və triksterliyin sosial-mədəni əlaqəsini genişləndirir və dəlilik fenomenini antropoloji və mifoloji strukturlarla əlaqələndirərək interdisiplinar təhlilə zəmin yaradır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Tərtib edəni Abdulla.B. (1996). Dava yorğan davasıymış. Molla Nəsrəddin lətifələri / Bakı:Yazıçı.
2. Kazımoğlu, M. (2006). Xalq gülüşünün poetikası. Bakı: Elm nəşriyyatı.
3. Kitabi Dədə Qorqud ensiklopediyası. (2000). (iki cilddə). I cild. Bakı: Yeni Nəşrlər evi.
4. Kitabi Dədə Qorqud (1988). (Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadənindir). Bakı: Yazıçı.
5. Koroğu. (2004). Bakı: Lider nəşriyyatı.
6. Quliyev, H. (2013) Mədəni Qəhrəman və Trikster Oppozisiyası/Azərbaycan Şifahi xalq ədəbiyyatına dair tədqiqlər. №2. Bakı
7. Foucault, M. (1973). Madness and Civilization. Manufactured in the United States of America Vintage Books A division of random house. New York.

THE PHENOMENON OF MADNESS AND THE TRICKSTER ARCHETYPE IN FOLKLORE TEXTS: A SEMANTIC ANALYSIS

Maya Abdullayeva

This article analyzes the concept of madness through the prism of the trickster archetype. From the perspectives of anthropology, psychoanalysis, mythology, semiotics, and cultural theory, madness can be understood not merely as an illness, but as an entity that exposes and challenges social norms. The study also examines, in particular, the characteristics of the "madman" figure in Azerbaijani national folklore that intersect with trickster qualities. In our research, the phenomenon of madness is associated with the trickster archetype within the collective imagination and cultural structures. Madness as a trait emerging from chaos functions as a form of self-critique of the cosmos. Like the trickster, the madman transcends both physical and spiritual boundaries. In a similar way, madness represents a condition that moves between dualities such as consciousness and unconsciousness, life and death, human and animal, sacred and profane, rationality and irrationality, as well as culture and nature.

Keywords: *Madness, trickster, archetype, folklore, wise, cunning.*

AZƏRBAYCAN VƏ QAQAUZ EPİK FOLKLORU: BƏNZƏRLİKLƏR, ORTAQ CƏHƏTLƏR

Xəzangül Məmmədova
AMEA-nın Folklor İnstitutu
Böyük elmi işçi
xezangulmemmedli@gmail.com
https://orcid.org/0009-0000-3881-3056

Türk xalqları tarixən, çox geniş bir ərazidə yaşamışlar. Belə türk xalqlarından biri də qaqauzlardır. Qaqauzlar hazırda türk dünyasının qərb hissəsində - Moldaviya Respublikasının Qaqauziya muxtar vilayətində yaşayırlar. Qaqauz türklərinin zəngin və özünəməxsus folkloru var. Qaqauz nağılları, atalar sözləri, Hoca Nəsrəddin lətifələri, xalq mahnıları və tapmacaları daha zəngindir. Bu folklor nümunələri həm dil, həm motiv, həm də süjet cəhətdən Azərbaycan türklərinin folkloruna çox yaxındır. Bu tədqiqatın məqsədi Qaqauz türk folkloru ilə Anadolu və Azərbaycan folkloru arasındakı oxşarlıqları və fərqləri araşdırmaqdır.

Qaqauz türkləri kökləri Kiçik Asiyadan olan qədim türk tayfalarından biridir. Bu tayfalar köç edərək qərbə doğru hərəkət edərək müxtəlif yerlərdə məskunlaşmışlar. Müxtəlif tarixi proseslər nəticəsində qaqauzlar türk xalqlarından ayrılaraq yunanlar, bolqarlar, rumın- moldovanlar və ruslarla təmasda olmuşlar. Bu, onların xristianlığı qəbul etməsinə səbəb olmuşdur. Əsrlər boyu bir yerdən digər yerlərə köç edən qaqauz xalqının arzuları, istəkləri, sevincləri və kədərləri bu folklor nümunələrində əks olunmuşdur. Qaqauz türklərinin folkloru ilə Azərbaycan türklərinin folkloru arasında böyük bir yaxınlıq var. Bu, onların eyni köklərə malik olması ilə izah olunur. Rus alimi Valentin Aleksandroviç Moşkov Qaqauz folklorunu toplayan ilk şəxs olmuşdur.

Qaqauz epik folklorunda olan atalar sözləri, tampmacalar və lətifələrin xüsusi yeri var. Azərbaycan epik folklorundakı oxşar nümunələri xatırladan Qaqauz folkor nümunələri maraq doğurur. Bu məqalədə Qaqauz epik folklorunda olan atalar sözləri, tapmacalar və lətifələrinin Azərbaycan epik folklorunda olan atalar sözləri, tapmacalar və lətifələrin yaxınlıqları vəortaq cəhətləri tədqiq edilir.

Açar sözlər: *Qaqauz, Azərbaycan, epik folklor, atalar sözləri, tapmacalar, lətifələr.*

Giriş

Türk xalqları tarixən, çox geniş bir ərazidə yaşamışlar. Belə türk xalqlarından biri də qaqauzlardır. Qaqauzlar hazırda türk dünyasının qərb hissəsində - Moldaviya Respublikasının Qaqauziya muxtar vilayətində yaşayırlar. Qaqauz türklərinin zəngin və özünəməxsus folkloru var. Qaqauz nağılları, atalar sözləri, Hoca Nəsrəddin lətifələri, xalq mahnıları və tapmacaları daha zəngindir. Bu folklor nümunələri həm dil, həm motiv, həm də süjet cəhətdən Azərbaycan türklərinin folkloruna çox yaxındır. Bu tədqiqatın məqsədi Qaqauz türk folkloru ilə Anadolu və Azərbaycan folkloru arasındakı oxşarlıqları və fərqləri araşdırmaqdır.

Qaqauz türkləri kökləri Kiçik Asiyadan olan qədim türk tayfalarından biridir. Bu tayfalar

köç edərək qərbə doğru hərəkət edərək müxtəlif yerlərdə məskunlaşmışlar. Müxtəlif tarixi proseslər nəticəsində qaqauzlar türk xalqlarından ayrılaraq yunanlar, bolqarlar, rumın- moldovanlar və ruslarla təmasda olmuşlar. Bu, onların xristianlığı qəbul etməsinə səbəb olmuşdur. Əsrlər boyu bir yerdən digər yerlərə köç edən qaqauz xalqının arzuları, istəkləri, sevincləri və kədərləri bu folklor nümunələrində əks olunmuşdur. Qaqauz türklərinin folkloru ilə Azərbaycan türklərinin folkloru arasında böyük bir yaxınlıq var. Bu, onların eyni köklərə malik olması ilə izah olunur. Rus alimi Valentin Aleksandroviç Moşkov Qaqauz folklorunu toplayan ilk şəxs olmuşdur. (Мошков, 1895, s. 81).

Qaqauz folklorunda atalar sözləri, tampmacalar və lətifələrin xüsusi yeri var. Atalar sözləri tarixən ata-babalarımızın yaratdığı və əsrlərdən bəri sınanmış qiymətli və hikmətli folklor nümunələridir. Mövzu müxtəlifliyi ilə yanaşı bitmiş fikir, ümumiləşdirmə və dəyərli nəticə atalar sözlərinə xas olan cəhətlərdir. Atalar sözləri xalqın həyatda sınaqdan çıxmiş, müdrik və nəsihətli fikirlərindən ibarət olur

və böyük əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Atalar sözlərinin əsas xüsusiyyəti onun həcmcə kiçikliyi, lakin mənaca hikmətli və nəsihətli olmasıdır. Atalar sözləri bitkin fikir ifadə edir, həm həqiqi, həm də məcazi mənada işlənir.

Qaqauz atalar sözləri də türk xalqlarının ortaq dəyərlərini, zəngin dünyagörüşünü və məişətini əks etdirən hikmətli ifadələrdir. Bu sözlərdə əməksevərlik, dürüstlük, dostluq və ailə dəyərləri əsas yer tutur. Qaqauz türklərinin folkloru atalar sözləri və məsəllərlə zəngindir. Qaqauzlar əcdadlarının əsrlər boyu sınaqdan keçirdikləri bu müdrik xalq nümunələrini hələ də qoruyub saxlayırlar. Qaqauz atalar sözləri ilə Azərbaycan atalar sözləri arasındakı yaxınlıq, ortaq köklər və qohumluq onların müqayisəsi zamanı daha aydın görünür. Məsələn, *Qaqauz folkorunda "Suya götürür, susuz getirir" atalar sözü, Azərbaycan folklorunda "*Səni suyua susuz aparıb, susuz gətirər", Qaqauz folklorunda *"Yeni süpürge üst köşede duruyor ", Azərbaycan folklorunda "*Yeni süpürgə təmiz süpürər", Qaqauz folklorunda "Aldın, verməyi unutmayın", *Azərbaycan folklorunda* "Bir almağın bir qaytarmağı da var", Qaqauz folklorunda "Irak olan - gözden de ırak olar", *Azərbaycan folklorunda* "Gözdən uzaq olan könüldən də uzaq olar", Qaqauz folklorunda "Adın çıkınca canın çıxsın", *Azərbaycan folklorunda* "Adamın adı çıxacağına, canı çıxsın", Qaqauz folklorunda "Şeytan tələsik müdaxilə edir", *Azərbaycan folklorunda* "Tələsik işə şeytan qarışar", Qaqauz folklorunda "Tatlı dil yılanı delikten çıkarır", *Azərbaycan folklorunda* "Şirin dil ilanı yuvasından çıxarar" və s. belə atalar sözlərindəndir. (Rumen ve Gagauz Türk edebiyatı, 1997, s. 257); (Atalar sözləri, 2013); (Atalar sözü, 2004).

Tapmacalar şifahi xalq ədəbiyyatının əsas janrlarından biridir. Tapmaca insanın zehni qabiliyyətini, ağlının çevikliyini yoxlamaq məqsədilə yaradılmışdır. Tapmacalarda hər hansı bir əşyanın əlaməti üstüörtülü şəkildə verilir və ya başqa bir əşyaya bənzədilir, onun tapılması qarşı tərəfdən tələb olunur.

Tapmacalar (bulmacalar) Qaqauz folklorunda geniş yayılmışdır. Zehni çeviklik tələb edən tapmacalar uzun qış gecələrində yorğun bir gündən sonra dincəlmək üçün sobanın ətrafına toplaşan insanlar üçün əyləncə forması idi. Tapmacalar insanın zehni qabiliyyətini və zehni çevikliyini sınamaq üçün deyilirdi. Tapmacada hər hansı bir əşyanın işarəsi dolayı yolla verilir və ya başqa bir əşya ilə müqayisə edilir. Digər şəxs cavabı tapmalı idi.

Qaqauz tapmacaları ilə Azərbaycan arasındakı yaxınlıq, ortaq köklər və qohumluq onların müqayisəsi zamanı daha aydın görünür. Məsələn, Qaqauz folklorunda "*Yiyer-doymaz, gider-gelmez". (*Yoloğlu, 1993*) Azərbaycan folklorunda isə tapmaca belə səslənir:* "Yeyir və doymur, gedir və qayıtmır". (Tapmacalar. Bakı, 2004)

Göründüyü ki, tamamilə eyni olan bu tapmacanın cavabı eynidir: Soba və tüstü. Doğurdan da, sobaya nə qədər odun qoyulsa da o doymur, onları yandırır, tüstü isə, həqiqətən də, gedir və geri qayıtmır. Digər bir tapmacaya baxaq. Qaqauz folklorunda "Bir koğuşum var, beş parmağım içinde". *Azərbaycan folklorunda isə belədir:* "Beş qardaş, beşinə də bir papaq" və ya "beş qardaş bir evə girər". (*https://www.google.com/searchq=Beş+qardaş+bir+evə+girərlər+tapmaca)*

Cavabı əlcək olan bu nümunələr bir birinə şox yaxındırlar. Başqa bir tapmaca isə Qaqauz folklorunda belə səslənir: "Ateş eder, göğe gider", *Azərbaycan folklorunda* "Od saçır, göyə qaçır". Cavabları ildırım, şimşək olan bu tapmacalar da göründüyü kimi bir birinə yaxındırlar.

Məlum olduğu kimi, şifahi ədəbiyyat janrları içərisində ən çox variantı olan tapmacalardır. Elə tapmacalar var ki, onun yüzdən artıq variantı vardır. Çoxvariantlılıqla yanaşı, bu janrın başqa bir xüsusiyyəti də eyni bir tapmacanın bir neçə müxtəlif cavabları olduğu halda, bir neçə müxtəlif tapmacanın da bir cavaba malik olmasıdır

"Tapmacalar" kitabının (2004, s. 12) Nurəddin Seyidov yazır: *"Bəzən də elə tapmacalara təsadüf edilir ki, məzmun və forması eyni olduğu halda, cavabları müxtəlif olur. Oxucu bəzən düşünə bilər ki, bu necə olur ki, bir tapmaca müxtəlif mənalara yozulur, yəqin burada nə isə bir səhvə yol verilibdir.*"Əslində bu hal tapmaca üçün tamamilə qanuni olub, bütün xalqların tapmacalarına aiddir. Məsələn:

Bir quşum var alaca,
Getdi qondu ağaca.
Özünə yuva tikdi,
Nə qapı qoydu, nə baca.
(Barama, balqabaq)

Belə bir vəziyyət bu janr üçün tamamilə səciyyəvi haldır. Balqabaq və barama haqqında tapmaca H.Zeynallının "Azərbaycan tapmacaları" kitabında (1928) qəsdən iki dəfə təkrar edilmiş, birinin cavabı barama, ikincisininki isə qabaq göstərilmişdir.

Qaqauz folkloru Xoca Nəsrəddinin lətifələri ilə zəngindir. Xoca Nəsrəddin haqqında lətifələr bu gün də Qaqauz türkləri arasında yaşayır. Xoca Nəsrəddin müxtəlif xalqlarda müxtəlif adlarla məşhurdur. Bəzən o, Hace Nəsrəddin, bəzən Hoca Nəsrəddin, bəzən sadəcə Nəsrəddin və bəzən də Hocadır. Avropa və rus tədqiqatçıları Xoca Nəsrəddinin türk mənşəli olduğunu təsdiqləyiblər. Xoca Nəsrəddin Qaqauz türkləri arasında böyük populyarlıq qazanıb. O, çox ağıllı və bəsirətli bir insan idi. Xoca Nəsrəddinin çətin vəziyyətlər anlayışı yox idi. O, qarşılaşdığı hər hansı bir hadisəni istədiyi kimi şərh edə bilirdi və beləliklə, cəld hazırcavablığı və zəkası ilə istənilən vəziyyətdən çıxa bilirdi. Xoca Nəsrəddin həm də Qaqauz türk zarafatlarının əsas qəhrəmanıdır. Onun hər bir lətifəsində dərin məntiq və mənalı müdriklik var. Bu tip lətifələrdə Qaqauz xalqının milli xüsusiyyətləri, adət-ənənələri, ailəsi və dolanışığı ətraflı izah olunur. Qaqauz türklərinin ən böyük xoşbəxtliyi ondadır ki, taleyin ağrı və əzabları onların iradəsini, gülüşünü və həyat həvəsini azalda bilməyib. Böyük bir faciə yaşayan hər bir Qaqauz türkü xalqının faciəsini öz faciəsi kimi hiss etsə də, bütün ağrı və əzabları üçün lətifələrdə təsəlli tapır. "*Xalq gülüşü, hazırcavab zarafatlar və yumoristik lətifələr Qaqauz türkləri üçün daimi ilham mənbəyi olmuşdur"*(Caferoğlu, 1959).

Qaqauz türklərinin lətifələrində Molla Nəsrəddin hazırcavab və yumoristik lətifələri və ardıcıl satirik-yumoristik cavabları ilə xalq müdrikliyinin təcəssümüdür və xalqın rəğbətini və sevgisini qazanır. O, hər bir hadisəni öz düşüncə prosesindən keçirir, ona öz yanaşmasını ifadə edir. Məsələn, uşaqlıq dövründə Xocanın atası ona nə deyirdisə, Nəsrəddin bunun əksini edirdi. Buna görə də atası həmişə Xocaya əksini deyirdi ki, oğlu da bunun əksini etsin və işlər rahat getsin. (Felek, 1962)

Qaqauz türklərinin zarafatlarında Hoca Nəsrəddin haqqında çoxlu lətifələr var. Xoca Nəsrəddinlə bağlı belə bir fıkraya, lətifəyə diqqət yetirək. Qaqauzlarda bu lətifə "Yorqan gitdi, kavğa bitti" adlanır. *"Xoca bir gece yatarkan, sokakta bir şamata işitmiş da xemen ne olduunu annamaa meraklanmış. Karısı baarmış ki, gitmesin, ama laf alnadamamış. Xava suuk olduundan, yorğanı sırtına alıp, Xoca sokaa fırlamış. Kavqa edennər Xoçayı qörüp seslərini kesmişlər, ama aralarından biri Xocanın sırtından yorğanı çekip karannık-ta kaybolmuş. Evə titiree-titiree dönən Xoçaya, karısı sormuş:*

-Ne o? Ne üstüneymiş kavqa?

Xoça boynusunu bükerek demiş:

-Besebelli, bizim yorqan üstüneymiş. Yorqan qitti, kavqa da bitti. **(**Yoloğlu, 1993**)**

Bu lətifənin demək olar ki, tam eynisi Azərbaycan folklorunda da var. Lətifə "Mollanın yorğanı" adlanir. Lətifədə deyilir: *"Gecələrin birində Mollanın evinin qabağında dava düşür. Molla səsə yuxudan oyanır, yorğanı çiyninə salıb çıxır ki, görsün nə olub.Kimsə elə o saat yorğanı onun çiynindən götürür. Qaranlıq olduğu üçün Molla yorğanı götürəni görmür. Ora yorğan, bura yorğan, bir də baxır ki, səs-səmir də kəsildi. Savaşanlar elə bil ki, Mollanı gözləyirmişlər.*

Küçədə heç kəs qalmır. Molla soyuqdan titrəyə-titrəyə evə qayıdır. Arvadı soruşur:

– A kişi, dava nə üstündə idi?

Molla deyir:

– Arvad, başa düşmədim. Amma deyəsən, dava bizim yorğanın üstündə imiş. Yorğanı apardılar, dava da qurtardı."(Molla Nəsrəddin lətifələri, 2004)

Qaqauz və Azərbaycan folklorunda belə nümunələyin sayı yüzlərlədir. Bu nümunələrdən göründüyü kimi Qaqauz türklərinin folkloru ilə Azərbaycan türklərinin folkloru arasında çox böyük yaxın-

lıqlar və oxşarlıqlar var. Bu isə Qaqauz türkləri ilə Azərbaycan türklərinin eyni köklərə, eyni mənşəyə malik olmaları ilə əlaqədardır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Atalar sözü. (2004). Bakı: Öndər nəşriyyat.
Atalar sözləri. (2013). Bakı: Nurlan.
Caferoğlu, A. (1959). Hoca Nasreddin. İstanbul Üniversitesi Edebiyat Fakültesi. Türk Dili ve Edebiyatı Dergisi, IX, 19–26.
Felek, B. (1962). Nasreddin Hoca. Türk Halkbilimi Çalışmaları, VII, 37–45.
Molla Nəsrəddin lətifələri. (2004). Bakı: Öndər nəşriyyat.
Мошков, В. А. (1895). Гагаузкие тексты. Казан, Т. XIII, Вып. 2, 70–83.
Rumen ve Gagavuz Türk edebiyatı. (1997). Ankara: Kültür Bakanlığı Yayınevi.
Tapmacalar. (2004). Bakı: Şərq-Qərb.
Yoloğlu, G. (1996). Qaqauzlar. Bakı: Yazıçı nəşriyyatı.
Zeynallı, H. (1928). Azərbaycan tapmacaları. Bakı, s. 60.

AZERBAIJANI AND GAGAUZ EPIC FOLKLORE: SIMILARITIES, COMMON FEATURES

Khazangul Mammedova

The Turkic peoples have historically lived in a very large area. One of these Turkic peoples is the Gagauz. The Gagauz currently live in the western part of the Turkic world - in the Gagauzia autonomous region of the Republic of Moldova. The Gagauz Turks have a rich and unique folklore. Gagauz tales, proverbs, Hodja Nasreddin anecdotes, folk songs and riddles are richer. These folklore samples are very close to the folklore of the Azerbaijani Turks in terms of language, motifs and plot. The purpose of this study is to investigate the similarities and differences between the Gagauz Turkic folklore and the folklore of Anatolia and Azerbaijan.

The Gagauz Turks are one of the ancient Turkic tribes with roots in Asia Minor. These tribes migrated and moved westward, settling in various places. As a result of various historical processes, the Gagauz separated from the Turkic peoples and came into contact with the Greeks, Bulgarians, Romanian-Moldovan and Russians. This led to their adoption of Christianity. The dreams, aspirations, joys and sorrows of the Gagauz people, who migrated from one place to another for centuries, are reflected in these folklore examples. There is a great similarity between the folklore of the Gagauz Turks and the folklore of the Azerbaijani Turks. This is explained by the fact that they have the same roots. The Russian scientist Valentin Aleksandrovich Moshkov was the first person to collect Gagauz folklore.

Proverbs, riddles and anecdotes in the Gagauz epic folklore have a special place. Gagauz folklore examples that resemble similar examples in the Azerbaijani epic folklore are of interest. This article studies the similarities and commonalities of the proverbs, riddles and anecdotes in the Gagauz epic folklore.

Keywords: *Gagauz, Azerbaijan, epic folklore, proverbs, riddles, anecdotes.*

AZƏRBAYCAN ƏDƏBİYYATINDA "DİGƏR" OBRAZI VƏ TÜRK KİMLİYİ: İMAQOLOJİ YANAŞMA (RƏFAİL TAĞIZADƏ YARADICILIĞI ƏSASINDA)

Samir Səttarov
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Sosiologiya üzrə fəlsəfə doktoru
samir@bk.ru
https://orcid.org/0000-0001-6380-0230

Bu məqalə Azərbaycan şairi və publisisti Rəfail Tağızadənin yaradıcılığında Polşa obrazının imaqoloji baxımdan təhlilini təqdim edir. Tədqiqat üç əsas mətn qrupuna əsaslanır: "Polşa şeirləri" poetik silsiləsi (2009), Fridrix Şopenə həsr olunmuş "Polşaya və musiqiyə məhəbbətlə döyünən böyük ürək" essesi (2010) və "Polşa. Qədim Varşava. Polyakların Çeslav Miloşa sevgisi" adlı məqalə (2011). Bu mətnlər əsasında Polşa hetero-obrazının formalaşma dinamikası izlənilir. İlkin lirik uzaqlıqdan başlayaraq tədricən mədəni yaxınlaşma mərhələsinə, daha sonra isə dərin tarixi və mədəni düşüncəyə qədər inkişaf prosesi göstərilir.

Tağızadənin yaradıcılığında Polşa obrazı yalnız coğrafi və ya tarixi bir məkan kimi deyil, məkan, tarix, mədəniyyət və ekzistensial mənalar daşıyan çoxqatlı və dinamik bir obraz kimi təqdim olunur. Bu hetero-obrazın əsas funksiyaları müqayisəedici, dəyərləndirici (aksioloji), identifikasiyaedici və vasitəçi (mediativ) xarakter daşıyır. Araşdırma göstərir ki, Polşa mövzusuna müraciət Azərbaycan mədəni kimliyinin yenidən düşünülməsi və özünüdərki üçün bir vasitə rolunu oynayır. "Əhəmiyyətli Digər" obrazı vasitəsilə müəllif Azərbaycan mədəni kimliyi, tarixi yaddaş və ziyalının milli şüurun formalaşmasındakı rolu kimi mühüm məsələlərə toxunur.

Tağızadənin yaradıcılığı XXI əsr Azərbaycan ədəbiyyatında Polşa obrazının təqdimində yeni keyfiyyət mərhələsini ifadə edir. Bu mərhələ ənənəvi, dolayı təsvir modelindən şəxsi təcrübəyə və intellektual refleksiyaya əsaslanan birbaşa mədəni dialoqa keçidi göstərir.

Açar sözlər: *imaqologiya, hetero-obraz, auto-obraz, Rəfail Tağızadə, Azərbaycan ədəbiyyatı.*

Giriş

Müasir müqayisəli ədəbiyyatşünaslıqda "digər" və ya "yad" məkanın bədii reprezentasiyası aparıcı tədqiqat problemlərindən biri kimi çıxış edir. Bu kontekstdə imaqologiya xüsusi metodoloji əhəmiyyət kəsb edən elmi istiqamət kimi diqqəti cəlb edir. İmaqologiya ədəbiyyatda milli obrazların formalaşma mexanizmlərini araşdırmaqla yazıçının başqa bir mədəniyyəti necə qavradığını, onu hansı semantik çərçivədə mənalandırdığını və hansı bədii vasitələrlə təqdim etdiyini sistemli şəkildə təhlil etməyə imkan verir. Rəfail Tağızadənin yaradıcılığı bu istiqamətdə Azərbaycan ədəbiyyatında "digər" obrazının öyrənilməsi üçün məhsuldar material təqdim edir. Müəllif bir neçə il ərzində Polşa mövzusuna ardıcıl şəkildə müraciət edərək həmin mədəni məkanı həm poetik, həm də publisistik müstəvidə çoxşaxəli və konseptual dərinliklə təqdim etmişdir.

Azərbaycan ədəbiyyatında Polşa mövzusu müəyyən tarixi ənənəyə malikdir. Sovet dövrü ədəbi mətnlərində bu ölkə daha çox müharibə, faciə və tarixi qarşıdurma kontekstində dərk olunurdu. XXI əsrdə isə bu yanaşmada prinsipial dəyişiklik müşahidə edilirdi. Kollektiv və ideoloji xarakter daşıyan təsvir modellərini tədricən fərdi təcrübəyə əsaslanan, emosional-intensiv və bilavasitə mədəni təmasdan doğan yanaşma əvəz etməyə başlamışdır. Bu transformasiya Rəfail Tağızadənin yaradıcılığında xüsusilə aydın şəkildə üzə çıxır və "digər" obrazının artıq sabit stereotip deyil, fərdi təcrübə və mədəni qarşılıqlı təsir nəticəsində formalaşan dinamik və açıq struktur olduğunu nümayiş etdirir.

Tədqiqatın empirik bazasını müəllifin müxtəlif dövrlərdə qələmə aldığı üç əsas mətn qrupu təşkil edir: Bunlara 2009-cu ildə nəşr olunmuş "Polşa şeirləri" adlı poetik silsilə daxildir ki, həmin silsiləyə "Varşava şeirləri", "Novotelin pəncərəsində düşüncələr", "Solidarnost muzeyində" və "Qdansk, son gecə" şeirləri daxildir (Tağızadə, 2009). Bundan əlavə, 2010-cu ildə qələmə alınmış "Musiqiylə və Polşa sevgisiylə döyünən böyük Ürək" adlı publisistik məqalə (Tağızadə, 2010) və 2011-ci ildə dərc

edilmiş "Polşa. Köhnə Varşava. Polyakların Çeslav Miloş sevgisi" adlı analitik yazı (Tağızadə, 2011) da tədqiqat materialına daxildir.

Adıçəkilən mətnlərin kompleks şəkildə təhlili müəllifin yaradıcılıq şüurunda Polşa obrazının formalaşma və inkişaf dinamikasını izləməyə imkan verir. Bu dinamika ilkin bilavasitə təəssürat mərhələsindən başlayaraq tədricən dərin tarixi-mədəni refleksiya səviyyəsinə qədər yüksələn ardıcıl inkişaf xətti kimi özünü göstərir.

Məqalənin əsas məqsədi Rəfail Tağızadənin yaradıcılığında "digər" obrazının konkret olaraq Polşa timsalında imaqoloji təhlilini həyata keçirmək, bu obrazın formalaşma mexanizmlərini, struktur komponentlərini və funksional yükünü müəyyənləşdirməkdən ibarətdir. Eyni zamanda bu yanaşma "digər" vasitəsilə "öz"ün, yəni milli identikliyin, xüsusilə türk kimliyinin necə dərk və yenidən qurulduğunu aşkara çıxarmağa xidmət edir.

İmaqologiya XX əsrin ortalarında formalaşmış və əsasən fransız komparativistlərinin tədqiqatları zəminində inkişaf etmiş elmi istiqamətdir. Sonrakı mərhələdə Hüqo Dizerink və Manfred Fişer kimi tədqiqatçıların fəaliyyəti bu sahənin metodoloji əsaslarının daha da sistemləşdirilməsinə və genişləndirilməsinə gətirib çıxarmışdır. İmaqoloji yanaşmanın mərkəzində müxtəlif mədəniyyətlərin bir-birini necə qavradığını və təqdim etdiyini əks etdirən bədii konstruksiyalar dayanır. Bu konstruksiyalar vasitəsilə ədəbiyyat yalnız estetik mətn kimi deyil, eyni zamanda mədəni qavrayışların formalaşdığı bir məkan kimi dəyərləndirilir.

İmaqologiyanın əsas anlayışları sırasında hetero-obraz, yəni "digər"in obrazı və avto-obraz, yəni öz milli kimliyinin bədii ifadəsi xüsusi yer tutur. Burada diqqət çəkən əsas məqam ondan ibarətdir ki, imaqoloji təhlil bu obrazların obyektiv reallığa uyğunluğunu müəyyənləşdirməyə yönəlmir. Əsas diqqət onların mətn daxilində necə qurulduğuna, hansı semantik və aksioloji məzmun daşıdığına və hansı funksional rol oynadığına yönəldilir. Buna görə də "digər" obrazı yalnız yad mədəniyyətin təsviri ilə məhdudlaşmayayraq, fərdin və cəmiyyətin özünü dərk etməsinə xidmət edən mühüm estetik və idraki vasitəyə çevrilir.

İmaqologiya üçün xüsusi əhəmiyyət kəsb edən mətn növlərindən biri də "səyahət mətnləri"dir. Bu tip əsərlər müəllifin başqa bir mədəniyyətlə bilavasitə təması nəticəsində yaranır və burada "digər" obrazı ənənəvi stereotiplərdən daha çox şəxsi təcrübənin təsiri altında formalaşır. Nəticədə belə obrazlar dinamikliyi, çoxqatlılığı və bəzən daxili ziddiyyətləri ilə seçilir. Bu səbəbdən Rəfail Tağızadənin Polşa mövzusuna həsr etdiyi mətnlər xüsusi elmi maraq doğurur. Həmin mətnlər müəllifin Polşa şəhərlərində əldə etdiyi birbaşa təcrübənin bədii ifadəsi olmaqla ilkin mədəni qarşılaşmanın mürəkkəbliyini çaşqınlıqdan kəşfə, məsafədən mənəvi yaxınlığa doğru inkişafı ardıcıl şəkildə əks etdirir.

Rəfail Tağızadə yaradıcılığında mətnlərin janr xüsusiyyətləri də xüsusi əhəmiyyət daşıyır. Poetik silsilə və publisistik yazılar reallığın fərqli qavrayış modellərini təqdim edir: lirika daha çox subyektiv və emosional təcrübəni ön plana çıxardığı halda, publisistika analitik və reflektiv yanaşma ilə seçilir. Bu iki istiqamətin müqayisəli təhlili Tağızadənin yaradıcılığında Polşa obrazının həm ümumi inkişaf qanunauyğunluqlarını, həm də janr spesifikasından irəli gələn struktur xüsusiyyətlərini daha aydın şəkildə müəyyənləşdirməyə imkan verir.

"Polşa şeirləri" silsiləsi müəllifin Polşada olduğu dövrdə 2007-ci ildə qələmə alınmış və 2009-cu ildə nəşr edilmişdir (Tağızadə, 2009, s. 140–143). Bu fakt xüsusi metodoloji əhəmiyyət daşıyır. Burada retrospektiv xatirələrin deyil, birbaşa yaşanan təcrübənin operativ bədii ifadəsi ilə qarşılaşırıq. Şeirlərdə "səyahət qeydləri" üslubunun qorunması mətnlərə həm sənədli dəqiqlik, həm də emosional autentiklik qazandırır və onları imaqoloji təhlil baxımından xüsusilə dəyərli edir.

Silsilənin başlanğıcında yer alan "Varşava şeirləri" və "Novotelin pəncərəsində düşüncələr" mətnlərində Polşa əsasən yadlıq və tənhalıq məkanı kimi təqdim olunur (Tağızadə, 2009, s. 140–141). Dil baryeri, anonim və soyuq otel mühiti, qışın sərt atmosferi və şəhərə yuxarıdan baxış kimi detallarla qurulan təsvir sistemi lirik subyektin tanış sosial-mədəni kontekstdən müvəqqəti qopmasını ifadə edir. Bu elementlər birlikdə ilkin qarşılaşmanın psixoloji vəziyyətini – qeyri-müəyyənlik, uzaqlıq və daxili təcrid hissini formalaşdırır.

İmaqoloji baxımdan bu mərhələ "digər"lə ilk təmasın tipik modelini əks etdirir. Yad məkan ilkin olaraq mənimsənilməmiş və semantik baxımdan "oxunmamış" mühit kimi qavranılır. Bu vəziyyət ekzistensial yadlıq hissi yaradır. Dil bilməmək burada yalnız kommunikativ çətinlik deyil, daha geniş mədəni məsafənin simvolik ifadəsinə çevrilir. Otel pəncərəsindən şəhərə yuxarıdan baxış isə lirik subyektin iştirakdan çox müşahidəyə əsaslanan mövqeyini göstərir. Şəhər canlı sosial məkan kimi deyil, vizual obyekt kimi dərk olunur. Belə yanaşma səyahət mətnləri üçün səciyyəvidir və müəllifin reflektiv düşüncə tərzini ortaya qoyur.

Lakin silsilə bu ilkin yadlaşma mərhələsində dayanıb qalmır. Mədəni məsafənin tədricən aradan qalxması və yaxınlaşma prosesi dinamik şəkildə təqdim olunur. Bu transformasiyanın əsas hərəkətverici qüvvəsi insan münasibətləri olur. İnsanların səmimiyyəti, açıq davranışı və ünsiyyətə meyilliliyi ilkin yadlıq hissini zəiflədir və onu tədricən aradan qaldırır. Beləliklə, "digər" sabit və dəyişməz kateqoriya kimi deyil, qarşılıqlı münasibətlər nəticəsində transformasiya olunan dinamik fenomen kimi təqdim edilir.

Bu dinamika Polşa obrazının stereotip çərçivədən çıxaraq real qarşılıqlı təsir prosesində formalaşan canlı struktur olduğunu göstərir. "Digər" artıq abstrakt kateqoriya deyil, konkret insan mühiti kimi qavranılır və bu mühit anlaşılması mümkün olan bir reallığa çevrilir. İlkin mərhələdə üstünlük təşkil edən məsafə hissi tədricən emosional yaxınlıqla əvəz olunur və bu keçid mətnin daxili semantik strukturunda ardıcıl şəkildə izlənilir.

"Solidarnost muzeyində" şeiri isə bu inkişaf xəttində keyfiyyətcə yeni mərhələni ifadə edir. (Tağızadə, 2009, s. 143). Burada Polşa artıq məkan kimi deyil, tarixi paralellər vasitəsilə dərk olunur. Polşa tarixinin Azərbaycan tarixinin faciəli səhifələri ilə müqayisəsi nəticəsində bu ölkə yad məkan kimi deyil, ortaq tarixi taleyə malik mənəvi baxımdan yaxın mədəniyyət kimi təqdim edilir. Bu mərhələdə Polşa "əhəmiyyətli Digər" statusu qazanır və "öz"lə "digər" arasındakı sərhəd semantik baxımdan yumşalır.

Silsilənin sonuncu şeiri olan "Qdansk, son gecə" bu inkişafın məntiqi yekunu kimi çıxış edir. Burada Polşa artıq mənimsənilmiş və daxili olaraq qəbul edilmiş mədəni məkan kimi təqdim olunur. Ayrılıq hissinin ifadəsi isə bu mənimsəmənin göstəricisinə çevrilir. Yad məkanın qavranılması prosesi tamamlanır və "digər" emosional yaxınlığa transformasiya olunur.

2010-cu ildə qələmə alınmış publisistik məqalədə müəllif Polşa mövzusuna fərqli analitik müstəvidə yanaşır (Tağızadə, 2010, s. 7). Bu mərhələdə diqqət artıq şəxsi təcrübədən daha çox mədəni və simvolik mənalar üzərində cəmlənir. Şopen obrazı Polşa milli kimliyinin əsas simvollarından biri kimi təqdim olunur və onun timsalında Polşa milli ruhun və tarixi yaddaşın daşıyıcısı kimi şərh edilir.

Şopenin ölümündən sonra ürəyinin vətənə qaytarılması faktı burada xüsusi simvolik məna qazanır. Bu hadisə milli kimliyin fiziki sərhədlərlə məhdudlaşmadığını, onun mədəni və mənəvi müstəvidə yaşadığını göstərir. Eyni zamanda mühacirət mövzusu milli kimliyin coğrafi deyil, daha çox mədəni yaddaş və mənəvi bağlılıq üzərində qurulduğunu təsdiqləyir.

2011-ci ildə yazılmış analitik məqalədə isə Polşa artıq beynəlxalq mədəni kontekstdə təqdim olunur (Tağızadə, 2011, s. 30). Müəllif bu mərhələdə müşahidəçi mövqeyindən çıxaraq mədəni dialoqun fəal iştirakçısına çevrilir. Kopernik, Mitskeviç, Mariya Küri və Şopen kimi şəxsiyyətlər Polşa kimliyinin simvolik təmsilçiləri kimi təqdim edilir. Bu yanaşma "mədəni panteon" modelinə əsaslanır. Bu modelə görə, millətin kimliyi onun yetişdirdiyi görkəmli şəxsiyyətlər vasitəsilə ifadə olunur. Belə təqdimat Polşanı yüksək mədəniyyətə və zəngin intellektual ənənəyə malik bir məkan kimi xarakterizə edir.

Aparılmış təhlil əsasında Rəfail Tağızadənin yaradıcılığında Polşa hetero-obrazının bir neçə əsas struktur komponentini fərqləndirmək mümkündür. İlk növbədə, məkan komponenti diqqəti cəlb edir: Polşa konkret coğrafi və urbanistik məkan kimi təqdim olunur və bu məkan yadlıq və yaxınlıq kateqo-

riyalarının qarşılıqlı münasibəti çərçivəsində qavranılır (Tağızadə, 2009, s. 140–141). İkinci komponent tarixi ölçüdür; burada Polşa azadlıq uğrunda mübarizə təcrübəsini özündə cəmləşdirən, faciəvi və eyni zamanda qəhrəmanlıqla zəngin tarixə malik xalq kimi təqdim edilir (Tağızadə, 2009, s. 143). Üçüncü komponent mədəni müstəvidə formalaşır. Polşa yüksək mədəni ənənələrin daşıyıcısı kimi, böyük sənətkarların və mütəfəkkirlərin fəaliyyəti vasitəsilə reprezentasiya olunur (Tağızadə, 2010; Tağızadə, 2011). Nəhayət, dördüncü – ekzistensial komponent çərçivəsində Polşa mənəvi axtarışların və milli kimliyin davamlılığının məkanı kimi təqdim edilir; burada milli mənsubiyyət fiziki ölüm və coğrafi sərhədlərdən kənara çıxan bir fenomen kimi dərk olunur (Tağızadə, 2010, s. 7).

Tağızadənin yaradıcılığında Polşa hetero-obrazı funksional baxımdan da çoxqatlı xarakter daşıyır. Komparativ funksiya Polşa və Azərbaycan tarixi-mədəni təcrübələri arasında qurulan paralellər vasitəsilə reallaşır və bu paralellər "öz" ilə "digər" arasında semantik körpü yaradır (Tağızadə, 2009, s. 143). Aksioloji funksiya milli mədəniyyətin, tarixi yaddaşın və mənəvi identikliyin dəyərləndirilməsi ilə bağlıdır (Tağızadə, 2010, s. 7; Tağızadə, 2011, s. 30). İdentifikasiya funksiyası çərçivəsində "digər" güzgü modeli kimi çıxış edir və bu model vasitəsilə həm müəllif, həm də oxucu öz milli və mədəni mənsubiyyətini daha dərindən dərk edir. Mediator funksiyası isə müəllifin iki mədəniyyət arasında vasitəçi mövqe tutması ilə səciyyələnir; bu mövqe Polşa mədəni kodunun Azərbaycan oxucusu üçün anlaşıqlı və interpretasiya oluna bilən formaya gətirilməsini təmin edir (Tağızadə, 2011, s. 30).

Rəfail Tağızadənin Polşaya həsr olunmuş yaradıcılığı Azərbaycan ədəbiyyatında başqa bir milli mədəniyyətin ardıcıl və sistemli bədii mənimsənilməsinin nadir nümunələrindən biri kimi qiymətləndirilə bilər. 2009-cu il poetik silsiləsindən başlayaraq 2010–2011-ci illərin publisistik mətnlərinə qədər uzanan yaradıcılıq trayektoriyası çərçivəsində müəllif Polşa obrazını getdikcə daha mürəkkəb və çoxölçülü strukturda qurur. Bu prosesdə fərdi təcrübə, tarixi analoji düşüncə və mədəni refleksiya qarşılıqlı şəkildə inteqrasiya olunaraq vahid imaqoloji model yaradır.

İmaqoloji baxımdan Tağızadənin yaradıcılığında Polşa hetero-obrazı bir sıra prinsipial xüsusiyyətlərlə səciyyələnir. İlk olaraq, bu obrazın dinamik xarakteri qeyd olunmalıdır; Polşa sabit və dəyişməz stereotip kimi deyil, davamlı mədəni qarşılıqlı təsir və dialoq prosesində formalaşan açıq sistem kimi təqdim olunur (Tağızadə, 2009). İkinci xüsusiyyət onun çoxölçülülüyüdür; Polşa obrazı eyni zamanda məkan, tarix, mədəniyyət və ekzistensial müstəvilərdə qurulur və bu müstəvilər bir-biri ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir (Tağızadə, 2009; 2010; 2011). Üçüncü xüsusiyyət funksionallıqla bağlıdır. Polşa obrazı müstəqil məqsəd daşımır, əksinə, daha geniş milli və mədəni özünüdərk prosesinin aləti kimi çıxış edir.

Tağızadənin yaradıcılığında Polşa yalnız "digər" kimi deyil, həm də mənəvi yaxınlıq potensialına malik mədəni məkan kimi təqdim olunur. Bu məkan Azərbaycan milli özünüdərkinin fundamental problemləri ilə rezonans yaradır və müəllif Polşa obrazı vasitəsilə ümumbəşəri əhəmiyyət kəsb edən sualları konseptual səviyyədə irəli sürür. Tarixi sınaqlar şəraitində milli varlığın mahiyyəti nədən ibarətdir, milli identikliyin qorunmasında mədəniyyətin, dilin və ədəbiyyatın funksiyası necə müəyyənləşir. Bu sualların bədii və publisistik kontekstdə işlənməsi Polşa mövzusunu Tağızadənin yaradıcılığında yalnız təsvir obyekti deyil, həm də nəzəri-idraki problem kimi aktuallaşdırır və ona xüsusi elmi əhəmiyyət qazandırır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Tağızadə, R. (2009). Şeirlər. Azərbaycan jurnalı, № 6, s. 140–143.

2. Tağızadə, R. (2010). Musiqiylə və Polşa sevgisiylə döyünən böyük ürək. 525-ci qəzet, s.7. http://www.anl.az/down/meqale/525/2010/iyun/121950.html

3. Tağızadə, R. (2011, 29 oktyabr). Polşa. Köhnə Varşava. Polyakların Çeslav Miloş sevgisi. 525-ci qəzet, s. 30.

THE "OTHER" FIGURE AND TURKISH IDENTITY IN AZERBAIJANI LITERATURE: AN IMAGOLOGICAL APPROACH (BASED ON THE WORKS OF RAFAIL TAGHIZADEH)

Samir Sattarov

This article offers an imagological analysis of the representation of Poland in the works of Azerbaijani poet and publicist Rafail Taghizade. The study is based on three groups of texts: the poetic cycle Polish Poems (Polşa şeirləri, 2009), the essay A Great Heart Beating with Music and Love for Poland (2010), dedicated to Frédéric Chopin, and the article *Poland. Old Warsaw. The Poles' Love for Czesław Miłosz* (2011*). The analysis traces the dynamic formation of the Polish hetero-image, evolving from initial lyrical estrangement to gradual cultural familiarization and, ultimately, to profound historical and cultural reflection.*

The image of Poland in Taghizade's works is interpreted as a multidimensional and dynamic construct functioning simultaneously within spatial, historical, cultural, and existential frameworks. The main functions of this hetero-image are identified as comparative, axiological, identificatory, and mediatory. The study demonstrates that engagement with the Polish theme operates as a means of national self-reflection. Through the representation of the "significant Other," the author addresses key issues of Azerbaijani cultural identity, historical memory, and the role of the intelligentsia in sustaining national consciousness.

It is argued that Taghizade's work represents a qualitatively new stage in the depiction of Poland in twenty-first-century Azerbaijani literature, marking a shift from mediated, traditional literary perception to a direct cultural dialogue grounded in personal experience and intellectual reflection.

Keywords: *imagology, hetero-image, auto-image, Rafail Taghizade, Azerbaijani literature.*

MƏMMƏD ƏMİN YURDAQULUN YARADICILIĞINDA MİLLİ DÜŞÜNCƏ VƏ TÜRKÇÜLÜK

Ruhəngiz Əliyeva
AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Dissertant
Azərbaycan Dövlət Pedaqoji Kolleci
Müəllim
ruxa.aliyeva.1978@gmail.com

M.Ə.Yurdaqul XX əsr türk ədəbiyyatı tarixində özünəməxsus türk dünyası xalqlarının bütövləşməsi, milli müəyyənlik duyğusu, öz dəyərlərinə sahib çıxma, qiymətləndirmə, türk qadınının mövqeyi, gələcək müqəddəratı və s. kimi mövzular üstünlük təşkil etmişdir. "Milli şair" deyə adlandırılan M. Ə. Yurdaqul türk millətçiliyi hərəkatının, türkçülük məfkurəsinin öndə duran şəxslərindən hesab olunur. XX əsrin əvvəllərində onun şeir nümunələri Azərbaycan mətbuatında da dərc edilmiş, bir çox şairlər onun yaradıcılığından bəhrələnmişlər.

Açar sözlər: *vətən, nəzm, türkçülük, milli ədəbiyyat*

Giriş

Yarandığı dövrdən zaman-zaman türk ədəbiyyatına islam dininin, sonra isə Qərb mədəniyyətinin təsiri olmuşdur. Xalqın özünü təmsil edən ədəbiyyat isə hər zaman kölgədə qalmışdır. Tədqiqatçıların fikrincə bu dövrlərdə xalq ədəbiyyatından dövlət adamları ancaq siyasi, dini və ya digər fikirlərini insanlara çatdırmaq üçün istifadə edir, əsasən didaktik məqsədləri üçün yararlanırdılar.

Türk ədəbiyyatı təşəkkül tapdığı dövrdən bugünədək islamdan öncə, islam dini və Qərbə meyilli ədəbiyyat olmaqla üç dövrə ayrılır. Qərbə meyilli ədəbiyyat isə öz növbəsində Tənzimat, Sərvəti-Fünun, Milli ədəbiyyat, Cümhuriyyət və Yeni ədəbiyyat dövrlərindən ibarətdir. M.Ə.Yurdaqul milli ədəbiyyat dövrünün nümayəndələri sırasında ən öncül simalardan biridir. Bu dövrün qələm sahibləri xalq ədəbiyyatı ilə Avropa mədəniyyəti və ədəbiyyatının vəhdətindən araya gələn ədədbi nümunlər yaratmaq istəyirdilər.

Milli ədəbiyyat dövrü poeziyası forma, məzmun və digər xüsusiyyətlərilə özündən əvvəlki dövrlərdən kəskin fərqlənir. Bu dövr eyni zamanda türkçülük, milliyətçilik, osmanlıçılıq, islamçılıq və digər məfkurə və ideyaların hakim olduğu bir dövr idi.

Ədəbiyyat hər zaman tarixdə baş verən hadisələri, ədəbi-mədəni dəyişiklikləri əks etdirmişdir. Bu baxımdan ədəbiyyatı cəmiyyətdən ayrı təsəvvür etmək qeyri-mümkündür. Osmanlı-türk cəmiyyətinin bütün sahələrində istər siyasi, istər iqtisadi, istərsə də mədəni həyatında baş verənlər ədəbi sahədə müəyyən meyllərin təşəkkül və formalaşmasına təkan olmuşdur. Bir-birinin ardınca baş verən Trablis, Balkan, I Dünya və Milli Mücadilə, II Məşrutiyyətin elanı, Böyük Osmanlı imperatorluğunun məğlubiyyəti və bu kimi hadisələr Milli ədəbiyyat dövrü ədəbiyyatı və xüsusən nəzm nümunələrində dolğun şəkildə ifadə olunmuşdur.

Məmməd Əmin Yurdaqul "Cenge giderken" adlı şeirilə bu dövrün ana mövzusunun nədən ibarət olacağını yəqinləşdirdi. Ondan sonra Riza Tofiq də bu yolla gedərək türk folkloru və xalq ədəbiyyatından qaynaqlanan şeirlər qələmə almağa başlayır və beləliklə Milli ədəbiyyat dövrünün təməli qoyulmuş olur.

Milli ədəbiyyat dövrünün poetik örnəklərinin mövzusu əsasən üç istiqamətdə inkişaf etmişdir.

1. İctimai-siyasi, vətənpərvərlik, türkçü-milliyətçi məfkurənin təbliği;
2. Məmləkət və ya Anadolu mövzusu;
3. Müxtəlif problemlərin ehtivası olan mövzular (eşq, ölüm, yalnızlıq, qürbət, ailə və qadına münasibət və s.).

Məmməd Əmin Yurdaqul elə bir zamanda ədəbiyyata atılmışdır ki, həmin dövr Ədəbiyyati-Cədidənin hakim olduğu bir dövr idi. Qeyd olunduğu kimi Yurdaqul yalın türk dilində heca vəzniylə şeir-

lər yazmaqla Milli ədəbiyyat fikrinin təməlini qoyanlardan olmuşdur. Uşaqlıq illərindən tanış olduğu dastanlar, xalq hekayətləri, nağıllar onun dünyagörüşündə öz dərin təsirini buraxmış, tanınmış mütəfəkkir Cəmaləddin Əfqaninin düşüncələri isə bu fikirlərin formalaşmasında böyük rol oynamışdır. "Türkce siirler" (1898) adlı kitabıyla zəmanəsinin ədəbi ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır və cəmiyyətdə nüfuzu artır. "Asiyan", "Bahçe", "Resimli kitap", "Serveti-Fünun", "Türk yurdu" onun şeirlərinin dərc olunduğu qəzet və jurnallar idi.

M.Ə. Yurdaqul şeir sənətini xalqın dərdini anlatmaq üçün bir vasitə seçmişdir. Onun özünün də qeyd etdiyi kimi həyatının və sənətinin məqsədi xalqın şairi olmaqdır. O, *"İttihad və tərəqqi"* cəmiyyətinin fəal üzvlərindən olmuş, I Dünya müharibəsi ərəfəsində türkçülük və milliyyətçilik ehsasatı ilə yüklənmiş *"Türk sazı"* (1914), *"Ey Türk yunan"* (1914), *"Ordunun destanı"* (1915), *"Dicle karşısında"* (1916) adlı mənzumələrini nəşr etdirmişdir. *"Türk hukuku"* (1919) isimli mənsur əsəri türk xalqının heç bir əsarətə, zülmə boyun əyməyəcəyi fikrini ifadə edirdi. Onun xalq hekayətlərindən, dastan və nağıllarından qidalanmış ruhu bu mövzulara müraciət etməyə sövq edirdi.

Türk-Yunan savaşı illərində *"Asır"* qəzetində nəşr olunan *"Cengə giderken ve ya Anadoludan bir ses"* adlı şeiri hərbə yola düşən bir əsgərin dilindən yazılmış, zəmanəsinə geniş əks-səda doğurmuşdur:

Ben bir Türkün, dinim, cinsim uludur.
Sinem, özüm ateş ile doludur.
İnsan olan vatanının kuludur.
Türk evladı evde durmaz, giderim!
Tanrım şahit, duracağım sözümde,
Milletimin sevgileri özümde
Vatanımdan başka şey yok gözümde
Yar yatağın düşman olmaz: giderim!

Məmməd Kaplanın bu mənzumənin cəmiyyət tərəfindən necə qarşılanması haqqında olan fikirləri maraqlıdır: *"Aruzu və Osmanlıcayı büyük bir maharetle kullanan ve o devir İstanbul entellektüellerinin ince, kozmopolit ve kötümser hayat görüşlerini anlatan Fikret, şöhret ve olgunlugun doruğunda idi. Kimse şehre kağnı arabası ile giren kendi halinde bir şairin Türk edebiyatında yeni bir cığır açacağına ve başkent aydınlarının hayat görüşlerini alt-üst edecegine ihtimal vermiyordu. Fakat o, estetik bakımından hiç de mükemmel olmayan siirleriyle bu inkilabi yaptı"* (Kaplan, 1994, s. 168).

M.Ə. Yurdaqul məcmuələrdə şeirlərini yayımladıqca cəmiyyətdə əruz-heca, osmanlı və ya türk dili ilə bağlı mübahisələr başlayır. Bu müzakirələr əsasən Ömər Naci və Rza Tofik arasında baş verir. M.Ə. Yurdaqulun fikirlərinə görə türk şeiri elə türkçə, yəni ərəb və fars sözləri olmadan yazılmalı, ölçüsü isə əruz deyil, heca vəzni olmalı idi. Şəmsəddin Sami, Əhməd Midhət, Xalid Ziya və digərləri bu fikrin tərəfdarları sırasında idilər. Onlar öz məqalələrində xalqı təbrik edir, Məmməd Əminin bu əməlinin çox düzgün olduğunu qiymətləndirir və üstəlik nəsr dilinin də türkcə yazılmasını təklif edirdilər. Sərvəti-Fünunçuların digər nümayəndələri isə qəti şəkildə nəzm dilinin osmanlıcadan, yəni ərəb və fars sözləri, qayda və qanunlarından, tərkiblərindən ayrı təsəvvür etmirdilər və qəti şəkildə öz yazılarında iradlarını bildirirdilər.

M.Ə. Yurdaqul məlum qəliblərdən deyil, 15, 17, 19 hecalı, üç altı, səkkiz misralı şeirlər yazırdı. Onun zəmanəsində də mübahisələr doğuran tərəfi şeirlərinin dili və vəzni məsələsi olmuşdur ki, professor İsmayıl Çetişli Yurdaqulun dili mövzusunda bu fikirləri qeyd edir: *"Onun kullandığı dil, gerek kelime hazinesi, gerek cümle yapışı bakımından halk ve ya sokak dili degil, biraz suni, kuru ve titiz bir "aydın" dilidir. Yurdaqul, yaşayan türkçenin sıcaklığı, ahengi ve tabiiligine çok izak kalır"* (Çetişli, 2007, s. 251). Onun amalı bu sənətdə faydalı ola bilməkdir ki, o, qafiyə, rədif və s. bu kimi fikirlərə az əhəmiyyət vermişdir.

M.Ə. Yurdaqul xalqın şairi, xalqın oğlu idi. Ədəbiyyatı-Cədidənin hakim olduğu bir vaxtda o ancaq xalq üçün yazır, türkçülük, millətçilik kimi fikirləri əsərlərində qabarıq şəkildə üstünlük təşkil edirdi. Türkçülük ideyası onun canına, qanına hopmuşdu. Xalqın ağır güzəranının şahidi olub şeirlərin-

də təcəssüm etdirsə də, eyni zamanda insanları maariflənməyə, savad almağa, çalışmağa da səsləmiş, dönə-dönə tərənnüm etdiyi fikirləri həyatının amalına çevirmişdir.

"Mehmet Emin Yurdakul Tanzimat sonrası Türk şiirinde önemi göz ardı edilemeyecek ölçüde 'yol açıcı' ve ya 'öncü' şairlerden birisidir. Zira o, Edebiyyat-i Cedide mektebi şiir anlayışının edebiyat dünyasına hakim olduğu bir dönemde son derece yalın bir dil ve hece vezni ile milli his ve heyacanları, halkın ıstıraplarını samimi bir duyarlılıkla ifade ederek farklı bir yol takip etmiş, bu tavrıyla da 'Milli edebiyat hareketi'nin temellerini atmış ve güclenip yayqınlaşmasında önemli hizmetlerde bulunmuştur" (Çetişli, 2007, s. 247).

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Çetin, N. (2009). Ömer Seyfettin'de dil ve edebiyat milliyetçiliği. Türk Yurdu, Mart, 33–48.
2. Çetişli, İ. (2007). II Meşrutiyet döneminde milliyetçilik düşüncesi ve türk edebiyatına yansıması. Ankara: II Meşrutiyet Dönemi Türk Edebiyatı.
3. Kaplan, M. (1994a). Şiir tahlilleri- I Tanzimat'tan Cumhuriyet'e kadar. İstanbul: Dergah Yayınları.
4. Kaplan, M. (1994b). Türk edebiyatı üzerinde araştırmalar (Cilt II). İstanbul: Dergah Yayınları.
5. Kaplan, M. (1994c). Hikaye tahlilleri. İstanbul: Dergah Yayınları.

NATIONAL THOUGHT AND TURKISM IN THE WORKS OF MEHMET EMİN YURDAKUL

Ruhangiz Aliyeva

M. A. Yurdakul holds a unique place in the history of 20th-century Turkish literature. His works are dominated by themes such as the unification of Turkic peoples, the sense of national identity, embracing and valuing one's own heritage, the status of the Turkish woman, and her future destiny. Known as the "National Poet," M. A. Yurdakul is considered one of the leading figures of the Turkish nationalism movement and the ideology of Turkism. In the early 20th century, examples of his poems were published in the Azerbaijani press, and many poets drew inspiration from his creative work.

Keywords: *homeland, poetry, turkism, national literature*

"TÜRK EPOS ƏNƏNƏSİNDƏ MANAS: PARALEL MOTİVLƏR VƏ ORTAQ MƏNƏVİ DƏYƏRLƏR"

Günel Musayeva
AMEA-nın Şəki Regional Elmi Mərkəzi
Kitabxana müdiri
eltachemidov@mail.ru.
https://orcid.org/0000-0002-6012-0114

Dastanlar çoxəsrlik zəngin bir tarixə malik olan türk xalqlarının milli-mənəvi dəyərləri özündə əks etdirərək ideoloji irs funksiyasını yerinə yetirir. Türk xalqlarının düşüncə tərzindəki yaxınlıq folklor nümunələrində, xüsusilə dastanlarda özünü göstərməkdədir. Tədqiqatda "Manas" və türk dastanlarında paralellər, oxşar mənəvi-əxlaqi dəyərlər tədqiqata cəlb edilmişdir.

Açar sözlər: *Manas, dastan, qəhrəmanlıq, ədalət, folklor*

Giriş

İstər dünya mədəniyyətində, istər Türk xalqları folklorunda dastanlar xüsusi yer tutur. Dastanların araşdırılması, nəşri milli folklorumuzun öyrənilməsində əvəzsiz rol oynamışdır. Hələ keçən əsrin ortalarından başlayaraq xalq arasında, "Aşıq Qərib", "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Koroğlu" kimi dastanların şöhrəti ədəbiyyatşünasların, folklorşünasların, ziyalıların diqqətini cəlb etmiş, çox keçmədən onların toplanması, araşdırılması sahəsində müəyyən təşəbbüslər göstərilmişdir. "Kitabi-Dədə Qorqud" kimi böyük abidənin X-XI əsrlərdə yazıya köçürülməsi, bir tərəfdən oğuz qəbilələrinin həyat və məişəti barədə zəngin məlumat vermişsə, digər tərəfdən o, ədəbiyyat tariximizə ilk yazılı abidə kimi daxil olmuşlar. Dastanlarda xalqımızın çoxəsrlik tarixi, düşmənləri, həyat-məişəti, dünyagörüşü, qəhrəmanlığı və məhəbbəti xalq ədəbiyyatının digər janrlarına nisbətən daha geniş şəkildə öz əksini tapmışdır. Tədqiqatçılar dastanları qəhrəmanlıq dastanları, məhəbbət dastanları və məişət dastanları kimi təsnif edirlər. Qəhrəmanlıq dastanlarında epos qəhrəmanının mənfur düşmənə qarşı, istismara qarşı apardığı mübarizə, məhəbbət dastanlarında iki gəncin bir-birinə olan sevgisi, bir-birinə qovuşmaq üçün apardıqları mübarizəsi tərənnüm olunur. Qədim və zəngin şifahi və yazılı ədəbi irsə malik əksər türk xalqların bəşər mədəniyyətinə ölməz dastanlar, eposlar bəxş etmişlər. Bu iri həcmli folklor örnəklərində yerli şəraitlə, dövrlə əlaqədar milli adət-ənənələrlə hər bir xalqın həyat tərzi, yaşayışı, sevgisi ilə bağlı cəhətlər üstünlük təşkil edir. Tarix boyu yaradıb-yaşadan, çalıb-çağıran ozan-aşıqların böyük bir yaradıcılıq irsi vardır. Türk xalqlarının istər qədim istər sonrakı çağlarda yaradıb-yaşatdıqları bütöv bu düşüncə incilər sözsüz mənəvi aləmin zənginləşdiriməsi, mənəvi-əxlaqi dəyərləri qoruyub saxlamağa xidmət etmişdir. Hələ islamdan qabaqkı dövrlərdə türdilli xalqlar, "Əfrasiyab", "Şu", "Hun", "Göytürk", "Oğuz Kağan" kimi dastanlar yaratmışlar. Bu qədim türk dastanlarında qəhrəmanların müharibələrdə göstərdiyi şücaəti vəsf olunmuşdur.

Əfrasiyabın adı Alp ər Tonqadır. "Alp ər Tonqa" miladdan yeddi yüz il əvvəl Sara türklərinin böyük xaqanıdır. O döyüşlərdə qəhrəmancasına savaşmış, düşməni dəfələrlə məğlubiyyətə uğratmışlar. Xaqan haqqında çoxlu şeirlər, rəvayətlər yaradılmışdır. Bunlardan bir qismi onun ölümünə həsr olunan mərsiyəni Mahmud Kaşğari "Divani-lüğətit-türk", Yusif Balasaqunlu "Qutadqu-bilik" əsərində yazıb saxlamışlar" (Əfəndiyev 1992, 310)

"Manas" eposu və türk xalqları dastanları

Qırğız xalqının folklorunun şah əsəri qəhrəmanlıq dastanı "Manas" eposunun istər Türk xalqları, istər dünya mədəniyyətindəki dəyəri olduqca əhəmiyyətlidir. Eposda qırğızların tarixi, ədəbiyyatı, inancları mükəmməl formada təsvir olunmuşdur. Məhz buna görə də dastanı "Qırğız ensiklopediyası" adlandırmaq olar. "Manas" dastanı hər qırğız ailəsi üçün müqəddəsdir. Ən qədim dastanlardan biri kimi "Manas" qırğız xalqının müstəqillik, ədalət, xoşbəxt gələcək, torpaqları uğrunda çoxəsrlik mübarizənin bədii təsviridir. "Manas" dastanında saysız Türk xalqları folkloru ilə eyniləşmə, paralel mənəvi-əxlaqi dəyərlər mövcuddur. Eyni zamanda dastan qəhrəmanlıq, dürüstlük, vətənpərvərlik, qorxmazlıq,

məğrurluq, müdriklik və ədalət kimi xüsusiyyətlərin tərənnümü və Türk xalqının mübariz qəhrəmanının ümumiləşdirilmiş təsviridir.

Eposun yaranma tarixi dəqiq bilinmir. Amma bəzi mülahizələrə görə, dastanın tarixi 840-cı ildən əvvəllərə gedib çıxır. Bəzi alimlər dastanın əsasında real qəhrəmanların dayandığını söyləyirlər. XV-XVIII əsrlərdə formalaşma dövrü yaşayan dastan XIX-XX əsrlərin iki qırğız nağılçısının-Saqımbay Orozbakovun (1867-1930) və Sayakbay Karalayevin (1894-1971) dilindən qələmə alınıb. «Manas» ən uzun dastan kimi Ginnesin Rekordlar Kitabına da düşüb. Dastan 3 bölümdən (Manas, Semetey, Seytek) ibarətdir. Pəhləvan Manasın, onun oğlunun, nəvəsinin şücaətlərindən danışır. Dastanda pəhləvan Manas qırğızların bir-birindən aralanmış tayfalarını bir millət altında birləşdirir. Trilogiya 500 min sətirdən ibarətdir. "Manas" dünya xalqlarının məşhur eposlarından "İliada" və "Odisseya"dan 20 dəfə, "Mahabharata"dan üç dəfə böyükdür. Qırğızların tarixi və etnoqrafiyası ilə bağlı dəyərli araşdırmalar aparan S.M.Abramzon "Manas" eposunu bu xalqın bütün poetik zənginliklərinin sintezi və zirvəsi hesab etmişdir. Ç.Aytmatov isə "Manas"ı qırğız xalqının sinonimi adlandırmışdır (Cəmil 2021, 10).

Dastanın ilk tədqiqatçısı, onun mətnindən hissələri ırçı dilindən yazıb çap etdirən XIX əsr qazax ensiklopedisti Ç.Vəlixanov "Manas"ı səhra "İlada"sı adlandırmışdır (Xəlilov 1994, 133).

İlk müsəlman türk dastanı olan qəhrəmanlıq və igidlik motivi elin, xalqın azadlığı, sürgün olmuş qəbilələrinin öz obalarına qayıtması və ya Orta Asiyaya məskunlaşması, yerli feodal zorakılığının aradan götürülməsi, ədalətin bərqərar olunması, uğrunda gedən mübarizədən doğur. Eposun qəhrəmanı Manas qəhrəman, igid, qorxmaz qırğız xalqının o cümlədən türk xalqlarının ümumiləşdirilmiş qəhrəman obrazıdır. Manasda türk xalqlarına məxsus ərənlik, cəsarət, ağıl, döyüş məharəti və yüksək mənəvi əxlaqi keyfiyyətlər cəmləşdirilmişdir.

Qırğız türkləri arasında geniş bir qəhrəmanlıq dastanı olan Manas qırğızlarla kalmıklar arasındakı münaqişədən bəhs edilir. Noqay boyundan çıxan Manas, yalnız öz yerini, öz boyunun müstəqilliyini Kalmık əsarətindən qorumaqla qalmır, parçalanmış bütün Qırğız xalqının birləşdirib xalqın azadlığı üçün mübarizə aparan bahadır olur.

Tarixi araşdırmalardan məlum olur ki, Manas 840-cı ildə Qırğız xalqının başçısı Aja xanın prototipidir. Manas igidliyi, şücaəti, yenilməzliyi xalqın dilində əfsanəvi qəhrəman obrazına çevrilsə də, tarix sübut edir ki, o əfsanə qəhrəmanı olmamışdır.

Manas təkcə Qırğız xalqının deyil, Türk dünyasının qəhrəmanlıq, alp-ərənlik salnaməsidir. Bu xalqların düşüncə tərzindəki yaxınlıqdan irəli gəlir. Manas və türk xalqları dastanlarındakı paralel mənəvi-əxlaqi dəyərlərimizin oxşar cəhətlərinə işıq salmaqla mədəni, tarixi, soy-köklərimizin öyrənilməsinə imkan yaradır.

Eposda türk soy və boylarının demək olar ki, əksəriyyətinin adı keçir. Bu da təkcə dastanşünaslığımız üçün deyil, ümumtürk tarixşünaslığımız üçün də dəyərli faktlar verir. Qırğızların qıpçaq, qismən də oğuz kökənli olması da epik təfəkkürdə öz isbatını tapır və eposun ümumtürk müstəvisində araşdırılmasına zəmin yaradır (Cəmil 2021, 10-11).

Türk xalqlarının və o cümlədən türk dünyasının ümumiyyətlə folkloru, ədəbiyyatı, maddi-mənəvi ortaq dəyərləri hər biri türk xalqı üçün doğmadır. Azərbaycan coğrafiyasında formalaşan Dədə Qorqud oğuznamələri bütün türk xalqları üçün dəyərli şifahi xalq ədəbiyyatı incilərindəndir. Bu gün özbək, türkmən, qırğız, qazax Azərbaycan türklərinin ortaq dəyərlərdən bəhs edərkən ortaq mifologiya, dastanlar folklor yazılı ədəbiyyat nümunələri sözdə, dində reallaşan mədəniyyət sisteminin bütövlüyü nəzərdə tutulur.

"Manas" dastanı və türk dastanları xüsusilə də Dədə Qorqud dastanları arasında bir bağlılıq, paralellər, türk təfəkkür və təxəyyülünün oxşar və ortaq cəhətləri vardır. Bildiyimiz kimi, Dədə Qorqud VII əsrin "Manas" isə X əsrin islamdan sora yaranan ilk dastandır. Hər iki dastanın yaradıcısı türk xalqıdır. Dədə Qorqud və digər türk dastanlarından motivləri Manasda izləmək mümkündür. 850-ci ildə hakimiyyətə gələcək ayrı-yrı qırğız xanlıqlarını birləşdirib xaqanlığa çevirən, yenilməz bir Qırğız dövləti yaradan ər Manas bürtün türk dastanlarının qəhrəmanının ümumiləşdirilmiş obrazıdır. Qəhrəmanlıq epos və dastanlarımızın çoxu "Kitabi-Dədə Qorqud"un içərisindən çıxmışdır. Ümumiyyətlə, "Dədə

Qorqud" ənənələri özündən sonra yaranan dastanlarda bir cığır açmış, bunların formalaşmasına və inkişafınma təkan vermişdir.

Azərbaycanda Dədə Qorqud ozanlar ozanıdır, Qazaxıstan və Qırğıstanda isə böyük şamandır.

Hər bir xalqın özünəməxsus mentaliteti milli-mənəvi dəyərləri, etik-əxlaqi düşüncələrinin toplusu onun varlığının təzahrüdür. Xüsusilə dastanlar milli-mənəvi dəyərlərin formalaşmasında və tarixin öyrənilməsində xüsusi rola malikdir. Türk xalqları böyük, qədim tarixə malikdir və bu mübariz xalq qarşılaşdığı sınaqlardan öz mənliyini itirmədən, milli-mənəvi dəyərlərini qoruyaraq çıxmışdır.

Xalqın dünya baxışının bədii ifadəsi olan folklor hər bir xalqın milli-mənəvi mədəniyyətinin inkişafında əməkçi insanların həyatı dərk edə bilməsində realist sənətin yaranmasında böyük rol oynamşdır (Ələkbərov 1978, 7).

Qırğız xalqının qəhrəmanlıq salnaməsi, islamdan sonra yaranmış ilk türk dastanı, dünyanın ən iri həcmli eposu olan "Manas" dastanındakı oxşar cəhətlər türk xalqlarına məxsus ortaq milli-mənəvi dəyərlərin, düşüncənin vəhdəti kimi xrakterizə olunmalıdır. Manas dastanı ilə "Alp Ər Tonqa", "Oğuz Kağan", "Dədə Qorqud", "Alpamış" və s. dastanlar həm tarixi, əm regional, həm də milli moxşarlıq eposdakı hadisələrin gedişatında münasibətlərin qurulmasında, mənəvi-əxlaqi düşüncələrinin təsvirində öz əksini tapmışdır. Manas dastanında özünə yer tapmış yeraltı və yerüstü aləm, ölümə qarşı mübarizə, qorxmazlıq, yuxu yozumu, türk düşüncəsində el ağsaqqalı və el qəhrəmanının xalqa münasibəti dərvişlərin görünməsi və s. məsələlər digər türk dastanlarında da rast gəlmək mümkündür.

"Dədə Qorqud" və "Manas" da Xızır (Xıdır) müqəddəsliyi, ona inam xüsusi planda əksini tapır. "Dirsə xan oğlu Buğac boyu"nda Buğacın anasına dediyi, "Ana ağlamagil, mənə bu yaradan ölümü yoqdur, qorxmagil! Boz atlı Xızır (İlyas) mənə gəldi. Üç kərə yaramı sığadı: sözləri ilə "Manasda" olan "Manası Xızır qorudu, Manas yer kənarında qundaqlandı" və yaxud yenə "Manas"da səsləşən "Sol başın Xızır kollasın, Bakay, Xızır yanında olsun, Bakay"- sözləri arasındakı oxşarlığı milli düşüncənin genetik tipi hesab etmək olar (Abdullayev 1987, 36).

"Manas" və digər türk dastanlarında diqqəti cəlb edən paralellerdən biri də atlara verilən adlardır. Əfsanə, rəvayət epos nümunələrində də görürük ki, türk alpərənlərinin ən böyük silahdaşı onun atıdır. At bir çox məqamlarda epos qəhrəmanının qələbəsinin səbəbkarı və xilaskarıdır. Bu məsələlərə Koroğlunun Qıratı, Beyrəyin Boz ayğırı, Koblandı xanın atı Burul, Ağbul Ural xnın atı, "Manas"da isə Manasın atı Ağqula türk dastanlarında müşahidə etdiyimiz oxşar bir kult sisteminin varlığına xidmıət göstərir. At dastan qəhrəmanlarının vəfalı və məhbub yoldaşıdır. Orta Asiya obalarında at üstündə yaşayan xalqlar Azərbaycanda qadın və silahları kimi öz namusları bilmişlər.

Dünya folklorunun şah əsəri sayılan "Manas" eposunda övlad həsrəti çəkən Cakıb bəy və onun iki arvadı eyni vaxtda yuxu görür. Kiçik Baybiçənin yuxusuna ağ çalmalı, ağsaqqallı kişi girir. Bu kişi Tanrı elçisidir. Əlindəki qızıl alma qız, ağ alma oğlandır. Baybiçə ağ almanı yeyir. Pəhləvan kimi bir oğlu olur. Belə məqamlara "Dədə Qorqud" dastanının boylarında və digər türk dastanlarında qəhrəman və yaxud dastan qadınlarının yuxu görməsinin şahidi oluruq. "Salur Qazanın evinin yağmalanması" boyunda rast gəlirik. Bu boyda yuxu görənlərdən biri Qazan xan, digəri isə Qaraca çobandır.

Türk dastanlarında və oğuznamələrdə ağsaqqallı kişilər, camal və kamal yiyəsi dərvişlər xeyir və şər xəbərlərin yuxuda xəbərçisi olmuşdur.

Türk dastanlarındakı sonsuz ata-ananın nəzir-niyazlan oğul qız tapması sujeti "Manas"ı "Dədə Qorqud"un Baybura oğlu Bamsı Beyrək və Baybecan qızı Banuçiçək sujetinə, eləcə də, Dirsə xan oğlu Buğac əhvalatına bağlayır.

Sonsuzluq və ya oğulsuzluq soy-kökün sonunu gətirdiyi üçün atalar ilə cəmiyyət arasında müəyyən sədlər yaranır. Dastanda Cakıbın övlad həsrəti öz dilindən tanınmış şair, tərcüməçi, manasşünas alim Adil Cəmilin "Manas" eposunun S.Orozbəyov, S.Karalayev, B.Sazanov, A.Tınıbəyov, M.Bayciyev variantları əsasında qələmə aldığı eyni adlı dastan-poemada aşağıdakı kimi ifadə edilmişdir:

Sonsuz öləcəyəm mən…
Axı sonsuz nəyəm mən –
Yalqız qalan bir qoca,
Ömrü talan bir qoca.
Gecə-gündüz bilmədən
Sərvət yığdım mən nədən?..
Yurda qalan izim yox,
Öləndə varisim yox. (Cəmil 2021, 15)

Cakıb bu sözləri deyib dərdini dağıtmaq üçün göz yaşları tökdü, atından, dəvəsindən keçib ona bir övlad payı verməsi üçün Allaha yalvardı, Tanrıya gileyləndi.

Bu motivə "Dədə Qorqud"da Bayburoğlu Bamsı Beyrək Baybura bəyin öz oğulsuzluğunu belə ərz edir:

"Xan Qazan, necə ağlamayayın, necə bozlamayayın?
Oğulda ortağım yoq, qartaşda qədərim yoq!
Allah-təala məni qarğayıbdır...
Bəylər, tacım, təxtim üçün ağlamıram.
Bir gün ola, düşəm öləm, yerimdə, yurdum da kimsə qalmaya",

- deyə Qazan xana gileylənir.

Hər iki dastanda xanların övlad sahibi olması üçün xeyirxah əməllər görməli, yoxsullara, məzlumlara yardım etməli, əl tutmalı, ac qarınları doyurmalı, çılpaq əyinləri geydirməli və belə xeyirxah və nəcib əməllər əvəzində Tanrı onları sevindirəcək, sönmüş ocaqlarını yandıracaqdır.

Türk mifoloji diişüncəsində özünə yer alan mühüm mərasimlərdən biri də adqoymadır. Bu mərasimin strukturunda birneçə mərhələ əsaslı şərt durur. Adqoymanın əsas şərti qəhrəmanlıq göstərməkdir. Oğul övladları həddi-buluğa çatdıqda ər meydanında qəhrəmanlıq göstərməli, ad qazanmalıdır. Bunu "Dədə Qorqud" dastanları və "Manas" dastanında izləyə bilirik. Manasa bu adın verilməsi, onun qeyri-adi uşaq olması ilə bağlıdır. O hələ beşikdə ikən atasına müsəlmanların yolunu açıb, kafirlərin hamısını qovacağını söyləmişdi. Manas doğularkən elində ovucunda qanla doğulmuşdu. Səkkiz yaşında yenilməz, qorxmaz bir pəhləvan halına gəlir və yurdlarını yağı düşmən əsarətindən qurtaracağına and içir. Bu cəhətdən türk dastanlarında qəhrəmanlara yaxşı ad verilməsi üçün igidliklər göstərməsi lazım idi.

Buğaca buğanı öldürdüyünə görə "Buğac", Bamsı Beyrəyə quldurlara qalib gəldiyinə görə "Beyrək", Basata Təpəgözü öldürdüyünə görə "Basat" adları qoyulması fıkrimizin təsdiqi baxımından maraqlıdır.

Türk dastanlarında daha çox diqqəti cəlb edən və bir çox mətləblərin ideya daşıyıcısı olan qadın obrazlarıdır. Qadınlar ictimaiyyətin bir üzvü kimi qəbul olunur və yüksək qiymətləndirilir. Öz qoçaqlığı, mərdliyi, qəhrəmanlığı ilə kişilərdən heç də geri qalmırlar; vətənpərvərlik, övlada məhəbbət, ərə sədaqət, ata-anaya hörmət bəsləyirlər. Dastanlarda qadının ana obrazı ön planda verilir. Daim ərinə hörmət və ehtiramla yanaşan qadın övladı üçün istər düşmən qarşısında, istər ər qarşısında qorxmaz və yenilməz olur. "Manas" dastanında ovdan oğlunun qayıtmadığını görən ana övladını ərindən tələb etməsi "Dədə Qorqud" dastanında atası ilə ova çıxan Buğacın geri dönməməsi anın təşvişi, oğlu üçün nigarançılığı və ərinə olan qəzəbi kimi oxşar sujetlər öz əksini tapmışdır.

Dirsə xanın arvadı ərinin ovdan tək qayıtdığını görəndə ağır iztirab və qəzəblə soruşur:

Yalısı qara qazılıq atın bindin.
Köksi gözəl qaba tağa ava çıxdın
İki vardın bir gəlirsən, yavrum qanı?! (Kitabi-Dədə Qorqud, 20)

Cıyırdı da Cakıbdan eyni təşvişlə soruşur:

Barbardiger quduret
Maqa bir meenettuu bala berqenin
Karasın kğrboy balamın

Kanqırap kayda baramın,
Kak talaada kaluucu
Menin uşu bele talabım? (Frunze, 1958, 2)

Burla xatun, Banuçiçək, Selcan xanım, Dirsə xanın, Dəli Domrulun və Seyrəyin xanımlarını və digər türk eposlarında da bir neçə qadın obrazının adını çəkmək olar. Həmin qadınların yeri və mövqeyi dastanın strukturunda görünür.

Türk folklorundakı Təpəgöz obrazları və onunla bağlı bir-birinə yaxın süjetlər mövcuddur. Ümumiyyətlə, Azərbaycan, qırğız, qazax, türkmən, özbək, altay, qaraqalpaq, başqırd, tatar, balkar, tuva və s. türk xalqların folklorunda Taygöz, Təpəgöz süjetləri çoxdur. Manas" eposunda Təpəgöz obrazının xüsusi yeri var. Burada təpəgözlər çoxdur və onların hər birinin insan kimi adı var. Onlardan biri Malqundur və Katayın sərhədlərini qoruyur. Almambet və Sırqakla qarşılaşır. "Dədə Qorqud"-un Təpəgözü kimi o da dişbatmazdır. Yeganə ət olan yeri gözüdür. "Manas"da da Təkgözün gözünü çıxardırlar. Sonda Almambet onun başını kəsir.

"Manas" dastanı qədim əsatirə Oğuznamələrə Orta Asiya və Altay xalqlarının tarixinə əsaslanan qırğızların tarixi keçmiçini əks etdirən milli abidə kimi əvəzsizdir.

"Manas" dastanında da "qırx qız" motivinə, eləcədə "qırx ərən", "qırx igid" barədə süjetə rast gəlirik. Türk dastanlarındakı qəhrəmanların qırx igidi, qırx dəlisi türk mifologiyasının ölməz və dəyişməz motividir… "Manas" dastanında "Dədə Qorqud" nağıllarında adı çəkilən qırx igidlə əlaqədar bəzi hadisələrə də rast gəlirik .

Ümumiyyətlə, dastanlar milli-mənəvi dəyərlərin formalaşmasında və tarixi cəhətdən araşdırılmasında xüsusi bir rola malikdir. Böyük dövlətlər quran xaqanların və onlara yardım edən milli tanrıların mənşələrinə dair söylənən əfsanələr, ayinlərdə oxunan dua və ilahilər, qəhrəmanların sərgüzəştlərini tərənnüm edən şifahi xalq nümunələri tariximizi öyrənmək üçün olduqca əhəmiyyətlidir. "Manas" və digər türk dastanları qəhrəmanlıq, igidlik, mərdlik, cəsurluq, dostluq, birlik dastanı olmaqla yanaşı, həm də namus, qeyrət, ləyaqət, insanpərvərlik kimi əxlaqi, milli-mənəvi dəyərlərlə zəngin olan və gənc nəslin tərbiyəsində mühüm rol oynayan böyük tarixi abidələrdir. Milli-mənəvi dəyərlərin mühüm tərkib hissəsi olan vətənpərvərlik, qəhrəmanlıq, yurd sevgisi bu dastanların əsas ideyasını təşkil edir və böyükdən-kiçiyə bütün qəhrəmanların doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə hazır olduqları nümayiş etdirilir**.**

"Manas"da təbliğ olunan müsbət mənəvi-əxlaqi keyfiyyətlər bu gün üçün də aktualdır: şəxsi mənafeyin güdülməməsi, hər şeyin xalq üçün edilməsi, aca çörək, yalına ayaqqabı, pulsuza pul vermək, qan tökməmək, qonşularla dinc yaşamaq, mənəviyyatca təmiz, pak ürəkli olmaq, qadına hörmət və ehtiram bəsləmək, anaya, ataya sonsuz hörmət və ehtiram göstərmək, qadının ailə, ər namusunu ölümdən üstün tutması, cəsarətli, çevik, qorxmaz, güclü olmaq, gözəllikdən zövq almağı bacarmaq, dosta rəğbət, düşmənə nifrət bəsləmək, mərd olmaq, dosta sədaqət göstərmək, şərtə əməl etmək, ağıllı, tədbirli olmaq, düşmənin hiyləsinə uymamaq kimi insani keyfiyyətlərin təbliğini digər türk dastanlarında da görürük. Bu bütün türk xalqına məxsus keyfiyyətlər kimi xarakterizə olunur. Dastanın həyatiliyi burasındadır ki, o, şəxsiyyət tərbiyəsində qaranlıq və işıqlı tərəfləri açıq-aydın göstərir: humanizmi və qəddarlığı, xeyirxahlığı və bədxahlığı, sadəliyi və lovğalığı, doğrunu və yalanı, əmin-amanlığı, savaşı, dostluğu, düşmənçiliyi qabarıq şəkildə əks etdirir və insanları ən yüksək mənəvi keyfiyyətlərə səsləyir. Beləliklə, "OğuznaməIər"dəki, "Dədə Qorqud"dakı, "Koroğlu"dakı, "Manas"dakı, "Maday Qara"dakı, "Alpamış" dakı, "Ural Batır"dakı, həmçinin digər türk dastanlarındakı süjet, əhvalat və mifoloji elementlərin qədimliyi onların Şumer yazılı qaynaqlan ilə qarşılıqlı müqayisə əsasında öyrənilməsi zərurətini yaratmışdır. Aparılan paralellər aydın göstərmişdir ki, zəngin türk folklorunun, xüsusilə də türk dastanlarının ilkin qaynaqları məhz Şumer epik təfəkküründə bağlıdır. Bütün bu ədəbi yaradıcılıq nümunələri, mənəvi mədəniyyət abidələri bir-biri ilə qırılmaz etnogenetik tellərlə elə möhkəm bağlıdır ki, onları ayrı-ayrılıqda öyrənmək, araşdırmaq heç vaxt doğru elmi nəticələr verə bilməz.

Nəinki türk dastanlarında, dünya folklor örnəklərinin həyatiliyi burasındadır ki, o, şəxsiyyət tərbiyəsində qaranlıq və işıqlı tərəfləri açıq-aydın göstərir: humanizmi və qəddarlığı, xeyirxahlığı və bəd-

xahlığı, sadəliyi və lovğalığı, doğrunu və yalanı, əmin-amanlığı və savaşı, dostluğu və düşmənçiliyi qabarıq şəkildə əks etdirir və insanları ən yüksək mənəvi, əxlaqi keyfiyyətlərərə səsləyir.

Son olaraq qeyd etmək istərik ki, Qırğız xalqının ensiklopediyası adlandıra biləcəyimiz nəhəng "Manas" eposu və digər əzəmətli türk xalqları dastanlarında paralellər və oxşar mənəvi əxlaqi dəyərlər bir məqalə ilə kifayətlənməyəcək qədər geniş və əhatəli mövzudur. Gələcək tədqiqatlarımızda bu mövzu geniş aspektdə araşdırılacaqdır.

Tanrı Türkə yar olsun...!

İstifadə olunmuş ədəbiyyat siyahısı

Abdullayev, B. (1987). Azərbaycan ədəbiyyatı inciləri. Bakı: Yazıçı.
Adil, C. (2020). Manas dastan-poema. Bakı.
Ələkbərov, S. (1978). Folklorda əestetik və əxlaqi fikirlər. Gənclik.
Əfəndiyev, P. (1992). Azərbaycan şifahi xalq ədəbiyyatı: Ali məktəb üçün dərslik. Bakı.
Xəlilov, P. (1994). Türk xalqlarının və Şərqi slavyanların ədəbiyyatı. Bakı: Maarif.
Kitabi-Dədə Qorqud. (1978). Bakı.
Yusupov, K., & Adil, C. (2009). Manas dastanı. Bakı.

PARALLELS, OTHER SPIRITUAL AND MORAL VALUES IN OTHER TURKISH EPOS WITH THE EPOS "MANAS"

Gunel Musayeva

Epics serve as an ideological heritage, reflecting the national and spiritual values of the Turkic peoples, which have a rich history of many centuries. The closeness of the way of thinking of the Turkic peoples is reflected in the examples of folklore, especially in the epics. The study draws parallels and moral values from Manas and Turkish epics.

Keywords: *Manas, saga, heroism, justice, folklore*

BƏKİR NƏBİYEVİN SƏYAHƏTNAMƏSİNDƏ YAPONİYA MODELİ: ŞƏRQ SİVİLİZASİYALARININ QARŞILIQLI QAVRANILMASI

Gülnar Yunusova
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Aparıcı elmi işçi
gulnaryunusova@yahoo.com
https://orcid.org/0000-0002-3372-4422

Azərbaycan səyahətnamə ədəbiyyatında Yaponiya obrazı XX əsrin ikinci yarısından etibarən mədəniyyətlərarası təmasların intensivləşməsi fonunda formalaşmışdır. Bəkir Nəbiyevin "Yaponiyada gördüklərim" əsəri bu prosesin səciyyəvi nümunəsi kimi çıxış edərək bir Şərq mədəniyyətinin digər Şərq sivilizasiyasını qavrama modelini əks etdirir. Əsərdə Yaponiya texnoloji tərəqqi, sosial ziddiyyətlər, estetik dəyərlər və dini-ritual praktikalar kontekstində kompleks və çoxşaxəli sivilizasiya kimi təqdim olunur. Müəllifin müşahidələrində Azərbaycan və yapon mədəniyyətləri arasında qurulan paralellər – urbanistik məkanların müqayisəsi, dini təmizlənmə ritualları və xalq inancları – fərqli mədəni sistemlər daxilində ortaq semantik strukturların mövcudluğunu üzə çıxarır. Bu yanaşma yad mədəniyyətin tanış mədəni kodlar vasitəsilə dərk olunmasına və beləliklə, Şərq daxilində mədəniyyətlərarası qarşılıqlı qavranılmanın formalaşmasına imkan yaradır.

Açar sözlər: *Bəkir Nəbiyev, səyahətnamə ədəbiyyatı, Yaponiya, Şərq sivilizasiyaları, mədəniyyətlərarası qavrayış*

Giriş

Azərbaycan səyahətnamə ədəbiyyatında Yaponiya mövzusu əsasən XX əsrin ikinci yarısında, mədəniyyətlərarası təmasların intensivləşdiyi dövrdə aktuallaşmışdır. Bu proses yalnız coğrafi uzaqlığın aradan qalxması ilə deyil, həm də müxtəlif Şərq sivilizasiyalarının bir-birini tanımaq və anlama ehtiyacının artması ilə şərtlənir. Bu baxımdan Azərbaycan müəlliflərinin Yaponiya ilə bağlı müşahidələri sadəcə təsviri xarakter daşımır, eyni zamanda bir Şərq mədəniyyətinin digər Şərq sivilizasiyasını necə qavradığını əks etdirən mühüm intellektual mətnlər kimi çıxış edir.

Görkəmli ədəbiyyatşünas Bəkir Nəbiyevin (1930-2012) "Yaponiyada gördüklərim" (1985) adlı səfər qeydləri bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Əsər həm müəllifin fərdi müşahidələrinin, həm də Sovet dövrü mədəni diplomatiyasının təsiri altında formalaşmış intellektual baxışın məhsulu olmaqla yanaşı, Şərq sivilizasiyaları arasında mədəni paralellərin və qarşılıqlı qavrayış mexanizmlərinin təhlili baxımından da diqqəti cəlb edir.

Akademikin Yaponiyaya səfəri 1985-ci ilin noyabr-dekabr aylarında, Azərbaycan SSR-i təmsil edən Sovet nümayəndə heyətinin tərkibində baş tutmuş və Yaponiyanın Sapporo şəhərində keçirilən rəsmi SSRİ günləri tədbiri ilə bağlı olmuşdur. Bu fakt səfərin sırf fərdi maraq çərçivəsində deyil, institusional və ideoloji müstəvidə reallaşdığını göstərsə də, müəllifin müşahidələrində fərdi təcrübə ilə mədəniyyətlərarası qavrayışın üzvi şəkildə birləşdiyi aydın şəkildə hiss olunur.

Bəkir Nəbiyev Yaponiyaya yalnız uzaq və ekzotik bir ölkəyə səfər edən səyyah mövqeyindən yanaşmır, akademik milli mədəniyyətin təmsilçisi və ədəbiyyat tarixçisi kimi çıxış edərək müşahidələrini müqayisəli və interpretativ müstəvidə qurur. Bu baxımdan "Yaponiyada gördüklərim" əsəri Azərbaycan və yapon mədəniyyətləri arasında paralellərin müəyyənləşdirildiyi, fərqli sivilizasiya modellərinin qarşılaşdırıldığı və nəticədə Şərq daxilində mədəniyyətlərarası qavrayışın formalaşma mexanizmlərinin üzə çıxarıldığı dəyərli səyahətnamə nümunəsi kimi qiymətləndirilə bilər.

Bəkir Nəbiyevin Yaponiya ilə tanışlığı təsadüfi və hazırlıqsız deyildi. Görkəmli alimin etirafına görə, *"Azərbaycandan bu qədər uzaqda qərar tutmuş gündoğar ölkə, onun möcüzə və qəribəlikləri haqqında son yarım əsrdə çox şey eşitmiş, elə az da oxumamışdım: amma gözəl deyiblər ki, yüz dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdır"* (Nəbiyev, 2000, s.683). Qeyd olunan sətirlər Bəkir Nəbiyevin Yaponiya obrazını əvvəlcədən mövcud olan intellektual biliklər üzərində qurduğunu və səfəri həmin

biliklərin real müşahidə ilə təcrübə olunması prosesi kimi qəbul etdiyini göstərir. Buna görə də əsərdə Yaponiya artıq "naməlum Şərq" kimi deyil, oxunmuş, öyrənilmiş və canlı təcrübə ilə dərk edilən mədəni məkan kimi təqdim olunur.

Yaponiyanın Tokyo, Sapporo və Kyoto şəhərlərində olan B.Nəbiyev ölkənin şəhərsalma və nəqliyyat infrastrukturunun yüksək təşkilatlanma səviyyəsinə xüsusi diqqət yetirir. Ölkədə mövcud olan üç-dörd mərtəbəli avtomobil yolları, hərəkətin müasir nəzarət mexanizmləri, eləcə də yol kənarlarını əhatə edən metal çəpərlər müəllifin xüsusilə vurğuladığı mühüm detallardandır. Səfər müddətində B.Nəbiyev Yaponiyada istehsal və sənaye sahələrində əldə olunan mühüm nailiyyətləri birbaşa müşahidə edir. Avtomatlaşdırılmış istehsal proseslərinin və robot texnologiyalarının geniş miqyasda tətbiqi akademikin diqqətini xüsusi olaraq cəlb edir və müəllif bu prosesi ölkənin elm və texnologiya sahəsindəki yüksək tərəqqisinin bariz göstəricisi kimi dəyərləndirir. Bununla yanaşı, görkəmli ədəbiyyatşünas Yaponiyada apardığı müşahidələr əsasında texnoloji inkişafın sosial-iqtisadi nəticələrinə tənqidi münasibət də bildirir. Müəllif "Gündoğar ölkənin qüzeyləri" bölümündə *"Yaponiyada müasir həyatın qüzeyləri, ictimai ziddiyyətlərin kölgəsi qalındır"* (Nəbiyev, 2000, s.699) fikrini irəli sürərək XX əsrin 80-ci illərindəki Tokyonu kəskin sosial təbəqələşmənin hökm sürdüyü bir məkan kimi təqdim edir. B.Nəbiyevin təsvirində Tokyo milyonçular və müflislər, sənaye sahibləri və işsizlər, harınlar və aclar, zəngin malikanələr və evsiz-eşiksizlərin paralel şəkildə mövcud olduğu ziddiyyətli bir şəhər obrazı qazanır. İstehsalın sürətlə avtomatlaşdırılması və robot texnologiyalarının geniş tətbiqinin ənənəvi əmək münasibətlərinə ciddi təsir göstərdiyini qeyd edən müəllif, bu prosesin nəticəsi olaraq bir sıra sahələrdə fəhlə və qulluqçuların işsizlər sırasına qoşulduğunu vurğulayır. Bəkir Nəbiyev karton qutulardan özünə balış və yorğan düzəldərək açıq havada gecələyənləri, borc yükünün öhdəsindən gələ bilməyərək intihara sürüklənənləri, eləcə də iflasa uğrayan ailələrin faciələrini dərin ağrı hissi ilə ifadə edir.

Qeyd edilməlidir ki, Bəkir Nəbiyevin müşahidələrinin əhatə etdiyi bu dövr Yaponiyanın "iqtisadi möcüzə" adlandırılan inkişaf mərhələsinin ən yüksək həddə çatdığı zamana təsadüf edir. 1960-80-ci illər İkinci Dünya müharibəsindən sonra Yaponiyanın xarabazardan dünyanın ikinci ən böyük iqtisadi gücünə çevrilməsini əhatə edən sürətli, uzunmüddətli iqtisadi böyümə dövrüdür. Bəhsi keçən dövr əsasən təhsilə diqqət, dövlət kapitalizmi modeli, yüksək sənayeləşmə və daxili iqtisadiyyatın gücü ilə səciyyələnirdi. Lakin bu yüksəliş 1990-cı illərin əvvəllərində daşınmaz əmlak və maliyyə sektorlarında formalaşmış süni şişkinliyin – "köpük iqtisadiyyatı"nın partlaması ilə kəskin tənəzzüllə əvəzlənmişdir (Ateş; Akkemik, 1991).

Maraqlıdır ki, Bəkir Nəbiyevin XX əsrin 80-ci illərində müşahidə etdiyi sosial ziddiyyətlərin sonrakı dövrlərdə eyni kəskinlikdə davam etmədiyi müşahidə olunur. Belə ki, akademikdən 24 il sonra – 2009-cu ildə Yaponiyaya elmi seminarda iştirak məqsədilə səfər edən tarixçi-alim, yazıçı, şair Şahin Fazil "Yaponiya səfərnaməsi" (2011) kitabında Bəkir Nəbiyevin təsvir etdiyi evsizlər və dilənçilər mənzərəsinə rast gəlmədiyini qeyd edir: *"Hörmətli akademik "dilənçi" ifadəsini işlətməsə də, Tokioda "harınlar və aclar"ın olduğunu yazır... Mən hörmətli akademikin sözlərinə qətiyyən şübhə etmirəm. Bəkir müəllim görmədiyini yazmaz. Amma, mən onun gördüyünü görmədim. Bir də ki, mən Bəkir müəllimdən çox sonra Yaponiyaya gəlmişəm. Tokio isə ildən-ilə, aydan-aya deyil, gündən-günə varlanır, gözəlləşir"* (Fazil, 2011, s. 178-179). Hətta Şahin Fazil bununla bağlı "Dilənçi görmədim mən" adlı şeirini qələmə alır. Qeyd olunan fakt yapon cəmiyyətinin köpük iqtisadiyyatının dağılmasından sonra sosial-iqtisadi baxımdan tədricən toparlandığını və sosial problemlərin müəyyən dərəcədə nəzarət altına alındığını göstərən əlamət kimi qiymətləndirilə bilər.

Əsərdə diqqət çəkən əsas məqamlardan biri müəllifin yapon mədəniyyətini Azərbaycan mədəni yaddaşı ilə müqayisəli şəkildə dərk etməsidir. Kyoto şəhərinin tarixi məkanlarının Bakının İçərişəhəri ilə assosiasiya olunması fərqli sivilizasiyalara məxsus urbanistik mühitlərin eyni semantik çərçivədə qavranıldığını göstərir: *"Şəhərin bu yerində elə küçələr var ki, öz sıxlığı, darısqallığı ilə eynən bizim İçərişəhərin dalanlarını xatırladır"* (Nəbiyev, 2000, s. 694). Bu müqayisə vasitəsilə müəllif yad mədəniyyəti tanış mədəni kodlar üzərindən izah edir və beləliklə, qarşılıqlı qavranılma prosesini konkretləşdirir.

B.Nəbiyevin eyni yanaşması dini və ritual praktikaların təsvirində də özünü göstərir. Məbəd mərasimləri ilə bağlı müşahidələr, təmizlənmə aktlarının müqayisəsi və niyyət praktikalarının Azərbaycan

xalq inancları ilə paralelləşdirilməsi müxtəlif dini sistemlər arasında struktur oxşarlıqların mövcudluğunu ortaya qoyur. Belə paralellər vasitəsilə müəllif fərqli Şərq mədəniyyətləri arasında dərin semantik yaxınlığın mövcud olduğunu göstərir.

Mədəniyyətlərarası qarşılıqlı qavranılmanın digər maraqlı nümunəsi Azərbaycan mədəniyyətinin Yaponiyada təqdim olunması ilə bağlı epizodlarda əks olunur. Xüsusilə nərd oyununun təqdimatı zamanı yaranan anlaşma və sonradan bu oyunun yerli mühitdə mənimsənilməsi mədəni təcrübələrin universal ünsiyyət imkanlarını nümayiş etdirir.

"Yaponiyada gördüklərim" əsərinin sonuncu bölümü – "Getsin o günlər, bir də qayıtmasın" – Bəkir Nəbiyevin Yaponiya ilə bağlı müşahidələrinə dərin humanist və faciəvi bir yekun verir. Görkəmli ədəbiyyatşünas Hiroşima və Naqasakidə baş vermiş atom bombardmanlarını təkcə tarixi hadisə kimi deyil, xalqın kollektiv yaddaşında və fiziki-mənəvi taleyində davam edən bir travma kimi dərk edir. Müəllif qeyd edir ki, *"Amerika təyyarəçilərinin bir göz qırpımında yaponların başı üzərinə endirdiyi bu ölüm kabusunun acınacaqlı təsiri hadisələrinin üzərindən 40 il keçdiyinə baxmayaraq, bu gün də özünü hiss etdirməkdədir"* (Nəbiyev, 2000, s. 702).

Göründüyü kimi, Bəkir Nəbiyevin "Yaponiyada gördüklərim" əsəri Azərbaycan səyahətnamə ədəbiyyatında Yaponiya modelinin formalaşmasında mühüm mərhələ olmaqla yanaşı, Şərq sivilizasiyalarının qarşılıqlı qavranılması prosesinin bədii və intellektual ifadəsi kimi çıxış edir. Əsərdə təqdim olunan müşahidələr göstərir ki, mədəniyyətlərarası anlaşma yalnız fərqlərin təsviri ilə deyil, eyni zamanda, paralellərin, ortaq semantik strukturların və paylaşılmış insani təcrübələrin üzə çıxarılması ilə mümkün olur. Bu nöqteyi-nəzərdən Bəkir Nəbiyevin səyahətnaməsi Şərq daxilində mədəni dialoqun və qarşılıqlı anlaşmanın formalaşma mexanizmlərini əks etdirən dəyərli mənbə kimi qiymətləndirilə bilər.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Akkemik, A. K. (2011). Japonya (1991) ve ABD (2007-2009) finans krizlerinin politik iktisat perspektifinden bir değerlendirmesi. Doğuş Üniversitesi Dergisi, *12*(2), 171-186.
2. Ateş, M. Y. Mucizeden duraklamaya Japon ekonomisi: Sonuçlar, sebepler. https://www.mfa.gov.tr/mucizeden-duraklamaya-japon-ekonomisi_-sonuclar_-sebepler.tr.mfa
3. Fazil, Ş. (2011). Yaponiya səfərnaməsi. Bakı: Elm və təhsil.
4. Nəbiyev, B. (2000). Çətin yollarda. Bakı: Elm.

THE JAPANESE MODEL IN BAKIR NABIYEV'S TRAVELOGUE: MUTUAL PERCEPTIONS OF EASTERN CIVILIZATIONS

Gulnar Yunusova

The image of Japan in Azerbaijani travel literature has taken shape since the second half of the 20th century against the backdrop of intensified intercultural contacts. Bakir Nabiyev's "What I Saw in Japan" stands as a representative example of this process, reflecting a model through which one Eastern culture perceives another Eastern civilization. In the work, Japan is presented as a complex and multifaceted civilization in the context of technological advancement, social contradictions, aesthetic values, and religious-ritual practices.

The parallels drawn between Azerbaijani and Japanese cultures – such as comparisons of urban spaces, purification rituals, and folk beliefs – reveal the existence of shared semantic structures within different cultural systems. This approach enables the comprehension of a foreign culture through familiar cultural codes, thereby contributing to the formation of intercultural perception within the Eastern world.

Keywords: *Bakir Nabiyev, travel literature, Japan, Eastern civilizations, intercultural perception*

TÜRK XALQLARININ ORTAQ MƏNƏVİ MƏNBƏYİNDƏ NƏSİHƏT MOTİVLƏRİ: "KİTABİ-DƏDƏ QORQUD" DASTANI KONTEKSTİNDƏ

Təranə Məmmədova
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Dissertant
AMEA-nın Şəki Regional Elmi Mərkəzi
Elmi işçi
terane873@gmail.com
https://orcid.org/0000-0001-6352-7801

Türk xalqlarının ortaq milli-mənəvi yaddaşını özündə yaşadan Kitabi-Dədə Qorqud dastanı qədim türk düşüncə sisteminin, əxlaqi dəyərlərinin və ictimai davranış normalarının mühüm qaynaqlarından biridir. Dastanda xalqın dünyagörüşü, ailə münasibətləri, dövlətçilik ənənələri, mənəvi-etik prinsipləri və sosial davranış modelləri müxtəlif motivlər vasitəsilə təqdim olunur. Bu motivlər içərisində öyüd və nəsihət xüsusi əhəmiyyət daşıyır.

Məqalədə dastanda yer alan nəsihət motivləri türk xalqlarının ortaq mənəvi-mədəni düşüncəsi kontekstində araşdırılmış, onların məzmun və işlənmə xüsusiyyətləri təhlilə cəlb edilmişdir. Araşdırma göstərir ki, dastanda nəsihət yalnız fərdi davranışın tənzimlənməsi vasitəsi deyil, həm də cəmiyyətin mənəvi bütövlüyünü qoruyan mühüm sosial institut kimi çıxış edir. Ata-oğul, ana-övlad, hökmdar-təbəə, el ağsaqqalı-gənc münasibətlərində verilən öyüdlər türk etnosunun milli-mənəvi dəyərlər sistemini əks etdirir.

Dastandakı nəsihətlərdə böyüyə hörmət, ailəyə bağlılıq, dövlətə sədaqət, cəsarət, humanizm, birlik və mərhəmət kimi keyfiyyətlər təbliğ edilir. Məqalədə həmçinin öyüd-nəsihətlərin poetik quruluşu, funksional mahiyyəti və etnik-psixoloji xüsusiyyətlərlə bağlılığı da araşdırılmışdır.

Açar sözlər: *dastan, Kitabi-Dədə Qorqud, nəsihət, öyüd, motiv, türk xalqları, mənəvi dəyərlər*

Giriş

Oğuz türklərinin, eləcə də Azərbaycan xalqının qədim yazılı abidəsi - "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın minillərdən bəri yaşayan əvəzsiz hikmət xəzinəsidir. Dastan xalqımızın qədim tarixini, dəyərlərini, adət-ənənələrini, eləcə də etnik-psixoloji xüsusiyyətlərini özündə yaşadan və dövrümüzə qədər gətirib çıxaran misilsiz abidədir. Bir çox motivlərlə zəngin epos indiyədək çoxsaylı tədqiqatçılar və qorqudşünaslar tərəfindən tarixi əhəmiyyəti, dili, bədii, etnik-psixoloji xüsusiyyətləri və s. cəhətdən dəfələrlə tədqiqatlara cəlb edilmişdir. Lakin rəngarəng motivlərlə zəngin olan dastanın hələ araşdırılmamış qatları, aşkar olunmalı məqamları da kifayət qədər çoxdur.

"Kitabi-Dədə Qorqud" dastanında maraq doğuran məsələlərdən biri nəsihət, nəsihətçilik motivi və onların işlənmə xüsusiyyətləridir.

Bilindiyi kimi, nəsihətlər insanların davranışının tənzimlənməsinə xidmət edir. Fəaliyyət və davranışların idarə olunması prosesində isə inanclar sistemi xüsusi rol oynayır. Deməli nəsihətlərdə xalqın ən qədim inancları, adət-ənənələri, etnik-psixoloji əlamətləri, düşüncə və yaşam tərzləri, davranış biçimləri yaşamaqdadır. Bu mənada xalqımızın ən qədim dövrlərdən bəri məsləhət, tərbiyə vermək məqsədilə işlətdikləri öyüdlər bizə bir çox cəhətdən zəngin material verir. Hələ şifahi xalq ədəbiyyatından gələn nəsihət ənənəsi, qədim türk dastanlarında, daha sonra ayrı-ayrı aşıq yaradıcılığı nümunələrində və dastanlarda davam etdirilmişdir. Qədim mədəni abidəmiz olan - "Kitabi-Dədə Qorqud" dastanında da öyüd-nəsihətlər xüsusi yer tutur. Həmin səbəbdən də araşdırmamızı bu yöndən aparmağın əhəmiyyət daşıyacağını düşündük və tədqiqatı bu yöndə qurduq.

Dastanın etnik-psixoloji xüsusiyyətlərini tədqiq edən psixologiya üzrə elmlər doktoru, professor Əkbər Bayramov yazır: *"...Azərbaycanda etno-psixoloji duyumun kökləri "Kitabi-Dədə Qorqud"la bağlıdır. Həmin eposda Azərbaycan xalqının əcdadlarına xas olan etnik xarakter əlamətləri, stereotip və yönümlər, davranış tərzi, hisslər, adət-ənənələr və s. olduqca canlı şəkildə öz əksini tapmışdır"*

(Bayramov, 2004, s. 44). Doğrudan da dastanı oxuyarkən biz bir çox məqamlarda – müxtəlif toy və yas mərasimlərində, eləcə də döyüş səhnələrində bunun şahidi oluruq.

Hələ dastanın müqəddiməsində Dədə Qorqudun dilindən soylanan hikmətli ifadələr atalar sözü, nəsihət xarakteri daşıyır. Xüsusən, burada işlənən *"Qız anadan görməyincə ögüt almaz, Oğul atadan görməyincə süfrə çəkməz".* (Kitabi-Dədə Qorqud, 2004, s. 20) ifadəsi göstərir ki, oğuzlarda ata oğul, ana isə qız üçün şəxsi nümunə olmuşdur. Daha dəqiq ifadə etsək qız anadan, oğul atadan görüb-gütürmüşdür. Deməli, Oğuz elində övladın təlim-tərbiyəsində ata-ana aparıcı roldadır. Bu mənada dastanın bir çox hissələrində ata-ananın nəsihət vermə məqamı ilə rastlaşırıq. Məsələn, "Qazan bəyin oğlu Uruz bəyin tutsaq olduğu boy"da Qazan xan bilir ki, oğlu təcrübəsizdir. Odur ki, görüb-götürməsi, öyrənməsi üçün düşmən hücumu zamanı oğluna söyləyir:

Oğul, oğul, ay oğul!
Düşmən arasına girib baş kəsməyibsən,
Adam öldürüb qan tökməyibsən,
Ala gözlü qırx igidi götür özünlə,
Köksü gözəl dağ başına çıx.
Mənim necə savaşaraq döyüşdüyümə,
Mənim necə qılınc çalıb çəkişdiyimə
Həm bax, öyrən, həm göz olub, pusquda dur sən! (Kitabi-Dədə Qorqud, 2004, s. 229)

Əgər bu nümunədə ata öz oğluna döyüşdə, mübarizədə məsləhət verib, yol göstərməyə çalışırsa, başqa bir parçada ata övladına ailə seçimində öz nəsihətini verir. Bəzən də övladına qıymır, çətinlikdən, ölümlü yollardan çəkindirməyə çalışır.

Oğul, sənin getdiyin o yerin
Dolanbac-dolanbac yolları vardır.
Atlılar batdıqca çıxa bilməyən
Keçilməz palçıqlıq, çamurluqlardır
Əjdaha ilanlar dələ bilməyən
Qalın meşələrdir, sıx ormanlardır.
Göylərə baş çəkən dik qalalardır.
Göz vurub könül alan gözəli varsa,
"Hay!" deməmiş baş kəsən cəlladı da var.
Yiyəsinin çiynində qalxan oynayar...
Yaman yerə gedirsən, qayıt, dön geri!
Qocalmış ananı ağlatma belə,
Atanı inlətmə, qayıt, dön bəri! (Kitabi-Dədə Qorqud, 2004, s. 249)

Dastanda ata ilə yanaşı, ana da yeri gəldikcə övladına yol göstərir, müxtəlif məqamlarda ona nəsihət verir. "Dirsə xan oğlu Buğac xan boyu"nda ana oğluna deyir:

Xan oğlum! Qalxıb yerindən ayağa dur!
Qırx igidini dəstənə qat!
Atanı o qırx namərddən qurtar!
Yeri, oğul!
Atan sənə qıydısa da, sən atana qıyma! – dedi. (Kitabi-Dədə Qorqud, 2004, s. 184)

Burada maraqlı məqamlardan biri də qadının verdiyi nəsihətin məzmununda ortaya çıxır. Övladına atasını xilas etməyi söylərkən həm də böyüyə, ataya hörməti, onun üzünə ağ olmamağı öyüdləyir, mənəvi tərbiyə aşılayır.

Ümumiyyətlə, Oğuzda qadına, anaya, onun sözünə böyük hörmət, ehtiram olmuşdur. Qadının dəyərli sözü, ağıllı məsləhətləri ilə eposda bir çox məqamlarda qarşılaşırıq. Bu baxımdan boyun əvvəlində Bayandır xanın təşkil etdiyi məclisdə övladı olmadığı üçün bəylər tərəfindən təcrid olunan Dirsə xan evinə gəlir, qadını ilə söhbətləşir, dərdini onunla bölür, qəzəblənir. Bu zaman qəzəbinə qarşı qadını onu sakitləşdirir, ərinə qayğı ilə yanaşaraq öz nəsihətini verir.

Ay Dirsə xan, mənə qəzəblənmə!
İnciyib acı sözlər söyləmə!
Yerindən qalx, ayağa dur,
Yer üzünə böyük çadır qur!
Ayğır, buğra, qoç qırdır!
İç Oğuzun, Daş Oğuzun bəylərini üstünə yığ!
Ac görsən doydur; çılpaq görsən, geyindir!
Borclunu borcundan qurtar!
Təpə kimi ət yığ, göl kimi qımız sağdır!
Böyük şadlıq məclisi qur, Allahdan arzunu dilə!
Bəlkə bir ağzı dualının alqışı ilə Tanrı bizə bir yetkin övlad verə, - dedi. (Kitabi-Dədə Qorqud, 2004, s. 177-178)

Bu nümunədə həm də başqa bir tərəf diqqət çəkir. Belə ki, dastan boyu bir çox məqamlarda işlənən "Acı doyuzdur, toxu geyindir" ifadəsi nəsihətlərdə də öz əksini tapır və oğuzların yardımsevərliyini, ehtiyacı olana əl tutmaq, yardım göstərmək kimi yüksək insani keyfiyyətlərini, davranış biçimini göstərir.

Qadının öz ərinə, həyat yoldaşına öyüdünə bir digər nümunədə, "Bəkil oğlu İmran boyunda" da rast gəlinir. Təxminən eyni məzmun daşıyan bu parçada ərinin hirsini soyutmağa çalışan qadının ərinə nəsihəti ilə qarşılaşırıq. "Arvadı deyir: *"İgidim, bəy igidim! Padşahlar Allahın kölgəsidir. Padşahına ağ olanın işi düz gətirməz. Təmiz ürəkdə pas olsa, şərab açar. Sən gedəli, xanım, çılpaq qalan uca dağların ovlanmayıbdır. Ova atlan çıx, könlün açılsın*!" (Kitabi-Dədə Qorqud, 2004, s. 277) Burada həm də yuxarıda verdiyimiz parça ilə səsləşən bir məqam da gözə dəyir. Belə ki, yuxarıda ana övladına böyüyə hörməti, ata üzünə ağ olmamağı aşılayırdısa, burada qadın öz ərinə hirsinə, qəzəbinə yenilib xanın üzünə ağ olmamağı məsləhət verir. Bu isə dövlət və dövlətçilik ənənələrinin qorunması, idarəetmənin, hakimiyyətin mühafizəsi baxımından dəyərli nəsihətdir. Əgər hər əsəbləşən hakimə qarşı çıxarsa, birlik pozular, idarəçilik zəyifləyər. Düşmən isə həmin vəziyyətdən istifadə edər. Bu da xalqın xeyrinə deyil, əksinə, zərərinə olar. Ona görə də, idarəçilikdə vahid qüvvə ətrafında birləşmək, idarə edən şəxsə sadiqlik dastanda bir çox məqamlarda nəsihət yoluyla təbliğ edilir.

Bundan başqa dastan boyu igidlərin bir-birlərinə nəsihəti, hər hansı bir işə başlamazdan əvvəl ata-ana ilə yanaşı, digər bəylərlə, Bayandır xan, Dədə Qorqud kimi el böyükləri ilə məsləhətləşməsi, onlardan nəsihət alması Oğuz cəmiyyətindəki tərbiyənin, yüksək əxlaqi davranış biçiminin, böyüyə hörmət və ehtiramın eposda ən böyük göstəricisidir. Məsələn, *"Uşun Qoca oğlu Səgrək boyu"nda Səgrəyin ata-anası Qazan xana müraciət edir, ondan bu cür məsləhət alır. "Ata-ana ağlaşıb Qazan üçün adam salırlar. "Oğlan qardaşını yada salıb gedir. Bizə nə məsləhət verirsən?" – dedilər Qazan deyir: Ayağına ət tuşağı vurun!"* (Kitabi-Dədə Qorqud, 2004, s. 286).

Yaxud, Basat Təpəgözlə döyüşə getmədən əvvəl məclisdə bəylərlə məsləhətləşir. "Basat dedi: *"Bəylər, qardaşımın qanını almaq üçün Təpəgözlə qarşılaşmaq istəyirəm. Nə deyirsiz?"* (Kitabi-Dədə Qorqud, 2004, s. 269) Burada gördüyümüz kimi, Oğuz gənclərinin nəsihətə, məsləhətə böyük önəm verməsi, özbaşınalıqdan, məsləhətsiz işdən uzaq durması təbliğ edilmişdir. Basatın sualına isə həmin məqamda Qazan xan bir el başçısı kimi cavab verir ona nəsihət edir. Ata, anasını ağlatmamağı, onları gözü yaşlı qoymamağı tövsiyyə edir.

Böyük nəhəng oldu Təpəgöz,
Göydə çevirdim, yıxa bilmədim, Basat!
Böyük qaplan oldu Təpəgöz,
Uca dağlarda fırlandıq, yıxa bilmədim, Basat!
Quduz aslana döndü Təpəgöz,
Qalın qamışlıqda yıxa bilmədim, Basat!
İgid olsan, yaxşıdır
Amma mən Qazandan artıq olmazsan, Basat!

Ağ saqqallı atanı ağlatma!
Ağ birçəkli ananı zarıldatma! (Kitabi-Dədə Qorqud, 2004, s. 269-270)

Gördüyümüz kimi, dastanda Oğuz gənclərindən nə qədər mərdlik, igidlik, cəsarət tələb olunsa da, onların həlak olmaması, ağılsız doyüşlərdən çəkindirilməsi motivləri də vardır. Bu da elin, yurdun igidlərinin nahaq yerə itirilməməsi ilə bağlıdır. Və bu nəsihəti verən də nümunədə birbaşa həmin elin xanı - idarə edənidir.

Dastanda öyüdçü surətlərdən biri də, Dədə Qorquddur. Onun həm ayrı-ayrı Oğuz gənclərinə, həm də bütün Oğuz elinə nəsihəti maraqlı məqamlarda ortaya çıxır. "Dədəm Qorqud gəldi. Dedi: "Oğlum, sən insansan. Heyvanla həmsöhbət olma. Gəl, yaxşı atlar min, yaxşı igidlərlə iş yürüt! Böyük qardaşının adı Qıyan Səcikdir, sənin adın Basat olsun! Adını mən verdim, yaşını Allah versin!" (Kitabi-Dədə Qorqud, 2004, s. 266).

Bununla bağlı akademik Yaqub Mahmudov məzmunca ümumi mahiyyət daşıyan bir nəsihət barədə yazır: *Dədə Qorqudun söyləmələrindən aydın olur ki, Oğuz igidlərinin başına nə gəlsəydi ehtiyatsızlıqdan, düşməni saymamaqdan, arxayınçılıqdan, unutqanlıqdan gəlirdi. Düşmən həmişə onlara "yuxuda olarkən" üstün gələ bilirdi. ...Qardaşını xilas etməyə gələn Səgrək də, düşmən əhatəsində olmasına baxmayaraq yatır, sayıqsızlıq edir və oğuzun qorxunc xəstəliyinə tutulur. Dədə Qorqud isə qardaşı Əgrəkin dili ilə təkcə Səgrəkə deyil, sanki bütün Oğuz elinə nəsihət edir* (Mahmudov, 2004, s. 28).

Qalxaraq yerindən duran igid,
Qarayallı gözəl Qazlıq atı minən,
Arqubeli, Ala dağı gecə aşan,
Coşqun axan gözəl suyu üzüb keçən,
Qəribliyə gələn belə yatarmı?
Mənim kimi qollarını, əllərini
Bağladaraq donuz damında yatarmı?
Ağ saqqallı atasını, ağ birçəkli anasını
inlədərmi, ağladarmı?
Niyə yatırsan, igid?
Qafil olma, gözəl başını qaldır, igid!
Ala gözlərini aç, igid!
Allah verən şirin canını yuxu almış,
İgid, əllərini qollarından bağlatma!
Ağ saqqallı atanı, qarı ananı ağlatma!
Qalın Oğuzdan gələn igid, necə igidsən?
Səni yaradan haqqı üçün durub gəl!
Dörd yanını kafir tutubdur bil! (Kitabi-Dədə Qorqud, 2004, s. 289-290)

Dastanda işlənən nəsihətlərdə ortaya çıxan maraqlı məqamlardan biri də dastanda nəsihətlərin işlənmə şəkli olmuşdur. Belə ki, orta əsr nəsihətçilik ənənələrindən fərqli olaraq dastanda işlənən nəsihətlər hökmdən uzaqdır. Burada zoraçılıq, kiməsə nəyisə zorla qəbul etdirməkdən daha çox yol göstərmək, məsləhət vermək daha çox nəzərə çarpır. Bütün bunlar Oğuz elində hökm sürən humanist münasibətlərdən xəbər verir.

Sonda qeyd edə bilərik ki, xalqımızın ən qədim dəyərlərini özündə yaşadan "Kitabi-Dədə Qorqud" dastanı, məqalədə öyüd-nəsihət motivləri baxımdan araşdırılmışdır. Burada, nəsihətlərin işlənmə və məzmun xüsusiyyətləri ortaya çıxarılmış, belə nəticəyə gəlinmişdir ki, nəsihətlər o qədər geniş anlayışdır ki, dastanda ən adi məqamlarda adət-ənənələrimizə, dinə, davranış biçimlərinə aid çox sayda ya birbaşa, ya da nəsihət mahiyyətli fikirlər olduqca çoxdur. gənclərin təlim-tərbiyəsi əsas rast gəlinən məqam olsa da, bu qədər məhdud deyil. Yeri gəldikcə, ərə, özündən yaşca böyüyə, hətta üumilikdə etnosa verilən nəsihətlər də kifayət qədər çoxdur. Məqsəd isə insanları doğru yönləndirmə, ədalətli, yüksək əxlaqi dəyərlərə söykənən bir cəmiyyət yaratmaq olmuşdur. Mənəvi dəyərlərdən uzaqlaşıldığı

müasir dövrümüzdə bu cür məsələlərin araşdırılıb ortaya çıxarılması və gənc nəslin tərbiyəsində istifadəsi baxımından məqalə olduqca aktualdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Milli Elmlər Akademiyası. (2004). Azərbaycan ədəbiyyatı tarixi (I cild). Bakı: Elm.
2. Bayramov, Ə. (2004). Dədə Qorqud dünyası. Bakı: Öndər Nəşriyyat.
3. Dədə Qorqud kitabı: Ensiklopedik lüğət. (2004). Bakı: Öndər Nəşriyyat.
4. Kitabi-Dədə Qorqud: Əsil və sadələşdirilmiş mətnlər. (2004). Bakı: Öndər Nəşriyyat.
5. Mahmudov, Y. (2004). "Dədə Qorqud" eposunda dövlətçilik və mənəvi dəyərlər. In Ə. Bayramov (Red.), Dədə Qorqud dünyası (s. 25–32). Bakı: Öndər Nəşriyyat.
6. Qorqud ədəbiyyatı: Bədii əsərlər. (2004). Bakı: Öndər Nəşriyyat.

ADVISORY MOTIFS IN THE COMMON SPIRITUAL HERITAGE OF TURKIC PEOPLES: IN THE CONTEXT OF THE EPIC "KİTABİ DEDE KORKUT"

Tarana Mammadova

The epic "Kitabi-Dede Korkut", written by Oghuz Turns is a treasure trove of national wisdom that has been created by our people for thousands of years many ways, The saga is based on the ancient history, psychological features, ethnographic life style of our people and soon is a unique monument to learn. In this respect, the saga is rich in colorful motifs. Here are the ancient ethnos, moral and ethical behavior, and soon is reflected.

Our research concludes that ancient times have been used as a tool in the spiritual education of the younger generation. The advice given in the saga is of great importance in this regard. Their functionality, form and content characteristics are widely covered in our article with reference to the ethics of ethnos as a reminder.

It is true that the saga has been researched in many respects by experts as of now. But the saga, which is rich in colorful motifs, has a lot of unexplored layers and moments to be discovered. In this regard, one of the points of interest in the "Kitabi-Dede Korkut" is the motivation for exhortation. The article has been extensively explored in this regard.

Keywords: *Epic, Kitabi-Dede Korkut, advice, counsel, motif, Turkic peoples, spiritual*

TOFİQ FİKRƏT VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI: ƏDƏBİ ƏLAQƏLƏR KONTEKSTİNDƏ

Vəsilə Razimi
ADPU-nun Şamaxı filialı
Baş müəllim
vesilerazimi99@gmail.com
https://orcid.org/0000-0002-2613-1071

Tofiq Fikrət türk ədəbiyyatında yenilikçi, maarifçi və humanist ideyaların daşıyıcısı kimi çıxış etmiş, onun yaradıcılığı yalnız Osmanlı mühiti ilə məhdudlaşmayaraq Azərbaycan ədəbi düşüncəsinə də təsir göstərmişdir.XX əsrin əvvəllərində Azərbaycan ziyalıları – xüsusilə Hüsyn Cavid, Abbas Səhhət, Məhəmməd Hadi, Abdulla Şaiq, Səməd Vurğun kimi ədiblər – Fikrətin azadlıq, tərəqqi, elm və insanpərvərlik ideyalarından bəhrələnmişlər. Onun poeziyasında əks olunan sosial ədalət, cəmiyyətin islahı və yeni insan ideyası Azərbaycan ədəbiyyatında maarifçilik hərəkatının güclənməsinə təkan vermişdir.Tofiq Fikrətin yaradıcılığı Azərbaycan ədəbiyyatında yeni ideya-estetik istiqamətlərin yaranma sına təsir göstərmiş, iki ədəbiyyat arasında mənəvi və bədii körpü rolunu oynamışdır.

Açar sözlər: *yaradıcılıq,"Füyuzat", uşaq ədəbiyyatı, Azərbaycan mətbuatı, türk ədəbiyyatı*

Giriş

Böyük türk şairi Tofiq Fikrətin zəngin və mənalı yaradıcılığı yalnız türk xalqı üçün deyil, bütün bəşəriyyət üçün dəyərli olmuşdur. Tofiq Fikrətin yaradıcılığının əsas mərhələləri, mütəfəkkir şairin dərin fəlsəfəsi, yaradıcılığının zəngin xüsusiyyətləri, bütün həyatını şeirə, sənətə sərf edən, xalqın dərdinə qalan, xalqı üçün və bəşəriyyət üçün xoşbəxt günlər istəyən sənətkarın türk ədəbiyyatının inkişafındakı yeri haqqında az yazılmamışdır. Şair hələ sağlığında Yaxın Şərq ölkələrində böyük şöhrət qazanmış, xüsusilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm təsir göstərmişdir.

Azərbaycanda şairin əsərləri uzun bir müddət məktəb dərsliklərində şərəfli yer tutmuş, dərgi və qəzetlərdə çap olunmuş, onun haqqında müxtəlif mülahizələr irəli sürülmüşdür. Fikrətin yaradıcılığı yenə sevilir və məhəbbətlə öyrənilir.

Tofiq Fikrətin qabaqcıl fikirləri və sənət qüdrəti hələ şairin sağlığında geniş şöhrət qazandığı kimi o dövr bir çox Azərbaycan şairlərinin yaradıcılığına da böyük təsir göstərmişdir. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq kimi yazıçılar Fikrətin sənətindən çox şey öyrənmiş, öz yaradıcılıqlarında ondan faydalanmışlar.Onların bir çoxu "Rübabi-şıkəstə"ni elə nəşr olunduğu gündən bəri oxumuş olsalar belə, Fikrətin şeirləri Azərbaycan mətbuatında ilk dəfə 1906-cı ildə "Füyuzat" jurnalının ikinci nömrəsində nəşr olunmuşdur. Bu jurnalda şairin "Köyün məzarlığında", "Ramazan sədəqəsi", "Şəhidlikdə" adlı şeirləri mənsur şəkildə tərcümə edilmişdir. "Füyuzat"ın baş redaktoru Əli bəy Hüseynzadə yazırdı: *"Şimdilik zərafəti- bəyane və hissiyati-rəqiqeyi şairanəyə misal olmaq üzərə ədəbiyyati-cədideyi-osmaniyyənin ən bəliq şairi olan Tofiq Fikrət bəyin mənzumələrindən bir qaçını nəsrə təvil ilə "Füyuzat"ın möhtərəm qarelərindən ədəbiyyat maraqlısı olanlara təqdim ediyorum".("Füyuzat". 1906. s. 28-30)*

Bundan sonra Əli bəy Hüseynzadə Fikrətin sənətindən bəhs edən yazılar yazmışdır. Əli bəy "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" başlıqlı yazısında Fikrəti dekadent kimi göstərir və deyir ki, "Füyuzat"ın ikinci nömrəsində Tofiq Fikrət bəyin nəsrə təbdil edilmiş "Əşari-cədidi"ni oxursunuz, tərzi-əcibi-ifadəsinə, üslubi-qəribi-bəyanına təəccüb edərsiniz, ehtimal heç bəgənməmək istərsiniz. Sizə bildirərlər ki, "Rübabi-şikəstə"dən məxuz olan bu şeirlər dekadent üslubunda şeirlərdən olub, Tofiq Fikrət bəy də osmanlı dekadentlərinin tərəfdarlarındandır". Fikrətin əsərlərini ilk nəşr edən "Füyuzat" jurnalının baş redaktoru Əli bəy Hüseynzadə o zaman Fikrətin sənətinə böyük qiymət vermişdir. Hələ Fikrətin öz sağlığında "Şəlalə", "Birlik", "Övraqi-nəfisə" kimi jurnal və qəzetlərdə nəşr olunmuş, haqqında kiçik, ancaq məzmunlu məlumatlar verilir.

Fikrətin əsərləri 1912-ci ildən başlayaraq dərs kitablarına salınmış və uzun müddət orta məktəblərdə tədris edilmişdir. Azərbaycanın görkəmli şair, ədib, dramaturq və müəllimlərindən olan Abdulla Şaiq Talıbzadə hələ 1912-ci ildə dərc etdiyi "Gülzar" adlı dərs kitabında Tofiq Fikrətin "Xəstə çocuq", "Ramazan sədəqəsi", "Çəlik parçası", "Bir əyyaşın qarşısında", "Balıqçılar", "Sərxoş", "Sabah əzanında" şeirlərini daxil etmiş, yenə həmin ildə Fərhad Ağazadə tərəfindən çıxarılan "Ədəbiyyat məcmuəsi"ndə "Xəstə çocuq", "Həsənin qəzası", "Çəlik parçası" əsərləri də nəşr edilmişdir. Uzun bir zaman məktəblərdə oxunulan bu kitablar minlərlə azərbaycanlı tələbəsinə T.Fikrəti tanıtmış, onun mənalı şeirləri ağızdan-ağıza keçərək yayılmışdır. Fikrətin şeirlərini dərin bir sevgi ilə sevib, *Azərbaycan gənclərinə sevdirən Abdulla Şaiq də Fikrət yaradıcılığından çox təsirlənmişdir.* (Fikrət, T. 2006, s. 6) O, ədib haqqında *yazdığı "Tofiq Fikrətin türk ədəbiyyatı tarixində əhəmiyyəti" məqaləsində fikirlərini belə ifadə edirdi: "Tofiq Fikrət türk tarixi ədəbiyyatındakı başlıca əhəmiyyəti ədəbiyyata gətirmiş olduğu yeniliklər idi. Fikrət cocuq ədəbiyyatının əlindən tutub qoşdu və qoşdurdu. Arxadan atılan daşlar ona yetişmədi və onun aşmış olduğu cərəyanın şüaları altında əski cərəyanın kölgələri qarışıb məhv oldu. Əski ədəbiyyat rəhbərləri belə gənc ədibin qarşısında əyilərək əskidən bəri tutmuş olduqları böyük mövqelərini ona təslim etmək məcburiyyətində qaldılar"* (Şaiq, 1977, s. 157).

Sonrakı dövrdə də orta məktəb kitablarında Fikrətin humanist ruhlu ictimai mündərəcəli şeirlərinə çox yer verilmiş, onun haqqında daha ciddi, daha maraqlı elmi əsərlər yazılmışdır. Fikrət hələ 1911-ci ildə "Doxsan beşə doğru" şeirini yazdığı vaxtlarda onun əleyhinə çıxanlar da olmuş, hətta şairin əleyhinə məqalələr yazıb şeirin son:

"Qopsun səni bir haq deyə alqışlayan əllər" –

misrasını

"Qopsun səni Fikrət deyə alqışlayan əllər" –

şəklinə salmışlar. O vaxt Tofiq Fikrəti dərindən sevən, onun təsiri altında şeirlər yazan Azərbaycan şairi Məhəmməd Hadi Fikrəti alqışlayıb, onun müarizlərinə cavab olaraq:

"Ey dəsti-hünər, dəsti-ədəb, dəsti-rəhasaz,

Alqışlayan əllər səni, əlbəttə, qırılmaz" –

demişdir. Fikrətin əsərləri yalnız məktəb dərsliklərində deyil, "müntəxəb parçalar", "seçmə əsərlər" şəklində də basılmış və geniş şəkildə yayılmışdır. Bu da maraqlıdır ki, Fikrətin "Tarixi-qədim" əsəri ilk dəfə 1920-ci ildə Bakıda, yenə şairin "Tarixi-qədimə zeyl" adlı şeiri Naxçıvanda, 1923-cü ildə ilk dəfə Azərbaycan alimləri tərəfindən Moskvada nəşr olunmuş və geniş oxucu kütləsinə çatdırılmışdır.

Əli Əjdər Səidzadə də Fikrətin "Tarixi-qədim" şeirini Moskvada çap olunan "Qızıl Şərq" jurnalında nəşr etdirərək onu yüksək qiymətləndirmişdir. Fikrətin:

"Topraq vətənim, növi-bəşər millətim,

İnsan olur ancaq buna izanla, inandım" (Fikrət, T. 2006, s. 9)

misralarında da Azərbaycan alimləri onun geniş sənətkar qəlbini görmüş, onun insanlığın səadətini arzulayan böyük dühalarla yanaşı durduğunu, insana və insanlığın gələcəyinə inandığını iftixarla söyləmişlər.

Tofiq Fikrətin qabaqcıl fikirləri və sənət qüdrəti hələ şairin sağlığında geniş şöhrət qazandığı kimi o dövr bir çox Azərbaycan şairlərinin yaradıcılığına da böyük təsir göstərmişdir. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq kimi yazıçılar Fikrətin sənətindən çox şey öyrənmiş, öz yaradıcılıqlarında ondan faydalanmışlar.

Azərbaycan ədəbiyyatı tarixinə bir romantik şair və istedadlı dramaturq kimi daxil olmuş Hüseyn Cavid yaradıcılığının hələ ilk dövrlərində Fikrəti dərin bir məhəbbətlə sevmiş, dil, üslub və ifadə özəllikləri ilə Fikrətə yaxınlaşmışdır. Onun imperialist müharibələrinə qarşı etirazını əks *etdirən "Hərb və fəlakət" və 1914-cü ildə yazdığı "Yenə məzlumlar üçün" şeirində Fikrət təsiri qabarıq duyulmaqdadır.* (Qənizadə, 2006, s. 10)

Hüseyn Cavid sonralar mənzum pyeslərilə daha çox şöhrət qazanmış, xüsusilə yaradıcılığının son illərində yazmış olduğu "Səyavuş", "Xəyyam" kimi əsərləri ilə (burada onun "Şeyda", "Maral",

"Ana" kimi ilk pyesləri ilə də uğurlar qazandığını qeyd etməliyik) orijinal bir sənətkar olaraq parlamışdır. Cavidin "Şeyx Sənan" və "İblis" əsərləri dramaturgiya tarixində yeni bir yol açmışdır. Bunu da əlavə etmək istəyirəm ki, bu mənzum faciələrdə dil, ifadə, hətta ayrı-ayrı misralarda Fikrətin təsiri duyulur. İstedadlı tənqidçinin bu nəticəsi şübhəsiz ki, doğrudur. Fikrətin əsərləri Hüseyn Cavid şeirinə böyük təsir göstərmişdir. Məqsədimiz bu iki sənətkarı geniş ölçüdə qarşılaşdırmaq deyil. Verdiyimiz nümunələr Fikrətin Cavid yaradıcılığındakı qüvvətli təsirini göstərməyə kifayət edər.

Fikrət sənətinin təsiri Məhəmməd Hadinin əsərlərində də aydın görünür. Bu haqda "Azərbaycan ədəbiyyatı tarixi"ndən gətirilən cümlələrə baxaq: "XIX–XX yüzilliklərin türk ədəbiyyatı tarixini yaxından bilən Azərbaycan şairi Məhəmməd Hadi öz doğma klassikləriylə birlikdə Namiq Kamal və Tofiq Fikrətin də şeirlərini sevirdi. Türk ədəbiyyatından Hadinin aldığı əsas motiv zülmə qarşı etiraz ruhu idi. O da 'fikri hür, irfanı hür, vicdanı hür bir şair' olmaq arzusu ilə yaşayırdı. M.Hadi zülm və əsarətə qarşı meydan oxuduğu, hürriyyət həsrətiylə çırpındığı anlarda həmən Namiq Kamal və T.Fikrətin eyni ruhda yazılmış alovlu şeirlərini yada salır, gah öz əsərlərində hörmətlə onların adını çəkir, gah iqtibas üsuluna baş vurur, bəzən də bu iki sənətkarın əsərlərindən parçalar verirdi. 'Canlı şəkillər', 'Facieyi-həyat', 'İranın hürriyyət qəhrəmanlarına' və s." (Az. əd. tarixi, 1960, s. 804).

M.Hadinin poetik üslubunun təşəkkülündə görkəmli türk şairləri N.Kamal və T.Fikrət sənətinin qüvvətli təsiri olmuşdur. Bunun üçündür ki, bəzi hallarda Füzuli və Seyid Əzimin şeirinə yaxınlaşan M.Hadinin şeirləri, əsas etibarilə Fikrətin üslub və dilini xatırladır.

Fikrətin sənəti Abbas Səhhətə də dərin təsir göstərmişdir. Səhhət ilk kitabına Fikrətin "Rübabi-şikəstə"sini təqlid edərək "Sınıq saz" adını vermişdir və bunu kitabın ön sözündə də belə bildirir: "Əsərlərim qırıq ürəkdən çıxan iniltilər olduğu üçün türklərin böyük şairi Tofiq Fikrət bəyin 'Rübabi-şikəstə'sini təqlid edərək 'Qırıq saz' adını verdim!" (Səhhət, 2006, s. 13).

Fikrətin sənəti təkcə onun öz müasirləri olan sənətkarlar deyil, bugünkü Azərbaycan şairlərinin də əsərlərinə qüvvətli təsir göstərmişdir. Görkəmli dramaturq C.Cabbarlının ilk yaradıcılıq dövrü şeirlərində – "Qürub çağı bir yetim", "Boranlı qış gecəsi" kimi əsərlərində Fikrət sənətinin təsiri açıq görünməkdədir.

Böyük şair Səməd Vurğunun gənclik şeirlərində də Fikrətin təsiri vardır. Onun "Bayram gecəsi" şeiri Fikrətin "Fərda"sını xatırlatdığı kimi "Əyilmə" başlıqlı əsəri də Fikrətin təsiri altında yazılmışdır:

"Ər oğlu ər kimi tab et bolayo,
Çırpıl üfüqlərə qoş itilayə" –
misraları ilə Fikrətin:
"Yüksəlməli, dokunmalı alnın səmalərə,
Doymaz bəşər dedikləri qoş itilalərə" (Fikrət, T. 2006, s. 75)
misraları arasındakı bənzərlik bunu açıq göstərir.

S.Vurğunun ictimai məzmunda yazdığı ilk şeirlərində Fikrətdən gələn ifadələr çoxdur. Bu təsir gənc yaşlarında bir sənətkar kimi parlamış olan Mikayıl Müşfiqin sənətində də görünür. Fikrəti dərin bir məhəbbətlə sevən, əsərlərində onu dönə-dönə anan Mikayıl Müşfiq ona öz ustalarından biri kimi baxırdı.

Fikrətin Azərbaycan ədəbiyyatına təsirini göstərmək üçün ayrıca bir kitab yazmaq lazım gəlir. Bütün dediklərimizi yekunlaşdırdığımız zaman qeyd etməliyik ki, türk xalqının yetirdiyi böyük humanist, bəşəriyyətin taleyi haqqında düşünən, xalqların xoşbəxt gələcəyinə inanan şair Tofiq Fikrət öz zəngin yaradıcılığı ilə yalnız Türkiyədə deyil, Yaxın Şərq xalqları ədəbiyyatının inkişafında da mühüm rol oynamışdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan ədbiyyatı tarixi. (1960), (C. 2) Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.
2. Fikrət, T. (1910). Rübabi-şikəstə. İstanbul.
3. Fikrət, T. (2006). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.
4. "Fyuzat. (1906). №2

5. Qənizadə, S. M. (2006). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.
6. Səhhət, A. (2006). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.
7. Şaiq, A. (1977). Əsərləri (C. 4). Bakı: Azərbaycan Dövlət nəşriyyatı.

TOFIQ FIKRAT AND AZERBAIJAN LITERATURE: IN THE CONTEXT OF LITERARY RELATIONS

Vasila Razimi

Tevfik Fikret emerged as a bearer of innovative, enlightenment-oriented, and humanistic ideas in Turkish literature, and his творчество was not limited to the Ottoman milieu but also influenced Azerbaijani literary thought. At the beginning of the 20th century, Azerbaijani intellectuals especially Huseyn Javid, Abbas Sahhat, Mahammad Hadi, Abdulla Shaig, and Samad Vurgun benefited from Fikret's ideas of freedom, progress, science, and humanism. The themes of social justice, reform of society, and the ideal of a new human reflected in his poetry stimulated the strengthening of the enlightenment movement in Azerbaijani literature. Ultimately, Tevfik Fikret's творчество contributed to the emergence of new ideological and aesthetic directions in Azerbaijani literature and served as a spiritual and artistic bridge between the two literary traditions.

Keywords: *creativity, "Füyuzat", children's literature, Azerbaijani press, Turkish literature*

TÜRKOLOJİ FOLKLORŞÜNASLIQ PRİZMASINDAN GÖRÜNƏN QARABAĞ TOPONİMLƏRİ

İlahə Əsgərova
AMEA Rəyasət Heyəti Aparatı
87philologist@gmail.com
https://orcid.org/0009-0005-6531-0688

Qarabağ folkloru mövzusu yalnız Azərbaycanın mədəniyyətində deyil, həm də türk dünyası miqyasında mədəni irsin qorunması və təhlili baxımından çox aktualdır. Qarabağ folkloru, Azərbaycan xalqının mədəniyyətinin, ənənələrinin, dünya görüşünün və kimliyinin formalaşmasında mühüm rol oynayır. Bu folklor nümunələri regionun, türk dünyasının tarixi, coğrafiyası və xalqının gündəlik həyatını əks etdirən çoxsaylı elementlərdən ibarətdir. Bu baxımdan Qarabağ folklorunun öyrənilməsi, həm də Türkoloji folklorşünaslıq prizmasından Azərbaycanın mədəni kimliyini daha dərindən anlamağa kömək edir.

Türk xalqlarının mədəniyyətində yer adları yalnız coğrafi adlandırma vasitəsi deyil, həm də xalq yaddaşını yaşadan mühüm mədəni mətnlərdir. Bu baxımdan toponimlərdə qədim türk dünyagörüşü, inanclar sistemi, etnik yaddaş və tarixi hadisələrin izləri qorunub saxlanılır.

Açar sözlər: *Qarabağ, folklor, toponim, əfsanə, rəvayətlər, türkoloji*

Giriş

Azərbaycanın folklor xəritəsində müstəsna yeri olan Qarabağ folklorunun öyrənilməsi müasir dövrümüz üçün ictimai, elmi və siyasi baxımdan xüsusi əhəmiyyət kəsb edən məsələdir. Qarabağ yer adları ilə bağlı əfsanə və rəvayətlərin öyrənilməsi tək coğrafi göstərici olaraq yox, eyni zamanda işğaldan azad edilən torpaqlarımıza Böyük Qayıdış kimi qarşıda duran mühüm prioritet məsələlərin həllində də tarixi yaddaşın və milli-mənəvi dəyərlərinin daşıyıcısı olan yaddaş funksiyasını da yerinə yetirir. Bu toponomik xarakter daşıyan yaddaşın öyrənilməsində məhz Qarabağ əfsanə və rəvayətləri xüsusi aktuallıq kəsb edir.

Dəyərli alim İsrafil Abbaslının qeyd etdiyi kimi "Qarabağ folklorunun toplanılması və tədqiqi ardıcıl və sistemli şəkildə davam etdirilməlidir. Onda bir daha aydın görünər ki, Qarabağ hansı xalqın canlı yaddaşında, isti nəfəsində yaşayır. Hansı xalqın ruhunu, ovqatını, mənəvi dünyasını, qan yaddaşını, əxlaqi dəyərlərini təcəssüm etdirir. Bir də ən başlıcası, poetik söz sənəti örnəklərin varlığı, xalqın canlı səsi, ilıq nəfəsidir. Xalqın səsi-sözü isə Vətən deməkdir, torpağa elə bağlılığın əks-sədasıdır"(Abbaslı, 2000, s. 414).

Qarabağ bölgəsi zəngin tarixi, etnik və mədəni xüsusiyyətləri ilə seçilən bir qədim tarixə malik bir bölgədir. Bölgənin toponimləri ilə bağlı xalq arasında yüz illərdir müxtəlif rəvayət və əfsanələr yaşayır. Həmin rəvayət və əfsanələr yer adlarının yaranma səbəblərini xalq düşüncəsi səviyyəsində açıqlamaqla yanaşı, qədim türk mədəniyyətinin müəyyən elementlərini də özündə əks etdirir. Xüsusilə müqəddəs məkanlarla, tayfa adları ilə, təbii-coğrafi xüsusiyyətlərlə və tarixi şəxsiyyətlərlə bağlı yaranmış toponimik rəvayət və əfsanələr türk folklor təfəkküründün mühüm nümunələri hesab olunur. Bu folklor nümunələri Qarabağ toponimlərinin yalnız dil faktı kimi deyil, həm də türk xalq mədəniyyətinin daşıyıcısı olduğunu müəyyən edir.

Qarabağ bölgəsinə məxsus yer adlarında yaşayış məntəqələrinin adlarının izahı ilə bağlı xalq arasında müxtəlif rəvayətlər və əfsanələr geniş yayılmışdır. "Ağdaban" toponimi ilə bağlı qeydə alınmış rəvayətdə də adın mənşəyini izah edən üç fərqli xalq rəvayəti diqqəti cəlb edir. Bu nümunələr xalqın folkor yaddaşını, coğrafi müşahidələrini əks etdirməsi baxımından maraq kəsb edir.

Birinci varianta görə, "Ağdaban" adı Teymurləngin bölgədən keçməsi ilə əlaqələndirilir. Rəvayətə əsasən, qoşunun müxtəlif istiqamətlərdən hərəkət edən hissələri sonradan kənd ərazisində birləşmiş, burada şənlik təşkil olunmuş və "Ağdabani" havası ifa edilmişdir. Toponimin həmin hadisənin xatirəsi kimi yarandığı iddia olunur. Bu tip izahlar Azərbaycan folklorunda geniş yayılmış tarixi şəx-

siyyətlərə bağlanan etioloji rəvayətlər qrupuna daxildir. Lakin belə izahlar daha çox xalq yaddaşının məhsulu olub, adətən elmi-etimoloji dəlillərlə öz təsdiqini tapmır. Burada diqqət çəkən məqam toponimin izahının tarixi hadisədən deyil, sonradan yaranmış xalq təxəyyülündən qaynaqlanmasıdır.

İkinci variantda toponim ərazinin təbii-coğrafi xüsusiyyətləri ilə əlaqələndirilir. Rəvayətə görə, kənd ətrafında geniş yayılmış əhəng daşlarının uzaqdan ağ rəngdə görünməsi "ağ təban" ifadəsinin yaranmasına səbəb olmuşdur.

Üçüncü variant isə kəndin tez-tez dumanlı olması ilə əlaqədardır. Burada toponim "ağ duman" söz birləşməsi ilə əlaqələndirilir. Coğrafi şəraitə əsaslanan bu cür izahlar Qarabağ toponimiyasında geniş yayılmışdır. Buna görə də bu variant da daha çox xalq etimologiyası nümunəsi kimi qiymətləndirilir.

Bu rəvayətlər elmi etimologiyadan daha çox xalqın tarixi yaddaşını, təbiətə münasibətini və məkan haqqında formalaşdırdığı kollektiv təsəvvürləri öyrənmək baxımından xüsusi əhəmiyyət daşıyır. "Ağdaban" toponiminin həqiqi etimologiyasının müəyyənləşdirilməsi isə tarixi mənbələrin, qədim xəritələrin və türk dillərinin tarixi-leksik materiallarının müqayisəli təhlili əsasında müəyyən edilir (Qarabağ: folklor da bir tarixdir, VIII, 2014, s. 15).

Folklorşünaslıq baxımından "HACILAR KƏNDİ" adlı rəvayət nümunəsi diqqəti cəlb edir. Bu rəvayət "Hacılar" toponiminin mənşəyini xalq yaddaşında qorunan dini-mədəni təsəvvürlər əsasında izah edir. Rəvayətə görə, Azərbaycanın şimal və qərb bölgələrindən (Zaqatala, Qax, Balakən, Tərtər və s.) Həcc ziyarətinə gedən insanlar əvvəlcə bu ərazidə toplaşmış, daha sonra birlikdə səfərə çıxmışlar. Kəndin adının da həmin ənənə ilə bağlı olaraq yarandığı bildirilir.

Burada xalq yaşayış məntəqəsinin adını izah etmək üçün keçmişdə mövcud olmuş dini hadisəyə müraciət edilir. Rəvayətdə Həcc ziyarəti ilə bağlı kollektiv yaddaş əks olunmuş, kənd müqəddəs səfərə çıxan insanların görüş və toplanış məkanı kimi təqdim edilmişdir. Toponimin "hacı" sözü ilə əlaqələndirilməsi türk xalqlarının advermə ənənələrində geniş yayılmış dini motivlərin Qarabağ folklorunda öz əksini tapdığını göstərir. Rəvayətdə diqqəti cəlb edən məqam Xudapirim ziyarətgahının qeyd edilməsidir. Bu fakt xalq arasında ziyarət yerlərinin yalnız dini deyil, həm də ictimai funksiyalar daşıdığını göstərir. Belə məkanlar insanların bir araya gəldiyi, məlumat mübadiləsi apardığı və kollektiv münasibətlərin formalaşdığı mərkəzlər olmuşdur. Hacılar toponimi ilə bağlı bu rəvayət xalq etimologiyasının nümunəsi olmaqla yanaşı, Qarabağın dini-mədəni həyatını, ziyarət ənənələrini və kollektiv yaddaşda yaşayan müqəddəs məkan təsəvvürlərini öyrənmək baxımından da qiymətli folklor materialıdır. Bu rəvayət toponimin elmi etimologiyasından daha çox, onun xalq düşüncəsində necə izah edildiyini və hansı tarixi-mədəni məzmunla əlaqələndirildiyini bildirir (Qarabağ: folklor da bir tarixdir, I, 2012, s. 151).

Qarabağ toponimlərinin xalq yaddaşında qorunduğunu göstərən maraqlı nümunələrdən biri "Sarıcalı" kəndi ilə bağlı rəvayətdir ki, rəvayətdə toponimin yaranması konkret bir şəxs – Sarıca Əli ilə əlaqələndirilir. Xalq təfəkküründə kəndin adı Qarabağ xanı Pənahəli xanın oğlunun adı əsasında izah edilir.

Türk xalqlarının tarixində yaşayış məntəqələrinin tayfa, nəsil, soy və ya nüfuzlu şəxslərin adları ilə adlandırılması geniş yayılmışdır. Bu baxımdan Sarıcalı toponimi də türk advermə ənənəsinin izlərini daşıyır. Rəvayətdə Sarıca Əlinin ətrafına qohum-qəbiləsini toplaması, ona ayrılmış oymaqda yurd salması qədim türk ictimai quruluşunda tayfa və oymaq sisteminin mühüm yer tutduğunu göstərir. Burada "oymaq", "oba" kimi anlayışların işlənməsi də türk etnik-mədəni düşüncəsinin izlərini yaşadır.

Folklorşünaslıq baxımından rəvayət yalnız yer adının izahını vermir, həm də xalqın tarixi yaddaşını əks etdirir. Rəvayətin mərkəzində duran Sarıca Əli obrazı zaman keçdikcə fərdi xarakterini itirərək kollektiv yaddaşın bir hissəsinə çevrilmişdir. Onun adı ətrafında formalaşan toponim xalqın keçmişə münasibətini və soy-kökə bağlılıq düşüncəsini yaşadır.

Türkoloji folklorşünaslıq baxımından Sarıcalı rəvayəti Qarabağ toponimlərində şəxs adı, soy yaddaşı və tayfa ənənələrinin mühüm yer tutduğunu göstərir. Rəvayətdə diqqəti cəlb edən məqamlardan biri də "Sarıca Əlinin oymağı", "Sarıca Əlinin obası" ifadələrinin sonradan qısalaraq "Sarıcalı" formasını al-

masıdır. Bu xüsusiyyət xalq etimologiyasının səciyyəvi cəhətlərindən biridir. Xalq mövcud toponimi yaddaşında yaşatdığı tarixi şəxsiyyətlə əlaqələndirərək onun mənşəyini izah etməyə çalışır. (Qarabağ: folklor da bir tarixdir, III, 2012, s. 99).

"Korcabulaq" kəndi ilə bağlı rəvayət toponimin yaranmasını ərazinin təbii-coğrafi xüsusiyyəti ilə əlaqələndirir. Rəvayətə görə, Kərbəlayı Tağının aşkar etdiyi bulağın "korca bulaq" adlandırılması sonradan yaşayış məntəqəsinin adına çevrilmişdir. Bu xüsusiyyət Qarabağ toponimiyasında təbii obyektlərin yaşayış məntəqələrinin adlandırılmasında mühüm rol oynadığını göstərir.

Əfsanədə toponimin yaranması ilə yanaşı, kəndin məskunlaşma tarixi də əks olunmuşdur. Torpağın qorunması məqsədilə bir neçə ailənin həmin əraziyə köçərək burada yurd salması xalq yaddaşında kəndin formalaşma prosesi kimi yaşadılmışdır. Rəvayətdə qohumluq münasibətləri, köç və məskunlaşma motivləri də öz əksini tapmışdır (Qarabağ: folklor da bir tarixdir, IV, 2012, s. 99).

Başqa bir folklor nümunəsində Ağdamın "Ətyəməzli" kəndinin adı kəndin sakinlərinin adət-ənənələrinə və dini inanc sistemlərinə istinad etməklə yaranmışdır. Rəvayətdə qeyd edilənə görə: "Müsəlmana guya at yemək olmaz. O kəndin camaatı at əti yemiyif. Ora at əti aparan olanda deyərmişdər olar at yemillər. At yemillər sözü tədricən uzun-uzun illər keşdihcə çevrilif oluf Ətyeməzdi" (Qarabağ: folklor da bir tarixdir, I, 2012, s. 151). "At yeməz" ifadəsi, sadəcə bir davranışın yox, həm də dini və mədəni bir anlayışın rəmzidir. "At yeməmək" adəti və bu adətə olan bağlılıq kəndin sakinlərinin dini və mədəni kimliyini əks etdirir. Adın təhlili kəndin sakinlərinin dini qaydalara riayət etdiklərini, vəzifə olaraq at əti yemədiklərini göstərir. Bu folklorun semantik analizində kəndin adının bir şəkildə mənəvi və dini dəyərlərlə əlaqələndirilməsi kimi qəbul edilir. Kənd adı sadəcə at əti yeməməyi deyil, həmçinin bu əməlin inadkar və möhkəm bir inanca çevrildiyini də vurğulayır. Bu, kənd sakinlərinin dini təfəkkür və sosial norma baxımından güclü bir etibara malik olduqlarını göstərir. "Ətyəməzli" adı kəndin dini və mədəni prinsiplərinə sadiq qalan bir icma olduğunu simvolizə edir. "At yemillər" sözü "Ətyeməzli" olaraq dəyişib. Bu cür dil dəyişiklikləri həm də bir folklorun təkamülünü göstərir, çünki dil zamanla səlisləşir və insanlar fərqli formasiyalarla bu sözləri istifadə edirlər.

Folklor nümunələrində yer adlarının seçilməsi və mənalandırılması bir çox hallarda həmin yerin əhəmiyyətinə, ətraf mühitə, orada baş vermiş hadisələrə və yerli əhalinin inanc və təəssüratlarına bağlıdır. Ağdam-Cəbrayıl şossesində yerləşən "Qarı-Köpək" adlı yer adı da bu baxımdan maraqlı bir folklor nümunəsidir. Mətndə qeyd olunur ki, "Bu böyük torpaq təpələri yerlilər, qocalar bu cür izah edirlər. Bəziləri söyləyirlər ki, bu təpə saysız-hesabsız sayda qoşunu ilə kiçik Qarabağ sahibkarlarının-mələklərinin və öz hərəmxanası üçün böyük sayda gözəl gürcü qızlarını əsir edib aparmaq üçün Gürcüstana gedən Nadir şahın əmri ilə bir qarının üzərində ucadılmışdır" (SMOMPK: IV, s 117). Bu cür bir rəvayətin semantik təhlili, adın mənasının müharibə, qələbə və ədalətsizliklə əlaqəli olduğunu göstərir.

"Qarı-köpək" yer adının etimoloji kökünə baxıldıqda, bu adın birbaşa olaraq hadisə və rəvayətdəki simvollarla əlaqəli olduğu görünür. Mətndə qeyd olunduğu kimi, *"Şah qarı ilə salamlaşır və deyir: – Ay qarı, insana kömək yemək vaxtı lazımdır, ya iş vaxtı? Şah qarıdan kömək yemək vaxtı lazımdır cavabını alanda ordusuna əmr edir ki, onu dərhal çörəyin əsas düşməni və şərin təmsilçisi kimi diri-diri basdırsınlar və hər bir döyüşçü üstünə bir ovuc torpaq atsın. Beləliklə də, çox keçmədən təpə əmələ gəlir. Şah təpəni "Qarı-köpə" adlandırır* (SMOMPK: IV, s 117). Burada "qarı" sözü folklorda ənənəvi olaraq yaşlı və təcrübəli bir qadın obrazını ifadə edir. "Qarı-köpək" yer adı həm semantik, həm də etimoloji cəhətdən tarixi hadisələrin və sosial münasibətlərin izlərini daşıyan zəngin bir adıdır. Semantik baxımdan, bu ad müharibənin, zülmün və ədalətsizliyin təcəssümü kimi dərk edilir. Etimoloji baxımdan isə "qarı" və "köpək" sözlərinin birləşməsi, bu yerin tarixindəki şiddət və güc simvollarını özündə birləşdirir. Beləliklə, "Qarı-köpək" adı əslində bir yer adı olmaqla yanaşı, həm də çox qatmanlı mədəni və tarixi mənaları olan bir ifadədir.

Bəzən coğrafi ərazilərlə bağlı müəyyən məlumatları folklor əfsanə və rəvayətlərinə əsasən bərpa etmək mümkün olur. Bu da əfsanə və rəvayətlərin əhəmiyyətini artırır və məlumatların həqiqət dərəcəsi onun variantlarının müqayisəsi nəticəsində müəyyənləşdirilir.

Türkoloji folklorşünaslıq baxımından bu rəvayət və əfsanələr Qarabağ toponimlərinin yalnız coğrafi məna daşımadığını, eyni zamanda yerli əhalinin sosial münasibətləri və tarixi yaddaşı ilə bağlı məlumatları da qoruduğunu göstərir. Belə rəvayətlər xalqın türkoloji baxımdan məkan haqqında təsəvvürlərini və yer adlarına münasibətini öyrənilməsi baxımından əhəmiyyətlidir.

Nəticə

Qarabağ toponimləri ilə bağlı folklor materiallarının tədqiqi türkoloji folklorşünaslıq baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu mətnlər türk xalqlarının ortaq mifoloji yaddaşı, məkan təsəvvürləri və adlandırma ənənələri ilə bağlı mühüm məlumatlar ehtiva edir. Nəticə etibarilə, Qarabağ bölgəsinə məxsus toponomik əfsanə və rəvayətlərin mifoloji qaynaqlarının, semantik qatlarının və poetik strukturunun sistemli şəkildə araşdırılması həm Azərbaycan folklorşünaslığında, həm də türkoloji folklorşünaslıqda bu istiqamətdə aparılacaq çoxşaxəli tədqiqatlar üçün möhkəm metodoloji zəmin formalaşdırır.

Bütövlükdə, Qarabağ bölgəsinə aid toponomik əfsanə və rəvayətlərdə etnik şüurun formalaşdırdığı lokal və qlobal coğrafi qavrayış modelləri aydın şəkildə müşahidə olunur. Xalqın tarixi yaddaşında qorunub saxlanılan bu folklor mətnləri yalnız məkan adlarının mənşəyini izah edən narrativlər kimi deyil, həm də etnosun dünyagörüşünü, mifoloji təfəkkürünü və məkanla bağlı identiklik təsəvvürlərini əks etdirən mühüm mədəni yaddaş daşıyıcıları kimi çıxış edir. Bu baxımdan, coğrafi əfsanə və rəvayətlərdə təzahür edən məkan qavrayışının araşdırılması həmin mətnlərin bədii-estetik xüsusiyyətlərinin daha dərindən anlaşılmasına, eyni zamanda onların ehtiva etdiyi etnik-mifoloji təsəvvürlərin və milli özünüdərk formalarının şərhinə yeni imkanlar yaradır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abbaslı, İ. (Tərt.). (2000). Azərbaycan folkloru antologiyası: V kitab. Qarabağ folkloru. Bakı: Səda.
2. Qarabağ: folklor da bir tarixdir. (2012). I kitab. Bakı.
3. Qarabağ: folklor da bir tarixdir. (2012). III kitab. Bakı.
4. Qarabağ: folklor da bir tarixdir. (2012). IV kitab. Bakı.
5. Qarabağ: folklor da bir tarixdir. (2014). VIII kitab. Bakı.
6. SMOMPK (Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza). (Cild IV)

"KARABAKH TOPONYMS THROUGH THE PRISM OF TURKOLOGICAL FOLKLORE STUDIES"

Ilaha Asgarova

The subject of Karabakh folklore is highly relevant not only within Azerbaijani culture but also across the Turkic world in terms of the preservation and analysis of cultural heritage. Karabakh folklore plays a significant role in shaping the culture, traditions, worldview, and identity of the Azerbaijani people. These folklore examples consist of numerous elements that reflect the history, geography, and everyday life of the region, the Turkic world, and its people. In this regard, the study of Karabakh folklore, particularly through the perspective of Turkological folklore studies, contributes to a deeper understanding of Azerbaijan's cultural identity.

In the spiritual culture of Turkic peoples, place names serve not only as geographical designations but also as important cultural texts that preserve and transmit collective memory. From this perspective, toponyms contain and safeguard traces of the ancient Turkic worldview, systems of belief, ethnic memory, and historical events.

Keywords: *Karabakh, folklore, toponym, legend, folk narratives, Turkology.*

"AŞIQ QƏRİB" DASTANINDA ŞAMAN ARXETİPİ: ARXETİPİK VARİSLİK

Əsmər Əliyeva
AMEA Rəyasət Heyəti Aparatı
Filologiya üzrə fəlsəfə doktoru
Şöbə müdiri
bashirova116@gmail.com
https://orcid.org/0000-0002-3606-9726

Məqalədə "Aşıq Qərib" dastanı əsasında aşıq sənətinin qam-şaman kökləri və şaman arxetipinin izləri tədqiq olunur. Mətndəki yuxu və buta motivlərinin şaman inisiasiyası (simvolik ölüm və yenidən doğuluş), sazın isə bəzi məqamlarda şaman dəfinin morfoloji transformasiyası olduğu əsaslandırılır. Azərbaycan folklorşünaslığında aşıq-ozan sənətinin öz arxetipik başlanğıcında qam-şaman sənətkar tipi ilə birbaşa bağlılığı artıq elmi cəhətdən əsaslandırılmış və qəbul edilmiş bir faktdır. Həmçinin məqalədə Dərviş/Xızır obrazlarının hami ruh arxetipi, kor gözlərin sağalması isə şaman şəfaçılıq funksiyası ilə müqayisəli şəkildə təhlil edilir. Şamanın davulu sadəcə ritualı müşayiət edən musiqi aləti deyil, eləcə də şamanın o biri dünyaya getməsi, trans vəziyyətinə keçməsi üçün vacib olan əsas vasitədir. Şaman dəfinin təkamülü və transformasiyası sonrakı mərhələdə aşığın sazı kimi təzahür edir. Şamanın sazı ilə arasındakı bu bağı biz "Aşıq Qərib" dastanında qəhrəmanın öz sazı ilə qurduğu bağla müqayisə edilir. Türk dastan yaradıcılığında Xızır obrazı sadəcə təsadüfi köməkçi deyil, qəhrəmanın inisiasiya sınaqlarında və "ölüm-dirilmə" mərhələlərində görünən şaman ruh arxetipidir. Tədqiqat nəticəsində qam-şaman tradisiyasının öz sakral kodlarını haqq aşıqlığı institutuna ötürərək epik mətndə arxetipik varislik yaratdığı qənaətinə gəlinir.

Açar sözlər: *Aşıq Qərib, şaman arxetipi, arxetipik varislik, buta motivi, hami ruh, magik şəfaçılıq, haqq aşığı.*

Giriş

Azərbaycan məhəbbət dastanları epik və lirik janrın bədii-estetik gözəlliklərini özündə yüksək səviyyədə əks etdirməklə bərabər, həm də daxili struktur qatlarında qədim arxetipik formaları və mifik təfəkkürü kodlaşdırılmış şəkildə qoruyub saxlamışdır. Bu dastanlarda süjet xəttinin görünən qatında sadəcə iki gəncin sevgisi, lirik iztirabları və qovuşma xətti dayansa da, onun daxili qatında qədim ritual-mifoloji paradiqmalar yaşamaqdadır.

Azərbaycan folklorşünaslığında aşıq-ozan sənətinin öz arxetipik başlanğıcında qam-şaman sənətkar tipi ilə birbaşa bağlılığı artıq elmi cəhətdən əsaslandırılmış və qəbul edilmiş bir faktdır. M.Cəfərli yazır ki, məhəbbət dastanının qəhrəmanı haqq aşığıdır. Haqq aşığı obrazı öz arxetipik başlanğıcını qam-şaman sənətkar tipindən alır (Cəfərli, 2000, s. 238). Bu kontekstdə, tədqiqatçı S.Yaqubova dastanlarımızdakı buta motivini və haqq aşıqlığının ruhlar aləmi, eləcə də ilahi güclərlə əlaqəsini birbaşa qədim mifoloji təfəkkürün təzahürü kimi dəyərləndirmişdir. Tədqiqatçı öz fikirlərini "Aşıq Qərib" dastanında baş qəhrəman Rəsulun (Qəribin) ona buta verilməsi haqqında söylədiyi qoşmadakı "göründü gözümə doğru rah mənim" misrası ilə əlaqələndirir. Şamanın "ruhlar tərəfindən seçilməsi və doğru yola yönəldilməsi" paradiqması, aşığın "doğru rah (yol)" formulu ilə eyniləşdirilir (Yaqubova, s.47)

Məhəbbət dastanlarını struktur-semantik cəhətdən təhlil edən M.Cəfərli təsdiq edir ki, "bütün məhəbbət dastanları süjet strukturu baxımından, sadəcə olaraq bir-birlərini təkrarlayır". Bu baxımdan, "Aşıq Qərib" dastanının süjet xəttində də şaman arxetipinin bariz izlərinə təsadüf edilir. Məqalədə həmin mifoloji izlər və paralellər konkret mətn nümunələri əsasında qarşılıqlı şəkildə təhlil olunur.

1. Yuxu və "buta" – şaman namizədinin seçilməsi, şaman xəstəliyi

"Aşıq Qərib" dastanında atasının qəbrini ziyarət edən Rəsul (Qərib) bihuş olub orada yatır və yuxuda tiflisli Xoca Sənanın qızı Şahsənəm ona buta olaraq göstərilir: *"Dərviş badəsini oğlanla qıza içirəndən sonra yox oldu. Rəsul dəli kimi yuxudan ayılıb gördü ki, qəbiristandadı, amma yanında heç kim yoxdu."* (Azərbaycan dastanları, 2005, s. 11). Dastanda qəhrəmanın gələcək taleyini, statusunun dəyişməsini və qeyri-adi bacarıqlarının meydana çıxmasının başlanğıcında yuxu dayanır. Yuxu – mifo-

loji təfəkkürün daxili dinamikası olmaqla, dünyəvi dünyadan sakral dünyaya keçid, o biri dünya və ruhlarla birbaşa əlaqə vasitəsi kimi qəbul edilir. Türk xalqlarının inanclar sistemində yuxunun insanlara ilahi qüvvələr tərəfindən göndərildiyinə dair ortaq təsəvvürlər mövcuddur. Məsələn, Qaraçay-balkarların ənənəvi inanclarında insanlara yuxu göndərən varlıq "Düş Anası Çomparaş" adında bir ilahədir. Yaqutlarda da oxşar rituala rast gəlinir; övladı olmayan qadın övliya ağacının (müqəddəs ağacın) altında yatardı və bu ağac da onun yuxusunda uşaq canı (ruhu) bağışlayardı (Bəydili, 2004, s. 586). Burada yuxu müqəddəs məkanda gerçəkləşən bir can/ruhvermə, yəni transformasiya aktıdır.

Bir çox tədqiqatçıların fikrincə, bəşər tarixində ilk yuxuyozanlar şamanlar olmuşlar. Şamanizmdə kimsə öz istəyi ilə şaman olmur, o, sakral ruhlar tərəfindən seçilir və bu seçimdən sonra "şaman xəstəliyinə" tutulur. Şaman namizədinin seçilməsi, sirrə çatması və şaman olaraq qəbul edilməsi üçün ən vacib şərtlərdən biri onun simvolik olaraq "ölməsi" və sonradan yenidən "dirilməsi" ilə nəticələnən inisiasiya aktıdır. Bu zaman "namizədin ölüb-dirilməsi", köhnə mənliyindən ayrılması üçün tələb olunan əsas rituallardan biri M. Eliadenin qeyd etdiyi kimi, *"Hipnotik yuxu; namizədin şüurunu itirən içkilərin verilməsi"dir. Bu magik içki namizədə adi məkanda deyil, çöldə, meşədə və ya qəbiristanlıqda (simvolik olaraq insan olmayan məkanlarda) içirilir. Bu ritualın əsas məqsədi şaman namizədinə keçmiş həyatını unutdurmaqdır. M.Eliade qeyd edir ki, bu inisiasiyanı keçən namizəd sonra kəndinə qayıdanda artıq yeni insan olur, yaddaşını itirmiş kimi davranır, yerimək, yemək kimi fəaliyyətlər ona yenidən öyrədilir, yeni bir dil öyrənir* (Eliade, 1999, s. 90).

Bu inisiasiya mərhələsi məhəbbət dastanlarındakı buta alma motivi ilə tamamilə eynidir. Dastanlarda butavermə hadisəsi qəhrəmanlara yuxuda, bihuş vəziyyətdə olduğu zaman (ocaq, pir, bağ, müqəddəs ağac altında, qəbiristanlıq) baş verir. Bu təsadüfi deyil, butanın sakral qüvvələrlə əlaqəsini göstərir. Məsələn, Rəsul (Aşıq Qərib) deyir:

Qadir haqdan mən bir dilək dilədim,
Şükür, muradımı verdi şah mənim.
Cümə axşamında, qəbir üstündə,
Ərənlər yeridi, nəzərgah mənim (Azərbaycan dastanları, 2005, s. 12)

Göründüyü kimi, "*buta sakral qüvvələr, yəni arxaik planda zoomorf əcdadlar, totemlər, sonrakı planda antropomorf əcdadlar, son planda Həzrət Əli, Xızır İlyas və s. təsəvvüfi-islam obrazlarla transformasiya edilmiş ilahi qüvvələr tərəfindən verilir. Bu baxımdan buta verilmiş məkanın özü ilahi cəhətdən dəyərləndirilmiş məkan olmalıdır"* (Cəfərli, 2000, s. 151).

Dastanda Rəsulun atasının qəbri üstündə yuxuya getməsi, dərvişin ona tiflisli Xoca Sənanın qızı Şahsənəmi buta verməsi və hər iki cavana eşq badəsini içirməsi təsvir olunur. Qəribin yuxuda "eşq badəsi" içib huşunu itirməsi, oyandıqdan sonra isə qeyri-adi bacarıqlarının üzə çıxması klassik şaman transıdır. Bu, köhnə "mən"in ölümü və yeni "Aşıq" (şaman/ozan) statusunda yenidən doğulmasıdır: "*Rəsul dəli kimi yuxudan ayılıb gördü ki, qəbirstandadı, amma yanında heç kim yoxdu... –Mən dərdimi dil ilə desəm, dilim alışıb yanar. Mənə bir saz verin, dərdimi sazla deyim"* (Azərbaycan dastanları, 2005, s. 11).

Dastanlarda aşığa yuxuda "buta" verilməsi və bu butanın təsiri ilə onun yerə yıxılıb xəstələnməsi, özündən getməsi, ağzının köpüklənməsi, oyandıqda isə dərdini sazla deməsi, "ərənlər bir-bir buta dedilər", "Yatmışdım, üstümə gəldi ərənlər...", "Göründü gözümə doğru rah mənim" deyərək saz çalıb oxuması şaman təcrübəsinin izləridir:

"Ərənlər bir-bir buta dedilər,
Məqsud Şahsənəmə çata dedilər.
İkisi murada yetə dedilər,
Artdı bu sövdada aldı ah məni." (Azərbaycan folkloru külliyyatı, 20, 2012, s. 21).

2. Saz – şaman dəfinin transformasiyası

Aşıq Qəribin ən böyük gücü onun sazıdır. Şamanın dəfi (qavalı) ruhlar aləmi ilə əlaqə qurmaq üçün əsas vasitədir. Qərib də çətinə düşəndə, qarşısına maneələr çıxanda və ya yolu bağlananda sazına əl atır. Sazın sehri, səsi və sözün gücü ilə o, bütün maneələri aşır, məclisdə deyişdiyi rəqiblərinə mütləq qalib gəlir:

"Əlimə almışam sədəfli sazı,
Fələk yazdı mənə belə bir yazı;
Yuxumda görmüşəm bir alagözü,
Ana, mən Tiflisə varmalı oldum." (Azərbaycan dastanları, 2005, s. 12)

Bunu şaman ritualındakı "söz magiyası" ilə müqayisə edə bilərik.

Aşıq Qərib sözün gücü və səsinin sakral gücü ilə təbiət qüvvələrinə təsir edir, boranı, tufanı, qarı sakitləşdirib, yoluna davam edir:

"Göydən enir ləpə-ləpə qar,
Bacı, qardaş, ana mənə baxalar,
Biz ölsək burada, sənsən günahkar,
Yar düşübdü məndən aralı, dağlar!

Qorxum budu, tufan bizi öldürə,
Rəsul qala burda yaralı, dağlar!"
Söz tamama yetən kimi boran dayandı (Azərbaycan dastanları, 2005, s. 14).

M.Cəfərli yazır ki, məhəbbət dastanlarında aşiq qəhrəmanı eyni zamanda gözəl söz demək və gözəl saz çalmaq qabiliyyətinə sahib olur. O, sevgilisinə qovuşmqdan ötrü yalnız Sazına və Sözünə arxalanır. Butavermə motivli dastanlarda o, saz çalmaq və söz demək qabiliyyətini buta şəklində alır (Cəfərli, 2010, s.215). M.Eliade isə ritual zamanı şamanın davul çalması haqqında yazır, "Əsl inisiasiya (sırra-ermə) prosesi davul (nağaradan) istifadənin öyrənilməsi ilə başlayır, çünki ruhları görmək yalnız bu yolla və bu vəsilə ilə mümkündür. İstər şamanı "dünyanın mərkəzinə" aparmaq və ya havada uçmasını təmin etmək olsun, istər ruhları çağırmaq və "həbs etmək" üçün olsun, istərsə də çıxardığı səslə şamanın işinə diqqətini cəmləməsi və daxilində səyahət etməyə hazırlaşdığı mənəvi aləmlə təmasa gəlməsini təmin etmək üçün olsun – davul şamanlıq seanslarının icrası üçün əvəzolunmaz bir elementdir." (Eliade, 1999, s. 199-200).

Qeyd edək ki, şamanın davulu sadəcə ritual müşayiət edən musiqi aləti deyil, şamanın o biri dünyaya getməsi, trans vəziyyətinə keçməsi üçün vacib olan əsas vasitədir. Şamanın davulunun önəmi onun ağacının seçilməsi, dərisi, materialı və üzərində əks olunan ritual elementləri əks etdirən kosmoqonik təsvirlərindən görünür. Davul hətta şamanın ritual zamanı Göy, Yer, Yeraltına getməssi üçün simvolik olaraq "at", "qayıq" funksiyasını da yerinə yetirir. İlk Altay şamanı öz davulunu Erlikin öyrətdiyi şəkildə düzəltmişdir. Qorqud Ata ilə bağlı əfsanə və rəvayətlərdə də qopuzun hazırlanması o biri dünya gücləri ilə əlaqələndirilir (Bəydili, 2004, s. 453) Buradan görünür ki, şaman dəfinin təkamülü və transformasiyası sonrakı mərhələdə aşığın sazı kimi təzahür edir. Şamanın sazı ilə arasındakı bu bağı biz "Aşıq Qərib" dastanında qəhrəmanın öz sazı ilə qurduğu bağla müqayisə edə bilərik. Sazın dastan qəhrəmanı üçün toxunulmaz , müqəddəs və xilaskar bir güc olmasını, onun arxaik qatda şaman davuluna məxsus sakral və ilahi missiyanın miras almasının nümunəsidir.

3. Dərviş, Xızır (nurani ağsaqqal) – Ruh bələdçisi

Məhəbbət dastanlarının mətnində birbaşa sakral obraz kimi görünən – Dərviş, Xızır İlyas, İmam Əli, Şahi-mərdan, Boz atlı, Göy atlı və digər personajlar müqəddəs hamilər hesab olunur. M.Cəfərli yazır ki, aşiq qəhrəman bütün hallarda öz hamisinin köməyi ilə qələbə çalır. Bu, arxaik dastanlarında qəhrəmanın tayfa əcdadından, totem əcdad-ruhdan, şamanın şaman ruhundan aldığı köməklə genetik baxımdan birdir və birbaşa ordan gəlir. Bu baxımdan dərviş – İmam Əli, Xızır obraz kompleksinin struktur-semantik kökləri əski şaman kompleksinə, onun ruhlarla əlaqələrinə gedib çıxır (Cəfərli, 2010, s. 270). "Aşıq Abbas" dastanında Rəsula buta verən Dərvişdir: "Dərviş qızın əlini Rəsula uzadıb dedi: ...Bunu sənə buta verirəm. Dərviş badəsini oğlanla qıza içirəndən sonra yox oldu" (Azərbaycan dastanları, 2005, s. 11). Eləcə də Qərib Tiflisə tələsəndə qarşısına ağ atlı, nurani Xızır çıxır və onu üç aylıq yolu bir göz qırpımında mənzil başına çatdırır. Bu şaman mifologiyasındakı "köməkçi ruh" arxetipidir. Şamanlar yeraltı dünyaya və ya göy səfərinə gedəndə onları mütləq ruh müşayiət edir.

Qəribin Hələbdən Tiflisə qayıdarkən gözünü yumub atın tərkinə minməsi ilə mənzil başına çatması, yəni uzaq coğrafi məsafəni bir an daxilində qət etməsi, şamanın ekstaz halında zaman və məkan

aşması paradiqması ilə tipoloji cəhətdən, demək olar ki, eynidir. Dastanın bu hissəsi dünyalararası sakral keçidi göstərir. Bu trans-kosmik səyahət zamanı şamanın miniyi at olduğu kimi, dastan qəhrəmanı da bu keçidi müqəddəs atla həyata keçirir.

Xızır əfsanələrə görə, qaranlıq dünyadakı "Dirilik suyu"ndan içib daima yaşayan, ölüb-dirilən və təbiəti simvolizə edərək əbədiyyətin rəmzi olan mifoloji varlıqdır. Xalq inanclarına görə: "Bu ilahi varlıq kimin qarşısına çıxarsa, onun gözündə varlığın sirr pərdəsi aralanar. Bu mənbələrdə, "Xızır" şəkildən-şəklə girib gah uşaq, gah da yaşlı bir adam olur; bəzən quş, gah dovşan cildinə girir. Bir göz qırpımında çox uzaq məsafələrə gedir. Havada dolaşır, suyun üzərində gəzir. Təbiətdəki bütün varlıqları öz əmrinə tabe edə bilir. Hətta ölənləri belə diriltməyə gücü çatır" (Bəydili, 2004, s.239). Xızır həmçinin bolluq rəmzidir: "Bərəkətli olub, tez tükənməyən pul və buna bənzər şeylər haqqında "Xızırın əli dəymiş" deyilir. Bu, onun ilkin funksiyalarından birinin də bolluq-bərəkət qoruyuculuğu (hamiliyi) olduğunu göstərir" (Bəydili, 2004, s. 239).

M.Cəfərli dastanların obrazlar sistemindəki arxaik qatları şərh edərək göstərir ki: "Həzrət Əli, Xızır Nəbi, Dərviş eyni bir obraz kompleksidir. Yəni başlanğıcda bu obraz kompleksi şamanın ruhlarla mediativ əlaqəsi kompleksinə gedib çıxır " (Cəfərli, 2010, s. 268). Məhəbbət dastanlarında Xızıra daha çox yol göstərən, şəfa verən, qoruyucu hami ruh kimi təsadüf edilir. "Aşıq Qərib" dastanında qəhrəmanın qələbə qazanmasında hami ruhun çox böyük köməyi olur:

"Rəsul idim, Qərib dedin adıma,
Mövlan yetsin köməyimə, dadıma,
Qürbət eldə Sənəm düşər yadıma,
Canım oda atıb, yenə gələrəm!" (Azərbaycan dastanları, 2005, s. 34).

4. Gözlərin sağalması - Magik şəfaçılıq

"Aşıq Qərib" dastanında qəhrəmanın anasının kor olmuş gözləri, Qəribin Xızırın atının ayağının altından götürdüyü torpağı anasının gözlərinə çəkməsi ilə möcüzəli şəkildə sağalır: "Atımın ayağının altından bir ovuc torpaq götürüb, sürt ananın gözlərinə, sağalsın, onda hamı inanar" (Azərbaycan dastanları, 2005, s.49; Azərbaycan folkloru külliyyatı, 2012, s.58). Qərib elinə qayıtdıqdan sonra möcüzəvi şəkildə bir an içində Hələbdən Tiflisə gəldiyini dedikdə heç kəs inanmır. Qərib öz sakral gücünü sübut etmək üçün deyir: *"Məni gətirən ağam Xızırın atının ayağının altından bir ovuc torpaq götürmüşəm. İndi anamın gözünü açacağam. Torpağı anasının gözünə çəkdi, gözləri açıldı, sappasağ oldu. Hamı Qəribin Haqq aşığı olduğunu təsdiqlədi*" (Azərbaycan dastanları, 2005, s. 54).

Mətndən də göründüyü kimi, ananın gözlərinin kor olması, sonra sakral güc vasitəsilə bərpa olunması, adi sağalma aktı olmayıb dərin arxetipik mənaya malikdir. Şamanizmdə "korluq" zülməti, xaosu, keçmiş dünya ilə bağların qırılmasını və inisiasiya prosesində müvəqqəti "ölüm", həmçinin sınaq mərhələsini simvolizə edir. Qəribin gətirdiyi torpaq və anasının gözlərinin açılması onun statusunun (Haqq aşıqlığının) bütün cəmiyyət tərəfindən qəbul edilməsidir. Şaman mətnlərində və rituallarında rast gəlinən bu magik müalicə üsulu, şamanın əsas funksiyalarından olan xəstələri sağaltmaq, iki dünya arasında vasitəçilik etmək, ruhlar aləminə gedərək xəstələrin itmiş canlarını tapıb gətirməklə üst-üstə düşür.

Türk dastan yaradıcılığında Xızır obrazı sadəcə təsadüfi köməkçi deyil, qəhrəmanın inisiasiya sınaqlarında və "ölüm-dirilmə" mərhələlərində görünən şaman ruh arxetipidir. Bu invariantın müqayisəli-tipoloji mənzərəsini digər türk eposlarında da aydın şəkildə görürük. Məsələn, "Kitabi-Dədə Qorqud" qəhrəmanı Buğac yaralanıb yıxıldığı zaman, yanında hazır olan Boz atlı Xızır onun yarasını öz əlləri ilə sığallayır: *"Oğlan, qorxma, sənə bu yaradan ölüm yoxdur. Dağ çiçəyi ilə ananın südü sənin yarana məlhəmdir" – deyib yox oldu."*(Kitabi-Dədə Qorqud, 2004, s. 182). Bu süjet xətti Xızırın birbaşa xəstələrə sakral şəfa vermək, yəni şaman rituallarına uyğun sağaltma funksiyası daşıdığını göstərir. Xızırın dastan qəhrəmanlarını zülmətdən, rastlaşdığı maneələrdən xilas etmə missiyası fərqli eposlarda invariant şəkildə təkrarlanır: Məsələn, "Şah İsmayıl" dastanında atası İsmayılın gözlərini çıxartdırıb qaranlıq quyuya saldıranda onu quyudan (Yeraltı dünyadan/zülmətdən) Xızır çıxardır; "Tahir və Zöhrə" dastanında isə baş qəhrəman Tahiri zindandan Xızır qurtarır və s.

Nəticə

Beləliklə, təhlil olunan mətn materialları göstərir ki, Azərbaycan məhəbbət dastanları, xüsusilə "Aşıq Qərib" dastanının daxili qatında qədim qam-şaman elementləri qorunub saxlanılmışdır. Bu mifik-ritual paradiqmalar dastanda sadəcə arxaik qalıqlar deyil, şaman sənətinin təkamül edərək aşıq yaradıcılığında təzahür edən varislik əlaqəsidir. Beləliklə, dastan strukturunda sələf rolunda çıxış edən qam-şaman tradisiyası özünün bəzi sakral funksiyalarını və mifik kodlarını davamçısı və xələfi olan haqq aşıqlığına ötürərək dastan daxilində yaşatmışdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Acaloğlu, A. (2024). Türk xalqları mifologiyasının kökənləri: Məqalələr, tezislər və monoqrafiya. Bakı, Elm və təhsil.
2. Azərbaycan dastanları. (2005). (Beş cilddə, III cild). Bakı, Lider nəşriyyatı.
3. Azərbaycan folkloru külliyyatı. (2012). (XXX cild, Dastanlar, XX kitab). Bakı, Elm və təhsil nəşriyyatı.
4. Bəydili, C. (2004). Türk mitolojisi ansiklopedik sözlük (İ. Birkan, Çev.). Ankara, Yurt Kitap-Yayın.
5. Bəydili, C. (2007). Türk mifoloji obrazlar sistemi: Struktur və funksiya (Monoqrafiya). Bakı, Mütərcim.
6. Cəfərli, M. (2000). Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı, Elm.
7. Cəfərli, M. (2010). Azərbaycan dastanlarının struktur poetikası. Bakı, Nurlan.
8. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilnıiş mətnlər. (2004). Bakı, Öndər, 376 s.
9. Eliade, M. (1999). Şamanizm (İ. Birkan, Çev.). İmge Kitabevi Yayınları.
10. Seyidov, M. (1994). Qam-şaman və onun qaynaqlarına ümumi baxış. Bakı, Gənclik.
11. Seyidov, M. (2018). Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, Elm və təhsil.
12. Якубова, С. (1968). Азербайджанское народное сказание «Ашиг Гариб». Элм.

THE SHAMAN ARCHETYPE IN THE EPIC ASHIQ QARIB: ARCHETYPAL INHERITANCE

Asmar Aliyeva

The article explores the gam-shamanic roots of ashiq art and the traces of the shaman archetype based on the epic "Ashiq Garib". In Azerbaijani folkloristics, the direct connection of the ashiq-ozan art in its archetypal origin with the gam-shaman craftsman type is already a scientifically substantiated and accepted fact. The study establishes that the dream and buta motifs represent shamanic initiation (symbolic death and rebirth), while the saz instrument is a morphological transformation of the shamanic drum. The shaman's drum is not merely a musical instrument accompanying the ritual, but the essential tool for transitioning to the otherworld. This evolution manifests in the later stage as the ashiq's saz. The fact that the saz is an inviolable, sacred, and salvific power for the epic hero clearly exemplifies its inheritance of the sacral and divine mission belonging to the shamanic drum in the archaic layer. Furthermore, the characters of dervish and Khidr as guardian spirit archetypes, and the healing of blind eyes as a shamanic therapeutic-healing function, are analyzed through a comparative-typological approach. In Turkish epic tradition, Khidr is not just an accidental helper, but a shamanic spirit archetype appearing in the hero's initiation trials and "death-rebirth" stages. The study concludes that the gam-shaman tradition transferred its sacred codes to the institution of divine ashiq, creating a profound archetypal succession within the epic text. Thus, the divine ashiq, with his mother-of-pearl saz, magical speech, and sacral guides, is the artistic-aesthetic successor of the ancient gam within the epic space.

Keywords: *Ashiq Garib, shaman archetype, archetypal succession, buta motif, magical healing, divine ashiq.*

TÜRK XALQLARININ ƏNƏNƏVİ EKOLOJİ BİLİKLƏRİ VƏ BİOMÜXTƏLİFLİYİN QORUNMASINDA ROLU

Asəf Ruşanov
Naxçıvan Dövlət Universiteti
Aqrar elmlər üzrə fəlsəfə doktoru
asefrusanov@ndu.edu.az
https://orcid.org/0009-0006-8326-0722

Türk xalqlarının ənənəvi ekoloji bilikləri minilliklər boyu formalaşmış zəngin mədəni irsə əsaslanaraq insan və təbiət arasında harmonik münasibətlərin parlaq nümunəsini yaradır. Bu biliklər sistemi yalnız müşahidələr toplusu deyil, həm də təbiəti həyatın ayrılmaz hissəsi kimi qəbul edən bir dünyagörüşüdür. Köçəri və oturaq həyat tərzinin sintezindən yaranmış bu ənənələr ekoloji tarazlığın qorunmasına xidmət edən praktik mexanizmlər formalaşdırmışdır. "Yer-Su" (Yer-Sub) inancı dağları, meşələri və su mənbələrini müqəddəsləşdirərək təbii sərvətlərdən israfçı istifadənin qarşısını alan mənəvi qoruyucu rolunu oynamışdır.

Əkinçilik və maldarlıqla məşğul olan icmalar növbəli otlaq sisteminin tətbiqi, mövsümi ov qadağaları və təbii resurslardan səmərəli istifadə vasitəsilə biomüxtəlifliyin qorunmasına birbaşa töhfə vermişlər. Müasir dövrdə qlobal ekoloji problemlərin dərinləşdiyi bir şəraitdə türk xalqlarının yerli bitki növlərinin qorunması, xalq təqvimlərindən istifadə etməklə iqlim dəyişikliklərinə uyğunlaşma kimi ənənələri elmi yanaşmalarla səsləşən mühüm bilik mənbəyi kimi dəyərləndirilir. Bu irsin müasir ekologiya elmi ilə inteqrasiyası həm mədəni davamlılığın təmin olunması, həm də ətraf mühitin bərpası və qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: *Türk xalqları, ekoloji mədəniyyət, biomüxtəliflik, təbiət mühafizəsi, ənənəvi biliklər*

Giriş

Türk xalqlarının minilliklər boyu formalaşmış mədəniyyət tarixi, eyni zamanda onların təbiətlə qurduğu dərin və mənalı münasibətin salnaməsidir. Bu xalqlar üçün təbiət sadəcə yaşayış sahəsi deyil, həm də mənəviyyatın, inancların və həyat tərzinin təməl sütunu olmuşdur. Ənənəvi ekoloji biliklər, nəsillərdən-nəslə ötürülən təcrübələr, müşahidələr və təbiət hadisələrinin dərki nəticəsində yaranan mürəkkəb bir sistemdir. Bu biliklər sistemi müasir dünyada ekoloji tarazlığın qorunması və biomüxtəlifliyin mühafizəsi üçün unikal bir mexanizm təklif edir. Tarixən türklərin kainata baxış bucağı insanın təbiət üzərində ağalığına deyil, onunla ahəng içində yaşamasına əsaslanmışdır. Bu ahəngin təməlində isə torpağın, suyun və havanın müqəddəsliyi dayanır.

Qədim dövrlərdən etibarən türk mifologiyası və kosmologiyasında təbiət canlı bir orqanizm kimi qəbul edilmişdir. Mifoloji təfəkkürdə "Yer-Sub" anlayışı coğrafi mühitin mənəvi qüvvələrlə dolu olduğunu simvolizə edirdi (Ögel, 2014, s. 12). Dağların ucalığı, meşələrin sıxlığı və suların axarı sadəcə maddi varlıqlar deyil, eyni zamanda qoruyucu ruhların məskəni hesab olunurdu. Bu inanc sistemi insanların ətraf mühitə qarşı daha ehtiyatlı və hörmətlə yanaşmasını təmin edirdi. Məsələn, bir ağacın kəsilməsi və ya suyun çirkləndirilməsi mənəvi bir günah, kainatın nizamını pozan bir hərəkət kimi qiymətləndirilirdi. Belə bir dünyagörüşü təbii ehtiyatların israfsız və davamlı istifadəsini təşviq edən ilkin ekoloji etikadır.

Türk mədəniyyətinin ən mühüm yazılı qaynaqlarından biri olan "Dedə Qorqud" dastanları da bu təbiət-insan bağının ən parlaq nümunələrini özündə daşıyır (Ergin, 2017). Bu əsərlərdə qəhrəmanların təbiət elementləri ilə danışması, ağaclara olan müraciətləri və heyvanlar aləminə bəslədikləri dərin rəğbət təbiətin insanın ayrılmaz bir parçası olduğunu göstərir. Köçəri həyat tərzi sürən qədim türk icmaları mövsümlərin dəyişməsini, bitkilərin inkişaf dövrlərini və heyvanların miqrasiya yollarını dərindən bilirdilər. Bu biliklər onlara örüşlərin istifadəsində növbəlilik prinsipinə əməl etməyə imkan verirdi ki, bu da torpağın aşınmasının qarşısını alır və biomüxtəlifliyin təbii bərpasını təmin edirdi.

İslamın qəbulundan sonra da bu ənənəvi ekoloji baxış bucağı öz mahiyyətini saxlamış, sufi fəlsəfəsi ilə daha da zənginləşmişdir. Türk sufiliyinin baniləri olan ilk mütəsəvvıflər yaradılanı Yaradana görə sevmək prinsipi ilə bütün canlılara qarşı şəfqət göstərməyi təbliğ etmişlər (Köprülü, 2016). Bu dövrdə təbiət ilahi bir sənət əsəri kimi qəbul edilmiş və onun qorunması dini və mənəvi bir vəzifəyə çevrilmişdir. Xalq ədəbiyyatında, nağıllarda və əfsanələrdə təbiətin qorunması ilə bağlı xəbərdarlıqlar və nəsihətlər geniş yer almışdır (Elçin, 2018). Xalq inanclarında suyun müqəddəsliyi ilə bağlı yaranan adətlər su qaynaqlarının təmiz saxlanılması üçün ən effektiv ictimai nəzarət mexanizmi idi.

Türklər təbiəti sadəcə seyr etməmiş, həm də onun "dilini" öyrənmişlər. Hansı bitkinin hansı fəsildə yığılması, hansı ağacın nə vaxt budanması və ya heyvanların davranışına görə hava proqnozunun verilməsi bu zəngin bilik xəzinəsinin hissələridir. Folklor nümunələri bu biliklərin şifahi şəkildə nəsillərə ötürülməsində mühüm rol oynamışdır (Boratav, 2013). Bu biliklər bu gün "biomüxtəlifliyin mühafizəsi" adlandırdığımız prosesin əsrlər öncə tətbiq edilən xalq forması idi.

Tarixi inkişaf prosesində türk dövlətlərinin qurduğu nizamda da təbiətin mühafizəsi dövlət siyasətinin bir hissəsi olmuşdur. Meşə sahələrinin qorunması, vəhşi heyvanların ovlanması ilə bağlı tətbiq edilən müəyyən məhdudiyyətlər və suvarma sistemlərinin idarə olunması bu mədəniyyətin intizamlı ekoloji yanaşmasından xəbər verir. Ziya Gökalp türk mədəniyyətinin əsaslarını izah edərkən xalqın adətlərinin və milli ruhunun təbiətlə nə qədər sıx bağlı olduğunu vurğulamışdır (Gökalp, 2019). Sosial adətlər və ənənələr daxilində formalaşan qaydalar cəmiyyətin ətraf mühitlə münasibətini tənzimləyən yazılmamış qanunlar rolunu oynamışdır (Erdentuğ, 2014).

Təbiəti qorumaq türklər üçün həm də öz kimliyini, tarixini və ruhunu qorumaq deməkdir. Bu yanaşma müasir texnologiyalarla ənənəvi müdrikliyin vəhdətini yaradaraq, planetimizin bioloji zənginliyini gələcək nəsillərə ötürmək üçün ən sağlam təməllərdən birini təşkil edir.

Bu tədqiqatda türk xalqlarının ənənəvi ekoloji biliklərinin biomüxtəlifliyin qorunmasındakı rolunu araşdırmaq məqsədilə keyfiyyət yönümlü elmi yanaşmalardan istifadə edilmişdir.

Tədqiqatın metodoloji əsasını aşağıdakı üsullar təşkil edir:

- Tarixi-komparativ metod. Türk xalqlarının müxtəlif dövrlərdə formalaşmış ekoloji yanaşmaları müqayisəli şəkildə təhlil edilmişdir.
- Mətn analizi. Elmi ədəbiyyat, folklor nümunələri və klassik mənbələr sistemli şəkildə analiz olunmuşdur.
- Etnoekoloji yanaşma. Xalqın təbiətlə qarşılıqlı münasibətləri mədəni və sosial kontekstdə öyrənilmişdir.
- Sistemli analiz metodu. Ənənəvi biliklər biomüxtəlifliyin qorunması kontekstində kompleks şəkildə qiymətləndirilmişdir.

Metodologiyanın əsasını insan–təbiət münasibətlərini vahid sistem kimi qəbul edən ekosentrik yanaşma təşkil edir. Bu yanaşma çərçivəsində ənənəvi biliklər yalnız folklor elementi kimi deyil, praktik ekoloji idarəetmə mexanizmi kimi qiymətləndirilmişdir.

Türk xalqlarının minillik tarixi təcrübəsi göstərir ki, təbiətlə qurulan münasibət sadəcə iqtisadi ehtiyaclarla deyil, həm də dərin mənəvi dəyərlərlə tənzimlənmişdir. Bu xalqların ənənəvi ekoloji bilikləri, müasir ekologiya elminin bu gün çatdığı bir çox nəticəni əsrlər öncə mənəvi bir norma kimi qəbul etmişdir. Müzakirənin əsas xəttini təşkil edən məqam ondan ibarətdir ki, biomüxtəlifliyin qorunması türklər üçün süni bir müdaxilə deyil, gündəlik həyatın təbii axışı olmuşdur. Mifoloji köklərdən gələn təbiət anlayışı, hər bir təbiət elementinə bir ruh və ya qoruyucu qüvvə aid etməklə insanın ətraf mühitə qarşı məsuliyyətini artırmışdır. Bu mənəvi məsuliyyət hissi, müasir ekoloji qanunvericiliklərin tətbiq etməyə çalışdığı "məhdudiyyət" anlayışından daha effektiv işləmişdir.

Xalqın inanclarında ağacın kəsilməsinin, suyun çirkləndirilməsinin və ya yuvası olan canlının incidilməsinin uğursuzluq gətirəcəyinə dair inamlar, təbii müvazinətin qorunmasında ictimai bir qalxan rolunu oynamışdır. Bu yanaşma biomüxtəlifliyin sadəcə bir növ kimi deyil, kainatın bütövlüyünü təmin edən vacib bir halqa kimi qavranılmasını təmin etmişdir. Xüsusilə köçəri həyat tərzində yaylaq və qışlaq mədəniyyəti, torpağın özünü bərpa etməsinə imkan tanıyan təbii bir ekoloji idarəetmə modelidir.

Torpağın fasiləsiz istismarı deyil, onunla bir növ "nəfəs almaq" prinsipi, endemik bitki növlərinin və yerli fauna nümayəndələrinin qorunmasına şərait yaratmışdır.

Türk cəmiyyətlərində sosial adətlər ekoloji biliklərin daşıyıcısına çevrilmişdir. Məsələn, müəyyən heyvan növlərinin ovlanması üçün fəsillərin və heyvanın yaşının nəzərə alınması biomüxtəlifliyin davamlılığı üçün mühüm bir tənzimləmə mexanizmidir (Erdentuğ, 2014). Bu qaydalar yazılı qanunlardan daha çox, xalqın vicdanında və adətlərində öz yerini tapmışdır. Eyni zamanda, sufi fəlsəfəsinin təsiri ilə yaranan "canlıya hörmət" anlayışı, bitki və heyvan aləminə qarşı rəhmli davranışı bir ibadət dərəcəsinə yüksəltmişdir (Köprülü, 2016). Bu fəlsəfi yanaşma, insanın özünü təbiətin sahibi deyil, onun bir qonağı və ya əmanətçisi kimi hiss etməsinə gətirib çıxarmışdır.

Xalq təbabəti və bitkiçiliklə bağlı biliklər biomüxtəlifliyin qorunmasında digər bir mühüm aspektidir. Hansı bitkinin nə vaxt və hansı miqdarda yığılmalı olduğunu bilən icmalar, o bitki növünün kökünün kəsilməsinin qarşısını almışlar. Bu, faktiki olaraq bu günün "davamlı inkişaf" və "bioloji resursların idarə edilməsi" prinsiplərinin ənənəvi formasıdır. *Müasir dövrdə bu biliklərin elmi müstəviyə köçürülməsi çox vacibdir. Çünki klassik ekoloji yanaşmalar bəzən yerli xalqın minillik təcrübəsini kənara qoyur, halbuki bu təcrübə iqlim dəyişikliyi və növlərin azalması ilə mübarizədə ən praktik həll yollarını təqdim edə bilər* (Gökalp, 2019, s. 56).

Xalq ədəbiyyatı nümunələri, dastanlar və xalq mahnıları bu biliklərin kodlaşdırılmış formasıdır. "Dədə Qorqud" boylarında təbiətin təsviri və ona verilən dəyər insanın kimlik formalaşmasında ətraf mühitin rolunu aydın şəkildə nümayiş etdirir. Təbiət burada sadəcə fon deyil, hadisələrin iştirakçısıdır. Bu bədii irs, gənc nəsillərdə ekoloji şüurun formalaşması üçün müasir dərsliklərdən daha təsirli bir vasitə ola bilər. İnsanın mənşəyini təbiətlə bağlayan bu hekayələr, əslində ekosistemi qorumağın özünü qorumaq olduğu mesajını verir.

Müzakirə edilən digər bir vacib məqam isə türk xalqlarının suyun idarə olunması və meşələrin qorunması sahəsindəki tarixi uğurlarıdır. Tarixən meşələrin dövlət və ya icma tərəfindən mühafizə edilən "qoruq" ərazilərinə çevrilməsi, həmin bölgələrdəki ekosistemin bütövlüyünü təmin etmişdir (Ortaylı, 2020). Su kanallarının inşası və suyun ədalətli bölgüsü məsələsi həm sosial ədaləti, həm də ərazinin bioloji məhsuldarlığını artırmışdır. Bu praktiki biliklər müasir aqroekologiya üçün zəngin bir mənbədir.

Türk dünyasının geniş coğrafiyasında fərqli iqlim şəraitlərinə uyğunlaşmış müxtəlif yerli heyvan cinsləri və bitki sortları ənənəvi seleksiya bilikləri sayəsində qorunub saxlanılmışdır. Bu genetik resurslar bu gün qlobal ərzaq təhlükəsizliyi üçün kritik əhəmiyyət daşıyır. Ənənəvi ekologiyanın təməlində dayanan bu zənginlik, müasir biotexnologiyaların təbiətə vura biləcəyi zərərlərə qarşı bir növ sığortadır. Buna görə də, biomüxtəlifliyin qorunması strategiyalarında bu xalq təcrübələrinin nəzərə alınması qlobal ekoloji siyasətin uğuru üçün vacibdir.

Türk xalqlarının ənənəvi ekoloji bilikləri sadəcə keçmişin arxaik qalıqları deyil. Bu biliklər, insanın təbiətlə münasibətini mənəvi, hüquqi və praktik səviyyədə nizama salan mükəmməl bir sistemdir. Müasir ekoloji böhranlardan çıxış yolu təkcə texnoloji yeniliklərdə deyil, həm də bu qədim müdrikliyin yenidən kəşf edilməsindədir. Təbiətə müqəddəs bir əmanət kimi baxmaq, onun hər bir parçasını kiçik bir bitkidən tutmuş nəhəng meşələrə qədər qorumaq fəlsəfəsi, biomüxtəlifliyin gələcək nəsillərə ötürülməsi üçün ən sağlam təməldir. Bu irsin müasir elmi metodlarla birləşdirilməsi, həm regional, həm də qlobal səviyyədə təbiətin bərpasına və qorunmasına böyük töhfə verəcəkdir.

Nəticə

Türk xalqlarının minillik tarixi boyunca topladığı ənənəvi ekoloji biliklər, təbiətin və biomüxtəlifliyin qorunmasında həlledici rol oynamışdır. Bu araşdırma göstərir ki, qədim türklərin dünyaya baxışı sadəcə bir yaşayış tərzi deyil, həm də dərindən işlənmiş bir təbiət fəlsəfəsidir. Bu fəlsəfənin mərkəzində insanın təbiətin sahibi deyil, onun ayrılmaz və məsuliyyətli bir parçası olması ideyası dayanır. Mifoloji inanclardan başlayan, sufizmlə saflaşan və xalq adətləri ilə möhkəmlənən bu sistem, müasir ekologiya elminin təməl prinsipləri ilə tamamilə üst-üstə düşür.

Tədqiqat nəticəsində aydın olur ki, "Yer-Sub" inancı və təbiət obyektlərinə verilən müqəddəslik statusu, resursların israf edilməsinin qarşısında ən güclü mənəvi sədd olmuşdur. Heyvandarlıq və əkinçilik mədəniyyətində tətbiq olunan növbəlilik prinsipləri, torpağın münbitliyini qorumuş və yerli flora ilə faunanın təbii artımına şərait yaratmışdır. Xalq təqvimləri və meteoroloji müşahidələr isə insan fəaliyyətini təbiətin ritminə uyğunlaşdıraraq ekosistemə vurulan zərəri minimuma endirmişdir. Bu ənənəvi metodlar müasir dövrün "davamlı inkişaf" modelinin ən qədim və uğurlu nümunələridir.

Bu zəngin irs sadəcə keçmişə aid bir xatirə deyil, gələcək nəsillər üçün yaşanıla bilən bir dünya qurmağın açarıdır. Təbiəti qorumaqla bağlı formalaşmış xalq hikmətini müasir texnologiyalarla birləşdirmək, planetimizin bioloji müxtəlifliyini xilas etmək üçün ən sağlam yoldur. Mədəni kimliyin bir hissəsi olan bu ekoloji şuurun yenidən canlandırılması, həm milli, həm də bəşəri səviyyədə təbiətə olan münasibəti müsbət istiqamətdə dəyişdirəcəkdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Boratav, P. N. (2013). 100 soruda Türk halk edebiyatı. Bilgesu Yayıncılık.
Elçin, Ş. (2018). Halk edebiyatına giriş. Akçağ Yayınları.
Erdentuğ, N. (2014). Sosyal adet ve gelenekler. Kültür Bakanlığı Yayınları.
Ergin, M. (2017). Dede Korkut kitabı. Boğaziçi Yayınları.
Gökalp, Z. (2019). Türk medeniyeti tarihi. Ötüken Neşriyat.
Köprülü, M. F. (2016). Türk edebiyatında ilk mutasavvıflar. Alfa Yayınları.
Ögel, B. (2014). Türk mitolojisi (Cilt 1–2). Türk Tarih Kurumu Yayınları.
Ortaylı, İ. (2020). Türklerin tarihi (Cilt 1–2). Kronik Kitap.

TRADITIONAL ECOLOGICAL KNOWLEDGE OF TURKIC PEOPLES AND ITS ROLE IN BIODIVERSITY CONSERVATION

Asaf Rushanov

Traditional ecological knowledge of Turkic peoples, rooted in a millennium-old cultural heritage, exemplifies a perfect harmony with nature. This system is not merely observation but a philosophy that views nature as an inseparable part of life. Born from a synthesis of nomadic and sedentary lifestyles, these practices provide practical mechanisms for ecological balance. The "Yer-Sub" belief sanctified mountains, forests, and waters, creating a spiritual shield against resource waste.

Agricultural and pastoral communities directly aided biodiversity through rotational grazing and seasonal hunting bans. Amid today's global environmental crises, Turkic traditions such as preserving local plant varieties and using folk calendars for climate adaptation offer a vital knowledge base that aligns with scientific methods. Integrating this heritage with modern ecology is essential for both cultural continuity and environmental restoration.

Keywords: *Turkic peoples, ecological culture, biodiversity, nature conservation, traditional knowledge*

POSTMODERN ƏDƏBİYYATDA FOLKLOR İZLƏRİ: KAMAL ABDULLA HEKAYƏLƏRİ ƏSASINDA

Aytəkin Zeynalova
AMEA-nın Folklor İnstitutu
Doktorant
AMEA-nın Naxçıvan bölməsi
Kiçik elmi işçi
aytekinimanova14@gmail.com
https://orcid.org/0009-0001-8503-9443

Məqalədə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Kamal Abdullanın hekayə yaradıcılığı postmodernizm və folklorun sintezi kontekstində tədqiq olunur. Postmodernizm ənənəvi estetik prinsiplərin dekonstruksiyası, intertekstual münasibətlərin güclənməsi və mətnin çoxmənalılığının ön plana çıxması ilə səciyyələndirilir. Bu kontekstdə folklor yalnız arxaik yaddaşın daşıyıcısı kimi deyil, həm də yeni semantik konstruksiyaların formalaşmasında aktiv iştirak edən struktur komponent kimi çıxış edir. Tədqiqat obyektini təşkil edən "Parisin seçimi", "Sirri zəmanə", "Çəngəl çiçəyi", "Son gəliş" və "Xaron, mərhəmətli Xaron" hekayələrinin analizi göstərir ki, müəllif klassik mifoloji süjetləri və folklor motivlərini (yuxu, sakral rəqəmlər, metamorfoza, ölüm-keçid modeli və s.) postmodern poetikanın prinsiplərinə uyğun şəkildə yenidən qurur. Araşdırma nəticəsində müəyyən edilir ki, Kamal Abdullanın hekayələrində folklor elementləri yalnız estetik funksiya daşımır, əksinə, mətnin semantik yükünü müəyyənləşdirən əsas komponentlərdən biri kimi çıxış edir. Folklorun postmodern kontekstdə interpretasiyası reallıq–mif, zaman–məkan, həyat–ölüm kimi hadisələri dekonstruksiyasına xidmət edir və nəticə etibarilə mətnlərdə həqiqətin nisbi, dəyişkən və çoxmənalı olduğu ideyası elmi-nəzəri səviyyədə əsaslandırılır.

Açar sözlər: *postmodernizm, folklor, mifoloji motivlər, Kamal Abdulla, hekayə janrı, sakral simvollar.*

Giriş

"Keçən əsrin ikinci yarısında formalaşmış postmodernizm tarixi, sosial və milli kontekstlərdən asılı olaraq hərəkətlilik, elastiklik, misli görünməmiş "mühit"ə uyğunlaşmaq keyfiyyətləri nümayiş etdirən fəlsəfi, epistemoloji, elmi-nəzəri, estetik təsəvvürlər kompleksidir" (Quliyev, 2016). Postmodern ədəbiyyata aid örnəklərdə folklora aid olan bir çox mövzu və elementlərə rast gəlmək mümkündür. Azərbaycan ədəbiyyatında postmodern nümunələr yaratmış yazıçılar folklor nümunələrindən istifadə edərək bu nümunələrinin yeni bir baxış bucağından qiymətləndirilməsinə, yeni bir pəncərədən baxılmasına şərait yaratmışlar.

Postmodern ədəbiyyatda hekayə janrı müxtəlif zaman və məkanlarda hadisələrin sıx şəkildə əlaqələndirildiyi, çoxsaylı semantik struktura malik bədii mətnlər kimi çıxış edir. Hekayələr postmodern nümunələrin əsas xüsusiyyətlərindən biri olan interpretasiya üçün geniş imkanlar yaradır. Kamal Abdulla yaradıcılığında hekayə janrı öz əhəmiyyətli mövqeyini qorumaqdadır. Onun yaradıcılığında bu janr folklor yaddaşı ilə müasir bədii təfəkkürün sintez olunduğu xüsusi bir poetik model kimi çıxış edir. Bu baxımdan, "Parisin seçimi" hekayəsi seçilməkdədir. Bu hekayədə Zevs, Poseydon, Hera, Hermes, Afina, Afrodita, Apollon, Ares obrazları vardır ki, bu obrazlar bizə Homerin "İliada" eposundan tanışdır. Əslində hekayədəki hadisələr eposdakı hadisələrlə oxşar şəkildə davam edir. Bu oxşarlıq finalda pozulur, Paris öz seçimini bütün Asiyaya hökmran olmaq arzusunun riqqəti ilə qərara alır. *"Sabah!.. Sabah Hera Parisi tapacaqdı. Sabah qoca Priam Aidin səltənətinə yollanacaq, qəhrəman Hektor vaxtilə Prometeyin zəncirə çəkildiyi Qaf dağına qaçıb canını bu cür qurtaracaq, Paris isə öz arzusuna – Troyaya hökmran olmaq arzusuna, nəhayət ki, çatacaqdı."* (Abdulla, 2008, s. 30) Mifik mətndə isə Paris bunun əksinə qadın gözəlliyinin ovsunlayıcı təsiri altında verir və Afroditanı seçir. "Bu priyomla Kamal Abdulla tarix boyu baş verən kişi-qadın münasibətlərinə yeni baxış gətirir və almanı Afroditaya yox, ona güc vəd edən Heraya verdirir. Bu minvalla Parisi daha ağıllı qərar verməyə sürükləyir. Bu hekayədə Paris hakimiyyət varsa, hər şey var konsepsiyası ilə çıxış edir." (İsmayılova, 2019).

"Sirri zəmanə" hekayəsində yazıçı oxucunu xoşbəxt olmağın sirri ilə baş-başa qoyur. Hekayənin baş qəhrəmanı Fərhad Qürublu Səvvab Təbrizinin dəfələrlə oxuduğu əlyazmasına yuxusundan dik atılıb yenidən baxır və burada əvvəl görmədiyi məlumatlarla qarşılaşır. Bu hekayə zaman və məkan kontekstində inkişaf edir. Burada müxtəlif mifik və sakral ornamentlərdən istifadə olunmuşdur. *" ...Fərhad Qürublunun qulağına yavaşdan, amma təkidlə pıçıldadı ki, tez ol, dur ayağa, get yazı masasının üstündən Səvvab Təbrizinin iki gün əvvəl oxuduğun, özü də, guyaki, diqqətlə oxuduğun risaləsinin üzköçürməsini al əlinə, on dördüncü səhifədə aç və yuxarıdan yedinci sətri bir də oxu"* (Abdulla, 2020, s. 417) Nümunədən göründüyü kimi hekayədə 7, 14 kimi sakral məzmunlu, dini və mifoloji mənada əhəmiyyətli iki rəqəmdən istifadə olunmuşdur. Həmçinin yuxudan dik atılma, yuxuda ona məlumat verilməsi dastanlarda olan yuxu motivləri ilə eyniyyət təşkil edir. Folklorda da qəhrəmanlara yuxuda xəbərverici məlumatlar verilir və bu məlumatlar doğruluğu ilə qəhrəmana yol göstərir. Hekayədə də qəhraman bu yuxunun doğruluğu ilə yeni məlumatlar əldə edir və bu sirrə dost olduğu qənaətinə gəlir. *"Hekayənin qəhrəmanını sirr çəkir, lakin onun sufizmin qəlibləşmiş qayda və normalarına etinasızlığı, Xeybər babadakı Səvvab Təbrizini görməyə imkan vermir, yəni Xeybər babanın yeddi qapısından birini açа bilir"* (Məmməd, 2013)

"Çəngəl çiçəyi" hekayəsinin mətni, əsasən, postmodern və folklor kontekstində çoxqatlı bir mənaya malikdir. Əsərdə "ən qədim dil" axtarışı əslində postmodern düşüncəyə uyğundur. Bu axtarış həqiqətin sabit olmadığını, əksinə, şərhə açıq və nisbi olduğunu göstərir. Fironun apardığı təcrübə isə elmi obyektivlikdən uzaqdır və daha çox ideoloji bir uydurma kimi özünü göstərir. Uşaqların təsadüfən "bekos" sözünü deməsi dilin təbii deyil, sosial bir fenomen olduğunu sübut edir. Beləliklə, "ən qədim xalq" iddiası kimi böyük nəzəriyyələr dekonstruksiya olunur. Digər tərəfdən, Baş kahinin "insanlar çiçəkdir" fikri folklor və mifoloji təfəkkürə söykənir. Bu fikir hər şeyin canlı olduğunu qəbul edən animistik dünya modelini əks etdirir. Burada insan və təbiət arasındakı sərhədlər silinir, bir varlığın digərinə çevrilməsi, yəni metamorfoza motivi önə çıxır. Mətnin sonunda çiçəklərin insanlara, insanların isə çiçəklərə çevrilməsi bu mifoloji düşüncənin bədii ifadəsidir. Eyni zamanda, bu çevrilmə postmodern estetikanın reallıq və simvol arasındakı sərhədləri pozmaq prinsipini gücləndirir. Beləliklə, əsərdə folklorun qədim çevrilmə modeli ilə postmodernizmin həqiqəti parçalama və yenidən qurma meyli birləşdirilir. Nəticədə insan, dil və gerçəklik anlayışlarının sabit deyil, dəyişkən və şərti olduğu fikri ön plana çəkilir.

Kamal Abdullanın "Son gəliş" hekayəsi postmodern və folklor kontekstində insanın həyat–ölüm, varlıq–yoxluq kimi əbədi suallarını simvolik və çoxqatlı şəkildə təqdim edir. Mətndə Zərdüşt ilə kəndli arasında qurulan dialoq vasitəsilə həqiqətin sabit deyil, parçalanmış və nisbi olduğu göstərilir, hadisələr xronoloji ardıcıllıqdan çox yaddaş, xatirə və mif qatları üzərindən inkişaf edir ki, bu da postmodern təhkiyənin əsas xüsusiyyətidir. Ərmən obrazı isə mifoloji düşüncəyə uyğun olaraq Ölüm Allahının təcəssümü kimi çıxış edir və müxtəlif qiyafələrə düşərək klassik çevrilmə motivini reallaşdırır, burada insan və ilahi varlıq arasındakı sərhədlər silinir, hekayədə həyat və ölüm qarşıdurması da folklor düşüncəsinə xas dualist model üzərində qurulsa da, postmodern yanaşma ilə bu qarşıdurma dekonstruksiya edilir, belə ki, ölüm qorxulu son yox, insanın həyatdakı yerini anlama vasitəsinə çevrilir. Eyni zamanda Zərdüştün həm bilən, həm də bilməyən mövqedə təqdim olunması, bəzi məqamları izah etməməsi mətndə qeyri-müəyyənlik və açıq interpretasiya imkanları yaradır. Nəticə etibarilə hekayə folklorun arxaik mifoloji qatını postmodern düşüncənin çoxmənalılıq prinsipi ilə birləşdirərək insanın varlıq, yaddaş və ölüm qarşısındakı vəziyyətini simvolik və fəlsəfi müstəvidə ifadə edir.

Kamal Abdullanın "Xaron, mərhəmətli Xaron" hekayəsi həm postmodern, həm də folklor-mifoloji kontekstdə ölüm, keçid və insan taleyi məsələlərini təqdim edir. Əsərin mərkəzində duran Xaron obrazı qədim yunan mifologiyasındakı ölüləri o biri dünyaya aparan qayıqçı motivinə əsaslansa da, müəllif bu arxaik obrazı transformasiya edərək ona "mərhəmət" xüsusiyyəti qazandırır və beləliklə, klassik mif dekonstruksiya olunur. Folklor düşüncəsində ölüm sərhəd, keçid və taleyin dəyişməz nöqtəsi kimi qəbul edildiyi halda, bu hekayədə həmin sərhəd sabit deyil, dəyişkən və insanın daxili vəziyyəti ilə əlaqəli şəkildə təqdim olunur. Postmodern baxımdan isə əsərdə həqiqət və reallıq konkret deyil, çoxmənalıdır. Xaron həm mifoloji varlıq, həm də simvolik obraz kimi çıxış edir, onun mərhəməti isə ölüm anlayışını yenidən yozur və onu qorxulu son yox, müəyyən mənada "insani" bir keçidə çevirir. Bu yanaşma ilə müəllif həm böyük mifoloji hadisəni yenidən qurur, həm də oxucunu ölümə dair ənənəvi təsəvvürləri sorğulamağa kömək edir. Nəticə

etibari ilə hekayə folklorun arxaik ölüm mifini postmodern estetika ilə birləşdirərək həyat və ölüm arasındakı sərhədin nisbi və interpretasiyaya açıq olduğunu göstərir.

Nəticə

"Kamal Abdulla nə ideal obraz, nə də ideal qəhrəman axtarışında deyil. O, məlum fakt, hadisə və obrazları orijinal şəkildə incələmək (bəlkə də, heç vaxt eyndən belə keçməyən şəkildə və üsullarla) təsvir etmək ustasıdır. ("Gizli Dədə Qorqud", xanımın nağılı") və indiki ("Yarımçıq əlyazma", "Dəvə yağışı") və hətta gələcək zaman arasında əlaqələr tarixlə rəvayəti, faktla əfsanəni bir-birinə elə ciddi şəkildə bağlayır ki, bəzən onları bir-birindən təcrid edib differensisiya etməkdə çətinlik çəkirik. Kamal Abdulla nəsrində fantastika, folklor və mifoloji obrazlarla real obrazlar arasında yaradıcı harmoniya mövcuddur, lakin bu harmoniyanı duymaq, görmək və ona vurulmaq yalnız diqqətli oxucu üçün aydındır"(İsmayılova) Yekun olaraq qeyd etmək olar ki, Kamal Abdulla yaradıcılığında fantastika, folklor yaddaşı və reallıq arasında harmonik bir keçid mövcuddur. Yazıçı keçmişlə gələcək, faktla əfsanə arasındakı sərhədləri silərək, folklorun arxaik strukturunu modern insanın fəlsəfi tənhalığı, axtarışları və varlıq sualları ilə sintez edir. Bu isə onun hekayələrini sadəcə milli deyil, həm də bəşəri bədii-fəlsəfi dəyərə malik universal mətnlər səviyyəsinə qaldırır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Abdulla, K. (2008). Hekayələr. Bakı: Mütərcim, 189.

Abdulla, K. (2020). Seçilmiş əsərləri, 7 cilddə, II cild. Bakı: Mütərcim, 712.

İsmayılova, N. (2019, 7 avqust). Kamal Abdulla: Postmodernizmdən milli özünəməxsusluğa. https://edebiyyatqazeti.az

İsmayılova, N. Kamal Abdulla Azərbaycan intellektual Postmodern Nəsrinin əsas Azərbaycan yaradıcısı kimi. https://kamalabdulla.az

Quliyev, Q. (2016, 5 oktyabr). Postmodernizm və bədii ədəbiyyat. "525-ci qəzet"

Məmməd, T. (2013). Neosufizmin və postmodernizmin "Sirri-zəmanə"si https://kamalabdulla.az

FOLKLORE TRACES IN POSTMODERN LITERATURE: BASED ON THE STORIES OF KAMAL ABDULLA

Aytakin Zeynalova

This article examines the short stories of the prominent representative of contemporary Azerbaijani literature, Kamal Abdulla, within the context of the synthesis of postmodernism and folklore. Postmodernism is characterized by the deconstruction of traditional aesthetic principles, the intensification of intertextual relations, and the prominence of textual polysemy. In this context, folklore functions not only as a carrier of archaic memory but also as a structural component actively involved in the formation of new semantic constructions. The analysis of the stories "The Choice of Paris," "The Secret of Time," "The Fork Flower," "The Last Arrival," and "Charon, Merciful Charon" demonstrates that the author reconstructs classical mythological plots and folklore motifs (such as dreams, sacred numbers, metamorphosis, and the life–death transition model) in accordance with the principles of postmodern poetics. In this process, methods such as deconstruction, intertextuality, symbolic transformation, and narrative fragmentation play a crucial role. As a result, the original mythological meaning loses its stability, giving rise to a multilayered textual structure open to diverse interpretations. The study concludes that folklore elements in Kamal Abdulla's stories do not merely serve a decorative aesthetic function; rather, they act as key components determining the semantic load of the text. The reinterpretation of folklore in a postmodern context contributes to the deconstruction of binary oppositions such as reality–myth, time–space, and life–death, ultimately substantiating at a theoretical level the idea that truth in these texts is relative, fluid, and polysemous.

Keywords: *postmodernism, folklore, mythological motifs, Kamal Abdulla, short story genre, sacred symbols.*

NASİR MƏNZURİNİN "QARAÇUXA" ƏSƏRİNDƏ MİFOLOJİ ELEMENTLƏR VƏ İNSAN, ZAMAN, TALE KONSEPSİYASI

Aytən Vəlizadə
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Doktorant
aytenvelizade@mail.ru
https://orcid.org/0009-0007-2521-8822

Müasir Güney Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri Nasir Mənzuridir. O, yazıçı və ədəbi nəzəriyyəçi kimi doğma türkcəni silsilə kitablarında elmi baxımdan araşdırır, həm də Tehranda yaşayaraq ana dilində hekayə, povest və romanlar yazır, dilimizin incəliklərinə vaqif olan lirik-epik təhkiyə ustası kimi tanınır.

Yazıçı Səxavət Sahil Nasir Mənzuri yaradıcılığı haqqında yazır: "Cənubi azərbaycanlı yazıçı Nasir Mənzurinin "Avava" (Tehran, 2005) romanından əvvəl, onun 1994-cü ildə yazdığı "Qaraçuxa" (Tehran, 1994) adlı kiçikhəcmli romanını oxumuşdum. Əsərin üslubuna və təhkiyəsinə heyran olmuşdum. İlk baxışdan sadə görünən struktur romanın oxunuşunu asanlaşdırsa da, oxuduqca dərin qatlara enib, müəllifin mürəkkəb qələm texnologiyasının və peşəkarlığının şahidi oldum. Gözlədiyimə əks olaraq cənublu qardaşımız məni öz oxucusuna çevirmişdi". (Səxavət Sahil, 2016). Onun əsərləri və tədqiqatları qabaqcıl qərb nəzəri bazasına, ingilisdilli semiotikaya söykənərək yeni yanaşmaları ilə oxucunu dərindən düşündürür. Azərbaycan folkloruna maraq, öz uşaq yaddaşındakı türkcə söz bazasının davamlı təhlili onun yaradıcılığında ayrıca xətt təşkil edir. Bu xüsusiyyətlər onun bədii əsərlərinə də təsirsiz ötüşməmişdir. Onun " Son nağıl, son əfsanə", "Qaraçuxa", "Həpirim-Hüpürüm", "Avava", "Oyunum-oyunum" əsərləri ədəbiyyatımızın dəyərli nümunələrindəndir.

Nasir Mənzurinin "Qaraçuxa" əsəri Azərbaycan nəsrinin ən dərin nümunələrindən biri kimi oxucusunu ilk səhifədən son səhifəyə qədər bir sehrli aləmə aparır. Əsər bir qatar səfərinin təsvirindən başlayır, lakin bu yolçuluq sadə bir fiziki yerdəyişmə deyil, içə doğru bir səfər, yaddaşın, nisgilin, torpaq sevgisinin dərinliklərinə enişdir. (Əliyev, 2013)

"Qaraçuxa" əsəri təkcə Nasir Mənzurinin öz qələminin yox, bütün müasir Azərbaycan nəsrinin ən parlaq əsərlərindəndir. Məqalədə "Qaraçuxa" konsepsiyası və Azərbaycan folklorunda, xalq təfəkküründəki yeri araşdırılır. Eyni zamanda insan və təbiət vəhdəti, insanın özünüdərk və mənəvi saflaşması, insan və tale kimi məsələlərə toxunulur.

Açar sözlər: *nəsr, mifologiya, tale, folklor, kimlik*

Giriş

Nasir Mənzurinin "Qaraçuxa" povesti mifoloji elementlərin bədii mətnə transformasiyası baxımından aktual olan əsərlərdən biridir. Müəllif əsərdə insan, zaman, tale anlayışlarını vəhdətdə verərək oxucunu passiv müşahidəçidən aktiv iştirakçıya çevirir. Əsərin əvvəlindən hiss olunur ki,təsvir olunan qatar yalnız bir nəqliyyat vasitəsi deyil. Miyana dayanağından Şeyx Səfi istiqamətinə gedən qatar zamanın özünün bir simvoludur. Pəncərədən baxan qəhrəman, ya da oxucu, çünki Mənzuri ikinci şəxs müraciəti ilə ("sən") oxucunu bilavasitə hekayənin içinə çəkir. Şəhərin işıqlarını, dağların qaranlığını, qatarın "ta-ta-tax" səsini hiss edir. Bu səs hər bir qaranlıq qapını açır, dalbadal xatirələri yenidən canlandırır, oxucunu heyrətə gətirir.

Ucaboy Kamalın obrazı vasitəsilə Mənzuri dəmiryolunun bir xalqın tarixindəki yerini göstərir. Kamal qatar yolunun yolçusu olmuşdu, Təbrizdən Tehrana, Tehrandan Təbrizə ayaqlarını sürütləyə-sürütləyə gedərdi. Onun gedişi başa çatmayan bir gediş idi. Bu obraz müasir insan həyatının özünə bənzəyir: daim yolda, daim axtarışda, heç vaxt mənzilə çatmyan.

Əsərin adını daşıyan "qaraçuxa" obrazı adi bir insan deyil. Qəhrəmanın gecənin zülmətində Şeyx Səfi dayanacağında endikdən sonra rastlaşdığı bir qoca şəxs, qaraçuxa kimi, yəni gecənin xeyir ruhuna bənzər qaranlıqda yol gedən, amma zərər verməyən, əksinə, adamı özünə cəzb edən bir varlıqdır. Mənzuri xalq inanclarına istinad edərək izah edir ki, gecənin xeyir-şəri olur. Qaraçuxa gecənin xeyirindən yaranmış bir keşikçidir. Filologiya elmlər doktoru Rəhim Əliyev "Yazıçı və alim Nasir Mənzuri" adlı

məqaləsində yazır: *"Əsərin adı onun folklor örnəklərinə bağlılığını göstərir. " Qaraçuxa" dilimizdə bir çox mənalarda işlənir. Çuxa arxalıq, çiyinə salınan uzun geyimdir. Qara sözünə qoşulanda yeni mənalar yaranıb. Onlardan biri yatan, dönən bəxt mənasındadır. "Qaraçuxası yatıb" ifadəsi də burdandır. Mənzurinin povestindəki "qaraçuxa" sözü isə mifik məna daşıyır. Həmin mif povestdə nəql olunur*" (Əliyev, 2013).

Əsərdə Qaraçuxa obrazı İlqar əmi ilə eyniləşdirilir. İlqar əmi ilk görünüşdə sadə bir dağ adamı kimi təsvir olunur, lakin söhbət dərinləşdikcə məlum olur ki, o bir sürgündən qalanın timsalıdır. Özünün sözlərinə görə: *"Mən bir sürgündən qalmışam"* (Əliyev, 2013, s. 42). İki sürgün yaşamış bu ağsaqqalın dili vasitəsilə Mənzuri tarixin ağır yükünü – maralların sürgününü, insanların sürgününü və xatirələrin sürgününü – bütün dərinliyi ilə ortaya qoyur.

*Qaraçuxa*da Nasir Mənzuri həm xalq həyatının bilicisi, həm incə psixoloq, həm də xalqın mifik və folklor fantaziyasından yaradıcı şəkildə qidalanan bir yazıçı, eyni zamanda etnoqrafizmə meyilli bir müəllif kimi təqdim olunur. Əsərin ən güclü leytmotivlərindən biri torpaqla bağlı fəlsəfəsidir. İlqar əmi torpağa sanki canlı bir varlıq kimi yanaşır: torpağın danışan çağ olduğunu və yaz gəldikcə öz-özünə açıldığını, tanış bir iy verərək insanın üzünə gülümsədiyini ifadə edir. Bu torpaq fəlsəfəsi yalnız kəndli düşüncəsi deyil, insanla yer arasındakı ilkin, unudulmuş əlaqənin poetik ifadəsidir (Əliyev, 2013).

Mənzurinin qəhrəmanı dünyanın harasına getsə getsin, hər yerdə torpağın qoxusu burnunda, havası başındadır. Əsərdə qeyd olunur ki, *"İlqar əmi bu torpaqda quylanmış bir insandır. Dünyadan yorulanda bu torpaq yadına düşür, boğulanda üzünə sərin hava dəyər. Torpaq onun üçün məlhəm kimidir. Mənzuri bununla oxucunu bir sual qarşısında qoyur: biz bu torpaqla əlaqəmizi nə vaxt itirdik? Nə vaxt şəhərləşdik, kökümüzdən qopduq?"* (Cənubi Azərbaycan tarixi, II cild, 2013, s. 87).

Əsərin əsas qəhrəmanı İlqar əmi həm ömür, həm də yaddaşı sözlər şəklində bilən insandır. Savadsız görünməsinə baxmayaraq, o təbii müdrikliyin özüdür və misilsiz bir fəhmə malikdir. Bu fəhmlə o torpaq, su, iylər və bitkilərin səsini eşidir, onlara özünəməxsus adlar qoyur. Povestdə əsas mövzu insan və təbiət arasındakı əlaqədir (Əliyev, 2013).

Əsərdə həmçinin Qurban bayramı günü öküzün kəsilməsi epizodu diqqət çəkir. İlqar əminin dili ilə verilən təsvir torpağa axan qanın illər boyu yerin canında qalmasını göstərir. Yaz açılanda və qarlar əridikdə də o qanın iyinin yerin canından çəkilməməsi, torpaqla insanın qan qardaşlığının simvoludur.

Sürgün mövzusu əsərdə müxtəlif qatlarda işlənir: maralların sürgünü, insanların sürgünü və Gülnazın faciəsi bir-birinə hopmuş şəkildə təqdim olunur. Gülnaz obrazı, cəmi bir neçə yaşlı qız olaraq, Qanbahalıq dövründə yaşanan dəhşətlərin ortasında heç kim tərəfindən tanınmadan həyatını itirir. Mənzurinin qələmində o, unudulmuş və sahibsiz tarixlərin simvoluna çevrilir. Nadir Əzhəri əsəri dramatik roman kimi təsnif edir və yazır: *"'Qaraçuxa' dramatik bir romandır, olaylar şərh edilmir, olaylar gerçəkləşir və nağılın sonu təyin olunur, amma romanın sonu yarımçıq buraxılır. Oxucu olaraq, bir romanı qurtardıqdan sonra bəzən onun olaylarını və xarakterlərini öz həyatınız kimi xatırlayarsınız"* (Əzhəri, 2010, s. 112).

İlqar əmi tarixin son şahididir. O, ömrünü son günlərində öz şərtlərinə uyğun yaşayır, su ilə yuyunur, torpağa namaz qılır və gecəni hiss edir. Onun təsviri taleyin qurbanı və ya gücsüz biri kimi deyil, hər şeyi anlamış, hər şeyin qədrini bilən bir insan kimi verilir.

Mənzurinin təhkiyəsi *Qaraçuxa*da xüsusi və unikaldır. İkinci şəxs müraciəti oxucunu passiv mövqedən çıxarır və hekayənin içinə çəkir: *"Sən qatar mindin, sən endin, sən İlqar əmini gördün"* (Cənubi Azərbaycan tarixi, II cild, 2013, s. 92). Bu texnika həm oxucu ilə yaxınlıq yaradır, həm də kollektiv yaddaşa müraciət edir.

Əsərin dil zənginliyi də diqqətəlayiqdir. Povestdə 60-dan çox arxaik söz, xalq deyimi və coğrafi ad qeyd olunur: *"sayxaşlanmaq"* – xəlvətlənmək; *"uyuf"* – yön hissi; *"lala"* – Şumercədə şənlik, bolluq. Hər söz bir mədəniyyət qırıntısını qoruyur (Cənubi Azərbaycan tarixi, II cild, 2013, s. 95).

Qaraçuxa roman deyil, bir nəğmədir – torpağa, yaddaşa və itmiş insanlara yazılmış həzin bir nəğmə. Nasir Mənzuri Cənubi Azərbaycanın dağlarını, dərələrini və insanlarını o qədər dərindən təsvir edir ki, hər cümlə sanki torpağın içindən süzülüb çıxmış saf, soyuq və ürək yandıran suya bənzəyir. İl-

qar əminin son sözləri əsərin mahiyyətini ifadə edir: köç – doğuşdan ölüməcən uzanan taleyin yolu, yazıçı isə bu yolu sürgün adı ilə təqdim edir. Sürgün, daimi köçərilik bu torpaqdadır; sürgün adamın canındadır, onun ən qədim instinktidir. Biz hərəmiz bir şeydən sürgün olmuşuq – biri torpaqdan, digəri yaddaşdan, o biri isə özündən.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Əliyev, R. (2013). Yazıçı və alim Nasir Mənzuri. https://avanqard.net/rehim-eliyev-yazici-ve-alim-nasir-menzuri/n
2.Əzhəri, N. Qaraçuxa dramatik bir roman.https://avavaa.wordpress.com/2010/10/07/qaracuxa-dramatik %E2%80%8C%E2%80%8Cbir-roman-f%C9%99lak%C9%99tl%C9%99rd%C9%99n-fakt/
3. Cənubi Azərbaycan tarixi (XX əsr). (2013). (II cild). Bakı: Qanun nəşriyyatı.
4. Mənzuri, N. Qaraçuxa. Bakı: "OL" MMC.
5. Səxavət Sahil. Cənubda Ədəbi proses. 18 iyul, 2016.
6. https://kulis.az/xeber/sexavet-sahil/yazarlar/xeber-15605

MYTHOLOGICAL ELEMENTS AND THE CONCEPTS OF HUMAN, TIME, AND FATE IN NASIR MANZURI'S "GARACHUKHA"

Aytan Valizade

One of the prominent representatives of contemporary South Azerbaijani prose is Nasir Manzuri. As both a writer and a literary theorist, he scientifically investigates the native Turkish language in a series of books while simultaneously producing short stories, novellas, and novels in his mother tongue despite living in Tehran. He is recognized as a master of lyrical-epic narration with a profound command of the subtleties of the Azerbaijani language.

Writer Sakhavat Sahil comments on Nasir Manzuri's literary works as follows: "Before reading the novel "Avava" (Tehran, 2005) by the South Azerbaijani writer Nasir Manzuri, I had read his short novel "Garachukha" (Tehran, 1994), written in 1994. I was fascinated by the style and narration of the work. Although the seemingly simple structure facilitated the reading process, as I progressed deeper into the text, I witnessed the author's complex literary technique and professionalism. Contrary to my expectations, our southern compatriot had turned me into one of his readers" (Sakhavat Sahil, 2016). His literary works and scholarly studies, grounded in advanced Western theoretical frameworks and English-language semiotics, encourage readers to engage in profound reflection through innovative approaches. His deep interest in Azerbaijani folklore and his continuous ana lysis of the Turkish lexical heritage preserved in his childhood memory constitute a distinct line within his creative work. These characteristics are also strongly reflected in his literary texts. His works such as "The Last Tale, The Last Legend", "Garachukha", "Hapirim-Hupurum", "Avava" , "Oyunum-Oyunum" are regarded as valuable examples of Azerbaijani literature.

Nasir Manzuri's Garachukha is considered one of the most profound examples of Azerbaijani prose, carrying the reader into a magical world from the first page to the last. The work begins with the description of a train journey; however, this journey is not merely a physical movement through space, but rather an inward voyage into memory, longing, and the deep attachment to homeland (Aliyev, 2013).

Garachukha is not only one of the finest works produced by Nasir Manzuri himself, but also one of the brightest achievements of contemporary Azerbaijani prose as a whole. This article explores the concept of "Garachukha" and its place within Azerbaijani folklore and folk consciousness. At the same time, it addresses such themes as the unity of human beings and nature, self-realization and spiritual purification, as well as the relationship between human destiny and fate.

Keywords: *prose, mythology, fate, folklore, identity*

XX ƏSRİN ƏVVƏLLƏRİ TÜRKÜSTAN İNTİBAHINDA TƏVALLO YARADICILIĞININ YERİ VƏ ROLU

Aysun Cəbrayılova
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Kiçik elmi işçi
aysun.cebrayilova@icloud.com
https://orcid.org/0009-0005-9306-500X

Məqalədə XIX əsrin sonu – XX əsrin əvvəllərində türk xalqlarının mənəvi həyatında mühüm yer tutan Cədid hərəkatının görkəmli nümayəndələrindən biri, özbək şairi və publisisti Təvallonun (Tolaqan Xocamyarov) həyat və yaradıcılıq yolu tədqiq olunur. Tədqiqatda müəllifin milli oyanış, maarifçilik və azadlıq ideyalarının formalaşmasındakı rolu, xüsusilə "Rəvnəqul-islam" adlı şeir toplusu və "Müştüm" jurnalındakı satirik fəaliyyəti işıqlandırılır. Məqalədə Təvallonun ictimai-siyasi baxışları, cəmiyyətdəki cəhalət və laqeydliyə qarşı mübarizəsi təhlil edilir, onun yaradıcılığı ilə böyük Azərbaycan satiriki Mirzə Ələkbər Sabir irsi arasında ideya yaxınlığı müqayisəli şəkildə nəzərdən keçirilir. Həmçinin, şairin 1930-cu illərin repressiya qurbanı olması və müstəqillik dövründə onun ədəbi irsinin öyrənilməsinin əhəmiyyəti vurğulanır.

Açar sözlər: *Cədidçilik, Təvallo, Türküstan intibahı, milli oyanış, Özbək ədəbiyyatı, satira, "Rəvnəqul-islam", repressiya.*

Giriş

XIX əsrin sonu – XX əsrin əvvəlləri türk xalqlarının həyatında köklü dəyişikliklərlə xarakterizə olunur. Əsas məqsədi milli kimliyi dirçəltmək və xalqı cəhalətdən azad etmək olan Cədid hərəkatı əvvəlcə Tatarıstan, Krım və Buxarada meydana gəlmiş, daha sonra isə Türküstan ərazisinə yayılmışdır. Bu gün cədidlərin irsi müstəqil Özbəkistanın mənəvi həyatında, təhsil sistemində və milli özünüdərk prosesində mühüm rol oynayır. Mahmudxoca Behbudi, Münəvvərqari Əbdürəşidxanov, Abdulla Avlani, Əbdürrauf Fitrət, Çolpan, Sədrəddin Ayni və Feyzulla Xocayev kimi şəxsiyyətlər bu hərəkatın əsas nümayəndələri olmuşlar. Cədidçilik hərəkatı yeni ziyalı nəslinin yetişməsinə rəvac verməklə, türk xalqlarının bir növ mədəni intibahına çevrildi. Bu intibah dövrün ədəbiyyatında və ziyalıların yaradıcılığında da geniş təzahür etdi.

Həmin dövrün yetişdirdiyi görkəmli simalardan biri də Təvallo (Tolaqan Xocamyarov) olmuşdur. Təvallo 1883-cü ildə Daşkəndin Kokça məhəlləsində ziyalı ailəsində anadan olmuşdur. O, əvvəlcə köhnə üsullu məktəbdə – Daşkənddəki Bəylərbəyi mədrəsəsində, daha sonra isə rus məktəbində təhsil almışdır. Təhsil illərində dövrünün tanınmış şairləri ilə ünsiyyətdə olmuş, məşhur özbək şairi Y. Saryaminin şagirdi olmuşdur. 1900–1910-cu illərdə Osmanbəy Salihcanbəyoğlunun yanında, 1910–1917-ci illərdə isə müxtəlif ticarət qurumlarında çalışmışdır. 1910-cu ildən etibarən mətbuatda müəlliminin ona verdiyi "Təvallo" təxəllüsü ilə bədii nümunələr dərc etdirmiş və bu adla da oxucu yaddaşında yer tutmuşdur. Təvallo 1914-cü ildə 12 nəfərlik heyətlə "Nəşriyyat" adlı mərkəz yaradaraq kitab nəşrinə başlamışdır.

Arxiv materialları, xüsusilə "Cinayət işi" sənədlərindəki qeydlər göstərir ki, 1915-ci ildə Abdulla Əvlaninin təşəbbüsü ilə yaradılan "Turan cəmiyyəti"ndə fəaliyyətə başlayan Təvallo burada müxtəlif vəzifələr icra etmişdir. Elmi və ədəbi irsi cədidçilik ideyaları əsasında formalaşan və 1905-ci ildən bu hərəkata qoşulan şair, yaradıcılığını dövrün mətbu orqanları vasitəsilə geniş kütləyə çatdırmışdır. Onun 1914-cü ildə işıq üzü görən "Səbzəvar" adlı şeir toplusu poetik dünyasının ilk sistemli ifadəsidir. 1916-cı ildə nəşr olunan "Rəvnəqul-islam" toplusu isə şairin sağlığında çap edilmiş yeganə kitabıdır. Təvallonun bədii nəsr nümunələrinə dövrün mətbuat səhifələrində rast gəlinsə də, bu əsərlər ayrıca kitab halında toplanmamışdır. O, 18 fevral 1923-cü ildə fəaliyyətə başlayan Türküstan mətbuatının ilk karika-

tur-satirik nəşri olan "Müştüm" jurnalında yaxından iştirak etmiş, satirik şeirlərini "Məğzava" təxəllüsü ilə oxuculara təqdim etmişdir. Lakin bu nümunələr sonradan sistemli şəkildə araşdırılmamışdır.

Şairin bədii irsinin ideya-estetik xüsusiyyətlərini müəyyənləşdirməkdə "Rəvnəqul-islam" toplusu əsas istinad mənbəyidir. Cəmi 70 şeirin daxil edildiyi bu toplunu müəllif "Milli şeirin ilk yüzlüyü" adlandırmışdı. Bu ad şairin gələcəkdə toplunun növbəti cildlərini tərtib etmək niyyətindən xəbər verirdi, lakin bu arzu reallaşmadı. Kitabın yaranma tarixi isə müəllifin elə həmin topluya daxil etdiyi "Rəvnəqul-islam kitabının tarixi" şeirində öz əksini tapmışdır:

Tarix dedi: Gördüm Təvallonu, qeyrətli bir insan gəldi cahana,
Adı dillər əzbəri oldu, şöhrəti yayıldı hər bir yana.
Məqsədi, məramı o oldu ki, xalqa sevinc, səfa gətirsin,
Gəlişiylə şad oldu hər kəs, xoş bir insan gəldi bu dövrana.
Səxavətli, xoşxasiyyət, həm pak qəlbli, həm zəkalı idi,
Xeyirxahlıqda Hatəmi-tay tək, məşhur oldu bu cahanda.
Sidqi, divanın ortasından götür hicri ilin tarixini,
Yaz tezcə: "Bəh-bəh, necə gözəl mənzərə gəldi dünyaya!" (1335 h.) (Раҳмонова, 2021, s. 197).

Şeirin sonunda qeyd olunan tarix əsərin hicri 1335-ci ildə (miladi təqvimlə təxminən 1916–1917-ci illərə uyğun gəlir) qələmə alındığını göstərir. Bu xronoloji göstərici toplunun məhz XX əsrin əvvəllərində tərtib edildiyini təsdiqləyir.

Təvallo da digər cədidçi ziyalılar kimi, xalqın maariflənməsini və milli şüurun formalaşmasını fəaliyyətinin başlıca qayəsi hesab edirdi. Şairin yaradıcılığında azadlıq ideyası mərkəzi yer tutur; o, fərdi və milli azadlığı hər şeydən üstün tuturdu. Təvallo ədəbiyyat tariximizdə, əsasən, 1910-cu illərdə milləti qəfildən oyadan, azadlığa və ədalətə səsləyən poetik nümunələri ilə tanınmışdır. Bu şeirlər yeni özbək poeziyasının təşəkkülündə mühüm bir mərhələ təşkil edir. Müəllifin aşağıdakı misraları onun məramını kifayət qədər təsirli şəkildə ifadə edir:

Əgər bu gün millətin inkişafını istəyirsinizsə,
Qeyrətinizi göstərin, həmrəy olun, aranıza fitnə salmayın.

Yolunuz insaf olsun, dünyada bizim kimi geri qalan varmı?
Bütün millətlər arasında tərəqqi baxımından geridəyik.

Neçələri yüksəlib tərəqqi zirvəsinə ucaldı,
Biz niyə qalxmırıq? Yoxsa biz zəifik?

Şairin "Dünya gedişinə bir nəzər" adlı qəzəlindən götürülmüş bu beytlər "Rəvnəqul-islam" toplusunda (s. 46–47), həmçinin "Sədayi-Türküstan" qəzetinin 19 aprel 1914-cü il tarixli 6-cı sayında dərc olunmuşdur. Təvallo əsərlərinin çoxunda arxaikləşmiş adət-ənənələri və milli geriliyi tənqid atəşinə tutur, hər kəsi dövrün tələblərinə uyğunlaşmağa və köklü dəyişikliklərə çağırırdı. Onun yaradıcılığının əsas qaynağı çağdaş ictimai-siyasi hadisələr idi. Müəllif bu topluda müxəmməs, mürəbbə, müsəddəs, qəzəl və məsnəvi janrlarında satirik ruhlu əsərlər ərsəyə gətirmişdir. Onun şeirləri klassik poetik sistemə əsaslansa da, ruhu və məzmunu baxımından tamamilə yenidir. Şairin satirik irsini mövzu baxımından aşağıdakı kimi təsnif etmək olar:

- İctimai həyat hadisələrini əks etdirən şeirlər;
- Qadın hüquqlarını müdafiə edən satirik nümunələr;
- Mənfi məişət hadisələrini təsvir edən şeirlər;
- Mətbuatın ictimai rolu haqqında əsərlər;
- Dini mövzularda yazılmış satirik şeirlər. (Raxmonova, 2024, s. 89)

Təvallo yaradıcılığının nüvəsini ictimai həyatın təsviri təşkil edir. Məsələn, "Bəxtsiz millət" adlı müxəmməsində o, mənəvi dəyərlərin aşınmasını satirik dillə belə ifadə edir:

Ağalar qul oldu, bu dövrdə qullar ağa oldu,
Elm sahibləri divanə, nadanlar isə müdrik sayıldı.

Həqiqət çırağı sönüb, doğru yolun nuru itib,
Qızıl qədəh sındı, yerini paslı dəmir tutdu.
Təəccüblənməyin, hər şey tənəzzül edəndə "dəyərli" olur!

Şair bu şeirin hər bəndində ictimai iyerarxiyanın və dəyərlər sisteminin alt-üst olduğunu vurğulayır.

Təvallonun 1913-cü ildə "Ayna" jurnalının 6-cı sayında *"Türküstanlı qardaşlarıma açıq müraciət" adlı publisistik məqaləsi işıq üzü görmüşdür. Mətbuatın ictimai hərəkatdakı rolunu yüksək qiymətləndirən müəllif qeyd edirdi ki, Türküstan xalqı zamanla ayaqlaşmalı, "Ayna" jurnalı kimi platformalar vasitəsilə fikir mübadiləsi apararaq milli tərəqqiyə xidmət etməlidir. O, eyni zamanda bəzi mətbu orqanların öz missiyasını tam yerinə yetirmədiyini, milləti oyatmaq işində kifayət qədər fəal olmadığını tənqid edirdi.* (Karimov, 1995, s. 229)

Şairin yaradıcılığında "vətən" və "millət" anlayışları mərkəzi semantik qatları təşkil edir. Onu xüsusilə millətin gələcək taleyi düşündürürdü və bu ümidli düşüncələrin təsiri ilə silsilə müxəmməslər qələmə alırdı. Müəllifin "Öz vicdanımın vücuduma xitabı" adlı şeiri bu baxımdan diqqətəlayiqdir. "Ey əlim, pul tutma, əgər millətə yardım etmirsənsə..." misrası ilə başlayan bu müxəmməs ilk dəfə 1915-ci ildə "Sədayi-Fərqanə" qəzetinin 121-ci sayında "Vücudumdan bir rza" başlığı ilə dərc edilmiş, daha sonra isə müəllifin "Rəvnəqul-islam" toplusuna (s. 7-9) daxil edilmişdir. Şeirin ilk bəndi şairin öz qəlbinə, fikrinə və gözünə müraciəti ilə başlayır. Müəllif millətə xidmət etməyən vücudu dəyərsiz hesab edir, bədii sözü isə xalqın müdafiə vasitəsi kimi görür:

Ey əlim, pul tutma, əgər millətə yardım etməsən,
Susma, ey könlüm, millətin dərdinə yanmasan.
Parlama, ey gözüm, yaşın tökülüb islatmasa,
Açılma, ey fikrim, şeirinlə onu müdafiə etməsən.
Çıx içimdən, canım, əgər mənə həmdəm olmasan.

Səkkiz bənddən ibarət olan bu müxəmməsdə "Çıx içimdən, canım, əgər mənə həmdəm olmasan" misrası rədif funksiyasını daşıyaraq əsərin emosional təsir gücünü artırır:

Deyirlər, sus, Təvallo, şeirlər qəbul olunmaz,
Millət məhv olsa belə, bunlara qəm olmaz.
Şorba, plov, narını yeyib, çay içsələr bəs olar,
Sonra hər iki çiyninə vursalar da, dinməzlər.
Çıx içimdən, canım, əgər mənə həmdəm olmasan.

Şair "Sus, Təvallo" müraciəti vasitəsilə həqiqəti söyləyən ziyalılara qarşı təzyiqləri, fikir azadlığının məhdudlaşdırılmasını və cəmiyyətdəki laqeydliyi tənqid edir. Bu motiv Azərbaycan ədəbiyyatının görkəmli satiri M.Ə. Sabirin yaradıcılığı ilə səsləşir. Sabir öz məşhur şeirində millətin problemlərinə biganə qalan tipajların daxili aləmini belə ifşa edirdi:

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karim,
Dünyavü cahan ac olur olsun, nə işim var?!
Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın...
Tək-tək ayılan varsa da, həq dadıma çatsın,
Mən salim olum, cümlə cahan batsa da batsın,
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Hər iki şair "nə işim var?!" yaxud "sus" kimi ifadələrlə şəxsi rifahını milli maraqlardan üstün tutan zümrəni kəskin tənqid edir, oxucunu bu ətalətə qarşı mübarizəyə səsləyir.

Təvallonun irsinin qorunması istiqamətində son illərdə mühüm addımlar atılmışdır. Onun qəzəl, müxəmməs, mürəbbə, satirik məqalə və felyetonlarının toplandığı *"Ey vətən, əziz vətən"* adlı kitabı

2021-ci ildə Özbəkistan Yazıçılar Birliyinin *"İjod" ("Yaradıcılıq")* ictimai fondunun dəstəyi ilə nəşr edilmişdir. 248 səhifəlik bu fundamental toplunun tərtibçisi Dildora Rəhmanova "Millətin inkişafı sənin əlinlə..." başlıqlı ön sözündə qeyd edir: "Təvallonun ədəbi irsini öyrənmək borcumuzdur". O, həmçinin vurğulayır ki, Aybək və Həmid Alimcan kimi klassiklərin əsərlərində Təvallo yaradıcılığına xüsusi önəm verilmişdir.

Aybək "Uşaqlıq xatirələrim" əsərində şair haqqında yazırdı: *"Eyvanda oturub Təvallonun şeirlərini oxumağa başlayıram... Bu şeirlər mənə çox təsir edir... Oxuyuram, diqqətlə və həyəcanla oxuyuram".* (Alimcan., 1982, s. 147). Həmid Alimcan isə öz tədqiqatlarında cədid dövrü poeziyasından bəhs edərkən Təvallonun xüsusi yerini vurğulayaraq qeyd edirdi: *"Cədid dövrü ədəbiyyatının əsas hissəsini poeziya təşkil edirdi. Bu dövrdə ən məhsuldar müəlliflər Təvallo və Sidqi Əczi idi... Təvallonun dili sadəliyi ilə seçilir və xalq dilinə çox yaxın idi".*

2021-ci il nəşri olan "Ey vətən, əziz vətən" kitabı altı bölmədən ibarətdir. Kitabın birinci bölməsində müəllifin milli oyanış və azadlıq ideyaları ilə zəngin qəzəlləri toplanmışdır. Digər bölmələrdə mürəbbe, müxəmməs və müsəddəs janrında yazılmış materiallar yer alır. Nəşrin mühüm hissəsini təşkil edən "Təvallo həcviyyatı" bölməsində şairin felyetonları, etiraz məktubları və cavab məqalələri təqdim olunur. Şairin redaktora ünvanladığı adsız bir felyetonu müəlliflə ifşa etdiyi din xadimi (Müəllim) arasındakı dialoq üzərində qurulmuşdur. Şair həmin yazıda savadsız və laqeyd din xadiminə belə xitab edir:

Dedim: *Yaşınız yetmiş beşi keçib, gözünüz yazını zorla görür, ayağa qalxa bilməniz üçün 2 nəfər yardım etməlidir. Yüzdən çox şagirdə necə dərs verirsin iz!?*

Müəllimin rəngi dəyişdi, gözləri böyüdü və dedi: Sən mənim dərs dediyim məktəbə getməmisən deyəsən. Getsəydin belə deməzdin.

Dedim: *İki-üç dəfə gəlmişəm. Sizi isə üzü qibləyə uzanıb yatmış görmüşəm, şagirləriniz isə biri həyəti süpürür, digəri pambıq təmizləyir, hərəsi bir işlə məşğul idi. Biraz sonra gözlərinizi ovuşdurub oyanıb soruşdunuz: "Günortadır?"*

Dedim: *"Saat 11-dir, namaz vaxtına var hələ, oturun biraz söhbət edək. Ya sinifləri bölün, yada məsciddə imam olun. Bir gənc müəllim götürün, məktəbi, şagirdləri ona həvalə edin".*

Müəllim dedi: *Mən məscidə gecikmirəm, camaatdan 1saat əvvəl orda oluram.*

Dedim: *Bir saat əvvəl gedirsiniz, namazdan sonrada 1 saat məsciddə otururşunuz. Bəs bu yüz şagirdin halından kim xəbər tutacaq?!*

Müəllim dedi: *Şagirdlərin valideynləri maraqlansın, sənə nə!?*

Dedim: *Başqa məscidlər təmiz və səliqəlidir, niyə sizin məscidlərdə quşlar yuva salıb çirkləndirir?Bunları deyəndə Müəllim yenidən yuxuya getdi. Məndə dözməyib oradan ayrıldım. Bunu qəzetlərə verdim ki, qoy oxucular belə Müəllimləri tanısın* (Раҳмонова, 2021, s. 169;171).

Bu dialoq Təvallonun yaradıcılıq qayəsini – cəmiyyətin inkişafına mane olan laqeydliyi və köhnəlmiş təhsil mühitini ifşa etmək məqsədini aydın göstərir. Analoji satirik yanaşmaya "Müştüm" jurnalının 1 avqust 1924-cü il tarixli sayındakı "Daşkənddə" başlıqlı yazıda da rast gəlinir. Şair "Məğzava" imzası ilə yazdığı bu mətndə tamahkar mollaların bir qazan aş üçün bir-birinə girməsini və imamın buna verdiyi riyakar reaksiyanı tənqid edir.

Kitabın "Təvallo haqqında xatirələr" bölməsində Bəyalı Qasımov, Naim Kərimov və Nəsrulla Dövranın yazıları yer almışdır. Görkəmli alim Naim Kərimov müstəqillik dövründə sovet repressiyası qurbanlarının taleyini öyrənmək üçün geniş imkanların yarandığını, lakin bu imkanlardan hələ də kifayət qədər istifadə edilmədiyini təəssüflə qeyd edir.

1930–1950-ci illər bir çox türk xalqları kimi özbək xalqının tarixində də repressiya və faciələr dövrü kimi qalmışdır. Təvallo bu keşməkeşli illərdə öz cəsarətli fikirlərini "Müştüm", "Sədayi-Türküstan", "Səmərqənd" kimi mətbu orqanlarda nəşr etdirirdi. Onun "Müştüm" jurnalına ünvanladığı müraciət şeiri mətbuatın gücünə olan inamını göstərir:

"Müştüm" çırağım, de mənə: necə yaşıyırsan?!
Hamıya lənət oxuyub, düşmən qazanırsan.
Dəyənə dəyib, dəyməyənə susursan, niyə belə?
Xülasə, sakit otur, niyə həmişə narartsan.
Əgər kimsə sənə rast gəlsə, onu molla edərsən.
Hər kimsə üsyankar olsa, sən onu özünə bağlayarsan.
Birgün qara palto, sabah başqa,
Paltonu hər həftə haradan geyinirsən,
Utanma, nə görürsənsə yaz,
Yoxsa bu gün fürsətini itirəcəksən.
Yaxşı dostum, gördüklərini qələmə al,
Biz bilirik, sən hər yerdə olursan...

Dövrün bəzi tənqidçiləri şairin bu kəskin yazılarını onun şəxsi həyat tərzi ilə əlaqələndirməyə çalışsalar da, əsl səbəb onun azadlıqsevər ruhu idi. Nəticədə, Təvallo "xalq düşməni" ittihamı ilə 10 noyabr 1937-ci ildə güllələnmə hökmünə məhkum edildi. Yalnız 18 oktyabr 1969-cu ildə ona bəraət verildi. Şairin məzarı bu gün də naməlum olaraq qalmaqdadır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Alimcan,H. (1982). Mükəmməl əsərlər toplusu. I cild: Tədqiqat və məqalələr. Özbək sovet ədəbiyyatı məsələləri, I cild. Təşkənd, Fan nəşriyyatı.
2. Karimov, N. (1995). Aybək. Uşaqlıq xatirələrim.Daşkənd, "Ədəbiyyat və sənət".
3. Raxmonova,D. (2024). Poetik mazmun yangilanishidaindividual ijodiy tafakkurning o'rni(Tavallo adabiy merosi misolida). Uzbekistan," Language and Culture".
4. Раҳмонова, Д. (2021). тавалло. Эй Ватан, эзгу Ватан. Тошкент, "Adabiyot".
5. Раҳмонова, Д. (2021). тавалло. Эй Ватан, эзгу Ватан. Тошкент, "Adabiyot".

THE PLACE AND ROLE OF TAVALLO'S LITERARY CREATIVITY IN THE TURKESTAN RENAISSANCE OF THE EARLY TWENTIETH CENTURY

Aysun Jabrayilova

The article examines the life and literary activity of Tavallo (Tolaqan Khujamyarov), one of the prominent representatives of the Jadid movement in the late 19th and early 20th centuries. The research highlights the author's role in the national awakening and the formation of national identity among Turkic peoples. Special attention is paid to his poetic collection "Ravnaq-ul-islam" and his satirical works published in the "Mushtum" journal. The study analyzes Tavallo's social and political views, his critique of ignorance and social indifference, and the ideological parallels between his work and other great satirists of the East, such as Mirza Alakbar Sabir. Furthermore, the article discusses the tragic end of the writer's life during the period of Stalinist repressions and the significance of his literary heritage in the modern era of independence.

Keywords: *Jadidism, Tavallo, Turkestan Renaissance, national awakening, Uzbek literature, satire, "Ravnaq-ul-Islam", repressions.*

AZADƏ RÜSTƏMOVANIN TƏDQİQATLARINDA FƏLƏKİ ŞİRVANİ İRSİNİN TƏHLİLİ

Nərmin Rzayeva
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Doktorant
Qərbi Kaspi Universiteti
Müəllim
rzayeva.nk@gmail.com
https://orcid/org/0009-0001-5826-3829

Bu məqalə XII əsr Azərbaycan ədəbiyyat mühitinin aparıcı simalarından biri olan Fələkî Şirvaninin poetik irsini, tanınmış tədqiqatçı Azadə Rüstəmovanın araşdırmaları prizmasından təhlil edir. Tədqiqatın əsas diqqət mərkəzi şairin yaradıcılığını formalaşdıran sosial-mədəni və tarixi şərait, Şirvan saray mühiti, dövrün ədəbi ənənələri və müasir poetik zövq sistemi üzərində cəmlənmişdir. Nəticələr göstərir ki, Azadə Rüstəmovanın elmi töhfələri Fələkî Şirvaninin ədəbi irsinin elmi və obyektiv təhlilinə yeni perspektivlər açır.

Açar sözlər: *XII əsr ədəbiyyatı, Azadə Rüstəmova, Fələki Şirvani, qəsidə poetikası, klassik irs.*

Giriş

Milli ədəbi-bədii düşüncənin ayrı-ayrı inkişaf mərhələləri, bu mərhələləri təmsil edən ədəbi şəxsiyyətlərin həyatı, yetişdiyi ədəbi-mədəni mühit, yaradıcılıq irsi ətrafında aparılan elmi axtarışların sistemli və ardıcıl xarakter alması, elmi konsepsiya halında işlənib hazırlanması ədəbiyyat tarixçiliyinin üzərinə düşən mühüm və təxirəsalınmaz vəzifələrdən biridir. Görkəmli ədəbiyyatşünas alim Azadə Rüstəmovanın ədəbiyyat tarixi ilə bağlı araşdırmalarında ədəbi şəxsiyyətlərin həyatı, mühiti, yetişdiyi icimai-tarixi şərait onların yaradıcılıq irsi ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilir. Bu baxımdan Rüstəmovanın əsərləri klassik ədəbiyyatın həm estetik, həm də ictimai-fəlsəfi qatlarını paralel şəkildə açmaq baxımından xüsusi əhəmiyyət daşıyır. Alimin Nizami Gəncəviyə qədərki ərəfədə yaşayıb-yaradan sənətkarlardan biri olan Fələki Şirvanin həyatı və yaradıcılığı haqqında qələmə aldığı məqalələrdə və mini-monoqrafiya hesab oluna biləcək kitabda dövrün, ictimai-tarixi şəraitin, ədəbi həyatın mənzərəsi barədə geniş təsəvvür yaradılır, mövcud boşluqları dolduran, həm də onun ədəbi-bədii irsini daha aydın şəkildə müəyyənləşdirən elmi-nəticələr irəli sürülür. XII əsr Azərbaycan şeirinin aparıcı simalarından biri olan Fələki Şirvaninin həyat və yaradıcılığından bəhs edən məqalədə Azadə Rüstəmova şairin ədəbiyyat tarixində tutduğu yeri və mövqeyi belə müəyyənləşdirir: *"XII əsr Azərbaycan şeiri Məhsəti xanım, Xaqani Şirvani, Nizami Gəncəvi kimi görkəmli nümayəndələri ilə fəxr edir. Bu dövr poeziyasının zəngin səmalarında parlayan bir ulduz da Məhəmməd Fələki Şirvanidir. Fələki Şirvani orijinal yaradıcılıq xüsusiyyətlərinə malik olan istedadlı şairdir. Feodal sarayında xidmət etməsinə baxmayaraq, Fələki öz yaradıcılığının ruhu etibari ilə xalqa bağlı olan, öz yaradıcılığında həyatı, canlı insanın hiss və həyəcanlarını əks etdirən bir sənətkardır. Fələkinin şeirləri dünyəvi hissləri tərənnüm edir. Orada tərənnüm olunan coşğun, fədakar məhəbbət, dərin insanpərvərlik ideyalarından qidalanan məhəbbətdir."* (Rüstəmova, 1961, s. 67) Şübhə yoxdur ki, bu fikirlər Fələki Şirvaninin yetişdiyi dövr və ədəbi mühit haqqında konkret mənbələrə istinadən irəli sürülür. Biz bir çox ədəbiyyat tarixçilərinə müyəssər olmayan klassik poetik mətnlərlə və onun təfsir və şərhini verən mənbələrlə işləmək bacarığını burada xüsusi olaraq nəzərə çatdırmaq istərdik. Bu, artıq Azadə Rüstəmovanın klassik irsin tədqiqində xüsusi bir sahə olan mətnşünaslıq fəaliyyəti barədə də bəhs etməyə kifayət qədər əsas verir. Fars dili və filologiyası üzrə ixtisaslaşan müəllifin bu xüsusda irəli sürdüyü qənaətlər professional bir baxış və yanaşmanı əyani şəkildə nümayiş etdirir.

Məhəmməd Fələki Şirvaninin anadan olduğu yer, nisbə haqqında məlumat verərkən tədqiqatçı-alim "əlimizdə olan mənbələr" ifadəsini elə-belə təsadüfi olaraq işlətmir, farsdilli mənbənin orijinalından çıxış edərək mülahizələrini irəli sürür: *"Əlimizdə olan mənbələr Fələkinin Şamaxıda*

anadan olduğunu göstərir. Orta əsr tarixçisi Həmdüllah Mustovfi şairi "Fələki Şirvani" adlandırır. "Tarixe rozidə"nin ardınca "Təzkirətüş-şüəra, "Atəşgədə", "Məcməül-füsəha" müəllifləri və başqa təzkirə sahibləri də bu fikri təsdiq edirlər. Fələkinin Şirvandan olması mülahizəsini şairin öz divanında olan bir beyt daha da möhkəmləndirir. Qəsidələrinin birində şair Şirvana işarə edərək. orada anadan olduğunu belə söyləyir:

Əslim bu ölkədəndir, lakin
Bu ölkədə heç bir dostum yoxdur (Rüstəmova, 1961, s. 67)

"Fələki şeirinin bədii xüsusiyyətləri" adlı məqalədə Azadə Rüstəmova şairin yaradıcılığının sənətkarlıq sirlərini açmağı qarşıya bir məqsəd kimi qoyur, Şərq poetik ənənələrindən yaradıcı şəkildə faydalanan şairin orijinal bir yaradıcılıq nümunəsi hesab edilən əsərlərinin məharətlə incələnməsinə nail olur.

Tədqiqatçı Fələki Şirvani yaradıcılığını bir qədər əvvəl adı çəkilən Hadi Həsənin redaktorluğu ilə nəşr olunan divanı əsasında təhlil etməyə təşəbbüs göstərir, divanın təsviri ilə bağlı belə bir kiçik məlumatı nəzərə çatdırır: *"Əlimizdə Fələkinin 1929-cu ildə Londonda nəşr edilmiş, cəmi 1197 beytdən ibarət bir divanı mövcuddur. Fələkinin bu divanını təşkil edən əsərləri əsasən qəsidələrdən ibarətdir. Lakin burada şairin qəzəlləri, tərkib-bəndləri, habelə qitə və rübailərindən də nümunələr vardır"* (Rüstəmova, 1967, s. 81).

Müəllif Fələki şeirinin səciyyəvi xüsusiyyətlərindən bəhs edərkən onun ənənəvi şeir şəkillərində orijinal fikir çələngləri ilə süslənmiş nümunələr yaratmaq qabiliyyətini xüsusilə təqdir edir və belə bir cəhdin gerçəkləşməsini təmin edən vasitələr üzərində geniş təsəvvür yaratmağa nail olur: *"Fələki şeiri, hər şeydən əvvəl, öz yüksək bədii xüsusiyyətləri ilə nəzəri cəlb edir. Şairin bədii təfəkkür dairəsi geniş və zəngindir. Şərq klassik poeziyasının bir çox şəkli xüsusiyyətləri Fələki yaradıcılığında özünəməxsus bir şəkildə, yeni bir tərəvət kəsb edərək işlənir. Fələki divanının demək olar ki, hər bir beyti yüksək sənətkarlıqla qələmə alınmışdır."* (Rüstəmova, 1967, s. 81)

Saf və ülvi məhəbbətin tərənnümü, həsrət və vüsal dəmi Fələki Şirvaninin poeziyasının əsas tərənnüm obyektidir. Məqalədə aşiqin və məşuqun keçirdiyi duyğusal anların poetik ifadəsində nəzərə çarpan yeniliklər də kifayət qədər geniş təhlil olunur. Belə ki: *"Fələkinin təsvirində məşuqənin nə bənizi, nə də boyu tərifləmir. Şair heç onların adını belə çəkmir. Onların haqqında təsəvvürü "mah" və "sərv" anlayışları yaradır. Şair məşuqənin üzünün təsvirini vermək üçün aydınlıq, gözəllik rəmzi olan ayın obrazından, boyunun surətini yaratmaq üçün isə ucalıq və zəriflik rəmzi sərvin obrazından istifadə edir. Beytdə "mah" və "sərv" istiarədir."Mah"ın arxasında məşuqənin üzü, "sərv"in arxasında isə, boyu durur."* (Rüstəmova, 1967, s. 83) Gətirilən bu nümunələr məqalədə Fələki Şirvaninin yaradıcılığına məxsus sənətkarlıq xüsusiyyətləri: fikrin poetik obrazlıqla ifadə imkanları, dilin bədiilik çalarlarından geniş şəkildə yararlanmaq və istifadə manerası haqqında bitkin və hətərəfli təsəvvür yarada bilir. Fələki Şirvaninin həyat və yaradıcılığı, əsərlərinin bədii məziyyətləri və sənətkarlığı, tədqiq və araşdırma tarixi barədə qələmə alınan bu silsilə məqalələr təxminən iyirmi beş il sonradan – 1986-cı ildə nəşr olunan "Fələki Şirvani" adlı kitabda ayrı-ayrı bölmələr kimi verilmişdir. Əlbəttə, kitabın nəşrinin uzun bir müddətdən sonra gerçəkləşməsi bir qədər təəccüb doğursa da, hər halda şairin həyatı və yaradıcılığı haqqında ilk təşəbbüs kimi mühüm əhəmiyyət daşıyırdı. Kitabın başlanğıc hissəsində Azadə Rüstəmova böyük tarixi yaradıcılıq ənənələrinə malik Azərbaycan ədəbiyyatının bir çox tanınmış nümayəndələrinin yaradıcılıq irsinin öyrənilməsindəki boşluqları, əsərlərinin nəşri məsələsinə istənilən səviyyədə diqqət və qayğının göstərilməməsini nəzərə çatdırır. Və Xaqani Şirvani, Nizami Gəncəvi kimi böyük söz ustalarının müasiri olan Fələki Şirvaninin adını onlarla bir sırada çəkir, poetik istedadını yüksək qiymətləndirərək yazır: *"Azərbaycan ədəbiyyatı miniillik tarixi olan möhtəşəm bir xəzinədir. Klassik poeziyamızda hələ həyatı və yaradıcılığı öyrənilib şərh edilməmiş, əsərləri öz xalqına çatdırılmamış sənətkarlarımız az deyil. Onların bədii irsini, xüsusən bu irsin mütərəqqi cəhətlərini layiqincə, müasir ədəbi-estetik tələblərlə həmahəng, yüksək fikri səviyyədə tədqiq və intişar etmək hələ də Azərbaycan ədəbiyyatşünaslığı qarşısında şərəfli bir vəzifə kimi durur. Bu gün irsinin öyrənilməsi və nəşri vacib olan söz ustalarından bir də böyük Niza-*

minin müasiri, XII əsr Azərbaycanının digər görkəmli şairi Əfzələddin Xaqaninin dostu və məsləkdaşı Fələki Şirvanidir" (Rüstəmova, 1980, s. 4).

"Fələki Şirvani" kitabçasının nəşrindən təxminən 25-27 il sonra AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı altıcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin "XI-XII əsrlər Azərbaycan ədəbiyyatı" fəslində "Fələki Şirvani" oçerki Azadə Rüstəmovaya həvalə olunmuşdur. Alimin Fələkinin lirikasından bəhs edərkən gəldiyi qənaət mühüm maraq doğurur: *"Fələkinin ictimai lirikası narazılıq, şikayət lirikasıdır. Bu lirikada mübarizlik, gerçəkliyin kəsirlərinə qarşı fəal mövqedən çıxış etmək cəhdləri yoxdur. Şair hətta özünümüdafiədə belə acizdir, nicatı ümiddə görür və təəssüf ki, yalnız ömrünün sonlarına yaxın yanıldığını, ümid ilə məqsədə çatmağın bir xülya, ilğım olduğunu duyur..."* (Rüstəmova, 2007,s. 399)

Alimin Fələki yaradıcılığı barədə qənaətlərini belə ümumiləşdirə bilərik:

- Fələki "Divan"ındakı qəsidə və tərcibəndlərin mədh hissələri XII əsr Azərbaycanına, Şirvanşahlar tarixinə işarələrdir.
- XI-XII əsr Azərbaycan ədəbiyyatında dünyəvi şerin inkişaf mərhələlərini izləmək üçün Fələki lirikası maraqlı material verir
- Fələki ictimai lirikası narazılıq, şikayət lirikasıdır. Bu lirikada mübarizlik yoxdur.

Beləliklə, Azadə Rüstəmovanın tədqiqatları Fələki Şirvaninin poetik irsinin həm məzmun, həm də mənəvi-fəlsəfi dərinlik baxımından yenidən dəyərləndirilməsinə şərait yaradır. XII əsr farsdilli Azərbaycan klassik ədəbiyyatının Fələki Şirvani, Əfzələddin Xaqani Şirvani və Nizami Gəncəvi kimi parlaq ədəbi simaları Azadə Rüstəmovanın ədəbiyyat tarixi istiqamətli araşdırmalarında bir mərhələ yaradan sənətkarlar kimi yüksək dəyərləndirilir, onların sonrakı yüzilliklərin yaradıcılıq təcrübəsinə əsaslı şəkildə təsir göstərdikləri ardıcıl şəkildə nəzərə çatdırılır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Rüstəmova A. Fələki Şirvaninin həyat və yaradıcılığı haqqında, Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, 1961, №4, s. 67

2. Rüstəmova A. Fələki şeirinin bədii xüsusiyyətləri, Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, 1967, № 7, s. 81

3. Rüstəmova A. Fələki Şirvani, Bakı: "Elm", 1980, 80 s.

4. Rüstəmova A. Fələki Şirvani (oçerk) Azərbaycan ədəbiyyatı tarixi, altı cilddə, ikinci cild, Bakı, "Elm" 2007, 631 s

ANALYSIS OF FALAKI SHIRVANI'S HERITAGE IN AZADA RUSTAMOVA'S RESEARCH

Narmin Rzayeva

This article analyzes the poetic heritage of Falaki Shirvani, one of the leading figures of the 12th-century Azerbaijani literary milieu, through the lens of the research conducted by the prominent literary scholar Azada Rustamova. The primary focus of the study centers on the socio-historical conditions that shaped the poet's creative output, the Shirvan palace environment, the literary traditions of the era, and the contemporary system of poetic taste. The findings demonstrate that Azada Rustamova's scholarly contributions open new perspectives for a scientific and objective analysis of Falaki Shirvani's literary oeuvre.

Keywords: *12th-century literature, Azadə Rüstəmova, Falaki Shirvani, qasida poetics, classical literary heritage.*

AZƏRBAYCAN VƏ KƏRKÜK MUSİQİSİNDƏ MAHNI PARALELLƏRİ

Əminə Məmmədova
AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
Elmi işçi
aminamiryusifor@gmail.com
https://orcid.org/0009-0004-4368-3208

Türk dünyasının musiqi mədəniyyəti zəngin və çoxşaxəli struktura malikdir. Bu mədəni mühitdə Azərbaycan və Kərkük bölgəsinin musiqi ənənələri xüsusi yer tutur. Hər iki regionun musiqi irsi, xüsusən də xalq mahnıları ortaq tarixi köklər və etnomədəni əlaqələr baxımından diqqəti cəlb edir.

"Ne bağ duydu, nə bağbançı" mahnısı ortaq musiqi irsinin bariz nümunəsidir. Mahnı həm Azərbaycan, həm də Kərkük musiqi mühitində geniş tanınır.

Kərkükdə ifa olunan "Kərkükün al alması" mahnısı Azərbaycan xalq mahnısı "Qubanın ağ alması" ilə eyni melodik struktura malikdir. Bu, ortaq bir melodik modelin regionlar arasında yayılmasını göstərir. Digər bir ortaq nümunə isə "Yeri yeri küsmüşəm sənnən" mahnısıdır. "Qızım səni verəyim" adlı deyişmə xarakterli mahnı isə folklorun dialoq formasını əks etdirən maraqlı nümunədir. Azərbaycan və Kərkük musiqi ənənələri arasındakı oxşarlıqlar onların ortaq tarixi və etnomədəni köklərə malik olduğunu təsdiqləyir.

Xalq mahnıları bu ortaq irsin əsas daşıyıcıları kimi çıxış edir və müxtəlif regional variantlarda yaşamağa davam edir. Bu cür müqayisəli tədqiqatlar türk dünyasındakı musiqi əlaqələrinin daha dərindən dərk edilməsi və mədəni irsin qorunub saxlanılması üçün böyük əhəmiyyət kəsb edir.

Açar sözlər: *Azərbaycan xalq mahnıları, Kərkük mahnıları, ortaq mahnılar, musiqi irsi, mahnıların müqayisəli təhlili*

Giriş

Türk dünyasının musiqi mədəniyyəti zəngin və çoxşaxəli struktura malikdir. Bu mədəniyyət daxilində Azərbaycan və Kərkük bölgəsinin musiqi ənənələri xüsusi yer tutur. Hər iki regionun musiqi irsi, xüsusilə xalq mahnıları, ortaq tarixi köklər və etno-mədəni əlaqələr baxımından diqqəti cəlb edir.

Müasir musiqişünaslıqda xalq yaradıcılığının, xüsusilə şifahi ənənəyə əsaslanan musiqi nümunələrinin müqayisəli şəkildə öyrənilməsi mühüm elmi istiqamətlərdən biri hesab olunur. Bu baxımdan Azərbaycan və Kərkük xalq mahnılarının müqayisəli təhlili yalnız musiqi baxımından deyil, həm də mədəni identiklik və tarixi əlaqələrin araşdırılması baxımından aktuallıq kəsb edir

Məqalədə Azərbaycan və Kərkük musiqi nümunələri, xüsusilə xalq mahnıları janrı çərçivəsində araşdırılmış, onların melodik quruluşu, məqam xüsusiyyətləri və mətn strukturu müqayisə edilmişdir. Folklor materialları, notlaşdırılmış mənbələr və ifa ənənələri nəzərə alınaraq müqayisələr aparılmışdır.

Azərbaycan və Kərkük musiqi ənənələrinin müqayisəli təhlili göstərir ki, hər iki mədəniyyətin xalq mahnıları arasında mühüm oxşarlıqlar mövcuddur. Bu oxşarlıqlar onların ortaq etnik mənşə və tarixi inkişaf prosesləri ilə bağlıdır.

Xalq mahnıları milli-mədəni identikliyin formalaşmasında mühüm rol oynayır. Onlar xalqın tarixi yaddaşını, sosial münasibətlərini və estetik dünyagörüşünü əks etdirən əsas folklor janrlarından biridir. Yazılı ənənənin zəif inkişaf etdiyi dövrlərdə yaranan bu nümunələr şifahi şəkildə ötürülərək zamanla zənginləşmişdir.

Bu kontekstdə **"Ne bağ duydu, nə bağbançı"** mahnısı ortaq musiqi irsinin bariz nümunəsidir. Mahnı həm Azərbaycan, həm də Kərkük musiqi mühitində geniş yayılmışdır. Mahnının Kərkük variantı Anadolu aşıq musiqisinə, Azərbaycan variantı isə Şirvan aşıq musiqisinə yaxıdır. Bu mahnının Azərbaycan Şirvan aşıq mühitinin nümayəndəsi Aşıq Şakir yaradıcılığına məxsus olduğu

qeyd olunur. Kərkük elində də mahnı xüsusilə saz alətinin müşayiəti ilə oxunur. Azərbaycan variantında isə mahnı Şirvan aşıq musiqisinə özəl olaraq daha ritmik və oynaq havadır, saz, balaban və ritm alətinin müşayiəti ilə ifa olunur. Mahnıya aşıqlarla yanaşı bir çox ifaçılar da müraciət etmişlər. Üzeyir Hacıbəylinin lad nəzəriyyəsinə əsasən isə mahnı Şur ladına əsaslanır. İfaçılar bu saz havasını "Nə bağ bildi, nə də bağban" sözləri ilə ifa edir. Mahnının sözləri 4 misralı 8 hecalı gəraylı aşıq şeiri formasına əasaslanır.

Səhər Səhər bağa girdim 2
Nə bağ bildi, nə də bağban. 2
Əl uzadıb bir gül dərdim, 2
Nə bağ bildi, nə də bağban. 2
Bağın bərəsindən aşdım 2
Süsən sünbülə dolaşdım 3
Oynadım güldüm danışdım 2
Nə bağ bildi, nə də bağban.
Dedim bu əcəb yerdi,
Çiçəkləri tazə tərdi.
Yarım mənə busə verdi
Nə bağ bildi, nə də bağban. 2

Kərkük variantında mahnı daha fərqli ritmdə, Kərkük xalq mahnılarına özəl $\frac{10}{8}$ ölçüdə ifa olunur. Mahnı Nəriman Altındağ Tüfəkçi, müasir ifaçılardan Orhan Haklamaz, Oğuz Aksaç və başqaları tərəfindən ifa olunub. Bu mahnı eyni zamanda müasir rok musiqisi üslubunda da ifa olunmuşdur.

İrak türkman havları toplusunda mahnının türk lad sisteminə görə Hüseyni məqamına əsaslandığı qeyd olunur. (Turhan S. İrak türkman havları. Ankara 2012, s.281). Salih Turhan tərəfindən mahnının nota yazılması elmi tədqiqat üçün mühüm baza yaradır.

Kərkükdə ifa olunan Mahnının sözləri belədir:

Bir gün bir bağa girdim
Nə bağ duydu ne bağvançı 3
El attım bir gül dərdim
Günax boynuva bağvançı

Bağvanam kürək vurram
Küregi zirək vurram
Yarı adı gələndə,
Diskinnem ürək vurram.

Bağvanam bağ gezerem
Avçıyam dağ gəzərəm.
Xaxın tehnə sözünnən,
Yardan uzağ gəzərəm.

Kərkük variantıda isə 7 -8-7-8 heca bölgüsündə olan bayatı şeiri şəklindədir.

Beləliklə, mahnının sözləri ortaq, melodik quruluşu isə fərqlidi. Kərkük və Azərbaycan mahnılarının müqayisəsi zamanı belə nümünələrə çox rast gəlinir.

Kərküklü ifaçıların repertuarnda yer alan **"Kərkükün al alması"** mahnısı Azərbaycan xalq mahnısı "Qubanın ağ alması" ilə eyni melodik struktura malikdir. Bu fakt melodik modelin regionlar arasında yayılmasını göstərir. Mahnının türk lad sisteminə görə Nihavənd məqamına əsaslanması qeyd olunur. (S. Turhan, "İrak Türkman havaları". Ankara, 2012. s. 265) Nihavənd maqamında qurulması onun Şərq musiqi sisteminə aid olduğunu təsdiqləyir. "Qubanın ağ alması" mahnısnın yaranma tarixi dəqiq olmasa da, mahnının ilkin orjinal variantı Azərbaycanda yaranıb. Bu mahnı Kərkükdən başqa İğdır bölgəsində "İğdırın al alması" sözləri ilə də oxunur. Mahnı Üzeyir Hacıbəylinin lad nəzəriyyəsinə əsasən re mayəli Bayatı Şiraz ladına əsaslanır. Mahnı seksta intervalı aralığında enən və qalxan melodik quruluşa malik kuplet nəqarat formasındadır. Mahnının nəqarat hissəsi enən sekvensiyavari quruluşdadı. Bu mahnı Azərbaycanda və Kərkükdə sevilərək oxunan xalq mahnılarındandı.

Ortaq mahnılardan olan digər bir mahnı isə **"Yeri yeri küsmüşəm sənnən"** mahnısıdır. Mahnının Kərkük və Azərbaycan variantlarına nəzər salaq. Ümumiyyətlə bu mahnının Azərbaycan variantında həm adı həm də sözləri fərqli oxunulur. Azərbaycan xalq mahnısı kimi bu mahnı "Ay dilbər", Yeri ha, yeri ha, küsmüşəm səndən, "Gəlirə, gedirəm xəbərin olsun" adı ilə tanınır. Mahnının poetik mətni, hər misrası 11 hecadan ibarət 4 misralı qoşma şeir şəklindədi. Qoşma şeir şəkli Azərbaycan aşıq ədəbiyyatında ən yayılmış şeir şəklidi.

Gəlirəm, gedirəm xəbərin olsun! 2
Gümüş piyalələr meyillə dolsun, a dilbər! 2
Yeri ha, yeri ha küsmüşəm sənnən 2
Ayrılıq şərbətin içmişəm səndən, a dilbər! 2

Sən bir sərv ağaçı, mən bir göyərçin 2
Əcəb qonmuş idim, uçmuşam səndən, a dilbər! 2
Yeri ha, yeri ha küsmüşəm sənnən 2
Ayrılıq şərbətin içmişəm səndən, a dilbər! 2

Azərbaycan variantında Kərkük variantından fərqli olaraq mahnının sözlərində musiqiyə uğun şəkildə, musiqi fikrinin tamamlanması üçün, hər misranın sonunda a dilbər sözü əlavə edilmişdir.

Mahnı Bülbülün ifasında fonovalikə və nota köçürülmüşdür. Mahnının not yazısı Səid Rüstəmovun "Azərbaycan el mahnıları" məcmüəsində verilimişdir. (Rüstəmovun S. Azərbaycan xalq mahnıları" Bakı, 1967, s. 44).

Mahnının Azərbaycan variantı Şövkət Məmmədova, Bülbül, Alim Qasımov, Mənsum İbrahimov və bir çox dəyərli muğam ifaçıları tərəfindən ifa olunmuşdur. Azərbaycan variantında mahnının melodiyası Rast məqamına əsaslanır. Sözlər ayrılıqdan bəhs etsə də mahnıda nikbin ruhlu melodiya və Rast məqamına xas gümrahlıq vardır. Kərkük variantında isə mahnının sözləri belədir:

Yeri, yeri yeri küsmüşəm sennen
Ayrılıq badəsin içmişəm əldən 2
Sen bir serv ağacı mən bir göğerçin
Helbet qonup qonup uçmuşam sennen. 2

Mənim yarım incələrdən incədir
Evlərinin dörd tərəfi qonçadır. 2
Yeri, yeri yeri küsmüşəm sennen,
Ayrılıq badəsin içmişəm əldən. 2

Mahnı Salih Turhan tərəfindən nota yazılmış, mənbəsinin isə Abdurrahman Kızılay olduğu göstərilmişdir. (S. Turhan, "İrak Türkman havaları". Ankara, 2012. s. 369). $\frac{10}{8}$ ölçüsündə olan bu mahnı Segah məqamındadır. Mahnının Kərkük variantı azərbaycanlı xanəndə Zümrüd Məmmədova tərəfindən ifa olunmuşdur. Bu mahnının Kərkük və Azərbaycan variantları eyni sözlər, fərqli melodiyalar və hətta fərqli ladlar üzərində ifa olunur.

"Qızım səni verəyim" adlı deyişmə xarakterli mahnı isə folklorun dialoq formasını əks etdirən maraqlı nümunədir. Bu mahnının həm Kərkük, həm də Azərbaycan variantlarının mövcudluğu janrın ümumtürk musiqi məkanında yayılmasını göstərir.

Kərkük variantında ata və qız arasında dialoq formasında təqdim olunan mətn sosial münasibətləri və ailə dəyərlərini əks etdirir. Azərbaycan variantında isə daha qısa və emosional ifadə forması müşahidə olunur. Bu fərqlər regional üslub xüsusiyyətləri ilə izah edilə bilər.

Təqdim olunan nümunələr göstərir ki, xalq mahnıları həm melodik, həm də poetik baxımdan transformasiyaya uğrasa da, öz əsas struktur xüsusiyyətlərini qoruyub saxlayır.

Aparılan müqayisələr təhlillər nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan və Kərkük mahnıları arasındakı oxşarlıqlar müxtəlif musiqi və poetik xüsusiyyətlərdə özünü göstərir. Bu baxımdan həmin mahnıları üç əsas qrupa bölmək lazımdır.

1.Sözləri və melodiyası tamamilə eyni olan mahnılar

2. Melodiyası eyni, lakin mətn xüsusiyyətləri fərqli olan mahnılar.

3. Mətn baxımından eyni və ya oxşar melodik quruluş etibarilə isə fərqlənən mahnılar.

Bundan əlavə bəzi Kərkük mahnılarnın Azərbaycan ifaçılarının repertuarında yer aldığı, eyni zamanda Azərbaycan mahnılarının Kərkük ifaçılar tərəfindən ifa olunduğu müşahidə edilir. Bu xüsusiyyət Azərbaycan və Kərkük musiqi ənənələri arasında qarşılıqlı mədəni əlaqələrin və ortaq musiqi irsinin mövcudluğunu göstərir.

Beləliklə, Azərbaycan və Kərkük musiqi ənənələri arasında mövcud olan oxşarlıqlar onların ortaq tarixi və etnomədəni köklərə malik olduğunu təsdiqləyir.

Xalq mahnıları bu ortaq irsin əsas daşıyıcıları kimi çıxış edir və müxtəlif regional variantlarda yaşamaqda davam edir. Bu isə folklorun dinamik və dəyişkən təbiətini göstərir.

Bu cür müqayisəli tədqiqatlar türk dünyasındakı musiqi əlaqələrinin daha dərindən dərk edilməsi və mədəni irsin qorunub saxlanılması üçün böyük əhəmiyyət kəsb edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Ariz Abduləliyev (tərtibçi) (2010). Türkiyə bəsit makamları. Metodik vəsait- ali musiqi məktəblərinin müəllim və tələbələri üçün. Bakı.

2. BülBül. (1997). Azərbaycan xalq mahnıları. I cild. Bakı.

3. Hacıbəyov Ü. (1945) Azərbaycan xalq musiqisinin əsasları. Bakı.

4. Hacıbəyov Ü. (1965). Əsərləri. II cild. Bakı.

5. "Qardaşlıq"dərgisi. (2000), № 8.İstanbul.

6. Miryusif qızı Əminə (2013). Kərkük türküləri. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri XI Bexnəlxalq elmi-praktiki konfransın məqalələri toplusu, Bakı.s.15-17.

7. Rüstəmov S. (1967.). Azərbaycan xalq mahnıları. Bakı.

8. Paşayev Q. (1992) İraq-türkman folkloru. Bakı.

9. SalihTurhan. (2012). İrak türkmen havaları. Ankara.

10. Sübhi Saatçi. (1993).Kerkükten derlenen olay türküleri. İstanbul.

11. Sübhi Saatçi (17.03.2020) (https://525.az › 137693-azeri-cesnili-kerkuk-turkuleri)

SONG PARALLELS IN AZERBAIJAN AND KIRKUK MUSIC

Amina Mammadova

The musical culture of the Turkic world possesses a rich and multilayered structure. Within this cultural sphere, the musical traditions of Azerbaijan and the Kirkuk region occupy a distinctive place. The musical heritage of both regions, particularly their folk songs, attracts scholarly attention in terms of shared historical roots and ethno-cultural relations.

The song "Ne bağ duydu, nə bağbançı" represents a clear example of shared musical heritage. The song is widely known in both Azerbaijani and Kirkuk musical environments.

The song "Kərkükün al alması" performed in the Kirkuk, has the same melodic structure as the Azerbaijani folk song "Qubanın ağ alması". Another shared example is the song "Yeri yeri küsmüşəm sənnən". The dialogic folk song "Qızım səni verəyim" is also an interesting example reflecting the dialogic form of folklore.

Thus, the similarities between Azerbaijani and Kirkuk musical traditions confirm their shared historical and ethno-cultural roots. Folk songs function as the principal carriers of this common heritage and continue to exist in various regional variants. Such comparative studies are of great importance for a deeper understanding of musical relations within the Turkic world and for the preservation of cultural heritage.

Keywords: *Kirkuk songs, Azerbaijani songs, shared songs, musical heritage, comparative analysis of songs.*

ƏZİZ NESİN YARADICILIĞINDA HƏBSXANA MÖVZUSU

Maya Həsənli
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Elmi işçi
mayaaxundova93@gmail.com
https://orcid.org/0009-0002-4535-7831

Əziz Nesin Cümhuriyyət dövrü türk ədəbiyyatının ən parlaq simalarından biri, dünyaca məşhur satira ustasıdır. Bədii yaradıcılığa XX əsrin 30-cu illərindən başlamış, yarım yüzildən çox ədəbi və publisistik fəaliyyətdə olmuşdur. Ədəbi növlərin hər üçündə, müxtəlif janrlarda çox məhsuldar bədii irs qoyan Əziz Nesin daha çox satirik hekayə ustası kimi tanınmışdır. Siyasi mövqeyinə və sosialist dünyagörüşünə görə Əziz Nesinin şəxsinə və yaradıcılıq məhsullarına münasibət öz dövründə birmənalı olmamış, xüsusən də həmtəsisçisi və aparıcı mühərriri olduğu "Marko paşa" satirik qəzetindəki çıxışlarına görə məhkumluq yaşamışdır. Əziz Nesin böyük tərkibli ailəsinə baxmaq üçün hər zaman çox çalışmaq məcburiyyətində olduğundan hər çətin şəraitdə yazmalı olmuşdur. İstər həbsxanada olarkən, istərsə də sürgün həyatı yaşayarkən çox sayda publisistik yazılar və bədii əsərlər qələmə almışdır. Əlbəttə ki, bu əsərlərin bir çoxu həbsxanada şahidi olduğu, yaxud da özünün başına gəlmiş hadisələr əsasında yazılmışdır. Məqalədə Əziz Nesinin həbsxana həyatından bəhs edən hekayələri ("Xallı Taci", "Bit yarışı", "Dəliyə keçən gecə", "Bizdən adam olmaz", "Siqaret qutusunda evlənmə təklifi" və s.) və şeirləri ("On dəqiqə", "Zor gəlir", "Gəlmədin", "Təxliyə", "Məktəb", "Hücrədə") təhlil edilir, yazıldığı dövr, şərait, ideya-məzmun xüsusiyyətləri tədqiq olunur.

Açar sözlər: *Əziz Nesin, satira, yumor, hekayə, həbsxana illəri, sürgün*

Giriş

Dünya ədəbiyyatının ən istedadlı satira ustaları sırasında özünəməxsus layiqli yer tutan Əziz Nesin (1915-1995) əsərlərinin mövzusunu yaşadığı cəmiyyətin reallıqlarından, o cümlədən öz həyatından götürmüşdür. Əziz Nesin hər üç ədəbi növdə, müxtəlif janrlarda əsərlər yazmış, çoxxətli mövzular qələmə almışdır. Siyasi düşüncəsinə, sosialist mövqeyinə görə uzun illər yazılarının nəşri və oxunması qadağan edilmiş, dəfələrlə məhkumluq yaşamışdır. Əziz Nesin yaradıcılığında əsas mövzu istiqamətlərindən biri də həbsxana və sürgün illəri zamanı başına gələn hadisələr əsasında qələmə aldığı əsərlərdir. Əziz Nesin həbsxanada olarkən gecə-gündüz demədən imkan tapdıqca yazmış, məhbusluq zamanlarında belə ailəsini dolandırmaq üçün gizli imzalarla qəzet və jurnallarla əməkdaşlıq etmişdir. Maddi qazancı qələmindən asılı olan Əziz Nesin 200-ə yaxın gizli imzadan (məs: Vedia Nesin, Oya Atəş, Nuri Həyat, Atəş Sin, Kazım Qəhqəh, İzzət İzində, Haqqı Haqlan, Sami Kımızcı və s.) istifadə etməyə məcbur olmuşdur. Hətta XX əsrin birinci yarısında Türkiyədə tərtib olunan "Qadın yazıçılar biblioqrafiyası"na Oya Atəş imzası ilə dərc etdirdiyi kitabını daxil etmişdilər (Yetmiş beşinci yaşında Aziz Nesin / Hazırlayan: A.Kabacalı, 1990, s. 25). Bu qədər çox təxəllüsdən istifadə etməsinin iki əsas səbəbi var idi: Birincisi, eyni vaxtda bir neçə yazısını bir mətbu orqanda çap etdirib övladları üçün qazanc əldə etmək məcburiyyəti; İkincisi isə üslubu tanınıb, yaxud da hardansa xəbər çataraq müəllifinin Əziz Nesin olduğu bilinib təxəllüsünün ifşa olması. Çünki, kim olduğu anlaşıldıqdan sonra yazısını nəşr etmirdilər. Ona görə də yeni bir ad, gizli imza götürmək məcburiyyətində qalırdı. 1956 və 1957-ci illərdə iki dəfə beynəlxalq "Qızıl Palma" mükafatı alması adının dünyada tanınmasına və Türkiyədə artıq əsərlərinin rahat nəşrinə şərait yaratmış olur. Lakin bu illərdən sonra da gizli polis nəzarətində olmuş və bir neçə dəfə sorğuya alınmışdır. *"Həbsxana mənə kitab oxumaq, düşünmək, dincəlmək imkanı verir. Bir çox iş planımı həbsxanada qurdum"* (Nesin, 2023, s. 13). Məhkumluq illərində Əziz Nesin imkan tapdıqca çoxlu mütaliələr etmiş, hətta elmi araşdırmalar belə aparmışdır. Ədibin "Şam bibi" adlı xatirələr kitabından öyrənirik ki, 1951-ci ildə Üsküdar həbsxanasında olarkən Nüsrət Qarahisarlı imzası ilə Türk Dil Qurumunun nəşri olan "Türk dili" jurnalına 3 illik araşdırmalarının nəticəsi olan

"Türk dilində idiomlar" başlıqlı məqalə hazırlayıb göndərmişdi. Təsadüfi deyil ki, Əziz Nesin sahibi olduğu "Düşün" nəşriyyatını da Kamal Tahirlə birlikdə 1955-ci ildə həbsxanada olarkən planlamış və azadlığa çıxdıqdan sonra arzularını reallaşdırmışdılar. Kağız-qələm istifadəsini qadağan etdikləri zamanlarda isə Əziz Nesin fiziki işgəncədən daha çox əziyyət çəkirdi, çünki ailəsinə dolanışıq üçün pul göndərə bilmirdi. *"Pəncərəmin şüşəsi soyuqkən və siqaretimin dumanından buğlandıqca şüşəyə neçə dəfə vəsiyyətimi yazmışam. Çünki kağız qələm vermirlərdi"* (Nesin, 2022, s. 86).

Əziz Nesinin "Xallı Taci", "Bit yarışı", "Dəliyə keçən gecə", "Bizdən adam olmaz", "Siqaret qutusunda evlənmə təklifi" və s. əsərləri mövzusunu həbsxana həyatından, məhkumluq illəri xatirələrindən götürdüyü hekayələridir. Əziz Nesin "Yaşar nə yaşar, nə yaşamaz" (1977) romanının mövzusunu da həbsxanada eşitdiyi təsirli bir hadisədən götürmüşdü. 1948-ci ildə "Trumen doktrinası"nı ifşa edən "Yolumuz hayanadır?" adlı yazısına görə həbs edildiyi zaman Hərbiyyə həbsxanasında Osman Kuzeyli adlı məhkum yoldaşının qeydiyyat idarəsindəki səhvə görə işə qəbul edilməməsi, övladlarına şəxsiyyət vəsiqəsi ala bilməməsi problemini eşidir. *"Fəhlə Osman Kuzeylinin şəxsiyyət vəsiqəsi yox idi, amma bu onun həbsxanaya salınmasına əngəl olmur, sadəcə iş tapmasının qarşısını alırdı"* (Nesin, 2008, s. 8). İllər sonra bu taleni xatırlayan Əziz Nesin həmin hadisələrdən təsirlənərək satirik roman qələmə almış olur.

Əziz Nesin siyasi məhbus kimi izlənildiyi illərdə sıxıntılı, göz yaşı ilə zəngin günlərini acı gülüşə "İnsanlar oyanırlar" adlı hekayəsində çevirmişdir. Bursada sürgündə olarkən həyat yoldaşı Vədia xanımın bu illərində ondan boşanmasını, sürgündən qayıtdıqdan sonra yaşadığı çətinlikləri və dost-tanışlarının onunla ünsiyyət saxlamaqdan, görüşməkdən ehtiyat etmələrini "Bir sürgünün xatirələri"ndə fakt kimi yazıya almışdır. "İnsanlar oyanırlar" hekayəsində isə bu həyati faktları satirik bədii nəsrlə təqdim edir. Hamının ondan uzaq durmağa çalışdığını anlayan, iş tapmaqda əziyyət çəkən sürgün məhbusu sakit məhəllədə ucuz ev kirayələyir. Kimsəsiz məhəllənin sakinlərinin günü-gündən artması, çayxanada işlərin yaxşı getməsinə, meyvə satıcısının, baqqalın alverinin çoxalmasına səbəb olur. İlk baxışda narahat olaraq yeni bir tənha məhəlləyə köçmək istəyəndə qonşu obyekt sahiblərinin ona mane olması qəhrəmanı sevindirir, düşüncəsində ümid işığı doğurur ki, əqidəsi uğrunda çəkdiyi əziyyətlər boşa getməyib*: "... məmləkətdə böyük inkişaf, insanlarda böyük bir oyanış vardı"* (Nesin, 2005, s. 11). Həqiqətə qalanda isə məhəllənin canlanmasına səbəb siyasi sürgün məhbusunu izləmək üçün təyin olunan qılıq dəyişdirmiş məmurlar, onlara da nəzarət üçün göndərilən digər məmurların gəlişi idi. Qeyd edək ki, bu hekayəsinə görə 1969-cu ildə Əziz Nesin Moskvada təşkil olunan Beynəlxalq satirik hekayə yarışında birincilik mükafatı olan "Krokodil" (Timsah) laureatı olmuşdur.

"Siqaret qutusunda evlənmə təklifi" adlı yumoristik hekayəsi 1957-ci ildə "Hansı partiya qalib gələcək" adlı kitabında çap olunmuşdur. Əsərin qəhramanı olan Həsən bəylə Əziz Nesinin 40-a yaxın hekayəsində qarşılaşırıq. Belə ki, müəllif bu obraz vasitəsilə öz prototipini yaratmışdır. Hekayə Həsən bəyin dilindən nəql olunur, həbsxanada siyasi hökmlü olaraq məhbusluq həyatının çətinlikləri fonunda yumoristik gülüş yaradır. *"Məhbusluğun üstündən bir il keçdimi dörd bir yana qadın ruhu çökər və kağızlar, kitablar belə qadın kimi qoxumağa başlayar"* (Nesin, 2017, s. 119). Özünə sevgili arzulayan Həsən bəyin azadlığa çıxmasına 3 ay qalmış təsadüfən siqaret paketində evlənmə təklifi alması onu sevindirir və bu xoş "təsadüf" 4 dəfə onun bəxtinə çıxır. Dörd namizəd arasında seçim edə bilmədiyi üçün hamısı ilə məktublaşır və azadlığa çıxdıqdan sonra qızlardan birini seçib ailə quracağı günün xəyalı ilə yaşayır. Həsən bəy azadlığa buraxıldığı gün bunun həbsxana yoldaşları tərəfindən hazırlanan bir zarafat olduğunu öyrənir. Sevgililəri real olmadığı üçün məyus olsa da son məhbusluq günlərini xoş əhvali-ruhiyyə ilə keçirməsinə səbəb olur.

Çoxsaylı həbs və sorğuya çəkilmə nəticəsində müxtəlif illərdə məhkumluq həyatı yaşayan Əziz Nesinin yaradıcılığında həbsxana mövzulu şeirləri də vardır. Əziz Nesin "On dəqiqə", "Zor gəlir", "Gəlmədin", "Təxliyə", "Məktəb", "Hücrədə" və b. bu qəbildən olan şeirlərində sevgi, məhbusluq illərində çəkdiyi həsrət və kədərin ifadəsi aparıcı istiqamət kimi ehtiva olunur. 1951-ci ildə Üsküdar Paşaqapısı həbsxanasındaykən qələmə aldığı "Təxliyə" adlı qoşmasında xalq şeir üslubunun təsiri açıq

hiss olunur. Şair həbsxadan çıxacağı gün quru ağac budaqlarını belə insan qolu misalı qucaqlayacağını deyərək həsrətini ürək ağrısı ilə ifadə edir:

"Qismət olsa, bu həbsdən bir çıxsam,
Dəniz-dərya yol görünər gözümə.
Bekar odam dardır, *amma bir varsam,*
Məzar olsa, bol görünər gözümə" (Nesin, Bütün şiirleri 2 ciltte, c.1, 2007, s. 155).

Nəticə olaraq qeyd etmək lazımdır ki, Əziz Nesin hər hansı bir siyasi partiya üzvü olmamasına baxmayaraq sosialist düşüncə mövqeyinə, yazılarına görə ümumilikdə beş il yarım məhkum olmuşdur. Həbsxana və sürgün günlərində bilavasitə şahidi olduğu hadisələr, yaxud da məhkum yoldaşlarından eşitdiyi xatirələri satirik bədii təxəyyülündən keçirdərək çoxsaylı əsərlər qələmə almışdır. Həbsxana həyatına aid lirik şeirlərində biz Əziz Nesinin keçirtdiyi mənəvi böhran və həsrətin ağrısını hiss ediriksə, satirik bədii nəsr nümunələrində dövrün acı reallıqlarının kəskin tənqidini görmüş oluruq.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Nesin, A. (2005). İnsanlar uyanıyor. İstanbul: Nesin yayınevi.
2. Nesin, A. (2007). Bütün şiirleri 2 ciltte, c.1. İstanbul: Nesin yayınevi.
3. Nesin, A. (2008). Yaşar ne yaşar ne yaşamaz. İstanbul: Nesin yayınevi.
4. Nesin, A. (2017). Hangi parti kazanacak. İstanbul: Nesin yayınevi.
5. Nesin, A. (2022). Geriye kalan. İstanbul: Nesin yayınevi.
6. Nesin, A. (2023). Mum hala-1. istanbul: Nesin yayınevi.
7. Yetmiş beşinci yaşında Aziz Nesin / Hazırlayan: A.Kabacalı. (1990). İstanbul: TÜYAP.

THE THEME OF PRISON IN THE WORKS OF AZIZ NESIN

Maya Hasanli

Aziz Nesin is one of the most prominent figures of Turkish literature of the Republican period and a world-renowned master of satire. He began his literary career in the 1930s and remained actively engaged in literary and journalistic work for more than half a century. Having produced a highly prolific body of work across all three major literary forms and in various genres, Nesin is best known as a writer of satirical short stories. Owing to his political stance and socialist worldview, public attitudes toward both his personality and his creative output were not uniform during his lifetime; in particular, he faced imprisonment due to his contributions to the satirical newspaper "Marko Paşa", of which he was a co-founder and leading editor. Because he was obliged to support his large family, Nesin had to write under all circumstances and in often difficult conditions. He produced numerous journalistic pieces and literary works both during his imprisonment and throughout periods of exile. Naturally, many of these works were based on events he personally experienced or witnessed in prison. This article analyzes Nesin's prison-themed the short stories ("Spotted Taci", "The Lice Race", "The Night Turning into Madness", "No Good Will Come of Us", "A marriage proposal in a cigarette pack" etc.) and the poems ("Ten Minutes", "It Is Hard to Bear", "You Did Not Come", "Release", "School", "In the Cell") examining their historical context, conditions of composition, and thematic and ideological characteristics.

Keywords: *Aziz Nesin, satire, humor, short story, prison years, exile*

SƏMƏD MƏNSUR ŞEİRLƏRİNDƏ TƏNQİD HƏDƏFLƏRİ VƏ DÖVRÜN TÜRKOLOJİ İDEYA MÜHİTİ

Natavan İbrahimova
AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu
Doktorant
AMEA-nın Naxçıvan Bölməsi
natavanibr.va777@gmail.com
https://orcid.org/0009-0000-8145-5717

Məqalə XX əsrin ilk onilliklərində ədəbi-mədəni mühitdə yaxından iştirak etmiş görkəmli Azərbaycan ədibi Səməd Mənsurun (1879-1927) şeirlərində tənqid hədəflərinin tədqiqinə həsr olunmuşdur. Bu cəhət şairin həm ilk satirik şeirlərində, həm də Cümhuriyyət illərində və sovet dövründə yazdığı satiralarında özünü göstərir. Satirik ədəbiyyat üçün xarakterik olan sınanmış üsuldan – mənfi obrazın öz dili ilə ifşasından da S.Mənsur məharətlə istifadə etmişdir. Onun satirk şeirlərindəki monoloq və dialoqlar, təzadlı mükalimələr də bədii qayənin təcəssümündə önəmli rol oynayır. Satiraların əksəriyyətində obrazın fərdi xüsusiyyəti ilə yanaşı, bədii ümumiləşdirmə və tipikləşdirmənin səviyyəsi də diqqəti çəkir. Burada bakılı şair Səməd Mənsurun satirik yaradıcılığı, tənqid hədəfləri əfraflı şəkildə araşdırılmış, onun bu sahədəki zəngin, çoxcəhətli fəaliyyəti hərtərəfli təhlil olunmuşdur.

Açar sözlər: *Türkoloji mühit, Mənsur, satira, şair, tənqid, naşir*

Giriş

İctimai-siyasi hadisələrlə zəngin olan iyirminci əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında bır sıra görkəmli sənətkarlar yetirmişdir. Onlar ağır ictimai-siyasi dövrdə, çətin şərtlər altında yaşasalar da heç vaxt öz əqidələrindən, milli azadlıq uğrundakı heç bir fədakarlıqdan çəkinmədilər. Həmin şəxsiyyətlərdən biri də bakılı şair Səməd Mənsur idi. Əsərlərində obyektiv həyat gerçəkliklərinə istinad edən Səməd Mənsur xalqının elm, maarif və mədəniyyət sahəsində dirçəliş və inkişafına çalışmış, nadanlığa, geriliyə qarşı amansız mübarizə aparmışdır.

Şairin yaradıcılığının müəyyən bir qismini də satira yaradıcılığı təşkil edir. Onun satiraları ideya aydınlığı, mövzu aktuallığı ilə yanaşı, sənətkarlıq baxımından da dolğun və mükəmməldir. Hər mövzuya uyğun ifadə tərzi, təsvir üsulları, təqdim elementləri seçilməsi ilk baxışdan diqqəti çəkir. Əsərdəki monoloq və dialoqlar, gah ciddi, gah da satirik-yumoristik təfsir və dəyərləndirmələr, mətləbin uzadılması, sadə dildə oxucuya əsas qayəni yetərincə çatdırır. Mənəvi eybəcərlikləri, qeyri-bərabər ictimai münasibəti qamçılayan Səməd Mənsur satiralarında klassik şeirin bədii ifadə vasitələrindən satirik istiqamətdə bacarıqla istifdə edir. Sabir tipi öz dili ilə ifşa etmək, səciyyələndirmək bacarığı Səməd Mənsurun satirik əsərlərindəki həyati lövhələrdə də öz bədii əksini tapırdı.

İstedadlı şair Səməd Mənsurun satira yaradıcılığının ikinci mərhələsi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə və onun ardınca sovet hakimiyyəti illərinə təsadüf edir. "Cümhuriyyət dövrüədəbiyyatımızda satiric satiric şeirin ən məhsuldar nümayəndəsi kimi tanınmışsır (Həşimli, 2017, s.46). Şair mahiyyətcə yeni olan bu mərhələdə də cəmiyyətdə yol verilən nöqsanları satirik gülüş hədəfinə çevirmişdir. Bu baxımdan onun 1918–1919-cu illərdə "Şeypur" jurnalında çıxmış satirik şeirləri xüsusi maraq doğurur. "Hüseyn Həşimlinin də qeyd etdiyi və göstərdiy kimi, xüsusən Azərbaycan istiqlalına qənim kəsilən daşnak-bolşevik qüvvəllərin ifşası. Onların əsl simasının açılıb xalqa göstərilməsi "Şeypur" jurnalı üçün başlıca məsələ təşkil etmişdir" (İbrahimova, 2024, s. 251).

"Şeypur"un ilk sayında Səməd Mənsurun "Pampuşalı" imzası ilə "Qaçmaq günüdür" şeiri (Həşimli, 2014, s. 16–17) verilmişdir. Həmin əsərdə Azərbaycan və türk silahlı qüvvələrinin 1918-ci ildə Bakını yadelli qüvvələrdən azad etmək üçün birgə hərbi əməliyyatları alqışlanmış, torpaqlarımızdan çəkilməyə məcbur qalan ingilis və erməni bölüklərinə ironiya ilə xitab olunmuşdur:

Top nərəsi, qurşun səsi, at kişnəməsindən
Köylər dağılır, evlər uçar güllələsindən,
Türk ordusu buysa ki, onun nərə səsindən
Aləm dağılır, vaz keç hökumət həvəsindən.
Qaçmaq günüdür, ingilis! Osman gəlir. Arş!
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş.

Şeirdə bədnam ermənilərin Azərbaycan, Türkiyə və Gürcüstan torpaqlarına əsassız iddialarına, "böyük Ermənistan" xülyalarına da satirik münasibət bildirilmiş, onların qarşısının alınmasından doğan sevinc hissi də ədəbi müstəviyə gətirilmişdir:

Deyirdin Bakı, Dərbənd, Dağıstan sənin olsun,
Tiflis də sənin, Qars da sənin, Van sənin olsun.
"Hayrik" olasan, cümlə Hayastan sənin olsun,
Türk qoymadı, əfsus, bir ovdan sənin olsun...

Şair günahsız qadınların və uşaqların qatili olan vəhşi ermənilərin iç üzünü açmaqla yanaşı, onların şərəfsiz aqibətini də satirik tərzdə mənalandırmışdır. Səməd Mənsur işğalçı qüvvələrin Bakıya soxulduqları ilk vaxtlarda lovğalanmalarını, hər yerə əl uzatmalarını, gələcək mənfur planlar barədə xam xəyallara dalmalarını da kinayə ilə xatırlatmışdır:

Əvvəl Bakıya gəlcək, a kirvə, havalandın,
Xülyalara, röyalara əzbəs ki, inandın.
Hər yerdə soxuldun işə, qızdın, havalandın,
Top nərəsini lapdan eşitdin də, oyandın...

Şeirin sonunda müəllif xalqımıza düşmən kəsilənlərə xitabən bildirir ki, onları heç vaxt unutmayacaq, belə mənfur qüvvələri daima jurnal səhifələrində ifşa edəcək. "Qəm çəkmə, maraq etmə, unutmaz səni "Şeypur" misrası da buna işarədir. "Şeypur"un 2-ci sayında S. Mənsurun – "Pampuşalı"nın "Hazırlıq" şeiri (Həşimli, 2014, s. 32-33) verilib. Bu satirik əsərdə üç aspekt diqqəti çəkir. Onlardan biri düşmənlərin törətdiyi qətl və qarətlərin xatırladılmasıdır:

Düşmənlərimiz əhlimizə hər nələr etmiş,
Küllən bilir aləm.
Evimiz dağılıb, var-yoxumuz qarətə getmiş,
Canaş becəhənnəm!

Yuxarıdakı misralarda, heç şübhəsiz ki, 1918-ci ildə Bakıda və respubilkamızın digər bölgələrində xalqımıza qarşı qırğınlar, talanlar törətmiş bədnam ermənilərin və onların havadarıarının bəd əməlləri nəzərdə tutulmuşdur. İkini aspektdə isə vətənin, millətin belə ağır günündə silaha sarılıb dogma yurdun müdafiəsi üçün düşmənlərlə döyüşə yollanmaq əvəzinə məhərrəmlik mərasimindı sinə vurub baş yaran fanatik yurddaşların, həmçinin xalqın avamlığından, cəhalətindən istifadə edib onun var-yoxunu əlindən alan əqidəsiz mərsixanların ifşası üzərində qurulmuşdur.

Üçüncü aspektdən satirik boyalar da tündləşir. Şair vurğulayır ki, vətən və millət hissindən məhrum olan bəzi gənclər məhərrəmlik mərasimlərində zəncir vurub özlərinə xətər yetirməklə əslində zədəli, xəstə olması barədə saxta sənəd düzəldib hərbi xidmətdən boyun qaçırmaq niyyətinə düşmüşlər. Gənc müstəqil respubilkada əksər həmvətənlərin istiqlal naminə çarpışmağa hazır olduğu vaxtda yalnız özünü düşünən bəzi naqis şəxslərin iç üzünü S. Mənsur məharətlə açmışdır:

Çək xəncəri, vur başıva, ol qanıva qəltan,
Bir başqa kələk var.
Naxoşla da, yat, başıva bağla yekə yorğan,
Biclik eləmək var.
Göstər həkimə yaraların, söyləsin vay-vay!
Max vermə, qəm etnə!
Əhvalıvı görsün elə, yazsın "eto bolnoy",
Əsgərliyə getmə!

Bəllidir ki, Cümhuriyyət dövründə gənclərin təvəllüdü, hərbi xidmət yaşının çatıb-çatmaması dəqiqləşdirilərək vaxtı ilə mollaların apardığı qeydlər də istinad olunurdu. Bəzi heysiyyətsizlər övladlarını əskərlikdən yayındırmaq üçün mollaların əli ilə övladlarının yaşını saxtalaşdırmağa, yaxud da digər fırıldaqlar etməyə çalışırdılar.

S. Mənsurun hazırlıq şeirində də həmin məsələyə diqqət yetirilmişdir. Bütün fəaliyyəti boyunca milli nanafelərin, yenicə qazanılmış müstəqilliyin müdafiəçisi kimi haqq sözünü eyən şair cəmiyyətdə rast gəlinən mənfi tiplərin iç üzünü, əsl simasını açır, səciyyəvi xüsusiyyətlərini vurğulamaqla onları ifşa edir, sağlam tənqid yolu ilə hamını vətənpərliyə, milli mücadiləyə, istiqlalın qorunmasına, inkişaf naminə əlbir fəaliyyətə, haqqa, ədalətə səsləyirdi. Satirik şeir yaradıcılığını davam etdirən Səməd Mənsur "Şeypur"un dördüncü sayında aktual mövzulu, daha dərin ictimai-siyasi mündəricəyə malik "İski"lər"li"ləndilər" əsərini "Pampuşalı" imzasıyla oxuculara çatdırmışdır (Həşimli, 2014, s. 69-70). Şeir milli simasını itirib rus təsirinə qapılanların tənqidinə həsr olunmuşdur. Müəllif ilk növbədə diqqəti ona yönəldir ki, Azərbaycan 1918-ci ildə öz istiqlaliyyətini elan edəndən sonra soyadları "iski", "ov" ilə bitən bir sıra həmvətənlər həmin sonluqlu"li" ilə əvəzləmişlər. Əlbəttə, soyadların milli dilin xüsusiyyətlərinə uyğun olması vaib və təqdirəlayiq haldır. Lakin şair məsələnin digər tərəfinə diqqət yönəldərək yazırdı ki, "iski"dən, "ov"dan, "li"yə keçənlərin bir qismi əslində milli hisslərdən uzaqdır, onlar güya milliləşdiklərini göstərmək, buy olla yeni cəmiyyətdə özlərinə mövqe qazanmaq üçün həmin addımı atmışlar. Şair "bu dəyişkənliyi yalnız siyasi konyuktura naminə edən" (Ələkbərli, 2000, s.37) belə tipləri istehza ilə "millət, vətən canbazı" adlandırırdı:

"İski"-lər "oğlu"-ların dəmsazıdır,
"Zadə"-lər də "ov"-ların həmrazıdır,
Cümləsi millət, vətən canbazıdır.
Qalxdılar, yekşər tərəqqiləndilər,
"İski"-lər, "ov"-lar bu gün "li"-ləndilər...

Səməd Mənsurun tənqid hədəflərinə satirik yanaşması ciddi ictimai əhəmiyyət daşıyırdı. Tədqiqatçı Y. Əsgərovanın yazdığı kimi: "Hər an buqələmun kimi min rəngə boyanan, siyasi quruluş əvəz olunduqca prinsiplərini, fikirlərini, hətta adlarını belə dəyişən ziyalılar şairdə həmişə ikrah hissi doğurdu" (Əsgərov Y, 2016, s.19). Satirik ədib "İski"-lər "li"-ləndilər" şeirində haqlı olaraq onu da nəzərə çatdırırdı ki, sadəcə soyad sonluğunu əvəzləməklə milliləşmək mümkün deyil. Millilik qanda, ruhda, əməldə, xasiyyətdə, dünyagörüşdə özünü göstərməlidir. Belə zahirən milliləşən şəxslərə çox da bel bağlamaq olmaz, zaman dönsə, onların əksəriyyəti sandıqlarda gizlətdikləri "iski", "ov" ilə yenidən meydana çıxacaqlar:

Sandığa qoyulmuş hamı "iski"liyin,
İşlədər şimdi əlində "li"-liyin,
Başlasada çərxi-fələk yağıliyin,
Bir də baxsan həpsi "iskiləndilər"
"İski"-lər, "ov"-lar bu gün "li"-ləndilər.

"Pampuşalı" imzalı Səməd Mənsurun "Bakılı" satirası "Şeypur" jurnalının 16 noyabr 1918-ci il tarixli 6-cı sayında oxuculara çatdırılmışdır (Həşimli, 2017, s. 107-108). Ədəbiyyatşünas Nazif Ələkbərlinin bir cümlə ilə ümumiləşdirdiyi aşağıdakı qiymət həmin əsərin bütün mətninə aid edilə bilməz: "Bakılı" şeiri təkcə bakılılara deyil, bütün millətlərin davranışına paraodiya idi" (Ələkbərli, 2000, s. 43). Əslində bəzi misralarında ümumilli səciyyə daşıyan vacib məqamlar, bir qismində isə məhdud yanaşmalar var. Aydınlıq üçün mətnə nəzər salaq. Şair ictimai mübarizədən uzaq düşən, ədalətdə qalan, başqalarının öz məqsədlərinə çatması üçün bir vasitəyə çevrilən, hər gələn, gedən tərəfindən tapdanan bakılını pisləyir, ona rütbə, mənsəb, vəzifə verilmədiyini də nəzərə çatdırırdı. Müəllifi narazı salan həm də bəzi "kirvələrin, pasluşilərin" (burada çar dövründə idarəçilikdə çalışan başqa millətlərin nümayəndələrinə işarə edilmişdir) əvvəllər müxtəlif üsullarla vəzifələrə yol tapması, yerli əhalinin isə kənarda qalmasıdır. İstiqlal qazanıldıqdan sonra öz millətimizdən olan təzə pristavın da əhaliyə əziyyət verməsi şairin qəlbini ağrıdırdı:

Öz yerində bir adam etməsə hörmət də sənə,
Kirvələr, pasluşilər etsə hökumət də sənə,
Qardaşın təzə pristav verə zillət də sənə,
Ağadır, döysə səni, çəkmə xəcalət, bakılı,
Ey sərasər bədəni, fikri bətalət, bakılı.

Əlbəttə ki, bəzi bakılılarda olan ədaləti, süstlüyü şəhərin bütün əhalisinə aid xüsusiyyət kimi satirik müstəviyə gətirib ümumiləşdirmək təşəbbüsü məqbul sayıla bilməz. Eləcə də gücü ilə öz malını zorla baha qiymətə satdırıb sərvət toplayan hansısa gəncəli məmurun tənqidi normal haldır, amma şeirin üçüncü bəndində bunun xüsusi vurğu ilə önə çəkilməsinə də zərurət yox idi. Səməd Mənsurun satirik yaradıcılığının yeni mərhələsi də mövzu rəngarəngliyi, kəskin tənqid üsullarının özünəməxsusluğu ilə qiymətlidir.

Nəticə

Səməd Mənsurun ədəbi irsi iyirminci əsrin ilk onilliklərində Azərbaycan ədəbiyyatının üzvi tərkib hissəsi kimi onun əsas yaradıcılıq axtarışları, sənət tendensiyaları ilə bilavasitə əlaqədəardır. Onun ədəbi irsi böyük istedad və ilhamın bəhrəsi, dərin vətəndaşıiq duyöularının dolğun ifadəsidir. Şairin satirik şeirlərindəki monoloq və dialoqlar, təzadlı mükalimələr də bədii qayənin təcəsümündə önəmli rol oynayır. S.Mənsur ədəbiyyatımızın ideya-bədii yüksəlişinə layiqli xidmət göstərmişdir. Səməd Mənsurun çoxşaxəli, zəngin satirik yaradıcılığı Azərbaycan ədəbiyyat tarixində mühüm yer tutmaqla söz sənətimizin inkişaf mərhələlərinə də təsir göstərmiş, bu gün də öz əhəmiyyətini itirməmişdir. Şairin satiraları ideya aydınlığı, mövzu aktuallığı ilə yanaşı, sənətkarlıq baxımından da dolğun və mükəmməldir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Ələkbərli, N. (2000). Bir ömrün rəngləri. Bakı: Elm, 84.
2. Əsgərova, Y. (2016). Səməd Mənsurun yaradıcılıq yolu. Fil.ü.fəls. dokt. Dissertasiyasının avtoreferatı, Bakı: AMEA Ədəbiyyat İnstitutu, 176.
3. Həşimli, H. (2014). Şeypur jurnalı (1918/1919- cu illər). Bakı: Elm və təhsil, 280.
4. Həşimli, H. (2017). Azərbaycan Xalq Cümhuriyyəti dövründə satirik poeziya. Bakı: Elm və təhsil, 104.
5. İbrahimova, N. (2024). Professor Hüseyn Həşimlinin araşdırmalarında Səməd Mənsur və "Şeypur" jurnalı. AMEA Naxçıvan Bölməsi Elmi əsərlər jurnalı. I nömrə. Naxçıvan: Tusi, 334.

CRITICAL TARGETS IN THE POETRY OF SAMAD MANSUR AND THE TURKOLOGICAL IDEOLOGICAL ENVIRONMENT OF HIS TIME

Natavan Ibrahimova

The article is devoted to the study of the targets of criticism in the poems of the prominent Azerbaijani writer Samad Mansur (1879-1927), who closely participated in the literary and cultural environment in the first decades of the 20th century. This aspect is manifested both in the poet's first satirical poems and in his satires written during the years of the Republic and the Soviet era. S. Mansur also skillfully used the tried and tested method characteristic of satirical literature - the exposure of a negative image in his own language. Monologues and dialogues, contrasting dialogues in his satirical poems also play an important role in the embodiment of the artistic goal. In most of the satires, along with the individual characteristics of the image, the level of artistic generalization and typicalization is also striking. Here, the satirical creativity and targets of criticism of the Baku poet Samad Mansur have been thoroughly investigated, and his rich, multifaceted activity in this field has been comprehensively analyzed.

Keywords: *Turkological environment, Mansur, satire, poet, criticism, publisher*

SARA BAĞIROVANIN "ƏJDAHA MAĞARASI" ROMANINDA ƏJDAHA ARXETİPİNİN MİFOPOETİK SEMANTİKASI

Nərgiz Kərimova
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Böyük elmi işçi
nergizkerimova622@gmail.com
https://orcid.org/0000-0003-2419-3874

Məqalədə Azərbaycan mədəniyyətinin qədim türk mədəniyyəti kontekstində formalaşması və bu mədəni mühitdə əjdaha arxetipinin mifoloji-simvolik funksiyaları araşdırılır. Əjdaha türk mifoloji düşüncəsində totemik köklərə malik olub, təbiətin dörd ünsürünü birləşdirən kosmoqonik bir obraz kimi çıxış edir. Şərq və Qərb mifoloji sistemlərində nəhəng enerji daşıyıcısı kimi təqdim edilən əjdaha, həm qorxuducu, həm də transformativ gücə malik arxetipdir.

Sara Bağırovanın "Əjdaha mağarası" romanı əsasında aparılan təhlil göstərir ki, əsərdə əjdaha mağarası günahların başlanğıc və davamlılıq nöqtəsi kimi simvolik məkan funksiyası daşıyır. Humay və Arzu obrazları vasitəsilə nəsillərarası günah, yaddaş və taleyin davamlılığı məsələləri mifoloji çərçivədə təqdim olunur. Humay türk mifologiyasında sakral mənşəli, xeyir və işıq rəmzi olan ilahi varlıq kimi çıxış etdiyi halda, əjdaha qaranlıq, günah və destruksiya ilə əlaqələndirilir.

Əsərdə əjdaha mağarası insanın daxili aləminin qaranlıq qatlarını, gizli günahlarını və şüuraltı izlərini ifadə edən metaforik məkan kimi şərh olunur. Romanın sonunda Arzu obrazı taleyin deterministik mahiyyətini dərk edərək günah silsiləsini dayandırmaq cəhdi ilə simvolik sonluğa – özünü məhv etməyə yönəlir.

Tədqiqat nəticəsində belə qənaətə gəlinir ki, əsərdə əjdaha arxetipi müxtəlif mədəni sistemlərdə olduğu kimi həm qorxunun, həm də gücün, həm də mənəvi transformasiyanın simvolu kimi çıxış edir və insan–günah–taley üçbucağında əsas mifopoetik struktur yaradır.

Açar sözlər: *Simvol, mifologiya, əjdaha, Azərbaycan ədəbiyyatı, arxetip*

Giriş

Azərbaycan mədəniyyəti qədim türk mədəniyyətidir və Azərbaycan mədəniyyətinin ilk inkişaf dövrü və formalaşması mərhələsi proto-türk etnosların adı ilə bağlıdır. Şərq ölkəsi olan Azərbaycan daim qonşu olduqları xalqlarla qarşılıqlı mədəni-tarixi əlaqədə olmuş və bu əlaqələr Azərbaycan mədəniyyətinin xarakterində öz əksini tapmışdır. Əjdaha ilk olaraq totem kimi xalqımızın inanc sistemində, mifik təfəkküründə özünü göstərmişdir. Eyni zamanda əjdaha təbiətin dörd təməl ünsürünün-hava, od, su, torpaq birgəliyini də simvollaşdırır. Yer altında yaşayır, iri su hövzələrinin dərinliklərində üzüb dolaşır, səmalarda uçur və od püskürürək qarşısında olan hər şeyi yandırıb yaxır. Amma daha çox ilanın və quşun kombinasiyası kimi təsvir edilir. Öz təbiəti etibarilə əjdaha məfhumu – istər Şərq, istərsə də Qərb ədəbiyyatında nəhəng enerji daşıyıcısı hesab olunurdu. Mifologiyada əjdahanın tarixi qədim və geniş yayılmış, unikal əjdaha obrazları meydana gəlmişdir.

Sara Bağırovanın "Əjdaha mağarası" romanında əjdaha mağarası əsərin qəhrəmanlarının işlədikləri günahların başlanğıc nöqtəsi, Humayın taleyi ilə başlayan, özündən sonrakı yeddi nəsil qadınların həyatında davam edən və Arzunun intiharı ilə keçmişdə özlərindən asılı olmayan günahların kölgəsində yaşadıqlarını ifadə edir. Əsərdə Humay obrazı təsadüfən seçilməmişdi. Humay - qədim türk mifologiyasında qadın tanrılardan biridir. *"Azərbaycan törəniş miflərində isə Humay əcdad kultu ilə bağlı olub dünyanın yaranmasında iştirak edən sakral mənşəyə malik ilahədir"* (Nəbiyev, 2002, s.145-152).

Dünyanın yaranması mifində Allah Humayı quş yaradır. Humay cənnət quşu, xoşbəxtlik, səadət gətirən mənalarını ifadə etmiş, daha sonra transformasiyaya uğrayaraq uşaqları və qadınları himayə edən ilahə olmuşdur. Məmmədhüseyn Təhmasib yazır: "B*u quşun kölgəsi bəxtiyarlıq və səadət rəmzidir"* (Təhmasib, 2005, s. 15). Humay işıq, aydınlıq, uğura aparan yol kimi müqəddəs mənaları ifadə edir. Əjdaha isə bunun əksi olaraq qaranlığı, bəlaları təsvir edir. "Əjdaha mağarası"nı daxili və batini təsvir edərək yazıçı yaşadığımız dünyada etdiyimiz səhvlər, günahlar və onların kölgəsində qalaraq gələcəyə daşıdığımız günahların izlərinin qaldığını izah etməyə çalışır. Bu mağara Humayın həyata göz açmasıyla, Arzunun isə günahların başlanğıcı olan bu mağarada göz yumması ilə bir növ yeddi nəsil gələn günahların sonu demək idi. Humayın taleyi anasının *"Nə yekə yerdir. Elə bil, Əjdaha mağarasıdır" dediyi* oyuqda başlayır (Bağırova, 2014, s.20). *"Humay özünü "bir nəsli başı aşağı, dili qısa edən ləkənin damlasıyam"* deyə adlandırırdı (Bağırova, 2014, s.42). Əjdaha mağarası burada soyuq, böyük, qaranlıq, kimsəsiz, sakit, hər kəsdən uzaq, sirlərimizi və günahlarımızı gizlətdiyimiz bir məkandır. Əslində bu məkan ruhumuzun qaranlığıdır. Əsərin sonunda isə Arzu ağlı və məntiqi ilə başa düşür ki, yaşadıqları tale heç də təsadüf deyil, buna səbəb yaşadıqları günahlardır. Arzunun da dediyi kimi: *"Günah nə imişsə... Bəlkə də bu günahdandır bizim nəsil zoğ kimi, çayır otunun bir tağı kimi tək uzanır"* (Bağırova, 2014, s.206). Arzunun bütün bunları dərk etməsi və buna son qoymaq üçün verdiyi qərardan öncə dedikləri *"Əjdaha əfsanəvi varlıq olub. Deyilənə görə Əjdahalar üç başlı, yeddi başlı olublar. Rəvayətə görə üç başlı əjdahaları öldürmək olmurmuş. Kəsilən hər başın yerində daha üç baş yaranırmış. Yeddi başlı əjdahaların isə əvvəlcə başları ölürmüş. Sonuncu baş öləndə Əjdahanın bədəni torpağa yapışırmış"*(Bağırova, 2014, s. 206) dərin məna ifadə edir. Dediklərindən sanki özünü vurğulayaraq sonda intihar etməsi, özündən sonra iz buraxmamaq üçün yaşadığı əjdaha mağarasını dərman içdikdən sonra özü ilə bərabər yandırması, günahları sonlandırmaq istəməsidir. "Əjdaha mağarası" əsəri ilə müəllif insanları onlara şüuraltı əzab verən əjdaha mağaralarından çıxmağa, qaranlıq xatirələri və izləri darmadağın edərək gələcəyə ümidlə baxmağa səsləyir.

Fransız türkoloq Paul Rouks "*Əjdahanın ilan ilə qohum olduğunu və "ilanların kralı""*olduğunu bildirmişdir (Roux, 2011, s. 68). Eyni zamanda tədqiqatçı əjdaha formalı təsvirləri türklərin çinlilərdən götürdüyünü qeyd edir.

Çin və Azərbaycan ədəbiyyatından gətirdiyimiz nümunələrdən belə bir nəticəyə gələ bilərik ki, əjdaha mifi üçün vahid bir inanc yox idi, əksinə qədim sivilizasiyanın hər biri üçün müsbət və ya mənfi inanc və təsəvvürlər vardır. Arxetipik əjdaha heç vaxt orijinal mənasını itirməsə də repressiyaya məruz qalır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Roux, J.-P. (2011). Eski Türk Mitolojisi (M. Y. Sağlam, Trans.). Ankara: Bilgesu Yayıncılık.
2. Nəbiyev, A. (2002). Azərbaycan xalq ədəbiyyatı: Birinci hissə. Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşriyyat Evi.
3. Bağırova, S. (2014). Əjdaha mağarası. Bakı: NURLAR Nəşriyyat.
4. Təhmasib, M. H. (2005). Əfsanəvi quşlar. Bakı: Elm

MYTHOPOETIC SEMANTICS OF THE DRAGON ARCHETYPE IN SARA BAGIROVA'S NOVEL THE DRAGON'S CAVE

Nargiz Karimova

The article explores the mythological and symbolic functions of the dragon archetype within Azerbaijani culture, which is rooted in ancient Turkic civilization. In Turkic mythological thought, the dragon appears as a totemic figure symbolizing the unity of the four natural elementsand functions as

a cosmogonic image. In both Eastern and Western mythological traditions, the dragon is perceived as a carrier of immense energy, embodying both destructive and transformative powers.

Based on Sara Bagirova's novel "The Dragon's Cave," the analysis demonstrates that the dragon cave serves as a symbolic space representing the origin and continuity of sin. Through the characters of Humay and Arzu, the novel reflects intergenerational sin, memory, and fate within a mythological framework. While Humay corresponds to a sacred mythological figure in Turkic tradition associated with light and prosperity, the dragon is linked to darkness, sin, and destruction.

In the novel, the dragon cave is interpreted as a metaphor for the dark layers of the human psyche, hidden sins, and subconscious traces. In the final part of the narrative, Arzu recognizes the deterministic nature of fate and attempts to break the cycle of inherited sin, culminating in a symbolic act of self-destruction.

The study concludes that the dragon archetype in the work functions as a multifaceted symbol of fear, power, and spiritual transformation, forming a core mythopoetic structure within the human–sin–fate triad.

Keywords: *Symbol, mythology, dragon, Azerbaijani literature, archetype*

"ŞİRİN DUZ" ROMANINDA AŞIQ OBRAZI: BƏDİİ XÜSUSİYYƏTLƏR VƏ PROBLEMLİ MƏQAMLAR

Nərmin Həsənova
AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutu
Elmi işçi, dissertant
nrmn2294@gmail.com
https://orcid.org/0000-0001-7947-1523

Məqalədə XX əsr Azərbaycan nəsrində folklor ənənələrinin, xüsusilə aşıq sənətinin bədii əksi Seyfəddin Dağlının "Şirin duz" romanı əsasında təhlil olunur. Ədəbiyyatın ictimai-siyasi və mədəni prosesləri əks etdirməsi kontekstində aşıq obrazının milli-mənəvi dəyərlərin daşıyıcısı kimi funksiyası vurğulanır.

Romanın mərkəzində yer alan Xuduş Xilmilinski obrazı aşıqlığın zahiri atributlarına aludə olan, lakin onun mənəvi-estetik mahiyyətini dərindən dərk etməyən bir tip kimi təqdim edilir. Bu obraz vasitəsilə müəllif həm yumoristik, həm də tənqidi yanaşma sərgiləyir. Lakin tədqiqat göstərir ki, bəzi hallarda aşıq sənətinin texniki və poetik xüsusiyyətlərinin təsvirində faktoloji və estetik uyğunsuzluqlar müşahidə olunur.

"Şirin duz" romanında aşıq obrazı folklor ənənələrinin yazılı ədəbiyyatda təcəssümü baxımından əhəmiyyətli olsa da, onun təqdimatında müəyyən konseptual və peşəkar məhdudiyyətlər mövcuddur.

Açar sözlər: *aşıq obrazı, folklor ənənələri, bədii təhlil, xalq ədəbiyyatı, mədəni irs*

Giriş

XX əsr Azərbaycan ədəbi-düşüncə tarixini nəzərdən keçirdikdə aydın olur ki, müxtəlif dövrlərdə qələmə alınmış əsərlər öz zamanının ictimai-siyasi və mədəni xüsusiyyətlərini əks etdirir. Ədəbiyyat yalnız estetik hadisə kimi deyil, eyni zamanda cəmiyyətin ideoloji yönümlərini, sosial transformasiyalarını və mənəvi dəyərlər sistemini ifadə edən mühüm vasitə kimi çıxış edir. Müxtəlif mərhələlərdə baş verən ictimai-siyasi dəyişikliklər ədəbi yaradıcılıqda mövzu, problematika və obrazlar sisteminin formalaşmasına birbaşa təsir göstərmişdir. XX əsrin müxtəlif ideoloji mərhələləri ədəbiyyatda fərqli bədii meyllərin yaranmasına səbəb olmuş, milli-mənəvi dəyərlərin təqdimində yeni yanaşmalar formalaşdırmışdır. Bu kontekstdə folklor qaynaqlarına, o cümlədən aşıq yaradıcılığına müraciət yazılı ədəbiyyatda milli koloritin qorunması və bədii təfəkkürün zənginləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Akademik Həmid Araslının da qeyd etdiyi kimi *"Azərbaycan ədəbiyyatının hər mərhələsində xalq yaradıcılığının izi görünür, ədəbiyyatın ruhu xalqın mənəvi aləmindən qidalanır"* (Araslı, Azərbaycan ədəbiyyatının qədim dövrləri, 1960). Bu baxımdan folklor ənənələrinin, xüsusilə aşıq yaradıcılığının yazılı ədəbiyyatda əks olunması XX əsr nəsrinin mühüm xüsusiyyətlərindən biri kimi diqqəti cəlb edir. Aşıq obrazı yalnız bədii-estetik funksiya daşımır, eyni zamanda xalqın mənəvi yaddaşının, tarixi təcrübəsinin və milli dünyagörüşünün ifadəçisi kimi çıxış edir. Bu səbəbdən yazıçılar tez-tez bu obraza müraciət edərək milli-mənəvi dəyərlərin bədii təqdimatına nail olmağa çalışmışlar.

Bu kontekstdə Seyfəddin Dağlının "Şirin duz" romanı da diqqətəlayiq nümunələrdən biridir. Əsərdə aşıq obrazı müəyyən ideya-bədii funksiyanı yerinə yetirsə də, onun təqdimatında həm ənənəvi xüsusiyyətlər, həm də bəzi hallarda bu ənənə ilə tam uzlaşmayan məqamlar müşahidə olunur. Məhz bu cəhətlər əsərin tədqiqini aktuallaşdırır və aşıq obrazına tənqidi yanaşmanı zəruri edir. Yazıçı Seyfəddin Dağlı "Şirin duz" (1982) romanını ömrünün son illərində tamamlamış, lakin onun nəşrini görmək imkanı əldə etməmişdir. Əsərin əlyazması qızı tərəfindən köçürülərək 1988-ci ildə çap olunmuşdur. Müəllif romanda müharibədən sonrakı dövrdə kənd həyatını, xüsusilə Muğan düzündə şoran torpaqların əkin üçün yararlı hala gətirilməsi uğrunda aparılan mübarizəni bədii şəkildə təsvir edir. Əsərdə sadə in-

sanların gündəlik həyatı, zəhmət və məişət qayğıları geniş planda təqdim olunur. Eyni zamanda təsərrüfat problemləri, ictimai münasibətlər, ailə dəyərləri və mənəvi-əxlaqi normalar diqqət mərkəzində saxlanılır. Bütün bunlarla yanaşı, köhnə ənənələrlə yeni həyat tərzi arasında yaranan ziddiyyətlərin bədii təsviri də romanın əsas ideya xətlərindən birini təşkil edir. Bu xüsusiyyətlər nəzərə alındıqda roman janrının geniş həyat materialını əhatə etmə imkanları daha aydın görünür. Bu janrın mahiyyəti ilə bağlı qeyd olunduğu kimi *"...roman geniş xalq həyatını geniş əhatə etməli, nəinki şəxsin, ailənin hətta nəsillərin də taleyini verməli olan böyük ədəbi şəkildir. Roman həm əsri, həm də günü, həm xalqın, həm də bir fərdin taleyini əks etdirir. Müəyyən dövrdə roman qəhrəmanın, hətta nəslin mükəmməl bədii sərgüzəşti, tərcümeyi-halı deməkdir"* (Mir Cəlal, 2005. s.93). Təsvir olunan bu ictimai-mədəni mühit fonunda romanda yer alan obrazlar sistemi xüsusi əhəmiyyət kəsb edir. Görkəmli ədəbiyyatşünas alim N. Paşayeva roman janrının imkanlarını yüksək qiymətləndirərək yazır ki, *"roman janrı qədər insanın daxili ehtiyac və hissiyyatını, xarakter və səciyyəsini zəngin və çoxplanlı şəkildə təsvir edən ikinci bir janr mövcud deyildir. Bu ona görə belədir ki, roman ayrıca bir janr kimi özündə digər janrların daxili təcrübəsini ümumiləşdirir"* (N.Paşayeva, 2003. s.107). Bu obrazlar içərisində aşıq tipi diqqəti xüsusilə cəlb edir. Aşıq obrazı əsərdə yalnız epizodik iştirakçı kimi deyil, həm də xalqın mənəvi dünyasının, söz və sənət ənənələrinin daşıyıcısı kimi təqdim olunur.

Seyfəddin Dağlı "Şirin duz" romanında Xuduş Xilmilinski adlı gənc aşıq obrazını ilk olaraq yumoristik planda təqdim edir. Onun davranış və hərəkətləri ənənəvi aşıq tipindən uzaqdır. Nataşa adlı aqronom qıza vurulması fonunda sərgilədiyi sadəlövh və yersiz davranışlar həm gülüş doğurur, həm də onun sənət baxımından səriştəsizliyini üzə çıxarır. Əsərdə sevdiyi qıza görə aşıq olmağı qərarlaşdıran Xuduşun yolda bir qoca ilə arasındakı dialoqa diqqət edək.

"Aşıq Alı kimdir? Mən Aşıq Ələsgəri tanıyıram, əmi.

- Alı Ələsgərin ustadıdır, oğul,-dedi,- Əgər, həqiqətən, aşıq olmaq istəyirsənsə, bu pal-paltardan qabaq gərək özünə əsl saz alasan.

– Kişi dik papağından uzunboğaz çəkmələrinə qədər Xuduşu süzdü. Nə Aşıq Alının belə qantarğa-kəməri var idi, nə də Aşıq Ələsgərin belə xurcuncib şalvarı. Amma sadəcə sazları var idi, özləri də sazın nə çanağına, nə də qoluna bu qədər sür-sümük vurmazdılar. Ən əvvəl sazın tellərinə fikir verərdilər. Səninsə sazında sümük simi üstələyibdi. Ona görə də səsi çıxmır" (Dağlı, 1988).

Bu təsvirdə müəllif aşıqlığın zahiri cəhətlərinə aldanan, onun mənəvi mahiyyətini dərk etməyən bir tip yaradır. Eyni zamanda obrazın sənət mühitindən xəbərsizliyi və aşıq ənənəsinin tarixi ardıcıllığını anlamaması da açıq şəkildə nümayiş etdirilir. Bu baxımdan Seyfəddin Dağlının məqsədi yalnız yumoristik situasiya yaratmaq deyil, Xuduş obrazı həm gülüş doğuran, həm də düşündürücü bir fiqur kimi təqdim olunur. O, aşıqlığın daxili mahiyyətini qavramadan bu sənətə yiyələnməyə çalışan bir "sənət təqlidçisi" təsiri bağışlayır. Lakin, zənnimizcə, müəllifin bu yanaşması tam uğurlu hesab edilə bilməz. Çünki obrazın bu qədər səthi təqdimatı aşıq sənətinin dərin mənəvi mahiyyətini kölgədə qoyur və müəyyən mənada onun yanlış təsəvvürünü formalaşdırır. Bu isə bədii ümumiləşdirmənin balansını zəiflədir və aşıq obrazının təqdimatında müəyyən qeyri-dəqiqliklərə yol açır.

Seyfəddin Dağlının "Şirin duz" romanında aşıq obrazının təqdimatı bəzi hallarda müəllifin bu sənətin peşəkar incəliklərinə tam bələd olmadığını göstərir. Xuduşun davranışları və ifa səviyyəsinin təsvirində faktoloji və estetik uyğunsuzluqlar müşahidə olunur. Məsələn, əsərdə "dübeyti" havası ilə "qoşma"nın qarışdırılması (Dağlı, 1988), aşıq sənətinin texniki xüsusiyyətlərinin düzgün verilməməsi bu baxımdan diqqəti cəlb edir. Halbuki "Dübeyti" havası ənənəvi olaraq səkkizlik - gəraylı üzərində ifa olunan saz havalarına aiddir.

Aparılan təhlil göstərir ki, Seyfəddin Dağlının "Şirin duz" romanında aşıq obrazı müəyyən ideya-bədii funksiyanı yerinə yetirsə də, onun təqdimatı tam şəkildə ənənəvi aşıq sənətinin mahiyyətini əks etdirmir. Xuduş obrazı vasitəsilə aşıqlığın zahiri cəhətlərinə aldanan və bu sənətin daxili

məzmununu qavramayan bir tip yaradılmış, beləliklə, müəllif həm yumoristik, həm də tənqidi yanaşma nümayiş etdirmişdir. Lakin obrazın sadələşdirilmiş təqdimatı aşıq sənətinin zəngin poetik sistemi və mənəvi dərinliyinin kölgədə qalmasına səbəb olur. Eyni zamanda əsərdə müşahidə olunan bəzi faktoloji və texniki uyğunsuzluqlar müəllifin aşıqlıq ənənəsinin incəliklərinə tam bələd olmadığını göstərir. Bununla belə, romanın ümumi ideya istiqaməti çərçivəsində aşıq obrazı xalq mədəniyyətinə münasibətin ifadəsi kimi əhəmiyyətini qoruyur və XX əsr Azərbaycan nəsrində folklor motivlərinin işlənməsi baxımından diqqətəlayiq nümunə kimi dəyərləndirilə bilər.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Araslı, H. (1960). Azərbaycan ədəbiyyatının qədim dövrləri. Bakı.
Dağlı, S. (1988). Şirin duz . Bakı.
Mir Cəlal, P. X. (2005. s.93). Ədəbiyyatşünaslığın əsasları. . Bakı.
N.Paşayeva. (2003. s.107). İnsan bədii tədqiq obyekti kimi. Bakı: Qızıl Şərq.

THE ASHIQ FIGURE IN "SHIRIN DUZ": ARTISTIC FEATURES AND PROBLEMATIC ASPECTS

Narmin Hasanova

This article analyzes the representation of the ashig tradition in 20th-century Azerbaijani prose, focusing on Seyfeddin Dagli's novel "Shirin Duz." Within the context of literature reflecting socio-political and cultural processes, the study emphasizes the ashig figure as a carrier of national and spiritual values.

The central character, Khudush Khilminski, is portrayed as a type who is attracted to the external attributes of ashig art but fails to fully comprehend its spiritual and aesthetic essence. Through this character, the author employs both humorous and critical approaches. However, the analysis reveals several factual and aesthetic inconsistencies in the depiction of the technical and poetic features of ashig performance traditions.

In conclusion, while the ashig image in "Shirin Duz" is significant for understanding the integration of folklore into written literature, its representation also exposes certain conceptual and artistic limitations.

Keywords: *20th century, prose, novel, ashig, folklore traditions*

SƏMƏDAĞA AĞAMALIOĞLUNUN MAARİFÇİLİK MİSSİYASI I TÜRKOLOJİ QURULTAY VƏ "ƏLƏNGƏ" JURNALI KONTEKSTİNDƏ

Şəbnəm Mirzəzadə
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Elmi işçi
babayeva_shebnem@mail.ru
https://orcid.org/0000-0003-3594-4493

Məqalədə maarifçilik ideyalarının fəal nümayəndələrindən olan Səmədağa Ağamalıoğlunun həyatı, ədəbi və ictimai fəaliyyəti tədqiq olunmuşdur. Onun fəal iştirakı ilə 1926-cı ildə keçirilən I Türkoloji Qurultay XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin, eləcə də digər türk xalqlarının inkişafında mühüm rol oynamış, burada türk xalqları arasında ortaq əlifba və mədəni yaxınlaşma məsələlərinin müzakirələri aparılmışdır. O, görkəmli bir maarifçi kimi öz fəaliyyətində savadlanmanın, elmin və dünyəvi düşüncənin yayılmasını, eyni zamanda cəmiyyətin tərəqqisi üçün təhsil sisteminin yenilənməsinin və xalqın maariflənməsinin təmin olunmasını əsas məqsəd hesab edirdi. Məqalədə əsasən əlifba islahatı sahəsində gördüyü bu kimi işlər diqqətə çatdırılır.

Bundan əlavə, o, Türküstanda "Ələngə" jurnalının müxtəlif nömrələrində iştirak edərək ictimai fikrin formalaşmasına təsir göstərmiş, maarifçilik ideyalarını geniş oxucu kütləsinə çatdırmışdır. Məqalədə bu jurnalın fəaliyyəti və burada Səmədağa Ağamalıoğlunun dövrün aktual məsələlərinə həsr olunmuş məqalələri haqqında müfəssəl məlumat verilmişdir.

Nəticə etibarilə, məqalədə Səmədağa Ağamalıoğlunun həm maarifçi, həm islahatçı, həm də ictimai-siyasi xadim kimi türk xalqları tarixində fəaliyyəti araşdırılmışdır.

Açar sözlər: *Səmədağa Ağamalıoğlu, I Türkoloji Qurultay, yeni əlifba islahatı, Ələngə jurnalı, maarifçilik ideyaları, ictimai-siyasi fəaliyyət*

Giriş

Səmədağa Ağamalıoğlu 1867-ci ildə Qazax qəzasının Qıraq Kəsəmən kəndində, ağa ailəsində doğulmuşdur. O, əvvəlcə Qori Seminariyasında, sonra isə 1878-ci ildən etibarən Vladiqafqaz hərbi progimnaziyasında oxumuş və 1887-ci ildə təhsilini bitirmişdir. Səmədağa Ağamalıoğlu 1905-ci ildə bütün qazancını xidmətçilərinə paylayaraq Birinci Rusiya inqilabına qoşulmuşdur. O, 1907-ci ilə qədər əhalinin sosial vəziyyətini düzəltmək, insan hüquqlarını qorumaq və ədalətli bir cəmiyyət qurmaq üçün fəal mübarizə aparmışdır.

Səmədağa Ağamalıoğlu zəngin ictimai-siyasi fəaliyyət yolu keçmişdir. 1917-ci ilin aprelindən RSDFP-nin Gəncə Komitəsində rəhbər şəxslərdən biri olmuşdur. 1918-ci ilin fevralında Tiflisə köçərək "Hümmət" təşkilatının "Gələcək" və "Pobujdeniye" qəzetlərinə redaktorluq etmişdir. 1920-ci ilin yanvarından Kommunist Partiyasına üzv olan Ağamalıoğlu, aprel işğalından sonra Azərbaycanın ilk Xalq Torpaq Komissarı təyin edilmişdir. O, 1921-ci ildə Azərbaycan SSR MİK sədrinin müavini, 1922-ci ildə isə SSRİ MİK-in üzvü seçilmişdir. 1922-1929-cu illərdə həm Azərbaycan SSR-in, həm də Zaqafqaziya Federasiyasının MİK sədri kimi yüksək dövlət vəzifələrində çalışmışdır. *"S.Ağamalıoğlu həmin vəzifədə işləməklə Zaqafqaziyada kənd təsərrüfatının vəziyyəti və kəndlilərin həyat və məişəti ilə yaxından tanış olur. O, dərk etməyə başlayır ki, Zaqafqaziya əhalisinin əksəriyyətini təşkil edən zəhmətkeş kəndlilərin güzəranı çox pisdir; kəndlilər bir tərəfdən yerli bəy və mülkədarların, digər tərəfdən isə çar məmurlarının dözülməz zülmü altında inildəyir və ağır istismara məruz qalırlar" (Nəcəfov, 1966, s. 56).*

1918-ci ilin sonunda Tiflisdən Bakıya qayıdan Səmədağa Ağamalıoğlu parlamentdə sosialistlər fraksiyasında təmsil olunurdu. O, çıxışlarında milli hökuməti tənqid etsə də, əvvəlcə marksist-leninçilərlə eyni mövqedən çıxış etmirdi. Yalnız 1919-cu ilin ortalarından etibarən bolşeviklərə meyil etməyə başladı. Səmədağa Ağamalıoğlu bunu sonralar belə izah edirdi ki, həmin vaxt bolşevik ədəbiyyatı və Sovet Rusiyasındakı sistem haqqında kifayət qədər məlumatı olmayıbmış.

Səmədağa Ağamalıoğlu 1930-cu ildə Moskvada vəfat edib orada dəfn olunsa da, sonradan nəşinin qalıqları Bakıya gətirilərək Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

Müəllif ümumilikdə 9 kitabın və çoxsaylı məqalələrin müəllifidir. Onun "Azərbaycanın siyasi vəziyyəti" (1919), "Bizim yolumuz hayanadır?" (1924), "Türk aləmində mədəni məsələlər" (1924), "Türk-tatar xalqlarının təxirəsalınmaz mədəni ehtiyacları" (1925), "Elmdən və tarixdən", "Yeni türk əlifbasının müdafiəsində" (1927), "Oktyabr inqilabı və yeni əlifba", (1927), "İki mədəniyyət"(1929), "Namus" (1929) kimi əsərləri türk xalqlarının ağır həyatını işıqlandırmağa, onları cəhalətdən qurtarmağa və elmə, təhsilə yönəltməyə xidmət edirdi. Bu yazılarda əsas məqsəd xalqa öz tarixi mədəniyyətini xatırlatmaq və islahatlara təşviq etmək idi.

XX əsrin mühüm inqilabçısı, publisisti və dövlət xadimi kimi tanınan Ağamalıoğlu xalqın maariflənməsini hər şeydən üstün tuturdu. O, Azərbaycan və türk dünyasında bir çox siyasi və mədəni islahatların icrasında mühüm rol oynamış, Şərqdə mədəni inqilabın banilərindən biri hesab olunmuşdur. Onun ən böyük xidməti əlifba islahatı, xüsusən də latın qrafikalı yeni əlifbanın tətbiqi uğrunda apardığı mübarizədir. 1921-ci ildə Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin sədri seçilən Ağamalıoğlu, ərəb əlifbasının yaratdığı çətinlikləri (yazı və oxunun mürəkkəbliyi, səslərin düzgün ifadə olunmaması) aradan qaldırmaq üçün daha sadə və elmi olan latın qrafikasına keçidi zəruri hesab edirdi.


1926-cı ildə Bakıda I Türkoloji Qurultay keçirildi. Bu, həm azərbaycanlılar, həm də digər türk xalqları üçün tarixi bir hadisə idi. İlk dəfə məhz Bakıda dünyanın müxtəlif yerlərindən gələn türk-tatar nümayəndələri bir araya gələrək mühüm mədəni məsələləri birlikdə müzakirə etmək imkanı qazandılar. Bu qurultay "yatan Şərq" obrazını sındıraraq, xalqların oyanışını və azadlığa doğru irəliləyişini simvolizə edən mühüm bir addım oldu.

Qurultay bir çox mövzunu əhatə etsə də, xüsusilə əlifba islahatında dönüş nöqtəsinə çevrildi. Tədbirin təşkilində və keçirilməsində Səmədağa Ağamalıoğlunun böyük əməyi var idi. Qurultayda türk xalqları üçün vahid latın əsaslı əlifbanın qəbulu ideyası geniş müzakirə olundu və mühüm qərarlar qəbul edildi. I Türkoloji Qurultayı açan və ilk çıxışı edən məhz Ağamalıoğlu oldu. O, öz nitqində əlifba məsələsi ilə bağlı düşüncələrini bu cür ifadə etmişdi: *"... bu məsələdə bir-birini istisna edən iki mövqe mövcuddur: biri islah olunmuş ərəb əlifbasının tərəfdarıdır, digəri isə latın qrafikalı yeni əlifbaya köklü keçidin tərəfdarıdır. Təəssüf ki, bu mübahisələrin mahiyyətinə görə, orta bir razılıq yolu tapmaq çətin, hətta bəzən mümkün deyil. Burada "ya bu, ya o" və ya "həm bu, həm o" formulu mümkündür. Sonuncu isə hər iki əlifbanın paralel və bərabər hüquqlu şəkildə mövcud olması deməkdir. Düşünürəm ki, bu məsələdə əldə edə biləcəyimiz yeganə nəticə onun düzgün elmi şəkildə işıqlandırılmasıdır"* (Первый Всесоюзный Тюркологический Съезд, 2011, s. 8).

Səmədağa Ağamalıoğlunun səyləri nəticəsində həm Azərbaycanda, həm də digər türk respublikalarında latın qrafikalı əlifbaya keçid sürətləndi. Yeni əlifba məktəblərdə öyrədilməyə, qəzetlərdə və rəsmi sənədlərdə istifadə edilməyə başlandı. Bu dəyişiklik insanların daha tez savadlanmasına və mədəni inkişafın sürətlənməsinə böyük təkan verdi. Onun fəaliyyəti sadəcə hərflərin dəyişdirilməsi deyil, bütöv bir maarifçilik və müasirləşmə hərəkatı idi.

1920-ci illərdə SSRİ-də "əlifba inqilabı" adlanan geniş bir proses gedirdi. Ərəb əlifbasından latın qrafikasına keçid həm oxuma-yazmanı asanlaşdırmaq, həm də siyasi məqsədlər üçün həyata keçirilirdi. Bu hərəkatın mərkəzində dayanan əsas simalardan biri məhz Ağamalıoğlu idi. 1926-cı ildə Bakıda ke-

çirilən I Türkoloji Qurultayda ortaq türk əlifbası məsələsinin müzakirəsi bu ideyanı daha da gücləndirdi.




Həmin dövrün maarifçilik ruhunu əks etdirən nümunələrdən biri də 1928-ci ildən Türküstanda çap edilən "Ələngə" jurnalı idi. Bu jurnal yeni əlifba islahatının ən fəal təbliğatçısı, həm ədəbi, həm də siyasi bir platforma idi. Jurnalın səhifələrində yeni əlifbanın məktəblərdə tətbiqi, savadsızlığın aradan qaldırılması, təhsil problemləri və tarixi mövzular geniş işıqlandırılırdı. Ağamalıoğlunun bu jurnalda yer alması onun həm siyasi xadim, həm də mədəni islahatçı kimi nüfuzunu bir daha sübut edir.

Bu cür jurnalların nəşri xalq arasında savadsızlığı bitirmək, maarifçiliyi yaymaq və dövrün siyasi ideyalarını çatdırmaq məqsədi daşıyırdı. Jurnalın səhifələrində yeni əlifbanın məktəblərdə tətbiqi, təhsil problemləri, ədəbi hekayələr, tarixi mövzular və latın qrafikasına keçidin izahı kimi mühüm məsələlərə geniş yer verilirdi. Buradakı məqalələr həm yeni əlifbanı təbliğ edir, həm də xalqa maarifçi fikirlər aşılayırdı. Səmədağa Ağamalıoğlunun bu jurnalda fəaliyyət göstərməsi onun həm siyasi, həm də mədəni islahatçı kimi rolunu aydın şəkildə ortaya qoyur.

Səmədağa Ağamalıoğlu "Ələngə" jurnalının elə ilk sayının ilk səhifələrində "Yeni türk əlifbasının müvəffəqiyyətləri" adlı məqaləsi ilə oxucuların qarşısına çıxmışdır: "*Bu, Şərqdə inqilabdır. Bu doğrudur, yeni əlifba Şərqdə inqilabdır. Bu inqilab bütün türk-tatar xalqlarını, həmçinin ərəb əlifbası ilə yazan böyük ittifaqımızın bütün xalqlarını əhatə etdi, Şərqə – Türkiyəyə, İrana, Qahirəyə (Misir) və Hindistana yayıldı. Bu hadisə "şərqdə bir inqilabdır" (hər bir inqilab isə ziddiyyətləri həll edən, insanları daha da yüksək mədəniyyət pillələrinə çıxarmağa xidmət edən yeni formaların yaradılmasından başqa bir şey deyil). Buna görə də inqilabın qalib gəlməsi mədəniyyətin qalib gəlməsi deməkdir" (Ağamalıoğlu, 1928, s. 3).*

Ağamalıoğlu bu məqaləsində Oktyabr İnqilabının nəticələrindən danışmışdır. O, İslam dünyasındakı ən kəskin problemlərin həllini bu inqilabın bəhrəsi sayır və qeyd edir ki, bu tarixi hadisə xüsusilə gənclərdə elmə və savada böyük maraq oyatmışdır. Müəllifə görə, dini baxımdan müqəddəs hesab edilən ərəb əlifbası artıq cəmiyyətin tərəqqisinə mane olan bir yükə çevrilmişdi. Bu yazı sistemi müasirləşmənin tələblərinə cavab vermir və maariflənməni ləngidirdi.

Eyni zamanda, məqalədə Britaniya İmperiyası kimi güclərin bu islahatdan narahat olduğu vurğulanır. Ağamalıoğlu qeyd edir ki, imperialist qüvvələr yeni türk əlifbasının yayılmasına mane olmaq üçün Müsavat Partiyası ilə eyni mövqedən çıxış edirdilər. Bu qüvvələrin əsas məqsədi Şərq xalqlarını asılılıqda, geridə və hüquqsuz vəziyyətdə saxlamaq idi. Beləliklə, Şərq xalqları uzun müddət bu təzyiqlər altında qalmış, onların azadlığı və inkişafı sistemli şəkildə məhdudlaşdırılmışdır.



"Lakin onlar bəylər, xanlar, fabrik sahibləri, tacirlər, mollalar, seyidlər, kapitalistlər və basmaçılar millətini istismar edirlər. Onlar savadsız, nadan, sürü kimi hər buyruğa boyun əyən və zülm görmüş əməkçi milləti istismar edirlər. İnqilabçı, özünü hər bir zülmdən qurtarmağa çalışan, bütün tanrıları və şeytanları ədalətlə məğlub edən işçi millətini isə nə ingilislər, nə də musavatçılar (musavatçılar yeni əlifbaya qarşı idilər), nə də ərəblər istismar edə bilirlər (Ağamalıoğlu, 1928, s. 3).

"Yeni türk əlifbasının müvəffəqiyyətləri" məqaləsində Ağamalıoğlu belə bir nəticəyə gəlir ki, əlifba islahatı sadəcə yazı növünü dəyişmək deyil, bütövlükdə cəmiyyətin yönünü Şərqdən Qərbə tərəf çevirməkdir. Bu yenilik türk düşüncə tərzini və gündəlik həyatı dəyişmiş, Avropa dəyərlərinin yayılmasını, sosial islahatları və xüsusilə qadınların həyatındakı müsbət yenilikləri sürətləndirmişdir.

Səmədağa Ağamalıoğlu "Ələngə" jurnalının 12-ci sayında da məqalələrlə çıxış etmiş və həmin nömrədə onun şəkli dərc olunmuşdur. Jurnalın bu sayında müəllif "Yeni türk əlifbası mərkəzi komitəsinin rəisi yoldaş Ağamalı oğlu" kimi təqdim olunur. Onun "Mədəni inqilab və yeni əlifba" və "Yeni türk əlifbasının bütün dostlarına" adlı yazılarının dərc edilməsi həmin dövr mətbuatının dil və əlifba mövzusuna nə qədər böyük önəm verdiyini sübut edir. Bu məqalələrdə cəmiyyətin müxtəlif problemləri təhlil edilir, mövcud quruluşda baş verən hadisələrə müəllif münasibəti bildirilir, həmçinin qadın azadlığı və hüquqları geniş müzakirə olunur: *"Dinə bağlı inamlar, köklü adət-ənənələr, əsrlərlə formalaşmış düşüncələr uzunömürlü olur və iqtisadi bərabərliyin tam bərpasına maneələr yaradır. Məsələn, ittifaqımızın bəzi mədəni cəhətdən müstəqil vilayətlərində Özbəkistanda və Azərbaycanda qadınların hələ də qapalı şəraitdə yaşaması, evdən kənara çıxmaması bunun bir nümunəsidir. Mən bu məqaləmdə həmin şəraitin sosial əhəmiyyəti olan zorakılıq məsələsinə geniş toxunmasam da, lazım gəldikdə qeyd etmək istəyirəm ki, bu halların aradan qaldırılması yalnız zorla və inzibati yolla deyil, ədalətli qanuni tərbiyə və maarifləndirmə yolu ilə həyata keçirilməlidir" (Ağamalıoğlu, 1928, s. 2;3).*

Yekun olaraq demək olar ki, Səmədağa Ağamalıoğlunun müxtəlif qurumlardakı siyasi fəaliyyəti, maarifçi düşüncələri və "Ələngə" jurnalı daxil olmaqla, mətbuatda dərc olunan məqalələri dövrün reallıqlarını tam şəkildə əks etdirir. Onun maarifçilik baxışları əsasında aparılan islahatlar xalqın inkişafında və bir millət kimi formalaşmasında çox mühüm rol oynamışdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Ağamalıoğlu, S. (1928). Yeni türk əlifbasının müvəffəqiyyətləri. Türküstan, "Ələngə" jurnalı.
2. "Ələngə" jurnalı. – 1928-ci il, dekabr. – №12
3. Первый Всесоюзный Тюркологический Съезд. Баку: "Нагыл Еви". – 2011, – 552 с
4. Nəcəfov, X. (1966). Səmədağa Ağamalıoğlu (Bioqrafik oçerk). Bakı, Azərbaycan Dövlət nəşriyyatı.

SAMADAGA AGHAMALIOGLU'S EDUCATIONAL MISSION IN THE CONTEXT OF THE I TURCOLOGY CONGRESS AND THE "ALANGE" MAGAZINE

Shabnam Mirzazade

The article examines the life, literary and social activities of Samadaga Aghamalioglu, one of the active representatives of the ideas of enlightenment. The First Turkological Congress, held with his active participation in 1926, played an important role in the development of Azerbaijani society, as well as other Turkic peoples, at the beginning of the 20th century, where discussions were held on the issues of a common alphabet and cultural rapprochement between the Turkic peoples. As an outstanding enlightener, he considered the spread of literacy, science and secular thought as the main goal in his activities, as well as the renewal of the education system for the progress of society and the enlightenment of the people. The article mainly draws attention to such works he did in the field of alphabet reform. In addition, he influenced the formation of public opinion in Turkestan by participating in various issues of the magazine "Elanga" and conveyed the ideas of enlightenment to a wide readership. The article provides detailed information about the activities of this magazine and the articles of Samedaga Aghamalioglu devoted to the topical issues of the time.

As a result, the article examines the activities of Samedaga Aghamalioglu in the history of the Turkic peoples as an educator, reformer, and public and political figure.

Keywords: *Samadaga Agamalioglu, I Turkological Congress, new alphabet reform, Alanga magazine, enlightenment ideas, socio-political activity*

XOYRAT YARADICILIĞININ ÇAĞDAŞ İRAQ-TÜRKMAN POEZİYASINA TƏSİRİ

Orxan İsayev
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Böyük elmi işçi
orkhanlit@gmail.com
https://orcid.org/0000-0003-4854-8748

İraq-Türkman şifahi xalq və yazılı ədəbiyyatı öz zənginliyi ilə seçilir. Bu zənginlikdə xoyrat yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. Xoyrat folklor janrı hesab olunsa da, İraq-Türkman yazılı ədəbiyyatında da özünü göstərir. Klassik İraq-Türkman ədəbiyyatından başlayaq müasir ədəbiyyat mərhələsinə qədər türkman şairlər xoyrat yazmağa üstünlük vermişlər. XX-XXI əsrlərdə cərəyan edən ictimai-siyasi proseslər xoyrat yaradıcılığını yeni bir mərhələyə daşımışdır. Məqalədə xoyrat yaradıcılğının müasir İraq-Türkman ədəbiyyatına təsiri araşdırılmış, onun müsbət tərəfləri qeyd edilmişdir.

Açar sözlər: *İraq-Türkman ədəbiyyatı, xoyrat, mani, folklor, Azərbaycan türkcəsi, cinas*

Giriş

İstənilən xalqın yazılı ədəbiyyatı folklor ənənələri üzərində pərvəriş tapır. Folkloru zəngin olan xalqın yazılı ədəbiyyatı həm janr, həm də mövzu baxımından rəngarəng olur. Bu baxımdan İraq-Türkman ədəbiyyatı da istisna deyil. İraq ərazisində məskunlaşan türkmanların yaratdıqları ədəbiyyat XVI əsrin II yarısına qədər Azərbaycan, həmin tarixdən XX əsrin əvvəllərinə qədər isə Osmanlı ədəbiyyatının bir hissəsi kimi inkişaf edib. Tarixi, ictimai-siyasi proseslər səbəbindən XX əsrin əvvəllərindən başlayaraq İraq türkmanlarının ədəbiyyatı müstəqilləşməyə və milliləşməyə başladı. Qeyd etdiyimiz kimi, bunun başlıca səbəbi siyasi və ictimai hadisələr idi. I Dünya müharibəsindən sonra türkmanların yaşadıqları ərazi Türkiyədən ayrıldı və İraq dövlətinin tərkibində saxlanıldı. Bu torpaqlarda vaxtilə aparıcı ünsür olan türkmanlar milli azlıq səviyyəsinə endilər. Bundan sonra onların haqq və hüquqları tapdanmağa, özləri təqib olunmağa, dilləri qadağan olunmağa başladı. Fiziki cəhətdən də soyqırımlara məruz qalmaları, artıq türkmanların bir xalq kimi İraqda varlıqlarını da sual altına salırdı. Məhz belə bir məqamda özünümüdafiə instinkti işə düşdü. Hər vəchlə milli kimliklərini qorumağa çalışan türkmanların əsas silahı ədəbiyyat oldu. Bu səbəbdən də XX əsrdə İraq-Türkman ədəbiyyatı tarixində yeni bir mərhələ başladı və yeni inkişaf istiqaməti müəyyənləşdi. Artıq bu əsrdə İraq-Türkman şairləri klassik şeir ənənələrinə yox, yeni janr və mövzulara üstünlük verməyə başladılar. Məhz bu səbəbdən heca vəzni və sərbəst şeir inkişaf etməyə başladı. *"İraq-Türkman ədəbiyyatında heca vəzninin geniş yayılmasının səbəblərini araşdırarkən gördük ki, heca vəznində yazılan şeirlərdə türkmanların tarixindən, görkəmli şəxsiyyətlərindən, el-obalarından, adət-ənənələrindən, ictimai-siyasi vəziyyətlərindən bəhs edilir. Bu baxımdan da İraq-Türkman ədəbiyyatında heca vəznində yazan şairlərin sayı artır, bir-birindən gözəl sənət nümunələri ərsəyə gəlirdi. Sanki heca vəzni türkman şairlərinə öz dərdlərini ifadə etmək üçün daha geniş imkanlar açırdı"* (Paşayev, 2025).

Sözsüz ki, heca vəzninin və sərbəst şeirin İraq-Türkman ədəbiyyatına ayaq açması klassik şeir janrlarında yazanların sayını xeyli azaltdı. Əsrin əvvəllərində Hicri Dədə, Məhəmməd Sadiq, Ərəb Fəhmi, Xıdır Lütfi, Rza Qəmbər Dəmirçi, Sadullah Müfti, Əsəd Naib kimi şairlər hələ də əruz vəznində şeirlər yazırdılar. Lakin bu şeirlərin də mövzusu orta əsrlərdə olduğu kimi yalnız məhəbbət və ya ilahi eşq yox, dövrün ictimai-siyasi hadisələri ilə bağlı idi.

XX əsr İraq-Türkman poeziyasında folklor ənənələri də yaşamaqda davam edirdi. Bu özünü daha çox xoyrat yaradıcılığında göstərirdi. Ümumiyyətlə, xoyrat İraq türkmanlarının milli simvoluna çevrilmişdi. Əta Tərzibaşı "Kərkük xoyrat və maniləri" kitabında mövzu ilə bağlı yazırdı: *"Kərkük anıldığı*

zaman xatirə ilk olaraq xoyrat gəlir və xoyrat adını duyduğumuz vaxt xəyallarımızda Kərkük eli canlanır" (Tərzibaşı, 1975). Bu səbəbdən də İraq-Türkman folklorunda xoyrat və mani yaradıcılığı kifayət qədər geniş yayılmışdır. Bu şifahi şeir janrı xalqın poetic düşüncəsinin zirvəsi idi. Təbii ki, xalq yaradıcılığında dərin iz buraxmış xoyrat düzüb-qoşmaq və ya xoyrat demək ənənəsi yazılı ədəbiyyata da təsir göstərmişdi. *"İraq Türkman ədəbiyyatı tarixi" kitabında qeyd olunur ki, hələ orta əsrlərdən İraq-Türkman şairlərində xoyrat yazmaq, bəzi hallarda bədahətən xoyrat demək bacarığı olduğu üçün hecada şeir yazmaq o qədər də çətinlik yaratmadı və İraq-Türkman ədəbiyyatında klassik şeir ənənələrindən heca vəzninə keçid rahat şəkildə baş tutdu* (Paşayev, 2025). Klassik ədəbiyyatda xoyrat yazmaq ənənəsinin mövcud olduğunu Əta Tərzibaşı da təsdiq edir. O, Kərkükdə məşhur olan

Gülə naz,
Bülbül eylər gülə naz.
Girdim dost baxçasına
Ağlayan çox, gülən az - xoyratının dahi şair Məhəmməd Füzuliyə aid olduğunu iddia edir (Tərzibaşı, 1975). Təbii ki, bu iddianın nə qədər doğru olduğunu söyləmək çətindir. Məsələnin düşündürücü tərəfi odur ki, Əta Tərzibaşı həmin xoyratı Füzuliyə aid etməklə klassik ədəbiyyatda da xoyrat yazılması ənənəsinin olduğunu göstərir.

XX əsrdə heca vəzninin geniş yayılması xoyrat yazmaq ənənəsini yenidən gündəmə gətirdi. Çağdaş İraq-Türkman şairləri yenidən xoyrat yaradıcılığına üstünlük verməyə başladılar. Professor Qəzənfər Paşayev yazır ki, *əruz vəznində yazan türkman şairləri sərbəstdə və hecada, sərbəst və hecada yazan şairlər isə əruzda yazmayıblar. Lakin bütün şairlər xoyrat yazıb* (Paşayev, 2019).

Xoyrat yazmaq ənənəsi son illərdə də kifayət qədər geniş yayılmışdır. Müasir İraq-Türkman şairlərinin əsərlərinə nəzər saldıqda bunun şahidi olmaq mümkündür. Lakin bu məsələdə xüsusi bir məqama diqqət etmək lazımdır. Belə ki, xoyrat şeir şəklinin başlıca xüsusiyyəti qafiyələrinin cinaslı olmasıdır. Xoyratların şeir strukturunda yazılan, lakin cinaslı sözlərlə qafiyələnməyən dördlüklər isə manilərdir. "İraq-türkman folkloru" kitabında xoyratlara belə bir tərif verilir: *"Xoyrat və manilər cinaslı və adi qafiyəli olmaqla iki yerə bölünürlər. Cinaslılar xoyrat, cinassızlar isə "mani" və ya "maani" adlanır"* (Paşayev, Bəndəroğlu, 2009). İraq-türkman ədəbiyyatşünası Mehmet Ömər Qazançı 2024-cü ildə çap etdirdiyi "Çaxmaq, çaxmaq" adlı kitabında yazır: *"Xoyrat sıradan bir şeir türü deyildir. Bir dil oyunu, dil ustalığı üzərində qurulan sənətdir. Bu sənət cinasdan başlar. Cinaslı sözlər xoyratların təməlini oluşdurur. Hər hansı bir insan, hətta sıradan bir insan bir cinas buldusa, bəzən üstündə çalışır, bəzən də özünü heç çətinə salmadan bir xoyrata çevirir"* (Qaznçı, 2024).

Göründüyü kimi, xoyratlar birmənalı olaraq cinas qafiyələrdən təşkil olunmalıdır. Lakin son iki ildə şairlərin xoyrat adı verdikləri dördlüklərdə cinaslara rast gəlinmir. Aydın Kərkük "Türkmaneli" ədəbiyyat və sənət dərgisinin 2024-cü ildə işıq üzü görən 194-cü sayında dərc etdirdiyi "Xoyrat dəftərimdən" adlı dördlüklərində cinas qafiyələrə rast gəlinmir.

Diyillər xoyrat selə,
Vermə kılavuv yelə.
Biz adam axtarırıx
Bağlayağın bel-belə.
***
Bu yazı, bu qələmdi,
Bu sudu, bu bələmdi.
Ayağım yola verməz,
Bilmirəm, nə bələmdi.

Son illərdə xoyrat yazan şairlərin bu şeir növünün ən əsas qanuna riayət etməmələri ilə bağlı daha çox nümunə göstərmək mümkündür. Amma bu, heç də o demək deyil ki, xoyrat yazan bütün İraq-

Türkman şairləri xoyratın əsas qanununa raiyət etmir. 2025-ci ildə Bakıda nəşr olunan "Kərkükün günəşi" şeir kitabında Şəmsəddin Kuzəçinin cinaslı xoyratları da yer alıb:

Az almarıq,
Aldıysaq, az almarıq.
Kökümüz altı dövlət,
Ölüncə azalmarıq (Kuzəçi, 2025)
***
Belin yerə,
Vur bağban, belin yerə.
Gəl, dilimdən sənəd al,
Vermərəm belin yelə (Kuzəçi, 2025)
***
Dam harda,
Bina harda, dam harda?
Eşqin qəlbimdə gəzər,
Qan yerinə damarda (Kuzəçi, 2025)

Lakin İraq-türkman şairlərinin xoyrata üstünlük vermələri dil amili baxımından çox önəmlidir. Bizə yaxşı məlumdur ki, türkmanların danışıq dili Azərbaycan türkcəsindədir. XVI əsrin II yarısından etibarən Osmanlı dövlətinin tərkibində olan İraq türkmanlarının ədəbi dili İstanbul şivəsinin təsiri altında qalmış və zaman keçdikcə ədəbiyyat nümunələri məhz Türkiyə türkcəsində yazılmışdır. Günü bu gün də İraq türkmanlarının ədəbi dili Türkiyə türkcəsindədir. Xoyrat yazan şairlər şifahi xalq ədəbiyyatının ənənələrinə uyğun olaraq bu dördlükləri yerli şivədə yazmağa üstünlük verirlər. Bu baxımdan xoyratların dili Azərbaycan türkcəsinə çox yaxın, bəzən isə eyni olur. Məsələn:

Nə dediv, dediv bizə,
Bir gün gəlliğ üz-üzə.
Biz qolay bükülməriğ,
Dizimiz gəlməz dizə (Kərkük, 2024).

Bəzi dördlüklərdə işlənən sözlərə isə Türkiyə türkcəsində deyil, Azərbaycan türkcəsində rast gəlinir. Həmin sözlər bu gün Azərbaycan ədəbi dilində və dialektlərdə işlədilir. Məsələn:

Bəs bir gün gəl imana
Kimə gedim dərmana?!
Ustad əskidən diyip
Heç çar olmaz yamana (Kərkük, 2024).

Bu dördlükdə işlənən "dərman" və "çar", yəni "çarə" sözləri Türkiyə türkcəsində "ilac" və "yardım" sözləri ilə ifadə edilir. Mahmud Qasapoğlunun aşağıdakı şeirində işlədilən sözlər bir daha dillə bağlı dediklərimizi təsdiq edir:

Erkəkdi dişi degi,
Aldanan kişi degi.
Haqsızlığa göz yummağ
Mərt adam işi degi (Kasapoğlu, 2024).

Dördlükdə rədif kimi işlədilən "degi" sözü Kərkük ləhcəsində yazılmışdır. Ən çox maraq doğuran "erkək" və "kişi" sözləridir. Türkiyə türkcəsində "erkək" kişi cinsindən olan insanı ifadə etdiyi halda, Azərbaycan türkcəsində bu söz kişi cinsindən olan heyvan anlamına gəlir. Türkiyə türklərinin işlətdiyi "kişi" sözü isə Azərbaycan dilindəki "nəfər" mənasını ifadə edir. Mahmud Qasapoğlunun şeirinin mənasına nəzər saldıqda müəllifin həmin sözləri sırf Azərbaycan dilində olduğu kimi işlətdiyi aydın şəkildə görünür (Paşayev, 2019).

Çağdaş İraq-Türkman ədəbiyyatında xoyrat yazmaq ənənəsi geniş yayılıb. Bu, həmin ədəbiyyatın folklordan gələn ənənələrə sadiqliyini nümayiş etdirir. Xoyratın geniş yayılması mövzu və dil baxımından da İraq-Türkman ədəbiyyatının inkişafına təkan verir. Yazılı xoyratlarda təkcə eşq, məhəbbət mövzuları deyil, ictimai, siyasi, sosial mövzular da öz əksini tapır. Bundan əlavə, dil baxımından ədəbiyyatın zənginləşməsində də xoyrat yaradıcılığının xüsusi əhəmiyyəti var. Yuxarıda qeyd etdiyimiz kimi, türkmanların danışıq dili Azərbaycan türkcəsinin yazılı ədəbiyyata yenidən qayıtmasında xoyrat yaradıcılı önəmli rol oynayır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Paşayev, Q., & Bəndəroğlu, Ə. (2009). Azərbaycan folkloru antologiyası: İraq-türkman folkloru. Bakı: Nəşriyyat.
2. Paşayev, Q. (Ed.). (2019). İraq Türkman poeziya antologiyası (I cild). Bakı: Nəşriyyat.
3. İsayev, O. (2025, 11 iyul). 2023–2024-cü illərdə İraq-Türkman ədəbiyyatında ədəbi proses. Ədəbiyyat qəzeti, (24), p.14.
4. Kasapoğlu, M. (2024). Zamanın dəyişməyən huyu. Ərbil: Nəşriyyat.
5. Kərkük, A. (2024). Xoyrat dəftərimdən. Türkmaneli jurnalı, 194, p.26.
6. Kuzəçi, Ş. (2025). Kərkükün günəşi (şeirlər). Bakı: Vektor Beynəlxalq Nəşrlər Evi.
7. Qazancı, M.Ö. (2024). Çakmak çakmak. İstanbul: Nəşriyyat.
8. Paşayev, Q., & İsayev, O. (2025). İraq Türkman ədəbiyyatı tarixi. Bakı: Elm və Təhsil.
9. Tərzibaşı, Ə. (1975). Kərkük xoyratları və maniləri. İstanbul: Ötüken.

THE IMPACT OF HOYRAT POETRY ON CONTEMPORARY IRAQI TURKMEN LITERATURE

Orkhan Isayev

Iraqi Turkmen oral and written literature is distinguished by its richness. Within this richness, the hoyrat tradition holds a special significance. Although considered a folkloric genre, hoyrat also manifests in Iraqi Turkmen written literature. From classical to contemporary stages, Turkmen poets have preferred composing hoyrat. Socio-political developments in the 20th and 21st centuries have brought hoyrat creation into a new phase. This article examines the influence of hoyrat on contemporary Iraqi Turkmen literature and highlights its positive aspects.

Keywords: *Iraqi Turkmen literature, hoyrat, mani, folklore, Azerbaijani Turkish, rhyme play (cinas)*

ƏLİ BƏY HÜSEYNZADƏNİN DÜNYA ƏDƏBİYYATINDA TÜRKLÜYƏ İKİ FƏRQLİ MÜNASİBƏTƏ DAİR MÜKƏMMƏL ARAŞDIRMASI

Aygün Orucova
AMEA-nın Naxçıvan Bölməsi
Filologiya üzrə fəlsəfə doktoru, dosent
orujovaaygun82@gmail.com
https://orcid.org/0000-0001-7450-2191

Bu məqalə Əli bəy Hüseynzadənin 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkologiya Konqresində təqdim etdiyi "Qərbin iki dastanında türk" əsərini araşdırır. Hesabat həmin dövrdə böyük diqqət çəkmiş və eyni il kitab formasında nəşr olunaraq daha geniş oxucu kütləsinə çatdırılmışdır. "Qərbin iki dastanında türk" əsəri portuqaliyalı şair Kamoezin "Luziada" və italyan şairi T. Tasso-nun "Qurtarlmış Qüds" əsərlərində türkün təsvirlərini araşdırır. Lakin əslində, bu simvolik şəkildə yazılmış iş 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu və sonrasında Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalını tənqid edir. Hər iki epik əsərin mövzu mərkəzi xristian dövlətlərinin Şərq torpaqlarına qarşı təcavüzüdür. Əli bəy Vasko da Qamanın Hindistanı kəşf etməsi ilə 1920-ci ildə Sovet Rusiyasının Azərbaycana işğalı arasında paralellik qurur. Böyük sənətkar "Luziada"dan elə bədii parçaları, fəsilləri, təsvirləri, mühakimələri əsərinə gətirmişdir ki, bu hadisələr, təsvirlər onun öz müdaxiləsilə çox aktual siyasi hadisəyə yönəldilmişdir.

Açar sözlər: *türk, xristian, müsəlman, azadlıq, bolşevizm*

Giriş

XX əsr Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, "türkçülüyün atası", tanınmış ədib, publisist Əli bəy Hüseynzadənin (1864-1940) yaradıcılığı ədəbi prosesə güclü təsir göstərmiş, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının, "Füyuzat" ədəbi məktəbinin əsasını qoymuşdur. "Bütün Türk dünyasının mücahidi" (Prof. Turan Yazqan) Ə.Hüseynzadə "Siyasəti-fürusət", "Türklər kimdir və kimlərdən ibarətdir?", "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlar altında toplanmış dəyərli əsərləri, "Həyat" qəzeti, "Füyuzat" jurnalındakı fəaliyyəti ilə adını qızıl hərflərlə türkçülük tarixinə yazmışdır.

Ucundadır dilimin,
Həqiqətin böyüyü.
Nə qoydular deyəyim,
Nə kəsdilər dilimi (Hüseynzadə, 2007, s. 35).

XX əsrin əvvəllərində müstəmləkə əsarətinin kəskinləşdiyi, milli siyasi şüurun boğulduğu bir şəraitdə Əli bəy Hüseynzadənin demək istədiyi "*həqiqətin böyüyü"* – müsəlman və türk xalqlarını azadlıq və ittihad uğrunda mübarizəyə səsləyən çağırışı ifadə edirdi" (Hüseynzadə, 1996, s. 45). Ədibin zəngin yaradıcılığının bir sahəsini də dünya və Azərbaycan ədəbiyyatının tədqiqi və türklüyə münasibət məsələləri təşkil edir.

I Türkoloji Qurultaya dəvət. "*1926-cı ilin 26 fevralından 5 marta qədər Azərbaycanda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının elmi-mədəni birliyinə, ortaq milli-mənəvi dəyərlərinin inkişaf etdirilməsinə, inteqrasiya proseslərinin dərinləşdirilməsinə geniş üfüqlər açan ictimai hadisə"* (Həbibbəyli, 2016, s. 7) olan qurultaya Türkiyə Cümhuriyyətindən dəvət olunmuş 4 nümayəndənin biri "türkçülüyün atası" kimi tanınmış Ə.Hüseynzadə olmuşdur. İsmailiyyə binasının yanında qoyulan radio efirində qurultayın gedişatı şəhər sakinləri tərəfindən izlənilirdi. *"İllər sonra doğma vətəninə gəlişi Azərbaycanda böyük maraqla qarşılanmış, haqqında o dövrün mətbuatında bir çox yazılar, məqalələr, şəkillər çap olunmuş, bəzi məqalə və şeirləri nəşr edilmiş, hətta sənədli film çəkilmişdir* (Mirəhmədov,

1984, s. 55-59). Qurultayda Ə.Hüseynzadə "Qərbin iki dastanında türk" adlı məruzəylə çıxış etmişdir. Bu məruzə çox böyük maraq doğurmuş və elə həmin ildə Bakıda nəşr edilərək ictimaiyyətə çatdırılmışdır. Əli bəy qurultayın rəyasət heyətinə fəxri üzv seçilmişlər. Lakin "Birinci Türkoloji Qurultayın fəxri rəyasət heyətinə seçilmiş Əli bəyin çıxışı, təəssüf ki, qurultayın stenoqramına daxil edilməyib. Hüseynzadənin bu qurultayla əlaqədar yazdığı birdəftərlik qeydlərini türkiyəli alim Hilmi Ziya Ülken "Türk sosializminin və türkçülüyün atası Əli Turan" əsərinə daxil edib.

"Qərbin iki dastanında türk". Şərti olaraq məruzə adlandırılan "Qərbin iki dastanında türk" filologiya elmləri doktoru, professor Bədirxan Əhmədlinin fikrincə, *"əslində mükəmməl struktura malik bir əsərdir, onun həcmi, mövzusu da məruzə janrına uyğun gəlmir... bolşevizmin tüğyan etməsi şəraitində bu məruzəsində önəmli mesajlar vermişdir"* (Əhmədli, 2016, s. 50). "Qərbin iki dastanında türk" Azərbaycan türklərinin azadlığı uğrunda çalışmağı haqq yolu kimi seçən Ə.Hüseynzadənin öz xalqı qarşısında son çıxışı, son sözləri idi. Bu çıxış böyük ədibin siyasi vəsiyyəti idi. Çünki xalqının istiqlaliyyəti məhv olmuş, vətəni Rusiya tərəfindən ikinci dəfə bolşevizm qiyafəsində işğal olunmuşdu. Əsər Portuqaliya şairi Kamoensin "Luziada" və İtaliya şairi T.Tassonun "Qurtarılmış Qüds" əsərlərində türkə münasibət məsələlərindən bəhs edir. Əslində isə rəmzlərlə yazılmış bu əsər 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalı haqqında ittihamnamədir. Hər iki əsərin mövzusu xristian dövlətlərinin Şərq torpaqlarına təcavüzkarlığından bəhs edir. Əli bəy 500 il bundan əvvəl Portuqaliya dənizçisi V.D.Qamanın Hindistanı kəşfi ilə 1920-ci ildə Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalını bir-birinə bağlayır. Böyük sənətkar "Luziada"dan elə bədii parçaları, fəsilləri, təsvirləri, mühakimələri əsərinə gətirmişdir ki, bu hadisələr, təsvirlər onun öz müdaxiləsilə çox aktual siyasi hadisəyə yönəldilmişdir. "Qərbin iki dastanında türk" əsərində bir-birinə qarşı duran iki dünyanın mübarizəsi təsvir olunmuşdur. Bu dünyanın biri Qərbin tamahkarlıq, qəsbkarlıq dünyası, o biri isə öz torpağını, varlığını qoruyan Şərq dünyasıdır. Bu məqsədlə əsərdə əsas iki xətt vardır. Böyük ədib istibdadı, təcavüzü V.D.Qama, I Juan, Henri, IV Alfons, Kral Manuel, azadlıq və istiqlaliyyət ideyalarının tərənnümünü isə "Qurtarılmış Qüds" əsərində xristian müstəbidlərinin təcavüzkarlığının qurbanı olmuş Səlcuq hökmdarı Süleyman, türk qəhrəmanı Aldəmir, Səlahəddin Eyyubi obrazlarında təsvir etmişdir.

"Luziada" əsərinin baş qəhrəmanı Vasko da Qama XVI əsrdə Hindistan və Afrika xalqlarına zülm edən, əsarətə məruz qoyan müstəmləkəçi obrazıdır. Əsərdə həmçinin, "müsəlmanlara qarşı kin və xüsumətini gizli saxlayan" Şaumyanın, onun "mücahidatı-bəhriyyəsini ittixaz edən" Venera və dəniz nereidləri də daşnak bolşevik diktaturasının obrazlarıdır. Əsərdə "Luziada"nın qəhrəmanları rəmzi obraz kimi təqdim edilmişdir. Kamoens - Rusiya, II Juan - II Nikolay, Kral Manuel – Lenin, Pol de Qama – Stalin, və s.

Böyük sənətkar əsərdə V.D.Qamanın qanlı portreti ilə erməni millətçilərinin rəmzi obrazını yaratmışdır. Lakin o təkcə bir əsrin qəsbkar, qəddar obrazı deyil. V.D.Qamada hər bir dövrün müstəbidi öz surətini, xarakterik cəhətlərini görə bilər. Əli bəy Hüseynzadə əsərdə "Luz əlində bir dal tuturdu" – sözlərilə Lenin hökümətinin çar Rusiyasının müstəmləkəçilik ənənələrini davam etdirməsini açıqlamışdır. Bu ənənə I Pyotrun məşhur vəsiyyətnaməsi idi. Əsərdə Hindistanın Malabar ölkəsində hökmdar olan kralların sonuncusu Sarama Perimal M.Ə.Rəsulzadənin rəmzi obrazıdır. İstedadlı ədib onun yüksək əqidəsinə, türkçülüyünə, xalqın səadəti uğrundakı fəaliyyətinə elə rəmzi ifadələrlə işarə etmişdir ki, o, oxucunun təsəvvüründə dolğun səciyyəli siyasi, ictimai xadim kimi canlanır. Əsərdə dəliqanlı hind naziri Samurinlərin (Azərbaycan bolşevikləri nəzərdə tutulur) vükəlasından olan Katual isə N.Nərimanovun obrazıdır. Şeytanın portəgizlərin işğalçılıq məqsədilə Hindistana gəlmələri haqqında dediyi həqiqətlər Katualı vahiməyə salır. Bu günə qədər gördüklərini röya hesab edən "islam alimi"nin bütün vücudu lərzəyə düşür.

Əsərdə Adamastor Thetisə - azadlığa eşqi üzündən daşlaşan, cəsim bir qayalığa çevrilən şərəfli bir ölkənin – Azərbaycanın obrazı kimi təqdim olunur. O, fəlakətə uğrayıb əsarət üzündən daşlaşsa da, azadlıq uğrunda mübarizə eşqi, intiqam hissi onda sönməmişdir.

T.Tassonun "Qurtarılmış Qüds" poeması türkçülük ruhuna görə Kamoensin "Luziada"sına cavab olaraq yazılmışdır. Kamoens Portuqaliyanın tarixi keçmişini, qəhrəmanlığını vəsf edərkən əsarət altına alınmış türk xalqlarının faciəsini görə bilməmişdir. Tasso isə məhkum xalqların faciəsini görür və yanırdı. Tasso səlib müharibələrində din uğrunda mübarizələrə atılan Qodefroilərdən başqa doğma vətəni uğrunda mübarizə aparan Səlahəddin Eyyubilərin, Süleymanların, Aldəmirlərin də qəhrəmanlığını görürdü. Buna görə də o öz əsərində müsəlman xalqlarının da möhtəşəm obrazlarını yaratmışdır. Şair türk xalqlarının azadlıq eşqini əsərin baş qəhrəmanı Süleyman obrazında cəmləşdirir. Misir torpağının sərkərdəsi Süleyman öz ağlı və uzaqgörənliyi ilə xristian sərkərdəsi Qotfriddən yüksəkdə durur. Tassoda humanizm, ümumbəşəri hisslər bütün başqa hisslərdən üstündür. O, Kamoensdən fərqli olaraq, poemada türklərə dərin hörmət və rəğbət bəslədiyini açıq-aşkar ifadə edir. Ə.Hüseynzadə də Tassonu məhz bu xüsusiyyətinə görə yada salmışdır.

Nəticə

Ə.Hüseynzadə vətəninin, xalqının ağır günlərində Tasso çağırışı ilə Azərbaycana gəlir, öz məramını da Tasso əsərinin ideyaları ilə açır. Dahi sənətkarın xalqına vəsiyyəti kimi səslənən bu əsərdə Azərbaycan xalqına istiqlaliyyət uğrunda mübarizə yolları göstərilmişdir: *"Ey mənim dinimin salikləri! Düşmənin şərrindən həzər ediniz! Hənuz təhlükə qabili-ictinabdır!"* (Hüseynzadə, 2007 b, s. 432). Bu sözlərdə dərin bir hikmətlə bərabər xalq üçün döyünən alovlu bir qəlbin böyük narahatçılığı, yalvarışı var idi. Əli bəy Hüseynzadə Şərq xalqlarının milli şüurunu öldürən "Bütün ölkələrin proletarları, birləşin!" – şüarını xalqının müdafiə edəcəyindən qorxurdu. Böyük ədib xalqını bu bəladan, bolşevizm təhlükəsindən xilas etmək istəyirdi. O, çox böyük siyasi uzaqgörənliklə gələcəyi görür və tələb edirdi ki, düşmənin vətən torpaqlarına ayaq basmağına mane olsunlar. Böyük ədib işğalçılara qarşı mübarizə aparmağa, ayıq olmağa çağırır, bolşevik qiyafəsində gələnləri xalqına tanıtdırır, onların, əslində, azadlıq və istiqlaliyyət düşməni olduqlarını tarixi keçmişə nəzər salmaqla isbatlayır: *"Əmin olunuz ki, güruhi-cühəlanın gözünə girmək üçün gündə bir məslək dəyişdirərək pərvətə kimi qəlibdən-qəlibə, şəkildən şəklə düşən bu düşmənlər irz və namus pərdəsi altında zavallı xalqın varını, yoxunu qəsb və qarət edənlərdir. Bu zalım və hissiz və mərhəmətsiz xalqa acımayınız. Bunların mükafatları ancaq küfranimətdir. Düşmənin şərrindən həzər ediniz!"* (Hüseynzadə, 2007 b, s. 435). Bolşevizm əleyhinə ittiham aktı kimi səslənən bu əsər Əli bəy Hüseynzadənin böyük cəsarətlə yazılmış siyasi, bədii, mənəvi qələbəsi idi.

Böyük sənətkar əsərdə müstəmləkəçiliyin törətdiyi zülm və əsarət faktlarını sadəcə qeyd etməklə kifayətlənməmiş, insanları öz haqqları, azadlıqları uğrunda mübarizə etməyə israrla səsləmişdir: *"Huzur və rahatı başqa günlərə, başqa məsud zamanlara burax. Şimdi əziz vətəninin sevgili təbanı əcnəbi boyunduğu altında inləyib duruyor. Uyğu zamanı deyildir!"* (Hüseynzadə, 2007 b, s. 436). Əli bəy Hüseynzadənin Tasso dililə xalqına böyük bir tələşlə vəsiyyət etdiyi yüksək fikirlər bunlar idi. Əli bəy Hüseynzadənin bu əsəri xalqını əsarətə qarşı mübarizəyə çağırış hissilə yazılmış mənsur himn idi. Və bu, böyük ədibin vətənində çap etdirdiyi son əsəri idi!

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Əhmədli B. "I Türkoloji Qurultayda ədəbiyyat məsələləri. Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda beynəlxalq konfransın materialları (I hissə).Bakı: Elm və Təhsil, 2016, 482 s., s. 50-54

2. Əli bəy Hüseynzadə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. (Transliterasiya, tərtib, müqəddimə və izahların müəllifi Ofeliya Bayramlı). Bakı: Azərnəşr, 1996, 253 s.

3. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. (Transliterasiya, tərtib və izahların müəllifi Ofeliya Bayramlı). Bakı: Çaşıoğlu, 2007, 640 s

4. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. (Elmi redaktoru və izahların müəllifi Azər Turan). Bakı: Şərq-Qərb, 2007, 480 s.

5. Həbibbəyli İ. Birinci Türkoloji Qurultayın dərsləri və müasir çağırışlar. Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda beynəlxalq konfransın materialları (I hissə).Bakı: Elm və Təhsil, 2016, 482 s., s. 7-13

6. Mirəhmədov Ə. Əli bəy Hüseynzadə. "Fikrin karvanı" (Tərtib edəni, redaktoru və ön sözün müəllifi). Bakı: Yazıçı, 1984, 348 s.

7. Rəfiq Zəka Xəndan. Unudulmuş dahi. "Qobustan" incəsənət toplusu. Bakı, 1990, №4.

ALI BEY HUSEYNZADEH'S COMPREHENSIVE STUDY ON TWO DISTINCT ATTITUDES TOWARD TURKISM IN WORLD LITERATURE

Aygun Orujova

This article examines Ali bey Huseynzadeh's work "The Turk in Two Western Epics", presented at the First Turkological Congress held in Baku in 1926. The report attracted considerable attention at the time and was published in book form in the same year, making it accessible to a wider audience. "The Turk in Two Western Epics "addresses representations of the Turk in "The Lusiads "by the Portuguese poet Camoes and "Jerusalem Delivered" by the Italian poet T. Tasso. In essence, however, this symbolically written work constitutes an indictment of the collapse of the Azerbaijan Democratic Republic in 1920 and the subsequent occupation of Azerbaijan by Soviet Russia. The thematic focus of both epics is the aggression of Christian states against Eastern lands. Ali bey draws a parallel between Vasco da Gama's discovery of India five centuries earlier and the occupation of Azerbaijan by Soviet Russia in 1920. The great intellectual incorporates into his work selected artistic passages, chapters, descriptions, and reflections from "The Lusiads", transforming these events and images through his own intervention into a commentary on contemporary political realities.

Keywords: *Turk, Christian, Muslim, freedom, Bolshevism*

KİTABİ-DƏDƏ QORQUD ƏSƏRİNDƏ FƏLSƏFİ BAXIŞLAR VƏ RƏQƏMSALLAŞMA

Afaq Hacıyeva
AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu
Elmi işçi
afaq.aslanova92@gmail.com
https://orcid.org/0009-0002-0967-248X

Məqalənin birinci hissəsində Türk xalqlarının keçdiyi tarixi yol, yaşadıqları məkan sadəcə xronoloji ardıcıllıq kimi deyil, "Kitabi-Dədə Qorqud" dastanı əsasında Türk xalqının olmaq istədikləri və olduqları məkan utopik və anti-utopik baxımdan səciyyələndirmişdim. Burada Oğuz xalqlarının birbirlərinə, qonşu xalqlarla münasibəti fəlsəfi baxış şəkildə göstərilir və eyni zamanda Klassik ədəbiyyatımızın zirvəsi Nizami Gəncəvi əsərlərində də utopik və anti-utopik mövzulara toxunmaq məqalədə bu mövzunu daha da maraqlı etmişdir. Mövzumuzun ikinci hissəsində "Kitabi-Dədə Qorqud" abidəsi əsasında Türk xalqlarının dili, coğrafiyası, rəqəmsallaşmanın müasir dövrümüzə təsiri məsələsi vurğulanır.

Açar sözlər: *Kitabi-dədə Qorqud, utopiya, anti-utopiya, dil məsələsi, rəqəmsallaşma, coğrafi məkan.*

Giriş

Kitabi-Dədə Qorqud əsərində fəlsəfi baxış

Əsərə başlamazdan öncə utopiya sözünün nə olduğunu vurğulamaq istərdim. Bu söz bir növ həyatda olmayan, amma ola biləcək yaxşı hisslərdir. Bunu biz xəyali bir hiss kimi qəbul etsək də, bu cür həyatı yaxşı hökümdarın, cəmmiyyətin nəticəsində gerçəkləşdirmək mümkündür. İnsan utopiyanı xəyal edir o cür dünyada yaşamaq istəyir. Amma belə bir dünyanın olması bir az da xəyali görünür. Mənəvi abidəmiz sayılan Kitabi-Dədə Qorqud dastanında da belə həyat mövcuddur. Əsərdə Dədə Qorqudun sehirli gücü utopik baxımdan maraqlı sənət əsəridir. O, qopuz çalmaqla müharibələri və xaosu aradan qaldırması, hamını bir yerə toplayaraq məsləhətlər verməklə problemlərin həll olunması utopiya mövzusunun gözəl göstəricisidir. Qorqud atanın ölümsüzlük axtarışı da utopik baxımdan maraqlı sənət abidəsidir. Onun ölümsüzlük axtarışına çıxması, amma hara getsə də qəbrqazanlara tast gəlməsi bir növ belə dünyanın olmamasından xəbər verir (Kitabi-Dədə Qorqud esiklopediyası. 2004). Müəllif əsərdə bununla qeyd etmək istəmişdir ki, insan nə qədər ölümdən qaçsa da sonda ona məhkumdur. Lakin sən yaxşı əməllərinlə, gördüyün işlərlə yaddaşlarda yaşayaraq ölümsüz ola bilərsən. Biz burada Qorqudun utopik baxışlarıyla yanaşı antiutopik baxışlara da rast gəlirik. Utopik yanaşma baxımdan yanaşmaya diqqət yetirsək görərik ki, yazıçı xəyali ölümsüz həyat axtarmışdır bu müsbət haldır, amma belə bir həyat mövcud deyildir. Buna görə də bu cümlədə utopiya ilə yanaşı antiuropiya da mövcuddur, çünki insan nə edirsə etsin sonda ölümə məhkumdur. Bu da real həyatın acı nəticəsinin göstəriciri olaraq dastanda göstərilmişdir.

Dədə Qorqudun göstərişilə hökümdar Salul Qazanının vergiləri azaltması, torpaqlarının düşmən tapdağından qorunması, ac camaatın doyuzdurulması, oğuz xalqlarının bir yerə toplanılaraq yeyib-içmək təşlil edilməsi insanların şad-firəvan yaşamaları utopik baxımdan yaxşı səciyyələndirilə bilər. Utopiya mövzusuna Şərq intibahının qurucusu Nizami Gəncəvinin bir çox əsərlərində də rast gəlmək mümkündür, çünki dahi şairimiz real həyatda da bu cür həyatı arzu edən böyük sənətkarlarımızdan olmuşdur. O, əsərlərində belə bir həyatı əks etdirərək cəmiyyətin belə olmasını bir növ sətraltı hökümdarlara bildirməyə çalışmış, belə əsərlərdən ibrət götürmələrini arzu etmişdir. Şairin İskəndərnamə əsərində xoşbəxtlər ölkəsinə gedərək oradakı insanların hökümdar, pul olmadan xoşbəxt firəvan, bərabər

şəkildə yaşamaları İskəndəri heyrətə gətirir. Belə ölkədə nə oğurluq, nə vergi, nə də müharibə vardır. İskəndər belə bir hətatın öz ölkəsində də olmasını arzu edir.

Anti-utopiya isə insanın real həyatda gördüyü pis hadisələrin göstəricisidir. Yəni belə hallar real həyatda var və bundan da pis ola bilər mənasında işlədilir. Anti-uropik mövzuya bir çox əsərlərimizdə olduğu kimi Dədə Qorqud əsərində də rasr gəlinmişdir. Qazan xanın evinin yağmalanaraq tanınmaz hala salınması, qadın və uşaqların düşmənlər tərəfindən əsr alınaraq zəncirlənməsi, müharibələrin olması, Təpəgözün insanlara hücumu və insanların öz övladlarını qurban vermələri kimi hallar antiutopik nümunə baxımdan əhəmiyyətlidir. Bütün bunlar ədəbiyyatda göstərilən real həyatda ola biləcək pis hadisələrin göstəricisidir. Prof. Qorxmaz Quliyevin sözləri ilə dedək "Hər bir utopiyanın içərisində bir anti-utopiya gizlənmişdir (Quliyev, 2011). XX əsr xarici ədəbiyyat tarixi. Bakı). Əsərdə təpəgözü bu baxımdan da izah etmək doğru olardı. Basat Təpəgözü öldürməsi boyunda da Q.Quliyevin dediyi kimi utopiyadan anti-utopiya yaranmışdır. Oradakı təpəgöz real insan deyildir, amma bunu ədəbiyyatşünaslıq baxımdan fəlsəfi yanaşmaq olar. Təpəgöz çobanın pəridən olan övladıdır. Onu Aruz qoca Basatla birgə böyüdür. O, Basatın süd qardaşı olur. Ən pisi də odur ki, çobanın səhvi üzündən oğuzların içində böyüyüb boya- başa çatmış daxili düşməndir. Ona heç kəsin gücü çatmır. Yalnız Basat ona qalib gəlir (Kitabi-Dədə Qorqud esiklopediyası. 2004). Real həyatda təpəgözü düşmənlə əlaqələndirə bilərik düşməni ancaq maraqlandıran nədir? Dinc insanları soymaq, insanların canını almaq bax bu oğuzların düşdüyü çarəsiz vəziyyət anti-utopiyadır. Basatın təpəgözü öldürməsi utopiyanın bariz nümunəsidir. Basat bununla dinc camaatı düşdükləri bəladan qurtarır.

Türk dastanı olan "Kitabi–Dədə Qorqud" dastanında fəlsəfi baxışlarla yanaşı türk xalqlarımızın birliyindən, müasir dövrdə rəqəmsallaşmasından danışmaq mühim əhəmiyyətə malikdir. Əsərin müasir dövrümüzlə əlaqəli rəqəmsallaşma baxımdan qiymətləndirilməsi Türk dilinin sadəcə bir ünsiyyət vasitəsi deyil, nəhəng bir coğrafiyanın mənəvi xəritəsi olduğunu qeyd edə bilərik. Günel Cənnətovanın tədqiqatında vurğulandığı kimi, dastanımızda "zaman və məkan" kateqoriyaları Türk təfəkküründün hüdudlarını cızır (Cənnətova, 2022). Türk qəhrəmanlıq dastanlarında zaman və məkan. Elm və Təhsil). Bu gün Altaydan Anadoluya qədər coğrafiya parçalansa da, toponimik yaddaşımız və dastan dilimizin semantik qatları hələ də bütövdür. Bizim ən böyük vətənimiz dilimizdir. Məkan anlayışı etnik kimliyimizi göstərən bir məkandır. Bu da müasir dövrümüzdə Türk xalqları üçün mühümdür. Müasir rəqəmsallaşma dövründə Türk dastanlarındakı hadisələri, məkanları, dillərini sosial şəbəkələr vasitələr izləyərək daha asan və dərindən öyrənə bilirlər. Dastanda Türklərin coğrafiyası ilə bağlı bir sıra adların Ağrıdağı, Dərbənd, Alaqapı, Anadolu və s. kimi real Azərbaycan və Türk torpaqları ilə nə dərəcədə üst-üstə düşməsini canlı şəkildə göstərməklə yanaşı Türk xalqları öz torpaqlarını rəqəmsal sosial şəbəkələr vasitəsiylə hətta Türklərin yurd saldıqları məkanları, Dədə Qorqud boylarının hansı ərazilərdə baş verdiyini müasir peyk vasitəsiylə izləyə bilirlər. Buna misal olaraq "Salul Qazanın evinin yağmalanması"nı göstərə bilərik. Müasir rəqəmsal dövrdə biz rəqəmsallaşma vastəsiylə Türk yurdunu həm də hadisələrin baş verdiyi yerləri görə bilirik. Rəqəmsallaşma vasitəsiylə biz nəyinki coğrafi məkanlarımızı Dədə Qorqudun danışıqlarını, çaldığı qopuzu tədqiqatıçı, akttyorlar tərəfindən rəqəmsallaşdırılaraq dinlənilməsini mümkün etmişdirlər. Onu da qeyd edək ki, tək kitablar, sosial vasitələr, filimlər, QR kod vasitəsiylə orada baş verən hadisələr izləmək mümkündür.

Dədə Qorqud dasranı Türklərin ortaq dastanlarındandır. Burada yurd anlayışı ilə yanaşı dil məsələsinə də toxunmaq mühüm məqamlardan biridir. Dastana əsaslanaraq qeyd edə bilərik ki, onların yaşayış yerləri bir olduğu kimi ortaq dilləri də olmuşdur. Lakin, zaman keçdikcə siyasi səbəblərdən müxtəlif dil qurupları yaranmışdır. Bu dil qrupları bir-birlərindən uzaqlaşsa da onlar arasında oxşarlıqlar hələ də mövcuddur. 1926-cı il Bakı Qurultayında yarımçıq qalmış dil intibahı və Türk dillərinin müasir problemlərindən danışarkən, 100 il əvvəl məhz burada, Bakıda keçirilmiş Birinci Türkoloji Qurultaya müraciət etməmək mümkün deyil, bu qurultay Türk xalqlarının coğrafi pərakəndiliyini "ortaq

əlifba" və "ortaq terminologiya" ilə aradan qaldırmaq üçün atılmış ən cəsartli addım idi. Lakin tarixin bizə məlum olan "görünməyən tərəfləri" – siyasi represiyalar bu təbii təkamül prosesini süni şəkildə dayandırdı. Bu gün yaşadığımız dialekt parçalanması həmin tarixi qırılmanın nəticəsidir. Türk dillərinin gələcəyi coğrafi uzaqlıqda deyil, dilin dərin qatlarında gizlənən o ortaq kodları tapmaqdır. Bizim vətənimiz klassik qorqudşünaslıq irsini müasir dil siyasəti ilə sintez edərək, vahid və keçilməz bir Türk dil məkanı formalaşdırmaqdır.

Nəticə

Yekun olaraq qeyd etmək istərdim ki, dastan abidələrimizdən olan Kitabi-Dədə Qorqud kimi əsərlər nə qədər araşdırılsa da öz milli kimliyimizin araşdırılması baxımdan hələ də mühüm əhəmiyyətə malikdir. Yenilik ondan ibarətdir ki, Biz müasir terminalogiya bazamızı xarici dillərin (ing, rus) sürəti üzərinə qurmaqla yanaşı eyni zamanda daha çox dastanlarımızın unudulmuş, lakin çox funksional kökləri üzərində də qurmaqdır. Müasir dövrdə süni intelekt və rəqəmsal platformalar coğrafi sərhədləri sıradan çıxarır. Bu, bizə 1926-cı il ruhunu rəqəmsal müstəvidə bərpa etmək üçün tarixi şans verir. Bu gün bir elmi işçi kimi qarşımıza qoyduğumuz hədəflərdən biri də keçmişin arxaik gücünü gələcəyin texnologitası ilə necə birləşdirməyimizdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Bartold,V.V(t.y). Türk dastanları haqqında mühazirələr.
Cənnətova, G.(2022). Türk qəhrəmanlıq dastanlarında zaman və məkan. Elm və Təhsil.
Folklor İnstitutu.(2016). Birinci Türkaloji Qurultay: Görünən və Görünməyən Tərəfləri. Bakı.
Folklor İnstitutu.(2020). Azərbaycan Qorqudşünaslığı. Bakı. Elm və təhsil.
Kitabi -Dədə Qorqud (ensiklopediyası).(2004).Azərbaycan nəşriyyatı.
Qasımlı, M. (1993). Ozan-aşıq sənəti. Uşaq gənclik nəşriyyatı.
Quliyev, Q. (2011). XX əsr xarici ədəbiyyat tarixi. Bakı.
Zeynalov, F. və Əlizadə S. (1988). Kitabi-Dədə Qorqud. Bakı.

PHILOSOPHICAL CONCEPTS AND THE PROCESS OF DIGITALIZATION IN THE BOOK OF DEDE QORQUD

Afag Hajiyeva

In the first part of the article, I charaterized the historical paths of the turkic peoples and the places they lived not only in chronological order, bat also the places where the Turkic people wanted to be and where they stood from a utopian and anti-utopian prism based on the epic "Kitabi-Dede Gorgud". Here, in addition to showing the relationship of the Oghuz peoples to each other and neigh boring peoples from a philosophical prism, the article also touches on utopian and anti-utopian themes in the work of Nizami Ganjavi, the pinnacle of our classical literature, which made this topic even more interesting. In the second part of our topic, the language, geography of the Turkic peoples, and thr introduction of digitalization to our modern era are emphasized based on the monument of Kitabi-Dede Gorgud.

Keywords: The Book of Dede Gorgud, *utopia, anti-utopia, languge issue, digitalization, geographical space.*

İNSAN VƏ TƏBİƏT MÜNASİBƏTLƏRİ: TALEYİN BƏDİİ İNTERPRETASİYASI

Eyvaz Eminalıyev
ADPU-nun Şamaxı filialı
Filologiya üzrə fəlsəfə doktoru
Kafedra müdiri
edebiyyatd@bk.ru
https://orcid.org/0000-0002-2950-3424

Türkan Hüseynova
ADPU-nun Şamaxı filialı
Müəllim
Bakı Dövlət Universiteti
Doktorant
https://orcid.org/0009-0008-0507-0880
turkan.huseynova.8989@mail.ru

Biz bu məqalədə ilkin olaraq təbiət və insan münasibətlərini qarşılıqlı harmoniyada, əlaqədə tədqiq etməyə çalışdıq. İnsanın taleyində təbiətin rolu, onun insan xarakterinə təsiri, insanın təbiət üzərində dominantlıq və manipulyasiya bacarığı və s. kimi məsələlər tədqiqata cəlb olunmuşdur. Bunun üçün həm Azərbaycan, həm də xarici ölkə xalqları ədəbiyyatı nümunələrinə müraciət etdik. Mövzu günümüz üçün olduqca maraqlı və aktual olduğundan bir çox xalqın ədəbi nümunələrində buna rast gəlmək olur. İnsan və təbiət münasibətlərinin, taleyin şəkillənməsində təbiətin rolu, onun bədii interpretasiyası və s. kimi məsələlər hər zaman bədii ədəbiyyatın əsas mövzularından biri kimi, ta şifahi xalq ədəbiyyatı nümunələrindən günümüzə kimi şair və yazarların diqqət mərkəzində olmuşdur. Biz məqalədə insan və təbiət münasibətlərini müxtəlif aspektlərdən dəyərləndirməyə çalışdıq, belə ki, yalnız təbiətin insan taleyindəki rolu deyil, eyni zamanda onların qarşılıqlı əlaqəsi, insanın təbiətlə mübarizəsi, onun üzərindəki hakimiyyəti və s. kimi ciddi humanist problemlərə toxunduq. Əlbəttə ki, məqalədə qarşımıza qoyduğumuz məqsədə daha uyğun və münasib yollarla çatmaq üçün fikrimizi sitatlarla sübut etməyə çalışdıq. Bu səbəbdəndir ki, həm yerli, həm də xarici ədəbiyyat nümunələrinə qarşı diqqət və həssaslıqla yanaşmış və onları öz maraqlarımız nöqteyi-nəzərdən tədqiq etməyə çalışdıq.

Açar sözlər: *təbiət, insan, interpretasiya, insan taleyi, bədii ədəbiyyat*

Giriş

İnsan və təbiət məsələsi, həm fəlsəfi, həm də ədəbi müstəvidə ən qədim və dərin mövzulardan biridir. Təbiət yalnız insanın yaşayış məkanı deyil, həm də onun həyatına mənəvi və estetik dəyər verən bir qaynaqdır. İnsan öz taleyini formalaşdırarkən, təbiətdən ilham alır, onun gözəlliklərinə heyran olur və bəzən onun qüdrəti qarşısında acizliyini dərk edir. Bununla yanaşı, insan da təbiət üzərində hökmranlıq edir, onu dəyişdirir, inkişaf etdirir, amma bəzən bu hakimiyyətin nəticələri fəlakətli ola bilir. İnsan və təbiət arasındakı bu qarşılıqlı əlaqə, harmoniyanın mümkünlüyü və pozulması, onların bir-birinə təsiri, həm müsbət, həm də mənfi nəticələri ədəbiyyatın da diqqət mərkəzində olmuşdur.

Azərbaycan ədəbiyyatı bu mövzuda zəngin nümunələrlə doludur; klassik və müasir əsərlərdə təbiət obrazları insanın daxili dünyasını əks etdirir, onun duyğularına, seçimlərinə və taleyinə təsir göstərir. Eyni zamanda dünya ədəbiyyatında da təbiət və insan əlaqəsi, onun qorunması və ya zədələnməsi mövzusu geniş işlənmişdir. Məqaləmizdə məqsədimiz, həm Azərbaycan, həm də dünya ədəbiyyatından nümunələr gətirərək, insan və təbiət arasındakı mürəkkəb münasibəti, harmoniya və ziddiyyətlərini, həmçinin onların bir-birinə olan təsirlərini ətraflı şəkildə araşdırmaqdır.

Bu yanaşma oxucuya göstərir ki, insan və təbiət yalnız bir-birinə bağlıdır, həm də bir-birinin rifahı və gələcəyi üçün məsuliyyət daşıyır. Məqalədə bu əlaqənin müxtəlif aspektləri – estetik, mənəvi, ekoloji və sosial – ədəbiyyat nümunələri vasitəsilə işıqlandırılacaqdır.

"*İnsanın təbiətə qarşı mübarizəsini və təbiətin ən qorxunc qüvvələrindən birini - dənizi, fırtınaları və soyuqları təsvir edən bu romanda Viktor Hüqo Gernsinin qayalı sahillərindən müşahidələrindən və təxəyyülünün sonsuz gücündən istifadə edərək insan gücü ilə təbiətin gücü arasındakı toqquşmanı ifadə edən bir sənət abidəsi yaratmışdır. Bu baxımdan roman Herman Melvilin "Mobi Dik" əsəri, daha sonra isə Ernest Heminqueyin "Qoca və Dəniz" əsəri ilə müqayisə edilmişdir. Qoca dənizçi Letieri bütün sərvətini yeni icad edilən buxar gəmilərindən birinə yatırmışdır. Gəminin Dover qayalarına ilişib qalması onun üçün dəhşətli bir fəlakətdir. O, gəmini xilas edə bilən hər kəsə qardaşı qızı Deruchetteni verəcəyini elan edir. Sadə bir balıqçı gənci olan Gilliatt gizlicə qızı sevir. Sevgilisinin xatirinə bu işi öz üzərinə götürür. Günlərlə tək işlədikdən sonra o, uğur qazanır, amma Deruchette başqasını sevdiyi üçün qızla birlikdə ola bilmir. Gilliatt qızı sevgilisinə buraxır və dənizə girir, digər sevgilisi olan dənizin coşğun dalğaları arasında yoxa çıxır"*(Gültəkin, 2001). Fransız romantizm ədəbiyyatının yaradıcılarından, əsas konsepsiyalarını işləyib hazırlayanlardan biri olan məşhur yazıçı Viktor Hüqo bir gün Parisdə yerləşən Notr-Dam kilsəsində uçuq divarlar arasında gəzərkən "Ananke" yazısına rast gəlir. Bu söz tale, qaçılmaz qədər mənasını verir və yazıçı belə düşünür ki, insanın taleyində üç əsas amil mühüm rol oynayır. Birincisi, cəmiyyət, ikincisi, din, üçüncüsü isə təbiətdir. *"V.Hüqo 1866-cı ildə "Dəniz zəhmətkeşləri" adlı bir romanının müqəddiməsində naməlum bir əlin divara yazdığı bir sözün necə məna verdiyini belə izah edir. "İnsan üç sahədə mübarizə aparır: din, cəmiyyət, təbiət. İnsanın başı üzərində üç tale dolanır: ehkamların taleyi, qanunların taleyi, cisimlərin taleyi. "Paris Notr-Dam kilsəsi"ndə müəllif birincini, "Səfillər"də ikincini, bu kitabda isə üçüncünü qələmə almışdır"*(Yelizarova,1964). Hüqo taleyin əsas yönləndiricisi olan bu üç faktoru müvafiq olaraq üç fərqli əsərdə işləyir və ortaya dünya ədəbiyyatının ən möhtəşəm romanları çıxır. Cəmiyyətin insan taleyindəki roluna "Səfillər", dinin insan taleyindəki roluna "Paris Notr-Dam kilsəsi", təbiətin insan taleyindəki roluna "Dəniz işçiləri" (1866) romanlarını yazır. Əlbəttə ki, ilk iki əsər bu baxımdan bizi maraqlandırmır, lakin fikrimizi daha dəqiq izah etmək üçün bu iki əsərin mövzusuna qısaca toxunmaq lazımdır. Belə ki, V.Hüqoya görə, cəmiyyət və onun qanunları bir insanın taleyində ən vacib rollardan birini oynayır, onun bütün ömür yolunu şərtləndirə bilir. Bu səbəbdəndir ki, "Səfillər" romanının qəhrəmanı Jan Valjan cəmiyyətin qurbanına çevrilmiş bir obrazdır. Dinin insan taleyindəki rolunun, hakimliyinin əsas prinsiplərini, xüsusiyyətlərini oxucuya göstərməyə çalışan yazıçı "Paris Notr-Dam kilsəsi" əsərində mənfi də olsa, güclü bir xarakter olan Klod Frollo obrazını yaradır. Müəllif göstərməyə çalışır ki, sxolastika, dini doqmalar insanın bütün taleyini şəkilləndirə, formalaşdıra və yön verə bilər. Əgər insan yanlış dini dəyərlər üzərində formlaşsa, əlbəttə ki, bu onun faciəvi sonluğu ilə nəticələnəcək. Keşiş Klod Frollo da məhz bu din və tale məsələsinin əsas daşıyıcısı olan obrazdır. Təbiətin insan taleyindəki rolunu isə "Dəniz işçiləri" əsəri ilə ölümsüzləşdirən yazıçı əvvəlki iki əsərdə qarşıya məqsəd kimi qoyduğu cəmiyyət və din problemlərini mükəmməl bir şəkildə həll etdiyi kimi, bunu da həll edir. Bu romanda Viktor Hüqo təbiət və insan münasibətlərini əsas götürərərk bu mövzuda romanı oxuculara təqdim edir. Oxucu əsəri vərəqlədikcə düşünür ki, görəsən, insan təbiətə tam mənası ilə tabedirmi, yoxsa ona hakimdirmi, ondan tam mənası ilə asılıdırmı, yoxsa hansısa məqamda azad olmağı bacarırmı? Bütün bu suallar qarşısında cavabsız qalan oxucu özünü bu əsər vasitəsilə aydınlanmağa, fikirlərinin açılmasına çalışır. Gilliattın dəniz qoynunda dalğalarla mübarizəsi, gəmini xilas etməyə çalışması, bunun üçün inanılmaz fiziki və mənəvi güc sərf etməsi hər bir oxucu üçün əzmkarlıq və mətanət baxımından, əlbəttə ki, əvəzolunmazdır. Yazar göstməyə çalışır ki, hansısa bir şəxsin uğurlu taleyində cəmiyyət, din rol oynadığı kimi təbiət də mühüm rol oynayır. Bu səbəbdən, o ya təbiətə qalib gəlib istədiyini əldə edir, ya da məğlub tarix səhnəsindən silinir. Amma Viktor Hüqo kimi müdrik yazarlaq oxuculara göstməyə çalışırlar ki, cəmiyyətin də, dinin də, təbiətin də öz qanunları var, bəzən bu qanunlar haqlı, bəzən də haqsız formada insan taleyində mühüm rol oynayır. Buna görə də insan, öz mövcudluq mübarizəsində, savaşında öz qanunları ilə yanaşı təbiətin də qanunlarını nəzərə almalı, mübarizəsini buna görə müyyənləşdirməlidir. Çünki insan hər daim inkar etsə də, qəbul etməyə çətinlik çəksə də, təbiətdən asılıdır, ondan kənarda mövcud ola bilməz, təbiət güclüdür və insan onunla hesablaşmağı bacarmalıdır. Həm öz varlığını, həm də təbiətin varlığı ədalətli bir şəkildə qoruyub saxlamağa çalışmalıdır. İnsan tə-

biətə necə yanaşırsa, o da ona həmin münasibəti qaytarır. *"Gilliatt, özündə olan, gücün özündən daha güclü bir bacarıqla, dağlarda dağ keçisi və ya meşədəki meymun kimi davranaraq, ən kiçik qaya çıxıntısından titrəyən, başgicəlləndirici addımlar üçün istifadə edərək, suya tullanıb, oradan çıxıb, axında üzərək, dişlərinin arasında ip və əlində çəkiclə qayaya dırmaşaraq, Kiçik Doverin təməlinə bərkidilmiş Durandenin ön arakəsməsini tutan lövbər ipini açıb onu havada saxladı. O, ip parçalarından bir növ qıfıl düzəldərək, bu arakəsməni qranitə sancılmış böyük mismarlara bağladı. Bu qıfılda bənd qapısına bənzər taxta lövhəni çevirdi, onu qoltuğunun altından sükan bıçağı kimi asdı və bir ucunu Böyük Doverə basan dalğaya itələdi. Bu vaxt ip qıfıllar da Kiçik Doverdəki taxta lövhənin digər ucunu tutdular. Daha sonra Gilliatt əvvəllər sancdığı ehtiyat mismarlarla Böyük Doverdə kiçik bağlar düzəltdi. O, bu böyük taxta lövhəni dar liman ağzındakı ikiqat sütuna möhkəm bağladı. Sonra zirehdəki çiyin qayışı kimi bir zənciri keçirdi. Bir saatdan az müddətdə bu bölmə dənizə qarşı quruldu və dayaz rifin dar keçidi qapı kimi bağlandı"*(Hugo, 1999). *"Dəniz istədiyi zaman sevinclidir. Heç bir sevinc dənizin coşğun şənliyi qədər möhtəşəm deyil. Geniş dəniz parıldayır. Buludlardan başqa heç nə ona kölgə sala bilməz; hətta bu buludlar belə mehlə buraxılır. Yalnız səthi görünəndə geniş dəniz azadlıqdır; o, həm də bərabərlikdir. Bu səviyyədə bütün işıqlar rahatlıq tapır. Səmanın möhtəşəm gülüşü orada yayılır. Sakit dəniz bir bayramdır. Daha şirin, daha cazibədar su pərisinin səsi ola bilməz. Getmək istəyini hiss etməyən dənizçi yoxdur. Bu sükuta, bu sakitliyə heç nə çata bilməz; və bütün əbədiyyət nəvazişdir; dəniz suyu ah çəkir; dayaz qayalar oxuyur; mamır qayanı öpür; qağayılar uçur; boş dəniz otları dalğadan dalğaya yellənir; lakin quşların yuvalarının altında su yaş dayəyə, dalğa laylaya bənzəyir; digər tərəfdən isə, günəş qalın, parlaq işıqla uçurumun dəhşətli ikiüzlülüyünü örtür"*(Hugo, 1999). Yuxarıda deyilənləri nəzərə alaraq biz bu əsər haqqında olan fikirlərimizi belə yekunlaşdırır və bu nəticəyə gəlirik ki, insanın taleyində əsas rol oynayan mühüm faktorlardan biri də təbiətdir və təbiət hər zaman onun qədərinin şəkillənməsində vacib əhəmiyyət kəsb edir. İnsan təbiətlə daim harmoniyada, qarşılıqlı əlaqədədir və vaxtaşırı ortaya çıxan mübarizə qaçılmazdır.

Dünya ədəbiyyatının ən müzakirəli və istər ədəbiyyatşünaslar, istərsə də oxucular tərəfindən birmənalı qarşılanmayan əsərlərindən biri olan Robinzon Kruzo 1719-cu ildə Daniel Defo tərəfindən qələmə alınmışdır. Çox vaxt uşaq ədəbiyyatı kitabxanasına aid edilən bu əsər əslində özündə ciddi siyasi, iqtisadi və sosial məsələləri əks etdirir. Robinzonun adadakı marəcarları üzt qatda kiçik yaşlı uşaqları həyəcanlandıran və əyləndirən bir əsər kimi görünür. Amma əsəri daha diqqətli oxuduqca, dərinliklərinə endikcə, bu roman haqqında yazılan bir çox elmi-tədqiqat əsərlərini araşdırdıqca məlum olur ki, roman əslində daha dərin və ciddi mətləbləri özündə ehtiva edir. Belə ki, əsər digər dünya ədəbiyyatı nümunələrindən fərqli olaraq insanın birbaşa təbiətlə münasibətini, onunla əlaqə və mübarizəsini, onu özünə tabe etmək, üzərində hakim olmaq ideyasını əks etdirir. Con Hopkins, Kolumbiya və Prinston Universitetlərinin professoru Maykl Sugruenin bu əsər haqqında aşağıda verəcəyimiz fikirlərindən yola çıxaraq deyə bilərik ki, roman yeni, modern insanın təbiət üzərindəki hökmranlığını əks etdirir. Burda yalnız insanın təbiətə yox, həm də öz daxili məninə, daxili təbiətinə qalib gəlməsi, hətta digər insanlar, sosial birliklər ilə olan əlaqəsi, onların üzərindəki təsiri də təsvir olunur. Robinzonun romanın əvvəllərindən sona kimi inanılmaz, ağılalmaz bir dözüm, əzmkarlıq nümayiş etdirir və sözün əsl mənasında maarfiçi insanın rəmzinə çevrilir. "Robinzon Kruzo" əsəri yazılan zaman İngiltərə dünyanın əsas güclərindən, sənayenin inkişaf elədiyi əsas ölkələrindən birinə çevrilmişdi. Bu da yeni insanlararası münasibətlərin, insanla təbiət arasında olan əlaqələrin yeni bir formasını tələb edirdi. Siz əgər Qərb düşüncəsinə, fəlsəfəsinə, ənənəsinə nəzər yetirsəniz, görərsiniz ki, Homerik qəhrəmanlar daha çox şüurun, düzgün sosial cəmiyyətin və fəzilətin özlərində ehtiva etdikləri qəhrəmanlardır. Osta əsrlər qəhrəmanları isə daha çox dinin ön olanda olduğu, xristianlığın hökmranlıq etdiyi qəhrəmanlardır. Robinzon Kruzo isə, mən əminliklə deyərdim ki, maarifçilik dövrünün əsas qəhrəmanıdır, daha doğrusu, maariçi bir adam, bir fərddir. Gəlin maarifçilik dövrünə nəzər salaq: hansı ki, bu dövr üçün iki əsas mövzu xarakterikdir. Bu iki əsas məsələdən biri təbiət üzərində hakimiyyətdir. Sənayenin inkişafı sosial, siyasi və ədəbi sferada da öz təsirini göstərirdi və maarifçiliyin, ağıl çağının yarandığı bu dövrdə təbiətlə münasibətlər əsas məsələlərdən biri idi. Sənaye ilə olan bu əlaqələr insana icazə verirdi ki, təbiət üzərində

öz məqsdələrinə uyğun dominantlıq və manilpulyasiya məqsədlərini həyata keçirsin. Təbiət üzərində dominantlıq və onu manipulyasiya etmək maarifçilik dönəmi üçün əsas xüsusiyyətlərdən biri idi. Və maraqlıdır ki, bu əsas fundamental xüsusiyyət "Robinzon Kruzo" üçün də əsasdır. *Robinzonun əvvəlcə təbiət, sonra adada rastlaşdığı yad adamlar (Cümə) olan münasibəti əslində Qərb mədəniyyətinin təbiət və başqa mədəniyyətlərlə əlaqəsinin göstəricisidir. Bu alleqorik bir güzgüdür və mən düşünürəm ki, onu bu qədər güclü bir roman edən əsas xüsusiyyət də elə budur*"(Great author, 2025). Bütün bu deyilənləri nəzərə alaraq bu roman və qəhrəmanı haqqında aolan düşüncələrimizi belə yekunlaşdıra bilərik ki, insan, doğrudan da, təbiətlə birbaşa əlaqədədir, öz mövcudluğu üçün onunla daim mübarizə aparır və bu mübarizənin nəticəsində o ya Robinzon kimi hökm və dominantlıq tətbiq edərək qalib gəlir, ya da zəiflik göstərib məğlub olur.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan İsi Məlikzadənin yaradıcılığı, sözün əsl mənasında, öz orijinallığı ilə seçilir. Onun əsərləri nəinki Azərbaycan ədəbiyyatında, ümumilikdə dünya ədəbiyyatında kənd həyatına, sadə insanların yaşamına həsr olunan ən yaxşı nümunələrdəndir. "Duz", "Oğul", "Talisman", "Gümüşgöl əfsanəsi", "Dədə palıd" və s. əsərlər bu fikrimizi təsdiqləyən bariz nümunələrdir. Bunların içərisində diqqətimizi daha çox "Dədə palıd" əsəri çəkir, çünki məqalədə qarşıya qoyduğumuz məqsədə daha çox uyğun gələn bu əsərdir. Əsər insanla təbiətin əlaqəsini, harmoniyasını, qırılmaz bağlarını göstərən, təbiətin insan taleyindəki rolunu, insanın təbiət üzərindəki hakimiyyəti və s. kimi mövzuları özündə əks etdirir. Biz bu bədii nümunənin səhifələrini izlədikcə əsas obraz olan Nurcabbarın təbiətin mərdlik, sarsılmazlıq, dözümlülük simvolu olan Dədə palıda qarşı münasibətinin, duyğularının şahidi oluruq. O, bu ağacı milli kimliyin, milli var oluşun, köklərə bağlılığın rəmzi hesab edir və bu qoca palıda bir çox əsərlər həsr edir. Ətrafında onu başa düşən, anlayan kimsənin olmaması Nurcabbarı bu Dədə palıdla doğmalaşdırır, aralarında sarsılmaz və qırılmaz bir dostluq yaradır. Ümumiyyətlə, ağac kültu türkün yaddaş arxetiplərindən biridir və türk hər zaman ağacı müqəddəs saymış, ona olan ehtiram və hörmətini itirməmişdir. Azərbaycan şifahi xalq ədəbiyyatından ən yeni mərhələyə qədər yazılan bir çox ədəbi nümunədə ağac türkün ilkin obraz, müqəddəs bir təbiət hadisəsi kimi yaddaş arxetipində yer alır. Bu səbəbdəndir ki, hər bir azərbaycanlının da genetik kodunda özünü əks etdirən ağac sevgisi bu əsərdə də qarşımıza çıxır. Hər bir xalqın nümayəndəsi öz gen yaddaşlarını yaşadır və yeri düşdükcə bunları ifadə üsullarını tapır. İsi Məlikzadə də yaddaş arxetiplərimizdən olan ağacı kult kimi Dədə palıd obrazında ifadə etmişdir. Əslində Dədə palıd bir ağac olmaqdan daha çox duyğuları, hissiyyatı olan bir bədii obraz səviyyəsinə yüksəlir. O özünün müqəddəs və kökə bağlılıq xüsusiyyətləri ilə tam bir bitkin obraz xarakteri alır. Bu baxımdandır ki, yazıçı İsi Məlikzadə Nurcabbar kimi dərin bir xarakterə, həssas təbiətə malik birinin dostunu insan obrazı yox, ağac obrazı kimi verir. Yaddaş arxetiplərimizdən olan ağac insan müdrikliyi, insan ucalığı səviyyəsinə yüksəlir və Nurcabbarla eyniləşib bütünləşir. Biz bu əsər haqqında olan düşüncələrimizi və məqaləyə uyğun fikirlərimizi əsərdən gətirdiyimiz müxtəlif nümunələrlə isbat etməyə çalışacağıq: *"*Bu həmin palıd idi ki, Bağır onu yuxuda görmüşdü, yuxuda arvadının da, qızının da qəbrini bu palıdın dibinə köçürmüşdü. Bu, həmin palıd idi ki, sonralar Nurcabbar ona ad qoymuşdu: "Dədə" (Məlikzadə, 2005). **"**Meşə hər yetənə ürəyini göstərmir, Bağır. Meşəni duymaq üçün gərək adamın gönü cığara kağızından da nazik olsun" (Məlikzadə, 2005). Üstümdə bənd qurublar, hirsim-havam alınıb, boynum kəməndə salınıb. Ayaqlarım cidarlı, qollarım bağlı. Dodaqlarım Dədə palıdın kökünə çatmır, Dədə palıdın yanğısını söndürə bilmirəm. Quruyacaq Dədə palıd, ayaq üstə can verəcək... Kür bunu deyib başladı şırıl-şırıl axmağa. Bala palıd da başladı gözlərindən bıldır-bıldır yaş tökməyə" (Məlikzadə, 2005). "- *Kürnən dərdləşirəm, - dedi və bildi ki, Bağır mütləq soruşacaq: "Niyə?" Bağıra macal vermədi. - Tutalım ki, dərdimi sənə danışdım, - dedi, - nə xeyri? Sən hər gün mənə qulaq asa bilməzsən, təngə gələrsən"* (Məlikzadə, 2005). *"Törəmələri Dədə palıdı dövrələmə hasara almışdılar, onun yanında məsum, aciz görünürdülər, elə bil təbiətin keşməkeşlərindən qorxduqları üçün Dədə palıdın kölgəsinə, nəfəsinə pənah gətirmişdilər. Bunlar nə vaxt böyüyəcəklər? Bunlar nə vaxt "dədə" olub yaşıl əlləriylə meşənin başına sığal çəkəcəklər? Yəqin, elə bir dövr gələcək..."* (Məlikzadə, 2005).Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının əsas romanlarından biri olan Yusif Səmədoğlunun "Qətl günü" əsəri təbiət

təsvirlərinin gözəlliyi baxımından diqqəti cəlb edir. Təbii ki, biz bu əsərdə qəhrəmanın təbiətlə mübarizəsindən, ya qələbə, ya da məğlubiyyətindən söz açmayacağıq. Bu əsərin bizim məqaləmizin mövzusu ilə uyğun tərəfi ondan ibarətdir ki, əsərdə Günəşlə bağlı olduqca metaforik cümlələr var və bu bənzətmələr, üslubi ifadələr həddindən artıq gözəldir. Azərbaycan ədəbiyyatında postmodernist romanın ilkin nümunələrindən sayılan bu əsərin gərgin, çətin anlaşılan süjet xəttinin içərisində bu cür möhtəşəm təbiət təsvirlərinin olması oxucunya daha da zövq verir. Bu roman ədəbiyyatımızın ən gözəl, şah əsərlərindən biridir və təbiətə qarşı bu humanist münasibəti baxımından da həm ədəbiyyatşünaslar, həm də ixucular tərəfindən maraqla qarşılanır. Biz fikrimizi əsərdən gətidiyimiz nümunələrlə isbat etməyə çalışacağıq: *"Günəş, sıldırımlı buzlaqların üzərində çətir kimi açılmış göy qübbəsinin tən ortasında nəhəngdən də nəhəng olan bir sarı ləkə kimi dayanıb durmuşdu. Bu nəhəng sarı ləkənin qəribə də sarı işığı vardı: bu işığın ağırlığından daş-qaya inildəyirdi və bu işıq buz kimi soyuq idi. Buzlaqların ağlığına sarı bir rəng hopmuşdu. Bu dünyada heç kəsin xəbəri yox idi ki, üfüqlərə qədər uzanan buzlaqların daşını, kəsəyini bu sarı günəşin ahı qurutmuşdu"*(Səmədoğlu, 2005). *"Şairi zindandan çıxarıb edam yerinə aparanda al günəş dağların başında qan tuluğu kimi sallanıb durmuşdu. Şair boğazını, çənəsini, gözlərinə kimi sifətinin bütün əzalarını deşim-deşim edən ağrıdan inildədi, əlləri arxasında toqqa gönü ilə bərk-bərk bağlı olduğuna görə, hər ilin sarımtıl xəzanı gələndə, qürub çağı günəşi belə al-qırmızı görəndə, həmişə elədiyini eləyə bilmədi: şair salavat çevirmək istədi, mümkün olmadı"*(Səmədoğlu, 2005). Təbiətin əsas və ayrılmaz hissəsi olan heyvanlar aləmi də əsərdə diqqət mərkəzinə çəkilmiş, onlar insanla harmoniyada təsvir olunmuşdur. *"Canavarın burun pərələri titrəyirdi, heyvan qan iyi almışdı, amma bu iydə nəsə başqa bir şey vardı: ac heyvanın iştahası küsmüşdü. Tilsimlənmiş kimi yerindən də tərpənə bilmirdi, tükü tökülüb nazilmiş quyruğunu böyrünə qısıb mat-mat ətrafına baxırdı, arxasındakı meşənin qalınlıqlarında uzaq küləyin qopardığı hənirtini dinləyə-dinləyə yadına salmaq istəyirdi ki, görəsən, bu qarmaqarışıq, ancaq tanış səsləri əvvəllər harda və haçan eşitmişdi? Və bu qan iyindən niyə başı gicəllənir?..Canavar bir də yan-yörəsinə baxdı, ucları saralmış otların arasında vurnuxan dozanqurdları gördü, bir də əqrəb cəsədi gördü. Dozanqurdular əqrəbin qarnına daraşmışdılar*" (Səmədoğlu, 2005).

Nəinki Rusiya ədəbiyyatının, bütünlükdə dünya ədəbiyyatının nadir incilərindən olan əsərlərdən biri də Mixail Afansyeviç Bulqakovun (1891-1940) "Master və Marqarita" romanıdır. Bu romanda da diqqətimizi cəlb edən əsas məsələ yuxarıda adını çəkdiyimiz Yusif Səmədoğlunun "Qətl günü" əsərindəki kimi mükəmməl Günəş təsvirləridir. Bu romanda da Günəşin bədii təqdimatı olduqca möhtəşəmdir və bu təqdimatlar çox vaxt əsərdəki qəhrəmanların ovqatı, həyat şərtləri ilə harmonik, uyğun şəkildə verilir. Fikrimizi əsərdən gətirdiyimiz nümunələrlə isbat etməyə çalışaq: **"***Son günlər Yerşalaimi nəsə qeyri-adi bir acıqla yandırıb-yaxan Günəş hələ ən yüksək nöqtəyə çatmamış bağın yuxarı terrasında, pilləkəni qoruyan iki ağ mərmər tirin yanında prokuratorla Sinedrion prezidentinin vəzifəsini icra edən, İudeyanın baş ruhanisi İosif Kaifa qarşıladı"*(Bulqakov, 2006). "*Pilat başını qaldırıb günəşə baxdı. Gözlərində yaşıl alov oynadı, bu alov beynini qaynatdı və xırıltılı arami sözləri ətrafa yayıldı"* (Bulqakov, 2006). *"Günəş artıq Keçəl Dağın arxasına enirdi və bu dağ ikiqat mühasirəyə alınmışdı"* (Bulqakov, 2006). "Prokurator biləyinin arxası ilə soyuq, tərli alnını silib yerə, sonra gözünü qıyıb göyə baxdı, gördü ki, qaynar kürə düz başının üstündədir" (Bulqakov, 2006). "Bu zaman ona elə gəldi ki, günəş başı üstündə cingiltiylə çilikləndi və qulaqlarına od doldu. Bu odda, bağırtı, çığırtı, inilti, qəhqəhə və fit səsləri qaynayırdı" (Bulqakov, 2006). "Həmin vaxt günəş Yerşalaimə qayıtdı, Aralıq dənizində batmağa getməzdən əvvəl prokuratorun nifrət etdiyi şəhərə vida şüalarını yollayıb eyvanın pillələrini qızıl rəngə boyadı" ((Bulqakov, 2006). Düzdür, bu əsərdə insan taleyi təbiətlə əlaqəli şəkildə bütün əsər boyu işlənmir, amma bizi məqaləni yazmaqdakı məqsədimizlə birləşdirən cəhət odur ki, Bulqakov bu romandakı Günəş metaforlarını qəhrəmanların psxioloji durumları ilə bağlı verir. Belə ki, bu da bir növ elə insan taleyi ilə təbiətin əlaqəsini göstərir. Belə deyə bilərik ki, sanki təbiət qəhrəmanların ovqatlarını quyub onlara uyğun forma, şəkil alır. Onların ruhi emosional vəziyyətlərini özündə əks etdirir. Bu həm Yusif Səmədoğlu, həm də Mixail Bulqakov yaradıcılığında uğurlu tapıntılardır.

İnsanın təbiətlə mübarizənin ən gözəl təsvir olunduğu əsərlərdən biri də Ernest Heminqueyin "Qoca və dəniz" əsəridir. Bu əsərə görə Nobel mükafatı alan yazar povest boyu insan əzmkarlığını, təbiətlə mübarizəsini, ona qalib gəlmək ehtirasını təsvir edir. Bu əsər oxucuda özünə olan inamı artırır və onun öz mövcudluğu üçün təbiətə qarşı münasibətini formalaşdırır. Dünya ədəbiyyatının nadir incilərindən olan bu əsər qarşımızda inanılmaz, ağıalmaz insan və təbiət mübarizəsi canlandırır. Fikrimizi sitatlarla əsaslandırmağa çalışaq: "Povestin qəhrəmanı qoca balıqçı Santyaqo həmişə uğursuzluqla qarşılaşır. Onun qayığının yamaqlı yelkəni qocanın uğursuzluğunun rəmzi kimi verilir. Yelkən darmadağın edilmiş alayın bayrağına oxşayır. Heminquey Santyaqonun qocalığını göstərməklə yanaşı, qeyd edir ki, "*onun gözləri diribaş bir adamın gözləri kimi işıqlı idi". Bu cür münasibəti qoca ilə balığın mübarizəsi səhnəsinin təsvirində də görürük. Qoca Santyaqo balıq tutur və ona deyir ki, ölsəm də səndən əl çəkən deyiləm. Qoca son qüvvəsini toplayır, bütün imkanlarından istifadə edir və nəticədə qalib gəlir. Qoca deyir ki, insan məğlub olmaq üçün yaranmayıb, onu məhv etmək olar, ancaq məğlub etmək qeyri-mümkündür. Qoca balığı tutduqdan sonra köpək balıqları ona hücum edir. O başa düşür ki, vuruşmaq mənasızdır, ancaq axıracan müqavimət göstərir. Nizəsi qırıldıqdan sonra dəyənəklə vuruşur. Bütün bunlara baxmayaraq, qoca balığı xilas edə bilmir. Ancaq yenə də özünü məğlub olmuş saymır. Özözünə deyir ki, sən döyüşlə basılmadın, sadəcə çox uzağa üzmüşdün"(*Şıxlı, 1974). *"Dənizi ürəkdən sevən qoca, onu dəniz aşıqlərinin ispanca adlandırdığı kimi xəyalən* ***la mar*** *deyə əzizləyirdi. Dənizi sevən bəziləri hərdən acıqları tutanda onu pisləsələr də, çox vaxt qadın cinsində, qadın kimi yad edirdilər. Üzgəc əvəzinə kəndirə tıxac bağlayan, köpəkbalığının qaraciyəri tapılmayanda çoxlu pul qazanmaq üçün balıq tutmağa barkasda gedən cavanlar isə dənizə rəqib kimi baxır, onu erkəkcəsinə* ***el mar*** *adlandırırdılar. Onlar yeri gəldi-gəlmədi, lazm oldu-olmadı, dənizi yamanlayır, lənətləyirdilər. Lakin qoca üçün dəniz hər şey idi, dəniz onun həyatı idi; qoca dənizə ilahə kimi baxırdı. Bu ilahə bəşər oğluna nələr vermiri?! O nə qədər səxavətli və lütfkardır! Dəniz qəzəblənib qocanı incitdikdə, ondan üz çevirib heç nə verməddikdə belə, qoca dənizdən şikayətlənmirdi. Neyləmək olar, dənizin təbiəti belədir. "Ay qadını cuşa gətirdiyi kimi, dənizi də coşdurur", - deyə qoca düşündü"(*Hemenquey, 2010). *"Sahil tərəfdə buludlar dağ kimi ucalırdı. Onların arxasındakı təpələr göyümtül-boz rəngdə idi. Liman boyu, elə bil, yaşıl bir xətt uzanırdı. Su tünd-mavi rəngə çalırdı, dəniz bənövşəyi görünürdü. Qoca dənizin dərinliklərinə nəzər salanda qaranlıqda üzən al-əlvan planktonları gördü. Onlar gün işığında necə də əlvan şəfəqlər saçırdı...Günəş xeyli qalxmışdı. Sahildə buludların silsilətək ucalması havanın xoş olacağından xəbər verirdi. Yırtıcı quş uçub getmişdi. Günəş şüalarından sarı rəngə çalan Sarqas yosunlarından başqa, suyun səthində ayrı heç bir şey gözə dəymirdi. Yalnız qırmızı rəngli portuqal fiziliyası - həlməşiklər az-çox diqqəti cəlb edirdi. Qayıq bu saat həlməçiklərin arası ilə üzürdü; birdən fiziliya yanpörtü çevrilib sonra yenə əvvəlki vəziyyətini aldı və daha cəld üzməyə başladı: o, bir yardlıq məsafəyə öldürücü zəhər saçan bənövşəyi qol-budaqlarını arxasınca sürüyüb apardı"(*Hemenquey, 2010). "Qoca şiddətli təkandan diksinib oyandı; sağ əli zərblə sifətinə dəyib onu sarsıtmışdı; ildırım sürətiylə dənizin dərinliklərinə gedən kəndir ovcunu od kimi yandırırdı. Sol əli keyidiyindən qoca var gücünü sağ əlinə yığıb, kəndiri saxlamağa cəhd etdi, lakin bir şey çıxmadı. Nəhayət, qocanın sol əli də hərəkətə gəlib kəndirdən yapışdı. O, kəndiri kürəyi ilə basdı və indi kürəyi də, balığın bütün ağırlığı düşmüş sol əli sürtünmədən od tutub yanırdı. Sol əlini lap, elə bil, doğrayırdılar. Qoca arxa tərəfdəki ehtiyat kəndirə göz yetirdi; kələf sürətlə fırlandıqca kəndir də sürətlə açılırdı. Birdən balıq okeanın sakit, güzgü təki hamar sinəsini yarıb üzə çıxdı və tez də ağır-ağır gözdən itdi. Sonra təzədən bir neçə dəfə çıxıb-batdı. Qayıq üzməkdə davam edir, kəndir boşalıb suya düşürdü: qoca kəndiri tarım çəkir, sonra bir anlığa boşaldırdı; qırıla bilmək qorxusuna bamayaraq, yenə təzədən bütün qüvvəsi ilə dartırdı. Kəndir qocanı dartıb qayığın burnuna gətirmişdi, onun üzü skumbriyanın tikəsinə dirənmişdi, özü heç tərpənə bilmirdi"(Hemenquey, 2010).

Nəticə

Yekun olaraq bu nəticəyə gəlirik ki, insan təbiətin bir parçası olaraq daim ondan asılıdır, onunla əlaqədədir və öz qanunları ilə yanaşı onun da qanunları ilə hesablaşmalıdır. Öz məqsədləri üçün təbiət-

dən istifadə edərkən ona zərər verməməli, məhv etməməlidir. Çünki gec və ya tez təbiət onunla olan rəftarı insana geri qaytarır, ya müsbət, ya da mənfi formada. Bütün bunlar isə dünyanın əşrəfi olan insanın təbiətlə nə qədər düzgün və adil davranmasından asılıdır. Əlbəttə ki, insan onu öz maraqlarına uyğun həyatını davam etdirmək üçün dəyişdirir, ondan istifadə edir, amma bu prosesdə mütləq və mütləq şəkildə insan olduğunu unutmadan ədalətli davranmaq məcburiyyətindədir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Bulqakov, M. A. (2006). Master və Marqarita. Bakı: Şərq-Qərb.
Great Authors. Literature of the Renaissance: Defoe, Robinson Crusoe [Video file]. Retrieved from https://www.youtube.com/watch?v=CoktDNZ9Wx0&t=7s
Gültekin, V. (2001). Victor Hugo: Hayatı ve eserleri. İstanbul: Radyo Yayınları.
Hemingway, E. (2010). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.
Hugo, V. (1999). Deniz işçileri (3-cü nəşr). İstanbul: Oda Yayınları.
Məlikzadə, İ. (2005). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.
Səmədoğlu, Y. (2005). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.
Şıxlı, İ. (1974). XX əsr xarici ədəbiyyat tarixi. Bakı: Maarif.
Yelizarova, M. Y., Qijdeu, S. P., Kolesnikov, B. İ., & Mixalskaya, N. P. (1964). XIX əsr xarici ədəbiyyat tarixi (İ. Şıxlı, Tərc.). Bakı: Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı.

HUMAN–NATURE RELATIONS: THE ARTISTIC INTERPRETATION OF DESTINY

Eyvaz Eminaliyev
Turkan Huseynova

In this article, we initially tried to study the relationship between nature and man in mutual harmony and connection. Issues such as the role of nature in the fate of man, its influence on human character, man's dominance and manipulation ability over nature, etc. were involved in the study. For this, we turned to examples of the literature of both Azerbaijani and foreign nations. Since the topic is quite interesting and relevant for our time, it can be found in the literary examples of many nations. Issues such as the relationship between man and nature, the role of nature in shaping fate, its artistic interpretation, etc. have always been one of the main themes of fiction, from examples of oral folk literature to the present day, and have been in the focus of attention of poets and writers. In the article, we tried to evaluate the relationship between man and nature from various aspects, so we touched not only on the role of nature in the fate of man, but also on serious humanistic problems such as their mutual relationship, man's struggle with nature, his power over it, etc. Of course, in order to achieve the goal we set in the article in a more appropriate and suitable way, we tried to prove our point with quotes. For this reason, we have approached both local and foreign literary examples with attention and sensitivity and have tried to study them from the perspective of our own interests.

Keywords: *nature, man, interpretation, human destiny, fiction*

SÜRURİ VƏ ŞAH İSMAYIL XƏTAYİ QƏZƏLLƏRİNDƏ SƏSLƏŞƏN MƏQAMLAR

Şəfəq Maksudova
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Elmi işçi
shafaqmaksudova@gmail.ru
https://orcid.org/0009-0004-1304-1108

XV əsrin sonu - XVI əsrin əvvəllərində yaşamış şairlərdən biri də Süruridir. Şairin yaradıcılığı dövünün digər ədibləri ilə müqayisədə az tədqiq edilmişdir. O, Nəsimi irsinin varisi və onun ideyaları uğrunda mübarizə aparan bir sənətkar kimi tanınmışdır. Qəzəlləri, əsasən, hürufilik ideyalarının təbliğinə həsr olunsa da, yaradıcılığında məhəbbət mövzulu şeirlərə də rast gəlmək mümkündür. Şairin poeziyasına diqqətlə nəzər saldıqda, onun sələf və müasirlərinin ədəbi irsinə dərindən bələd olduğunu görürük. Özünəməxsus yaradıcılıq xüsusiyyətlərinə və orijinal üsluba malik Süruri poeziyası bir çox söz ustadlarının da nəzər diqqətini cəlb etmiş, onun poeziyasına müraciət edərək, bir sıra nəzirə nümunələri yazmışlar. Bu baxımdan şairin müasiri XVI əsrdə yaşamış görkəmli dövlət xadimi və şair Şah İsmayıl Xətayi poeziyasında da Süruri qələminin ruhu hiss olunur. Xətayi Sürüriyə məxsus bir sıra qəzəlləri örnək alaraq nəzirə nümunələri qələmə almışdır. Məqalədə, Xətayini Süruri qəzəllərindən bir neçəsinə yazdığı nəzirə şeirləri müqayisəli şəkildə təhlil edilmiş, söz və ifadə, rədif və qafiyə baxımından uzlaşan tərəflər nümunələrlə təqdim edilmişdir.

Açar sözlər: *Süruri, Şah İsmayıl Xətayi, poeziya, qəzəl, rədif, qafiyə*

Giriş

XVI əsrdə Səfəvilər dövlətinin qurulması, Şah İsmayıl Xətayinin hakimiyyətə gəlməsi ilə anadilli şeirin inkişafı nəzərəçarpacaq şəkildə artmışdır. "Şah İsmayıl sarayında şairlər məclisi təşkil olunur. Bu sarayda təşkil olunmuş ədəbi məclisdə Süruri, Şahi, Matəmi, Qasimi, Tufeyli kimi şairlər iştirak edir. Məclisin başında Məlikuşşüəra ləqəbi daşıyan göyçaylı Həbibi dayanır." (Araslı, 2024, s. 66)

Belə ki, Şah İsmayılın hakimiyyətə gəlməsi hürufi ideyalarının daha da sərbəst şəkildə inkişaf etməsinə şərait yaratmışdır. Bu baxımdan, hürufi şairi Süruri də Şah İsmayıl Xətayinin hakimiyyəti dövründə hürufilik ideyalarını daha sərbəst inkişaf etdirmiş, eləcə də "1515-ci ilə kimi Xətayi sarayına yaxın bir sənətkar olaraq yaradıcılığını davam etdirmişdir." (Araslı, 2024, s. 67)

Tədqiqatçı Paşa Kərimli Şah İsmayıl Xətayi və Süruri poeziyasındakı sələf-xələflik münasibətlərinə belə aydınlıq gətirir: "Fikrimizcə, Şah İsmayılın gənc hökmdar ikən sarayına dəvət etdiyi Süruri ondan daha yaşlı olmalı idi və Xətayinin onun şeirlərini örnək seçmək ehtimalı çoxdur. *"* (Kərimov, 2020, s. 37). Həqiqətən də, Süruri yaradıcılığına diqqətlə nəzər saldıqda, şairin zəngin ədəbi irsə malik olduğunun şahidi oluruq. Xətayinin Sürurin poeziyasına müraciət etməsi heç də təsadüfi olmamışdır. Şah İsmayıl Xətayinin Süruri poeziyasından bəhrələnməyi istər dövrünün, istərsə də sələflərinin yaradıcılığına olan maraqdan irəli gəlmişdir. Xətayi və Süruri şeirlərindəki səsləşmələr fərqli və özünəməxsus xarakter daşıyır. Burada sanki, sələf və müasirlərinin yaradıcılığına, eləcə də, klassik ənənələrə olan sadiqlik daha çox özünü büruzə verir.

Bildiyimiz kimi, Xətayi şeirləri xalq dilinə daha çox yaxın şeirlərdir. Süruri poeziyası isə daha dərin, qəliz və hürufi ideyalarının təbliğinə yönəlib. Lakin buna baxmayaraq, Xətayi Süruri şeirlərinə istər mövzu və məzmun, istərsə də, sadəcə quruluş və standart klassik şeir qəliblərinə görə müraciət etmiş və bir sıra nəzirə qəzəlləri qələmə almışdır. Söz, ifadə, rədif və qafiyələrin birini izləməsi Xətayinin Süruri şeirinə, daha doğrusu, klassik ənənələrə bağlılığından irəli gəlir.

Şah İsmayıl Xətayi poeziyasında yer alan "*"Gəldi sürahi məclisə, rəf' eyləmiş niqab,*" misralı qəzəl fikrimizcə, Sürurinin "*Aftabi-tal'ətindən rəf' olur çün kim niqab,*" misralı qəzəlinə nəzirə olaraq yazılmışdır. Həmin qəzəllərin mətlə beytlərinə nəzər salaq:

Şah İsmayıl Xətayi:
"Gəldi sürahi məclisə, rəf' eyləmiş niqab,
Nur eylədi bu məclisi zərrinpər afitab. (Səfərli, Yusifli, 2005, s. 40)
Süruri:
Aftabi-təl'ətindən rəf' olur çün kim niqab,
"Ünzurunə nəktəbis min nurikun" dur aftab. (Kərimov, 2020, s. 62)

Göründüyü kimi, Süruri qəzəlində olduğu kimi, Xətayi qəzəlinin də mətlə beytində eyni "niqab-afitab" qafiyəsi işlədilmişdir. Eyni zamanda, beytlər məzmun və ifadələr baxımından da səsləşir. Qeyd edək ki, Süruri şeirində olduğu kimi, Xətayi qəzəli də yeddi beytdən ibarətdir. Mətlə beytindən başqa, Süruri qəzəlindəki, "şərab" və "turab" qafiyəsi Xətayinin ikinci və məqtə beytində işlədilmişdir. Bu beytlərə nəzər salaq:

Şah İsmayıl Xətayi:
Manəndi-cami-Xızr nəbidir misal ilən,
Abi-həyat içindəki can bəxş edən şərab.

Hər yerdə kim, otura, Xətayi, o xurvəş,
Gögdə mələyik oxur: "Ya leytəni turab". (Səfərli, Yusifli, 2005, s. 41)
Süruri:
Qamətində xakə zülfün düşdügün görüb okur,
Sidrədən ruhül-əmin "ya leytəni kuntu turab". (Kərimov, 2020, s.62)
Gülşəni-hüsnündə ləlündən məni mən' etmə kim,
Sormuşam, cənnətdə, ey huri, mübah olur şərab. (Kərimov, 2020, s. 63)

Sürurinin dini mövzuda yazdığı *"Ey xatun Xızri-dəhanun çeşmeyi-heyvanumız"* (Kərimov, 2020, s. 92)misralı şeirinə, Xətayinin nəzirəsi *"Əzəldən şah bizim sultanımızdır*,"(Səfərli, Yusifli, 2005, s.53) şahların tərifinə həsr edilmiş mədhiyyədir. Hər iki şairə məxsus qəzəllərin mətlə beytlərinə baxaq:

Şah İsmayıl Xətayi:
Əzəldən şah bizim sultanımızdır,
Pirimiz, mürşidimiz, xanımızdır. (Səfərli, Yusifli, 2005, s. 53)
Süruri:
Müshəfi-hüsnün bəyanidur əzəldən ta əbəd,
Lövhimiz, nuranumuz, İncilimiz, Quranımız. (Kərimov, 2020, s. 93)

Qeyd etmək lazımdır ki, Süruri qəzəlinin ikinci beytinin ikinci misrasında mudavvar poetik fiqurundan istifadə edildiyi kimi, Xətayi qəzəlinin mətlə beytinin ikinci misrasında da eyni məcazdan istifadə edilmişdir. Mudavvar-sözünün mənası dairəvi dövrə deməkdir. Bu sənətlə yazılmış misranın (ya beytin) hansı kəlməsindən başlayıb oxuduqda vəzni pozulmaz və məna itməz. Belə sadalama ritmik ahəng yaradır. (Quliyeva, 2020, s. 162)

Qəzəllərdə uzlaşan məqamlardan biri də qafiyələrdir ki, Süruri qəzəlindəki "bürhanımız, imanımız" qafiyələri, Xətayi şeirinin ikinci və üçüncü beytində işlədilmişdir.

Süruri divanında altı mürəbbe vardır ki, onlardan biri Şah İsmayıl Xətayiyə həsr olunmuşdur və on beş bənddən ibarətdir. "Mürəbbe - ərəbcə dördlük deməkdir. Lakin mürəbbe çox fərqlidir. Belə ki, mürəbbe bir neçə bənddən ibarət olur. Birinci bəndi aaaa, ikinci bəndi bbba, üçüncü bəndi ccca və s. kimi qafiyələnir. Son bənddə adətən şairin təxəllüsü verilir." (Əliyev, 2012, s. 427)

Adını çəkdiyimiz mürəbbenin ilk beytinə beytinə nəzər salaq:

Süruri:
Ta kəlamullahi-natiq hüccəti-tənzildir,
Əlləməl-əsmayi-hüsnün surəti-təvildir,
Ləşkəri-ərvahə bu söz qüvvəti-təhsildir
Kim, Əlinin Zülfiqarı Şah İsmayıldır. (Kərimov, 2020, s. 171)

Sürurinin Şah İsmayıl Xətayiyə hörmət əlaməti olaraq qələmə aldığı mürəbbe dini mövzuda yazılmışdır. Şair hər bəndin sonunda işlətdiyi "Əlinin Zülfiqarı Şah İsmaildir" – ifadəsi Şah İsmayıl Xətayinin bir hökmdar olaraq qüdrətini, əzəmətini vurğulayır. Bildiyimiz kimi, "Əlinin Zülfiqarı" ifadəsində, İslamın dördüncü xəlifəsi və birinci İmam Əli ibn Əbu Talibin (ə) məşhur, qoşa tiyəli, kərtikli tarixi qılıncı nəzərdə tutulur. Rəvayətə görə, Ühüd döyüşündə Peyğəmbər (s) tərəfindən Əliyə verilmişdir. Ərəb dilindən tərcümədə "fəqərəli" (onurğalı) deməkdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, Şah İsmayıl Xətayinin hakimiyyətə gəlməsilə zəngin yaradıcılıq xüsusiyyətlərinə malik, hürufi şairi Sürüri, öz poeziyasında hürufilik ideyalarının təbliğinə geniş yer vermişdir. Şah İsmayıl Xətayi isə yaradıcılığının ilk dönəmlərində Sürüri poeziyasına müraciət etmiş və bir sıra nəzirə qəzəlləri qələmə almışdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. Sənətkarın elmi pasportu-50. Bakı, "Elm", 2024
2. Məmməd. İ. Əliyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı, Elm və təhsil, 2012
3. Mahirə H. Quliyeva. Şərq poetikasının əsas kateqoriyaları. Bakı, Maarif, 2010
4. Tərtibçi və ön söz müəllifi. Paşa Kərimov. Sürüri. Divan. Azərbaycan şairi Sürüri və onun divanı. Bakı, Elm, 2020
5. Tərtibçi və ön söz müəllifi. Paşa Kərimov. Sürüri. Divan. Bakı, Elm, 2020
6. Tərtib edənlər: Əliyar Səfərli Xəlil Yusifli. Şah İsmayıl Xətayi. Əsərləri. Bakı,"Şərq-Qərb",2005
7. Tərtib edənlər: Əliyar Səfərli Xəlil Yusifli. Şah İsmayıl Xətayi. Əsərləri. Bakı,"Şərq-Qərb", 2005

THE SAME DETAİLS İN THE GHAZALS' OF SURURI AND SHAH ISMAIL KHATAI

Shafak Maksudova

Sururi is one of the poets who lived at the end of the 15th century and the beginning of the 16th century. The poet's work has been relatively little studied. He is known as the heir to Nasimi's legacy and an artist who fought for Nasimi's ideas. Although his ghazals are mainly dedicated to the propagation of the ideas of Hurufism, it is also possible to find poems on the theme of love in his work. When we look closely at the poet's poetry, we see that he is deeply familiar with the literary heritage of his predecessors and contemporaries. Sururi's poetry, which has its own creative features and original style, has attracted the attention of many masters of the word, who have turned to his poetry and written a number of examples of naziras. In this regard, the spirit of Sururi's pen is also felt in the poetry of the poet's contemporary, the prominent statesman and poet Shah Ismail Khatayi, who lived in the 16th century. Khatayi wrote examples of naziras based on a number of ghazals belonging to Sururi. In the article, the preface poems written by Khatayi Sururi to several of his ghazals are analyzed in a comparative manner, and the aspects that agree in terms of words and expressions, parallels and rhymes are presented with examples.

Keywords: *Sururi, Shah Ismail Khatayi, poetry, ghazal, radif, rhyme*

DETEKTİV JANRINDA MİLLİ İDENTİKLİK (KEMEL TOKAYEVİN "SUİ-QƏSD" ƏSƏRİ ƏSASINDA)

Sima Şəfizadə
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
sima_adass@mail.ru
https://orcid.org/0000-0002-2324-4409

Kemel Tokayevin "Sui-qəsd" əsəri nəinki maraqlı süjet xətti ilə, həm də cəmiyyətə yönəlmiş dərin mesajları ilə qazax detektiv ədəbiyyatında mühüm yer tutan nümunələrdən biridir. Əsərdə Petruşkin adlı obraz həyat yoldaşı Matryonanın itməsi ilə bağlı minbaşı Kuzmenkonun yanına gəlir. Həyat yoldaşının tapılması üçün cinayət işinin açılmasını ondan xahiş edir. Bundan sonra hadisələr detektiv janrına uyğun olaraq axtarışlardan və şübhələrdən ibarət olaraq davam edir. İtki ilə bağlı müxtəlif versiyalar səslənsə də, yalnız əsərin sonuna yaxın Matryonanın səbəbsiz itmədiyi, öldürüldüyü məlum olur. Əvvəlcə əsərin giriş hissəsi oxucunu birbaşa hadisənin mərkəzinə gətirir. Sui-qəsd faktının təqdim olunması ilə müəllif dərhal gərgin atmosfer yaradır. Detektiv janrında milli xüsusiyyətlərin aşkarı isə araşdırmanın əsas istiqamətlərindən biridir.

Açar sözlər: *Milli identiklik, detektiv, xarakter, psixologizm, sosial münasibətlər, özünüdərk*

Giriş

Kemel Tokayev bu əsərdə cinayət işini sadəcə hadisə kimi təqdim etmir, onu insan psixologiyası, sosial münasibətlər və mənəvi dəyərlər və s. fonunda təhlil edir. Tokayev baş obraz Kuzmenkonun timsalında cəmiyyətdəki ədalət və məsuliyyət məsələlərini qabardır və yaratdığı obrazın simasında dövlətə sədaqət, ictimai borc hissi və mənəviyyat məsələlərini işıqlandırmaqla, cəmiyyətin vətənpərvər ideal nümayəndəsini təcəssüm etdirir. Ona görə də "Sui-qəsd" yalnız detektiv əsər kimi yox, eyni zamanda sosial-psixoloji əsər kimi də dəyərlidir. Detektiv janrının tədqiqatçısı İlhamə Məmmədovanın Tokayevin obrazları ilə bağlı bölgüsünə uyğun olaraq Kuzmenko obrazı birinci tip bölgüyə aid edilməklə xaraktercə mübariz insan obrazını öz davranışları, nitqi ilə tamamlaya bilir. "*birinci tip obrazlara ənənəyə sadiq, fərdi motivləri güclü inkişaf etmiş və davranış qaydalarına əməl edən təşəbbüskar və mübarizəyə hazır xarakterlər aiddir"* (Məmmədova.İ., 2021, ss. 21-25).

Kemel Tokayevin "Sui-qəsd" əsəri detektiv janr çərçivəsində yazılsa da, onun dərin qatlarında milli xarakterin müxtəlif cəhətləri aydın şəkildə əks olunur. Müəllif cinayət hadisəsini təsvir etməklə kifayətlənmir, eyni zamanda qazax cəmiyyətinin mənəvi dəyərlərini, düşüncə tərzini və sosial münasibətlər sistemini göstərir və xüsusilə baş qəhrəman Kuzmenkonun xarakterini mənsub olduğu xalqın xüsusiyyətlərinə bağlayır. Kuzmenko milli xarakter kimi, mənliyin, şəxsiyyətin milli-mənəvi dəyərlərə sadiqliyin, milli ənənələrə bağlılığın göstəricisi kimi qazax xalqının təmsilçisidir. Bunu nəinki Kuzmenkonun digər obrazlarla dialoqunda, həmçinin düşüncələrində, şəxsi insani keyfiyyətlərində, peşəsinə sadiqliyində, xalqını sevməsində, vətənə bağlılığında görmək mümkündür. Ona görə də cəmiyyət içərisində, kütlə arasında bu cür milli xarakterli şəxslər yalnız və yalnız digər insanlarla müqayisədə öz fərqini görür, dərk edir, milli-genetik yaddaşı oyaq olan, özündə milli mənlik və milli özünüdərk hisslərini formalaşdırmağı bacaran insanlar olaraq meydana çıxır. Bu xarakter bir parçası, nümayəndəsi olduğu xalqın – millətin bütün inanclarını, dilini, mədəniyyətini, adət-ənənələrini, yaddaşını özündə daşıya bilir. Həm də təkcə daşımaqla kifayətlənmir, eyni zamanda da yaşadır və gələcək nəsillərə ötürür. Kuzmenko da milli xarakter kimi Şərq və Orta Asiya cəmiyyətlərinə xas xüsusiyyətləri əks etdirən obraz kimi yadda qalır. Nəinki Kuzmenko, eynilə XX qazax ədəbiyyatının görkəmli nümayəndəsi Muxtar Auezovun bütün dünyaya səs salan "Abay" romanına da nəzər saldıqda biz bu xüsusiyyətləri əsərin baş qəhrəmanı olan Abayda da görürük. "*Abay üçün həyatın mənası yalnız və yalnız xalq, millət naminə yaşamaq, mübarizə aparmaqdır. Mənsub olduğu təbəqə naminə özünü qurban vermək fikrində olmayan, hətta bu təbəqə ilə konfliktə girən Abay millət üçün əlindən gələn bütün işləri görməyə bir-*

mənalı şəkildə hazırdır. Milli bir insanın və millətə vurğun bir şəxsiyyətin yaradıcılığı kimi, həyatı da bütövlükdə milli ruhla süslənmişdir" (Teymurov, 2020, s. 103). Beləliklə, qazax ədəbiyyatının nümayəndələri əsərlərində qədim türk təfəkküründü, xarakterini özlərində qoruyub saxlamaqla, varislik ənənələrindən istifadə etməklə qazax xalqının milli düşüncəsinin formalaşmasına bu şəkildə öz töhfələrini verə bilmişlər.

Əsərdə milli xarakterin ən parlaq təzahürlərindən biri insan münasibətlərində özünü göstərir. *"Mənim başqa bir vəzifəm varmı? İstintaq əməliyyatları hər zaman əmirlə edilə bilməz. Şəxsi insani keyfiyyətlər də unudulmamalıdır* (Tokayev, 2023, s. 248),- deyən Kuzmenko obrazlarla arasındakı ünsiyyət forması, qarşılıqlı hörmət və sosial məsafəni qorumaq bacarığı ilə ənənəvi Şərq və Orta Asiya cəmiyyətlərinə xas xüsusiyyətləri özündə əks etdirir. Onun məslək əxlaqı şəxsi əxlaqla üst-üstə düşür. Ona görə də böyüklərə hörmət, nüfuz, hörmət sahibi olan şəxslərə xüsusi münasibət və ictimai mövqeyin önə çəkilməsi əsərdəki davranış modellərinin əsasını təşkil edir. Bu xüsusiyyətlər milli mentalitetin ayrılmaz hissəsi kimi təqdim olunur. Kuzmenkonun milli xarakteri xüsusilə obrazlarla münasibətdə psixoloji aspektdən açıla bilir. Onun davranışında ehtiyatlılıq, təmkinlilik ən müsbət xarakteri kimi səciyyələndilir. Petruşkinlə dialoqda göründüyü kimi, Kuzmenkonu hər kəs çox həssas birisi olduğu kimi tanıyır, "*Köməyini əsirgəməyəcəyinə, mənimlə birlikdə yas tutacağına inanaraq gəlmişəm. Kənara çəkilmə, uzaq durma, mənə kömək et"* (Tokayev, 2023, s. 151), amma istintaq posesində emosiyalarını kənara qoyaraq məntiqə üstünlük verməsi obrazın istintaqçı kimi öz peşəsinə sadiqliyini göstərir. "*Kuzmenko, bir adam ağlayanda nifrət edərdi. Bir kişinin nə qədər acı, əzab çəkməsinə rəğmən dik duruşunun tərəfdarı idi. Söhbət davam etmədi. Petruşkin getdikdən sonra, polis şöbəsinə zəng elədi, onun vəziyyəti haqqında məlumat verdi"* (Tokayev, 2023, s. 153). Ədalət anlayışı da Kuzmenkoda milli xarakterin mühüm göstəricilərindən biri kimi çıxış edir. Əsərdə cinayətin açılması və günahkarın ifşası yalnız hüquqi məsələ deyil, həm də mənəvi borc kimi təqdim olunur. İstintaqçı obrazı vasitəsilə müəllif ədalət, sədaqət, dürüstlük və vicdan kimi keyfiyyətləri ön plana çəkir. Bu isə göstərir ki, cəmiyyət daxilində haqqın bərpası təkcə qanunların deyil, həm də mənəvi dəyərlərin tələbidir. *"Günahkar özünü biruzə verməz, amma aramıza da girməz. Hər şey ortaya çıxacaq. Ədalət öz yerini tapacaq"* (Tokayev, 2023, s. 164),- deyən Kuzmenko vahid türk düşüncə sistemindən qaynaqlanan, vahid türk təfəkküründən doğan eyni mədəniyyətin, eyni adət-ənənənin, mənəvi dəyərlərin daşıyıcısı olan qazax xalqını təmsil edən obrazın simasında haqq-ədalətə inam məsələsini, məslək əxlaqını, milli və şəxsi özünüifadəni məharətlə daşıya bilir. *"Верно также то, что большая или меньшая привязанность к национальной идентичности и ценностям отражается в образе жизни, характере и привычках каждого человека. Именно национальная идентичность связывает человека с его корнями, народом, нацией, прошлым и определяет его идентичность"* (Шафизаде.С.Т., 2021, s. 115). Baş obraz Kuzmenko həm də xalq düşüncəsinə yaxınlığı ilə seçilir. Ən əsas xüsusiyyətlərindən biri onun təmkinli və səbirli davranışıdır. O, hadisələrə emosional yanaşmır, əksinə, hər bir detalı diqqətlə araşdırır və nəticələrə tələsmədən gəlir. Bu xüsusiyyət Şərq xalqlarına xas olan ölçülü davranış və düşünərək qərar vermə mədəniyyəti ilə uyğunluq təşkil edir, həmçinin xarakterdəki rasional düşüncə elementlərini də ortaya qoyur *"Düşüncə saxta mənbələrlə əlaqələləndirilsə, düzgünlük və doğruluq əldə edə bilmərik"* (Tokayev, 2023, s. 176),- deyən Kuzmenkonun şəxsi keyfiyyətləri məhz bu şəkildə aşkarlanır.

Beləliklə, Kuzmenkonu müsbət xarakter kimi xarakterzə edən xüsusiyyətlər içərisində dürüstlük və prinsipiallıq, yalan və haqsızlığa qarşı dik duruş, ədalətin bərpa olunmasına çalışma, sakit və təmkinli olma, milli xarakter kimi dövlətinə sədaqət, ictimai borc, kollektivçilik ruhu (sovet dövrü üçün tipik obraz), vətənə və cəmiyyətə bağlılığı əsas amillər kimi dəyərləndirilə bilər. Bu fikir Tokayevin nəinki Kuzmenko obrazını bütövlükdə, yazıçının həm də bir vətəndaş kimi də məslək borcunu da aşkara çıxarır. Belə ki, "Sui-qəsd" povestinin digər obrazlarının monoloq və dialoqlarındakı ifadələrdə "*Tanrıya şükür, indi xalqımız bolluq içərsində yaşayır. Buna xoşbəxtlik səbəb deyilmi?*" (Tokayev, 2023, s. 178) xalqın taleyini düşünmək, "*sahibi olmayan bir əşyaya sahiblənmək asan, onu qoruyub saxlamaq çətin*" (Tokayev, 2023, s. 178) və yaxud "*Yaşayanlara*

hörmətim olduğu kimi, ölənlərə də hörmətim çoxdur. Mərhumun əmanəti üstümdə qalmasın" (Tokayev, 2023, s. 294) əmanətə hörmət, onu qoruyub saxlamaq, etnopsixoloji yaddaşa, türk milli kimliyinə qayıdış məsələsi milli kimlik cizgiləri ilə xarakterizə edilir. "*Andrey Alekseyviç, biz dostuq, qazaxlarda dostluq qan bağlılığıdır. Qardaşlar bir-birindən heç nə gizlətməz"* (Tokayev, 2023, s. 286), - kimi ifadə isə birbaşa dostluqdan daha çox ümumbəşəri dəyər kimi təsvirə cəlb edilməklə, mənəviyyata, bəşəri prinsiplərə bağlı olan mənsubiyyət, kimlik, şəxsiyyət, özünüdərk prinsipi kimi alqışa layiq səslənir.

Göründüyü kimi Tokayev, müasir ədəbiyyatın təsirlərindən qidalanaraq, detektiv janrına müraciət etməsinə baxmayaraq, həm təhkiyədə, həm obrazların davranış və dialoqlarında tarixiliyi, müasirliyi və milliliyi birləşdirərək əsərlərində yetərincə dolğun estetik harmoniya yarada bilmişdir.

NATIONAL IDENTITY IN THE DETECTIVE GENRE (BASED ON KEMEL TOKAYEV'S "ASSASSINATION")

Sima Shafizadeh

Kemel Tokayev's "Assassination" is considered one of the significant examples of Kazakh detective literature, distinguished not only by its engaging plot but also by its profound social messages. In the work, a character named Petrushkin approaches Centurion Kuzmenko regarding the disappearance of his wife, Matryona, and asks him to initiate a criminal investigation in order to find her. From this point onward, the events unfold in accordance with the conventions of the detective genre, consisting of searches, suspicions, and various hypotheses. Although multiple versions concerning the disappearance are put forward, it becomes clear only toward the end of the work that Matryona did not disappear without reason but was, in fact, murdered.

At the beginning of the narrative, the introduction brings the reader directly into the center of the events. By presenting the fact of the assassination, the author immediately creates a tense atmosphere. The exploration of national characteristics within the detective genre, meanwhile, constitutes one of the main directions of analysis.

Keywords: *national identity, detective, character, psychologism, social relations, self-awareness*

AZƏRBAYCAN VƏ QAZAX DETEKTİV NƏSRİNDƏ PARALELLƏR: CƏMŞİD ƏMİROV VƏ KEMEL TOKAYEV YARADICILIĞI ƏSASINDA

Seyidnisə Lətifli
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Elmi işçi
seyidnise.letifli@mail.ru
http://orcid.org/ 0009-0009-9692-5772

Məqalədə Azərbaycan və qazax detektiv nəsrinin təşəkkül və inkişaf prosesində mühüm rol oynamış Cəmşid Əmirov və Kemel Tokayev yaradıcılığı müqayisəli aspektdə araşdırılmışdır. Tədqiqatda hər iki yazıçının detektiv janrın formalaşmasında xidmətləri, əsərlərinin ideya-məzmun xüsusiyyətləri, süjet quruluşu, qəhrəmanların xarakter sistemi və detektiv təhkiyənin struktur elementləri təhlil edilmişdir. Müəyyən edilmişdir ki, Cəmşid Əmirov və Kemel Tokayev yaradıcılığında cinayət hadisəsinin araşdırılması, məntiqi təhlil, ədalətin bərpası və ictimai təhlükəsizliyin təmin olunması aparıcı mövzulardandır. Bununla yanaşı, müəlliflərin əsərlərində milli-mədəni xüsusiyyətlər, sosial mühit və ideoloji yanaşmalar fərqli şəkildə əks olunmuşdur. Məqalədə "Brilyant məsələsi" və "Damğalı qızıl", "Sahil əməliyyatı" və "Sirli iz", eləcə də "Vətəndən uzaqlarda" və "Xüsusi tapşırıq" əsərləri əsasında aparılan komparativ təhlil nəticəsində Azərbaycan və qazax detektiv nəsri arasında mövcud olan tipoloji paralellər və fərqli cəhətlər müəyyənləşdirilmişdir. Tədqiqat detektiv janrın hər iki xalqın ədəbiyyatında sosial reallığın, hüquq-mühafizə fəaliyyətinin və mənəvi dəyərlərin bədii ifadə vasitəsi kimi çıxış etdiyini göstərir.

Açar sözlər: *detektiv nəsr, müqayisəli ədəbiyyatşünaslıq, polis detektivi, casus detektivi, süjet, komparativ təhlil.*

Giriş

Ədiblər cəmiyyətdə baş verən hadisələri, insan xarakterlərini və sosial mühitin xüsusiyyətlərini bədii təfəkkür süzgəcindən keçirərək əsərlərində əks etdirməklə oxucuya müəyyən tarixi dövrün ruhunu və həyatın çoxşaxəli aspektlərini daha dərindən dərk etmək imkanı yaradırlar. Bu baxımdan ədəbiyyat yalnız estetik funksiyanı yerinə yetirmir, həm də sosial reallıqların idrakı və interpretasiyası üçün mühüm vasitə kimi çıxış edir. Tarixin bütün dövrlərində pul, qısqanclıq və hakimiyyət uğrunda yaranan qarşıdurmalar, habelə fərdi ambisiyalar və emosional gərginlik insanları cinayət törətməyə təhrik edən mühüm psixoloji və sosial faktorlardan hesab olunur. Xeyrin şər üzərində qələbəsi, ədalətin bərqərar olması, məntiqi düşüncə ilə hadisələr zəncirinin qırılması, cinayət izlərinin araşdırılması, cinayətkarın tapılıb cəzalandırılması və s. kimi süjetlərin izlərini fərqli dövrlərin ədəbi nümunələrində müşahidə etmək mümkündür. Bu da detektiv ədəbiyyatın tədricən formalaşmasına zəmin yaratmışdır.

XX əsrin 50-ci illərində Kemel Tokayev və Cəmşid Əmirov mənsub olduqları ölkədə detektiv nəsrin əsasını qoymuş və hər iki sənətkar yaratmış olduğu bədii nümunələrlə ədəbiyyatda dərin iz buraxmışdır. Azərbaycan və qazax ədəbiyyatında detektiv nəsrin formalaşması və inkişafı prosesi sosial-ideoloji baxımdan mürəkkəb tarixi mərhələyə təsadüf edir. Bu kontekstdə həm Azərbaycan ədəbiyyatında detektiv janrın əsasını qoyan Cəmşid Əmirovun, həm də qazax detektiv nəsrinin öncül simalarından olan Kemel Tokayevin fəaliyyəti xüsusi diqqətə layiqdir. Hər iki ədib yaradıcılıqlarını ideoloji çərçivələrin və senzura məhdudiyyətlərinin mövcud olduğu bir dövrdə davam etdirmiş, buna baxmayaraq, janrın estetik və funksional imkanlarını genişləndirən əsərlər ortaya qoymuşlar.

Detektiv janr bədii ədəbiyyatda spesifik poetik-struktur xüsusiyyətləri ilə seçilərək, süjetin təşkili baxımından rasional-idraki modelə əsaslanır. *"Bu janrın semantik nüvəsini müəmmalı cinayətin sistemli araşdırılması, faktoloji materialın mərhələli şəkildə toplanması və məntiqi təhlil vasitəsilə həqiqətin rekonstruksiyası təşkil edir"* (Chesterton, 1984, s. 111). Beləliklə, detektiv əsər yalnız narrativ gərginlik yaratmaq funksiyası daşımır, eyni zamanda oxucunun idrak fəaliyyətini aktivləşdirən intellektual konstruksiya kimi çıxış edir. Oxucu burada hermenevtik subyekt statusu qazanaraq, mətn

daxilində təqdim olunan ipuclarını interpretasiya edir, səbəb-nəticə əlaqələrini müəyyənləşdirir və nəticə etibarilə, müəllifin qurduğu məntiqi sistemi dekodlaşdırmağa çalışır. Cəmşid Əmirov və Kemel Tokayevin əsərlərində detektiv süjetin quruluşu rasional analiz prinsiplərinə əsaslanmaqla yanaşı, sosial reallığın bədii inikası ilə sıx bağlıdır. Onların mətnlərində kriminal hadisə yalnız fərdi deviasiya faktı kimi deyil, həm də müəyyən ictimai münasibətlərin və struktur problemlərin nəticəsi kimi təqdim olunur.

Cəmşid Əmirovun detektiv nəsrində istintaq prosesinin təsviri yüksək dərəcədə detallılıq və prosedural dəqiqliklə seçilir. Müəllif hüquq-mühafizə institutlarının fəaliyyətini, kriminal hadisələrin açılma mexanizmini və sosial mühitin bu prosesə təsirini realist diskurs çərçivəsində təqdim edir. Bu yanaşma oxucunun mətndaxili hadisələrə empirik əsaslarla yanaşmasını təmin edir və detektiv süjetin inandırıcılıq səviyyəsini artırır. *"Kemel Tokayev yaradıcılığında isə analoji struktur xüsusiyyətlər milli-mədəni kontekstlə sintez olunur, burada detektiv xətt yalnız istintaqın texniki tərəfləri ilə məhdudlaşmır, həm də psixoloji motivasiya, etnoqrafik detallar və sosial dinamika ilə zənginləşdirilir"* (Шакиев, 2022).

Hər iki yazıçının əsərlərində müşahidə olunan mühüm paralellərdən biri ədalətin bərpası ideyasının dominant semantik xətt kimi çıxış etməsidir. Detektiv süjetin final mərhələsində cinayətin açılması yalnız faktın üzə çıxarılması deyil, həm də normativ nizamın bərpası kimi təqdim olunur. Bu xüsusiyyət detektiv janrın etik-funksional yükünü artırır.

Detektiv mövzuda qələmə alınmış bədii əsərlər özünəməxsus struktura malikdir: müəmmalı bir cinayətin aşkar edilməsi, faktların məntiqi təhlil ilə izlənilməsi, ədalət və qanunsuzluq arasında toqquşma, ədalətin qələbəsi. Həm Cəmşid Əmirov, həm də Kemel Tokayev yaradıcılığında cinayət hadisəsi süjetin başlanğıc nöqtəsi kimi çıxış edir və bütün hadisələr məhz bu ilkin müəmmadan doğaraq inkişaf edir. Hər iki müəllifdə məntiq və analitik düşüncə aparıcı xətt təşkil edir, hadisələrin açılması təsadüfi deyil, ardıcıl təhlil və səbəb-nəticə əlaqələri üzərində qurulur. Bununla yanaşı, bu iki müəllif arasında fərqlər daha çox ideoloji və sosial yanaşmada özünü göstərir. Cəmşid Əmirov yaradıcılığında fərdi psixologiya, insan davranışlarının daxili motivləri və cəmiyyətin sosial problemləri daha qabarıq şəkildə təsvir olunur. Onun qəhrəmanları yalnız cinayəti açmaqla kifayətlənmir, eyni zamanda insan xarakterinin mürəkkəb qatlarını da üzə çıxarır. Kemel Tokayev isə daha çox dövlətçilik, ictimai təhlükəsizlik və kollektiv maraqlar kontekstində hadisələri təqdim edir, burada fərdi talelər ümumi ictimai sabitlik və vətənpərvərlik ideyalarına tabe şəkildə inkişaf edir.

Müqayisəli təhlilin elmi əsaslarla aparılması və irəli sürülən müddəaların obyektiv şəkildə təsdiqlənməsi məqsədilə qeyd etmək zəruridir ki, "Damğalı qızıl" (Tokayev, 2022) və "Brilyant məsələsi" (Əmirov, 1963) əsərləri arasında daha çox polis detektivi kontekstində, "Sahil əməliyyatı" (Əmirov, 1958), "Vətəndən uzaqlarda" (Əmirov, 2009) əsərləri ilə Sirli iz və "Xüsusi tapşırıq" əsərləri arasında isə məhz casus detektivi xətti baxımından daha qabarıq paralellər müşahidə olunur. "Vətəndən uzaqlarda" romanı ilə "Xüsusi tapşırıq" povestinin komparativ təhlili göstərir ki, müharibə fenomeni müxtəlif bədii yanaşmalar çərçivəsində təqdim olunsa da, hər iki mətndə ideya-semantik baxımdan vahid konseptual xətt üzrə inkişaf edərək kəşfiyyat və gizli mübarizə motivləri vasitəsilə insanın mənəvi-psixoloji transformasiyasını, etik seçim mexanizmini və dəyərlər sisteminin dinamikasını çoxqatlı bədii müstəvidə əks etdirir. *"Cəmşid Əmirovun "Sahil əməliyyatı" və Kemel Tokayevin "Sirli iz" povestləri casus detektivi bədii aspektindən araşdırıldıqdan sonra nəticə də, povestlər arasında müəyyən oxşar və fərqli cəhətlər olmasına baxmayaraq, onları birləşdirən cəhətlər əsərlərinin vahid ideoloji mövzuya, yəni casusluq fəaliyyəti və onunla mübarizə üsulunun həlli yollarının araşdırılmasına həsr olunmasıdır"* (Lətifli, 2024, s. 46). Vahid ideoloji istiqamət – cinayət və onunla mübarizə üsullarının elmi-bədii müstəvidə araşdırılması baxımından Cəmşid Əmirovun "Brilyant məsələsi" və Kemel Tokayevin "Damğalı qızıl" povestlərinin komparativ təhlili göstərir ki, hər iki əsər polis detektivinin səciyyəvi nümunələri olmaqla yanaşı, cinayətkar obrazların quruluşunda fərqli bədii yanaşmaları əks etdirir: *"Brilyant məsələsi"ndə cinayətkar dəstənin çoxistiqamətli və*

dinamik fəaliyyəti süjetin geniş və kompleks inkişafını şərtləndirdiyi halda, "Damğalı qızıl"da bu obrazlar daha çox statik xarakter daşıyır" (Lətifli, 2023, s. 106).

Cəmşid Əmirov və Kemel Tokayev yaradıcılığı əsasında aparılan müqayisəli təhlil Azərbaycan və qazax detektiv nəsrində ortaq prinsiplərin və funksional xüsusiyyətlərin mövcudluğunu təsdiqləyir. Detektiv janrın populyarlığı yalnız süjetin intriqası ilə deyil, həm də analitik təfəkkürə əsaslanan struktur quruluşu, sosial və psixoloji reallığın dərin təsviri, eləcə də ədalət ideyasının bədii konseptuallaşdırılması ilə şərtlənir. Bu isə detektiv nəsri müasir ədəbiyyatın həm estetik, həm də idrak yönümlü mühüm sahələrindən biri kimi dəyərləndirməyə əsas verir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Chesterton, G. K. (1984). How to write a Detective Story. The Chesterton Review, 111-118.

Əmirov, C. (1958). Sahil əməliyyatı. Bakı: Uşaqgəncnəşr.

Əmirov, C. (1963). Brilyant məsələsi. Bakı: Azərnəşr.

Əmirov, C. (2009). Vətəndən uzaqlarda. Bakı: Azərnəşr.

Lətifli, S. (2023). Cəmşid Əmirovun "Brilyant məsələsi" və Kemel Tokayevin "Damğalı qızıl" povestlərində polis detektivinin əlamətləri. Müqayisəli ədəbiyyatşünaslıq, 106.

Lətifli, S. (2024). Cəmşid Əmirovun "Sahil Əməliyyatı" və Kemel Tokayevin "Sirli İz" Povestlərinin Bədii Xüsusiyyətləri . Müqayisəli ədəbiyyatşünaslıq, 46.

Tokayev, K. (2022). Gecə açılan atəş: povestlər. Bakı: 413.

Шакиев, М. (2022). Наследие Кемеля Токаева и воспоминания современников. Известия Коми научного центра УРО РАН, 116-119.

PARALLELS IN AZERBAIJANI AND KAZAKH DETECTIVE FICTION: BASED ON THE WORKS OF JAMSHID AMIROV AND KEMEL TOKAYEV

Seyidnisa Latifli

The article comparatively examines the works of Jamshid Amirov and Kemel Tokayev, who played a significant role in the formation and development of Azerbaijani and Kazakh detective fiction. The study analyzes their contribution to the establishment of the detective genre, as well as the ideological and thematic features of their works, plot construction, characterization, and structural elements of detective narration. The research reveals that crime investigation, logical reasoning, the restoration of justice, and the protection of public security constitute the central themes in the works of both writers. At the same time, their texts reflect national-cultural characteristics, social realities, and ideological approaches in different ways. Through a comparative analysis of The Diamond Case and Stamped Gold, Operation Coast and Mysterious Trace, as well as Far from the Homeland and Special Assignment, the study identifies both typological similarities and distinctive features between Azerbaijani and Kazakh detective prose. The findings demonstrate that detective fiction in both literary traditions serves as an important artistic medium for representing social reality, law-enforcement activities, and moral values.

Keywords: *detective fiction, comparative literary studies, police detective, spy detective, plot, comparative analysis.*

QAQAUZ TÜRKÜ VƏ MANİLƏRİ, ONLARIN AZƏRBAYCAN BAYATILARI İLƏ MÜQAYİSƏSİ

Günay Oruczadə
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Elmi işçi
goruczade@gmail.com
https://orcid.org/0009-0002-4640-8696

Türk xalqları Balkanlardan Sakit Okean sahillərinə qədər geniş bir ərazidə məskunlaşmışlar. Bu türk xalqlarından biri də qaqauzlardır. Qaqauzlar əcdadları, mənşəyi və dili baxımından Balkan türkləri ilə sıx qohumdurlar. Bu gün onlar türk dünyasının qərb hissəsində yaşayan türklərdir. Qaqauz türklərinin zəngin və özünəməxsus folkloru var. Qaqauz nağılları, atalar sözləri, Hoca Nəsrəddin lətifələri, xalq mahnıları və tapmacaları daha zəngindir. Bu folklor nümunələri həm dil, həm motiv, həm də süjet baxımından Azərbaycan türklərinin folkloruna çox yaxındır. Bu tədqiqatın məqsədi Qaqauz folkloru ilə Azərbaycan folkloru arasındakı oxşarlıqları və fərqləri araşdırmaqdır.

Qaqauz türklərinin folkloru ilə Anadolu və Azərbaycan türklərinin folkloru arasında çox böyük yaxınlıq var. Bu, onların eyni köklərə malik olması ilə izah olunur. Rus alimi Valentin Aleksandroviç Moşkov Qaqauz folklorunu toplayan ilk şəxs olmuşdur.

Çoxşaxəli qaqauz folklorunda türkülər və manilər xüsusi yer tutur. Əsrlər boyu bir yerdən digər yerlərə köç edən qaqauz xalqının arzuları, istəkləri, sevincləri və kədərləri bu türkülər və manilərdə əks olunmuşdur. Qaqauz türküləri və manilərində həmçinin sevgi, məhəbbət,həsrət, ölüm və yoxsulluğu əks etdirən nümunələrə rast gəlinir. Azərbaycan folklorundakı mərsiyələri xatırladan Qaqauz türküləri güclü emosional təsirə malikdir. Onlar ayrılıq və ölümlə də bağlı olub qəmli və kədərli hissləri əks etdirir. Bu məqalədə Qaqauz türkülərinin və manilərinin Azərbaycan folklorunda olan bayatılarla müqayisəsi aparılır və oxşarlıqları tədqiq edilir.

Açar sözlər: *Qaqauz, Azərbaycan, folklor, türkü, mani, bayatı, mahnı.*

Giriş

Türk xalqları Balkanlardan Sakit Okean sahillərinə qədər uzanan geniş bir ərazidə məskunlaşmışlar. Belə türk xalqlarından biri də qaqauzlardır. Qaqauzlar əcdadları, mənşəyi və dili baxımından Balkan türkləri ilə şox yaxındırlar. Hazırda onlar Moldaviya Respublikasının Qaqauziya adlı muxtar ərazisində yaşayırlar. Qaqauz türkləri zəngin və özünəməxsus folklor nümunələrinə malikdirlər. Qaqauz folkloru daha çox nağılları, atalar sözləri, Xoca Nəsrəddin lətifələri, türküləri, və tapmacaları ilə daha çox zəngindir. Bu folklor nümunələri həm dil, həm motivlər, həm də süjet baxımından Azərbaycan türklərinin folkloruna çox yaxındır. Bu, təsadüfi deyil. Çünki qaqauzlar kökləri Kiçik Asiyada olan qədim türk tayfalarından biridir. Bu tayfalar eldən-elə köç edərək qərbə doğru hərəkət edərək müxtəlif yerlərdə məskunlaşıblar. Müxtəlif tarixi proseslər nəticəsində qaqauzlar digər türk xalqlarından ayrılaraq yunanlar, bolqarlar, rumın-moldavanlar və ruslarla təmasda oldular. Bu, da onların xristianlığı qəbul etməsinə səbəb oldu. ***(***История народов Советского Кавказа с древнейших времён до конца XVIII в. 1988, с. 96***)***

İlk dəfə qaqauz folklorunu toplayan rus alimi Valentin Aleksandroviç Moşkov olmuşdur. O, XIX əsrin sonlarında Varşavada yaşayıb. V.A. Moşkov artilleriya mühəndisi olub. 1890-cı illərdə V.A. Moşkov Varşavadakı rus alaylarından birində iki qaqauz əsgəri ilə görüşüb söhbət edib. Bu söhbət onun üçün çox maraqlı olub. Buna görə də V.A. Moşkov Bessarabiyaya, qaqauz kəndlərinə gəlib. V.A. Moşkov uzun müddət Qaqauzyanın kəndləri olan Beşalma və Etulidə qalıb və qaqauz xalqının həyatı və adət-ənənələri, folkloru ilə ilə tanış olub. O, bu müddət ərzində Qaqauzyanın şifahi xalq ədəbiyyatı,

folkloru haqqında çoxlu nümunələr toplayıb. 1901-ci ildə V.A. Moşkov "Bender qəzasının qaqauzları" adlı kitab nəşr etdirmişdir. 1904-cü ildə isə V.A. Moşkov akademik V.V. Radlovun redaktorluğu ilə "Bessarabiya qaqauzlarının şivələri" kitabını nəşr etdirmişdir. (Yoloğlu, 1993, s.7)

Qaqauz folkloru müxtəlif dövrlərdə istər rus, istərsə də türk tədqiqatçılarının diqqətini cəlb etmiş və müxtəlif mülahizələr irəli sürülmüşdür. Qaqauz folklorunun tədqiqi tarixi şərti olaraq dörd mərhələyə bölünür: I mərhələ - XIX əsrin sonu - 1917-ci il; II mərhələ - 1920-1940-cı illər; III mərhələ - 1950- 1980-ci illər; IV mərhələ - XX əsrin sonu - XXI əsrin əvvəlləri. (Abdullayeva, 2018, s. 53)

XVIII əsrdə Rusiya mütəfəkkirlərinin müxtəlif xalqların mədəniyyətinə, folkloruna və etnoqrafiyasına marağı artdı. Bu da folklorun diqqət mərkəzinə keçməsinə səbəb oldu. XIX əsrin ortalarından Qaqauz folklorun toplanmasına xüsusi diqqət yetirilməyə başlandı. O dövrdə V.A.Moşkovun "Bessarabiya qaqauzlarının şivələri" adlı kitabı maraq doğururdu. Burada Moşkov qaqauzların kökü və adı ilə bağlı izahını verir, onların tarixindən və folklorundan, mifoloji və dini nağıllar, rəvayət və əfsanələr, lətifələri, tapmacalar, atalar sözləri, türküləri, yanıltmacları, maniləri və s. janrlardan bəhs edir.

V.A.Moşkov 1894-1895-ci illərdə Rusiya imperiyasının Bessarabiya quberniyasının Bender və İzmayıl vilayətlərinin qaqauz kəndlərini gəzərək külli miqdarda etnoqrafik və folklor nümunələri toplayır və "Qaqauz mətnləri" adı ilə ilk dəfə elm aləminə təqdim edir. (Мошков, 1895, s.70). Bu nümunələrin maraqlı cəhəti onda idi ki, onların nəinki bir neçə variantı təqdim edilirdi, hətta onların dialekt forması da təqdim edilirdi. V.A.Moşkov topladığı folklor nümunələrini sonralar rus dilinə tərcümə edərək çap etdirir. Onun araşdırmaları və nəşrləri XX əsrin əvvəllərində elm aləminin qaqauzlara, onların dilinə, folkloruna, mədəniyyətinə və etnoqrafiyasına olan marağını artırdı.

XX əsrin ortalarında qaqauzların şifahi xalq ədəbiyyatına, folkloruna maraq daha da artmağa başladı. Qaqauziyanın cənubunda yerləşən Bucak vilayətinə tez-tez ekspedisiyalar təşkil olundu. Ağsaqqalların, yerli qaqauzların deyimləri, tapmacaları, nağılları, lətifələri, mahnıları, türküləri, maniləri, atalar sözləri və s. folkor nümunələri yazıya alındı. Bu nümunələr arasında türkülər və manilər çoxluq təşkil edirdi.

Türkülərin qaqauz folklorunda xüsusi yeri var. Əsrlər boyu bir yerdən digər yerə köç edən qaqauzların arzuları, istəkləri, sevincləri və kədərləri bu mani və türkülərdə öz əksini tapmışdır. *"Qaqauz mahnıları, yəni şarkıları iki hissəyə bölünürdü: türkülər və manilər. Türkülər qaqauz folklorunda geniş yayılmışdır. Türkü şeirin musiqiyə uyğunlaşdırılmış formasıdır. Bu musiqi janrı mühüm hadisələr, sevgi, eşq, məhəbbət haqqında şeir ola bilər. Qədim dövrlərdə türkülər və manilər musiqidən daha çox şeirlərə bənzəyirdi, lakin zaman keçdikcə ona ritmlər və alətlər əlavə edildi. Bu gün türkü və manilər bir növ yavaş musiqi ilə əlaqələndirilir*" **(**Rumen ve Gagavuz Türk edebiyatı, 1997, s. 11).

Qaqauz Türkülərində sevgi, həsrət, ölüm və yoxsulluğu əks etdirən nümunələrə tez-tez rast gəlirik. Qaqauz folklorunda olan bu Türkülər Azərbaycan folklorundakı yas mahnılarını xatırladan belə nümunələr güclü emosional təsirə malikdir:

Şu karşiki dağda bir yuvva yaptım,
O yuanın içinde yalnızca yattım.
Eşim, gelecek diye yollara baktım.
Ah yandı yürecim yoktur, çayresi,
Onulmadık kaldı üregiimin yaresi. (Rumen ve Gagauz Türk edebiyatı, 1997, s.319)

Qaqauz şarkılarının bir qolu manilərdir. *"Mani Azərbaycan bayatılarının, özbək koşularının, qazax-qırğız jırlarının, Anadolu manilərinin və İraq-türkmən xoyralarının ideoloji-estetik göstəriciləri ilə sıx bağlıdır."*(Rumen ve Gagauz Türk edebiyatı, 1997, s.168). Azərbaycan bayatıları kimi, Qaqauz maniləri də dörd misradan ibarətdir. Hər misra 4+3 hissədən, 7 hecadan ibarətdir və a-a-b-a qafiyə sxemi ilə qurulur.

Bayatı isə Azərbaycan şifahi xalq ədəbiyyatının bir yanrıdır. *Bayatı a,a,b,a qafiyə sxeminə əsaslanan dörd misralı şeirdir və hər misrası yeddi hecadan ibarətdir. "Bu poetik forma təkcə Azərbaycan xalq ədəbiyyatında deyil, həm də ümumiyyətlə türk folklorunda ən geniş yayılmış formalardan biridir. Bayatı 4 misradan ibarətdir. Üçüncü misra sərbəstdir, qalan misralar isə bir-biri ilə qafiyəlidir. Bayatılar, müəyyən mənada, forma və məzmun baxımından manilərə və çastuşkalara çox yaxındır"* (Qasımlı, Allahmanlı, 2018, s. 52).

Qaqauzların mani adlandırdıqları şeir forması Azərbaycan bayatılarına çox bənzəyir, bəzən hətta onlarla eyni olur. Bu nümunələrdən bəzilərinə nəzər salaq:

Qaqauz folklorunda:
Kala böyür saz olur,
Saz açılıb yaz olur.
Ben yarıma gül demem,
Gülün ömrü az olur. (Şamil, 2011, s.91)
Azərbaycan folklorunda:
Bulaq başı toz olar,
Üstü dolu qız olar.
Mən sənə gül demərəm,
Gülün ömrü az olar (Azərbaycan bayatları, 2004, s. 145).

Manilər, əsasən, xalq şənliklərində oxunardı. Kişilər və qadınlar bir-biri ilə söhbət edər, xalq mahnıları oxuyardılar. Burada onlar sevgililərinin vəfasızlığında şikayətlənər, hisslərini, istəklərini və həyəcanlarını ifadə edərdilər. Bunlar araşdırıldıqda, bu manilərin bizim bayatılarımıza nə qədər yaxın və oxşar olduğu aydın olur:

Qaqauz folklorunda:
Bir taş attım yamaca,
Bir kuş urdum alaca.
Alacası boyunca,
Laf etmedim doyunça. *(*Şamil, 1998, s.41)
Azərbaycan folklorunda:
Tut ağacı boyunca
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca. (Azərbaycan bayatıları, 2004, s. 159).
Və ya yenə Qaqauz folklorunda:
İndim çeşme başına,
Yazı yazdım taşına.
Sevgi nedir bilmezdim,
*O da geldi başıma. (*Şamil, 1998, s. 41)
Azərbaycan folklorunda:
Endim bulaq başına,
Yarım çıxdı qarşıma.
Sevda nədir bilməzdim,
*O da gəldi başıma. (*https://enene.musigi-dunya.az/k1_16.html)

Göründüyü kimi Qaqauz türklərinin türkü və maniləri ilə Azərbaycan bayatıları arasında çox böyük yaxınlıqlar və oxşarlıqlar var. Bu isə Qaqauz türkləri ilə Azərbaycan türklərinin eyni köklərə, eyni mədəniyyətə sahib olmaları ilə izah olunur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullayeva G. Türkologiyada folklor mətnlərnin dil və üslub xüsusiyyətləri. Fillogiya məsələləri jur. N12, 2018 , səh. 53
2. Azərbaycan bayatıları. Bakı, Yeni Nəşrlər Evi, 2004, 304 səh.
3. https://enene.musigi-dunya.az/k1_16.html
4. История народов Советского Кавказа с древнейших времён до конца XVIII в. Москва: Наука, 1988, стр. 544
5. Qasımlı M., Allahmanlı M. "Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı: Elm və təhsil, 2018, 220 səh.
6. Мошков В.А. Гагаузкие тексты. Казан,1895. Т.XIII, Вып.2, стр.70-83
7. Rumen ve Gagavuz Türk edebiyatı. Ankara: Kültür Bakanlığı Yayınevi, 1997, 447 sayfa.
7. Şamil Ə. Uygur, Qaqauz, Şimali Qafqaz türklərinin folkloru və ədəbiyatı. Bakı, Nurlan, 2011, 412 səh.
9. Yoloğlu G. Qaqauz folkloru. Bakı: Gənclik. 1993, 200 səh.

GAGAUZ TURKS AND MANI, THEIR COMPARISON WITH AZERBAIJANI BAYATIS

Gunay Orujzadeh

Turkic peoples have settled in a vast territory from the Balkans to the Pacific Ocean. One of these Turkic peoples is the Gagauz. The Gagauz are closely related to the Balkan Turks in terms of their ancestors, origin and language. Today they are the Turks living in the western part of the Turkic world. The Gagauz Turks have a rich and unique folklore. Gagauz tales, proverbs, Hodja Nasreddin anecdotes, folk songs and riddles are richer. These folklore examples are very close to the folklore of the Azerbaijani Turks in terms of language, motif and plot. The aim of this study is to investigate the similarities and differences between Gagauz folklore and Azerbaijani folklore.

There is a great deal of closeness between the folklore of the Gagauz Turks and the folklore of Anatolian and Azerbaijani Turks. This is explained by the fact that they have the same roots. Russian scholar Valentin Aleksandrovich Moshkov was the first person to collect Gagauz folklore.

Turks and manis occupy a special place in the diverse Gagauz folklore. The dreams, desires, joys and sorrows of the Gagauz people, who have migrated from one place to another for centuries, are reflected in these Turks and manis. Gagauz Turks and manis also contain examples reflecting love, affection, longing, death and poverty. Gagauz Turks, reminiscent of the laments in Azerbaijani folklore, have a strong emotional impact. They are also associated with separation and death and reflect sad and mournful feelings. This article compares Gagauz Turks and manis with bayati in Azerbaijani folklore and studies their similarities.

Keywords: *Gagauz, Azerbaijan, folklore, Turk, mani, bayati, song.*

BÖLMƏ 3

TÜRKOLOGİYANIN SOSİAL-FƏLSƏFİ ASPEKTLƏRİ

TÜRK XALQLARINDA MİLLİ ÖZÜNÜDƏRK VƏ EMOSİONAL ZƏKA XÜSUSİYYƏTLƏRİ: FƏLSƏFİ-PSİXOLOJİ ASPEKTLƏR VƏ RƏQƏMSAL TRANSFORMASİYALAR

Zeynəb Həcəmova
AMEA Rəyasət Heyətinin Aparatı
Humanitar Elmlər Bölməsində
vitse-prezidentlərin xidmətinin baş mütəxəssisi
zeynebhecemova1990@gmail.com
https://orcid.org/0000-0001-5886-0984

Şüur haqqında elm olan psixologiyada insanı məna baxımından eyni olmayan məfhumlarla, yəni fərd, şəxsiyyət, subyekt anlayışları ilə ifadə edirlər. Şüur bəşər övladına bəxş edilən ən dəyərli neyrodinamik xüsusiyyətdir. Təbiətin bioloji, cəmiyyətin isə sosioloji və fərdi daşıyıcısı olan bəşəriyyətin şüur imkanlarından səmərəli istifadə dairəsini, şüurun psixikanın ən mühüm həyati funksiyası və qanunauyğunluğu kimi tədqiqi, habelə türk xalqlarında milli özünüdərk və emosional zəka xüsusiyyətlərinin fəlsəfi-psixoloji təhlili tədqiqatın əsas məqsədini təşkil edir. Tədqiqatın elmi əhəmiyyəti psixikanın təkamül formaları və funksionallığının elmi baxımdan əsaslandırılmasından, türk xalqlarında milli özünüdərk və emosional zəkanın fəlsəfi-psixoloji aspektləri və rəqəmsal transformasiyalarının öyrənilməsindən ibarətdir. Tədqiqatın elmi yeniliyini insanın psixi mahiyyətinin bədən funksiyası kimi deyil, şəxsiyyətin reforması kimi izah olunması təşkil edir. Tədqiqatda insanın bioloji və fərdi-psixoloji varlığı onun psixikasını təşkil edən ən əsas xüsusiyyət kimi tədqiq olunur. Tədqiqat zamanı Hovard Qardnerin emosional zəka yanaşmasına istinad edilmişdir.

Açar sözlər: *psixika və şüur; etnik xüsusiyyətlər; türk xalqlarında milli özünüdərk; emosional zəka; fəlsəfi-psixoloji yanaşma; ünsiyyət; rəqəmsal şüur*

Giriş

Tədqiqi istiqaməti insanın şəxsiyyət reformalarının elmi-nöqteyi nəzərini və təcrübi əsaslarını müəyyən etməkdən ibarət olan psixologiya elmi uzun tarixi yol keçmişdir. Məlumdur ki, insan dünyaya gəldiyi ilk gündən etibarən zəruri həyati ehtiyaclarını ödəmək məqsədilə primitiv instinktiv bacarıqlardan istifadə edir (məsələn, ac olduqda ağlamaq və s.). Zaman keçdikcə fizioloji imkanlar sayəsində bioloji inkişaf vüsət alır və əqli keyfiyyətlərə əsaslanan şəxsi tələbatlar sistemi yaranır. Tədricən məntiqi inkişafa yol alan çoxfunksiyalı sistem – *psixika* formalaşır. Psixika, insanın mənəvi dünyasının kompasıdır. Başqa sözlə desək, psixika insan beyninin üzvi aləmə adaptasiya olma mexanizmidir. Məşhur avstriyalı psixoloq Ziqmund Freydin psixoanalitik nəzəriyyəsinə görə, psixikanın 3 əsas hissəsi məlumdur: *id, eqo və supereqo.* Psixikanın eqo və super-eqo hissələri psixikanın bütün səviyyələrində, yəni şüur, şüuraltı və şüursuzluq səviyyəsində, id isə instinktiv olaraq şüursuzluq səviyyəsində təzahür edir. Psixika beynin əsas xassəsi olaraq şüur vasitəsilə fəaliyyət göstərir və canlı materiyanın mühüm hissəsidir (Bayramov, Əlizadə, 2002, s.13). Şüur da psixika kimi beynin əsas xassələrindən biridir, lakin şüur psixikanın ən yüksək inkişaf səviyyəsi olaraq insanın ətraf aləmə olan münasibətini və təsirini ifadə edir. Necə ki, vaxtilə alman filosof Karl Marks deyirdi: "Mənim şüurum – mənim ətraf aləmə olan münasibətimdir." (Əliyeva, Mustafayev, 2025, s.33). Şüur insanın əmək, ictimai və sosial fəaliyyət zamanı bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi nəticəsində qazanılır və onun ictimai varlıq olaraq müqəddəratını təyin edir. Şüur insanın həyatda fərdi seçicilik funksiyasını yerinə yetirə-

rək özünü və ətraf aləmi dərk etməsinə şərait yaradır. İsveçrəli psixoloq və filosof Karl Qustav Yunqun *"Kəşf olunmamış mənlik"* kitabında psixika və şüur haqqında təsəvvürləri də diqqəti son dərəcə cəlb edir. Kitabda deyilir: "Psixika, elə bir mürəkkəb predmetdir ki, onu kənardan müşahidə etmək mümkündür. Psixika ruhun bu dünyadakı ifadə tərzi olaraq bəşəriyyət qarşısında bəzi problemlər qoyur və həlli yolunu tələb edir. Problemlərin qavranılması elmi-nəzəri şüur vasitəsilə və həll olunması isə əqli keyfiyyətlər sayəsində mümkün olur. Elmi-nəzəri şüur sosial gerçəkliyin ümumiləşdirilmiş inikası olmaqla bərabər həm də daxili mahiyyətli qanun və kateqoriyalar vasitəsilə ifadə olunan inikasdır (Salayeva, Abdinova, 2020, s.44). Hər bir şəxs dünyanın özü üçün görünən və daha aydın qavranılan məzmununu seçir və özünəməxsus dünya qurur. Bir müddətdən sonra insan yaradılış hüququ qazanan bütün nemətləri qavradığını düşünür, lakin sonsuzluğu tam əhatə etmək mümkün deyil. İnsan yalnız psixikanın ona fenomenoloji olaraq nəsib edə bildiyi bilikləri təcrübi üsulla qavraya bilər. Belə bir təcrübi imkan *sinequa non* (dəyişilməz şərt) adlanır (Yunq, 2024, s.113-115). Buradan belə bir qənaətə gəlmək olar ki, biz şüurun fəaliyyətini təsnifatlaşdırmaq istəyiriksə, intellektin, qavrayışın, duyğuların və hisslərin rolunu xüsusi vurğulamalıyıq.

Əsas materialın şərhi. Psixologiya elminin bir sıra elmi istiqamətləri məlumdur ki, onlardan ən əhatəlisi və digər elm sahələrinin də tədqiqat obyekti olan şəxsiyyət və etnik amillər ilə əlaqədardır, yəni etnopsixologiyadır. Etnopsixologiyanın əsas tədqiqat obyekti etnik, fəlsəfi və ədəbi mahiyyət daşımaqla xalqın etnik və fərdi-psixoloji xüsusiyyətləri, etnik idrak bacarıqları, şəxsiyyətlərarası münasibətlərdə sərgilədiyi davranış nümunələri və onların genezisi, insanın sosial mahiyyətini izah edən səciyyəvi cəhətlərin öyrənilməsi və s. ilə əlaqədardır. Bundan başqa, xalqın etnik psixoloji xüsusiyyətləri dedikdə etnosun özünü dərk etməsi və özünü qiymətləndirmə səviyyəsi nəzərə çarpır (Heydərova, 2016, s.15). Mövzuda özünüdərketmə anlayışı haqqında təsəvvürlər daha çox milli dəyərlər sistemi ilə uzlaşır və milli özünüdərk probleminin aktuallığını nəzərə çatdırır. Türk xalqlarında milli özünüdərk və emosional zəka xüsusiyyətlərinin öyrənilməsi milli mahiyyət baxımdan elmi koloritin əsas məzmunu kimi xüsusi aktuallıq təşkil edir. Bu sahədə alman əsilli psixoloq Erik Eriksonun identikliyin tədqiqi ilə bağlı tədqiqatları diqqəti xüsusilə cəlb edir. O qeyd edirdi ki, identiklik insanın həyatı boyunca davam edən inkişaf, mübarizə və fəzilətlərə qarışmaq mexanizmidir. İdentikliyin sosial qarşılıqlı əlaqələrin və şəxsiyyətlərarası münasibətlərin inkişafında rolunu xüsusi vurğulayan Erikson, identikliyin həm də təşkilatçılıq prinsipi ilə də eyni təntənəsindən də bəhs edirdi. Son dövrlərdə identikliyin ən çox istifadə olunan bir neçə modeli barədə nəzəri təsəvvürlər müzakirə olunur və bu nəzəriyyə sosial, fiziki və zehni xüsusiyyətlərə əsaslanır. İdentikliyin faydaları onun formalaşması qədər vacib əhəmiyyətə malikdir. Aşağıdakı müddəalara nəzər salaq:

- İdentiklik – öhdəlik, özünəinam, müstəqillik hissi, sədaqət kimi fəzilətlərdə təzahür edir;
- Öhdəliyi dərk edən insan məsuliyyətlidir;
- Özünəinamlı insan qabiliyyətini, bacarığını və səriştəsini nümayiş etdirmə ehtimalı yüksək olduğu üçün cəmiyyətə fayda verir;
- Müstəqillik hissi ilə bəhrələlən insan boyunduruq altnda yaşamır, özünün və başqalarının sərhədlərinə hörmət edir, özünə və başqalarına nəzarət hissi üstün olur, inanclarını və istəklərini idarə edə bilir;
- Sədaqət qeyd edilən məziyyətlərin içində ən vacibidir. Sədaqətli insan müsbət insani keyfiyyətlərin insanlıq üçün güclü bir zireh olduğunu bilir, xəyanət etmir və ona sadəcə olaraq etibar etmək mümkündür.

Sədaqətli insan identiklik məfhumunun ən ali formasına bələdləşərək insan amili və kapitalıdır. Məhz sədaqəti insan milli ruhun təzahürü olaraq Vətənin dayağı, yaşadanı və qoruyucusu, irsi mirası və məşəlidir. Bu baxımdan, milli identiklik öhdəliyinə və məsuliyyətinə malik olan şəxsiyyətin formalaşdırılması üzərində fasiləsiz və tətbiqi işlər aparılmalıdır. Bu kontekstdə, identikliyin inkişaf mərhələlərini nəzərdən keçirməkdə fayda var. Millli identikliyin məntiqi mərhələsinin formalaşdırılması üçün yeniyetməlik ən əlverişli dövr hesab edilə bilər. Yeniyetməlik dövrü böhran dövrüdür və müsbət nəticələr əldə etmək üçün psixi sağlamlığın bütün tələbləri ödənilməli, milli dəyərlərin aşılanması isti-

qamətində "dərindən nüfuz" üsulu işlənilməlidir (Əliyeva, Mustafayev, 2025, s.142-143). "Dərindən nüfuz" üsulu elmi nöqteyi-nəzərdən avstriyalı psixoloq Ziqmund Freydin psixoanalitik yanaşması ilə oxşarlıq təşkil edir.

Məlumdur ki, hər bir ölkənin idarəetmə sistemi milli inkişafın yüksəldilməsinə yardım edən mənbələrin və gözlənilən nəticələrin müəyyən edilməsinə xidmət etməlidir (Məmmədov, 2013, s.16). Milli inkişaf isə milli özündərk və ideoloji təbliğatın mütəmadiliyini zəruriləşdirir. Milli özünüdərk milli ideya ideologiyasına əsaslanan mühüm yanaşmadır. Milli ideya məzmunu və hədəfyönümlülük baxımından konseptual olmaqla yanaşı, ifadə baxımından da dəqiq olmalıdır (Həcəmova, 2024, s.436). Azərbaycan xalqı türk xalqları sırasında özünün milli özündərk xüsusiyyətlərinin və milli-mənəvi identikliyinin formalaşması xüsusiyyətlərinə və tarixi inkişaf yoluna görə xüsusilə seçilir. Elmi-nəzəri və metodoloji baxımdan nəzər saldıqda, Azərbaycan xalqının və onun milli özünüdərkinin ana xəttini Vətən sevgisi və torpağa bağlılıq meyarı təşkil edir. Azərbaycan tarixən coğrafi və strateji mövqeyinə görə qonşu xalqların diqqət mərkəzində olmuşdur. Qeyd edilməlidir ki, tarixən formalaşmış Azərbaycan milli ideyası mədəniyyətlərin bir-birinə qarşılıqlı nüfuz etməsinə, transformasiyasına dini və etnik tolerantlığa, adətlərə yiyələnməsinə zəmin yaratmışdır. Azərbaycanın milli ruhu və psixologiyası dedikdə, məzmun və mahiyyətcə irsi mentalitet məsələləri diqqət cəlb edir. Azərbaycan xalqı xarakterik xüsusiyyətlərinə görə fədakar və qonaqpərvər xalqdır. Hazırda Ulu Öndərin layiqli davamçısı Cənab Prezident İlham Əliyev Azərbaycanda milli özünüdərkin, milli ruhun və ideoloji bazanın formalaşması və inkişafı istiqamətində azərbaycançılıq ideologiyasına istinad edərək ictimai-siyasi, iqtisadi, mədəni və digər sahələrdə əldə edilmiş nailiyyətlər əsasında müstəqil Azərbaycan dövlətçiliyinin modern və innovasiyalı inkişaf strategiyasını uğurla həyata keçirir. Məhz Vətən müharibəsində tarixi qələbənin əldə edilməsində Cənab Prezident İlham Əliyevin misilsiz liderlik qüdrəti, müstəsna siyasi təfəkkürü, sarsılmaz iradəyə malik olması, Vətən təəssübkeşliyi, xalqa olan inamı və ən əsası Azərbaycan xalqının öz lideri İlham Əliyevə olan sarsılmaz inamı həlledici rol oynamışdır.

Psixika təbiəti ifadə edir, şüur psixikanı hərəkətə gətirir, zəka isə şüuru zənginləşdirir. *Bəs milli özünüdərk nədir? Milli özünüdərkin formalaşmasında qavrayışın və emosiyaların rolu necə dəyərəndirilir? Türk xalqlarında milli özünüdərk xüsusiyyətləri və emosional zəkanın müqayisəli təhlili hansı qanunauyğunluqlara tabedir?* Şəxsiyyətin həm fərdlərə, həm də cəmiyyətə aid olan sosial ölçüsünü izah etmək üçün fərdi və sosial xüsusiyyətə malik olan "kollektiv kimlik" anlayışından istifadə edilir (Özdemir, Avcıoğlu, 2026, s.201). Milli özünüdərk də idrakın elmlə gerçəkləşdiyi ideyaları, yəni kollektiv kimliyi və ya ümumxalq ruhu ifadə edir. Elmi idrakda şəxsiyyətin mövqeləri formalaşdığı kimi milli idrakda tamamlayıcı dinamikliyi təmin edir. Belə ki, idrak həmişə mədəniyyət-dil mühitində gerçəkləşir, şüurun tarixi mərhələdə bir-birini əvəzləməsi və nəzəriliyi səviyyəsində formalaşır. İntellekt insanın zehninin fərqlənmə meyarıdır. İntellekt səviyyəsi yüksək olan insanlar üstün dərketmə qabiliyyətinə və reaksiya keyfiyyətlərinə görə fərqlənirlər. Məhz milli özünüdərkin çalarları ilə uzlaşan zəka növləri şəxslərarası və şəxsiyyətdaxili zəka növlərinin unikal birləşməsidir. Belə bir mərhələlilik insan təfəkküründün qütblüyünü təmin edir (Məmmədzadə, Büniyatov, 2023, s.26) Elmi idrakın məntiqi və metodoloji mümkünlüyü insan təfəkküründün yeni inkişaf transformasiyalarını həyata keçirir. Elmi idrak insan təfəkküründün və qavrayışının ideoloji inkişaf xəttidir və filosof Kurt Hübner *"Elmi idrakın tənqidi"* əsərində elmi biliyin özünün inkişaf xüsusiyyətlərindən başqa elmi və tarixi mərhələnin sosiomədəni kontekstlərində əsaslarını (filosof Mişel Fukonun ideyaları ilə eynilik təşkil edir) "korreksiyaedici refleksiya" adlandırırdı. O qeyd edirdi ki, fakt həmişə keçmiş refleksiya ilə yüklənmiş olur və yeni refleksiyaya ehtiyac hiss edə bilir. Kurt Hübner "faktın nəzəri yüklənməsi" dedikdə, bunu nəzərdə tuturdu (Məmmədzadə, Büniyatov, 2023, s.29). Elmin inkişafında hər bir addım onun konstruksiyasının mürəkkəbləşməsinə səbəb olmaqla əsasların dəyişdirilməsini və yenidən qurulmasını, yeni inkişaf mərhələlərinə keçidi təmin edəcək transformasiyaları özündə ehtiva edir. İnsan psixikasını təşkil edən ən əsas xüsusiyyət onun bioloji və fərdi-psixoloji varlığıdır. Türk xalqlarının milli xarakteri isə sosial münasibətlər sistemində özünü daha çox kollektiv davranış modelində göstərir. Bir çox tədqiqatçılar qeyd edirlər ki, türk xalqlarının sosial münasibətlərində fərdi maraqlardan daha çox ictimai maraqlar

və sosial həmrəylik üstünlük təşkil edir. Ailə institutuna bağlılıq, yaşlılara hörmət və cəmiyyət qarşısında məsuliyyət hissi bu mədəni modelin mühüm xüsusiyyətləri hesab olunur.

Müasir psixologiyada emosional zəka insanın öz emosiyalarını və başqalarının emosional vəziyyətini anlamaq, idarə etmək və sosial münasibətlərdə effektiv istifadə etmək bacarığı kimi izah olunur. Emosional zəkanın əsas komponentlərinə *özünü tanıma, emosional özünənəzarət, empatiya, motivasiya və sosial bacarıqlar* daxildir. Türk xalqlarında emosional zəkanın formalaşmasına təsir göstərən mühüm amillərdən biri *milli-mədəni ənənələrdir*. Türk mədəniyyətində qarşılıqlı hörmət, mərhəmət, sosial dəstək, kollektiv məsuliyyət və empatiya kimi xüsusiyyətlər emosional davranışın əsas elementləri kimi çıxış edir. Məlumdur ki, xalqın milli kimliyi onun varlığının və ənənəvi inkişafının əsas göstəricisidir. Milli kimlik və özünüdərk məntiqi, mənəvi və ictimai proses olaraq zəruri fenomenoloji xüsusiyyətə malikdir. Bu sahədə çoxsaylı sosial-siyasi tədqiqatlar aparılmış, milli kimliyin tarixi inkişaf faktları müəyyənləşdirilmişdir. Milli kimliyin təşəkkülü ilk öncə idrak proseslərindən asılıdır. Belə ki, milli kimliyin formalaşması təkcə dövlətin deyil, vətəndaş cəmiyyətinin də dəyərlər sistemini əhatə edir. Məhz türk xalqlarında da milli kimlik və özünüdərk olduqca geniş məzmuna malik olmaqla xalqın etno-mədəni və fəlsəfi-ideoloji inkişafını tənzimləyir. Məlumdur ki, hər bir insan fərdi-psixoloji keyfiyyətlərinə görə fərqlidir, yəni identikdir. İnsan cəmiyyəti, cəmiyyət xalqı, xalq isə dövlətin strukturunu təşkil etdiyi üçün əminlikdə deyə bilərik ki, məhz şəxsiyyətin identikliyi həyat dövrlərinə görə dəyişir, tədricən inkişaf edir və bütöv bir xalqın taleyini həll edir.

Türk dünyasının mühüm tərkib hissəsi olan Azərbaycan xalqının milli özünüdərk xüsusiyyəti mahiyyətcə mürəkkəb fenomen olsa da, olduqca aktual sualları cavablandırmağa imkan verir. Çox böyük fəxarətlə Azərbaycan xalqının 44 günlük müharibə nəticəsində əldə etdiyi zəfəri haqqında qısaca da olsa, danışmaq istərdim. 30 il ərzində düşmən tapdağı altında olan dədə-baba yurdunun 44 gün ərzində geri qaytarılması nəinki təkcə Azərbaycana, ümumilikdə böyük türk dünyasına verilən böyük bir qələbə töhvəsi oldu. Məhz milli özünüdərk və emosional zəka xüsusiyyətinin iradi vəhdəti strateji idarəetmə fonunda birləşərək belə bir müstəsna fenomenoloji həqiqət dəyər qazandırmış oldu. Strateji idarəetmə anlayışının isə bütün çalarları 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ünvanladığı müntəzəm müraciətlərdə öz əksini taparaq Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi (8).

Türk xalqlarında milli özünüdərkin və emosional zəkanın hansı rəqəmsal transformasiyaları var? İfadə tərzinə görə ən güclü vasitə sayılan yazı üsulu bəşəriyyətə minilliklər öncə məlum olmuş və dünyanın axarını əbədi olaraq dəyişdirmişdir. Demək olar ki, bir çox ixtiralar üçün mənbə rolunu oynayan yazı düşüncə tərzinin ötürücü texnologiyası olmuşdur. Yazı, həm də ünsiyyət vasitəsidir. Nitq vasitəsilə ünsiyyət danışanın, yəni kommunikatorun məntiqi düşüncə tərzinin mücərrəd təsəvvürlərdən dünyəvi resursa inteqrasiyasıdır. Türk xalqlarında məntiqi düşüncə tərzi şüurun fəaliyyətini tənzimləyərək intellektual paradoksları şərh etməyə imkan yaradır. Az öncə emosional intellektin emosiyaların zəka vasitəsilə idarə olunmasından danışarkən şüurun fəaliyyətinin intellekt, yəni zəka vasitəsilə diskretləşdirilməsinə dair oxşar məsələyə istinad etmiş olduq. Məlumdur ki, şüurun diskretləşdirilməsi siyasi qanunauyğunluqlara söykənir. Şüur fenomenoloji mexanizm olaraq təbiətin xarakterik xüsusiyyətlərinə təsir göstərir və tədqiqat obyekti olaraq unikallıq təşkil edir. Məhz belə bir fenomenal şüur dünyanın bizə necə göründüyünü ifadə edir. Bunu təxminən "təmiz subyektiv təcrübə" kimi ifadə etmək olar. Məhz zehni fəlsəfənin də çox hissəsi fenomenal şüurun xarakterik xüsusiyyətləri və onların metafizik ideyalarla nə dərəcədə əlaqəli olduğunu ətraflı təhlil etməklə bağlıdır. Fenomenal təcrübəyə aid edilən mübahisəsiz və ən vacib xüsusiyyətlər onun əsas subyektiv təbiətidir ki, bu da bəzən şüurun müəyyən bir baxış bucağını təcəssüm etdirir, eyni zamanda onun bəzi hissələrinin və ya xüsusiyyətlərinin izaholunmaz, xüsusi, idraki və linqvistik emal və ya ünsiyyət üçün əlçatmaz görünməsi kimi qəbul edilir (9).

Nəticə

Yekun olaraq deyə bilərik ki, milli özünüdərk müxtəlif elm sahələrinin qovşağında tədqiq edilsə də, daha çox ictimai və humanitar elmlərə aid edilir və identiklik anlayışı ilə sıx əlaqəlidir. İdentiklik hər hansı bir prosesdə insanın fərdi mövqe və ya əqidə nümayiş etdirməsidir. İdentiklik, insan təfəkkürünün müvafiq ölçüdə və sabit qanunlar altında möhkəmlənməsi, davamlılıq əldə etməsi və qarşılıqlı münasibət qurması sistemidir. İdentikliyin millilik mərhələsi isə onun subyektivliyinin və siyasi gücünün əsasıdır. Gücün ədalət uğrunda istifadə olunması isə tamam ayrı bir mövzu olsa da, xatrılatmaqda fayda vardır ki, haqq və mərhəmət sahibləri gücü yalnız ədalətin bərqərar olması uğrunda tətbiq edirlər. Böyük Türk dünyasının sönməz günəşi, ali şəxsiyyət və Müzəffər Ali Baş Komandan Cənab Prezident İlham Əliyev kimi!

Türk xalqlarında milli özünüdərk və emosional zəka xüsusiyyətlərinin fəlsəfi-psixoloji aspektlərinin mexanizmlərinə dair nəticələri növbəti qaydada sistemləşdirmək olar: 1. Türk xalqlarında milli özünüdərk xüsusiyyətlərinin əsas hərəkətverici xüsusiyyətləri ümumxalq ruhu, məntiqi düşüncə tərzi, güclü və şəffaf siyasi irs, strateji idarəetmə bacarığı və "düşünən beyin" elementlərinin genetik olaraq ötürülməsi ilə əlaqədardır; 2. Türk xalqlarında emosional zəka bacarıqlarının inkişafı ənənəvi "identiklik" və "millilik" məfhumlarının vəhdəti ilə izah olunur, sarsılmaz milli bütövlük yaranır, cəmiyyət bu bütövlüyün daşıyıcısına çevrilir, xalq formalaşır və nəticədə vahid xalq təfəkkürü və güc sistemi yaranır.

Türk xalqlarında milli özünüdərk və emosional zəkanın rəqəmsal transformasiyalarına dair növbəti təklif və tövsiyələr təqdim oluna bilər: tədqiqat zamanı məlum olmuşdur ki, milli özünüdərkin əsasən 2 fərqli istiqamətini ayırd edilə bilər: 1. Rəqəmsal vasitələrin milli-mənəvi dəyərlərin və mədəni genetik yaddaşın xalqlararası inteqrasiyası kimi təşviqi – sosial media platformaları, elektron daşıyıcılar və resurslar vasitəsilə qarşılıqlı informasiya mübadiləsi və rəqəmsal ünsiyyət prosesinin genişləndirilməsi; 2. Milli özünüdərkin rəqəmsal inkişaf konsepsiyasının yaradılması – təhsil ocaqlarında yeniyetmələrlə və gənclərlə mütəmadi olaraq ideoloji iş aparılması üçün yaş qruplarına uyğun rəqəmsal platformalar vasitəsilə təhsil ocaqları arasında görüşlərin təşkil edilməsi və türk xalqlarının ortaq mədəni birliyinin gücləndirilməsi; 3. Rəqəmsal texnologiyaların emosional zəka bacarıqlarının inkişafına tətbiqi məqsədilə xüsusi təbliğat proqramlarının ərsəyə gətirilməsi.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bayramov, Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. – Bakı: "Çinar-çap" nəşriyyat-poliqrafiya, – 2002. – 620 s.

2. Əliyeva S. Mustafayev M. Ümumi psixologiya (Fərdiyyət və şəxsiyyət) dərslik / S.Əliyeva, Mustafayev M. – Bakı: BDU Nəşriyyatı, – 2025. – 256 s.

3. Həcəmova Z.Ə. Şəxsiyyətlərarası qavrayışın milli özünüdərklə identifikasiyasının sosial-psixoloji təhlili // Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar mövzusunda II Beynəlxalq elmi konfransın materialları (3 cilddə), II cild. Mingəçevir Dövlət Universiteti: 2024, 13-14 dekabr. – 434-440 s.

4. Heydərova S.N. Etnopsixologiya / S.N.Heydərova – Bakı: ADPU Nəşriyyatı, – 2016. – 92 s.

5. Məmmədov F.T. İdarəetmə mədəniyyəti / F.T.Məmmədov. – Bakı: Apostrof, – 2013. – 672 s.

6. Məmmədzadə İ.R. Büniyatov A. Milliliyin, milli özünüdərkin və qeyri-səlis məntiq kontekstində epistemoloji xüsusiyyətləri / İ.R.Məmmədzadə, A.Büniyatov. – Bakı: Elm və təhsil, – 2023. – 216 s.

7. Salayeva N.N. Abdinova R.H. Etika və psixologiya: orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün dərslik I nəşr / N.N.Salayeva, R.H.Abdinova. – Bakı: MSV Nəşr, – 2020. – 256 s.

8. Yunq K.Q. Kəşf olunmamış mənlik / K.Q.Yunq. – Bakı: Kosmo Nəşriyyatı, – 2024. – 152 s.

Türk dilində

1. Özdemir N., Avcıoğlu G.Ş. Türk Cumhuriyetleri'ndeki Araştırmacıların Milli Kimlik Üzerine Yazdıkları Makalelerin Bibliyometrik Bir Çalışması // Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi. – 2026. – № 67. – S. 199–222. – DOI: 10.21563/sutad.1725831 Elektron resurslar

2. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. Azərbaycan: Qarabağ [Elektron resurs]. Prezident.az – Azərbaycan: Qarabağ.

NATIONAL SELF-AWARENESS AND EMOTIONAL INTELLIGENCE FEATURES IN TURKISH PEOPLES: PHILOSOPHICAL-PSYCHOLOGICAL ASPECTS AND DIGITAL TRANSFORMATIONS

Zeynab Hajamova

In psychology, which is the science of consciousness, a person is expressed with concepts that are not the same in terms of meaning, namely, individual, personality, subject. Consciousness is the most valuable neurodynamic feature bestowed on mankind. The main goal of the research is to study the scope of effective use of the consciousness capabilities of humanity, which is the biological carrier of nature and the sociological and individual carrier of society, consciousness as the most important vital function and regularity of the psyche, as well as the philosophical-psychological analysis of the characteristics of national self-awareness and emotional intelligence in the Turkic peoples. The scientific significance of the research consists in the scientific substantiation of the evolutionary forms and functionality of the psyche, the study of the philosophical-psychological aspects and digital transformations of national self-awareness and emotional intelligence in the Turkic peoples. The scientific novelty of the research is the explanation of the psychic essence of a person not as a bodily function, but as a reform of the personality. The research studies the biological and individual-psychological existence of a person as the most basic feature that constitutes his psyche. The study referred to Howard Gardner's emotional intelligence approach.

Keywords: *psyche and consciousness; ethnic characteristics; national self-awareness in Turkic nations; emotional intelligence; philosophical-psychological approach; communication; digital consciousness*

TÜRK DÜNYA VİZYONU 2040-IN REALLAŞDIRILMASININ AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

Cahangir Həsənov
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
Doktorant
hsnovcahangir978@gmail.com
https://orcid.org/0009-0002-3741-6918

2021-ci ildə qəbul edilən "Türk Dünya Vizyonu 2040" türk dövlətləri arasında siyasi və iqtisadi əlaqələrin inkişafına xidmət edən mühüm bir sənəddir. Sənədin ikinci bölməsi iqtisadi məsələlərə həsr edilmiş, iqtisadi işbirliyi, nəqliyyat, gömrük, enerji, turizm, kənd təsərrüfatı və s. sahələrdə əməkdaşlığın yol xəritəsi verilmişdir. Bu məqalədə də müəllif "Türk Dünya Vizyonu- 2040"ın reallaşdırılmasının türk dövlətlərinin iqtisadi əlaqələrinin inkişafına təsirini qiymətləndirir və bununla bağlı müvafiq təkliflər verir.

Açar sözlər: *Türk Dövlətləri Təşkilatı, Türk dünyası, iqtisadi əlaqələr, ticarət, Türk Dünya Vizyonu 2040*

Giriş

Türk dövlətləri müasir beynəlxalq münasibətlər sistemində müxtəlif qlobal və regional təşkilatlar vasitəsilə fəal şəkildə iştirak edərək siyasi və iqtisadi əməkdaşlıq imkanlarını genişləndirirlər. Bu kontekstdə Birləşmiş Millətlər Təşkilatı beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasını təmin edən ən mühüm qlobal təşkilat kimi xüsusi əhəmiyyətə malikdir və altı türk dövləti bu qurumun üzvüdür. Sözügedən platforma dövlətlərə beynəlxalq hüquq prinsipləri çərçivəsində qarşılıqlı əlaqələri inkişaf etdirmək, həmçinin qlobal problemlərin həllinə kollektiv şəkildə yanaşmaq imkanı yaradır.

Regional əməkdaşlıq baxımından isə türk dövlətlərinin bir araya gəldiyi əsas institusional platformalardan biri Türk Dövlətləri Təşkilatı hesab olunur. Bu təşkilat çərçivəsində Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan tamhüquqlu üzv kimi iştirak edir, Türkmənistan isə müşahidəçi statusuna malikdir. Təşkilatın fəaliyyətinin əsas istiqamətləri siyasi dialoqun genişləndirilməsi, iqtisadi əlaqələrin inkişaf etdirilməsi, nəqliyyat və logistika sahələrində əməkdaşlığın gücləndirilməsi, eləcə də ortaq tarixi və mədəni irsin qorunması kimi sahələri əhatə edir (Cornell, 2021, s. 12-17).

Türk dövlətlərinin uzunmüddətli inkişaf strategiyası və regional inteqrasiyanın dərinləşdirilməsi baxımından ən böyük potensiala malik platformanın məhz Türk Dövlətləri Təşkilatı olduğu geniş şəkildə vurğulanır. Bu baxımdan təşkilatın qəbul etdiyi mühüm strateji sənədlərdən biri olan "Türk Dünya Vizyonu – 2040" proqramı xüsusi əhəmiyyət kəsb edir. Sözügedən strategiya üzv dövlətlər arasında iqtisadi inteqrasiyanın gücləndirilməsini, nəqliyyat və logistika əlaqələrinin inkişaf etdirilməsini, həmçinin siyasi və institusional əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutur. Bu strategiyanın həyata keçirilməsi türk dövlətləri arasında koordinasiyanın möhkəmlənməsinə və regionda daha dayanıqlı əməkdaşlıq modelinin formalaşmasına mühüm töhfə verə bilər (Türk Dünya Vizyonu 2040, 2021).

Türk dövlətlərinin beynəlxalq iqtisadi təşkilatlar çərçivəsində əməkdaşlığı

Hazırda türk dövlətləri arasında iqtisadi münasibətlər, xüsusilə ikitərəfli ticarət və investisiya əlaqələri, artan dinamika ilə inkişaf etməkdədir. Bu proses yalnız dövlətlərarası əməkdaşlıqla məhdudlaşmır, eyni zamanda müxtəlif beynəlxalq iqtisadi institutlar çərçivəsində də davam etdirilir. Bu baxımdan türk dövlətləri qlobal ticarət sisteminə daha effektiv inteqrasiya etmək məqsədilə Dünya Ticarət Təşkilatı ilə əməkdaşlıqlarını genişləndirməyə çalışırlar. Hal-hazırda Türkiyə, Qazaxıstan və Qırğızıstan təşkilatın tamhüquqlu üzvləridir. Digər tərəfdən, Azərbaycan, Türkmenistan və Özbəkistan isə müşahidəçi statusuna malik olaraq üzvlüklə bağlı danışıqları davam etdirirlər və bu proses onların beynəlxalq ticarət sisteminə daha dərin inteqrasiyasına xidmət edir (World Bank, 2022, s. 56–58).

Türk Dövlətləri Təşkilatı ortaq dil, tarix və mədəniyyətə malik xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsi, siyasi dialoqun genişləndirilməsi və ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsi

məqsədi daşıyır. Bu baxımdan təşkilat regional inteqrasiyanın təşviqi və ortaq layihələrin həyata keçirilməsi üçün mühüm platforma kimi çıxış edir [Türk Dövlətləri Təşkilatı, 2009].

Türk Dövlətləri Təşkilatının fəaliyyətinin genişlənməsi regionda yeni iqtisadi əməkdaşlıq məkanının formalaşması kimi qiymətləndirilə bilər. Təşkilata üzv dövlətlərin ümumi əhalisi 150 milyondan artıqdır və onların iqtisadi potensialı qlobal iqtisadi sistemdə müəyyən paya malikdir. Statistik göstəricilərdən göstərir aydın olur ki, təşkilata üzv ölkələr arasında qarşılıqlı ticarət dövriyyəsi son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Məsələn, üzv dövlətlər arasında ümumi ixracın həcmi 2016-cı ildə təxminən 13,9 milyard ABŞ dolları olduğu halda, 2021-ci ildə bu göstərici 25 milyard ABŞ dollarını keçmişdir (Türk Dövlətləri Təşkilatı, 2022). Türk dövlətləri arasında müxtəlif sahələri əhatə edən çoxsaylı ikitərəfli razılaşmalar imzalanmışdır. Məsələn, Azərbaycan ilə Qazaxıstan arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında saziş, Azərbaycan və Özbəkistan arasında sənaye sahəsində əməkdaşlıq haqqında razılaşma, eləcə də Azərbaycan ilə Qırğızıstan arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması barədə sazişlər bu əməkdaşlığın mühüm nümunələrindəndir (İqtisadiyyat Nazirliyi, 2022).

2021-ci il 12 noyabr tarixində İstanbul şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatı dövlət başçılarının zirvə toplantısı türk dünyasının institusional inkişafı baxımından mühüm mərhələ kimi qiymətləndirilir. Həmin sammit çərçivəsində üzv dövlətlər arasında uzunmüddətli əməkdaşlıq prioritetlərini müəyyənləşdirən "Türk Dünya Vizyonu – 2040" adlı strateji sənəd qəbul edilmişdir. Bu sənəd türk dövlətlərinin siyasi, iqtisadi və institusional əməkdaşlığını daha sistemli şəkildə inkişaf etdirmək məqsədi daşıyan əsas yol xəritəsi kimi nəzərdə tutulmuşdur [Türk Dünya Vizyonu 2040, 2021].

Sənədin qəbul olunması türk dövlətləri arasında əlaqələrin daha koordinasiyalı və məqsədyönlü şəkildə inkişaf etdirilməsi zərurətindən irəli gəlmişdir. Bu kontekstdə Baghdad Amreyev – Türk Dövlətləri Təşkilatının sabiq baş katibi – qeyd etmişdir ki, "Türk Dünya Vizyonu– 2040" proqramı üzv dövlətlərin qarşılıqlı əməkdaşlığı daha açıq və sistemli mexanizmlər vasitəsilə inkişaf etdirmək və ortaq gələcək qurmaq niyyətinin ifadəsidir. Onun fikrincə, bu sənəd türk dünyasının inteqrasiyasının gücləndirilməsi istiqamətində qəbul edilmiş mühüm strateji qərarlardan biridir. 2040-cı ilə qədər həyata keçirilməsi planlaşdırılan prioritetlər türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsinə və regional inteqrasiya proseslərinin sürətlənməsinə əhəmiyyətli töhfə verəcək [Türk Dünya Vizyonu 2040, 2021].

Xüsusilə iqtisadi əməkdaşlıq sənədin əsas prioritet istiqamətlərindən biri kimi çıxış edir. "Türk Dünya Vizyonu – 2040" strategiyası üzv dövlətlərin Şərq–Qərb və Şimal–Cənub ticarət marşrutlarını birləşdirən güclü regional iqtisadi məkan yaratmaq məqsədini irəli sürür. Bu çərçivədə üzv dövlətlər arasında ticarət dövriyyəsinin artırılması, tarif və qeyri-tarif məhdudiyyətlərinin azaldılması, ticarətdə milli valyutaların rolunun genişləndirilməsi kimi istiqamətlər xüsusi əhəmiyyət kəsb edir (Əliyev, 2022, s. 45–47).

Nəqliyyat və logistika sahəsi də sənəddə xüsusi yer tutur. Üzv dövlətlər nəqliyyat sektorunun liberallaşdırılması və xüsusilə Trans- Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi tanınan Xəzərdən keçən beynəlxalq Şərq–Qərb nəqliyyat dəhlizi boyunca daşımaların inkişaf etdirilməsi istiqamətində əməkdaşlığı gücləndirməyi planlaşdırırlar (Məmmədov, 2021).

Ümumilikdə, qeyd etmək olar ki, "Türk Dünya Vizyonu – 2040" sənədinin mühüm hissəsi iqtisadi və sektoral əməkdaşlığa həsr olunmuşdur. Sənədin iqtisadi və sektoral əməkdaşlıq bölməsində iqtisadi inteqrasiya, nəqliyyat və gömrük, informasiya və kommunikasiya texnologiyaları, enerji, turizm, səhiyyə, ətraf mühit və kənd təsərrüfatı kimi istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulur (Hüseynov, 2020, s. 112–115).

Mövcud şəraitdə Azərbaycanın ticarət dövriyyəsində Türkiyə istisna olmaqla digər türk dövlətlərinin payı nisbətən məhdud olaraq qalmışdır. Sözügedən "Türk Dünya Vizyonu – 2040" strategiyasının reallaşdırılması Azərbaycanın digər türk dövlətləri ilə iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə yeni imkanlar yarada və bütövlükdə türk dünyasında iqtisadi inteqrasiyanın güclənməsinə mühüm töhfə verəcək (Qasımov, 2023, s. 78–80).

Digər tərəfdən, "Türk Dünya Vizyonu– 2040" strateji çərçivə sənədinin həyata keçirilməsi Azərbaycan Respublikasının uzunmüddətli sosial-iqtisadi inkişaf prioritetləri ilə sistemli şəkildə uzlaşır. Bu baxımdan ölkənin inkişaf strategiyasını müəyyən edən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədləri ilə "Türk Dünya Vizyonu – 2040" arasında institusional və iqtisadi sinerji mövcuddur. Hər iki milli sənəd iqtisadi diversifikasiya, qeyri-neft sektorunun gücləndirilməsi və dayanıqlı artım modelinin formalaşdırılmasını əsas hədəf kimi müəyyən edir (İqtisadiyyat Nazirliyi, 2022, Hacıyev, 2021). "Türk Dünya Vizyonu – 2040" sənədi Türk Dövlətləri Təşkilatı çərçivəsində üzv dövlətlərin iqtisadi inteqrasiyasını gücləndirən mühüm strateji platforma kimi çıxış edir. Sənədin əsas prioritetlərindən biri nəqliyyat və logistika sistemlərinin inteqrasiyasıdır ki, bu da Xəzər Dənizi regionu üzərindən keçən beynəlxalq nəqliyyat marşrutlarının inkişafı ilə birbaşa əlaqəlidir. Bu yanaşma Şərq–Qərb ticarət dəhlizlərinin səmərəliliyinin artırılmasına xidmət edir [Türk Dünya Vizyonu 2040, 2021].

Nəticə

Yekun olaraq qeyd etmək olar ki, Türk Dövlətləri Təşkilatı müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edən mühüm çoxtərəfli platforma kimi çıxış edir və artıq funksional institusional mexanizmlərə malik dayanıqlı regional təşkilat statusunu formalaşdırmışdır. Bu çərçivədə qəbul edilmiş "Türk Dünya Vizyonu – 2040" strateji sənədi üzv dövlətlərin uzunmüddətli maraqlarını əhatə edən kompleks inkişaf modelini özündə birləşdirir və iqtisadi, siyasi, nəqliyyat və humanitar sahələr üzrə inteqrasiyanın gücləndirilməsini hədəfləyir.

Sözügedən strategiyanın icrası nəticəsində üzv dövlətlər arasında dayanıqlı iqtisadi inkişafın təşviqi, ticarət əlaqələrinin daha yüksək səviyyədə inteqrasiyası və vahid investisiya mühitinin formalaşdırılması üçün əlverişli şərait yarana bilər. Bu kontekstdə Türk İnvestisiya Fondunun yaradılması regionda kapital axınının stimullaşdırılması və birgə iqtisadi layihələrin maliyyələşdirilməsi baxımından mühüm institusional addım kimi qiymətləndirilir. Eyni zamanda 2022–2026-cı illəri əhatə edən fəaliyyət planlarının "Türk Dünya Vizyonu– 2040" strategiyası ilə uzlaşdırılması uzunmüddətli hədəflərin daha səmərəli həyata keçirilməsinə xidmət edir.

Azərbaycan baxımından bu inteqrasiya prosesləri xüsusi strateji əhəmiyyət daşıyır. Türk dövlətləri ilə iqtisadi əlaqələrin genişlənməsi ölkənin tranzit və logistika imkanlarının güclənməsinə, ixrac potensialının artmasına və regional iqtisadi mərkəz kimi mövqeyinin möhkəmlənməsinə töhfə verir. Xüsusilə beynəlxalq platformalarda Zəngəzur Dəhlizi layihəsinin təşviqi, eləcə də işğaldan azad olunmuş ərazilərdə bərpa və reinteqrasiya proseslərinə türk dövlətləri tərəfindən göstərilən dəstək Azərbaycanın iqtisadi və geosiyasi maraqları baxımından mühüm əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi və "Türk Dünya Vizyonu – 2040" sənədinin tam şəkildə həyata keçirilməsi həm regional inteqrasiyanın güclənməsi, həm də üzv dövlətlərin iqtisadi dayanıqlığının artırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın proseslərdə fəal iştirak etməsi və gələcək mərhələlərdə qəbul ediləcək sənədlərin icrasına töhfə verməsi türk dünyasında inteqrasiya proseslərinin davamlılığını təmin edən əsas amillərdən biri kimi qiymətləndirilə bilər.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Azərbaycan Respublikasının Prezidenti. (2020, sentyabr 9). Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə Fərman. https://e-qanun.az/framework/45900

Azərbaycan Respublikasının Prezidenti. (2021, fevral 2). Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər (2469 nömrəli Sərəncam). https://e-qanun.az/framework/46813

Azərbaycan Respublikasının Prezidenti. (2022, iyul 22). Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. https://e-qanun.az/framework/50013

Azərbaycan Respublikası. (2020, may 31). Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinin təsdiq edilməsi haqqında Qanun. https://e-qanun.az/framework/45319

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2021). Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. https://azertag.az/xeber/Azerbaycan_ve_Turkiye_prezidentleri_metbuata_birge_beyanatlarla_chixis_edibler__YENILANIB_VIDEO-1807667

Azərbaycan Respublikasının Prezidenti. (2021). Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. https://e-qanun.az/framework/49147

Amreyev, B. (2022). Daha güclü, daha yaxşı inteqrasiya olunmuş və daha sıx birləşmiş Türk dünyasına doğru. AZƏRTAC. https://azertag.az/xeber/2372813

Türk Dövlətləri Təşkilatı. (n.d.). Türk Dünyası 2040 Vizyonu. https://www.turkkon.org/assets/pdf/haberler/turk-dunyasi-2040-vizyonu-2396-98.pdf

THE IMPACT OF THE IMPLEMENTATION OF THE “TURKIC WORLD VISION 2040” ON AZERBAİJAN’S ECONOMIC DEVELOPMENT

Jahangir Hasanov

"Turkic World Vision 2040" adopted in 2021 is an important document that serves the development of political and economic relations between the Turkic states. The second section of the document is devoted to economic issues. Here is a road map of cooperation in the ields of economic cooperation, transport, customs, energy, tourism, agriculture and etc. In this article, the author evaluates the impact of the implementation of the "Turkic World Vision 2040" on the development of the economic relations of the Turkic states and makes relevant proposals in this regard.

Keywords: *Organization of Turkic States, Turkic world, economic relations, trade, Turkic World Vision 2040*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA UMAR ƏLİYEVİN ELMİ MÖVQEYİ: TARİXİ-FİLOLOJİ ASPEKTDƏ

Aynur Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Türkoloji mərkəzin türk dili bölməsinin mütəxəssisi
ceferova1987@internet.ru
https://orcid.org/0009-0000-2034-1863

Birinci Türkoloji Qurultay türk xalqlarının dili, ədəbiyyatı, tarixi və mədəniyyətini elmi əsaslarla öyrənilməsi məqsədi ilə keçirilmiş, türk dillərinin mənşəyi, inkişaf mərhələləri, dialektləri, ortaq terminologiya məsələləri, ədəbiyyat və folklor nümunələrinin toplanması kimi mövzular müzakirə olunmuşdur. Qurultyın ən mühüm qərarlarında biri əlifba islahatı ilə bağlı olmuşdur. Qurultayda SSRİ ərazisində yaşayan türk xalqlarının nümayəndələri ilə yanaşı, Avropa və Asiyadan gəlmiş tanınmış alimlər də iştirak etmişlər. Birinci Türkoloji Qurultayda Səmədağa Ağamalıoğlu, Fərhad Ağazadə, Ruhulla Axundov, Hənəfi Zeynallı, Həbib Cəbiyev, Mustafa Quliyev, Nikolay Aşmarin, Xalid Səid Xocayev, Bəkir Çobanzadə, Umar Caşueviç Əliyev, Ayna Sultanova kimi alimlər təmsil ediblər. Umar Əliyev 1926-cı ilin Birinci Türkoloji Qurultayın fəal iştirakçılarında biri kimi türk dillərinin tədqiqi, latın qrafikalı əlifbaya keçid və ortaq terminologiyanın formalaşdırılması istiqamətində mühüm mövqedən çıxış etmişdir. Umar Caşueviç Əliyev 1895-ci ildə Kart-Curt kəndində dünyaya gəlmişdir. O, Qaraçayın görkəmli inqilabçı xadimlərindən biri olmuş, həmçinin Şimali Qafqaz xalqları arasında mədəniyyətin fəal təbliğatçısı idi.1921-ci ildə qaraçay-balkar dilinə münasibətdə latın əlifbası əsasında əlifba tərtib etmişdir. Umar Caşueviç Əliyev yalnız məruzəçi kimi deyil, həm də müzakirələrdə fəal iştirakçı kimi çıxış etmişdir. O, müxtəlif komissiyalarda yer alaraq qərar layihələrinin hazırlanmasında iştirak etmişdir.Xüsusilə əlifba və orfoqrafiya məsələləri üzrə aparılan müzakirələrdə onum elmi arqumentləri diqqət çəkmişdir. O, 1938-ci ildə Voroşilovsk (indiki Stavropol) şəhərində 43 yaşında güllələnmişdir. Bütün bunlara baxmayaraq, Birinci Türkoloji Qurultay həm də milli özünüdərk və mədəni kimliyin formalaşması baxınından böyük əhəmiyyət daşımış, türk xalqlarının ortaq tarixi köklərə malik olduğunu elmi şəkildə ortaya qoymuş, onların mədəni yaxınlığını gücləndirmiş və türk dünyasının elmi tarixində silinməz iz qoymuşdur.

Açar sözlər: *Birinci Türkoloji Qurultay, türk xalqları, Umar Əliyev , islahatlar.*

Giriş

XX əsrin 20-ci illəri türk xalqlarının dili, ədəbiyyatı və mədəniyyəti tarixində dönüş mərhələsi kimi səciyyələnir. Bu dövrdə sovet hakimiyyəti çərçivəsində aparılan milli siyasət, əlifba islahatı və dil quruculuğu prosesləri türkoloji araşdırmaların institusional səviyyədə təşkili ilə nəticələndi. Türkoloji tədqiqatlar əsasən Rusiya imperiyası və Avropa elmi mərkəzlərində inkişaf edirdi. Vasili Radlov, Vilhem Radloff, Nikoloay Katanov kimi alimlər türk dillərinin təsnifatı, folkloru və dialektologiyası sahəsində mühüm işlər görmüşdülər.[Serebrennikov, Hacıyev, 2002, s. 191]. Lakin, bu dövürdə türk xalqlarının öz nümayəndələri tərəfindən də aparılan elmi fəaliyyətdə genişlənməyə başlamışdı. Bu inkişafa 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay da mühüm rol oynamışdı. Qurultay türk xalqlarının ortaq elmi platformada bir araya gəldiyi mühüm hadisələrdən biri olaraq, əlifba islahatı, terminologiya quruculuğu və milli ədəbi dillərin formalaşmasında mühüm yer tuturdu. Əsas qərarlardan biri isə türk dünyasında latın qrafikasına keçidin elmi-metodoloji əsaslarının hazırlanması və orta-təhsil sistemində tətbiq üçün təkliflərin irəli sürülməsi olmuşdur [Türkoloji qurultaylar və onların elmi əhəmiyyəti, 2016, s. 484]. Birinci Türkoloji Qurultayın əsas məqsədləri bunlar idi:

1. Əlifba məsələsi.
2. İmla-orfoqrafiya problemi.
3. Termin məsələsi.
4. Tədris-metodika məsələsi.

5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri.
6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi.
7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Qurultayda müxtəlif regionlardan Azərbaycan, Türkiyə, Özbəkistan, Krım, Tatarıstan, Başqırdıstan, Qazaxıstan, Dağıstan və digər bölgələrdən olan alimlər iştirak etmişdir. Qurultayda iştirak etmiş alimlərdən biri də Umar Əliyev olmuşdur**.** Qurultayda ən çox müzakirə olunan məsələlərdən biri ərəb əlifbasından latın qrafikasına keçid idi. Umar Əliyev latınlaşma prosesini dəstəkləyən alimlər sırasında idi. O, çıxışlarında aşağıdakı arqumentləri irəli sürmüşdür: Latın qrafikasının fonetik baxımdan daha uyğun olması, savadsızlığın aradan qaldırılmasında praktik üstünlükləri, Türk xalqları arasında ortaq yazı sisteminin formalaşdırılması prespektivi onun fikirincə, ortaq qrafika elmi əməkdaşlığı və mədəni inteqrasiyanı gücləndirə bilərdi. Umar Əliyev qurultayda kumuk dilinin digər qıpçaq qrupu dilləri ilə yaxınlığını vurğulamışdır. O, dilin sistemli təsnifatının aparılmasının vacibliyini qeyd etmiş və elmi metodologiyanın tətbiqini önə çəkmişdir. Bu baxımdan onun mövqeyi müasir müqayisəli- tarixi dilçilik prinsiplərinə uyğun idi. Dağıstan xalqlarının nümayəndəsi kimi Umar Əliyev qurultayda Şimali Qafqaz türk xalqlarının dil problemlərini gündəmə gətirmişdir.[Türkologiya üzrə müasir tədqiqatlar, 2000].

Umar Əliyev Qaraçayın görkəmli inqilabçı xadimi və Qaraçay-Çərkəz bölgəsinin yaradılmasının təşəbbüskarlarından biri də olub. Umar Caşueviç 1895-ci ildə Kart-Curt kəndində anadan olmuş, yeddi yaşından dördillik rus məktəbində oxumağa başlamış və oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1914-cü ildə Umar ali müsəlman dini təhsili almışdır. O, 1915 və 1916-cı illərdə Dağıstanda, 1916-1917-ci illərdə Ufada məşhur "Osmaniya" tatar seminariyasında dərs demiş, sonra Kazana köçmüş və özünü burada ictimai-siyasi fəaliyyətə həsr etmişdir. O, həm də folklorun toplanması, dağ xalqlarının tarixinin öyrənilməsi ilə məşğul olmuşdur. Umar Əliyev inqilabdan sonra Xalq Milli İşlər Komissarlığı yanında Qafqaz Dağlıları İdarəsinə rəhbərlik edib. 1920-ci ildən Şimali Qafqaz İnqilab Komitəsində dağ şöbəsinin müdiri olub. 1920-1922-ci illərdə Kislovodskda yaşayıb işləmiş, kurort parkının ağacların kəsilməkdən xilas edilməsində fəal iştirak etmişdir. 1925-ci ildə Şimali Qafqaz vilayətinin maarif və mədəniyyət şöbəsinin müdiri kimi Umar Əliyev yeni əlifbanın proqramı ilə tanış oldu. O, bir neçə dərsliklər yazıb, kitablar nəşr etdirmiş və həmçinin "İnqilab və Dağlı" jurnalının redaksiya heyətinin üzvü olmuş və beş il ərzində alim 30 əsər yazıb nəşr etdirmişdir. Şimali Qafqaz Vilayət İcraiyyə Komitəsinin Milli Şurasına, vilayət nəşriyyatına və Şimali Qafqaz Elmi-Tədqiqat İnstitutuna rəhbərlik etmiş, Moskvada Mərkəzi Yazışma Hüquq İnstitutunun Leninizm şöbəsinin elmi katibi vəzifəsində çalışmışdır. Umar Əliyevin elmi əsərləri arasında "Qaraçay" və "Qara-Xalq" tarixi-etnoqrafik oçerkləri, "Şimali Qafqaz regionunda milli məsələ və milli mədəniyyət", Qaraçay-balkar dilinin ilk əlifbası və ilk qrammatikasını yazmışdır. O, bir alim kimi "Yeni qaraçay astarı" (1923), "Rus-qaraçay-balkar lüğəti", "Qaraçay-balkar-rusca lüğət", "Birlikdə güc var", "Qaraçay" dərsliklərinin müəllifidir.

O, 1921-ci ildə Qaraçay-balkar dilinə münasibətdə latın əlifbası əsasında əlifba tərtib etmişdir. Alimin ərəb, fars, ingilis, alman, rus, tatar, özbək və digər dilləri mükəmməl bilməsi müxtəlif dövrlərin mütəfəkkirlərinin əsərləri ilə orijinalda tanış olmağa, onların təsiri altında humanist fikirlər formalaşdırmağa imkan verib.1935-ci ildə U.Əliyevə iqtisad elmləri doktoru elmi dərəcəsi verilmişdir. 30-cu illərin sonunda Stalinin şəxsiyyətinə pərəstişin artması ilə onun bəyənmədiyi partiya və dövlət liderlərinə qarşı yeni repressiya dalğası bütün ölkəni bürüdü. Dövlət və partiya aparatının bürokratikləşməsinə, ziyalılara qarşı özbaşınalığa, NEPA-nın ləğvinə və mülki mülkiyyətdən məhrum edilməsinə qarşı çıxan həmin işçilər təqib olunurdu və həbs edilirdi. Umar Əliyevdə 1937-ci ildə həbs olunaraq 1938-ci ildə Voroşilovsk (indiki Stavropol) şəhərində 43 yaşında güllələnmişdir. Bu gün onun adı Kislovodsk, Çerkessk, Karaçayevsk şəhərlərində küçələrə verilib, Kart-Curt kəndində onun məktəbdə muzeyi açılıb. 2006-cı ildə Qaraçay-Çərkəz Dövlət Universitetində universitetə Umar Əliyev adının verilməsi münasibətilə təntənəli mərasim keçirilmişdir.

Nəticədə, Umar Caşueviç Dağıstanın kumuk mühitində yetişmiş, türk dillərinin müqayisəli tədqiqi, dialektologiya və yazı mədəniyyəti məsələləri ilə məşğul olmuş alimlərdən idi. O, xüsusilə kumuk dili-

nin fonetik və leksik xüsusiyyətlərinin sistemləşdirilməsi istiqamətində fəaliyyət göstərmişdir. Umar Caşueviç haqlı olaraq Qaraçay-balkarşünaslığın banisi, Qaraçay-balkar dilinin ilk sistemli təsvirinin müəllifi hesab olunur. Bu gün Qaraçay-Çərkəz Dövlət Universiteti onun adını daşıyır. Onun elmi fəaliyyətinin əsas istiqamətləri: kumuk ədəbi dilinin normalaşdırılması, latın qrafikasına keçid məsələsində fəal iştirak, Türk dilləri arasında qarşılıqlı əlaqələrin araşdırılması, terminoloji vahidliyin təmin olunması olmuşdur. Onun elmi irsi türk dillərinin sistemli öyrənilməsinə töhfə, kumuk ədəbi dilinin formalaşmasında rol, Türkoloji əməkdaşlıq ideyasının dəstəklənməsi kimi istiqamətlərdə əhəmiyyət kəsb edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan dilçiliyinin tarixi.(2007). Bakı.Elm nəşriyyatı
2. A.Qurbanov. (2019). Türkoloji dilçilik. Bakı.
3. 1926 Birinci Türkoloji Qurultayın materialları. (2006). Çinar-Çap. Bakı
4. B.A.Serebrennikov, N.Z.Hacıyev. (2002). Türk dillərinin müqayisəli tarixi qrammatikası.Bakı
5. Türkoloji qurultaylar və onların elmi əhəmiyyəti. (2016). Bakı.Elm və təhsil
6. Türkologiya üzrə müasir tədqiqatlar. (2000). Bakı. Elm nəşriyyatı

THE SCIENTIFIC POSITION OF UMAR ALİYEV´S AT THE FIRST CONGRESS OF TURKOLOGY: IN THE HISTORICAL-PHILOLOGICAL ASPECT

Aynur Jafarova

The First Congress of Turkology was held with the aim of studying the language, literature, history and culture of Turikye peoples on a scientific basis and topics such as the origin of Turikye languages, stages of development, dialects, issues of common terminology, and the collection of examples of literature and folklore were discussed. One of the most important decisions of the congress was related to alphabet reform. In addition to representatives of Turikye peoples living in the territory of the USSR, prominent scholars from Europe and Asia also participated in the congress. At the First Turkology Congress, scholars such as Samedaga Aghamalioglu, Farhad Agazade, Ruhulla Akhundov, Hanafi Zeynalli, Habib Jabiyev, Mustafa Guliyev, Nikolay Ashmarin, Khalid Said Khocayev, Bakir Chobanzadeh, Umar Aliyev and Ayna Sultanova were represented. Umar Chashuevich Aliyev as one of the active participants of the First Turkological Congress in 1926, took an important position in the study of Turk languages, the transition to the Latin-script alphabet, and the formation of a common terminology. Umar Chashuevich Aliyev was born in 1895 in the village of Kart-Curt. He was one of the prominent revolutionary figures of Karachay and was also an active promoter of culture among the peoples of the North Caucasus. In 1921, he developed an alphabet for the Karachay-Balkar language based on the Latin script. Umar Chashuevich Aliyev acted not only as a presenter, but also as an active participant in the discussions. He participated in the preparation of draft decisions by being a member of various commissions. In particular, his scientific arguments drew attention in the discussions on alphabet and orthography issues. He was shot in 1938 in the city of Voroshilovsk (present-day Stavropol) at the age of 43. Despite all this, the First Turkological Congress also held great significance in terms of the formation of national self-awareness and cultural identity, scientifically revealing that the Turkiye peoples have common historical roots, strengthening their cultural closeness and leaving an indelible mark on the scientific history of the Turkiye world.

Keywords: *First Turkological Congress, Turkiye peoples, Umar Aliyev, reforms.*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYI: GERÇƏKLƏŞƏN ARZULAR

Sərraf Talıbov
AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi
Şöbə müdiri
sarraf56@mail.ru
https://orcid.org/0009-0000-5608-1557

Məqalədə Birinci Türkoloji Qurultayın keçirilməsinin zəruriliyi, XIX əsrdən başlayaraq Azərbaycan ziyalılarının Latın əlifbasına keçid çağırışları, Azərbaycan SSR dövründə qurultaya qədər bu istiqamətdə görülən tədbirlər, eləcə də qurultaydan sonrakı dövrdə tanınmış türkoloqların repressiyaları qeyd olunur. Qurultayda müzakirə olunan məsələlər, xüsusən də Latın əlifbasına keçid, türkdilli xalqların siyasi, elmi və mədəni sahələrdə birliyi ideyaları, Azərbaycan müstəqillik qazandıqdan sonra Birinci Türkoloji Qurultayın irsinə dövlət səviyyəsində göstərilən diqqət və qayğı vurğulanır.

Açar sözlər: *I Türkoloji Qurultay, Türk dünyası, ortaq əlifba, əlifba islahatı, Türk Dövlətləri Təşkilatı.*

Giriş

1926-cı il fevralın 26-dan martın 6-dək Bakı şəhərində keçirilmiş I Türkoloji Qurultay təkcə elmi tədbir olmamış, həm də dünya türklərinin birlik və vəhdət məsələsi ilə önə çıxan, türk xalqlarının mədəni birliyinə yönəlmiş bir addım kimi simvolik məna daşımışdır. Prezident İlham Əliyev tərəfindən imzalanan "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam I qurultayın elmi və mədəni əhəmiyyətini dövlət səviyyəsində təsdiq edən, Azərbaycanın elmi və mədəni siyasətinin əsas prioritetlərini müəyyənləşdirməklə bərabər, həm də Azərbaycan və Türk dünyasının bugünkü və gələcək mədəni inteqrasiyasını özündə əks etdirən samballı bir sənəd kimi diqqəti cəlb edir. Sərəncamda qeyd edildiyi kimi: *"Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə sahib türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə əlaqədar vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır"(2025).*

Birinci Türkoloji Qurultay XIX əsrdən etibarən ziyalılar tərəfindən həyata keçirilməsi planlaşdırılan maarifçilik hərəkatının zirvə nöqtəsidir desək, səhf etmərik. Belə ki,100-dən artıq tanınmış şəxsin gərgin zəhməti ilə ərsəyə gətirilmiş bu qurultay tarixdə görkəmli elm və dövlət adamlarının görünməmiş fədakarlıq və əvəzsiz sevgi nümunəsi kimi Türk xalqlarının tarixində ən əhəmiyyətli elmi və ədəbi-mədəni hadisə kimi yaşamaqda və gələcək nəsillərə əbədi mayak kimi yol göstərməkdə davam edir.

Ümumilikdə, muxtəlif ölkələrdən 131 nəfər numayəndənin qatıldığı 17 iclasda türklərin, bütövlükdə türk dünyasının dilinə və tarixinə, etnogenezisinə və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə həsr olunmuş 38 məruzə dinlənilmişdir.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd Ağamalıoğlunun sədrlik etdiyi qurultayda Ruhulla Axundov, Qəzənfər Musabəyov, Həbib Cəbiyev, Bəkir Çobanzadə kimi nümayəndələr də fəal iştirak etmişlər. "*Tanınmış şərqşünas-tarixçi alim akademik Vasili Bartold, akademik Sergey Oldenburq, Avropa alimlərinin nümayəndəsi professor F.F.Mensel, RSFSR (Rusiya Sovet Federativ Sosialist Respublikası) Xalq Maarif Nazirliyindən Naqovitsin, professor Bəkir Çobanzadə, professor Aleksandr Samoyloviç, Qazaxıstandan Əhməd Baytursunov, Yakutiyadan İsidor Baraxov, Şərqşünaslıq Assosiasiyasından İlya Borozdin və M.Pavloviç, Tatarıstandan Qəlimcan İbrahimov, Başqırdıstandan İdelquzin, Türkiyədən Mehmed Fuad Köprülü, Dağıstandan Cəlaləddin Qorxmazov, Özbəkistandan Rahim İnogomov, Qara-Qırğızıstandan Tunstanov, Türkmənistandan Berdiyev, Krımdan Osman Nuri Akçökraklı, Şimali Qafqazdan Umar Əliyev seçildilər. Əli bəy Hüseynzadə, Banq, Mustafa*

Quliyev, akademik Nikolay Marr, Anatoli Lunaçarski və Tomsen qurultayın Rəyasət Heyətinin fəxri üzvü oldular"(Fərəcova, 2026).

Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Tatarıstan, Başqırdıstan, Sibir, Çin, Almaniya, İran, Polşadan olan alimlərin iştirak etdiyi qurultayda: "*1. Əlifba məsələsi; 2. İmla-orfoqrafiya problemi; 3. Termin məsələsi; 4. Tədris-metodika məsələsi; 5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri; 6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi; 7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri"(Nağısoylu,2016)* kimi taleyüklü məsələlər müzakirəyə çıxarılmışdır. "*İsmayıl Bəy Qaspıralı və V.Radlovun şərəfinə keçirilməsi qərarlaşdırılan qurultay, artıq qeyd olunduğu kimi, türk xalqlarının ədəbi-mədəni həyatında mühüm əhəmiyyətə malikdir. Dünya türkologiya elminin məşhur simaları olan görkəmli şərqşünas-alimlərin tədbirdə iştirakı və məruzələrlə çıxış etmələri Birinci türkoloji qurultayın elmi-tarixi mahiyyətini daha da artırmışdır"(Şükürov, 2016).*

Qurultayda ən çox yeni əlifbaya keçid məsələsi müzakirə predmeti olmuşdur. O dövrdə bir çox türk xalqı ərəb qrafikasından istifadə etdiyindən Latın əlifbası elmi və müasir biliklərə çıxışı asanlaşdıran vasitə kimi qiymətləndirilirdi.

Bu arada tədqiqatçılar V.V. Bartoldun "Türk xalqlarının tarixinin müasir vəziyyəti və öyrənilməsinin yaxın vəzifələri", S.F. Oldenburqun "Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları", A.A. Müllerin "Türk xalqlarının təsviri sənəti haqqında", F. Köprülüzadənin "Türk xalqlarının ədəbi dillərinin inkişafı", A.N. Samoyloviçin "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", B. Çobanzadənin "Türk ləhcələrinin yaxın qohumluğu haqqında", H. Zeynallının "Türk dillərində elmi terminologiya sistemi haqqında", S.Y. Malovun "Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri", F. Ağazadənin "Türk dillərində düzgün yazı", N.F. Yakovlevin "Türk millətlərinin sosial və mədəni şəraitləri ilə bağlı əlifba sisteminin qurulması problemləri", C. Məmmədzadənin "Türk xalqlarının əlifba sistemləri haqqında", N.Q. Ketanovun "Türk dillərinin tədrisi metodikasının əsasları", N.N. Poppenin "Türk dillərinin Altay dilləri ilə qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti", H. Şərəfin "Ərəb və latın qrafikalı yazı sistemləri və onların türk-tatar xalqları üçün tətbiqi məsələləri", T. Menselin "Balkan türkləri ədəbiyyatının öyrənilməsinin yekunları və perspektivləri" məruzələrini xüsusi qeyd edirlər. Qurultayda təqdim olunan və müzakirə edilən elmi çıxışlardan aydın olur ki, türk xalqlarının mədəni və elmi fəaliyyətlərinə xüsusi və geniş diqqət yetirilmişdir.

Qeyd etmək lazımdır ki, qurultayın keçirilməsilə bağlı ilk dəfə təklif Azərbaycan SSR hökuməti tərəfindən ittifaq rəhbərliyinə - S.Ağamalıoğlu tərəfindən İ.Stalinə təqdim olunmuşdur. Bundan əvvəl isə 1922-ci ilin mayında Azərbaycan Xalq Komissarları Soveti yanında "Yeni türk əlifbası" komitəsi yaradılmış, C.Məmmədquluzadənin baş redaktorluğu ilə "Yeni yol" qəzeti latın əlifbası ilə nəşr olunmuşdur. *"Azərbaycan latın əlifbasını rəsmi olaraq 1923-cü il oktyabrın 20-si qəbul etdi. Əvvəlcə həm ərəb, həm də latın əlifbasının kütləvi şəkildə istifadə edilməsinə icazə verilirdi. Lakin artıq 1929-cu il yanvarın 1-dən ateist Sovet hökuməti Azərbaycanda ərəb əlifbasının istifadəsini qadağan etdi. Bu əlifbanı yaddaşdan silmək üçün böyük kitab yandırma kampaniyaları həyata keçirildi"(Ələkbərov, 2000*). Beləliklə, 1925-ci ilin avqustunda SSRİ Xalq Komissarları Şurası Ümumittifaq Türkoloji Qurultayın çağırılması haqqında qərar qəbul etdi. *"Gündəlikdə duran əsas məsələ - ərəb qrafikasından latın əlifbasına keçid idi. Həmin yığıncaq barədə rəsmi qərara altı ay qalmış 1-ci Yerli Diyarşünaslıq Konfransında və SSRİ Elmlər Akademiyası və Ümumittifaq Şərqşünaslar Birliyində irəli sürülmüşdü"(Məmmədova, 2026).*

Böyük ümidlərlə keçirilən və tanınmış türkoloqların qatıldığı qurultayın böyük əhəmiyyətini vurğulamaqla qeyd etməliyik ki, bundan sonra baş verən hadisələr rejimin məqsədinin tamam başqa olduğunu göstərmişdir. Aydın olmuşdur ki, mövcud rejim latın qrafikasına keçiddə də öz gizli, məkrli məqsədlərini güdmüşdür. "*Qurultayda qəbul edilən qərara əsaslanaraq üç il sonra, 1929-cu il yanvarın 1-dən ərəb əlifbasından istifadə qadağan edildi və bütün respublika üzrə kitabyandırma kampaniyası başladıldı. Amma 1939-cu ildə bütün SSRİ daxilində yaşayan xalqlara kiril əlifbasından istifadə göstə-*

rişi verildi. Rəsmi açıqlamaya görə, latından kiril əlifbasına məcburi keçid guya "zəhmətkeşlərin ümumi istəyi" adı altında pərdələnmişdi"(Anar, 2016).

Növbəti İkinci qurultayın 1927-ci ildə Özbəkistanın Səmərqənd şəhərində keçirilməsi nəzərdə tutulsa da, ölkə rəhbərliyi tərəfindən buna imkan verilməmiş, əksinə dövlət siyasətinin dəyişməsi nəticəsində otuzuncu illərin sonlarında qurultayın bir çox iştirakçısı millətçilik, pantürkizm, əks-inqilabi fəaliyyət adı altında repressiya edilmiş, Salman Mümtaz, Bəkir Çobanzadə, İsidor Baraxov, Cəlaləddin Qorxmazov, Hənəfi Zeynallı, Əhməd Baytursunov, Osman Akçökraklı, Hikmət Cevdetzadə və başqaları kimi tanınmış simalar rejimin repressiya maşınından qurtula bilməmişdilər.

Verilən qurbanlara baxmayaraq XX əsrin ən əhəmiyyətli hadisələrindən biri kimi qızıl hərflərlə tarixin yaddaşına həkk olunmuş Birinci Türkoloji Qurultay türk xalqlarının yenidən, XXI əsrdə bir araya gəlməsində mühüm rol oynamış, xüsusən də Azərbaycan öz dövlət müstəqilliyini ikinci dəfə bərpa etdikdən sonra qurultay öz həqiqi dəyərini almağa başlamışdır. Müasir dövrdə Azərbaycanda həyata keçirilən bəzi önəmli tədbirləri nəzərdən keçirmək kifayətdir ki, bu istiqamətdə görülən işlərin əhəmiyyəti və miqyası aydın olsun. Belə ki, müstəqillik qazandıqdan sonra bu istiqamətdə Azərbaycan dövləti konkret addımlar atmış, I qurultaya hüquqi qiymət verməklə tarixi qurultayın müəyyənləşdirdiyi sahələr üzrə samballı işlər həyata keçirmişdir:

1) 2005-ci il noyabrın 5-də Prezident İlham Əliyev I Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamış və ölkədə beynəlxalq konfrans baş tutmuşdur.

2) 2016-cı ildə yenə də Ölkə prezidentinin müvafiq sərəncamı ilə həmin əlamətdar hadisənin 90 illik yubileyi qeyd olunmuşdur.

3) 2025-ci il oktyabrın 22-də Ölkə başçısı İlham Əliyevin I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında növbəti sərəncamı imzalamışdır. Bununla da dövlətimizin I qurultayın ideyalarına nə qədər sadiq olduğunu ardıcıl olaraq verilən sərəncamlarla sübut etmişdir.

Birinci qurultayın 100 illiyi ilə bağlı Prezident sərəncamında deyilir ki, Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi.

Mötəbər alimlərin iştirak etdiyi və dərin konseptual məruzələrin təqdim edildiyi I Türkoloji Qurultay elmi, nəzəri səviyyəsiylə, qaldırılan problemlərin konkretliyi və qarşıya qoyulan məqsədlərin reallığı ilə seçilmişdir. "*Nəhayət, adlarını çəkdiyimiz toplantılardan Türkoloji qurultayın əsas fərqi ondan ibarətdir ki, bu yığıncaq uzun əsrlərdən bəri ilk dəfə məhz Türk xalqlarının taleləriylə bağlıydı, onların tarix, dil, ədəbiyyat, iqtisadiyyat məsələlərini müzakirə edirdi"(*Anar, 2016).

Əlifba məsələsi I qurultay iştirakçılarının xüsusi diqqət yetirdiyi, ən çox müzakirə edilən, ən çox fikir və mövqe toqquşmasına səbəb olan məsələ olmuş, qurultayın 17 iclasından yeddisi bütünlüklə bu məsələyə həsr olunmuşdur.

Qurultayın nəticələri sonrakı onilliklərdə türkologiyanın strukturlaşmasına, elmi məktəblərin yaranmasına və ümumtürk mədəniyyətinin qorunmasına böyük təkan vermişdir. Bu baxımdan qurultay həm tarixi, həm də elmi dəyəri baxımından türkologiyanın qızıl səhifələrindən biri olaraq yaşamaqdadır.

Nəticə

I Türkoloji Qurultay - dil, mədəniyyət və elmi birliyin simvolu, Türk dünyasının inteqrasiyasının tarixi əsası və Azərbaycanın dünya türkoloji mərkəzi kimi yüksəlişinin başlanğıcı kimi tarixə düşmüşdür. Bu irsə sahib çıxan Azərbaycan dövləti onu tədris və təbliğ etmək, onun ideyalarını gələcək nəsillərə ötürmək istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Tarixi qurultayın önə çıxardığı ideyalardan çıxış edərək müasir dövrdə ölkəmizdə bir sıra samballı nəticələr əldə edilmişdir:

1) I Türkoloji Qurultayda irəli sürülmüş "Türk xalqları birlikdə qüvvətli olar" ideyası 3 oktyabr 2009-cu ildə əsası qoyulmuş "Türk Dövlətləri Təşkilatı" formasında real siyasi və mədəni qurum kimi həyata vəsiqə qazanmışdır. Böyük türkçü mütəfəkkir İsmayıl bəy Qasparılının "Dildə, fikirdə, işdə birlik" ideyası müasir dövrdə Türk Dövlətləri Təşkilatının əsas məqsədlərində - "Türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni və humanitar əməkdaşlığı gücləndirmək" siyasətində öz əksini tapmışdır.

"*Azərbaycan TDT-yə sözügedən təşkilata üzv və müşahidəçi ölkələrlə əməkdaşlığını genişləndirmək və dərinləşdirmək üçün vacib bir platforma kimi yanaşır. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Türk əməkdaşlıq təşkilatlarından ikisi – Türk Dövlətləri Parlament Asssambleyası (TÜRKPA) və Türk Mədəniyyəti və İrsi Fondunun (TMİF) mənzil qərargahlarının yerləşməsi ölkəmizin Türk dünyası ilə əlaqələrini mahiyyət və keyfiyyətcə yeni mərhələyə yüksəltməsi istəyinin bariz göstəricisidir"(* Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi).

2) Məlum olduğu kimi Birinci Türkoloji Qurultay Türk dillərinin latın əlifbasına keçidini təklif etmişdir. Müasir dövrdə bu proses bütün müstəqil Türk dövlətlərində demək olar ki, öz həllini tapmışdır. Belə ki, Türkiyə qurultaydan 2 il sonra, 1928-ci ildə ərəb əlifbasından latına keçməklə onu ilk tətbiq edən dövlət olmuşdur. Azərbaycanda hələ XIX əsrdə qabaqcıl ziyalılar tərəfindən yeni əlifbaya keçid ideyası irəli sürülmüşdü. Bu sahədə *"M.F.Axundovun əlifba islahatı ilə bağlı məqsədi türk dünyası və müsəlman millətlərinin tarixi, kültürəl əlaqələrini möhkəmlətmək idi. Elə buna görə də o, "əlifba islahatı" layihəsini komediyaları ilə birlikdə Çar Rusiyası hökumətinə deyil, bu məqsədlə 1863-cü ildə İstanbula getdiyi dövrdə Osmanlı sədrəzəminə təqdim etmişdi. Onun layihəsi və komediyaları Sədrəzəm tərəfindən "Cəmiyyəti - Elmiyyəyi Osmaniyyə"yə tədqiqə verilmişdi"(Yaqublu, 2023).* 1926-cı il qurultayında da təqdir edilən bu ideyanı Azərbaycan 1991-ci ildə kiril əlifbasından latın əlifbasına keçməklə uğurla həll etmişdir. Müəyyən axsamalara rəğmən Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistanda da kirildən latın əlifbasına keçid həyata keçirilmiş və 1926-cı ildə qurultayda təklif olunan "birlik əlifbası" ideyası - müasir dövrdə 6 Türk dövlətində qanunla təsbit edilmişdir ki, bu da Türk dünyasında ən böyük mədəni-inteqrasiya nailiyyəti sayılmalıdır.

3) Qurultayın mədəni irsi, müasir dövrdə aşağıdakı təşkilatlarda öz əksini tapmışdır: Türk Dili Assosiasiyası (TDK), Türk Dövlətləri Mədəniyyət və İncəsənət Təşkilatı (TÜRKSOY), Türk Dövlətləri Universitetləri Birliyi(TUB), Türk Dili və Mədəniyyətini Tədqiqat Mərkəzi (TURKAM) kimi təşkilatların dəstəyi ilə təhsil və mədəni sahədə yüzlərlə layihə həyata keçirilmişdir.

Beləliklə, Birinci Türkoloji Qurultay XX əsrin ən mühüm elmi və mədəni hadisələrindən biri kimi tarixə daxil olmaqla yalnız latın əlifbasının tətbiqi, türk dillərinin qrammatik və fonetik təhlili ilə məhdudlaşmamış, Türk xalqlarının tarixi, etnogenez, ədəbiyyat, terminologiya və əlifba sistemi üzrə ilk inteqrasiya layihəsi kimi yadda qalmışdır. Birinci Türkoloji Qurultay 100 il sonra Türk xalqlarının mədəni və elmi birliyinin ilk institusional ifadəsi kimi "Türk Dövlətləri Təşkilatı" formasında real siyasi gücə, mədəni və elmi quruma çevrilmiş, əlifba, terminologiya və əməkdaşlıq ideyaları qanunla təsdiq olunaraq həyata vəsiqə qazanmışdır.

Türk xalqlarının həyatında bu fenomenal tarixi hadisə XX əsrin ən uğurlu inteqrasiya layihəsi olmaqla XIX əsrdə M.F.Axundzadədən başlamış XX əsrin böyük türkçülərinədək "Dildə, fikirdə, işdə birlik" arzuları XXI əsrdə reallığa qovuşmuş və Azərbaycan dövlətini dünyada türkoloji məkanın mərkəzlərindən birinə çevirmişdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://president.az/az/articles/view/70396

2. Fərəcova, Z. Türk xalqlarının tarixində əlamətdar hadisə. Azərbaycan. https://www.azerbaijan-news.az/az/posts/detail/turk-xalqlarinin-tarixinde-elametdar-hadise-1760048248/371893

3. Nağısoylu, M. (2016). I Türkoloji Qurultay: çağırışları və onların günümüzdək aktüallığı. I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni

çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları (I hissə). Bakı: Elm və təhsil. https://dilcilik.az/kitabxana/arasdirmalar/I-cild.pdf

4. Şükürov, A. (2016). Birinci Türkoloji Qurultay - 90: türk xalqlarının ədəbi-mədəni həyatında mühüm hadisə. Azərbaycan Dili və Yazi. http://www.azyb.az/index.php/culture/post/464

5. Ələkbərov, F. (2000). Mirzə Fətəli Axundov: Əlifba islahatını qabaqlayan reformer. Azerbaijan International. https://www.azeri.org/Azeri/az_latin/latin_articles/latin_text/latin_81/latin_81_graphics/alakbarov_reformer_akhundov.pdf

6. Məmmədova, Ş. (2026). Birinci Türkoloji Qurultay – 100 illik tarixi hadisə. https://azertag.az/xeber/birinci_turkoloji_qurultay___100_illik_tarixi_hadise-3950335

7. Anar. (2016). Fərəh, ümid, faciə - Birinci Türkoloji Qurultay haqqında düşüncələr. https://www.elibrary.az/docs/QAZET/qzt2016_1699.htm

8. Azərbaycan - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏS) münasibətləri. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. https://mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-turkdilli-dovletlerin-emekdasliq-surasi-tdes-munasibetleri

9. Yaqublu, N. (2023). M.F.Axundov, əlifba islahatı, sovet mənbələrində təhriflər. Ədəbiyyat qəzeti.https://edebiyyatqazeti.az/news/sience/10872-mfaxundov-elifba-islahati-sovet-menbelerinde-tehrifler

THE FIRST TURKOLOGICAL CONGRESS: REALIZED ASPIRATIONS

Sarraf Talıbov

The article touches upon the necessity of holding the First Turkological Congress, the calls of Azerbaijani intellectuals for the transition to the Latin script alphabet starting from the 19th century, the measures taken in this direction during the Azerbaijan SSR period up to the congress, as well as the repression of well-known Turkologists in the period after the congress. The issues discussed at the congress, in particular the transition to the Latin script alphabet, the ideas of unity of Turkic-speaking peoples in the political, scientific and cultural spheres, the attention and care shown to the legacy of the First Turkological Congress at the state level after Azerbaijan gained independence, are highlighted.

Keywords: *I Turkological Congress, Turkic world, common alphabet, alphabet reform, Organization of Turkic States.*

AZƏRBAYCAN TÜRKOLOGİYASINDA REPRESSİYA PARADİGMASI: MİLLİ KİMLİYİN MÜDAFİƏSİ VƏ SİYASİ TƏZYİQLƏR

Gözəl Əlizadə
AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi
Elmi işçi
gbagirzada@gmail.com
https://orcid.org/0009-0007-8666-6522

Məqalədə türk xalqlarının etnogenezi və dövlətçilik tarixinin öyrənilməsində XX əsrin əvvəlləri Azərbaycan türkologiya məktəbinin rolu tədqiq edilir. Əsas diqqət 1926-cı il I Türkoloji Qurultaydan sonrakı dövrdə "sələf" alimlərin arxeoloji faktlar və maddi mədəniyyət nümunələri əsasında hazırladıqları milli dövlətçilik konsepsiyasına yönəldilmişdir. Tədqiqatda arxeoloji tapıntıların (kurqanlar, damğalar) etnik tarixin bərpasındakı əhəmiyyəti və 1930-cu illər repressiyalarının bu elmi prosesə vurduğu zərbə analiz olunur. Sonda repressiya olunmuş elmi irsin müasir dövrümüzdəki varislik əhəmiyyəti və müstəqil dövlətçilik şüurunun formalaşmasındakı rolu əsaslandırılır.

Açar sözlər: *Türkologiya, etnogenez, dövlətçilik tarixi, arxeoloji irs, repressiya, milli kimlik.*

Giriş

Türk xalqlarının etnogenezi və dövlətçilik tarixi məsələsi sadəcə keçmişin öyrənilməsi deyil, həm də milli kimliyin və dövlətçilik şüurunun bərpası prosesidir. XX əsrin əvvəllərində Azərbaycan elmi fikri bu istiqamətdə böyük bir sıçrayış mərhələsinə qədəm qoymuşdu. 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay bu intellektual hərəkatın zirvə nöqtəsi idi. Həmin dövrün alimləri – bizim "sələflərimiz" – türkologiyanı yalnız dilçilik çərçivəsində deyil, tarixin, arxeologiyanın və etnoqrafiyanın sintezi kimi görürdülər. Onlar anlayırdılar ki, bir xalqın dilini qorumaq üçün onun torpağın altındakı (arxeoloji) və yaddaşındakı (etnoqrafik) tarixini elmi şəkildə sübut etmək lazımdır. Bu, sadəcə akademik maraq deyil, həm də müstəqilliyini yeni bərpa etmiş və ya milli özünüdərk mərhələsində olan bir xalq üçün "mövcudluq" sübutu idi. Bir arxeoloq və tarixçi üçün etnogenez prosesi maddi mədəniyyət nümunələrində kodlaşmış informasiyadır. Etnogenez prosesinin tədqiqində yazılı mənbələr çox vaxt fraqmentar və subyektiv xarakter daşıdığı halda, maddi mədəniyyət nümunələri xalqın keçmişi haqqında ən dürüst və "səssiz" şahidlərdir (Xəliyəddin, 2007). Sələf alimlərimiz Avrasiya və Cənubi Qafqazın arxeoloji xəritəsini təhlil edərkən türk etnosunun bu coğrafiyadakı qədim izlərini aşkar edirdilər. Türk etnogenezinin ən mühüm arxeoloji markerlərindən biri Kurqan mədəniyyətidir. Kurqanlar sadəcə dəfn abidələri deyil, qədim türklərin kainat haqqında təsəvvürlərini, sosial strukturunu və dövlətçilik prinsiplərini qoruyub saxlayan yeraltı "arxivlərdir". Arxeoloji qazıntılar zamanı bu abidələrdən tapılan at skeletləri türk etnosunun hərbi-strateji qüdrətinin, atı dünyada ilk dəfə əhliləşdirib hərbi və məişət vasitəsinə çevirməsinin sübutudur. Atla birgə dəfn ənənəsi həm də "axirət dünyası" inancının və döyüşçü ruhunun maddi təzahürüdür. Bununla yanaşı, kurqanlardan çıxan yüksək texnoloji hazırlıqlı silahlar və zərif işlənmiş qızıl bəzək əşyaları sübut edir ki, türk etnosu minilliklər əvvəl artıq mürəkkəb metalurgiya biliyinə və mərkəzləşmiş hərbi-siyasi təşkilatlanmaya malik idi. Alimlərimizin xüsusi vurğuladığı digər bir məqam, Avropadan Çin səddinə qədər yayılan "heyvan üslubu" incəsənətidir. Bu üslubda hazırlanan tunc və qızıl əşyalar üzərindəki heyvan təsvirləri (qartal, maral, bəbir və s.) sadəcə dekorativ naxışlar deyil, türk xalqlarının ortaq totemi, mifoloji dünyagörüşü və simvolik dili idi (Qumilyov, 1993). Bu bədii dilin Avrasiyanın bu qədər geniş arealında eynilik təşkil etməsi türk xalqlarının vahid kökdən gəldiyini və ortaq bir mədəniyyət layı yaratdığını elmi şəkildə isbatlayırdı. Bu, həmin dövrdə sovet tarixşünaslığının yeritməyə çalışdığı "köçəri və mədəniyyətsiz türk" obrazını darmadağın edən bir elmi inqilab idi. Bu araşdırmalar sübut edirdi ki, türk dünyası dünya sivilizasiyasına təkcə hərbi güc deyil, həm də estetik, texnoloji və ideoloji yeniliklər bəxş etmişdir. Məhz bu faktlara görə sələf alimlərimiz repressiya hədəfinə çevrildilər; çünki onların aşkar etdiyi "torpaq altındakı həqiqət" rejimin "torpaq üstündəki yalanları" ilə kəskin ziddiyyət təşkil edirdi.

Türk dövlətçiliyi sadəcə hərbi qüdrət üzərində deyil, dərin hüquqi və inzibati sistem üzərində qurulmuşdur. Bunun ən bariz nümunəsi arxeoloji artefaktlar üzərində rast gəlinən **damğalardır**. Damğalar qədim türk dünyasında mülkiyyəti, tayfa mənsubiyyətini və dövlət gerbini təmsil edirdi. Azərbaycan ərazisində – Naxçıvanın Gəmiqaya təsvirlərindən tutmuş Qazaxın Damcılı mağarasına, Qarabağın kurqanlarından Abşeronun qədim qayaüstü rəsmlərinə qədər aşkar edilən damğalar heyrətamiz bir reallığı ortaya qoyur. Bu rəmzlər Orta Asiyadakı, xüsusilə "Orxon-Yenisey" abidələrindəki klassik türk damğaları ilə həm forma, həm də məna baxımından tam eynilik təşkil edir. Bu coğrafi vəhdət sübut edir ki, türk dövlətçilik təfəkkürü vahid mərkəzdən qaynaqlanan və min illər boyu öz genetik kodlarını qoruyan bir sistemdir (Rəcəbov, Məmmədov, 1993). Bu damğalar həm mülkiyyət hüququnu, həm də dövlət idarəçiliyindəki iyerarxiyanı simvolizə edirdi. 1920-30-cu illərin elm fədailəri bu damğaları araşdırarkən strateji bir hədəf güdürdülər: Azərbaycan xalqının bu torpaqlarda "gəlmə" (miqrant) olması barədə uydurulan ideoloji tezisləri elmi faktlarla çürütmək. Onlar sübut edirdilər ki, biz bu torpaqların ən qədim və aborigen dövlət qurucuları olan Sakların, Hunların və Göytürklərin birbaşa genetik və hüquqi varisləriyik. Sovet ideologiyasının israrla "parçalayıb idarə etmək" üçün yaratdığı "ayrı-ayrı xırda tayfalar" mifi damğaların vahidliyi qarşısında aciz qalırdı. Çünki eyni damğa həm bir Göytürk bəyinin qəbrində, həm də bir Azərbaycan xanının qalasında rast gəlinirdi. Bu, türk dövlətçilik irsinin təsadüfi deyil, irsi, sistemli və sarsılmaz bir zəncir olduğunun ən böyük elmi təsdiqidir (Əliyev, 2005).

Lakin bu elmi-metodoloji yüksəliş 1930-cu illərin sonunda qəddar bir manea ilə rastlaşdı. Çünki, bu elmi tapıntılar o dövrün sovet tarixşünaslığı üçün ciddi bir sınaq idi. Türk xalqlarının ortaq etnogenezini və dövlətçilik tarixini araşdıran mütəxəssislər totalitar rejimin repressiya maşını tərəfindən hədəfə alındı. Sələf alimlərimiz – böyük dilçi və mütəfəkkir Bəkir Çobanzadə, qədim türk dillərinin və "Divanü Lüğat-it-Türk"ün ilk tərcüməçisi Xalid Səid Xocayev, tanınmış tarixçi və ədəbiyyatşünas İsmayıl Hikmət, həmçinin Vəli Xuluflu, Hənəfi Zeynallı və digər onlarla fədai saxta "pantürkizm", "panislamizm" və "casusluq" ittihamları ilə güllələndilər (Çobanzadə, 2007). Lakin terror bununla bitmədi; onlarla birlikdə xalqın onilliklər boyu topladığı elmi irs də məhv edildi. Alimlərin şəxsi kitabxanaları küçələrdə yandırıldı, illərlə çöl ekspedisiyalarında topladıqları nadir əlyazmalar, xalq yaddaşından süzülüb gələn dastanlar və arxeoloji qeyd dəftərləri xüsusi arxivlərdə (KQB-nin "məxfi" fondlarında) dustaq edildi (İsmayılov, 2008). Bu repressiya dalğası sadəcə fiziki məhv etmə kampaniyası deyil, mahiyyət etibarilə Azərbaycanın və bütövlükdə Türk dünyasının intellektual potensialını iflic etməyə yönəlmiş bir "ideoloji soyqırım" idi (Qasımov, 2015). Stalinizm və sovet totalitarizmi üçün türk xalqlarının ortaq etnogenezə, qədim və köklü dövlətçilik tarixinə malik olması "vahid sovet xalqı" konsepsiyasına ən böyük təhdid hesab olunurdu (Bünyadov,1993). Bu səbəbdən də, elmi araşdırmalarında türk kimliyini ön plana çıxaran hər bir mütəxəssis rejimin bir nömrəli düşməninə çevrilirdi. Repressiyanın əsas strateji məqsədi xalqın "tarixi yaddaşını" silmək və onu öz köklərindən qoparmaq idi. Bu dövrdən etibarən Azərbaycanın arxeologiya və etnoqrafiya elminə ağır senzura tətbiq olunmağa başladı. Metodoloji saxtakarlıq elə bir həddə çatdı ki, Azərbaycan ərazisində aparılan qazıntılar zamanı tapılan və türk etnosuna məxsusluğu şübhə doğurmayan hər bir maddi mədəniyyət nümunəsi – istər kurqanlar, istər heyvan üslublu incəsənət əsərləri, istərsə də qədim yaşayış məskənləri – israrla "yerli, qeyri-türk dilli avtoxton tayfalara" aid edilirdi. Məqsəd türkləri bu coğrafiyada "gəlmə" və "köçəri" kimi qələmə vermək, onların minillik dövlətçilik ənənələrini inkar etmək idi. Xalqın minillik keçmişini əks etdirən saxsı qablardakı damğalar "sadəcə naxış", qədim qəbirlər isə "naməlum mədəniyyətlər" kimi təqdim olunurdu. Lakin bu "elmi repressiya" xalqın ruhundakı və torpağın qatındakı həqiqəti tamamilə boğa bilmədi. 1930-cu illərdə qurban verilmiş alimlərin qoyduğu elmi baza, onların gizli arxivlərdə qalan və sonradan üzə çıxan cəsarətli tezisləri müasir Azərbaycan elmi üçün kompas rolunu oynadı. Arxeoloji tapıntılar üzərindəki senzura illəri keçdikcə elmin gücü və faktların sarsılmazlığı qarşısında iflasa uğradı. Bu gün biz anlayırıq ki, sələflərimizin canı bahasına müdafiə etdiyi "türk etnogenezi" və "milli dövlətçilik" konsepsiyası sadəcə bir nəzəriyyə deyil, bizim varlığımızın və müstəqilliyimizin ən böyük el-

mi təməlidir. Onların yarımçıq qalmış ömürləri və elmi işləri bu gün xələflər tərəfindən bərpa olunaraq müstəqil Azərbaycanın dövlətçilik ideologiyasının ayrılmaz hissəsinə çevrilmişdir.

Yekun olaraq vurğulanmalıdır ki, türk etnogenezinin və dövlətçilik irsinin öyrənilməsi bu gün Türk dövlətlərinin ortaq gələcəyi və inteqrasiyası üçün ən mühüm mənəvi resursdur. Repressiya olunmuş alimlərin ruhu qarşısında mənəvi borcumuz, onların yarımçıq qalmış milli konsepsiyalarını tamamlayaraq, Azərbaycanın və bütün Türk dünyasının şanlı tarixini həm bugünkü nəslə, həm də dünya elm birliyinə olduğu kimi şərəfli, qədim və sarsılmaz bir sivilizasiya nümunəsi kimi təqdim etməkdir. Bu elmi yol həm də bizim müstəqil dövlətçiliyimizin intellektual zəmanətidir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Bünyadov, Ziya. Qırmızı terror. – Bakı: "Azərnəşr", 1993. – 331 s.
2. Çobanzadə, Bəkir. Seçilmiş əsərləri (5 cilddə). – Bakı: "Şərq-Qərb", 2007. – (I cild: 333 s., II cild: 365 s.)
3. Əliyev, Vəli. Gəmiqaya. – Bakı: "Əbilov, Zeynalov oğulları", 2005. – 148 s.
4. İsmayılov, Eldar. Azərbaycanda “Böyük Terror”un tarix: – Moskva: "Rosspen", 2015. – 339 s.
5. Qasımov, Musa. Azərbaycanın xarici siyasəti (1918-2003). – Bakı: "Mütərcim", 2015. – 648 s.
6. Qumilyov, Lev. Qədim türklər. – Bakı: "Gənclik", 1993. – 375 s.
7. Rəcəbov, Əbülfəz, Məmmədov, Yunis. Orxon-Yenisey abidələri. – Bakı: "Yazıçı", 1993. – 400s.
8. Xəliyəddin, Xəlili. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi. – Bakı: "Elm", 2007. – 383 s.

THE PARADIGM OF REPRESSION IN AZERBAIJANI TURKOLOGY: THE DEFENSE OF NATIONAL IDENTITY AND POLITICAL PRESSURES

Gozal Alizada

The article examines the role of the early 20th-century Azerbaijani school of Turkology in the study of the ethnogenesis and statehood history of Turkic peoples. Main focus is directed toward the national statehood conception developed by "predecessor" scholars based on archaeological facts and material culture samples in the period following the First Turkological Congress of 1926. The research analyzes the significance of archaeological findings (kurgans, tamgas) in the restoration of ethnic history and the blow dealt to this scientific process by the repressions of the 1930s. Finally, the importance of the continuity of the repressed scientific heritage in the modern era and its role in the formation of independent statehood consciousness are substantiated.

Keywords: *Turkology, ethnogenesis, history of statehood, archaeological heritage, repression, national identity.*

I ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAYIN TÜRKOLOGİYA ELMİNİN İNKİŞAFINDA ROLU

Fidan Şahmalıyeva
AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
Elmi işçi, doktorant
sahmaliyevafidan96@gmail.com
https://orcid.org/0009-0007-1171-4999

Məqalədə 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın türk xalqlarının elmi, mədəni və dil birliyi baxımından tarixi əhəmiyyəti ətraflı təhlil edilir. Qurultayda ortaq əlifba, ortaq ədəbi dil və vahid terminologiyanın yaradılması, eləcə də latın əlifbasına keçid üçün elmi əsasların hazırlanması kimi mühüm qərarların qəbul edildiyi vurğulanır. Məqalədə həmçinin Sovet dövründə əlifba siyasətindəki dəyişikliklər izah olunur, latın əlifbasından kiril əlifbasına keçidin siyasi mahiyyəti və türk xalqları arasında mədəni əlaqələrə mənfi təsiri vurğulanır. Həmçinin, müstəqillikdən sonra Azərbaycanda latın əlifbasına qayıdışın başa çatması, milli dilin inkişafına yönəlmiş dövlət siyasəti vurğulanır. Bu prosesdə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu xüsusilə vurğulanır. Eyni zamanda, TÜRKSOY və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təşkilatların fəaliyyəti, eləcə də Ortaq Türk Əlifbasının hazırlanması da daxil olmaqla birgə layihələrin həyata keçirilməsi türk dünyasında inteqrasiyanı gücləndirən mühüm amillər kimi təqdim olunur.

Açar sözlər: *Türkoloji Qurultay, türk dünyası, türkologiya, mədəni inteqrasiya, əlifba islahatları, ortaq türk əlifbası.*

Giriş

1926-cı ildə Bakı şəhərində keçirilmiş I Ümumittifaq Türkoloji Qurultay XX əsrdə türk xalqlarının, eyni zamanda digər xalqların elmi-mədəni həyatında mühüm iz qoymuş əlamətdar hadisələrdən biri kimi tarixə düşmüşdür. Qurultayda keçmiş Sovetlər birliyində yaşayan bütün xalqların tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və ümumilikdə mədəni irsi ilə bağlı mühüm məsələlər müzakirə olunmuş və bir sıra əhəmiyyətli qərarlar qəbul edilmişdir. Xüsusilə, latın qrafikalı əlifbaya keçidin elmi və metodik prinsiplərinin işlənib hazırlanması qurultayın ən böyük nailiyyətlərindən biri hesab olunur. Bununla yanaşı, ortaq əlifba, ortaq ədəbi dil və ortaq terminologiyanın formalaşdırılması ideyası qurultayın əsas istiqamətləri sırasında yer almışdır.

Qurultayın başlıca vəzifələrindən biri ərəb əlifbasından latın əlifbasına keçid idi. İlk latın qrafikalı əlifbaya keçən isə saxa türkləri olmuşdur (Yoloğlu, 2016, s.76). Azərbaycan hələ Sovetlər birliyinin tərkibində olarkən, keçən əsrin 20-ci illərində rəsmi şəkildə latın əlifbasını qəbul etmişdir. Lakin bu proses uzunmüddətli olmadı. 1939-cu ildən 1993-cü ilə qədər Azərbaycanda kiril əlifbasından istifadə olunmuşdur. Çünki, 1930-cu illərin sonlarında SSRİ-də milli siyasətin istiqaməti dəyişdi. Belə ki, İosif Stalinin hakimiyyəti dövründə mərkəzləşmə və ruslaşdırma siyasəti gücləndi. 1939-1940-cı illərdə bütün türk respublikaları, o cümlədən digər xalqlar da latın əlifbasından imtina etməyə və kiril əlifbasını qəbul etməyə məcbur edilmişdir. Bu dəyişiklik rus dilinin dominant rolunu daha da möhkəmləndirmiş, eyni zamanda türk xalqları arasında yazı birliyini pozmuşdur. Kiril əlifbasına keçid sonrakı dövrlərdə siyasi nəzarət vasitəsinə çevrilmişdir. Bu da sovet milli siyasətinin ziddiyyətli və mürəkkəb mahiyyətini açıq şəkildə əks etdirirdi.

Bu proseslərin sonrakı mərhələsində Azərbaycanda türkologiyanın inkişafında Ümumilli lider Heydər Əliyevin rolu xüsusi əhəmiyyət daşıyır. Heydər Əliyev türk xalqlarının təfəkküründə türkoloji fikrin inkişafı istiqamətində mühüm təşəbbüslərlə çıxış etmiş, bu sahədə ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir. Bu istiqamətdə 1993-cü il 12 iyul tarixində yaradılan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY türk xalqlarının mədəni cəhətdən birləşməsində böyük rol oynadı (Feyziyev, 2017, s. 263).

TÜRKSOY təşkilatı türk xalqlarını mədəni cəhətdən birləşdirir və bu xalqların birliyini həyata keçirir. Təşkilatın fəaliyyəti yalnız mədəni irsin qorunması və təbliği ilə deyil, eyni zamanda, türk dünyasında qarşılıqlı əməkdaşlıq və dostluğun möhkəmləndirilməsinə yönəlir. Məhz Heydər Əliyevin göstərdiyi xüsusi diqqət və dəstək nəticəsində TÜRKSOY- un işində Azərbaycanın rolu çox gücləndi. Təşkilatın müxtəlif illərdə keçirilən iclaslarında və mədəni tədbirlərində Ulu Öndərin səsləndirdiyi tarixi çıxışları onun türk dünyasının vahid şəkildə formalaşmasına, türk xalqlarının inteqrasiyasına, bu sayədə türkologiyanın inkişafına böyük önəm verdiyini açıq şəkildə nümayiş etdirir.

Qeyd etmək lazımdır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra kiril əlifbasından latın əlifbasına keçid etdi. Bu iş Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə, 2001-ci ildə tam şəkildə başa çatmışdır. Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli fərmanına uyğun olaraq hər il 1 avqust tarixində Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü qeyd olunur (2).

Ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək, Azərbaycan elminin ən gözəl nümunələrini müasir dövrdə təbliğ etmək üçün Azərbaycan dilində əvvəllər kiril qrafikasında çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən kütləvi şəkildə nəşri həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü ildə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam imzalaması bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edir (1). Bu da Azərbaycan dilinin inkişafına, milli-mədəni irsin qorunmasına və latın qrafikalı əlifbanın cəmiyyətdə tam şəkildə möhkəmlənməsinə mühüm töhfə vermişdir.

Azərbaycan 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra I Türkoloji Qurultaya dövlət səviyyəsində yüksək qiymət verildi. Prezident İlham Əliyevin 5 noyabr 2005-ci il tarixli sərəncamına uyğun olaraq 2006-cı ildə I Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransın keçirilməsi xüsusi yer tutur. Daha sonrakı illərdə də bu ənənə davam etdirilmiş, dövlət başçısının müvafiq fərmanı ilə qurultayın yubileyləri geniş şəkildə qeyd olunmuşdur. Belə ki, 18 fevral 2016-cı ildə I Türkoloji Qurultayın 90 illik yubileyinin, 22 oktyabr 2025-ci ildə isə 100 illik yubileyinin keçirilməsi haqqında sərəncamlar imzalanmışdır.

Qeyd etmək lazımdır ki, Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir dövrdə uğurla həyata keçirilmişdir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra türk dünyası ilə siyasi-iqtisadi və mədəni-ədəbi əlaqələrini genişləndirmişdir. Bu əməkdaşlıq nəticəsində türk xalqları arasında qarşılıqlı inteqrasiya güclənmiş, ortaq dəyərlər əsasında yeni münasibətlər sistemi formalaşmışdır. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində uğurlu nailiyyətlər əldə olunmuşdur. Onlar sırasında 2009-cu ildə Naxçıvan şəhərində keçirilən sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması xüsusi əhəmiyyət daşıyır (Qasımlı, 2021, s. 74). Sonrakı mərhələdə, 2021-ci ildə İstanbul sammitində bu şuranın adı dəyişilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı. Bu dəyişiklik təşkilatın fəaliyyətinin daha geniş miqyas almasına və türk dövlətləri arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoymasına şərait yaratmışdır.

Bundan əlavə, mədəni-ədəbi əlaqələrə dair kifayət qədər işlər görülmüş, bir sıra ortaq layihələr uğurla həyata keçirilmişdir. Belə ki, Türk Dövlətləri Təşkilatı tərəfindən Türk Dünyası Ortaq Əlifba Komissiyası təsis edilmişdir. 2024-cü ilin sentyabr ayında Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən təşkil olunmuş iclasın nəticəsində Türk Dünyası Ortaq Əlifba Komissiyasının 34 hərfdən ibarət Ortaq Türk Əlifbası üzərində ümumi razılıq əldə olunmuşdur (5). Bu əlifbada yer alan hər bir hərf türk dillərində mövcud olan müxtəlif fonemləri əks etdirərək ortaq yazı sisteminin formalaşdırılması istiqamətində mühüm addım hesab olunur. 6-7 oktyabr 2025-ci ildə Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının XII Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd olunması ilə bağlı çağırışın yer alması bu tarixi irsin aktuallığını və Azərbaycanın bu sahədə aparıcı mövqeyini bir daha təsdiqləyir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 12 yanvar 2004. https://e-qanun.az/framework/5427.
2. "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 9 avqust 2001. https://e-qanun.az/framework/2811.
3. Feyziyev, C. Türk Dünyası, [5 kitabda], c.2. – Bakı: Mütərcim, – 2017. 328 s.
4. Qasımlı, M. Azərbaycan Respublikasının Tarixi (1991-2021), [2 cilddə], Bakı: Bakı Dövlət Universiteti, c.2. (2003-2021), – 2021, – 520 s.
5. Türk dünyasının ortaq əlifbası qəbul edilib. // "Azərbaycan Qəzeti". 11 sentyabr 2024. https://www.azerbaijan-news.az/az/posts/detail/turk-dunyasinin-ortaq-elifbasi-qebul-edilib-1726060821.
6. Yoloğlu, Güllü. I Ümumittifaq Türkoloji Qurultayın pərdəarxası məqamları: dünya inqilabı və dünya əlifbası // I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji Elmi-Mədəni Hərəkatda Ortaq Dəyərlər və Yeni Çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları (I hissə), – Bakı: Elm və Təhsil, – 2016. 75-79 s.

THE ROLE OF THE FIRST ALL-UNION TURKOLOGICAL CONGRESS IN THE DEVELOPMENT OF TURKOLOGY AS A SCIENTIFIC DISCIPLINE

Fidan Shahmaliyeva

The article analyzes in detail the historical significance of the First Turkological Congress, held in 1926 in Baku, in terms of the scientific, cultural and linguistic unity of Turkic peoples. It emphasizes that important decisions were adopted at the congress, such as the creation of a common alphabet, a common literary language and unified terminology, as well as the development of scientific foundations for the transition to the Latin-based alphabet. The article also explains the changes in alphabet policy during the Soviet period, highlighting the political nature of the transition from the Latin to the Cyrillic script and its negative impact on cultural ties among Turkic peoples. It further underlines the completion of the return to the Latin alphabet in Azerbaijan after independence, along with state policies aimed at the development of the national language. In this process, the roles of national leader Heydar Aliyev and the President of the Republic of Azerbaijan, Ilham Aliyev are particularly emphasized. At the same time, the activities of international organizations such as TURKSOY and the Organization of Turkic States, as well as the implementation of joint projects including the development of a Common Turkic Alphabet are presented as important factors strengthening integration within the Turkic world.

Keywords: *Turkological Congress, turkic world, turkology, cultural integration, alphabet reforms, common turkic alphabet.*

1926-CI İL BAKI TÜRKOLOJİ QURULTAYI: AKADEMİK GÖRÜNÜŞ VƏ SİYASİ REALLIQ

Lamiyə Orucova
Mingəçevir Dövlət Universteti
Müəllim
lamiya.orucova@mdu.edu.az
https://orcid.org/0009-0002-9886-2209

1926-cı ildə keçirilən Birinci Bakı Türkoloji Qurultayı türk dünyasının elmi və mədəni fəaliyyəti sahəsində unikal bir hadisə idi və Sovet dövlətinin özünəməxsus ikili və ziddiyyətli siyasətini açıq şəkildə nümayiş etdirdi. Qurultay formal olaraq dilçilik, əlifba islahatı və terminoloji vahidlik kimi mövzulara həsr olunmuşdu. Lakin əslində bu addım Sovet rejiminin müsəlman-türk xalqlarını yeni ideoloji çərçivəyə daxil etmək siyasətinin bir hissəsi idi. Əlifba dəyişikliyi savadlılığın artması və mədəni modernləşmə kimi təqdim olunsa da, əslində türk xalqları arasında dini və mədəni ənənələrin zəifləməsinə və Sovet ideoloji məkanının güclənməsinə xidmət etdi.

Arxiv materialları sübut edir ki, qurultayın gedişi, iştirakçıların tərkibi və qəbul ediləcək qərarlar əvvəlcədən mərkəzi hakimiyyət orqanları ilə razılaşdırılıb. Qurultay zamanı fikir mübadiləsinin ciddi nəzarət altında aparılması və sabit bir təşkilatın yaradılmaması elmi təşəbbüsün siyasi göstərişlərlə məhdudlaşdığını təsdiqləyib. Rəsmi ifadədə milliləşdirmə və mədəni tərəqqi ideyaları vurğulansa da, əslində bütün təşəbbüslər mərkəzləşdirilmiş nəzarət çərçivəsində saxlanılıb. Əvvəlcə qurultayın keçirilməsini milli-mədəni fəaliyyət hesab edən Sovet hakimiyyətinin sonradan qurultayda iştirak edən ziyalıların böyük bir hissəsini şiddətli şəkildə təqib etməsi əslində qurultayın görünməyən tərəflərini ortaya qoyub.

Beləliklə, düz yüz il əvvəl Bakıda keçirilən Birinci Türkoloji Qurultay təkcə müsəlman-türk xalqlarını elmi və mədəni fəaliyyət çərçivəsində bir araya gətirməyib, həm də Sovet modernləşməsi ilə nəzarətli milliləşdirmə arasındakı ziddiyyətləri ortaya qoyub. Bu mövzu aktualdır, çünki qurultay Sovet siyasətinin paradoksal reallığını ifşa etməklə gələcək tədqiqatlar üçün yeni perspektivlər yaradır.

Açar sözlər: *Türkoloji Qurultay, latın əlifbası, Sovet milli siyasəti, nəzarətli milliləşmə, repressiya.*

Giriş

XX əsrin birinci yarısı Sovet Rusiyanın yeni siyasi model qurduğu və milli əlaqələri yenidən tənzimləməyə çalışdığı bir mərhələ idi. Bu dövrdə aparılan siyasət xarici görünüşdə xalqların dil və mədəni tərəqqisinə yardımçı olmağı nəzərdə tutsa da, digər bir tərəfdən də onları mərkəzləşdirilmiş ideoloji çərçivədə birləşdirmək məqsədi daşıyırdı. Məhz bu səbəbdən həmin dövrün tarixi şəraitində-1926-cı ildə keçirilmiş Bakı Türkoloji Qurultayı konkret siyasi və mədəni əhəmiyyətə malik idi.

Qurultay görünüşdə akademik müzakirə platforması kimi təqdim edilmiş, diqqət mərkəzində yer alan mövzular dilçilik ilə bağlı məsələlər və əlifba islahatı olmuşdur. Fəqət qurultayın təşkili, iştirakçıların tərkib hissəsi və təsdiqlənən qərarların xarakterindən aydın olur ki, tədbir sadəcə akademik məqsədlərlə məhdudlaşmırdı. O, parallel olaraq Sovet Rusiyanın türk xalqları ilə əlaqələrini yeni təməllər əsasında yenidən qurmaq cəhdinin tərkib hissəsi idi.

Bu məqalədə, qurultay Sovet modernləşmə təşəbbüsünün konkret təzahürü kimi təhlil edilir. Tədqiqatın başlıca məqsədi Birici Türkoloji Qurultayı yalnız elmi toplantı kimi deyil, eyni zamanda milli siyasət, ideoloji nəzarət və siyasi dəyişiklik kontekstində dəyərləndirməkdir.

Birinci Türkoloji Qurultay: Akademik tədbirdən siyasi mexanizmə. 1926-cı ilin 26 fevral- 6 mart tarixləri arasında Bakıda keçirilən Ümumittifaq Türkoloji qurultayı türk xalqlarının tarixində elmi-tədqiqi və praktiki-mədəni tədbir kimi böyük önəmə malik olmaqla bərabər, həmçinin müxtəlif xüsusiyyətlərinə görə ictimai və siyasi baxımdan xüsusi diqqət çəkir. Qurultayın keçirilməsinə şərait yaradan tarixi-mədəni səbəblərlə yanaşı Sovet hökumətinin birbaşa dövlət siyasətinə uyğun olan müəyyən siyasi məqsədləri var idi. Sovet hökumətinin əsasən savadsız, rus dilini bilməyən, eyni zamanda

yeni hakimiyyətə inamsız münasibət bəsləyən türk-müsəlman əhali ilə ünsiyyət qura bilməməsi kimi məsələlər təcili həll tələb edən problemlərdən idi. Bu xalqların bir qisminin qısa vaxt da olsa, milli mədəni inkişaf istiqamətində vacib işlər gördüyünü, həmçinin milli ziyalılar yetişdirdiyini hesaba qatmağa məcbur olan Sovet hakimiyyəti bütün bu xalqları genişmiqyaslı bir ideya və hədəf ətrafında toplamaq üçün yeni əlifba məsələsini aktuallaşdırır.

Digər bir tərəfdən, 1920-ci illərdə Türkiyə, Almaniya və Sovet Rusiya türkoloji elminin mərkəzi olmaq uğrunda ciddi rəqabət içində idilər.1924-cü ildə Türkiyədə Türkiyat Enstitüsü qurulmuş, Fuat Köprülünün də tərkibində olduğu ziyalılar qrupu Türkoloji Qurultay keçirməyi qərarlaşdırmışdı. Almaniya isə hələ 1916-cı ildə Berlində baş tutan "Türk Qövmləri Konqresi"ndən sonra bu istiqamətdə davamlı addımlar atmaq niyyətində idi. Bu rəqabət daxilində Sovet hökuməti türkologiya məsələsində təşəbbüsü nə Türkiyəyə, nə də Almaniyaya vermək istəmirdi. Haqlı olaraq Bakı şəhərində keçiriləcək qurultaya istədiyi kimi yön verə biləcəyini düşünürdü. Sonrakı illərdə yaşanan hadisələr isə göstərdi ki, Moskvanın niyyəti sadəcə elmi müzakirələr deyil, həm də qurultayda iştirak edəcək türkoloqların fikir və məqsədlərini müəyyən etmək, Sovet ideologiyasına qarşı çıxanları üzə çıxarmaq və onları zərərsizləşdirmək idi (Buran, 2009, s. 441). Qurultayın işinə nəzarət edən mərkəzi partiya orqanlarının iclaslarının "tam şəkildə məxfi" qrifi ilə göstərilmiş protokollarından məlum olur ki, bu qurultay qarşısına böyük ölçülü məqsəd və vəzifələr qoymuş, nəticələri isə müzakirələrə baxmayaraq qabaqcadan müəyyən olunmuşdur.

Hələ 1926-cı ilin yanvar ayında Bakıdan AK(b) P MK katibi Ə.Qarayev Moskvaya Stalinə Bakıda Türkoloji Qurultayın keçiriləcəyini və qurultayla bağlı göstəriş gözlədiklərini bildirmişdi. Bundan üç həftə əvvəl isə türklərin birgə fəaliyyətinə qarşı olan, ancaq buna əngəl yaratmaq imkanına malik olmayan AK (b) P MK-nın birinci katibi L. İ. Mirzoyan RK(b) P Rostov vilayət komitəsinin birinci katibi vəzifəsini icra edən, daşnaq A. İvanoviç Mikoyana göndərdiyi məktubda onu qurultayın işində iştirak etməyə çağırırdı (Azərbaycan Milli Arxiv İdarəsi, f. 1, siy. 235, s.v. 253, s. 9).

Ə. Qarayevin məktubuna cavab olaraq gələn yazı da isə qurultayı təşkil etmək üçün xüsusi komissiyanın qurulması və qurulan komissiyanın tərkibi ilə bağlı məlumatların Stalinə verilməsi qeyd edilmişdi. Eyni yazıda qurultay yalnız latın əlifbasına keçidlə bağlı olmalı və latın əlifbasına keçmək haqqında tez qərar qəbul edilməməli, həmçinin qurultaydan sonra daimi fəaliyyət göstərəcək bir orqan yaradılmamalıdır kimi fikirlər də vurğulanmışdı (Azərbaycan Milli Arxiv İdarəsi, f. 1, siy. 235, s.v. 253, s. 59).

İlk iclas, təşkilat komitəsində olan və nümayəndə siyahılarında "az, Türk" olaraq qeyd olunan S. Ağamalıoğlu tərəfindən bir çıxışla açılmışdır. Ağamalıoğlunun çıxışı siyasi yönümlü idi və əsasən Moskvanı razı salmağa, Çar Rusiyasını tənqid etməyə və yeni sistem sayəsində Azərbaycanın tarixdə ilk dəfə öz taleyini müəyyən edə biləcəyini vurğulayaraq mərkəzi qorxutmamağa yönəlmişdi (Türk, 2022, s. 29). Hətta S.Ağamalıoğlu 2 il əvvəl vəfat edən Leninin xatirəsini yad etməyinə baxmayaraq hələ vəfatının ili tamam olmayan, yeni əlifba və qurultay fikrinin himayəçisi Nəriman Nərimanovun adını belə hallandırmadı (Azərbaycan Milli Arxiv İdarəsi, f. 1, siy. 235, s.v. 253, s. 46).

Qurultayda diqqət çəkən məqamlardan biri də Rus və ya Türk mənşəli, demək olar ki, bütün nümayəndələrin "Türk" sözünü işlədərkən bu günkü anlayışdan fərqli olaraq eyni ifadələri seçmələri idi. Bu gün Rus və Qərb Türkologiyasında "Türk" sözü əsasən Türkiyədə yaşayanlar üçün istifadə olunur, digər Türk topluluqları üçün isə boy adları millət səviyyəsində işlədilir. Bu, Çar Rusiyası dövründən başlayan bölüb parçalama siyasətinin Sovet dövründə də davam etdirilməsinin nəticəsidir (Türk, 2022, s. 30).

Digər bir tərəfdən isə Türkiyədən Azərbaycana nümayəndə heyətinin gəlməsi Sovet mühitində ciddi narahatlığa səbəb olmuşdu. Bu narahatlığın başlıca səbəblərindən biri, "türkçülük" hərəkatının Azərbaycanda geniş yayılması ilə bağlı Moskvaya çatdırılan yanlış məlumatlar idi. Sərt anti-türk mövqeyini müdafiə edən kommunist rejim Türkiyə tərəfinin Bakıya nümayəndə heyəti göndərməsinə qarşı çıxmış və Qurultaydan iki ay öncə Türkiyənin fəaliyyətini məhdudlaşdırmağa çalışaraq açıq bolşevik şantajına yönəlmişdi. Belə ki, Türkiyənin Bakıda fəaliyyət göstərən konsulluğunun casusluq etməsi ilə

bağlı fikirlər iddia edilmişdi. 9 dekabr 1925-ci il tarixində bir neçə nəfər həbs edilmiş və nəticədə Moskva tərəfi Türkiyə diplomatlarına qarşı təzyiq göstərməyə nail olmuşdu (Cabrayılov, 2024, s. 137).

Nəticə etibarı ilə 1926-cı ildə keçirilən I Türkoloji Qurultay Sovet hökumətinin "nəzarətli milliləşmə" modelini açıq şəkildə göstərən bir nümunə idi. Qurultayda latın qrafikasına keçidin elmi və ideoloji əsasları müzakirə edilərək təsdiqləndi. Sovet rejimi bu prosesi "dil üzərində modernləşmə" kimi təqdim edirdi. 1929-cu il yanvarın 1-dən latın əlifbasına keçid rəsmiləşdi. Ancaq bu modernləşmə "idarə olunan" xarakter daşıyırdı.1939-cu ildə latın əlifbasının kiril ilə əvəzlənməsi qərarı və bu qərarın 1940-cı il 1 yanvardan rəsmi şəkildə tətbiq olunması bəhs edilən "nəzarətli milliləşmə" moldelinə tam da uyğun bir addım idi (Ergun, 2010, s.149-150).

Ali məclisin qərarına uyğun olaraq, 1927-ci ildə Türkoloji Qurultayın ikincisi Özbəkistanın Səmərqənd şəhərində keçirilməli idi. Lakin bu təşəbbüs dövlət siyasətinin dəyişməsi nəticəsində baş tutmadı. 1930-cu illərin sonlarında isə qurultayın bir çox iştirakçısı pantürkizm, millətçilik, əks-inqilabi işlərdə fəallıq kimi səbəblərlə günahlandırıldı, təqib olundu və güllələndi. Onların arasında qurultayın gedişində fəal olan Bəkir Çobanzadə, Salman Mümtaz, İsidor Baraxov, Hənəfi Zeynallı, Cəlaləddin Qorxmazov, Hikmət Cevdetzadə, Osman Akçökraklı, Əhməd Baytursunov və başqaları var idi (Azerbaijan-News, 2024 28 iyul).

Bu dövrdə müxtəlif ittihamlarla günahlandırılan ziyalılar arasında Ayna Sultanova da yerini almışdır. Qurultay iştirakçıları arasında yeganə qadın olaraq iştirak edən Ayna Sultanova, bir zamanlar məsul vəzifələrdə çalışaraq sovet dövründə fəal mövqedən çıxış etmiş, hətta Lenin partiyasının sədaqətli nümayəndələrindən biri olmuşdur (Orujova, 2024, s. 165). O, uzun illər sovet ideologiyasının təbliği istiqamətində mühüm addımlar atmışdır. Lakin bütün bunlara baxmayaraq, kütləvi repressiyalar zamanı o da "xalq düşməni" damğası ilə ittiham olunaraq, Stalininin siyasi təqiblərinin qurbanına çevrilmişdir.1938-ci ildə güllələnmişdir. Bu fakt Sovet rejimində siyasi sədaqətin belə qanlı repressiyalardan qorunmaq üçün yetərli olmadığını aydın şəkildə göstərir (Kənan, 2011, s. 110-111).

Yekun olaraq, 1939-cu ildə gərçəkləşən əlifba dəyişikliyi ilə qurultayda qəbul edilən qərarların real olaraq rəfə qaldırılması demək idi. Həmçinin, Joseph Stalinin vəfatınadək bu qurultay barədə danışmağa rəsmi olaraq icazə verilməmişdir. Bəzi tədqiqatçılar qurultayı Sovet hökümətinin bir "fantaziyası" olaraq dəyərləndirsələrdə də, Bakı Türkologiya Qurultayı türkoloji düşüncə tarixində barəsində ən çox danışılan görüşlərdən biri olmuşdur.

Nəticə

1926-cı il Birinci Bakı Türkoloji Qurultayı yalnız mədəni-elmi fəaliyyət kimi deyil, həm də Sovet siyasətinin həqiqətini göstərən siyasi və sosial proses kimi qiymətləndirilməlidir. Qurultay, bir tərəfdən türk xalqlarının əlifba, dil və mədəni sahədə inkişaf mövzularına toxunmaqla müasirləşmə prosesinə təkan vermiş, eyni zamanda da bu prosesi ideoloji idarəetmə çərçivəsində həyata keçirmişdir.

Qurultayın təşkili, gedişi və qanlı repressiyalar ilə nəticələnməsi sovet modernləşməsinin paradoksal reallığını aydın şəkildə göstərir. Bu nöqteyi-nəzərdən, qurultay idarə olunan milliləşmə ilə ideoloji mərkəzləşmə arasındakı qarşıdurmanın konkret tarixi nümunəsi idi. O, həm türk xalqlarının elmi və mədəni imkanlarını, həm də Sovet siyasətinin dəstək vermə və təzyiq mexanizmlərini əks etdirir.

Tədqiqatın elmi töhfəsi isə qurultayın təkcə əlifba dəyişikliyi və dilçilik kimi mövzular daxilində deyil, Sovet idarəetmə siyasətinin tərkib hissəsi kimi də təhlil edilməsindədir. Bu araşdırma, hadisəni inkişaf və təqib siyasətləri arasında əlaqəli mərhələ kimi təqdim etməklə Sovet hökümətinin apardığı siyasətin daxili ziddiyyətlərini daha aydın formada anlaşılmasını təmin edir və əvvəlki tədqiqatlara konseptual baxış bucağı əlavə edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Azərbaycan Milli Arxiv idarəsi Siyasi Partiyalar və ictimai hərəkatlar tarixi institutunun arxivi. Fond 1, siyahı 235, saxlama vahid 253, səh. 9.

Azerbaijan-News (2024, 28 iyul). "Birinci Türkoloji Qurultay – türk əsrinin təməl daşı". https://www.azerbaijan-news.az/az/posts/detail/birinci-turkoloji-qurultay-turk-esrinin-temel-dasi-1722125236/332862 Giriş tarixi: 28.04.2026.

Buran, A. (2009). "Sovyet Türkolojisi ve Birinci Türkoloji Kurultayı". Journal of Turkish Studies, 4(3), 430–444. https://doi.org/10.7827/TurkishStudies.689

Cabrayilov, M. (2024). 1920'li ve 1930'lu yıllarda Türkiye Cumhuriyeti'nin Sovyet Azerbaycan-'ına siyasi ve kültürel etkisi (s. 1356-1375). Atatürk Araştırma Merkezi. https://atam.gov.tr/wp-content/uploads/2024/10/Mehemmed-CABRAYILOV.pdf

Ergun, A. (2010). "Azerbaycan'da bir ulusal kimlik meselesi olarak alfabe değişiklikleri", bilig, Sayı 54, (s. 139–160). https://bilig.yesevi.edu.tr/yonetim/icerik/makaleler/2657-published.pdf

Kənan, A. (2011). "XX əsrdə repressiyaya məruz qalanlar". Bakı: Azərnəşr.

Orujova, L. (2024). "Atatürk dönemi Türkiye Cumhuriyeti ve Azerbaycan Sovyet Sosyalist Cumhuriyeti'nde kadınların toplumsal, kültürel ve siyasal hayattaki yeri (1920-1938)". (Yüksek Lisans Tezi, Bursa Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı Türkiye Cumhuriyeti Tarihi Bilim Dalı). Bursa.

Türk, V. (2022). 1926 Bakü TürkolojİKurultayı. Düşünce Dünyasında Türkiz, 3(17), 25-42. https://izlik.org/JA96JD36ZL

THE 1926 BAKU TURKOLOGICAL CONGRESS: ACADEMIC PERSPECTIVES AND POLITICAL REALITY

Lamia Orujova

The First Baku Turkological Congress, which took place in 1926, was a unique event in the field of scientific and cultural activity of the Turkic world, and it clearly demonstrated the peculiar dual and contradictory policy of the Soviet state. The congress was formally dedicated to such topics as linguistics, alphabet reform, and terminological uniformity. However, in fact, this step was part of the Soviet regime's policy of including the Muslim-Turkic peoples into a new ideological framework. The alphabet change was presented as an increase in literacy and cultural modernization, but in reality it served to weaken religious and cultural traditions among the Turkic peoples and strengthen the Soviet ideological space.

Archival materials prove that the course of the congress, the composition of participants and the decisions to be made were agreed upon in advance with the central authorities. The fact that the exchange of ideas during the congress was carried out under strict control and that a stable organization was not created confirmed that the scientific initiative was limited by political instructions. Although the official expression emphasized the ideas of nationalization and cultural progress, in fact all initiatives were kept within the framework of centralized control. The fact that the Soviet authorities, which initially considered the holding of the congress as a national-cultural activity, later severely persecuted a large part of the intellectuals who attended the congress, in fact revealed the invisible sides of the congress.

Thus, the First Turkological Congress, held in Baku exactly one hundred years ago, not only brought together Muslim-Turkic peoples in a framework of scientific and cultural activity, but also revealed the contradictions between Soviet modernization and controlled nationalization. This topic is relevant because the congress, by exposing the paradoxical reality of Soviet policy, creates new prespectives for future research.

Keywords: *Turkological Congress, Latin alphabet, Soviet national policy, controlled nationalization, repression.*

TÜRKLƏRDƏ QURAN ARAŞDIRMALARI: TARİXİ TƏKAMÜL VƏ TƏRCÜMƏ ƏNƏNƏSİ

Günay Amirli
Bakı Dövlət Universiteti
Doktorant
mamedova.ayka666@gmail.com
https://orcid.org/0009-0006-4867-935X

Quran ərəb dilində nazil olduğu üçün tərcümələr adətən "mənaca tərcümə" (meal) adlanır, çünki orijinal mətnin bütün bədii və leksik incəliklərini başqa bir dilə tam olaraq köçürmək mümkün deyil. Tərcümələr müxtəlif dini və ya elmi baxış bucaqlarından irəli gələn fərqli şərh və ifadə üsullarına malik ola bilər. Buna görə də Quranın türk dilinə olunan ilk tərcümələri sətir arası tərcümə texnikası ilə həyata keçirilmişdir. Quranın ilk tərcümələri Qaraxanlı türkcəsinə aid edilir. Qaraxanlı türkcəsi (yaxud Xaqaniyyə türkcəsi) XI-XIII əsrlərdə Orta Asiyada, əsasən Qaraxanlılar dövlətinin ərazisində istifadə olunan və türk dilinin inkişafının mühüm bir mərhələsini təmsil edən türk ədəbi dilidir. Quranın Qaraxanlı türkcəsinə tərcüməsinin araşdırılması türk dil tarixi, ədəbiyyatı və mədəniyyəti üçün böyük əhəmiyyətə malikdir.

Açar sözlər: *Qaraxanlı türkcəsi, Xarəzm türkcəsi, Quran tərcümələri, tərcümə ənənəsi, sətirarası tərcümə*

Giriş

Türklərin İslam dinini qəbul etməsi bir neçə əsrə yayılan uzunmüddətli və mərhələli bir prosesdir. Bu tarixi gedişatı üç əsas mərhələyə ayırmaq olar:

Türklər və müsəlman ərəblər arasında ilk qarşılaşmalar Xilafətin genişlənməsi nəticəsində, xüsusilə Xəlifə Ömər və daha sonra Əməvilər dövründə baş vermişdir. Bu dövrdə Orta Asiya – Türküstan istiqamətində gedən döyüşlər tərəflər arasında gərgin keçmişdir. Lakin bu dövr daha çox siyasi və hərbi qarşıdurma xarakteri daşıyırdı və kütləvi din dəyişməsi baş verməmişdi. Türklərin İslam tarixinə baxışını dəyişən ən mühüm hadisə 751-ci ildə baş vermiş Talas döyüşüdür. Bu döyüşdə türklər, xüsusilə Qarluq boyu Çin imperiyasına qarşı Abbasilərin tərəfində vuruşmuşdur. Qələbədən sonra Çin təhlükəsi aradan qalxmış, türklər və ərəblər arasında ticarət və mədəni əlaqələr inkişaf etməyə başlamışdır. Məhz bu yaxınlaşma İslamın türklər arasında sülh yolu ilə yayılmasına zəmin yaratmışdır. Türklərin İslamı dövlət dini kimi qəbul etməsi X əsrə təsadüf edir. İdil (Volqa) Bolqar dövləti 922-ci ildə rəsmi olaraq İslamı qəbul etmiş, daha sonra isə Satuk Buğra xanın dövründə Qaraxanlılar İslamı rəsmi dövlət dini elan etdilər. Bu, Orta Asiyada ilk böyük müsəlman türk dövlətinin yaranması və İslamın türklər arasında qəti şəkildə möhkəmlənməsi demək idi.

1. Türklər İslamı qəbul etdikdən sonra bu dinə və "Quran" elmlərinə misilsiz xidmətlər göstərmişlər. Bu fəaliyyətlərin ilk mühüm istiqaməti "Quran"ın orijinalda - ərəb dilində öyrənilməsi və əzbərlənməsidir. Bu gedişat zamanla türklər arasında köklü bir hafizlik ənənəsinin yaranmasına və bu müqəddəs irsin bu günə qədər yaşadılaraq hər il yeni hafizlərin yetişdirilməsinə vəsilə olmuşdur.

Türklərin "Quran"a xidmətinin ikinci böyük sahəsi olan xəttatlıq sənəti, İstanbulun bu sahədə dünya mərkəzinə çevrilməsi ilə zirvə nöqtəsinə çatmışdır. Hafizlik ənənəsi kimi, xəttatlıq da nəsildənnəslə ötürülərək bu gün həm beynəlxalq uğurlar, həm də müqəddəs məkanlardakı bənzərsiz estetik naxışlar vasitəsilə Quranın vizual əzəmətini qoruyub yaşadır.

Türklərin "Quran"a xidmətinin əsas sütunlarından biri də onun elmi şəkildə dərk olunmasıdır. Bu məqsədlə geniş mədrəsə şəbəkələri qurulmuş, həm Quranın mənası (təfsir və tərcümə), həm də texniki oxunuşu (qiraət) üzrə zəngin bir ədəbi irs yaradılmışdır. Təqdim olunan çalışma məhz bu elmi fəaliyyətlərin təfsir və tərcümə hissəsinə fokuslanır.

"Qurani-Kərim"in öyrənilməsində və yayılmasında onun şərhinin və tərcümələrinin böyük rolu olmuşdur. Bu səbəbdən də "Quran"ın tərcüməsi və şərhi daim diqqət mərkəzində olmuşdur. Müxtəlif dövrlərdə bu işlə İslam aləminin ən tanınmış alimləri və mütəfəkkirləri məşğul olmuşlar.

Müsəlman alimlər ərəb dilini bilənlərin "Quran"ı daha yaxşı anlaması üçün böyük səylər göstərdikləri kimi, bu dili bilməyənlərin də "Quran"ı dərk etməsi üçün müvafiq təşəbbüslər irəli sürmüşlər.

Belə ki, ilk mükəmməl təfsir olan İbn Cərir ət-Təbərinin əsərinin ortaya çıxmasından qısa müddət sonra "Qurani-Kərim"in bu təfsirin xülasəsi ilə birlikdə fars dilinə tərcümə edildiyini görürük. Samanoğulları hökmdarı Mənsur b. Nuhun (hakimiyyət illəri 961–976) əmri ilə Xorasan və Mavəraünnəhr bölgəsindən olan, daxilində türklərin də yer aldığı bir qrup alim Qurani-Kərimi və adıçəkilən təfsiri fars dilinə çevirmişlər. Ehtimal olunur ki, bu heyətdə yer alan türklər qısa müddət sonra eyni qayda ilə Quranı türk dilinə də köçürmüşlər. Hazırda əlimizdə olan ən qədim türk dili tərcüməsinin böyük ehtimalla məhz belə bir tərcümədən üzü çıxarılan nüsxə olduğu söylənilir. Beləliklə, çox qədim dövrlərdən etibarən Quran təfsir edildiyi kimi, fars və türk dillərinə də tərcümə edilmişdir (Aydar, 1999, s. 165).

"Türk xalqlarının mədəniyyət tarixində din kitablarının bu dilə tərcüməsi fəaliyyəti müxtəlif türk boylarının beynəlmiləl dinlərlə təmas qurduqları dövrlərdə başlamışdır" (İsmayılov, s.1).

2. Türklərin Quranla tanışlığı VIII əsrin əvvəllərində (miladi 703-cü ildən etibarən), Əməvilər dövrünün sərkərdəsi Quteybə b. Müslimin Orta Asiya (Mavəraünnəhr) fəthləri ilə başlamışdır. Bu dövr həm də türklərin müsəlmanlarla ilk genişmiqyaslı qarşılaşma mərhələsidir. Bölgədə İslamın yayılması məqsədilə atılan maraqlı addımlardan biri kimi, 712-ci ildə (hicri 94) Buxarada ucaldılan məsciddə yerli əhalinin namaz surələrini başa düşməsi üçün ibadətin müvəqqəti olaraq fars dilində icra edilməsi qeyd olunur.

Osmanlı, Səlcuqlu və onlardan əvvəlki türk dövlətlərində ərəb dili əsas təhsil və elm dili olduğu üçün Quran üzərindəki araşdırmalar da əksərən bu dildə aparılmışdır. Bu ənənənin ən mühüm nəticəsi kimi, bütün İslam dünyasında tanınan türk mənşəli müfəssirlər yetişmişdir. Türklər Quranı ərəb dilində yüksək səviyyədə şərh etdikləri halda, Cümhuriyyət dövrünə qədər ana dilinə tərcümə məsələsinə eyni dərəcədə önəm verməmişlər. Bu dövrə qədərki türkcə tərcümələrin sayı məhduddur (təxminən 10 əsas nüsxə), onların çoxu orijinal olmayıb bir-birindən köçürülmüşdür və əksəriyyətinin təməl mənbəyi Türk və İslam Əsərləri Muzeyindəki 73 nömrəli nüsxədir.

XV əsrin ilk yarısında türkcə Quran tərcümələri sahəsində ciddi canlanma müşahidə olunur. Bu dövrün ən orijinal nüsxəsi kimi 1423-cü ildə tamamlanmış, sətirarası metodla hazırlanan Məhəmməd ibn Həmzə (Molla Fənari) tərcüməsi qəbul edilir. Eyni dövrdə İsfəndiyar bəyin oğlu İbrahimin təhsili üçün hazırlanan "Cəvahirül-Əsdaf" və müəllifinin türk-hənəfi kimliyinə görə seçilən Əbul-Leys əs-Səmərqəndi təfsirinin türkcə versiyaları (İbn Ərəbşah və Musa əl-İzniki tərəfindən) geniş yayılmışdır. Bu tərcümələrin əsas xüsusiyyəti Quranın hər bir kəlməsinin altına türkcə qarşılığının yazılmasıdır ki, bu da dilçilik baxımından o dövrün leksik zənginliyini qoruyub saxlamışdır.

XVII əsr tərcümə tarixində xüsusi çəkisi olan əsərlərdən biri də "Zübdə-i Asar-ı Məvahib vəl-Ənvar" adını daşıyan təfsir-tərcümədir. Əsərin müqəddiməsində müəllifin Bağdadda vaizlik edən Əhməd Saleh ibn Abdullah olduğu qeyd edilir. Tərcümənin yaranma tarixi maraqlı bir sifarişlə bağlıdır: müəllif əvvəlcə Vəzir İbrahim paşanın istəyi ilə Yaqub-u Çərinin təfsiri əsasında "Ammə" və "Təbarəkə" cüzlərini türkcəyə çevirmişdir. Vəzir tərəfindən böyük rəğbətlə qarşılanan bu ilkin işdən sonra müəllifə Quranın tam tərcüməsini hazırlamaq tapşırılmışdır.

Əhməd Saleh bu məsuliyyətli vəzifəni yerinə yetirmək üçün bir il ərzində "Ənvarut-Tənzil", "Məvahibül-Aliyyə", "Məvahibül-Lüdunniyyə" və "Məabüt-Tənzil" kimi mötəbər qaynaqları, habelə onlara yazılmış haşiyələri dərindən araşdırmışdır. Əsərin adı da məhz yararlanılan əsas mənbələrin – Qazi Beydavinin "Ənvarut-Tənzil"i ilə Hüseyn Kaşifinin "Məvahibül-Aliyyə"sinin adlarının birləşməsindən (Zübdə-i Asaril-Məvahib vəl-Ənvar) yaranmışdır.

1684-cü ildə tamamlanan bu fundamental əsərin əlyazma nüsxələri bu gün İstanbul Universiteti Kitabxanası başda olmaqla, bir çox mühüm fondlarda qorunub saxlanılır. Əsər həm də tarixi nəşr baxı-

mından əhəmiyyətlidir; belə ki, 1875-ci ildə (hicri 1292) daşbasma (litoqrafiya) üsulu ilə çap edilərək daha geniş oxucu kütləsinə çatdırılmışdır.

Bundan təxminən iki əsr əvvəl meydana gətirilmiş bir tərcümə də "Aynül-Həyat" adını daşıyır. Əsərin istinsah (köçürülmə) tarixi 1459-cu ildir. Əziz Mahmud Hüdayi Kitabxanasında bu əsərin üçüncü cildinin bir nüsxəsi vardır və o, Kəhf surəsinin ortasından başlayır.

"Aynül-Həyat" nüsxəsinin əvvəlində onun "Təfsir-i Aynül-Həyat"ın üçüncü cildi olduğu qeyd edilmişdir. Tərcümədə ayələr sözlərə ayrılmış və daha çox sözbəsöz (ləfzi) tərcümə metodu tətbiq olunmuşdur. Cildin sonundakı qeydə görə, müstənsix (köçürən) Məhəmməd ibn Həsən Əknafidir. Katib Çələbi isə ("Kəşfüz-Zünun" əsərində) yalnız Nəcməddin-i Raziyə aid olan "Aynül-Həyat fi Təfsiri Nəcmüddin-i Razi" adlı əsərdən bəhs edir; bu əsərin türkcə versiyasına dair isə hər hansı bir qeyd yoxdur.

Bundan sonra meydana gətirilən tərcümələr də, adətən, ərəb və ya fars dillərindəki təfsirlərin türk dilinə köçürülməsindən ibarətdir.

Tənzimatdan sonra, xüsusilə Qərbi təqlid etməklə bir çox sahədə inkişaf və dəyişikliklər baş verdiyi kimi, başda "Quran" və onun təfsirləri olmaqla dini əsərlərin ana dilinə tərcüməsi işində də mühüm irəliləyişlər olmuşdur. Bu dəyişikliyin nəticəsi olaraq, Tənzimatın elanından cəmi iki il sonra, daha əvvəl bəhs etdiyimiz "Təfsir-i Tibyan" Qahirədə çap edilir. Əsər 4 cild halında 1841–1842-ci illərdə basılır. O dövrün siyasi və sosial inkişafına paralel olaraq, bu tərcümənin tədricən xalq tərəfindən maraq və rəğbət gördüyü anlaşılır.

Bu marağa görə, təxminən 20 il sonra İsmayıl Fərruhun "Təfsir-i Məvaqib" adlı tərcüməsi nəşr olunur. 1875–1877-ci illər arasında isə əvvəlcə Əhməd Saleh ibn Abdullahın "Zübdətül-Asaril-Məvahib vəl-Ənvar" adlı tərcüməsi, ardınca isə elə həmin ildə Məhəmməd Xayruddin Xan Hindi Heydərabadinin "Kitabüt-Təfsiril-Cəmali alət-Tənzilil-Cəlali" adlı tərcüməsi çap edilir. Bunlardan birincisi 2 cild halında İstanbulda, ikincisi isə 4 cild halında Qahirədə basılır. Bu əsərlərin hamısı daha əvvəlki dövrlərdə hazırlanmış tərcümələrdir.

XIX əsrin ikinci yarısında türkcə Quran tədqiqatları bütöv tərcümələrdən daha çox, konkret surələrin təfsirli tərcümələrinə yönəlmişdir. Bu dövrdə Osman Nəcati (1871) və Mirzə Məhəmməd Şəfi (1873) kimi müəlliflərin çalışmaları ilə yanaşı, Sırrı Paşa Giridinin fəaliyyəti xüsusilə diqqət çəkir. O, Furqan, İnsan, Yusif və Məryəm kimi mühüm surələri müstəqil kitablar halında təfsir edərək nəşr etdirmişdir. Bu əsərlər Quranın xalq tərəfindən daha rahat başa düşülməsinə xidmət edən "təfsiri tərcümə" nümunələridir.

Dərhal qeyd edək ki, bu tərcümələrin hamısı təfsiri tərzdədir. Hələ bu dövrdə bildiyimiz mənada "məal" (qısa məna tərcüməsi) tərzində tərcümələr ortaya çıxmamışdı. Bu dövrdə "Quran" tərcümələrinin bu şəkildə ard-arda zühur etməsində Qərbi təqlid qədər, hətta bəlkə də ondan daha çox millətçilik cərəyanının təsiri olmuşdur.

1908-ci ildə II Məşrutiyyətin elanına qədər "Qurani-Kərim"in tərcüməsi XX əsrin ilk illərində rəsmi yanaşma (senzura) səbəbindən Osmanlıda yeni tərcümələr yaranmır. Yalnız "Tibyan" və "Məvaqib" təfsirləri bir neçə dəfə yenidən nəşr olunur. Buna qarşılıq, həmin dövrdə Kazan, Bakı, Orenburq, Tiflis kimi digər türk məmləkətlərində Quranın təfsir və tərcüməsi istiqamətindəki fəaliyyətlər sürətlə davam edir.

Bu dövrdə ortaya çıxan tərcümələrdən bəziləri bunlardır:

Anonim: "Kəlam-i Şərif Təfsiri" (2 cild, tatarca).

"Təfsir-i Fəvaid" (Kazan, 1900; 4 cild, tatarca).

Anonim: "Yasın surəsi" (Kazan, 1903).

Nüman b. Əmir b. Osman: "Təfsir-i Nümani" (Orenburq, 1907; tatarca).

İbn əl-Əsədullah əl-Hamidi: "əl-İtqan fi Tərcəmətil-Quran" (Kazan, 1907-1911; tatarca).

Mir Məhəmməd Kərim Mir Cəfər əl-Ələvi: "Kitab-ı Kəşfül-Həqayiq" (Bakı, 1908; əsər azərbaycancadır).

Məhəmməd Həsən Mövlazadə Şəkəvi: "Kitabül-Bəyan fi Təfsiril-Quran" (Tiflis, 1908; əsər azərbaycancadır).

Anonim: "Təhsilül-Bəyan fi Təfsiril-Quran" (Kazan, 1910; tatarca).

"Qurani-Kərim Mütərcim və Muhəşşa" (özbəkcə).

Əhməd Fərid Abbasi: "Sirat-ı Müstəqim" (tatarca, Lahorda çap edilmişdir).

Musa Bigiyevin (Bəkeyoğlu) də 1912-ci ildə Qurani-Kərimi qazax dilinə çevirdiyi qeyd olunur (bəzi qaynaqlar əsərin tatarca olduğunu bildirir).

"Quranın günümüzə qədər gəlib çatan ilk Azərbaycanca tərcüməsi və təfsiri Bakı qazısı Məhəmməd Kərim Ağanın "Kəşfül-həqayiq an nükətil-ayati vəd-dəqaiq" adlı əsəridir. Üç cilddən ibarət olan bu əsər, "Kaspi" qəzetinin Buxariyyə mətbəəsində çap edilmişdir. Birinci və ikinci cildi 1904 cü ildə, üçüncü cild isə 1906-cı ildə nəşr olunmuşdur" (İsmayılov, s.2).

Bu bölgələrdəki tərcümə hərəkatı II Məşrutiyyətin elanı ilə osmanlılar arasında da sürətlə yayıldı. Qısa müddət ərzində bir çox təfsir və tərcümələr meydana gəldi.

Bu şəraitdə 1908-ci ildə "Tafsilül-Bəyan" adında bir tərcümə nəşr olundu. Tərcüməni hazırlayan Süleyman Tofiq əl-Hüseyni 1897-ci ildən bəri hər kəsin anlayacağı tərzdə bir təfsir üzərində işlədiyini, lakin 1907-ci ildə bitirdiyi əsərin çapına dövrün Şeyxülislamı Cəmaləddin Əfəndinin icazə vermədiyini bildirir.

Bundan sonra Əhməd Cövdət Paşa "Qisəs-i Ənbiya və Təvarix-i Xüləfa" əsəri daxilində Yusif surəsini tərcümə edərək, Təmyiz Məhkəməsinin üzvü Bərəkətzadə İsmayıl Haqqı "Ənvarul-Quran" (İstanbul, 1913-1915) əsəri ilə, sabiq Şeyxülislam Musa Kazım Əfəndi isə "Safvətül-Bəyan fi Təfsiri'l-Quran" (İstanbul, 1919) adlı təfsiri ilə bu hərəkata dəstək vermişlər. Bu iki şəxsiyyətin təfsirlərinin yalnız beş forması (dəftəri) yayımlana bilmişdir. Bunlardan başqa, İsmayıl Ankaravinin "Fatihə surəsi / Fütuhat-ı Ayniyyə" (1910), Məhəmməd Əsəd Ərbilinin "Fatihə surəsi" (1911), Manastırlı Davud Paşanın "Din-i İslam Hədiyyəsi" (1911) və Məhəmməd Xeyrinin "Yunus surəsi" (1913) kimi çalışmaları da bu dövrdə basılmışdır. Konyalı Məhəmməd Əfəndi də "Xülasətü'l-Bəyan" adlı təfsirini bu dövrdə yazmış, lakin bir qədər sonra (1924-1926) çap etdirmişdir.

Bu dövrdə təfsiri şəkildə hazırlanan Quran tərcümələri ilə yanaşı, şərhlərsiz, sadəcə mətn tərcümələrindən ibarət işlərə də rast gəlinir. Məsələn, giritli (Grit adasından olan), lakin kimliyi bəlli olmayan bir şəxsin fransız dilindən etdiyi natamam tərcümə belədir. "Kütübhane-i İslam"ın sahibi Tüccarzadə İbrahim Hilmi tərəfindən Birinci Dünya Müharibəsinin əvvəllərində nəşr edilən "Qurani-Kərimin Tərcümə və Təfsiri" adlı əsər də belədir və sadəcə türkcə mətndən ibarətdir. İbrahim Hilmi bu tərcüməni bir elmi heyətə hazırlatdığını desə də, əslində tərcüməni Zəki Meqamiz adında suriyalı bir xristian etmişdir.

Bu arada, 1910-cu ildə Abraham adında iranlı bir erməni missioneri Bolqarıstanın Varna şəhərində İncillə birlikdə türkcə bir Quran tərcüməsi nəşr edir. Bu əsərin bir səhifəsində türkcə Quran tərcüməsi, digər səhifəsində isə İncilin türkcə tərcüməsi yer alırdı.

II Məşrutiyyətin elanı ilə təfsir və tərcümə hərəkatı böyük bir sürət qazandıqda və səlahiyyətli-səlahiyyətsiz bir çox şəxs "Quran"ı təfsir və tərcümə etməyə başladıqda, yavaş-yavaş bu mübahisələr zühur etməyə başladı.

Türkiyədə Cümhuriyyətin elanı ərəfəsində "Qurani-Kərim"in tərcüməsi istiqamətindəki fəaliyyətlər yeni bir vüsət almışdı. Bu dövrdə klassik təfsirli tərcümələr yenidən nəşr olunmaqla yanaşı, yeni təşəbbüslər də diqqəti cəlb edirdi. Bu qəbildən olan işlərdən biri də suriyalı xristian mütəfəkkir, Corci Zeydanın "İslam mədəniyyəti tarixi" əsərini türkcəyə qazandıran Zəki Meqamizə məxsusdur. Meqamizin tərcümə fəaliyyəti əslində daha erkən dövrə – 1914-cü ilə təsadüf edirdi və həmin vaxt əsərin yalnız beş cüzü işıq üzü görmüşdü. Lakin Cümhuriyyətin qurulması prosesində bu tərcümənin bütöv halda nəşr edilməsi yenidən gündəmə gətirilmişdi (Meqamiz, 1914/1923).

Lakin tərcümədə buraxılan səhvlərə görə Daxiliyyə Vəkalətinin dəstəyi ilə bu tərcümənin çapını və yayılmasını qadağan edir.

Dövrün mühüm dini islahatçı mütəfəkkirlərindən olan Musa Carullah Bigiyev də 1923-cü ildə özünün Quran tərcüməsi ilə bağlı Türkiyə Böyük Millət Məclisinə (TBMM) müraciət etmişdir. O, bu tərcümənin Məclisin nüfuzu şərəfinə rəsmi şəkildə nəşr olunmasını təklif edərək, TBMM üçün xüsusi olaraq 'Münacat' adlı bir kitabça hazırlamışdır. Bigiyev bu əsərində Quranın hər kəs tərəfindən anlaşılan sadə bir türk dili ilə tərcümə olunduğunu vurğulasa da, həmin dövrün siyasi və dini şərtləri daxilində onun müraciəti müsbət cavablandırılmamış və tərcümənin yayımı reallaşmamışdır.

Həmin dövrün əhəmiyyətli tapıntılarından biri də səfirlik imamı Haşim Vəli tərəfindən aşkar edilmişdir. O, Üsküdar Hüdayi Dərgahı kitabxanası və İskələ məscidində apardığı araşdırmalar zamanı Qanuni Sultan Süleyman dövrünə aid nadir bir türkcə Quran tərcüməsi nüsxəsini üzə çıxarmışdır. Haşim Vəli bu tarixi əsərin linqvistik və metodoloji əhəmiyyətini nümayiş etdirmək məqsədilə, onun Duha surəsindən Nas surəsinə qədər olan hissəsini 26 sentyabr 1923-cü ildə "Qurani-Kərim"in tərcüməsindən bir nümunə" adı altında İstanbulda nəşr etdirmişdir. Klassik sətirarası tərcümə üslubunda hazırlanan bu nüsxə, XVI əsrin rəsmi dilindən fərqli olaraq, olduqca sadə, xalqın rahatlıqla anlaya biləcəyi axıcı bir türkcəyə malik olması ilə diqqət çəkir (Vəli, 1923).

Bütün bunlar baş verərkən, Türkiyə Böyük Millət Məclisi tarixi bir qərar verərək səltənətə son qoyur və Cümhuriyyəti elan edir. Artıq yeni bir dövr başlamışdır. Əslində, 1920-ci illərdən bəri faktiki olaraq mövcud olan idarəetmənin adı rəsmən də təsdiqlənir və dövlətin adı Türkiyə Cümhuriyyəti olur.

Nəticə

Türklərin Quranla olan minillik münasibətlərinin tədqiqi göstərir ki, bu müvafiq sürəc sadəcə dini bir inancın qəbulu deyil, həm də nəhəng bir mədəniyyət və elm tarixinin formalaşmasıdır. VIII əsrdə Orta Asiyada hərbi qarşılaşmalarla başlayan bu təmas, zamanla türklərin Quranı həm orijinal dilində qoruyub yaşadan (hafizlik, xəttatlıq), həm də ana dilində şərh edən əsas amilə çevrilmişdir.

Xülasə. Quran ərəb dilində nazil olduğu üçün tərcümələr adətən "mənaca tərcümə" (meal) adlanır, çünki orijinal mətnin bütün bədii və leksik incəliklərini başqa bir dilə tam olaraq köçürmək mümkün deyil. Tərcümələr müxtəlif dini və ya elmi baxış bucaqlarından irəli gələn fərqli şərh və ifadə üsullarına malik ola bilər. Buna görə də Quranın türk dilinə olunan ilk tərcümələri sətir arası tərcümə texnikası ilə həyata keçirilmişdir. Quranın ilk tərcümələri Qaraxanlı türkcəsinə aid edilir. Qaraxanlı türkcəsi (yaxud Xaqaniyə türkcəsi) XI-XIII əsrlərdə Orta Asiyada, əsasən Qaraxanlılar dövlətinin ərazisində istifadə olunan və türk dilinin inkişafının mühüm bir mərhələsini təmsil edən türk ədəbi dilidir. Quranın Qaraxanlı türkcəsinə tərcüməsinin araşdırılması türk dil tarixi, ədəbiyyatı və mədəniyyəti üçün böyük əhəmiyyətə malikdir.

Summary. Since the Qur'an was revealed in Arabic, its translations into other languages are generally referred to as "interpretive translations" (tafsir-based renderings or meanings), as it is not possible to fully convey the original text's linguistic, stylistic, and rhetorical subtleties in another language. Translations may therefore differ depending on the translator's religious, intellectual, or methodological perspective, leading to variations in interpretation and expression. For this reason, the earliest translations of the Qur'an into Turkic languages were produced using an interlinear (word-for-word or line-by-line) translation technique. The first known translations are associated with Karakhanid Turkish. Karakhanid Turkish (also known as Khāqānī Turkish) was a literary language used in Central Asia between the 11th and 13th centuries, primarily within the territory of the Karakhanid state, and represents an important stage in the historical development of Turkic languages. The study of Qur'anic translations into Karakhanid Turkish is of great significance for the history, literature, and cultural heritage of the Turkic world.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Aydar, H. (1999). Türklerde Kur'an çalışmaları. İstanbul Üniversitesi İlahiyat Fakültesi Dergisi, (1), 161–235. https://isamveri.org/pdfdrg/D02370/1999_1/1999_1_AYDARH.pdf
2. İhsanoğlu, E. (Red.). (1986). Dünyada Kur'an-ı Kerim tercümeleri biblioğrafyası (Yazma ve basmalar). IRCICA.
3. İnan, A. (1961). Kur'an-ı Kerim'in Türkçe tercümeleri üzerine inceleme. Diyanet İşleri Başkanlığı Yayınları.
4. Katib Çələbi. (2017). Keşfü'z-zünûn an esâmi'l-kütüb ve'l-fünûn (Ş. Yaltkaya & R. Bilge, Red.; 3. nəşr). Türk Tarih Kurumu. (Orijinal əsər təxminən 1657-ci ildə tamamlanmışdır).
5. Topaloğlu, A. (1983). Kur'an-ı Kerim'in ilk Türkçe tercümeleri ve Cevahirü'l-Asdaf. Türk Dünyası Araştırmaları, (27).
6. Vəli, H. (1923). Kur'an-ı Kerim'in tercümesinden bir numune. İstanbul: Necm-i İstikbal Matbaası.
7. Meqamiz, Z. (1923). Kur'an-ı Kerim tercüme ve tefsiri. İstanbul:

QUR'AN STUDIES AMONG THE TURKISH PEOPLE: HISTORICAL EVOLUTION AND TRANSLATION TRADITION

Gunay Amirli

Since the Qur'an was revealed in Arabic, its translations into other languages are generally referred to as "interpretive translations" (tafsir-based meanings), as it is not possible to fully convey the original text's linguistic, stylistic, and rhetorical subtleties in another language. Translations may therefore differ depending on the translator's religious, intellectual, or methodological perspective, leading to variations in interpretation and expression. For this reason, the earliest translations of the Qur'an into Turkic languages were produced using an interlinear translation technique. The first known translations are associated with Karakhanid Turkish. Karakhanid Turkish (also known as Khaqani Turkish) was a literary language used in Central Asia between the 11th and 13th centuries, primarily within the territory of the Karakhanid state, and represents an important stage in the historical development of Turkic languages. The study of Qur'anic translations into Karakhanid Turkish is of great significance for the history, literature, and cultural heritage of the Turkic world.

Keywords: *Karakhanid Turkish, Khorezmian Turkish, Quran translations, translation tradition, interlinear translation*

NƏRGİZTƏPƏDƏKİ TÜRK-AVŞAR QƏBİRİSTANLIĞI: QARABAĞIN OĞUZ-TÜRK MƏDƏNİ İRSİNİN ARXEOLOJİ VƏ ETNOQRAFİK GÖSTƏRİCİLƏRİ

Gülanə Əliyeva
AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu
Tarix üzrə fəlsəfə doktoru
Aparıcı elmi işçi
gulanahuseynova@gmail.com
https://orcid.org/0000-0001-5428-4246

Məqalədə Qarabağın Xocavənd bölgəsində yerləşən Nərgiztəpə arxeoloji kompleksində aşkar edilmiş orta əsr türk-avşar qəbiristanlığı araşdırılır. Arxeoloji müşahidələrə, epiqrafik materiallara və etnoqrafik məlumatlara əsaslanaraq, tədqiqatda qəbiristanlıq bölgədə oğuz-türk tayfalarının tarixi mövcudluğunun mühüm göstəricisi kimi təhlil edilir. Qəbiristanlıqda qeydə alınan 300-dən çox məzarda daş sandıqlar, oyma simvollar, yay-ox motivləri və türk mədəni ənənələrini əks etdirən ərəb əlifbası ilə yazılmış epitafiyalar var. Məqalədə həmçinin yerli toponimlər, "Kitabi-Dədə Qorqud" dastanı ilə əlaqəli şifahi ənənələr və Mil-Qarabağ bölgəsində avşar tayfalarının məskunlaşma tarixi arasındakı əlaqə müzakirə olunur. Materiallar göstərir ki, Nərgiztəpə və onun ətrafı Qarabağın orta əsr türk mədəni mənzərəsi ilə bağlı dəyərli arxeoloji dəlilləri qoruyub saxlayır.

Açar sözlər: *Nərgiztəpə, Avşar qəbiristanlığı, Qarabağ, Oğuz türkləri, qəbirüstü daşlar, etnoqrafiya, türkologiya*

Giriş

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının dili, tarixi, mədəniyyəti və etnogenezi ilə bağlı tədqiqatların inkişafında mühüm mərhələ olmuşdur. Müasir dövrdə türkologiyanın aktual istiqamətlərindən biri də türk xalqlarının maddi-mədəni irsinin arxeoloji və etnoqrafik baxımdan araşdırılmasıdır. Qarabağ bölgəsi qədim və orta əsrlər boyu türk tayfalarının məskunlaşdığı mühüm areallardan biri kimi bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Qarabağın Xocavənd rayonu ərazisində yerləşən Nərgiztəpə abidələr kompleksi son illərdə aparılan tədqiqatlar nəticəsində bölgənin qədim yaşayış və dəfn ənənələrinin öyrənilməsi üçün mühüm elmi mənbəyə çevrilmişdir. Kompleksin cənub ətəyində yerləşən və yerli əhali tərəfindən "Avşar qəbiristanlığı" adlandırılan orta əsr məzarlığı Qarabağın türk-oğuz irsini əks etdirən nadir abidələrdən biridir.

Məqalənin məqsədi Nərgiztəpədəki türk-avşar qəbiristanlığının arxeoloji xüsusiyyətlərini, epiqrafik materiallarını və etnoqrafik göstəricilərini təhlil etməklə onun Qarabağın türk mədəni mühitində tutduğu yeri müəyyənləşdirməkdir.

Nərgiztəpə və onun tarixi-coğrafi mövqeyi

Nərgiztəpə Qarabağ silsiləsinin dağətəyi zonasında, Mil düzü ilə təmas sahəsində yerləşir. Abidə Hunaşen çayının yaxınlığında strateji mövqedə yerləşərək qədim yaşayış məskəni funksiyası daşımışdır. Burada aparılmış arxeoloji tədqiqatlar nəticəsində Orta Tunc dövründən başlayaraq orta əsrlərə qədər uzanan çoxqatlı mədəni təbəqələr aşkar edilmişdir (Əliyev, İbrahimli & Əliyeva, 2017).

Abidənin ətrafında yerləşən nekropollar, müdafiə tikililəri və orta əsr qəbiristanlığı burada uzunmüddətli məskunlaşmanın mövcudluğunu göstərir. Nərgiztəpənin yaxınlığında yerləşən Qaraçuğ dağı, Böyük Oxlu və Kiçik Oxlu kimi toponimlər bölgənin oğuz-türk etnik mühiti ilə bağlılığını təsdiqləyən mühüm göstəricilərdir.

Türk-avşar qəbiristanlığının ümumi xüsusiyyətləri

Nərgiztəpənin cənub ətəyində yerləşən orta əsr qəbiristanlığında aparılan ilkin qeydəalma işləri zamanı təxminən 150×70 metr sahədə 300-dən artıq qəbir müəyyən edilmişdir (Əliyev və b., 2017). Qəbirlər arasında sənduqə formalı qəbirüstü daşlar, dik daşlar və müxtəlif işarə-damğalarla bəzədilmiş nümunələr üstünlük təşkil edir.

Qəbirüstü abidələrin bir hissəsində ox və yay təsvirləri diqqəti cəlb edir. Türk xalqlarının maddi mədəniyyətində yay və ox motivi qədim dövrlərdən hakimiyyət, igidlik və tayfa mənsubiyyəti rəmzi kimi istifadə olunmuşdur. Oğuz tayfalarının damğa sistemində də ox işarəsi mühüm yer tutmuşdur. Bu baxımdan qəbirüstü daşlardakı təsvirlər bölgənin oğuz-türk ənənələri ilə bağlılığını əks etdirir.

Qəbiristanlıqda rast gəlinən bəzi daşlarda deşik açılması və relyef naxışların işlənməsi Qarabağın digər orta əsr türk qəbiristanlıqları ilə oxşarlıq təşkil edir. Oxşar xüsusiyyətlərə Beyləqan, Gəncə-Qazax və Naxçıvan bölgələrinin orta əsr qəbirüstü abidələrində də rast gəlinir.

Epiqrafik materiallar və tarixi məlumatlar

Qəbiristanlıqda aşkar olunmuş sənduqələrdən birinin üzərində ərəb qrafikası ilə yazılmış epiqrafik mətn xüsusi maraq doğurur. Yazının oxunması nəticəsində burada "Əhməd oğlu Hüseyn bəy" adı və hicri 701-ci il (miladi 1302-ci il) tarixi müəyyən edilmişdir (Əliyev və b., 2017). Bu fakt Nərgiztəpə qəbiristanlığının ən azı XIII-XIV əsrlərdə fəaliyyət göstərdiyini göstərir.

Həmin dövr Azərbaycan tarixində Elxanilər hakimiyyəti ilə səciyyələnir. Buna baxmayaraq, bölgədə oğuz mənşəli türk tayfalarının, xüsusilə avşarların məskunlaşması davam etmişdir. Sonrakı əsrlərdə Qarabağda avşar tayfalarının mühüm rol oynadığı məlumdur. Tarixi mənbələrdə onların Mil-Qarabağ bölgəsində iri maldarlıq təsərrüfatlarına sahib olduqları qeyd edilir.

Qəbirüstü daşlarda müşahidə olunan damğa və işarələr türk tayfa simvolikasının öyrənilməsi baxımından da əhəmiyyətlidir. Türk xalqlarında damğalar yalnız mülkiyyət nişanı deyil, həm də tayfa kimliyini göstərən sosial-mədəni göstərici olmuşdur.

"Kitabi-Dədə Qorqud" ənənəsi və lokal yaddaş

Nərgiztəpə qəbiristanlığı ilə bağlı maraqlı xüsusiyyətlərdən biri də yerli əhali arasında "Kitabi-Dədə Qorqud" dastanı ilə əlaqəli rəvayətlərin yaşanmasıdır. Qəbiristanlıqdakı qəbirlərdən biri xalq arasında dastanın qəhrəmanlarından Qaraca Çobana aid edilir. Ətraf ərazilərdə səpələnmiş iri daşlar isə "Qaraca Çobanın sapand daşları" kimi tanınır.

Bu rəvayətlər bölgədə oğuz epik ənənəsinin uzun müddət yaşadığını göstərir. "Kitabi-Dədə Qorqud" dastanında Qazan xanın "Qaraçuğun qaplanı" adlandırılması və Nərgiztəpə yaxınlığında Qaraçuğ adlı dağın mövcudluğu epik coğrafiyanın real toponimlərlə bağlılığını göstərən mühüm faktorlardandır.

Türkoloji folklorşünaslıq baxımından bu cür lokal yaddaş nümunələri yalnız şifahi ənənənin deyil, həm də etnik-mədəni kontinuitetin göstəricisi kimi dəyərləndirilə bilər.

Toponimlər və oğuz-türk izləri

Nərgiztəpə ətrafındakı toponimlər bölgənin qədim türk etnik mühiti haqqında mühüm məlumat verir. Qaraçuğ, Oxlu, Hunaşen kimi adlar türk mənşəli leksik elementlərlə bağlıdır. Xüsusilə Hunaşen hidronimi hun türklərinin adı ilə əlaqələndirilir.

1727-ci ilə aid "Dəftəri-müfəssəl əyaləti Gəncə" sənədində Qaraçuğ kəndinin adı qeyd olunur. Bu fakt bölgədə türk mənşəli əhalinin davamlı yaşayışını təsdiqləyir. Eyni zamanda Nərgiztəpə ətrafında XI-XIII əsrlərə aid Səlcuq və Eldənizlər dövrünün mis sikkələrinin tapılması burada türk siyasi hakimiyyətinin izlərini göstərir.

Toponimika və arxeoloji materialların müqayisəli təhlili Qarabağın bu hissəsinin orta əsrlərdə oğuz-avşar tayfalarının intensiv məskunlaşma arealı olduğunu göstərir.

Nəticə

Nərgiztəpədə yerləşən türk-avşar qəbiristanlığı Qarabağın orta əsr türk mədəni irsinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyətə malikdir. Qəbirüstü daşlar, damğalar, ox-yay təsvirləri, epiqrafik yazılar və lokal folklor materialları bölgədə oğuz-türk etnik-mədəni ənənələrinin davamlı xarakter daşıdığını göstərir.

Qəbiristanlığın materialları türkologiyanın tarix, arxeologiya, etnoqrafiya və folklorşünaslıq istiqamətləri üçün mühüm mənbədir. Gələcək arxeoloji və epiqrafik tədqiqatlar Nərgiztəpənin Qarabağın

türk mədəni coğrafiyasında tutduğu yerin daha dolğun şəkildə müəyyənləşdirilməsinə imkan verəcəkdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Əliyev, T. R., İbrahimli, B. İ., & Əliyeva, G. İ. (2017). Qarabağda Nərgiztəpə abidələr kompleksi. Bakı: Elmin İnkişafı Fondu.
2. Bünyadov, Z. (2007). Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb.
3. Cəfərov, N. (2014). Azərbaycanşünaslığa giriş. Bakı: Mütərcim.
4. Göyüşov, R. (1993). Qarabağın keçmişinə səyahət. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.
5. Kaşgarlı Mahmud. (2006). Divanü lüğat-it-türk (Ramiz Əskər, tərc.). Bakı: Ozan.
6. Kitabi-Dədə Qorqud. (2004). Bakı: Lider Nəşriyyat.
7. Süleymanov, İ. (2015). Azərbaycan orta əsr qəbirüstü daşlarında türk damğaları. AMEA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1, 45–58.
8. Türkiyə Diyanət Vakfı İslam Ansiklopedisi. (1991). "Avşar" maddəsi. İstanbul.

THE TURKIC–AFSHAR CEMETERY OF NARGIZTEPE: ARCHAEOLOGICAL AND ETHNOGRAPHIC INDICATORS OF THE OGHUZ-TURKIC CULTURAL HERITAGE OF KARABAKH

Gulane Aliyeva

The article examines the medieval Turkic-Avshar cemetery discovered in the Nargiztepe archaeological complex located in the Khojavand region of Karabakh. Based on archaeological observations, epigraphic materials, and ethnographic data, the study analyzes the cemetery as an important indicator of the historical presence of Oghuz-Turkic tribes in the region. More than 300 graves recorded in the cemetery contain stone chests, engraved symbols, bow-and-arrow motifs, and Arabic-script epitaphs reflecting Turkic cultural traditions. The article also discusses the relationship between local toponyms, oral traditions connected with the "Kitabi-Dede Gorgud" epic, and the settlement history of Avshar tribes in the Mil-Karabakh region. The materials demonstrate that Nargiztepe and its surroundings preserve valuable archaeological evidence regarding the medieval Turkic cultural landscape of Karabakh.

Keywords: *Nargiztepe, Avshar cemetery, Karabakh, Oghuz Turks, tombstones, ethnography, Turkology*

I TÜRKOLOJİ QURULTAY SOSİAL YADDAŞIN VƏ MİLLİ KİMLİYİN TƏZAHÜRÜ KİMİ

Xəyalə Muğamat
Sumqayıt Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
xayala.muqamat@sdu.edu.az
https://orcid.org/0000-0002-5252-8742

Məqalədə XX əsrin ilk onilliklərində türk xalqlarının ictimai-siyasi və mədəni inkişafı fonunda I Türkoloji Qurultayın rolu sosial yaddaş və milli kimlik kontekstində təhlil olunur. Qurultayın dil, əlifba, terminologiya və təhsil sahələrində irəli sürdüyü ideyalar türk xalqları arasında elmi əməkdaşlığın genişlənməsinə və ortaq mədəni-mənəvi məkanın formalaşmasına xidmət etmişdir. Tədqiqatda göstərilir ki, I Türkoloji Qurultay kollektiv yaddaşın strukturlaşdırılması və milli kimliyin elmi əsaslarla ifadə olunması prosesində mühüm institusional mərhələ kimi çıxış edir.

Açar sözlər: *sosial yaddaş, milli kimlik, kollektiv yaddaş, mədəni yaddaş, əlifba islahatı, türkoloji tədqiqatlar*

Giriş

XX əsrin ilk onillikləri türk xalqlarının ictimai-siyasi və mədəni inkişafında keyfiyyətcə yeni mərhələ kimi səciyyələnir. Bu dövr yalnız siyasi dəyişikliklərlə deyil, həm də intellektual mühitin canlanması, milli ideyaların güclənməsi və mədəni identifikasiyanın aktuallaşması ilə xarakterizə olunur. İmperiyaların dağılması və yeni dövlət modellərinin meydana çıxması müxtəlif xalqların öz tarixi köklərinə qayıdışını sürətləndirmiş, milli kimliyin əsas komponentləri olan dil, tarix və mədəniyyət məsələlərini ön plana çıxarmışdır. Bu proses eyni zamanda kollektiv yaddaşın yenidən qurulması ilə müşayiət olunmuşdur. Maurice Halbwachs yazır: "Xatirələrin mənim beynimdə və ya yalnız mənə açıq olan zehnimin hansısa gizli guşəsində harada saxlanıldığını axtarmağın heç bir mənası yoxdur; çünki onlar mənim tərəfimdən xarici şəkildə xatırlanır və mənsub olduğum sosial qruplar istənilən anda onları yenidən qurmaq üçün mənə vasitələr təqdim edir…" (Halbwachs, 1992, pp. 38–40.) Deməli, yaddaş fərdi deyil, sosial çərçivələr daxilində formalaşır və hər bir cəmiyyət keçmişi öz sosial ehtiyaclarına uyğun şəkildə yenidən mənalandırır. Belə bir şəraitdə təşkil olunan I Türkoloji Qurultay türk xalqları arasında elmi əlaqələrin qurulması və ortaq problemlərin müzakirəsi baxımından mühüm platforma rolunu oynamışdır. I Türkoloji Qurultayın ümumilikdə 17 iclasından 14-ü dilçilik çağırışlarına həsr edilmişdir. Bu iclaslarda təqdim olunan məruzələrin tematik bölgüsü göstərir ki, müzakirələrin əsas istiqamətini türk dilləri (7 məruzə), əlifba məsələləri (7 məruzə), orfoqrafiya problemləri (6 məruzə), terminologiya (5 məruzə) və türk dillərinin tədrisi metodikası (3 məruzə) təşkil etmişdir. Qurultay yalnız akademik müzakirə məkanı kimi deyil, həm də kollektiv yaddaşın yenidən düşünülməsi və milli kimliyin konseptual şəkildə ifadə olunması üçün zəmin yaratmışdır.

Sosial yaddaş cəmiyyətin tarixi təcrübəsini qoruyan və onu gələcək nəsillərə ötürən dinamik sistemdir. Bu sistem yalnız faktların toplusu deyil, həm də onların şərh olunması və mənalandırılması prosesidir. Assmann yaddaş fenomeninin geniş spektrini əhatə etmək məqsədilə onun dörd formasını fərqləndirir: 1. mimetik yaddaş – keçmişdən praktik biliklərin ötürülməsi; material yaddaş – obyektlərdə əks olunan tarix; 3. kommunikativ yaddaş – dil və kommunikasiya proseslərində qorunub saxlanılan keçmişin izləri, o cümlədən dil vasitəsilə ünsiyyət qurma qabiliyyətinin özü; 4. mədəni yaddaş – keçmişə aid mənaların ötürülməsi, yəni açıq şəkildə ifadə olunan tarixi istinad və tarixi şüur (Olick., Robbins, p.111). Jan Assmannın mədəni yaddaşın iki nəzəri anlayışını müəyyən edir: o, cəmiyyətlərin 3000 ilə qədər uzana bilən uzunmüddətli yaddaşını və adətən 80–100 illə məhdudlaşan kommunikativ yaddaşı bir-birindən fərqləndirir. Mədəni yaddaş nəzəriyyəsinə görə, cəmiyyətlər öz uzunmüddətli yaddaşını yazılı mətnlər, simvollar və institutlar vasitəsilə qoruyur və bu yaddaş kollektiv kimliyin əsas dayağına çevrilir (Asmann, 2011, p. 2). Milli kimlik isə bu yaddaşın üzərində qurularaq fərdin və

cəmiyyətin özünü tanıma və fərqləndirmə mexanizmini formalaşdırır. Bu baxımdan I Türkoloji Qurultay sosial yaddaşın strukturlaşdırılması və milli kimliyin şüurlu şəkildə ifadə olunması prosesində mühüm mərhələ kimi çıxış edir. "Təşkilat komitəsi tərəfindən məruzəçilərə türk və rus dillərində çıxış etməklə yanaşı, öz doğma dillərində, yaxud da beynəlxalq dillərin birində məruzə etmək imkanı verilmişdir" (Xəlilov, 2006, s. 358).

I Türkoloji Qurultay türk xalqlarının intellektual və mədəni tarixində yalnız bir elmi tədbir deyil, həm də kollektiv özünüdərk prosesinin institusional ifadəsi kimi çıxış edir. Bu baxımdan, qurultay müxtəlif coğrafi məkanlarda yaşayan türk xalqları üçün ortaq elmi-mədəni təsəvvürün formalaşmasına xidmət etmişdir. F.Veysəlli yazır: "Qurultaya elmi ictimaiyyət daha bir məqsədlə yanaşırdı. Qərb şərqi öyrənirdi, bütün Avropada şərqşünaslıq mərkəzləri yaranırdı. Məs., hələ XIX əsrin ortalarında həmyerlimiz M.Kazımbəyin rəhbərliyilə S.Peterburq universitetində şərqşünaslıq fakültəsi yaradılmışdı, onun "Türk-tatar dilinin ümumi qrammatikası" (1839) Avropa şərqşünaslarının stolüstü kitabına çevrilmişdi. Ancaq şərqin qərbə çıxışı hələ də məhdud idi. Qurultay bu sahələrdə boşluqları doldurmaq niyyətini gizlətmirdi" (Azərbaycan dilçiliyi müntəxəbatı, I cild, s. 291).

Sosial yaddaşın strukturlaşdırılması baxımından qurultayın rolu ilk növbədə tarixi biliklərin sistemləşdirilməsi ilə bağlıdır. Qurultay çərçivəsində aparılan müzakirələr nəticəsində türk xalqlarının tarixi yalnız ayrı-ayrı regional hadisələr kimi deyil, ümumi bir sivilizasiya kontekstində dəyərləndirilməyə başlanmışdır. Bu yanaşma kollektiv yaddaşın parçalanmış elementlərini birləşdirərək daha bütöv bir tarixi şüurun formalaşmasına səbəb olmuşdur. Bu prosesdə mühüm məqamlardan biri tarixi faktların ideoloji təsirlərdən müəyyən qədər azad edilərək elmi əsaslarla təqdim olunması idi. Tarixin yenidən interpretasiyası yalnız keçmişin öyrənilməsi deyil, həm də gələcək üçün ideoloji istiqamətin müəyyənləşdirilməsi funksiyasını yerinə yetirirdi. Beləliklə, sosial yaddaş passiv xatirə toplusu olmaqdan çıxaraq aktiv düşüncə və identifikasiya alətinə çevrilmişdir.

Dil məsələsi qurultayın əsas müzakirə istiqamətlərindən biri kimi sosial yaddaşın qorunması və ötürülməsi baxımından xüsusi əhəmiyyət daşımışdır. Müxtəlif türk dilləri arasında ortaq xüsusiyyətlərin müəyyənləşdirilməsi və bu dillərin elmi prinsiplər əsasında təsnif edilməsi ortaq mədəni məkanın formalaşmasına xidmət etmişdir. Dilin normativ çərçivəyə salınması yalnız kommunikativ funksiyanı deyil, həm də simvolik funksiyanı gücləndirmişdir. Qurultayda ədəbi dilin norma problemləri müzakirə edildikdən sonra məntiqi ardıcıllıqla türk ədəbi dili, onun tarixi inkişafı haqqında M.Köprülüzadə "Türk xalqlarının ədəbi dilinin inkişafı" mövzusunda məruzə ilə çıxış etmişdir (1926, 5 mart, 14-cü iclas). Bu mövzuda prof. B.Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu" (27 fevral, 1926, 3-cü iclas) və "Elmi terminologiyanın əsasları" (2 mart, 1926, 8-ci iclas) adlı elmi məruzələrində ümumtürk ədəbi dili probleminin həll olunmasına dair ciddi təkliflər səsləndirir. "B.Çobanzadə türk xalqlarının ünsiyyətinin reallaşmasını iqtisadi həyat və təhsil komplekslərinin birliyində görürdü. Təklif edirdi ki, birinci dərəcəli məktəblərdə (bu bizim indiki təbirlə ibtidai siniflərdir) yerli milli terminlər işlənsin, ikinci dərəcəli məktəblərdə (indiki orta təhsil məktəbləri) ümumtürk terminlərdən istifadə edilsin, üçüncü dərəcəli məktəblərdə (indiki ali məktəblər) ümumtürk bazası əsasında beynəlmiləl terminologiya sisteminə qoşulaq" (Azərbaycan dilçiliyi müntəxəbatı, I cild, s. 261).

Dilin sadələşdirilməsi və xalq kütlələrinə yaxınlaşdırılması sosial yaddaşın daha geniş təbəqələr arasında yayılmasına imkan yaratmışdır. Əvvəllər yalnız məhdud ziyalı dairələrinə xas olan yazılı mədəniyyətin kütləviləşməsi kollektiv yaddaşın demokratikləşməsi prosesini sürətləndirmişdir. Bu isə milli kimliyin yalnız elit təbəqəyə deyil, geniş ictimai kütlələrə aid olmasını təmin etmişdir. Əlifba islahatı isə bu prosesin daha dərin qatlarına təsir göstərmişdir. "Əlifba ilə bağlı qurultayda 4 istiqamət vardı: 1) islahatçılar; 2) ərəb əlifbasının saxlanılması tərəfdarları; 3) rus əlifbası tərəfdarları; 4) yeni əlifbaçılar, yəni latınçılar. Latın əlifbasının əleyhidarları yeni əlifbanın mədəni inkişafa maneçilik törədəcəyini, xalqın tarixi – mədəni irsinin unudulacağını, əlaqələrin üzüləcəyini bəhanə gətirirdilər, çoxları sadəlövhcəsinə əlifbanın dəyişməsini dilin dəyişməsi kimi başa düşürdülər" (Azərbaycan dilçiliyi müntəxəbatı, I cild, s. 293-295).

Yazı sisteminin dəyişdirilməsi yalnız texniki yenilik deyil, həm də mədəni transformasiya idi. Yeni əlifba vasitəsilə biliklərin ötürülməsi asanlaşmış, təhsil imkanları genişlənmiş və savadlılıq səviyyəsi yüksəlmişdir. Bu dəyişikliklər sosial yaddaşın daha çevik və dinamik formada inkişafına şərait yaratmışdır. Digər tərəfdən, əlifba dəyişikliyi müəyyən mənada əvvəlki yazı ənənəsi ilə məsafə yaratmışdır ki, bu da sosial yaddaşın selektiv xarakterini bir daha göstərir. Yəni cəmiyyət öz keçmişini tam şəkildə deyil, müəyyən filtrdən keçirərək qəbul edir və yenidən qurur. Qurultay bu seçimin elmi və rasional əsaslarla aparılmasına istiqamət vermişdir.

Bu kontekstdə əlifba islahatı yalnız keçmişlə münasibətin yenidən qurulması deyil, həm də gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi kimi qiymətləndirilə bilər. Yeni yazı sisteminə keçid cəmiyyətin intellektual potensialının genişlənməsinə, elmi biliklərin daha sürətli yayılmasına və beynəlxalq elmi-mədəni mühitə inteqrasiyanın güclənməsinə təkan vermişdir. Bununla yanaşı, bu proses milli kimliyin yeni şərtlər daxilində yenidən formalaşdırılmasına və onun daha müasir məzmunla zənginləşdirilməsinə xidmət etmişdir. Beləliklə, əlifba islahatı sosial yaddaşın transformasiyası ilə milli kimliyin yenilənməsi arasında üzvi əlaqəni təmin edən mühüm vasitə kimi çıxış etmişdir.

Terminologiyanın standartlaşdırılması məsələsi də sosial yaddaşın intellektual səviyyədə təşkilində mühüm rol oynamışdır. Elmi anlayışların vahid terminlərlə ifadə olunması biliklərin sistemləşdirilməsini və onların nəsillərarası ötürülməsini asanlaşdırmışdır. Bu, xüsusilə təhsil sistemində vahidlik yaratmaqla milli kimliyin intellektual əsaslarını möhkəmləndirmişdir. Eyni zamanda, terminoloji vahidliyin təmin edilməsi müxtəlif elmi sahələr arasında anlaşmanın güclənməsinə, fikir qarışıqlığının aradan qaldırılmasına və elmi dilin daha sabit bir struktur qazanmasına şərait yaratmışdır. Bu proses həm də türk dilləri arasında elmi ünsiyyətin koordinasiyasını gücləndirərək ortaq termin bazasının formalaşmasına təkan vermişdir. Nəticə etibarilə, terminologiyanın sistemləşdirilməsi yalnız dilçilik məsələsi kimi deyil, həm də mədəni yaddaşın qorunması və elmi biliklərin davamlı inkişafı baxımından strateji əhəmiyyət daşıyan bir istiqamət kimi çıxış etmişdir.

Qurultayın milli kimliyin ifadəsində rolu yalnız dil və təhsil məsələləri ilə məhdudlaşmır. O, eyni zamanda mədəni irsin yenidən qiymətləndirilməsi və təqdim olunması baxımından da mühüm əhəmiyyət kəsb edir. Folklor nümunələrinin toplanması, şifahi ədəbiyyatın yazıya alınması və etnoqrafik materialların sistemləşdirilməsi milli kimliyin tarixi köklərini daha aydın şəkildə üzə çıxarmışdır. Bu fəaliyyətlər nəticəsində milli kimlik yalnız müasir dövrün məhsulu kimi deyil, uzun tarixi inkişafın nəticəsi kimi dərk olunmağa başlanmışdır. Beləliklə, milli kimlik zaman daxilində davamlılıq qazanan və sosial yaddaş vasitəsilə qorunan dinamik fenomen kimi təqdim edilmişdir.

Qurultay müxtəlif türk xalqları arasında qarşılıqlı anlaşma və əməkdaşlığın inkişafına mühüm töhfə vermişdir. Fərqli regionlardan gələn alim və ziyalıların eyni elmi mühitdə bir araya gəlməsi fikir mübadiləsinin genişlənməsinə və ortaq məsələlərin daha sistemli şəkildə müzakirə olunmasına şərait yaratmışdır. Bu proses nəticəsində yalnız elmi baxışların yaxınlaşması deyil, həm də mədəni və intellektual əlaqələrin güclənməsi baş vermişdir. Belə bir əməkdaşlıq mühiti ortaq sosial yaddaşın formalaşmasına xidmət edərək türk xalqları arasında tarixi və mədəni bağlılığın daha aydın şəkildə dərk olunmasına imkan yaratmışdır. Eyni zamanda, müxtəlif baxışların müqayisəli şəkildə təqdim olunması problemlərə daha geniş və kompleks yanaşmanı təmin etmiş, ortaq elmi nəticələrin əldə olunmasını asanlaşdırmışdır.

Sosial yaddaş və milli kimlik arasındakı qarşılıqlı əlaqə qurultayın bütün fəaliyyət istiqamətlərində özünü göstərir. Sosial yaddaş milli kimliyin əsasını təşkil edir, milli kimlik isə bu yaddaşın qorunması və inkişafına istiqamət verir. Qurultay bu iki anlayışın qarşılıqlı təsirini sistemli şəkildə nümayiş etdirən mühüm tarixi nümunədir.

Aparılan təhlil göstərir ki, I Türkoloji Qurultay sosial yaddaşın strukturlaşdırılması və milli kimliyin ifadəsi baxımından mühüm tarixi hadisədir. Qurultay yalnız elmi müzakirə platforması deyil, həm də mədəni və ideoloji transformasiyaların baş verdiyi mühüm mərhələ kimi çıxış etmişdir. Dil, əlifba və təhsil sahəsində həyata keçirilən təşəbbüslər sosial yaddaşın sistemli şəkildə formalaşmasına və geniş yayılmasına şərait yaratmışdır. Eyni zamanda, bu proseslər milli kimliyin daha aydın və şüurlu şə-

kildə ifadə olunmasına xidmət etmişdir. I Türkoloji Qurultay sosial yaddaş və milli kimlik arasındakı qarşılıqlı əlaqənin konkret tarixi təzahürü kimi çıxış edir və bu baxımdan həm tarixi, həm də müasir dövr üçün aktual əhəmiyyət daşıyır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan dilçiliyi müntəxəbatı. 3 cilddə, I cild. Bakı: Abıs Alarco, 2013, 309 s.
2. Xəlilov B. Türkologiyaya giriş. Bakı: Nurlan, 2006, 384 s.
3. Halbwachs M. On Collective Memory. Chicago: University of Chicago Press,1992,254 p.
4. Jeffrey K. Olick., Robbins J. SOCIAL MEMORY STUDIES: From "Collective Memory" to the Historical Sociology of Mnemonic Practices. New York: Columbia University, 1998, pp.105-140
5. Assmann J. Cultural Memory and Early Civilization: Writing, Remembrance, and Political Imagination. Cambridge: Cambridge University Press, 2011, 334 p.

THE FIRST TURKOLOGICAL CONGRESS AS A MANIFESTATION OF SOCIAL MEMORY AND NATIONAL IDENTITY

Xayala Mughamat

The article analyzes the role of the First Turkological Congress in the socio-political and cultural development of Turkic peoples in the early decades of the 20th century within the context of social memory and national identity. It argues that the ideas proposed at the congress in the fields of language, alphabet reform, terminology, and education contributed to the expansion of scholarly cooperation and the formation of a shared cultural and intellectual space among Turkic peoples. The study shows that the First Turkological Congress represents an important institutional stage in the structuring of collective memory and the scientific articulation of national identity.

Keywords: *social memory, national identity, collective memory, cultural memory, alphabet reform, Turkological studies*

TÜRK DÜNYASINDA İNTEQRASİYA PROSESLƏRİ: TARİXİ ƏSASLAR VƏ MÜASİR GEOSİYASİ KONTEKST

Həmidə Əhmədova
Bakı Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru
Müəllim
hamidahmadova@outlook.com
https://orcid.org/0009-0007-0519-6515

Məqalədə türk xalqları arasında inteqrasiya proseslərinin tarixi inkişaf trayektoriyası, eləcə də onların müasir geosiyasi konteksti təhlil edilir. Tədqiqat göstərir ki, türk dünyasında inteqrasiya ideyası qədim dövrlərdən bəri formalaşmış və Hun imperiyası, Göktürk Xaqanlığı, Səlcuqlu və Osmanlı dövlətləri kimi tarixi-siyasi strukturlar vasitəsilə davamlı olaraq inkişaf etmişdir. Bu siyasətlər ortaq idarəetmə ənənələrinin, mədəni dəyərlərin və kollektiv siyasi şüurun formalaşmasında mühüm rol oynamışdır.

Müasir dövrdə Sovet İttifaqının dağılmasından sonra müstəqillik qazanan türk respublikaları arasında əməkdaşlıq yeni institusional mərhələyə qədəm qoymuşdur. Xüsusilə, 2009-cu il Naxçıvan Sazişi, ardınca 2019-cu il Bakı Zirvə Görüşləri və 2021-ci il İstanbul Zirvə Görüşləri ilə başlayan proses Türk Dövlətləri Təşkilatı çərçivəsində sistemli inteqrasiya modelinin formalaşmasına səbəb olmuşdur.

Açar sözlər: *Türk dünyası, inteqrasiya, regional əməkdaşlıq, Türk Dövlətləri Təşkilatı, Naxçıvan sazişi.*

Giriş

Türk xalqları arasında inteqrasiya ideyası qədim dövrlərdən etibarən formalaşaraq müxtəlif tarixi mərhələlərdə siyasi, hərbi və mədəni məzmun kəsb etmişdir. Türk tayfalarının ortaq mənşə, dil və köçəri həyat tərzi ətrafında birləşməsi ilkin inteqrasiya proseslərinin əsasını təşkil etmişdir. Bu birlik modeli yalnız etnik yaxınlıqla məhdudlaşmamış, eyni zamanda ortaq idarəçilik ənənələrinin, siyasi legitimlik anlayışının və kollektiv identiklik elementlərinin yaranmasına səbəb olmuşdur.

E.ə. III əsrdə yaranmış Hun imperiyası türk mənşəli tayfaların ilk genişmiqyaslı siyasi birliyi kimi tarixdə mühüm yer tutur. Hun hökmdarı Mete xanın həyata keçirdiyi hərbi-siyasi islahatlar mərkəzləşdirilmiş idarəçilik modelinin formalaşmasına şərait yaratmışdır (Golden, 1992, s. 35-36). Hun imperiyası müxtəlif türk və türk mənşəli tayfaları vahid siyasi sistem daxilində birləşdirərək gələcək türk dövlətçilik ənənələrinin əsasını qoymuşdur. Bu imperiya Asiya siyasi tarixində ilk böyük köçəri imperiya modeli hesab edilir və sonrakı türk dövlətlərinin təşkilati strukturuna ciddi təsir göstərmişdir.

VI–VIII əsrlərdə mövcud olmuş Göytürk xaqanlığı isə türk siyasi tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Göytürklər "türk" etnonimini ilk dəfə rəsmi dövlət adı kimi istifadə edərək türk etnik-siyasi identikliyinin formalaşmasında mühüm rol oynamışlar. Bu dövrdə yaradılmış idarəçilik sistemi, hərbi təşkilatlanma və diplomatik münasibətlər modeli türk dövlətçilik ənənələrinin inkişafında xüsusi əhəmiyyət daşımışdır. Göytürk xaqanlığı yalnız hərbi gücə əsaslanan siyasi birlik deyil, həm də ortaq siyasi şüurun formalaşdığı geosiyasi məkan olmuşdur. Göytürk dövrünün ən mühüm tarixi mənbələri olan Orxon-Yenisey abidələri türk siyasi düşüncə tarixinin öyrənilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Bilgə xaqan və Kül Tigin kitabələrində dövlətin qorunması, xalqın birliyi, siyasi müstəqillik və hakimiyyət legitimliyi kimi məsələlər geniş şəkildə əks olunmuşdur (Taşağıl, 2014, s. 46-48). Bu yazılı abidələrdə "elin birliyi" və "dövlətin saxlanılması" ideyalarının ön plana çıxması inteqrasiya düşüncəsinin erkən siyasi formalarını nümayiş etdirir. Eyni zamanda həmin mətnlər türk siyasi mədəniyyətində kollektiv məsuliyyət və dövlətçilik şüurunun formalaşdığını göstərir.

Orta əsrlərdə Səlcuq imperiyası türk siyasi və mədəni inteqrasiyasının geniş coğrafiyada yayılmasına mühüm töhfə vermişdir. Səlcuqlar Yaxın Şərqdə və Anadoluda güclü siyasi sistem yaradaraq

türk dövlətçilik ənənələrini İslam siyasi modeli ilə sintez etmişlər. Bu proses nəticəsində türk-islam sivilizasiyası formalaşmış və regionun siyasi-mədəni inkişafında mühüm rol oynamışdır. Səlcuq idarəçilik modeli sonrakı türk dövlətləri üçün də siyasi nümunəyə çevrilmişdir.

Osmanlı imperiyası isə türk dövlətçilik ənənələrinin ən uzunömürlü və institusional forması kimi çıxış etmişdir. Osmanlılar geniş Avrasiya məkanında çoxmillətli siyasi sistem quraraq ortaq mədəni və inzibati model formalaşdırmışlar. Türk dili, İslam mədəniyyəti və ortaq hüquqi-inzibati institutlar imperiyanın müxtəlif regionlarında inteqrasiya proseslərini gücləndirmişdir. Xüsusilə Osmanlı dövründə formalaşmış siyasi-mədəni əlaqələr müasir Türk dünyasında ortaq tarixi yaddaşın mühüm komponentlərindən biri hesab olunur. Belə ki, qədim və orta əsr türk dövlətlərinin siyasi təcrübəsi Türk dünyasında inteqrasiya ideyasının tarixi əsaslarını formalaşdırmışdır. Bu dövlətlər tərəfindən yaradılmış ortaq idarəçilik ənənələri, siyasi institutlar və mədəni dəyərlər müasir dövrdə Türk dövlətləri arasında əməkdaşlıq və inteqrasiya proseslərinin ideoloji-tarixi bazasını təşkil edir.

XX əsrin sonlarında beynəlxalq sistemdə baş verən köklü dəyişikliklər, xüsusilə 1991-ci ildə Sovet İttifaqının dağılması türk respublikalarının müstəqillik qazanmasına və yeni regional əməkdaşlıq modelinin formalaşmasına zəmin yaratmışdır. Bu mərhələ yalnız siyasi xəritənin yenidən qurulması ilə məhdudlaşmamış, eyni zamanda postsovet məkanında yeni identiklik axtarışları və regional inteqrasiya təşəbbüslərinin güclənməsi ilə xarakterizə olunmuşdur. Müstəqil türk respublikalarının beynəlxalq sistemə daxil olması onların xarici siyasət prioritetlərini yenidən müəyyənləşdirməsinə və ortaq mədəni-tarixi bağlara əsaslanan əməkdaşlıq formatlarına marağın artmasına səbəb olmuşdur.

Bu prosesin institusional mərhələyə keçidi 2009-cu ildə imzalanmış Naxçıvan Sazişi ilə daha aydın şəkildə özünü göstərmişdir. Naxçıvan Sazişi Türk dövlətləri arasında ilk dəfə olaraq hüquqi-institusional əməkdaşlıq çərçivəsini formalaşdırmış və çoxşaxəli inteqrasiya modelinin əsasını qoymuşdur. Sazişin imzalanması ilə Türk Şurası (sonradan Türk Dövlətləri Təşkilatı) yaradılmış, bu isə türk dövlətləri arasında siyasi dialoqun sistemli xarakter almasına şərait yaratmışdır (Azərbaycan Respublikasının Qanunvericilik Bazası (e-qanun.az), 2009). Bu sənəd regional əməkdaşlığın yalnız mədəni deyil, həm də siyasi və iqtisadi istiqamətlərdə inkişaf etdirilməsini nəzərdə tutmuşdur.

Sonrakı mərhələdə təşkilatın fəaliyyəti daha da genişlənmişdir. 2019-cu il Bakı Sammiti Türk dünyasında əməkdaşlığın prioritet istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Sammit çərçivəsində qəbul edilmiş Bakı Bəyannaməsi üzv dövlətlər arasında nəqliyyat, ticarət, təhsil və mədəniyyət sahələrində inteqrasiyanın gücləndirilməsini əsas məqsəd kimi müəyyən etmişdir (TURKPA, 2019). Bu sənəd eyni zamanda Türk dünyasında ortaq strateji baxışın formalaşması istiqamətində vacib addım kimi qiymətləndirilir.

2021-ci ildə İstanbul Sammitində təşkilatın yenidən strukturlaşdırılması ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya prosesi yeni mərhələyə keçmişdir. Bu mərhələdə təşkilatın adının dəyişdirilməsi və institusional strukturunun gücləndirilməsi Türk dövlətləri arasında əməkdaşlığın daha sistemli və çoxşaxəli xarakter almasına imkan yaratmışdır. İstanbul Sammitində qəbul edilən qərarlar siyasi koordinasiya mexanizmlərinin gücləndirilməsi, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və humanitar əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addım olmuşdur (Organization of Turkic States, 2021). Ümumilikdə, XX əsrin sonlarından etibarən başlayan bu proses göstərir ki, Türk dünyasında inteqrasiya yalnız tarixi-mədəni yaxınlıq əsasında deyil, həm də müasir beynəlxalq hüquq və institusional mexanizmlər vasitəsilə inkişaf etdirilən strateji layihə xarakteri daşıyır. Bu inkişaf xətti Türk dövlətlərinin regional və qlobal sistemdə daha koordinasiyalı aktor kimi çıxış etməsinə şərait yaradır.

Müasir mərhələdə türk dövlətləri arasında inteqrasiyanın geosiyasi əhəmiyyəti qlobal nəqliyyat və enerji marşrutlarında aydın şəkildə özünü göstərir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Çin–Mərkəzi Asiya–Xəzər hövzəsi–Cənubi Qafqaz–Avropa xətti üzrə alternativ və strateji logistika platforması kimi çıxış edərək Avrasiya məkanında yeni iqtisadi körpü yaradır. Bununla yanaşı, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi kimi layihələr enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayaraq türk dövlətlərinin beynəlxalq enerji bazarındakı mövqelərini

möhkəmləndirir (Məmmədzadə, 2023, s. 74-75). Bu layihələr yalnız iqtisadi deyil, həm də siyasi inteqrasiyanı stimullaşdıran amillər kimi çıxış edir.

Bundan əlavə, təşkilat çərçivəsində təhsil, mədəniyyət və rəqəmsal əməkdaşlıq sahələrində həyata keçirilən təşəbbüslər "yumşaq güc" elementlərinin güclənməsinə xidmət edir. Ortaq təhsil proqramları, akademik mübadilə və mədəni layihələr türk dünyasında vahid identikliyin formalaşmasına töhfə verir.

Nəticə olaraq deyə bilərik ki, türk xalqları arasında inteqrasiya prosesi tarixi varislik prinsipi əsasında inkişaf edərək müasir dövrdə institusional və çoxtərəfli əməkdaşlıq modeli kimi formalaşmışdır. Bu proses qədim dövlətçilik ənənələrindən qaynaqlanan ortaq mədəni və siyasi dəyərlərin müasir beynəlxalq münasibətlər sisteminə inteqrasiyasını təmin edir. Bu inteqrasiyanın gələcəkdə daha da dərinləşməsi türk dünyasının qlobal geosiyasi və iqtisadi sistemdə təsir imkanlarını əhəmiyyətli dərəcədə artıracaqdır. Eyni zamanda, bu inkişaf regional sabitliyin gücləndirilməsinə və Türk dövlətləri arasında strateji koordinasiyanın daha da möhkəmlənməsinə şərait yaradacaqdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Qanunvericilik Bazası (e-qanun.az). (2009). "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/19038

2. Məmmədzadə, Ülkər. (2023). Qafqazda liderlik qərinəsi: Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyev. Bakı: Zərdabi Nəşr.

3. TURKPA. (2019). Türkdilli ölkələrin parlament assambleyasının Bakı bəyannaməsi. https://turkpa.org/files/plen%2009%20az.pdf

4. Golden, Peter B. (1992). An Introduction to the History of the Turkic Peoples. Wiesbaden: Otto Harrassowitz.

5. Organization of Turkic States. (2021). Istanbul Declaration of the 8th Summit of the Organization of Turkic States.

6. Taşağıl, Ahmet. (2014). Göktürkler I–II. Ankara: Türk Tarih Kurumu Yayınları.

INTEGRATION PROCESSES IN THE TURKIC WORLD: HISTORICAL FOUNDATIONS AND MODERN GEOPOLITICAL CONTEXT

Hamida Ahmedova

The article analyzes the historical development trajectory of integration processes among Turkic peoples as well as their contemporary geopolitical context. The study shows that the idea of integration in the Turkic world has been shaped since ancient times and has continuously developed through historical-political structures such as the Hun Empire, the Göktürk Khaganate, and the Seljuk and Ottoman states. These polities played a significant role in the formation of shared traditions of governance, cultural values, and collective political consciousness.

In the modern period, cooperation among Turkic republics that gained independence after the collapse of the Soviet Union has entered a new institutional stage. In particular, the process initiated by the 2009 Nakhchivan Agreement, followed by the 2019 Baku Summit and the 2021 Istanbul Summit, has led to the formation of a systematic integration model within the framework of the Organization of Turkic States.

Keywords: *Turkic world, integration, regional cooperation, Organization of Turkic States, Nakhchivan agreement.*

GƏNCƏNİN DÜNYA TÜRKOLOGİYASINA TÖHFƏSİ: ƏHMƏD CƏFƏROĞLU İRSİ KONTEKSTİNDƏ

İlahə Əsədzadə
AMEA-nın Gəncə Bölməsi, Diyarşünaslıq İnstitutu
Kiçik elmi işçi
ilahe.esedzade@gmail.com
https://orcid.org/0009-0007-1288-3719

Nərgiz Rəsulova
Tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA-nın Gəncə Bölməsi, Diyarşünaslıq İnstitutu
Tarix şöbəsinin müdiri
Gəncə Dövlət Universiteti
nargiz_rasulova@internet.ru
https://orcid.org/0009-0003-8622-5605

Nuranə Həsənova
AMEA-nın Gəncə Bölməsi, Diyarşünaslıq İnstitutu
Tarix şöbəsinin laborantı
hesenova.nurane.099@gmail.com
https://orcid.org/0009-0008-1919-8084

Əhməd Cəfəroğlu bütün varlığı ilə Vətənə - Azərbaycana bağlı olan və bunu ucadan bəyan etməkdən çəkinməyən, Azərbaycanın türk dünyasındakı müstəsna yerini və rolunu yüksək qiymətləndirən dəyərli bir alim idi. Məqalədə onun müəllifi olduğu "Azərbaycan yurd bilgisi" jurnalında milli mədəni irsimizin və müstəqilliyimizin öyrənilməsi məsələlərinə toxunulur. XX əsr Azərbaycanşünaslıq tarixində mühüm rol oynayan jurnal təkcə Azərbaycan mədəniyyətini elmi prinsiplərlə öyrənməklə kifayətlənmir, həm də milli müstəqillik və dövlət müstəqilliyi uğrunda mübarizədən, Azərbaycan siyasi mühacirətinin keçdiyi yoldan bəhs edir. Həmçinin bildirilir ki, böyük alimin 1940-1951-ci illərdə Türkiyənin bir çox bölgələrini gəzib müxtəlif dialektlərlə bağlı folklor materiallarını toplayıb sistemləşdirib, türk dilinin tarixi sahəsində özünəməxsus türkologiya məktəbi yaradıb.

Açar sözlər: *Əhməd Cəfəroğlu, mühacirət, türkologiya, folklor, "Yurd bilgisi" jurnalı.*

"Öz-özünü birbaşa tədqiq etməyən millətlər
başqa millətlərin etnoqrafik tədqiqat mövzusundan başqa bir
şey olmamışdır"
Əhməd Cəfəroğlu

Giriş

Qürbətdə olmaqlarına baxmayaraq, həyatlarının son dəqiqəsinə qədər Azərbaycan eşqi ilə yaşayan, Vətənin azadlığı uğrunda mübarizə aparan mühacir siyasi xadimlər, alimlər uzun illər davam etmiş ayrılıqdan sonra öz doğma xalqlarına, doğma mədəniyyətlərinə "qovuşmuşlar". Onlardan biri də dünya şöhrətli filoloq alim, XX yüzilliyin tanınmış türkoloq-azərbaycanşünaslarından biri olan Əhməd Cəfəroğludur.

Böyük alimin həyat yolu. Türkiyə türkoloqlarının böyük əksəriyyətinin fəxrlə öz müəllimi və ustadı adlandırdığı, Türkiyədə və Avropada daha çox Əhməd Cəfəroğlu kimi tanınan Əhməd İsmayıl oğlu Cəfərzadə XIX əsrin sonunda - 1899-cu il aprelin 17-də Gəncədə tacir ailəsində doğulmuş, üç yaşında olarkən atasını itirərək anası Gövhər xanımın himayəsində böyümüşdür [Quliyev, 2000, s.338]. 1906-1907-ci illərin qanlı erməni-müsəlman qırğınları onların ailəsini doğma yurdu tərk edə-

rək Orta Asiyaya-Səmərqəndə köçmək məcburiyyətində qoyur. Ailə 1910-cu ildə yenidən Gəncəyə qayıtdıqdan sonra, Əhməd bəy 1909–1916-cı illərdə Gəncə gimnaziyasında təhsilini davam etdirir [Əhmədli, 2017].

Daha sonra Ə. Cəfəroğlun əsl fəaliyyət meydanının Azərbaycan olması qənaətinə gəlmiş və Kiyevdəki təhsilini yarımçıq qoyaraq 1918-ci ilin əvvəllərində Vətənə dönmüşdür [Həsənova, 2014, s. 34]. Çətin tarixi şəraitdə düşmən güllələrinə sinə gərməkdən də çəkinməyən gənc Əhməd Gəncədə İstiqlal mübarizəsinə qoşulur. O, Azərbaycan Milli Ordusu sıralarına daxil olaraq Qafqaz İslam Ordusunun üzvü kimi 1918-ci il sentyabrın 15-də Bakını Azərbaycanın paytaxtı elan edənlərin arasında kiçik topçu zabit kimi iştirak etmişdir. Təəssüf ki, 1920-ci ilin aprelində Azərbaycanda bolşevik rejiminin hakimiyyət başına gəlməsi ilə Ə. Cəfəroğlu kimi milli düşüncə sahibləri mühacirət etməyə məcbur qaldı. O da minlərlə həmvətəni kimi dil və din baxımından azərbaycanlılara hər cəhətdən yaxın olan Türkiyəni seçdi və ali təhsilini İstanbul Universitetində davam etdirdi. 1924-cü ildə universitetin türk dili və ədəbiyyatı fakültəsini bitirən azərbaycanlı gənc burada dövrün Mehmet Fuat Köprülü kimi görkəmli ədəbiyyatşünasından dərs almış və onun sevimli tələbələrindən biri olmuşdu. Beləcə "gözəl təhsilinə, xarici dillərə bələdliyinə zəhmətsevərliyi də qarışınca, o, irəliləmək istədiyi yolda cığır açan bir yolçu vəziyyətinə gəldi" [TDKB, 1975, s. 17].

Ə. Cəfəroğlunun ən böyük arzusu - "Azərbaycan yurd bilgisi" jurnalı.

Əsası Əhməd Cəfəroğlu tərəfindən qoyulan və XX əsr azərbaycanşünaslığı tarixində mühüm rol oynamış "Azərbaycan yurd bilgisi" jurnalında Azərbaycan mədəniyyətini elmi prinsiplərlə öyrənməklə yanaşı, Azərbaycan siyasi mühacirətinin tutduğu yol-milli istiqlalçılıq və dövlət müstəqilliyi uğrunda mübarizə məsələlərinə də toxunulurdu. Ə. Cəfəroğlu jurnalın 1932-ci ildə İstanbulda çıxan ilk nömrəsi üçün yazdığı qısa ön sözdə bu vacib məqamı xüsusilə qeyd edirdi: "Bir neçə böyük imperatorluğun tarixə qovuşmasına səbəb olmuş Cahan müharibəsi nəticəsində həyat səhnəsinə yeni-yeni hökumətlər çıxması tarixin yaxın səhifələrində qeyd edilmişdir. Bunlar arasında bugünkü Maveriyi Kafkasyanın cənub-şərqini təşkil edən Azərbaycanda Demokratik Cümhuriyyətinin tədqiqləri yalnız nəşr edildiyi dövr üçün deyil, bu gün üçün də böyük əhəmiyyətini qoruyub-saxlamaqdadır" [Azerbaycan Yurt Bilgisi, 1932, s. 3]. Eyni zamanda müəllif jurnalın təsis edilməsinin əsas məqsədlərindən biri kimi hər bir millətin tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı araşdırmaları öz əlinə almasının zəruriliyini göstərir və bunu milli şüurun əsas göstəricilərindən biri kimi dəyərləndirirdi. Doğrudan da, Azərbaycanın Rusiya imperiyasına ilhaq edilməsindən sonra heç bir rus türkoloqu, yaxud şərqşünası Azərbaycan ədəbiyyatı tarixini yazmaq fikrinə düşməmişdi.

Xalqı hürriyyətə səsləyən və rus müstəmləkəçiliyinə qarşı yönələn Ə.Cəfəroğlu "Azəri ədəbiyyatında istiqlal mücadiləsi" adlı tədqiqatında qeyd edirdi ki, "Milli Azərbaycan ədəbiyyatında, adəta başlı-başına, müstəqil bir cərəyan təşkil edən istiqlal mücadiləsi ədəbiyyatı, təəssüf ki, uzun bir zaman qeyri-müntəşir qaldığından, kiçik bir tədqiqə belə məzhər olmamışdır..." [Caferoğlu, 1932]. **"**Azərbaycan yurd bilgisi" də ilk növbədə "Azərbaycan" adlı böyük və möhtəşəm binanın təməlinin milli düşüncə və elmi fikir üzərində qurulmasına xidmət edirdi. Məcmuənin daimi müəllifləri arasında yer alanlar Azərbaycan mühacirətinin nümayəndələri - alovlu vətənpərvərləri idi. Bu cəhətdən "Müsavat" partiyasının hələ 1911-ci il proqramında yer alan "türkçülük, azərbaycançılıq, milliyyətçilik" prinsipləri onların fəaliyyətlərinin əsas istiqamətini təşkil edirdi.

Eyni zamanda müəllif ilk nömrədə jurnalın məqsəd və qayələrinin təkcə Azərbaycan mədəniyyətinin problemləri ilə məhdudlaşmayacağını, həmçinin ümumtürk mədəniyyəti ilə bağlı məsələlərin də öz əksini tapacağını qeyd edirdi: "Aydın məsələdir ki, məcmuəmiz bununla da kifayətlənməyəcək və müştərək türk mədəniyyətinin hələ aydınlaşmamış olan nöqtələrini işıqlandırmağa çalışacaqdır" [Azerbaycan Yurt Bilgisi, 1932, s. 4] Demək mümkündür ki, Ə.Cəfəroğlunun öz redaktorluğu ilə 1932-1934-cü illərdə 36, 1954-cü ildə isə bir sayı nəşr olunan jurnal aradan keçən on illər ərzində də Türkiyədə tez-tez üz tutulan mötəbər filoloji qaynaqlardan olmuşdur. Hətta jurnalın önəmi nəzərə alınaraq onun bütün nömrələrini üç cild halında 1981-1984-cü illərdə İstanbulda yenidən nəşr edilmişdir.

Göründüyü kimi, jurnal nəşrə başladığı gündən qarşısına türk dünyası üçün bu gün də əhəmiyyətini, aktuallığını itirməyən vəzifələr qoymuşdur. Şübhəsiz, Əhməd Cəfəroğlu bu jurnalı nəşr etdirməsə idi belə, türkologiya tarixində öz adını əbədiləşdirə bilərdi. Lakin məcmuənin nəşri ilə alim öz yurdunu ürəkdən sevən, onun təəssübünü çəkən, həyatını "Azərbaycan davasına" həsr edən bir vətənpərvər olduğunu bir daha sübut etmişdir.

Doğu ellərimiz ağızlarından toplamalar". Ə.Cəfəroğlunun folklor materiallarının toplanması və araşdırılması sahəsində təklif etdiyi tələblər bu tədqiqatın yazıldığı dönəmdə sovet ölkəsinin tərkibindəki türkdilli xalqların tədqiqatçıları üçün imkansız idi.

Hələ 1940-cı ildə dinləyicilər üçün məruzə formasında hazırlanan "Folklorumuzda milli həyat və dil bakiyələri" adlı tədqiqatında Ə.Cəfəroğlu Anadolu folklorunu toplayıb, amma digər türkdilli xalqların yaradıcılığına əhəmiyyət verilməməsinin yolverilməz olduğunu göstərirdi. Ə.Cəfəroğlu on bir il (1940-1951) ərzində Türkiyənin bir çox bölgələrini qarış-qarış gəzmiş, müxtəlif dialektlərə aid folklor materiallarını toplamış və bu nəhəng külliyyatı sistemləşdirərək, "Quzey Doğu ellərimiz ağızlarından toplamalar. Ordu, Girəsun, Trabzon, Rizə və yörəsi ağızları" və s. adlarla silsilə kitablar şəklində çap etdirmişdir. Təxmini hesablamalara görə, Əhməd Cəfəroğlunun bu illər müddətində topladığı materiallar 18 dastan, 18 dua, 107 lətifə qrupu, 7 hekayə, 42 mahnı, 8 layla, 181 oyun və 141 məsəldən ibarətdir [Caferoğlu, 1940, s. 21].

Onun tələbəsi olmuş türk yazıçı Y.Bəyzadə xatirələrində qeyd edirdi ki, əvvəlcə kəndlilərin qaynaşdığı səs-küylü bazar yerlərini gəzər və qulağımızı bölgənin ləhcəsindəki xarakterik səslərə alışdırırdıq. Xüsusən yaşadığı mühitdən kənara çıxmamış yaşlıları danışdırır və yazırdıq. Çox maraqlı bir fakt da diqqət çəkir ki, yorulmaz elm fədaisi hətta həbsxanalarda məhbuslarla görüşərək onlardan da xalq ədəbiyyatı örnəklərini toplamışdı: "Aydın həbsxanasına getmişdik. Müəllimim müdirə səkkiz-on nəfər oxuma-yazma bilməyən dustaqla görüşmək istədiyini bildirdi. Onlarla bir otağa toplandıq və dil materialı yığacağımız üçün bizə hekayə, yerli mahnılar, şeirlər söyləmələrini xahiş etdik…"[Cəfəroğlu, 2018, s. 11].

Ə. Cəfəroğlunun topladığı materiallar içərisində Azərbaycan türklərinin sıx məskunlaşdığı Ərzurum və Qars bölgələrinə məxsus nümunələr milli folklorumuzun yayılma arealını öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir [Sertkaya, 1996, s. 214]. Həmin materiallar 1941-ci ildə toplanmış və ilk dəfə 1942-ci ildə İstanbulda nəşr olunmuşdur. Buraya bayatı, sayaçı sözləri, atalar sözləri, rəvayətlər, dastanlar, aşıq şeirləri, xalq oyunları və s. ilə yanaşı, hətta Azərbaycanda hələ də toplama zamanı nəzərə alınmayan materiallar (məsələn, heyvanlara müraciət formaları, bölgəyə xas qadın və kişi adları və s.) daxil olunmuşdu. Görkəmli türk alimi Osman Fikri Sərtqayanın Ə. Cəfəroğlunun ölümünün iyirminci ili münasibətilə etdiyi çıxışında çox maraqlı bir fikir vardır: "Min il öncə Kaşğarlı Mahmud Orta Asiyanı addım-addım gəzdi. Ondan "Divanü-lüğətit türk" var. 50 il öncə isə Ə. Cəfəroğlu Anadolunu qarış-qarış gəzdi. Ondan isə on cildlik "Anadolu ağızları dərləmələri var". Deyə bilərik ki, bu müqayisə Ə.Cəfəroğlunun toplayıcılıq sahəsindəki fəaliyyətinə verilən ən böyük dəyərdir.

Nəticə

Göründüyü kimi Əhməd Cəfəroğlu bütün ömrünü doğma dilimizin, ədəbiyyat və mədəniyyətimizin tədqiqinə həsr etmiş dəyərli elm adamı və adı həqiqətən milli düşüncə tariximizə böyük hərflərlə yazılmağa layiq olan görkəmli ziyalı, vətənpərvərdir. O, öz elmi fəaliyyətində və şəxsiyyətində bütün türk dünyasının ən yüksək mənəvi dəyərlərini birləşdirmiş, türklüyə və insanlığa xidmət etmişdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azerbaycan yurt bilgisi, İstanbul, 1932, № 1. 48 s.

2. Caferoğlu A. Azeri Edebiyatında İstiklal Mücadelesi izleri, "Azerbaycan Yurt Bilgisi", İstanbul: 1932, yıl 1, sayı 8-9, 291 s.

3. Caferoğlu A. Folklorumuzda milli hayat ve dil bakiyeleri, C.H.P, Konferanslar serisi, Kitap 16, İstanbul: 1940, 221 s.

4. Cəfəroğlu Ə. Doğu ellərimiz ağızlarından toplamalar (Qars, Ərzurum, Çoruh elləri ağızları). Bakı, Elm və təhsil, 2018, 312 s.
5. Əhmədli B. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı:Elm və təhsil nəşriyyatı. 2017. 243 s.
6. Həsənova Ş. Mühacirət irsimizin "Yurd bilgisi". Bakı-2014. 198 s.
7. Quliyev V. "Tarixdə iz qoyan şəxsiyyətlər", Bakı, "Ozan", 2000, səh. 584
8. Sertkaya O. F. Ölümünün 20. Yıl dönümünde Hocam Ahmet Caferoğlu, "Türk dili ve Edebiyatı Dergisi", 1996, s. 258
9. Türk Dil Kurumu Belleteni. Ankara, 1975, No 2

THE CONTRIBUTION OF GANJA TO WORLD TURKOLOGY: IN THE CONTEXT OF AHMED JAFAROGLU'S LEGACY

Ilahe Asadzade
Nargiz Rasulova
Nurane Hasanova

Ahmet Jafaroglu was a valuable scientist who was attached to the Motherland - Azerbaijan with all his being and never hesitated to declare it loudly, appreciating the exceptional place and role of Azerbaijan in the Turkic world. In the article, the issues of the study of our national cultural heritage and independence are touched upon in the magazine "Azerbaijan yurd bilgis", which he authored. The magazine, which played an important role in the history of Azerbaijani studies in the 20th century, not only studies the culture of Azerbaijan with scientific principles, but also talks about the struggle for national independence and state independence, the path taken by the Azerbaijani political emigration. It was also reported that the great scientist traveled around many regions of Turkey in the years 1940-1951, collected and systematized folklore materials related to different dialects, and created a unique school of Turkology in the field of the history of the Turkish language.

Keywords: *Ahmet Jafaroglu, emigration, Turkology, folklore, "Yurd bilgi" magazine.*

ORXAN KAMALIN YARADICILIĞINDA SOSİAL-İCTİMAİ MƏSƏLƏLƏR

Nəzrin Əlizadə
AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi
Kiçik elmi işçi
nezrinelizade24@gmail.com
https: //orcid.org/0009 0008 6454 3713

Orxan Kamalın böyük yazı istedadının və yaradıcılıq fəaliyyətinin əsrlər boyu davam edən türk ədəbiyyatının zənginləşməsindəki rolu danılmazdır. Orxan Kamal realist türk ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Yazıçının əsərləri cəmiyyətin problemlərini ustalıqla təsvir edir və həyat həqiqətlərinə əsaslanır. Kamalın əsərlərində insanın daxili dünyası, cəmiyyətlə münasibətləri, sosial və psixoloji mübarizələri xüsusilə nəzərə çarpır. Onun romanlarında adi insanlar təkcə fiziki yoxsulluqla deyil, həm də daxili qarışıqlıq, qorxu və mürəkkəb hisslərlə mübarizə aparırlar. Orxan Kamalın əsərlərində adi insanlar həmişə cəmiyyətin daha zəif təbəqələrini təmsil edən personajlar kimi görünürlər. Bu insanlar adətən fəhlələr, kəndlilər, kasıblar, kimsəsizlər və şəhərin kənarında ilişib qalan insanlardır.

Açar sözlər: *sosial məsələlər, ailə dəyərləri, fabrik işçiləri, inteqrasiya, ictimai gerçəklik*

Giriş

Biz Orxan Kamalın əsərlərində ictimai hadisələr fonunda sosial məsələlər, ailə-məişət problemləri, insanların şəxsi münasibətlərini görürük. Xüsusilə də, "Bərəkətli Torpaqlar Üzərində" əsərində biz bunların şahidi oluruq. Müəlllif, burada kənddən şəhərə işləməyə gələn insanların çox ağır şərtlərlə, az məvacib qarşılığında, gərgin iş rejimində işlədiklərini, eyni zamanda onların bu ağır şərtlərə müəyyən qədər etirazlarını və qismən də olsa mübarizələrini böyük bir ustalıqla, məharətlə əks etdirmişdir.

"Balta Çəliyin arvadı" adlı hekayədə kasıblığın bir ailə təşkilatı üzərindəki təsirləri sərgilən mişdir. Hekayədə müəllif Balta Çəlik adlı bir işçi və ailəsinin həyatını qələmə alır. Hekayə qəhrəmanlarından Balta Çəlik aylıq məvaciblə çalışan bir işçi olaraq çox pul qazana bilmədiyi kimi, qazandığını da ailəsinə xərcləməyən mənfi bir şəxsiyyət olaraq təsvir edilmişdir. Pulunu ya qumarda itirir, ya da başqa qadınlarla əyləncəyə xərcləyir. Belə ki, Balta Çəliyin hekayədə sərgilənən bu məsuliyyətsizliyi arvadı Seyrandan əlavə, oğlu Qasımın da çox kasıb bir həyata məhkum olmasına səbəb olur. Hekayə bu kasıblıq evdə səsi çıxan biri olaraq "evin rəisi" mövqeyində olan ərin evinə çörək gətirmək kimi məsuliyyətdən uzaq düşməsi nəticəsində evin qadının qeyri-əxlaqi bir həyata sürüklənməsi və evin uşağının dilənçilik kimi bir vəziyyətə düşməsini özündə ehtiva edir.

Ailənin aşağı gəlir vəziyyətindən uşaqların zərər çəkmiş olmasının izah edildiyi hekayələrdən biri "Telefon" adlı hekayədir. Yazar, burada, ailənin iqtisadi vəziyyətinin uşağın həyatına olan təsirlərini hərarətlə əks etdirmişdir.

"Bir uşaq" adlı hekayədə kimsəsiz bir uşağın ac qarnına və yalınayaq bir şəkildə küçədə gəzməsi mövu obyektinə çevrilib. İstanbulun öz dövrü üçün ən parıltılı və zəngin prospektlərindən birində getməkdə olan kiçik uşaq isti bir yerdə yata bilmək və qarınını doyura bilmək üçün həbsxanaya düşməyi istəyəcək qədər çətin vəziyyətdədir. Bu əsərdə varlı-kasıb təbəqələşməsi çox aydın şəkildə görünür.

Orxan Kamal sahə və fabrik işçiləri olmaqla iki tip işçini hekayələrində əks etdirmişdir. Bu iki tip işçi sinfindən başqa hambal, xidmətçi, inşaat ve b. işçilərə hekayələrində az da olsa yer vermişdir. Misal olaraq "Qardaş payı" adlı hekayədə bir müdir əhatəsində olan hambalbaşının hamballarının öz mənafeyi uğrunda istifadə edilməsi əks olunur. Yazıçı bu tip hekayələrində də güclü olanın zəifi əzməsini ifşa edir. İşçilərin çətin şərtlər altında işlədilmələri, işverənləri tərəfindən insafsızca işlədilmələri, əməklərinin qarşılığının verilməməsi, dolanışıqlarını davam etdirmək adına buna reaksiya verməmələri hekayələrindəki ortaq cəhətlər olaraq sıralana bilər. Orxan Kamal bir neçə hekayəsi istisna olmaqla ümumilikdə bu vəziyyət qarşısında işçilərin necə özlərini müdafiə etmək gərəkdiyi mövzusuna çox da dəyməz. İşçilərin maddi vəziyyətinə çox zaman çözüm tapılmasa da, "Grev" adlı kitabına da ad olan

"Grev" hekayəsində bu cəhətin əksinə haqsızlıq qarşısında birlikdə hərəkət edilərsə haqların qazanılacağı düşüncəsi hakimdir.

Sahə işçilərinin vəziyyəti də, digərlərindən fərqli deyildir.Onlar da eynən fabrik müdirlərinə çox bənzəyən torpaq ağalarının əlində yalnız ac qalmamaq üçün çalışmaya məhkumdurlar.

Yazıçı çalışanların çalışma şərtlərinə diqqət çəkərkən, bir yandan da, iş tapa bilməyənlərin keçim sıxıntısına, işini itirmə qorxusu daşıyanların günlük narahatlıqlarını da əks etdirir.

Qəhrəmanı uşaq olan, uşaqların yaşamlarından bəhs edən hekayələr, Orxan Kamalın hekayələri içərisində olduqca çox yer tutur. Ailə büdcəsinə dəstək olmaq məqsədilə təhsilini yarıda saxlayan uşaqların hər hansı bir sosial qorunmayla təmin olunmadan, lazım gələrsə həftə sonu və gecələri fabriklərdə çalışdırılmaları Orxan Kamalın ən çox diqqətini çəkən mövzudur.

Orxan Kamal yoxsulluğu insanları çirkinliklərə yönəlməsindəki əsas səbəblər arasında göstərərkən varlı insanların da eyni yanlışları sərgiləməsi, "problem"in başqa yerdə axtarılması gərəkdiyini əks etdirən önəmli bir dərk etdirmə metodu kimi qarşımızda durmaqdadır.

Orxan Kamalın bu təməl mövzuları, eyni zamanda eyni tarixi və ictimai qanunlar altında, insanlıq və kimliyi kökü nə olursa olsun, insanın eyni və dəyişməz davranış tərzlərinə yönəldiyini iddia edir ki, bu, ictimai hadisələri dialektik materializm baxış bucağı ilə izah etmənin nəticəsidir.Belə ki, fərd nə qədər mayasında yaxşılıq gözəllik və dəyərli bir almazı özündə birləşdirirsə də, cəmiyyət içərisində istənməyən davranış tərzlərini sərgiləyənlər olduqca çoxdur.

Orxan Kamalın romanlarında İstanbulun kapitalistləşən çöhrəsini də görürük.

Yoxsulluq və aclıqla boğuşan bir şəhərdə iki arada bir dərədə qalmışlıq ruh halı önə çıxmaqdadır. Gənc qızlar fabriklərdə iş seçirlər. Qızları fabrikdə çalışan ailələr romanın bir yerində mütləq bu vəziyyətdən narahat olduqlarını ifadə etməkdə, bir gün yenidən kəndlərinə dönməyi düşünərək təsəlli olmaqda, köhnə həyatları üçün darıxmaqdadırlar. Ailələr parçalanır, köhnə quruluş bunu heç cür qəbul edə bilmir. Gənc quruluş isə həm köhnələrlə döyüşməkdə, həm yenini içinə həzm etməmiş olaraq sinif atlama xəyallarının bataqlığında qıvrılmaqdadır. Ortada qalmışlar səfilliyə çoxdan alışmışdır [16, s. 89].

1966-cı ildə yazdığı "Evlərdən Biri" romanı ədəbi baxımdan çox müvəffəqiyyətli olmasa da dövr haqqında bizə olduqca çox məlumat təqdim etməkdədir. Dəmiryoluçu Sədinin uşaqları romanın mərkəzindədir. Burjuaziyaya səriştəli işçinin lazım olduğu bir dövrdə oxumaq, universitetə getmək işçilər arasında çox mühümdür.

Yazar, "bir növ qabartma kino texnikasını istifadə etdiyini "özünü aradan çəkib oxucunu izah etdiyi şeylərlə baş-başa buraxdığını" söyləyirsə də, bunun yalnız bir dilək olaraq qaldığı şübhəsizdir. Çünki qəhrəmanlarının kiminə acıyaraq, kimini sevərək, kimindən nifrət etdiyini müəyyən edərək "özünü aradan çəkmə" ölkəsindən uzaqlaşar. Hadisələri tez-tez şərh edərək normal axışlarına mane olar. Ətrafdakı insanlara realist müşahidəçi kimi deyil, şikayətçi bir adamın qisasıyla baxmaq onun yaradıcılığına xas əsas xüsusiyyətdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Altınqaynaq. H. Hekayə Yazarı Orxan Kamal.
İstanbul: Yazko, 1983
2. Əliyev C. Azərbaycan Ədəbiyyatında Sosial Realizm. Bakı: Azərnəşr, 2002
3. Fahir Ö. Orxan Kamalın Ədəbiyyata Girişi üzrə Qeydlər. İstanbul. Cümhuriyyət Sənət-Ədəbiyyat dərgisi. 1970, iyul.
4. Hüseynov R. Orxan Kamalın Əsərlərində Sosial Problemlər və İnsan Psixologiyası. Bakı: Şərq-Qərb, 2004
5. Türk Hekayə Tədqiqatları. Konya. Tablet kitab evi, 2009

SOCIAL ISSUES IN ORKHAN KEMAL`S WORK

Nazrin Alizade

The role of Orkhan Kamal's great writing talent and creative activity in enriching the centuries-old Turkish literature is undeniable. Orkhan Kamal is one of the prominent representatives of realist Turkish literature. The writer's works masterfully describe the problems of society and are based on the truths of life. In Kamal's works, the inner world of a person, his relationship with society, social and psychological struggles are especially noticeable. In his novels, ordinary people struggle not only with physical poverty, but also with inner turmoil, fears and complex feelings. In the works of Orkhan Kamal, ordinary people always appear as characters representing the weaker sections of society. These people are usually workers, peasants, the poor, the destitute, and people stuck on the outskirts of the city.

Keywords: *Social issues, family values, factory workers, integration, social reality*

QLOBALLAŞMA PROSESLƏRİNİN TÜRK DÜNYASINA TƏSİRLƏRİNİN ELMİ-TƏHLİLİ

Püstə Cəfərova
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu
Doktorant
Naxçıvan Dövlət Universiteti
Müəllim
pustajafarova@ndu.edu.az
https://orcid.org/0009-0004-1883-6962

Bu məqalədə qloballaşmanın türk dünyasına çoxölçülü təsirlərinin elmi təhlili təqdim olunur. Burada vurğulanır ki, 20-ci əsrin ikinci yarısından etibarən qloballaşma sürətlənib və iqtisadi, siyasi, sosial, mədəni və texnoloji sahələrdə dərin dəyişikliklərə səbəb olub. Bu proses dövlətlər arasında qarşılıqlı asılılığı artırıb və yeni beynəlxalq və regional əməkdaşlıq mexanizmlərinin yaranmasına da töhfə verib. Sovet İttifaqının dağılmasından sonra yeni müstəqillik qazanan türk respublikaları qlobal iqtisadi sistemə inteqrasiya prosesinə daxil olublar. Lakin bu keçid həm imkanlar, həm də əhəmiyyətli çətinliklər gətirib. Xüsusilə, iqtisadi sistemlərin yenidən qurulması, bazar iqtisadiyyatına keçid və qlobal bazara uyğunlaşma bu dövlətlərdə əhəmiyyətli struktur dəyişikliklərinə səbəb olub. Məqalədə türk dünyasında inteqrasiya meyllərinin güclənməsi vurğulanır və TÜRKPA, TÜRKSOY və Türk Şurası kimi təşkilatlar vasitəsilə əməkdaşlığın dərinləşməsi qeyd olunur. Eyni zamanda, Türk Birliyi ideyası çərçivəsində iqtisadi, siyasi və təhlükəsizlik sahələrində ortaq mexanizmlərin yaradılması təklif olunur.

Açar sözlər: *Qloballaşma, Türk dünyası, inteqrasiya, siyasi əməkdaşlıq*

Giriş

Dünya, xüsusilə 1950-ci illərdən sonra ciddi bir transformasiya mərhələsinə qədəm qoymuşdur. Alimlər bu transformasiyanı qloballaşma kimi səciyyələndirmişlər. Qloballaşma prosesinin dərk edilməsi, dəyişən dünyada yaşayan insanlar üçün zəruri hesab olunur. Bu prosesin anlaşılması müasir dünyanın daha dərindən və hərtərəfli qavranılmasına imkan yaradır. Ötən əsr, sivilizasiyanı yeni və daha yüksək bir mərhələyə yüksəldən qloballaşma əsri kimi xarakterizə olunur. Texnologiya sahəsində sürətli dəyişikliklər, qlobal ticarət və maliyyə axınlarında sərbəst dövriyyənin genişlənməsi, maliyyə siyasətində əsas prinsiplərin yenidən formalaşdırılması, ölkələrdə neoliberal yanaşmaların güclənməsi, demokratiya sahəsində baş verən yeni inkişaflar və cəmiyyətlərin təşkilati strukturlarında müşahidə olunan fərqli yanaşmalar intensiv və çoxşaxəli dəyişiklik mərhələsinə gətirib çıxarmışdır.Qlobal inkişaf meylləri, dini inanclar, tarixi və mədəni ənənələrdəki fərqliliklərdən asılı olmayaraq, ölkələr və millətlər arasında qarşılıqlı asılılığı davamlı şəkildə artırmaqdadır.

Qlobal təkamül bir tərəfdən milli və daha aşağı səviyyələrdə fərqli idarəetmə modellərinin tətbiqini zəruri edərkən, digər tərəfdən dövlətlərin fövqəlmilli səviyyədə düşünən və fəaliyyət göstərən təşkilatların əhəmiyyətini ön plana çıxarmışdır. Bu proseslə əlaqədar olaraq davam edən regional və ya qlobal formalaşmalar, zəngin tarixi ilə qlobal mədəniyyətə mühüm töhfələr vermiş türk dövlətlərini də kənarda qoymamışdır. Qloballaşmaya istiqamət verən aparıcı qüvvələr maliyyə, sosial, siyasi, mədəni, ekoloji və texniki-elmi amillər kimi səciyyələndirilə bilər. TURKPA, TÜRKSOY və Türk Şurası kimi qurumlar türk dillərində danışan ölkələr arasında geniş əməkdaşlığın təşviqi məqsədilə hökumətlərarası təşkilatlar kimi yaradılmışdır. Bu qurumların təsiri yalnız türk dünyası ilə məhdudlaşmayaraq, keçmiş sovet məkanına daxil olan ölkələr üzərində də birbaşa şəkildə hiss olunmuşdur (Erkiner, Eray, 2022, s. 18).

Türk Dünyası üçün Qloballaşmanın Mədəni, Siyasi və İqtisadi Nəticələri

Sovet İttifaqının dağılması nəticəsində onun mövcudluğuna son qoyulması, dünyanın altıda birini əhatə edən geniş bir ərazidə geosiyasi status-kvonu tamamilə dəyişdirmişdir. Sovet İttifaqının tərkib hissəsi olmuş bütün dövlətlər kimi Qazaxıstan, Azərbaycan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın daxil olduğu türk dövlətləri də müstəqilliklərini elan edərək, bütün suveren hüquqları ilə dünya istehsal sisteminin azad subyektlərinə çevrilmişlər. Bazar iqtisadiyyatının formalaşdırılması strategiyası ilə inkişaf yolunu seçən bu yeni müstəqil dövlətlərin sosial-iqtisadi həyatı müstəqilliyin ilk illərində dərin transformasiyaya məruz qalmışdır. Adı çəkilən respublikaların hamısında postsovet dövründə bütün iqtisadi əlaqələrin köklü şəkildə yenidən qurulması prosesi başlanmışdır. Bu proses, bir tərəfdən, həmin dövlətlərin qlobal bazara daxil olmasını sürətləndirsə də, digər tərəfdən beynəlxalq ticarət əlaqələrinin qurulması zamanı mürəkkəb və sərt qaydalarla xarakterizə olunan qlobal bazara inteqrasiya mərhələsində ciddi çətinliklərin yaranmasına səbəb olmuşdur.

Sovet dövründə mövcud olan regional sistemin, ticarət mühitinin və iqtisadi imkanların itirilməsi, vahid iqtisadi sistemin tamamilə dağılması, eləcə də qlobal bazara xammaldan başqa rəqabətədavamlı məhsulların təqdim edilə bilməməsi, bu dövlətlərin iqtisadiyyatlarının uzunmüddətli və mürəkkəb maliyyə-sosial problemlər mühitinə daxil olmasına gətirib çıxarmışdır. Sovetlərdən sonrakı dövrdə türk dövlətləri mühüm iqtisadi potensiallarına görə, coğrafi məsafədən asılı olmayaraq, müxtəlif miqyaslı dövlətlərin və beynəlxalq təşkilatların diqqət mərkəzinə çevrilmişdir. Enerji ehtiyatları ilə zəngin olan bu regionda qlobal səviyyədə bir çox ölkələrin maraq və gözləntilərinin toqquşduğu, təsir və nəzarət uğrunda mübarizənin getdiyi müşahidə olunur. XIX əsrin sonu və XX əsrin əvvəllərində aparıcı dövlətlər tərəfindən həyata keçirilən "Böyük oyun" siyasəti bu gün artıq fərqli üsullarla davam etdirilməkdədir. (Turkic Academy., Organization of Turkic States, 2023) Müasir dövrdə dünyanın əksər aparıcı dövlətləri bu təsir, nüfuz və nəzarət mübarizəsinin iştirakçılarıdır. Regional baxımdan yanaşıldıqda isə postsovet türk dövlətlərinin cəlbedici bazarları uğrunda rəqabət əsasən Rusiya, Türkiyə və İran kimi regional güclər arasında davam etməkdədir. Türk dövlətləri öz müstəqil iradələri əsasında bir araya gələrək ortaq sənəd hazırlamaq və müzakirələr aparmaq imkanına malikdirlər. Belə bir azad iradənin formalaşması və praktikada reallaşdırılması üçün xalqı təmsil edən deputatların və dövlət idarəçiliyində təmsil olunan rəhbərlərin qətiyyətli mövqe sərgiləməsi zəruridir. Bu istiqamətdə cəmiyyətin aşağı təbəqələrindən gələn tələbin formalaşması və onun siyasi səsə çevrilməsi vacibdir; Türk Birliyinə "bəli" deyəcək deputatların və dövlət rəsmilərinin seçilərək parlamentə göndərilməsi tələb olunur.

Türk dünyası üzrə mütəxəssislərin fikrincə, birliyin formalaşdırılması üçün prioritet hesab edilən istiqamətlər əsasında türk dövlətlərinin rəhbərlərinə "Türk Birliyi çağırışı" ilə müraciət etmək mümkündür. Bu çağırış, dövlət başçılarının konkret addımlar atmasının vacibliyini vurğulayır. Həmin addımlar Türk Birliyinə dair "Qoşulma Tərəfdaşlığı Sənədi"nin hazırlanmasını və bu çərçivədə yeddi müstəqil türk dövləti arasında danışıqların başlanmasını nəzərdə tutur. (Nayak, 2000).Qoşulma Tərəfdaşlığı Sənədində nəzərdə tutulan şərtlərə uyğunlaşmaqda çətinlik çəkən dövlətlər, ortaq vergi və digər maliyyə mənbələrindən ayrılan vəsaitlər hesabına uyğunlaşma imkanları əldə etməlidirlər. Bu çərçivədə əsas istiqamətlər aşağıdakılardır:

1. Viza tələblərinin aradan qaldırılması və mal, xidmət, insan və kapitalın sərbəst hərəkəti,
2.Nəqliyyat, təhsil, kənd təsərrüfatı, mədəniyyət və balıqçılıq sahələrində ortaq siyasət,
3. Enerji, kosmos və su ehtiyatları üzrə birgə tədqiqat siyasəti,
4. İqtisadi və valyuta birliyi, eləcə də ortaq vergi sistemi,
5. Vahid xarici siyasət və təhlükəsizlik strategiyası,
6. Birgə müdafiə sənayesi və ordu,
7. Türk Birliyi Mərkəzi Bankının yaradılması (Altymyshova, Omurova, 2025, s. 41–64).

Bu maddələrdən birincisinin belə bu gün həyata keçirilməsi üçün ciddi manea mövcud deyil və bu, Türk Birliyinin reallaşması istiqamətində ilkin addım kimi qiymətləndirilə bilər. Türk Birliyi ide-

yasının zəruriliyini və praktik həyata keçirilə biləcəyini geniş türk dünyasına çatdırmaq və bu ideyanın inkişaf etməsi üçün uyğun mühit yaratmaq məqsədilə aşağıdakı tədbirlər təklif olunur: aylıq nəşrlərin yaradılması, radio və televiziya proqramlarının təşkili, eləcə də bütün türk dövlətlərinin nümayəndələrinin iştirak etdiyi və birliyin inkişafı üçün fəaliyyət göstərən mərkəzi və səlahiyyətli qurumun təsis edilməsi. Müstəqil türk dövlətlərində və xaricdə yaşayan türk icmalarının birgə səyləri nəticəsində fərdlərin və təşkilatların bir araya gəlməsi, Türk Birliyinə dəstək verənlərin sayının yüz milyonlarla ifadə olunacaq səviyyəyə çatdırılması vacib hesab edilir (Türk Devletleri Teşkilatı, 2022).

Bu məqsədə çatmağın iki əsas yolu mövcuddur. Birinci yol, cəmiyyətin özündən irəli gələn tələbin formalaşması və bu tələbin seçkilər vasitəsilə Türk Birliyini dəstəkləyən nümayəndələrin parlamentlərə göndərilməsi ilə nəticələnməsidir. Bu proses xalqlar arasında qarşılıqlı əlaqələrin güclənməsi və birliyin həm fərdi, həm də milli maraqlara xidmət edəcəyinə dair inamın artması ilə bağlıdır. İkinci yol isə xalqı təmsil edən deputatların və dövlət rəhbərlərinin Türk Birliyinə dəstək verməsini təmin etmək və bu istiqamətdə danışıqlara başlamaqdır. Bu proses, ideyanı dəstəkləyən ictimai qrupların, institutların, həmçinin siyasi təsir və lobbiçilik fəaliyyəti aparan siyasətçilərin səyləri nəticəsində mümkün ola bilər.

Nəticə

Nəticə etibarilə, qloballaşmanın iqtisadi, sosial, siyasi, mədəni, ekoloji və texnoloji ölçülərə malik mürəkkəb bir anlayış olduğunu qeyd etmək olar. Son dövrlərdə türk dünyasında yaxınlaşma, inteqrasiya təşəbbüsləri, eləcə də iqtisadi və mədəni əlaqələr sürətlə inkişaf etməkdədir. Türk dünyası parlamentinin yaradılması məsələsi də aktuallıq qazanmışdır. Türkiye ilə Azərbaycan arasında münasibətlər "bir millət, iki dövlət" prinsipi əsasında inkişaf etməkdədir. Bütün bunlarla yanaşı, türk respublikalarında mədəni dəyərlərin möhkəmlənməsi prosesi müşahidə olunur və ortaq mənəvi-mədəni kimlik getdikcə daha çox ön plana çıxır. Bu ümumi mənəvi ruhun güclənməsi, türk dünyasında inteqrasiyanın dərinləşməsi istiqamətində mühüm amil kimi çıxış edir. Xarici iqtisadi və siyasi məsələlər üzrə müqayisə edilə bilən baxış bucağına malik olmaq, daha dərin siyasi və iqtisadi birliyin formalaşmasını asanlaşdırdığından, türk regional əməkdaşlıqları və türk dövlətlərinin səsvermə davranışlarının oxşarlığı üzrə aparılacaq tədqiqatlar, Türk Şurası ölkələrinin, xüsusilə digər dövlət qrupları ilə müqayisədə, xarici siyasət məsələlərində kollektiv mövqe nümayiş etdirmək qabiliyyətini daha aydın şəkildə ortaya qoyacaqdır. Nəticə olaraq, gələcək tədqiqatlar Türk Birliyinə aparan konkret inteqrasiya proseslərini formalaşdıran hadisələrə, qərarlara və türk dövlətlərinə fokuslanaraq siyasətlərin yaxınlaşmasının necə baş verdiyini daha dərindən araşdıra bilər. Zəruri təbliğat və maarifləndirmə tədbirləri həyata keçirildikdən sonra, türk dövlətləri xalqlarının dəstəyi ilə Avropa İttifaqı kimi təsirli və funksional bir Türk Birliyinin yaradılmasına nail olmalıdırlar.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Altymyshova, Z., Omurova, C. (2025). Türk Devletleri Teşkilatı'nın tarihi gelişimi ve gelecek vizyonu. Marmara Türkiyat Araştırmaları Dergisi, 12(Türk Devletleri Teşkilatı (Dünü, Bugünü, Yarını)), 41–64

2. Erkiner, H., Eray, İ. (2022). Uluslararası hukuk bakımından bir uluslararası örgüt olarak Türk Devletleri Teşkilatı. Güvenlik Stratejileri Dergisi, 18

3. Nayak, G. (2000). Development of transport and communication: A case study.

4. Türk Devletleri Teşkilatı. (2022). 8. Zirve deklarasyonu. https://www.turkkon.org/ assets/pdf/haberler/8-zirve-deklarasyonu-2395-94.pdf Walt, S. M. (1985). Alliance formation and the balance of world power.

5. Turkic Academy., Organization of Turkic States. (2023). Report on Turkic economies 2023: Digital trade and investment. Turkic Academy & Secretariat of the Organization of Turkic States.

A SCIENTIFIC ANALYSIS OF THE EFFECTS OF GLOBALIZATION PROCESSES ON THE TURKIC WORLD

Puste Jafarova

This article provides a scholarly analysis of the multidimensional impacts of globalization on the Turkic world. It emphasizes that since the second half of the 20th century, globalization has accelerated, bringing profound transformations in economic, political, social, cultural, and technological spheres. This process has increased interdependence among states and has also contributed to the emergence of new international and regional cooperation mechanisms. Following the dissolution of the Soviet Union, the newly independent Turkic republics entered the process of integration into the global economic system. However, this transition has brought both opportunities and significant challenges. In particular, the restructuring of economic systems, the shift to market economies, and adaptation to the global market have caused substantial structural changes in these states. The article highlights the strengthening of integration trends within the Turkic world and notes the deepening cooperation through organizations such as TURKPA, TÜRKSOY, and the Turkic Council. At the same time, it proposes the establishment of common mechanisms in economic, political, and security fields within the framework of the idea of a Turkic Union.

Keywords: *Globalization, Turkic world, integration, political cooperation*

SAXUR FOLKLORUNDA İNANCLAR

Sahibə Musayeva
AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu
Dissertant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Müəllim
aliyarbeyova.s@mail.ru
https://orcid.org/0000-0001-8091-925X

Bu tədqiqat, Şimal-Qərb Azərbaycanında yaşayan Saxur xalqının mənəvi mədəniyyətini, qədim inanclarını və mövsümi rituallarını araşdırır. Yerli informatorlardan toplanan şifahi məlumatlara əsaslanaraq, tədqiqat, məhsuldarlıq ayinlərinə, yağış yağdırma mərasimlərinə (məsələn, "Qodu") və Mövlud və Qədr gecəsi kimi dini-mistik ayinlərə diqqət yetirərək, solmaqda olan ənənələri sənədləşdirir. Əsərin əhəmiyyətli bir hissəsi ailə folklorunu - o cümlədən doğuş, ad qoymaq ənənələrini və "bəd nəzər"dən qorunmağı təhlil edir və qədim sehrli inanclar ilə İslam elementləri arasında unikal bir sinkretizmi ortaya qoyur. Nəticədə, bu tədqiqat Saxur xalqının əsrlər boyu davam edən irsinin qorunmasına xidmət edir və Azərbaycanın müxtəlif etnik-mədəni mənzərəsinin konseptual təhlili üçün fundamental əsas yaradır.

Açar sözlər: *saxur folkloru, mövsüm ritualları, etnoqrafiya, ailə-məişət inancları, Azərbaycan*

Giriş

Azərbaycanın multikultural mühitinin qədim laylarından birini təşkil edən saxur xalqı, tarixi kökləri etibarilə Qafqaz Albaniyasının 26 tayfasından biri olan ciqblərin varisləridir. Qafqazdilli ailənin ləzgi alt qrupuna daxil olan bu etnos, əsasən Azərbaycanın Zaqatala və Qax rayonlarında, eləcə də Dağıstanın Rutul rayonunda, Samur çayı hövzəsində məskunlaşmışdır. Saxurların minilliklərdən süzülüb gələn adət-ənənələrini, folklor nümunələrini və dil xüsusiyyətlərini günümüzədək yaşatması, Azərbaycan dövlətinin tolerantlıq modelinin və humanist siyasətinin ən bariz nümunəsidir. Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş bərabərlik prinsipi, bu etnik qrupun özünəməxsus mədəni mənsubiyyətini qoruması üçün fundamental hüquqi baza yaradır:- Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır (Azərbaycan Respublikasının Konstitusiyası, 1997).

Məlumdur ki, hər bir xalqın ictimai varlığının bəyanı üçün onun adət-ənənələri və folkloru mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqının azsaylı xalqlara etimad göstərməsi tolerantlığın ən gözəl nümunəsidir. Azərbaycanda yaşayan bütün milli azlıqlar və etnik qruplar kimi saxurların da özünəməxsus tarixi adət -ənənələri o cümlədən müxtəlif mahnı və rəqs növlərini, toy adətlərini və folklor nümunələrini qoruyub saxlamaları mühüm amillərdən sayılır. Bu da müstəqil dövlət olaraq Azərbaycanın tolerantlığını, xalqımızın humanistliyini təsdiq edən danılmaz faktdır.

Saxur etnoqrafiyasında təbiət hadisələrinə təsir etmək məqsədilə icra olunan rituallar xüsusi elmi əhəmiyyət kəsb edir. Bu mərasimlər təkcə dini-mistik xarakter daşımır, həm də icmanın kollektiv birliyini təmin edən sosial amil rolunu oynayır. Saxur inanc sistemində günəşin çıxması və havanın açılması üçün icra olunan ən mühüm rituallardan biri maxara bişirilməsidir. Uzunmüddətli yağışlar məhsulun tələf olması təhlükəsi yaratdıqda, günəş tanrısına həsr olunmuş bu milli yemək hazırlanardı. Maxara bişirilməsi ilə paralel olaraq, günəşi simvolizə edən "Qodu" müqəvvası qapı-qapı gəzdirilərdi. "*Bu xalq tamaşasında müqəvvanın rituallarla "öldürülüb" yenidən "dirildilməsi*" (Aslanov E. 1984., s. 55) təbiətin dövranını və günəşin zəfərini simvolizə edən qədim mifoloji təfəkkürün qalıqlarıdır. *Əgər qu-*

raqlıq olarsa o zaman tsint yeməyini bişirərlərdi və qohum-qonşu arasında paylanardı (Musayeva, 2024). Bu, aqrar cəmiyyətdə xalqın metafizik qüvvələrlə dialoq qurmaq cəhdidir.

Baharın gəlişi ilə icra olunan mərasimdə atların bəzədilməsi, öküzlərin buynuzuna qırmızı yaylıq bağlanması və kollektiv şəkildə əkin sahələrinin şumlanması (iməclik) əkinçilik mədəniyyətinin ritual tərəflərini əks etdirir. Saxurların dini dünyagörüşündə islam elementləri ilə yerli inancların sintezi aydın görünür. Qurban bayramında uşaqların qorxu yaratmaq üçün geyimlər geyinərək qapı-qapı gəzməsi və "Aleyram sateyram, pay verməsən küseyrəm" kimi ifadələrlə şirniyyat toplaması özünü göstərməkdədir. Həmçinin "Mövlud" və "Qədr gecəsi" ilə bağlı xalq inancları mənəvi həyatın mərkəzində dayanır.

Tədqiqatlar zamanı yerli söyləyicilərin yaddaşından toplanan məlumatlar saxur məişətində qədim tabuların və magik qorunma üsullarının yaşarılığını sübut edir. Beləki, inanca görə axşam saatlarında əncir ağacının altından keçmək, zoğal ağacının altında çox dayanmaq, axşam saatlarında hamilə qadının çölə çıxması müəyyən bədbəxtliklərə səbəb ola biləcəyi inancı ilə qadağan edilirdi. Uşağın nitq inkişafını sürətləndirmək (tez dil açması) üçün kəndlərə bayramlar vaxtı tamaşa göstərməyə gələn kəndirbazların kəndirinin altından keçirilməsi simvolik bir ritualıdır.

Yeni doğulan körpələrin nəsildən-nəslə ötürülən "qırxaçar camı" ilə çimdirilməsi, qapı kandarına yumurta qoyulması, balışının altına dəmirdən əşya qoyulması, *beşiyinə dağdağan ağacından hazırlanan muncuq asılması* (Musayeva, 2021) isə uşağı bəd nəzərdən qorumaq məqsədini daşıyır. Ailədə üçüncü oğlan övladına mütləq "Məhəmməd" adının verilməsi müqəddəs saylara və dini rəhbərlərə olan ehtiramın göstəricisidir.

Bölgədəki ziyarətgahlar (Kürmük kilsəsi, Pəri qala, Diş piri, Dilək piri, Yel, Qorxu və Uşaq pirləri) bölgə əhalisinin milliyyətindən asılı olmayaraq müştərək tapındığı müqəddəs məkanlardır. Beləki şəfa tapmaq, hər hanı bir diləyin yerinə yetməsi, övlad arzusunda olanlar və digər məqsədlər üçün bu məkanlara üz tutulması, Azərbaycanın əsrlərdir formalaşan etnoslararası inteqrasiyasının və tolerant inanc sisteminin mühüm göstəricisidir.

Etnoqrafik müşahidələr əsasında əldə edilən elmi nəticələr təsdiq edir ki, saxur etnosunun mənəvi mədəniyyəti Azərbaycanın vahid etnomədəni arealının ayrılmaz, üzvi və zənginləşdirici komponentidir. Tədqiqat prosesində üzə çıxarılan bu nümunələrin sistemli şəkildə elmi dövriyyəyə daxil edilməsi təkcə lokal bir etnosun irsini deyil, bütövlükdə regionun tarixi-mədəni xəritəsinin bütövləşməsinə xidmət edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Aslanov E. El-oba oyunu, xalq tamaşası. Bakı: İşıq, 1984.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Azərbaycan, 1997
3. Musayeva, S. Şəki-Zaqatala bölgəsində yaşayan azsaylı xalqların adqoyma mərasiminin bəzi xüsusiyyətləri // - Bakı: Tarix, insan və cəmiyyət, Elmi-nəzəri və elmi metodik jurnal, - 2021. № 1(31), - s. 81-84.
4. Musayeva, S. Şəki-Zaqatala bölgəsində yaşayan azsaylı xalqların inancları// - Bakı: Tarix, insan və cəmiyyət, Elmi-nəzəri və elmi metodik jurnal, - 2024. № 4(45), - s. 83-88.

Söyləyicilər:

Şəxsi ekspedisiyadan

1. Bakıda yaşayan əslən saxur olan, 1993-cü il təvəllüdlü Əhmədova Xanpəri
2. Zaqatala rayonu, Gözbarax kənd sakini, 1978-ci il təvəllüdlü Rəfiyeva İradə
3. Zaqatala rayonu, Yeni Suvagil kənd sakini, 1961-ci il təvəllüdlü Turacov Turac

BELIEFS IN TSAKHUR FOLKLORE

Sahibe Musayeva

This research explores the spiritual culture, ancient beliefs, and seasonal rituals of the Tsakhur people living in Northwest Azerbaijan. Based on oral data collected from local informants, the study documents fading traditions, focusing on fertility rites, rain-making ceremonies (such as "Qodu"), and religious-mystical observances like Mawlid and Laylat al-Qadr.

A significant portion of the work analyzes family folklore including childbirth, naming traditions, and protection against the "evil eye" revealing a unique syncretism between ancient magical beliefs and Islamic elements. Ultimately, this study serves to preserve the centuries-old heritage of the Tsakhur people and provides a fundamental basis for the conceptual analysis of Azerbaijan's diverse ethno-cultural landscape.

Keywords: *tsakhur folklore, seasonal rituals, ethnography, family and domestic beliefs, Azerbaijan*

TÜRKOLOJİ QURULTAY İDEYALARI FONUNDA HÜSEYN CAVİDİN ƏDƏBİ-FƏLSƏFİ BAXIŞLARI

Səadət Məmmədova
AMEA-nın Mərkəzi Elmi Kitabxanası
Kitabxanaçı
seadetmemmedova699@gmail.com

1926-cı ildə Birinci Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni yaxınlaşmasında mühüm mərhələ olmuşdur. Qurultay dil, əlifba və ədəbiyyat məsələlərinin müzakirəsi ilə yanaşı, ortaq milli kimliyin formalaşmasına təkan vermişdir. Bu ideoloji mühit Hüseyn Cavid yaradıcılığına da təsir etmişdir. Onun əsərlərində Türkologiya və Türkçülük ideyaları mənəvi birlik və humanizm prizmasında təqdim olunur. Cavid milli kimliyi qorumağı vacib sayır, eyni zamanda ümumbəşəri dəyərləri ön plana çəkir. Onun əsərləri bu baxımdan həm milli, həm də bəşəri məzmun daşıyır.

Açar sözlər: *Birinci Türkoloji Qurultay, Hüseyn Cavid, Türkologiya, Türkçülük, Milli kimlik*

Giriş

2026-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın 100 illiyi tamam olur.

1926-cı ilin 26 fevral–6 mart tarixlərində baş tutan bu mötəbər toplantı XX əsrin əvvəllərində türk xalqlarının elmi və mədəni həyatında dönüş nöqtəsi kimi qiymətləndirilir. Qurultay yalnız dilçilik və ədəbiyyat məsələlərinin müzakirə olunduğu bir elmi forum deyildi, o, eyni zamanda türk xalqlarının ortaq kimliyinin dərk edildiyi, mədəni inteqrasiyanın istiqamətləndirildiyi mühüm intellektual platforma idi [5].

Bakıdakı "İsmailiyyə" binasında keçirilən bu tədbir ümumtürk ədəbi dilinin formalaşdırılması, əlifba islahatı, terminologiyanın sistemləşdirilməsi, eləcə də tarix, arxeologiya və ədəbiyyat sahələrində elmi yanaşmaların müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir.

Qurultayın materialları bu gün də türk xalqları ədəbiyyatı və mədəniyyətinin öyrənilməsində mühüm mənbə kimi istifadə olunur. XIX əsrdən etibarən türk maarifçiləri arasında əlifba məsələsi ciddi müzakirə mövzusu olmuşdur. Bu müzakirələr əsasən iki istiqamətdə inkişaf edirdi: ərəb qrafikasının islahı və latın qrafikasına keçid. M.F.Axundov, İ.Qaspiralı, A.Baytursunov, Ü.Hacıbəyli, M.Şahtaxtinski, H.Cavid, F.Köçərli və digər ziyalılar bu prosesdə fəal iştirak etmiş, milli inkişaf üçün dil və yazı məsələsinin həlledici rolunu vurğulamışlar [3, s. 27-60].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə aparılan ictimai müzakirələr isə bu problemin cəmiyyət üçün nə qədər aktual olduğunu bir daha təsdiqləmişdir. Bu ideoloji və mədəni mühitdə formalaşan görkəmli ədib Hüseyn Cavid Azərbaycan ədəbiyyatında romantizm cərəyanının aparıcı nümayəndələrindən biri kimi tanınır. Onun yaradıcılığı milli-mənəvi dəyərlərin, fəlsəfi düşüncənin və estetik idealın sintezini əks etdirir. Cavidin əsərlərində türkologiya anlayışı yalnız elmi çərçivədə deyil, daha geniş – mədəni və mənəvi kontekstdə təqdim olunur. O, türk xalqlarını ortaq tarix, dil və dəyərlər ətrafında birləşdirən mənəvi bütövlük kimi təsəvvür edir. Yazıçının yaradıcılığında tez-tez rast gəlinən "Turan" ideyası bu bütövlüyün simvolik ifadəsidir.

Lakin Cavidin türkçülük anlayışı siyasi deyil, daha çox mədəni və humanist xarakter daşıyır. O, xalqlar arasında qarşıdurmanı deyil, mənəvi yaxınlığı, qarşılıqlı anlaşmanı və mədəni inkişafı ön plana çəkir. Bu baxımdan onun əsərləri oxucunu milli kimliyini dərk etməyə və eyni zamanda ümumbəşəri dəyərləri mənimsəməyə çağırır. Cavidin dram yaradıcılığı bu ideyaların bədii ifadəsi baxımından xüsusi diqqətə layiqdir.

"Topal Teymur" əsərində tarixi şəxsiyyət obrazı vasitəsilə güc, hakimiyyət və ədalət problemləri fonunda türk dünyasının mürəkkəb taleyi təsvir olunur.

"Səyavuş" dramında mifoloji motivlər və qədim Şərq ənənələri ilə yanaşı, mənəvi saflıq və ədalət ideyaları ön plana çəkilir. "İblis" əsərində isə ümumbəşəri şər qüvvələrin mahiyyəti araşdırılsa da, burada da insanın mənəvi seçimi və milli kimliyi dolayısı ilə əks olunur. Hüseyn Cavidin dünyagörüşünün formalaşmasında onun İstanbul Universitetində keçirdiyi tələbəlik illəri mühüm rol oynamışdır [2, s. 371,420].

1906–1909-cu illərdə burada təhsil alan Cavid yalnız akademik biliklərlə kifayətlənməmiş, dövrün ictimai-siyasi və ədəbi proseslərində də fəal iştirak etmişdir. O, "elm mənə daha vacibdir" prinsipi ilə çıxış edərək özünü daim inkişaf etdirməyə çalışmışdır. Bu dövrdə Namiq Kamal, Ziya Paşa, Rza Tofiq kimi ziyalıların ideyaları ilə yaxından tanış olması onun yaradıcılığına ciddi təsir göstərmişdir [1, s. 459].

Cavidin İstanbul illərində yazdığı şeirlərdə Anadolu türkcəsinin təsiri açıq şəkildə hiss olunur. Lakin sonrakı yaradıcılıq mərhələsində bu dil xüsusiyyətləri tədricən azalaraq daha sabit və milli üslubla əvəz olunmuşdur.

Onun "Keçmiş günlər" adlı şeir toplusu bu keçid mərhələsinin bariz nümunəsidir. Şair həm də təsirləndiyi müəlliflərin ideyalarını yaradıcı şəkildə mənimsəmişdir. Məsələn, Rza Tofiq və Tofiq Fikrətin fəlsəfi və ictimai baxışları Cavidin bəzi şeirlərində öz əksini tapmışdır. "Məzlumlar üçün" kimi əsərlərində ədalətsizliyə qarşı etiraz və humanizm ideyaları ön plana çıxır.

Nəticə

Hüseyn Cavidin ədəbi-fəlsəfi baxışları Birinci Türkoloji Qurultayın ideyaları ilə səsləşən mühüm istiqamətləri əhatə edir. Onun yaradıcılığı milli özünüdərk, tarixi yaddaş və mədəni birlik ideyalarının bədii ifadəsi kimi dəyərləndirilə bilər. Cavidin əsərləri bu gün də aktuallığını qoruyaraq oxucunu həm milli, həm də ümumbəşəri dəyərlər üzərində düşünməyə sövq edir.

Birinci Türkoloji Qurultay türk dünyasında ortaq elmi düşüncənin, dil birliyinin və mədəni yaxınlaşmanın əsasını qoyan mühüm hadisə olmuşdur. Bu proses yalnız elmi müstəvidə deyil, eyni zamanda milli özünüdərk və mənəvi inteqrasiya baxımından da dərin təsir göstərmişdir [6].

Belə bir ideya mühiti Hüseyn Cavid yaradıcılığında yeni məzmun qazanaraq türkçülük və türkologiya anlayışlarını humanist və fəlsəfi müstəvidə təqdim etmişdir.

Nəticə etibarilə, Hüseyn Cavidin yaradıcılığı ilə Qurultayın irəli sürdüyü ideyalar qarşılıqlı şəkildə bir-birini zənginləşdirərək həm milli kimliyin yaşadılmasına, həm də ümumbəşəri dəyərlərin formalaşmasına töhfə verir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş " Türkoloji elmi- mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları : h.2. - Bakı : "Elm və Təhsil". 474 s.

2. Hüseyin Cavid Eserleri / hazrl. A. Turan. İstanbul: Step Ajans Matbaacılık, 2013. - 944 s.

3. Məmmədli, Nadir. 1926-cı il I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda / N. Məmmədli ; Elmi məslh. İ. Həbibbəyli ; Elmi red. N. Cəfərov ; AMEA Nəsimi adına Dilçilik İn-tu. - Bakı : Elm və təhsil, 2026. - 828 s

4. Nəsibli, Nəsib.Türkçü düşüncənin əsasları / N. L. Nəsibli. - Bakı : Qanun, 2022. - 288 s

5. Şamil, Əli. Türkçülüyün qurbanları (Qazaxıstan) / Ə. Şamil. - Bakı: Elm və təhsil, 2013. - 164s

6. Şükürov, Ağahüseyn. Birinci Türkoloji Qurultayın Qazaxıstan təmsilçiləri / A. Şükürov. - Bakı: Elm və təhsil, 2019. - 92 s

HUSEYN JAVID'S LITERARY AND PHILOSOPHICAL VIEWS IN THE CONTEXT OF THE IDEAS OF THE TURKOLOGICAL CONGRESS

Saadet Mammadova

The First Turkological Congress held in 1926 marked an important stage in the scientific and cultural rapprochement of Turkic peoples. In addition to addressing issues of language, alphabet, and literature, the congress contributed to the formation of a shared national identity. This ideological environment also influenced the мворчествво of Huseyn Javid. In his works, the ideas of Turkology and Turkism are presented through the prism of spiritual unity and humanism. Javid considered the preservation of national identity essential, while also emphasizing universal values. In this respect, his works embody both national and universal significance.

Keywords: *First Turkological Congress, Huseyn Javid, Turkology , Turkism, National Identity*

TÜRK DÜNYASINDA MULTİKULTURALİZM: TARİXİ KÖKLƏR VƏ MÜASİR REALLIQLAR

Şənay İsmayılova
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu
Doktorant
Naxçıvan Dövlət Universiteti
Müəllim
shenayismayilova@ndu.edu.az
https://orcid.org/0009-0000-2580-6105

Türk dünyasında multikulturalizm, Avrasiya boyunca uzunmüddətli mədəni, coğrafi və sosial qarşılıqlı təsirlər nəticəsində formalaşan tarixən köklü bir fenomendir. Qədim dövrlərdən bəri türk xalqları müxtəlif sivilizasiyalarla əlaqə saxlamışlar ki, bu da onların sosial və mədəni sistemlərində açıqlığı, tolerantlığı və uyğunlaşmanı təşviq etmişdir. Onların köçəri həyat tərzi müxtəlif etnik qruplarla davamlı qarşılıqlı əlaqəyə imkan vermiş və Buddizm, Xristianlıq və İslam kimi çoxsaylı dinlərin birgəyaşayışına töhfə vermişdir. Bu müxtəliflik, inklüziv inzibati təcrübələrin dil və dini plüralizmin qorunmasını təmin etdiyi Səlcuqlular və Osmanlılar da daxil olmaqla, əsas türk dövlətlərinin idarəçiliyində daha da öz əksini tapmışdır. Çoxdillilik və mədəni mübadilə intellektual həyatı zənginləşdirmiş və mədəniyyətlərarası dialoqu gücləndirmişdir. Müasir dövrdə multikulturalizm Azərbaycan və Türkiyə kimi ölkələrdə dövlət siyasətinin mühüm elementinə çevrilmişdir. Qloballaşmanın yaratdığı müasir çətinliklərə baxmayaraq, multikulturalizmin türk modeli dinc yanaşı yaşamağın və davamlı mədəniyyətlərarası inteqrasiyanın əhəmiyyətli bir nümunəsi olaraq qalır.

Açar sözlər: *Multikulturalizm, Türk dünyası, mədəni müxtəliflik, dini tolerantlıq, etnik qarşılıqlı təsir.*

Giriş

Türk dünyasında multikulturalizm anlayışı yalnız müasir siyasi diskursun məhsulu deyil, onun formalaşması minilliklər boyu davam edən tarixi, coğrafi və mədəni qarşılıqlı təsirlər nəticəsində baş vermiş kompleks bir prosesdir. E.ə. I minilliyin ortalarından b.e.- nın I minilliyinin sonu - II minilliyinin əvvəllərinə qədərki təxminən min beş yüz illik bir dövrdə Avrasiya məkanında geniş yayılmış türk xalqları müxtəlif sivilizasiyalarla təmasda olmuş, bu təmaslar isə onların sosial təşkilatlanmasında, dini dünyagörüşündə və mədəni davranış modellərində açıq və tolerant münasibətlərin formalaşmasına səbəb olmuşdur. Bu baxımdan türk multikulturalizmi həm tarixən formalaşmış sosial praktika, həm də müasir dövrdə dövlət siyasəti səviyyəsinə yüksəlmiş mühüm ideoloji istiqamət kimi qiymətləndirilə bilər.

Tarixi baxımdan türk xalqlarının köçəri və yarımköçəri həyat tərzi onların müxtəlif etnoslarla daimi təmasda olmasını zəruri etmiş, bu isə fərqli dillərə, inanclara və adət-ənənələrə uyğunlaşma qabiliyyətini artırmışdır. Xüsusilə Orta Asiya, Qafqaz, Yaxın Şərq və Şərqi Avropa kimi regionlarda yaşayan türklər Çin, İran, Slavyan və Hind sivilizasiyaları ilə qarşılıqlı əlaqələr quraraq mədəni sintez prosesinə daxil olmuşlar. Məsələn, Böyük İpək Yolu üzərində yerləşən türk dövlətləri yalnız ticarət mərkəzləri deyil, eyni zamanda mədəniyyətlərin qovuşduğu məkanlar olmuş, burada müxtəlif dinlərin – buddizm, maniheizm, xristianlıq və sonradan islamın yanaşı mövcudluğu müşahidə edilmişdir. Dini müxtəliflik türk multikulturalizminin əsas komponentlərindən biri kimi çıxış edir, çünki tarix boyu türk xalqları fərqli dini sistemləri qəbul etmək və onları öz sosial mühitlərinə inteqrasiya etmək qabiliyyəti nümayiş etdirmişlər. Ümumilikdə, orta əsrlər boyunca türklərin ictimai təşkilatlanmasında etnik identiklikdən daha çox dini identikliyin "ümmət" düşüncəsinin prioritet təşkil etməsi müşahidə olunsa da, bu yanaşma dini plüralizmi istisna etməmiş, əksinə, tanrıçılıq, şamanizm, buddizm, xristianlıq, iudaizm və digər inanc sistemlərinin paralel şəkildə mövcudluğuna şərait yaratmışdır. Məsələn, erkən orta əsrlərdə uyğurlar arasında buddizm və maniheizm geniş yayılmış, Xəzər xaqanlığında yəhudilik

dövlət dini kimi qəbul edilmiş, daha sonra isə türk xalqlarının böyük hissəsi islamı mənimsəmişdir. Bu proses göstərir ki, türklər üçün dini identiklik sabit və dəyişməz kateqoriya deyil, əksinə, sosial və siyasi şərtlərə uyğun olaraq transformasiya oluna bilən dinamik bir sistem olmuşdur.

Dil siyasəti və mədəni müxtəliflik də türk dünyasında multikulturalizmin formalaşmasında mühüm rol oynamışdır, çünki tarixən türk dövlətlərində bir neçə dil paralel şəkildə istifadə olunmuş və bu dillər müxtəlif sahələrdə fərqli funksiyalar yerinə yetirmişdir; məsələn, orta əsrlərdə saray və elmi mühitdə ərəb və fars dilləri geniş istifadə olunsa da, xalq arasında türk dilləri gündəlik ünsiyyət vasitəsi olaraq qalmaqda davam etmişdir. Bu çoxdilli mühit həm mədəniyyətlərarası əlaqələrin inkişafına şərait yaratmış, həm də intellektual fəaliyyətin zənginləşməsinə səbəb olmuşdur. Çünki qədim türklər özlərinə məxsus yazı (əlifba) sistemləri yaratmaqla yanaşı, digər xalqlara aid geniş yayılmış yazı mədəniyyətlərini də açıq şəkildə qəbul etmiş və onlardan praktik şəkildə istifadə etmişlər; müxtəlif dilləri yalnız funksional ünsiyyət vasitəsi kimi deyil, həm də mədəni inteqrasiyanın mühüm aləti kimi qəbul etmiş, fərqli xalqlarla onların ana dillərində ünsiyyət qurmağa üstünlük vermiş və bu məqsədlə geniş tərcümə fəaliyyəti həyata keçirmişlər; nəticədə çoxdilli kommunikasiya mühiti formalaşmış və mədəniyyətlərarası əlaqələr güclənmiş; idarəçilik təcrübəsində dil siyasəti inklüziv xarakter daşımış, bu dövlətlərin tərkibində yaşayan müxtəlif xalqların dillərinə qarşı heç bir assimilyasiya yönümlü tədbir həyata keçirilməmiş, əksinə, həmin dillərə hörmətlə yanaşılmış və onların qorunmasına şərait yaradılmışdır; bu isə multikultural cəmiyyət modelinin erkən nümunəsi kimi qiymətləndirilə bilər. Qədim türk xalqlarının yaratdığı "Yaradılış", "Alp Ər Tonqa", "Şu", "Oğuz Kağan", "Siyenpi", "Göytürk", "Ergenekon" və digər əsatir-dastan nümunələri göstərir ki, bu etnos yalnız mifoloji təfəkkürlə kifayətlənməmiş, eyni zamanda "insan və cəmiyyət" münasibətlərini dərin fəlsəfi müstəvidə dərk etməyə çalışan nadir mədəniyyətlərdən biri olmuşdur. Həmin mətnlərdə insanın kosmosdakı mövqeyi, sosial münasibətlərin mahiyyəti və mənəvi dəyərlərin formalaşması kimi məsələlərin kompleks şəkildə əks olunması türklərin geniş idrak potensialını və sistemli düşüncə tərzini nümayiş etdirir, bu isə onların müxtəlif xalqların dini-fəlsəfi irsinə açıq yanaşmasına və bu irsi ardıcıl şəkildə öyrənərək mənimsəməsinə şərait yaratmışdır. Bu baxımdan diqqətəlayiq faktlardan biri ondan ibarətdir ki, görkəmli buddoloq F.İ. Şerbatskoyun qeyd etdiyi kimi, Vasubandhunun məşhur "Abhidharmakoşa" ("Xilasedici biliyin xəzinəsi") əsərinin ən mükəmməl əlyazma variantı orijinal dilində deyil, məhz qədim türk (uyğur) dilinə edilmiş tərcümədə qorunub saxlanılmışdır ki, bu da türklərin qədim dünyanın dini-fəlsəfi sistemlərinə səthi deyil, dərin və analitik maraq göstərdiyini, onları sistemli şəkildə mənimsəməyə çalışdığını və nəticə etibarilə bu yanaşmanın onların multikultural dünyagörüşünün formalaşmasında mühüm rol oynadığını sübut edir. Orta əsrlərin sonu və yeni dövrün əvvəllərinə, yəni müasir türk xalqlarının diferensiasiyası və təşəkkülü mərhələsinə qədərki dövrdə formalaşmış türk dövlətləri - Səlcuqlar, Qızıl Orda, Teymurilər, Səfəvilər, Osmanlılar və digər siyasi qurumlar öz idarəçilik modellərinə görə multikulturalizm və tolerantlıq prinsiplərinin praktik nümunələri kimi çıxış etmişdir. Belə ki, bu dövlətlərdə yaşayan müxtəlif etnik və dini qrupların dilinə, inancına və adət-ənənələrinə sistemli və ya institusional müdaxilə hallarına rast gəlinməməsi onların inklüziv idarəetmə fəlsəfəsini əks etdirir. Saray mühitində müşahidə olunan çoxdilli və çoxmədəniyyətli struktur bəzi tədqiqatçılar tərəfindən tənqidi qiymətləndirilsə də, xüsusilə ərəb və fars dillərinin geniş istifadə olunması həmin dövrün ümumislam mədəni məkanında inteqrasiya zərurəti ilə bağlı olmuşdur və bu hal siyasi və mədəni konsolidasiyanın təmin edilməsinə xidmət etmişdir. Nəticə etibarilə, müsəlman türklərin digər dinlərə qarşı nümayiş etdirdiyi tolerant münasibət bu dövrün multikultural mühitinin əsas xüsusiyyətlərindən biri kimi çıxış etmiş və müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri üçün əlverişli zəmin formalaşdırmışdır.

Müasir dövrdə türk dünyasında multikulturalizm daha çox dövlət siyasəti və beynəlxalq münasibətlər kontekstində aktualdır, xüsusilə Azərbaycan, Türkiyə və Qazaxıstan kimi ölkələrdə multikulturalizm sosial sabitliyin və milli təhlükəsizliyin vacib elementi kimi təqdim olunur; məsələn, Azərbaycanda müxtəlif etnik və dini qrupların hüquqlarının qorunması, dini azadlıqların təmin edilməsi və mədəni müxtəlifliyin təşviqi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Eyni zamanda beynəlxalq

platformalarda mədəniyyətlərarası dialoqun təşviqi, forumların və konfransların təşkili türk dünyasının multikultural dəyərlərə verdiyi önəmi nümayiş etdirir.

Bununla yanaşı, müasir qloballaşma şəraitində multikulturalizm yeni çağırışlarla da üzləşir, çünki miqrasiya proseslərinin sürətlənməsi, milli identiklik məsələlərinin aktuallaşması və geosiyasi gərginliklər müxtəlif cəmiyyətlərdə sosial tarazlığı poza bilər; bu baxımdan türk dünyasında multikulturalizmin davamlılığını təmin etmək üçün həm tarixi təcrübədən istifadə etmək, həm də müasir idarəetmə mexanizmlərini inkişaf etdirmək zəruridir. Xüsusilə təhsil, mədəniyyət və hüquq sahələrində inklüziv siyasətlərin həyata keçirilməsi müxtəlif qruplar arasında qarşılıqlı etimadı gücləndirə bilər.

Nəticə

Nəticə etibarilə, türk dünyasında multikulturalizm anlayışı çoxqatlı tarixi inkişaf prosesinin məhsulu kimi formalaşmışdır və bu proses müxtəlif coğrafi məkanlarda baş verən mədəni, dini və sosial qarşılıqlı təsirlərin davamlılığı ilə səciyyələnir. Minilliklər boyunca türk toplumlarının müxtəlif sivilizasiyalarla təmasda olması onların sosial uyğunlaşma qabiliyyətini gücləndirmiş, fərqli mədəniyyətlərə açıq və inteqrativ münasibət formalaşdırmışdır. Dini müxtəlifliyin tarixən paralel şəkildə mövcudluğu və dəyişən şəraitə uyğun çevik münasibət, eləcə də çoxdilli mühitin idarəçilik və mədəni inkişafda oynadığı rol bu ənənənin əsas dayaqlarını təşkil etmişdir. Orta əsr türk dövlətlərinin idarəetmə təcrübəsi isə etnik və dini müxtəlifliyin müəyyən səviyyədə qorunmasına əsaslanan praktik model kimi çıxış etmişdir. Müasir mərhələdə isə bu tarixi təməl dövlət siyasəti səviyyəsində davam etdirilərək multikulturalizm sosial sabitlik və mədəni inteqrasiya vasitəsi kimi aktuallıq qazanmışdır. Bununla yanaşı, qloballaşma şəraitində yaranan yeni sosial dinamika multikultural dəyərlərin qorunmasını və inkişafını daha sistemli yanaşmalarla təmin etməyi zəruri edir. Beləliklə, türk dünyasında multikulturalizm həm tarixi təcrübənin davamı, həm də müasir sosial reallıqlara uyğunlaşan dinamik bir model kimi çıxış edir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Jafarov Nizami. The modern problems of turkology. - Türkologiya, 2015, № 3, s. 81-96.
2. Мамедов Фуад. Культурология. Культура. Цивилизация, Баку, 2015.
3. Prof. Dr. Tofiq Hacıyev. Türklük biliminde bir ömür kitabi, Ankara, 2016.

MULTICULTURALISM IN THE TURKIC WORLD: HISTORICAL ROOTS AND CONTEMPORARY REALITIES

Shenay Ismayilova

Multiculturalism in the Turkic world is a historically rooted phenomenon shaped by long-term cultural, geographical, and social interactions across Eurasia. From ancient times, Turkic peoples maintained contact with diverse civilizations, which fostered openness, tolerance, and adaptability in their social and cultural systems. Their nomadic lifestyle enabled continuous interaction with different ethnic groups, contributing to the coexistence of multiple religions such as Buddhism, Christianity, and Islam. This diversity was further reflected in the governance of major Turkic states, including the Seljuks and Ottomans, where inclusive administrative practices ensured the protection of linguistic and religious pluralism. Multilingualism and cultural exchange enriched intellectual life and strengthened intercultural dialogue. In the modern era, multiculturalism has become an important element of state policy in countries like Azerbaijan and Türkiye. Despite contemporary challenges posed by globalization, the Turkic model of multiculturalism remains a significant example of peaceful coexistence and sustainable intercultural integration.

Keywords: *Multiculturalism, Turkic world, cultural diversity, religious tolerance, ethnic interaction.*



Naşir: *fil.ü.f.d. Səbuhi Qəhrəmanov*
Kompüter tərtibçisi: *Ramil Əzizov*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x90 $^{1}/_{8}$
Həcmi 39,5 ç.v.
Tirajı 300

Ünvan: Bakı şəh. İstiqlaliyyət küç., 28